**ARAZ YAQUBOĞLU**

# DAŞKƏNDDƏN YENİ DAŞKƏNDƏ

*Kitab Yeni Daşkənd kəndinin 70 illik yubileyinə ithaf olunur.*

**“Elm və təhsil”**
**BAKI – 2023**

Rəyçilər:
**Əziz Ələkbərli**
*Milli Məclisin deputatı,*
*Qərbi Azərbaycan İcmasının sədri*

**Zahid Oruc**
*Milli Məclisin deputatı,*
*Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri*

Elmi redaktor:
**Nazim Mustafa**
*Prezident Kitabxanasının şöbə müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

Redaktor:
**Qaşqay Ziyəddinoğlu**
*jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru*

Ön sözün müəllifi:
**Lütfiyar Nəsibov**
*yazıçı-publisist,*
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*

**Araz Yaquboğlu. Daşkənddən Yeni Daşkəndə.**
**Bakı, "Elm və təhsil", 2023. 480 səh. (+64 səh. şəkil)**

Kitab 2023-cü ildə əsasının qoyulmasının, deportasiya olunmasının 70 ili tamam olan Yeni Daşkənd kəndinin tarixindən, əhalisindən, o cümlədən tanınmış ziyalılarından, qəhrəman övladlarından, qələm sahiblərindən bəhs edir.

**ISBN 978-9952-568-22-6**

**A.Yaquboğlu, 2023**
**"Elm və təhsil", 2023**

## ÖN SÖZ

Ölkəmizin yurdsevər aydınlarından olan, onlarca elmi və publisistik məqalənin, kitabın müəllifi, mahir qələm ustası, Qədim Göyçəmizlə bağlı ensiklopedik biliyə malik, vikipediyaçı, tədqiqatçı-jurnalist Araz Yaquboğlunun Yeni Daşkənd kəndinin 70 illik yubileyinə həsr olunan "DAŞKƏNDDƏN YENİ DAŞKƏNDƏ" kitabı böyük və gərgin bir əməyin məhsuludur. Kitab 1953-cü il may ayının 18-də Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndindən, öz doğma ata-baba torpaqlarından deportasiya edilən 130 ailənin Bərdə rayonunda yenidən qurduqları Yeni Daşkəndin tarixindən, sakinlərindən bəhs edir. Belə ki, bu kitab yük maşınlarında, böyük zülm və əziyyətlə əvvəlcə Zəngibasar rayonundakı Uluxanlı stansiyasına, oradan yük vaqonlarında Yevlax dəmiryol stansiyasına, sonra isə yük maşınları ilə Bərdə rayonunun "Yeddi çinar" deyilən ərazisinə gətirilən əhalinin Bərdə rayonunun Şatırlı, İmamqulubəyli, Zümürxaç və Tərtər rayonunun Sarıcalı kəndləri aralığında saldıqları Yeni Daşkəndin 70 illik tarixinə, bu tarixi yaradan insanlara, onların həyatına həsr olunmuş sanballı, özəl dəyəri ilə fərqlənən tədqiqat işidir. Kitab özəl dəyərləri ilə ona görə fərqlənir ki, Ulu Göyçənin 2500 ildən çox yaşı olan Daşkənd kəndindəki insanların dolğun maddi-mənəvi həyatının, ənənələrinin deportasiyadan sonrakı 70 il ərzində Yeni Daşkənddə bərpa edilməsi, qorunub saxlanılması və inkişaf etdirilməsi orada öz əksini tapır.

Oxucuların mühakiməsinə verilən bu kitabda müəllif özünəməxsus məharətlə Göyçə mahalının, Daşkənd kəndinin tarixini, bir əsrdə dəfələrlə həyata keçirilən deportasiyaları zaman çərçivəsində diqqətə çatdırır. Bu tədqiqat işində geniş informasiyaların daşıyıcıları olan yaşlı nəslin iştirakı, toplanmış məlumatların daha da maraqlı, oxunaqlı, obyektiv olması, gənc və yaşlı nəsil arasındakı əlaqələrin davamçılığını daha da möhkəmləndirməsi baxımından əhəmiyyətlidir.

Keçən əsrin əvvəllərində dünya işlərinin gedişatı elə şəkil aldı ki, gücümüz yetməyən böyük dövlətlərin, ilk sırada Rusiyanın qayçısı

öncə bizim əzəli torpaqların xəritəsində köndələn uzanmış bir "Ermənistan" biçdi, sonra onu tədricən böyütməyə, dirçəltməyə başladılar. O vaxtlar elə bir fitnə-fəsad yuvası formalaşdırdılar ki, bu gün dönüb onların Qafqaz siyasətini iflasa uğratdı, qonşulara isə baş bəlası oldu. Böyük dövlətlər öz aralarında bir-biri ilə nə qədər rəqabət aparsalar da, erməniçiliyə havadarlıqda hər zaman həmrəy oldular. 1988-ci ildə Ermənistan SSR-in əzəli və köklü türk əhalisi sivil dünyanın gözü qarşısında öz ata-baba yurdlarından son nəfərinə qədər deportasiya ediləndə də, hər zaman insan haqlarından danışanlar beynəlxalq hüququn müddəalarını belə gözardı edərək, bu antibəşəri aksiya qarşısında susdular və bu gün də seyrçi qalmaqdadırlar.

1918–1920-ci illərdə xalqımızın başına gətirilənlər, cildini dəyişmiş şəkildə 1948-ci ildə bir də təkrarlandı. Ancaq tam alınmadı. Mənfur erməni aradan 40 il ötəndən sonra – 1988-ci ildə "Türksüz Ermənistan" niyyətini açıqca gerçəkləşdirdi. Bu, ovaxtkı sovet rəhbərliyinin və bu gün də pul-para müqabilində erməniçiliyin yanında yer alanların vicdanlarına yazılmış ən çirkli, antibəşəri aksiyalardan biri idi.

O vaxt dirənişə gücümüz yetmədi. Bəlkə də yetərdi, bunu təşkil edə bilən siyasi qüvvə, təşkilat, ideoloji dəstək ortada yox idi. Gücümüz yalnız ona yetdi ki, bunu "oldu-bitdi" deyə sinirmədik. Biz bu haqsızlıqla heç cür barışmadıq. Bunu tarixin ironiyası hesab edir və mücadiləmizi bacardığımız qədər sürdürürük. 44 günlük Zəfər yürüşündən sonra əzəli torpaqlarımıza yenidən sahiblənmək əzmi bizi daha da ruhlandırdı, qəlbimizdəki ümid çıraqları yenidən yandı. Məhz buna görə də, Prezidentimiz cənab İlham Əliyevin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının fəaliyyəti tam bu məqsədə yönəldilib və səbirsizliklə qayıdış gününü gözləyirik. Hər halda, biz inadla, mübarizəmizi axıra qədər davam etdirəcək və hədəfimizə doğru yürüyəcəyik. Bu kitabda qoyulan fikirlər də məhz belə bir nəcib qayədən doğulub.

Yazılanları oxuduqca, Göyçənin keçmişinə ekskursun fonunda 1988-ci ilin fəlakətinə gətirən yolları addım-addım yenidən keçib gəlirik. Son 200 ildə Azərbaycan türkünün başına gələn bütün bəla-

ların təməlinin Çar Rusiyasının Qafqazdakı ekspansiyası ilə qoyulduğunu bir daha əyani şəkildə izləyə bilirik. Göycə mahalında baş vermiş məlum qanlı hadisələrin Daşkənd kəndindən də yan ötmədiyini canlı şahidlərin dilindən yazıya alınmış materiallarda oxuya bilirik.

Yeni Daşkəndin təsərrüfat sahələri, məişət həyatı, kənd camaatının günü-güzəranı, mətbəxi, mayası saflıqdan yoğrulmuş adət-ənənələri, toy-düyünləri, eləcə də yas mərasimləri, təhsilin, səhiyyənin vəziyyəti bu kitabda peşəkar səriştəsi ilə təqdim olunur.

Kitaba nəzər yetirəndə, Göyçə gölünün yaxasında, qosqoca dağlarımızın ətəyində yerləşən Daşkənd kəndində əsrlər boyu hökm sürən qurub-yaratma mühitinin Yeni Daşkənd kəndində də hakim olduğunun şahidi oluruq. Elm və təhsili hər şeydən üstün tutan kənd sakinlərinin ölkəmizə töhfə etdiyi yüzlərlə dəyərli aydınlar, müxtəlif peşə sahibləri olan əməksevər insanlar, igid hərbçi oğullar, saza-sözə söykənən mənəvi dünyanın tanınmış simaları haqda bu kitabda geniş şəkildə məlumatlarla tanış oluruq. Yeni Daşkənd kənd orta məktəbi, onun fədakar müəllimləri, səsi-sədası dünyanın hər bucağından eşidilən məzunların nailiyyətləri, uğurları haqqında yazılanlar heyrət doğuran intellektual mənzərə yaradır. Kitabda kəndin tarixi şəxslərinə, elm xadimlərinə, dövlət nümayəndələrinə və ustad sənətkarlarına geniş yer verilməsi də məhz yuxarıdakı fikrimizin sübutudur.

Mövzuya "heç nə unudulmasın, heç nə yaddan çıxmasın" prinsipi ilə yanaşan müəllif İkinci Dünya müharibəsində iştirak etmiş daşkəndlilərin hər biri haqqında Rusiya arxivlərindən əldə edilmiş bilgiləri olduğu kimi təqdim etməklə, faydalı bir iş görmüşdür.

Ən nəhayət, "Daşkənddən Yeni Daşkəndə" kitabı Qərbi Azərbaycandan deportasiyanın mənəvi əzablarını yaşamış hər kəsi bir daha dərindən düşünməyə məcbur edəcək. Bu gün kosmosdan çəkilən fotoşəkillərdən aydın görünür ki, ermənilər o kəndləri hələ də tam məskunlaşdıra bilməyiblər və nəticədə yarımxaraba vəziyyətə salıblar. Mənfur düşmən çox yaxşı bilir ki, Göyçə mahalı, o cümlədən

Daşkənd kəndi onların deyil, o torpaqların bu tərəfdə məqam gözləyən gerçək sahibləri var.

Əminliklə qeyd edə bilərik ki, deportasiyadan sonra daşkəndlilər nə qədər geniş bir coğrafiyaya səpələnmiş olsalar da, bu kitab onların arasındakı qohumluq və həmyerlilik bağlarının zəifləməsinə, yeni yetişən gəncliyin doğma mənəvi mühitdən uzaq düşməsinə yol verməyəcək, ona tarixi düşmənin simasını daha yaxşı tanıdacaq, tarixi yurdlara yenidən sahiblənmək əzmini, qətiyyətini möhkəmlədəcək, yeni nəsli bu hədəfə kökləyəcəkdir.

Sonda qeyd etmək istərdim ki, bu qəbildən olan kitablar elmi təfəkkürü, araşdırma səriştəsi, ictimai rəylə işləmək bacarığı olanların qələmindən çıxdığı üçün ciddi mənbə və oxunaqlı, mükəmməl əsər kimi ünvanlanan auditoriyanın kitab rəfində özünə layiqli yer tapacaq. Müəllifin öz doğma kəndinə həsr olunan qələm işinə böyük həvəs və istəklə yanaşdığına da şübhə yeri yoxdur. Araz Yaquboğlu bu işin öhdəsindən səviyyəli şəkildə gəldiyi üçün ona dərin ehtiram və təşəkkür etmək əsas borcumuzdur.

**Lütfiyar Nəsibov,**
***yazıçı-publisist,***
***iqtisadiyyat üzrə fəlsəfə doktoru***

# DEPORTASİYA

## 1948–1953-cü illər[1]

1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası son 200 ildə soydaşlarımızın başlarına gətirilən faciələr silsiləsinin bir həlqəsidir. Deportasiya və yaxud əhalinin zorakılıqla miqrasiyası sovet hakimiyyəti illərində müxtəlif üsullarla həyata keçirilən siyasi repressiyanın xüsusi forması idi. Etnik təmizləmə məqsədini güdən bu aksiya həm administrativ xarakter daşıdığı üçün, həm də Ermənistanda yaşayan xalqlardan yalnız birinə – azərbaycanlılara şamil edildiyi üçün siyasi repressiya kimi xarakterizə edilməlidir.

1948–1953-cü illər deportasiyasının səbəblərini müəyyən etmək üçün həmin dövrdə gedən proseslərə nəzər salmaq lazımdır.

İkinci Dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə ilə münasibətləri həddindən artıq kəskinləşmişdi. 1945-ci il martın 19-da SSRİ hökuməti hələ 17 dekabr 1925-ci ildə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etmişdi.

Müharibədən qalib çıxan SSRİ-nin öz sərhədlərini genişləndirmək siyasəti müharibədən sonra formalaşmağa başlayan Stalin-Molotov doktrinasının əsasını təşkil edirdi. 1945-ci il iyunun 7-də SSRİ xalq xarici işlər komissarı V. Molotov Qars və Ərdahanın SSRİ-yə qaytarılması haqqında Sovet hökumətinin tələblərini elan etmişdi. Belə bir məqamda ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin sərhədlərini genişləndirmək planları üst-üstə düşürdü. SSRİ-nin Türkiyədən qopartmaq istədiyi əraziləri məskunlaşdırmaq problemi qarşıya çıxmışdı. Sovet rəhbərliyi bu problemi xaricdə yaşayan Türkiyə əsilli ermənilərin hesabına həll etmək niyyətində idi.

[1] Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın "1948–1953-cü illər deportasiyasının bəzi məqamları" adlı məqaləsindən ixtisarla.

1945-ci il mayın 15-də Ermənistan Kommunist Partiyasının 1-ci katibi Q. Arutyunov məktubla İ. Stalinə müraciət edərək xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qaytarılmasını xahiş edir. Ermənistana köçürülüb gətiriləcək ermənilərin mənzil problemlərinin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi yolu ilə həll edilməsi nəzərdə tutulurdu.

1945-ci il noyabrın 21-də SSRİ Xalq Komissarları Soveti "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edir.

1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilmişdi. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən köçürülən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ermənistan rəhbərliyi xaricdən gələn erməniləri qəsdən dəmiryol stansiyalarında saxlatdırır, onlar arasında təbliğat aparırdı ki, əgər İrəvanın ətraf rayonlarında yerləşdirilməsələr, geriyə – xaricə qayıtmaq haqqında Moskvaya teleqramlar vursunlar. Onlar bütün bunların Sovet hökumətinin xarici ölkələrdə nüfuzuna mənfi təsir edəcəyini İ. Stalinin nəzərinə çatdırdılar. Xaricdən isə hər gün Ermənistana köçmək arzusunda olan minlərlə ermənilərin siyahısı Moskvaya təqdim edilirdi.

1947-ci il dekabrın 23-də İ. Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 nömrəli qərarını imzaladı.

Həmin qərarda göstərilirdi ki, 1948–1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına

köçürülsün. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər.

23 dekabr 1947-ci il tarixli qərarda azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarından köçürülmələrinin səbəbi göstərilməmişdi. Yalnız qərarın 10-cu maddəsində Ermənistan və Azərbaycan Nazirlər Sovetlərinə tapşırılırdı ki, həmin qərarın yerinə yetirilməsi üçün bir ay müddətində konkret tədbirlər planı hazırlasınlar və SSRİ Nazirlər Sovetinə məruzə etsinlər.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 2 fevral tarixli qərarına əsasən 1948-ci ildə Ermənistandan köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirməyi planlaşdırır. Qərarda Salyan, Saatlı, Sabirabad, Əli-Bayramlı, Puşkin, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə tapşırılır ki, 1948-ci il fevralın 15-dək köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq, onları lazımi nəqliyyat vasitəsilə təmin etmək, yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları aşkar etmək və uçota götürmək, kolxozlarda köçürülmə ilə əlaqədar geniş izahat işləri aparılsın.

10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq, İ. Stalinin imzası ilə 754 nömrəli ikinci qərar qəbul etmişdi. Bu qərarda isə köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan nazirlər sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu.

Həmin qərarların icrası ilə əlaqədar 1948-ci il iyulun 9-da Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V.Molotova məktubla müraciət edir ki, köçürülənlərin qəbulu üçün hazırlıq işlərinin qeyri-qənaətbəxş olma-

sını, azərbaycanlıların əsasən Ermənistanın dağlıq rayonlarında yaşamalarını, Kür-Araz ovalığı rayonlarında yaşayış evlərinin olmadığını, torpağın yararlı hala salınmadığını nəzərə alaraq, Ermənistan azərbaycanlılarının yaşayış üçün daha əlverişli olan zonalara köçürülməsinə icazə verilməsini xahiş etmişdi. O, təbii iqlim şəraiti, iqtisadi potensialı və ciddi işçi qüvvəsinə ehtiyacı olan üç qrup rayona köçürülməni təklif etmiş və bunu aşağıdakı kimi əsaslandırmışdı:

1. Kür-Araz ovalığının qərb rayonlarına, o cümlədən Qasım İsmayılov, Səfərəliyev, Tovuz, Qazax və Ağstafa rayonlarına (heyvandarlığın, pambıqçılığın və əkinçiliyin sürətli inkişafını təmin etmək üçün).

2. Xaçmaz, Dəvəçi, Xudat, Qusar və Quba rayonlarına (Bakı şəhərini meyvə-tərəvəzlə təmin etmək üçün).

3. Gədəbəy (kartof istehsalını artırmaq üçün) Zaqatala, Qax, Nuxa, Vartaşen və Qutqaşen rayonlarına (əkinçilik və heyvandarlığın inkişafı üçün).

Lakin SSRİ Nazirlər Soveti T.Quliyevin xahişinə məhəl qoymamışdı.

Ermənistandan köçürüləcək əhali arasında təbliğat aparmaq, onların köçürülməsini sürətləndirmək, yerlərdə qarşıya çıxacaq problemləri həll etmək məqsədilə 25 nəfərdən ibarət qrup Ermənistana göndərilmişdi. Ermənistanda da dövlət komissiyası yaradılmışdı. Komissiyanın tərkibinə həmin dövrdə Ermənistanda rəhbər vəzifələrdə işləyən azərbaycanlılar da daxil edilmişdi. İrəvan şəhəri Spandaryan rayon Soveti İcraiyyə Komitəsinin sədri Rza Şeyxzadə, Qarabağlar rayon komitəsinin katibi İbiş Abbasov, "Sovet Ermənistanı" qəzetinin redaktoru Cəfər Vəlibəyov, Keşişkənd (Mikoyan, sonralar Yeğeqnadzor) rayon partiya komitəsinin ikinci katibi Əziz Cəfərov, Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayev həmin komissiyanın üzvü kimi əhali arasında təbliğat işi aparmağa təhkim edilmişdilər. Komissiya üzvləri köçürülməsi nəzərdə tutulan kəndlərdə olur, bu qərarın icrasının məcburiliyini xalqa başa salır, Azərbaycanda yerləşdirilməsi nəzərdə tutulan rayonlara nümayən-

dələr göndərir, Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə məsələləri ilə əlaqədar Ermənistan SSR-də yaradılan nümayəndəliyinin əməkdaşları ilə məsləhətləşmələr aparırdılar. İrəvan Pedaqoji Texnikumunun və İrəvan Pedaqoji İnstitutunun təhsil Azərbaycan dilində olan fakültələrinin Azərbaycana köçürülməsinə yardım etmək üçün Azərbaycan Pedaqoji İnstitutunun rektoru A.Seyidov, şair və ədəbiyyatşünas alim Cəfər Xəndan da Ermənistana göndərilmişdilər.

Köçürülmə işlərinin vəziyyəti ilə yerlərdə tanış olmaq və onu vaxtında başa çatdırmaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev və digər məsul şəxslər Ermənistana gəlmiş, köçürülməsi nəzərdə tutulan kəndlərin əhalisi ilə görüşmüş, onlar üçün Azərbaycanda lazımi şərait yaradılmasına, mənzillə, həyətyanı torpaq sahəsi ilə, ev heyvanları ilə təmin ediləcəklərinə zəmanət vermişdilər. Eyni zamanda Azərbaycandan gəlmiş nümayəndə heyəti Azərbaycanın daxili imkanlarının məhdudluğunu nəzərə alaraq, köçürülmə prosesinin tədricən həyata keçirilməsini Ermənistan rəhbərlərindən xahiş etmişdi.

Plana əsasən 1948-ci ildə Ermənistandan 11.244 nəfər (2.278 təsərrüfat) köçürülməli idi. O cümlədən, yazda 6350 nəfər (1.159 təsərrüfat), payızda isə 4884 nəfər (1119 təsərrüfat) köçürülməli idi. Həmin ildə Ermənistan SSR-in Artaşad, Basarkeçər, Eçmiədzin, Noyemberyan, Hoktemberyan, Beriya, Vedi, Zəngibasar, Kotayk rayonlarından və İrəvan şəhərinin özündən azərbaycanlıların köçürülməsi nəzərdə tutulmuşdu.

Köçürülməsi nəzərdə tutulan və tutulmayan rayonlardan müxtəlif təzyiqlərə məruz qaldıqları üçün pərakəndə halda Azərbaycana köçənlər də olmuşdu.

Rəsmi məlumata görə, 1948-ci ildə Ermənistandan Azərbaycana 2357 ailə (11046 nəfər) gəlmişdir. Lakin köçürülənlərin əksəriyyəti SSRİ Nazirlər Sovetinin qərarlarında göstərildiyi kimi, mənzillə təmin edilməmiş, köçürülənlər üçün nəzərdə tutulan imtiyazlar kağız üzərində qalmışdı. Köçürülmənin birinci ilində əhalinin əksəriyyəti

qaramal tövlələrində, yaşamaq üçün yararsız olan uçuq-sökük ictimai binalarda yerləşdirilmişdi.

Vəziyyətin dözülməz olduğunu nəzərə alaraq, 1949-cu il sentyabrın 21-də Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il köçürülmə planı 12–15 min nəfərə endirilsin. Lakin SSRİ Nazirlər Soveti planda nəzərdə tutulan 40 min nəfərin köçürülməsini təkidlə tələb etmişdi. 1949-cu ilin oktyabr ayına olan məlumata görə, Ermənistandan 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı birləşdirən 6000 nəfərə isə köçürülmə biletləri verilmişdir. Hətta Ermənistanda benzin çatışmadığından köçürmə planını vaxtında yerinə yetirmək məqsədilə Azərbaycan öz yanacaq fondundan əhalini dəmiryol stansiyalarına gətirmək üçün 60 ton benzin ayırmışdı. 1949-cu il dekabrın 2-nə olan məlumata görə, Ermənistandan 2368 təsərrüfat (10595 nəfər) köçürülmüşdür. Köçürülənlər əsasən Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, İmişli, Sabirabad, Jdanov, Yevlax, Ucar, Saatlı rayonlarında yerləşdirilmişlər.

Həmin ildə Əzizbəyov, Axta, Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Kotayk, Spitak, Dilican, Abaran, Gorus, Kalinino, Martuni, Nor-Bayazid, Beriya, Allahverdi, Hoktemberyan, Eçmiədzin, Amasiya və Kirovakan rayonlarının müəyyən qisim azərbaycanlı əhalisi deportasiyaya məruz qoyulmuşdu.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948–1949-cu illərdə Ermənistan SSR-dən 4674 təsərrüfat (təqribən 20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Həmin qərarda qeyd edilmişdi ki, iki ildə köçürülələr üçün cəmi 80 təzə ev tikilmişdir.

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 3419 ailənin (13361 nəfər) köçürülməsi haqqında qərar qəbul etsə də, faktiki olaraq, rəsmi və qeyri-rəsmi köçürülmələrin sayı nəzərdə tutulduğundan xeyli artıq olmuşdu, 1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, faktiki isə 470 ev tikilmiş, 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin edilməmişdi.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından mümkün qədər sürətlə çıxarılmasını təmin etmək üçün Ermənistan hökumətinin ən qəddar üsullara əl atdığını həmin dövrün rəsmi sənədlərindən də görmək olar. Ermənistandan azərbaycanlıların köçürülmə məsələləri üzrə Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəsi Əliyevin Ermənistan SSR Nazirlər Soveti yanında Köçürülmə İdarəsinin rəisi Karapetyana və Nazirlər Soveti sədrinin müavini Piruzyana ünvanlanmış 28 noyabr 1949-cu il tarixli məktubunda qeyd edilirdi: "Son zamanlar Amasiya, Spitak və Vedi rayonlarının ayrı-ayrı təşkilatları köçürülmə barədə sənədlərin tam rəsmiləşdirilməsini, kolxozçuların köçürülməyə razılıq vermələrini gözləmədən, təsərrüfatları köçürmək üçün sürətli hazırlıq işləri aparırlar. Həmin təşkilatlar bu təsərrüfatların əmlakını bölüşdürür, kolxozları məcbur edirlər ki, yemi satsınlar və hətta nə vaxt yola düşəcəklərini göstərsinlər. Onlar kolxozçuların bu və ya digər rayona köçürülmək arzusunda olub-olmaması ilə hesablaşmırlar, halbuki hökumətin köçürülmə barədə qərarına əsasən, kolxozçuların nümayəndələri köçürüləcəkləri yerləri qabaqcadan görüb baxmalı və öz istəklərinə uyğun yerlər seçməlidirlər. Köçürülmə qaydalarının bu cür pozulması isə kolxozçuları məcbur edir ki, onlar yuxarı təşkilatlara şikayət etsinlər, onların köçmək istəmədikləri rayonlara köçürülmələrindən narazı olduqlarını bildirsinlər".

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev SSRİ Nazirlər Soveti qarşısında vəsatət qaldırmışdı ki, sonrakı illərdə köçürmə planı aşağıdakı kimi müəyyən edilsin: 1951-ci ildə 10000 nəfər, 1952-ci ildə 20000 nəfər, 1953-cü ildə 20000 nəfər, 1954-cü ildə 15000 nəfər. Lakin 1951-ci ildə 911 təsərrüfat (3714 nəfər), 1952-ci

ildə 1257 təsərrüfat (5512 nəfər), 1953-cü ildə 1898 təsərrüfat (8254 nəfər) köçürülmüşdü.

1948–1953-cü illərdə Göyçənin 10 min nəfərdən artıq azərbaycanlı əhalisi Azərbaycanın müxtəlif bölgələrinə köçürülmüşlər.

1948–1953-cü ildə Basarkeçər rayonundan köçürülən azərbaycanlı kəndlərinin siyahısı:

1. Zod (Sotk – 1991) – qismən
2. Daşkənd (Hayrik – 1991) – qismən
3. Yuxarı Zağalı (Axpradzor – 1978)
4. Çaxırlı (Sovetakert – 1978)
4. Qanlı (ləğv edilib)
6. Qızılvəng ( Çiçəkil, Makenis – 1978)
7. Kərkibaş (Şəfəq, Vanevan – 1991)
8. Yarpızlı (Liçavan – 1967)

SSRİ Nazilər Sovetinin yuxarıda adları çəkilən qərarlarının icra edilməsinin məcburiliyi ona gətirib çıxarmışdı ki, Ermənistanda deportasiya edilənədək mülayim iqlim şəraitində yaşamış, təmiz bulaq suyu içməyə adət etmiş əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən məhv olmuşdur.

1951-ci ilin əvvəlindən etibarən, Azərbaycanda açıq səma altında qalan, tövlələrdə yerləşdirilən əhalinin bir hissəsi ağır şəraitə dözməyib Ermənistana – öz kəndlərinə qayıtmağa məcbur olurlar. İyunun 1-nə kimi 217 təsərrüfat geri qayıdır. Geri qayıtmaların kütləvi şəkil almağından qorxuya düşən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Halbuki, xaricdən gələn erməniləri yerləşdirmək adı altında Azərbaycana köçürülən kəndlərin bir çoxu hələ də boş qalırdı.

Hələ 1947-ci il mayın 22-də Ermənistan KP MK-nın birinci katibi Q.Arutyunov Stalinə göndərdiyi məktubunda göstərmişdi ki, xaricdən gətirilən ermənilərin 300 nəfəri artıq geri qayıdıb, 21 nəfər sərhədi keçərək Türkiyəyə qaçıb, 110 nəfər isə sərhədi keçmək istəyərkən ya-

xalanıblar. Q.Arutyunov "qaxtağan"ların Ermənistanı tərk etmələrini iqtisadi problemlərlə izah edirdi.

1953-cü ildə İ.Stalinin ölümündən sonra Ermənistandan türklərin köçürülməsinin sürəti azalır və əhalinin geriyə qayıtma prosesi sürətlənir.

Sonradan köçürülənlərin bir qisminin geri qayıtmalarına və onların hələ də boş qalan kəndlərində yenidən məskunlaşmasına şərat yaradanlar da məhz deportasiyadan yayınaraq, Ermənistanda qalan azərbaycanlı kəndlərinin əhalisi olmuşdur. Onlar hər şeylərini itirərək, geri qayıdan əhaliyə hər cür maddi və mənəviköməklik göstərir, onların təsərrüfat qurması üçün öz imkanlarını onlarla bölüşürdülər. Geri qayıdan əhaliyə qarşı Ermənistan hökumətinin hər cür iqtisadi sanksiyalar tətbiq etməsinə baxmayaraq, əhalinin böyük əksəriyyəti öz kəndlərində və ya əgər onların evlərinə ermənilər yerləşdirilmişdisə, qonşu türk kəndlərində yenidən məskunlaşmağa başlamışdılar. Beləliklə, Ermənistandan deportasiya və miqrasiya prosesi 1957-ci emədək davam etmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürülmə üzrə Baş İdarənin məlumatına görə, 1954-cü ildə 749 təsərrüfat (3368 nəfər), 1955-ci ildə 207 təsərrüfat (965 nəfər), 1956-cı ildə 360 təsərrüfat (1543 nəfər) deportasiya edilmişdir.

Araşdırmalar göstərir ki, azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından köçürülməsi (deportasiyası) haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində, qərar zorakı üsullarla həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200-dən artıq yaşayış məntəqəsindən) 100 mindən artıq azərbaycanlı deportasiya edilmişdir.

Prezident Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman xalqımıza qarşı siyasi qərarla həyata keçirilən bu tarixi cinayətə

hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məqsədini daşıyırdı. Cəmi iki bənddən ibarət olan bu fərmanın 1-ci bəndinə əsasən, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyanın hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılmışdır. Sənədin 2-ci bəndində isə Nazirlər Kabinetinə tapşırılır ki, fərmanın icrası ilə bağlı məsələləri həll etsin. Çox təəssüf ki, indiyədək bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi məsələsi həll edilməmişdir. Beynəlxalq ictimaiyyət hələ də Azərbaycan xalqının başına gətirilən bu faciənin miqyasından xəbərsizdir.

**Mənbə:** Nazim Mustafa. 1948–1953-cü illər deportasiyasının bəzi məqamları // "Xalq qəzeti", 6-7. 01. 2009 // http://nazimmustafa.info/?p=240

## SSRİ NAZİRLƏR SOVETİ
**Qərar № 4083**
**23 dekabr 1947-ci il**
**Moskva, Kreml**

### Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında

*əlavə 10/ III- 48-ci il. № 754*

**SSRİ Nazirlər Soveti qərara alır:**

1. 1948–1950-ci illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına könüllülük əsasında 100 min kolxozçu və digər azərbaycanlı əhalisi, onlardan: 10 min nəfər 1948-ci ildə, 40 min nəfər 1949-cu ildə və 50 min nəfər 1950-ci ildə köçürülsün.

2. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın: a) kolxozçular və digər azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülənlərə dövlət tərəfindən təqdim edilən şəraitin və güzəştlərin izah edilməsini təşkil etsinlər; b) köçürülən kolxozçularla onların getməsinə 10 gün qalmışdan gec olmayaraq işlənmiş əmək günləri üzrə kolxozların istehsal planlarında nəzərdə tutulmuş miqdarda tam hesablaşmanı təmin etsinlər; c) köçürülənlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınmasını təmin etsinlər.

3. Nazirliklərin və idarələrin, təsisatların və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən şəxsləri işdən azad etsinlər.

4. Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhali üçün aşağıdakı imtiyazlar müəyyən edilisin: a) köçürülmələrə dövlət hesabına ödənişsiz gediş, hər ailəyə 2 tona qədər miqdarda mal-qara və əmlak aparılması imkanı verilsin; b) Azərbaycan

SSR-in Kür-Araz ovalığına köçürülən kolxozçulara SSRİ MİK və Xalq Komissarlığı Sovetinin 17 noyabr 1937-ci il tarixli 115/2043 saylı: "Kənd təsərrüfatı köçürülməsi üzrə güzəştlər haqqında" qərarı, məcburi süd tədarükü üzrə güzəştlər istisna olmaqla, aid edilsin; c) köçürülən ailələr gedərkən ailə başçısına 1000 manat və hər ailə üzvünə 300 manat miqdarında qaytarılmayan pul müavinəti verilsin; d) Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülmüş ailələrə məskunlaşma yerlərində nağd hesabla ailə başçısına 1,5 sentner və hər ailə üzvünə 0,5 sentner ərzaq taxılı satılsın.

5. Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə çıxdıqları yerlərdə tədarük təşkilatlarına dəyişmə qəbzləri ilə kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə aparılması qadağan olunan mal-qaranı məskunlaşdırıldıqları yerlərdə həmin miqdarda məhsul və mal-qara alınması hüququ ilə təhvil verməyə icazə verilsin.

6. Kənd Təsərrüfatı bankına tapşırılsın: a) Azərbaycan SSRİ-in Kür-Araz ovalığına köçürülənlərin ehtiyacı olanlarına yaşayış evləri və həyətyanı binalar tikilməsi üçün alındıqdan üç il sonra başlayaraq 10 il müddətində qaytarılmaqla bir təsərrüfata 20 min manata qədər məbləğdə kredit versin; b) ehtiyacı olan köçürülənlərə mal-qara almaq üçün hər ailəyə 3 min manat məbləğində 5 il müddətinə, alındıqdan üç il sonra ödəməyə başlamaqla uzunmüddətli borclar versin.

7. Yollar Nazirliyinə tapşırılsın: a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri üzrə azərbaycanlı əhalinin, onların əmlakının və mal-qarasının Azərbaycan SSR-ə təchiz olunmuş və dezinfeksiya edilmiş vaqonlarda xüsusi tərtib edilmiş eşelonlarla daşınmasını təmin etsin; b) köçürülənlərin çıxdıqları yerlərdə Yollar Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafikə uyğun olaraq vaqonlar üçün ödəniş alınmadan yol idarəsi tərəfindən vaqonların verilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə pul hesablaşmaları dəmir yolu idarəsinin təqdim etdiyi hesablar üzrə aparılsın.

8. SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, bütün köçürülənlərin çıxış yerlərində tibbi baxışdan keçirilməsini, habelə onların getdikləri yolda tibbi-sanitariya xidmətini təmin etsin. Eşelonların müşayiət edilməsi üçün şəxsi heyət və lazımi dərmanlar ayırsın.

9. SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsinin təmin edilməsi üçün Azərbaycan SSR-n 1948-ci il üçün büdcəsində zəruri xərcləri nəzərdə tutsun.

10. Ermənistan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, bu Qərarı icra etmək məqsədilə bir ay müddətində Ermənistan SSR-dən köçürülən əhalinin köçürülməsi və Azərbaycan SSR-in Kür-Araz ovalığında yerləşdirilməsinin təmin edilməsi üzrə konkret tədbirlər işləyib hazırlasın və onlar barədə SSRİ Nazirlər Sovetinə məlumat versin.

11. Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq onların azad olunmuş tikililərindən və yaşayış evlərindən Ermənistan SSR-ə gələn xarici ölkələrin ermənilərinin yerləşdirilməsi üçün istifadə etməsinə icazə verilsin.

SSRİ Nazirlər Sovetinin sədri: İ. Stalin
SSRİ Nazirlər Sovetinin İşlər müdiri: A. Çadayev

**SSRİ NAZİRLƏR SOVETİ**
**Qərar № 754**
**10 mart 1948-ci il**
**Moskva, Kreml**

**Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 saylı Qərarına əlavə olaraq SSRİ Nazirlər Soveti qərara alır:**

1. Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına tamamilə köçürülmüş kolxozlara onlarda olan bütün istehsal vasitələrini (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşqu vasitələrini, bütün növlərdən olan qaramalı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və digər əmlakı, habelə natural və digər fondları) yardımçı müəssisələr (dəyirmanlar, dinglər, elektrik stansiyaları) və digər istehsalat, mədəni-məişət tikililəri istisna olmaqla, özləri ilə aparmağa icazə verilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan SSR-in Kür-Araz ovalığına kolxozçuları köçürülən Enmənistan SSR-in kolxozları köçürülən kolxozçuların payına düşən daşınan əmlakı (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşqu vasitələrini bütün növlərdən olan qaramalı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini, natural və digər fondları) köçürülmə faizində onların tərkibinə daxil olduqları kolxozlara verirlər, onların payına düşən daşınmaz əmlakın (çoxillik bitkilərin, dəyirmanların, elektrik stansiyalarının və digər təsərrüfat və məişət tikililərinin) dəyəri isə Azərbaycan SSR Nazirlər Soveti və Ermənistan SSR Nazirlər Soveti tərəfindən müəyyən edilmiş müddətlərdə məskunlaşma yerlərindəki kolxozlara verilir.

3. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in

Kür-Araz ovalığına köçürülən kolxozlarla, kolxozçularla və digər azərbaycanlı əhali ilə onların Ermənistan SSR-də saxladıqları əmlaka görə hesablaşmaların qaydasını bir ay müddətində müəyyən etsinlər.

4. Ermənistan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, köçürülən kolxozçulara, həmçinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən fəhlələrə və qulluqçulara çıxma yerlərində onlara məxsus evlərin satılmasında kömək etsinlər.

5. Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən əhalinin təsərrüfat quruluşu və kolxoz təsərrüfatlarını köçürülməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Sovetinin köçürülmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilsin.

6. Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi İdarəsinə köçürülən kolxozlara, köçürülən kolxozçulara texniki yardım və inşaat materialları ilə təmin edilməkdə yardım edilməsi, habelə göstərilən köçürülmələrin abad məskunlaşması üçün zəruri olan yardımçı müəssisələrin tikilməsi həvalə edilsin.

7. Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ kənd təsərrüfatı nazirliyinə "Azərköçürmətikinti" kontorunun bazasında "Azərköçürmətikinti" tresti, onun Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi İdarəsinə tabe etməklə, təşkil edilməsinə, habelə göstərilən trestdə Salyan, Əli-Bayramlı, Sabirabad və Puşkin məntəqələrində tikinti-quraşdırma kontorları təşkil edilməsinə icazə verilsin.

8. Azərbaycan SSR Nazirlər Sovetinə: a) kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi dövrü üçün Ermənistan SSR-də (Yerevan şəhərində) nümayəndəlik təşkil etməyə; b) azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsilə əlaqədar hazırlıq işlərinin aparılmasına (layihələşdirməyə, yardımçı müəssisələrin tikilməsinə, meşə-sənaye təsərrüfatlarının təşkilinə, materiallar, tikinti avadanlığı, nəqliyyat-vasitələri alınmasına) respublika üzrə mərkəzləşdirilməmiş (limitdən kənar) əsaslı xərclərə 1948-ci il üçün nəzərdə tutulmuş məbləğ hesabına 1948-ci ildə 11 milyon manat xərcləməyə; c) Molotov vilayətində meşə materialları

tədarükü üzrə işlər üçün və Azərbaycan SSR-in Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsinin apardığı işlər üçün respublikanın kənd əhalisi arasından 1948-ci ildə 700 nəfər təşkil edilmiş toplama aparmağa icazə verilsin.

9. Azərbaycan SSR Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsinə: a) 1948-ci ildə qurğular, binalar və yardımçı müəssisələr tikilməsi üzrə işlər aparmağa, həmçinin kənd təsərrüfatı komitəsi ilə razılaşdırılmış maliyyə-hesablamaları üzrə köçürülmə tikintisinin gələcək genişləndirilməsinə hazırlıq tədbirləri görməyə: b) 1948–1950-ci illərdə Molotov vilayətində meşə-sənaye təsərrüfatının istehsal gücünü artırmağa icazə verilsin.

10. SSRİ Dövlət Təchizat Komitəsinə, Avtomobil və Traktor Sənayesi Nazirliyinə, Maşınqayırma və Cihazqayırma Nazirliyinə, Elektrik Sənayesi Nazirliyinə, SSRİ Ət və Süd Sənayesi Nazirliyinə, SSRİ Tikinti Materialları Sənayesi Nazirliyinə, Kimya Sənayesi Nazirliyinə, SSRİ Yeyinti Sənayesi Nazirliyinə tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsi üçün Əlavəyə uyğun miqdarlarda avadanlıq və materiallar göndərsin.

11. Mərkəzi kooperativlər ittifaqına tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən kolxozlara və kolxozçulara satmaq üçün Azərbaycan SSR Nazirlər Soveti ilə razılaşdırmaqla inşaat materialları və avtomaşınlar gətirsin.

12. Yollar Nazirliyinə tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Kür-Araz ovalığına suvarılan torpaqların mənimsənilməsi idarəsinə Azərbaycan dəmir yolunun Lənkəran, Salyan, Sarıcalar, Saatlı, Qırmızı Kənd, Daykənd, Papanin, Yeni Osmanlı, Maşburun, Ucar və Masallı stansiyalarında dəmir yolunun ixtiyarında olan sahə hüdudlarında göndərmə-yükləmə meydançalarına dalanlar çəkilməklə boşaltma-yükləmə və rels anbarları üçün hər birinin uzunluğu 600 metr olan sahələr ayırsın. Göstərilən işlərin aparılması Azərbaycan SSR Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsinə həvalə edilsin.

13. SSRİ Kənd Təsərrüfatı Nazirliyinə 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Azərbaycan SSR-in meşə materialları tədarükü təşkilatlarına satmaq üçün atçılıq zavodlarından çıxdaş edilmiş 50 at ayırmağa icazə verilsin.

14. SSRİ Nazirlər Soveti yanında Dövlət ştat komissiyasına tapşırılsın ki, Azərbaycan SSR Nazirlər Soveti yanında təşkil edilən köçürülmə idarəsinin, "Azərköçürmətikinti" trestinin və onun tikinti-quraşdırma kontorlarının, habelə Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-in Yerevan şəhərində nümayəndəliyinin ştat cədvəllərini bir ay müddətində nəzərdən keçirsin və təsdiq etsin.

SSR İttifaqı Nazirlər Sovetinin sədri: İ.Stalin
SSRİ Nazirlər Sovetinin İşlər müdiri: Y.Çadayev

## 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, həmin dövrdəki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviy-

yəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

***Dövlət Komissiyasının sədri***

Heydər Əliyev – Azərbaycan Respublikasının Prezidenti

***Dövlət Komissiyası sədrinin müavini***

Artur Rasizadə – Azərbaycan Respublikasının Baş naziri

***Dövlət Komissiyasının üzvləri***

Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

İzzət Rüstəmov – Azərbaycan Respublikası Baş nazirinin müavini

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Həsən Həsənov – Azərbaycan Respublikasının xarici işlər naziri

Namiq Abbasov – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Ramil Usubov – Azərbaycan Respublikasının daxili işlər naziri

Eldar Həsənov – Azərbaycan Respublikasının Baş prokuroru

Südabə Həsənova – Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini

Xanlar Hacıyev – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Sirus Təbrizli – Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Vəfa Quluzadə – Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə Dövlət müşaviri

Hidayət Orucov – Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri

Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Şahin Əliyev – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Dövlət-hüquq şöbəsinin müdiri

Yusif Hümbətov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli Həsənov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

Rafael Allahverdiyev – Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Nizami Xudiyev – Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Fərəməz Maqsudov – Azərbaycan Elmlər Akademiyasının prezidenti

Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri

Cəmil Quliyev – Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi

İqrar Əliyev – Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

Budaq Budaqov – Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

Ataxan Paşayev – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

Yusif Yusifov – N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 18 dekabr 1997-ci il
№ 656

## 1953-cü ilin may-iyun aylarında Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuş ailələrin siyahısı[1]

1. Hacıyev Həsən (Hasoy) Abduləli oğlu (1905)
***yoldaşı:*** Hacıyeva Şəkər Abdulla (1900)
***övladları:*** Hacıyev Hüseyn Həsən oğlu (1933)
Hacıyeva Tümən Həsən qızı (1934)
Hacıyeva Qumru Həsən qızı (1936)
Hacıyeva Güleyşə Həsən qızı (1942)
Hacıyeva Familə Həsən qızı (1946)

2. Muxtarov İslam Hacı oğlu (1901)
***yoldaşı:*** Muxtarova Səfiyə Məmmədhənifə qızı (1906)

3. Mirzəyeva Kəklik Abbasəli qızı (1880)
***övladları:*** Mirzəyeva Növrəstə Yunus qızı (1928)
Mirzəyev Hüseyn (Hacı) Yunus oğlu (1930)
Mirzəyeva Zeynəb Yunus qızı (1935)
***Qeyd:*** *Bu ailənin üzvü Mirzəyev Səfər Yunus oğlu da 1955-ci ildə köçüb gəlib.*

4. Məmmədov Məşədi Məmməd Hacı Dünyamalı oğlu (1869)
***nəvəsi:*** Dünyamalıyev Şükür Əsgərxan oğlu (1942)

5. Dünyamalıyeva Pəri Süleyman qızı (1918)
***övladı:*** Əhmədova Firəngiz Əli qızı (1951)

6. Dünyamalıyeva Gövhər Həsən qızı (1921)
***övladı:*** Dünyamalıyeva Sima Bayramxan qızı (1934)

---

[1] Bu siyahının ilkin variantını Hacı Yaqub Qocamanov, Solmaz Qocamanova və Əliyar Əliyev tərtib etmişlər.

7. Dünyamalıyev Zeynalabdin Məşədi Məmməd oğlu (1910)
***yoldaşı:*** Dünyamalıyeva Kəmərçin Çoydar qızı (1912)
***övladları:*** Dünyamalıyeva İpək Zeynalabdin qızı (1937)
Dünyamalıyeva Əntiqə Zeynalabdin qızı (1948)
Məmmədov İbrahim Zeynalabdin oğlu (1952)

8. Dünyamalıyev İsmayıl Abbasəli oğlu (1915)
***yoldaşı:*** Dünyamalıyeva Şamayıl Hasanqulu qızı
***övladları:*** Dünyamalıyeva Qələnfir İsmayıl qızı (1945)
Dünyamalıyeva Bəsti İsmayıl qızı (1947)
Dünyamalıyev Əhliman İsmayıl oğlu (1949)
Dünyamalıyev Əfəndi İsmayıl oğlu (1951)
Dünyamalıyeva Zemfira İsmayıl qızı

9. Qurbanova Minayə İsoy qızı (1937)

10. Qurbanova Büsat Məşədi Məmməd qızı
***övladları:*** Bayramova Səkinə Qurban qızı (1932)
Bayramov Əkbər Qurban oğlu (1936)
Bayramova Pəri Qurban qızı (1939)

11. Şairov Süleyman Xəlil oğlu (1892)
***yoldaşı:*** Şairova Əfruz Səfər qızı (1889)
***övladları:*** Şairov Səyyad Süleyman oğlu (1945)
Şairova Mehriban Süleyman qızı (1948)
***Qeyd:*** *Bu ailəyə 1954-cü ildə Şairov Novruz Süleyman oğlu (1929), Şairova Nərgiz Süleyman qızı (1936), Şairova Sona Süleyman qızı (1938), Şairova Fəhruz Süleyman qızı (1942) da köçüb gəlib.*

12. Xəlilov Səttər Oruc oğlu
***yoldaşı:*** Xəlilova Mürəbbə İsoy qızı

13. Nəzərov Abbasəli Hüseyn oğlu (1919)
***yoldaşı:*** Nəzərova Abutel Paşa qızı (1928)
***övladları:*** Nəzərov Fərzəli (Əhliman) Abbasəli oğlu (1945)
Nəzərov İman Abbasəli oğlu (1948)
***Qeyd:*** *Bu ailə 1979-cu ildə Naftalan şəhərinə köçüb.*

14. Məmmədova Yəmən Hüseyn qızı (1910)
***övladları:*** Məmmədova Dünya Papır qızı (1933)
Qədirov Əkbər Papır oğlu (1938)
Məmmədova Tamara Papır qızı (1943)
***oğlu:*** Qədirov Əjdər Papır oğlu (1932)
***onun yoldaşı:*** Məmmədova Bulqeyis Səfi qızı (1933)

15. Alıyev Alı Oruc oğlu (1913)
***yoldaşı:*** Alıyeva Gülüzə Ələkbər qızı (1930)
***Qeyd:*** *Bu ailə təxminən 1963–1964-cu ildə geriyə, Daşkəndə qayıdıb.*

16. Xəlilov Heydər Cəlil oğlu (1928)
***yoldaşı:*** Xəlilova Abuzəndə Paşa qızı (1930)
***övladı:*** Xəlilov Vidadi Heydər oğlu (1952)

17. Piriyev Əbil Bayramqulu oğlu (1867)
***yoldaşı:*** Piriyeva Hürü
***övladı:*** Piriyev Əli Əbil oğlu (1923)
***Qeyd:*** *Kənddə 1953-cü ildə ilk toy məclisi də ailənin üzvü Əlinin olub. O, Məmmədova Sədət Kərim qızı (1932) ilə ailə həyatı qurub.*

18. Piriyev Tapdıq Əbil oğlu (1911)
***yoldaşı:*** Piriyeva Qəmərrux Həmid qızı (1916)
***övladları:*** Əbilov Qardaşxan Tapdıq oğlu (1936)
Piriyeva Gülarə Tapdıq qızı (1938)
Piriyev Azadxan Tapdıq oğlu (1943)

19. Məmmədov İbrahim Kərim oğlu (1925)
***yoldaşı:*** Məmmədova Quşayıl Həsən qızı (1922)
***övladları:*** Məmmədova Paklet İbrahim qızı (1948)
Məmmədov Dağbəyi İbrahim oğlu (1950)
***bacısı:*** Məmmədova Sədət Kərim qızı (1932)
***Qeyd:*** *Bu ailə 1955-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

20. Süleymanova Həlimə Xəlil qızı (1914)
***övladları:*** Süleymanova Ceyran Süleyman qızı (1933)
Süleymanov Cəmşid Süleyman oğlu (1940)
***qayınanası:*** Süleymanova Leylan Camal qızı (1876)

21. Həsənov Cəlil Xəlil oğlu (1910)
***yoldaşı:*** Həsənova Salatın Meydanəli qızı (1920)
***övladları:*** Həsənova Güləvatın Cəlil qızı (1939)
Həsənova Maya Cəlil qızı (1941)
Həsənov Şıxəli Cəlil oğlu (1947)
Həsənova Sumayə Cəlil qızı (1952)

22. Qocamanov Böyükkişi Camal oğlu (1911)
***yoldaşı:*** Qocamanova İpək Oruc qızı (1918)
***övladları:*** Qocamanova Pakizə Böyükkişi qızı (1935)
Qocamanov Şikar Böyükkişi oğlu (1939)
Qocamanov Yaqub Böyükkişi oğlu (1941)
Qocamanova Gülnaz Böyükkişi qızı (1946)
Qocamanov Qərib Böyükkişi oğlu (1950)
Qocamanov Ziyəddin Böyükkişi oğlu (1952)
***anası:*** Gülgəz Maqsud qızı (1885)

23. Qocamanov Qocaman Camal oğlu (1923)
***yoldaşı:*** Qocamanova Zəhra Məhərrəm qızı (1926)
***övladları:*** Qocamanov Şahmar Qocaman oğlu (1949)
Qocamanov Camal Qocaman oğlu (1951)
***Qeyd:*** *Bu ailə 1959-cu ildə geriyə, Daşkəndə qayıdıb.*

24. İsmayılov Bəyiş Abbasəli oğlu (1908)
***yoldaşı:*** İsmayılova Zeynəb Məhəmmədəli qızı (1910)
***övladları:*** Abbasəliyeva Aydın Bəyiş qızı (1936)
Abbasəliyev Müzəffər Bəyiş oğlu (1940)
Abbasəliyeva Zərifə Bəyiş qızı (1947)
Abbasəliyev Səməndər Bəyiş oğlu (1952)

25. İsmayılova Müxəstə Muxtar qızı (1906)
***övladları:*** İsmayılova Səltənət Səfər qızı (1935)
İsmayılov Sənan Səfər oğlu (1937)
***Qeyd:*** *Bu ailə təxminən 1955–1956-cı ildə geriyə, Daşkəndə qayıdıb.*

26. Kərimov Qurban İsmayıl oğlu
***yoldaşı:*** Kərimova Həlimə Allahverdi qızı (1878)
***övladları:*** İsmayılov Nəbi Qurban oğlu (1930)
İsmayılova Gövhər Qurban qızı (1933)
İsmayılova Səhər Qurban qızı (1935)
***oğlu:*** İsmayılov Məhəmməd Qurban oğlu (1927)
***onun yoldaşı:*** İsmayılova Nahat Həsən qızı (1931)
***onun övladı:*** İsmayılov Hamlet Məhəmməd oğlu (1953)

27. Hacıyev Həsən Məhərrəm oğlu (1902)
***yoldaşı:*** Hacıyeva Reyvə Camal qızı (1904)
***övladları:*** Məhərrəmov Nəbi Həsən oğlu (1934)
Məhərrəmov Əmirxan Həsən oğlu (1936)
Hacıyeva Göyərçin Həsən qızı (1940)
Hacıyev Şiruyə Həsən oğlu (1942)
Hacıyev Sabit Həsən oğlu (1946)
Hacıyeva Gülüsüm Həsən qızı (1948)
***atası:*** Rəsulov Məhərrəm Hacı Balı oğlu (1873)
***anası:*** Rəsulova Başxanım Şəfi qızı (1880)
***qardaşı oğlu:*** Hacıyev Yaqub Nəsib oğlu (1938)
***Qeyd:*** *Bu ailədən Həsən, Məhərrəm və Başxanım 1954-cü ildə, Əmirxan isə 1956-cı ildə geriyə, Daşkəndə qayıdıblar.*

28. Qəribov Abdulla Paşa oğlu (1830)
***yoldaşı:*** Qəribova Tamam Rüstəm qızı (1876)
***oğlu:*** Paşayev Balabəy Abdulla oğlu (1924)
***onun yoldaşı:*** Paşayeva Ruqiyə
***onun övladları:*** Paşayev Şahsuvar Balabəy oğlu
Paşayev Xansuvar Balabəy oğlu (1948)
***oğlu:*** Paşayev Namazəli Abdulla oğlu (1928)
***onun yoldaşı:*** Paşayeva Nübar Hidayət qızı (1929)

29. Abdullayeva Qaratel Abdulla qızı (1895)
***övladları:*** Mahmudov Əyyub Pənah oğlu (1932)
Abdullayev Əli Pənah oğlu (1934)

30. Paşayeva Çəmən Abdulla qızı (1900)
***övladları:*** Paşayeva Süzəndə Paşa qızı (1935)
Paşayeva Sumaya Paşa qızı (1937)

31. Mirzəyev Səlim Xudu oğlu (1876)
***yoldaşı:*** Mirzəyeva Məleykə Səfər qızı (1916)
***övladları:*** Mirzəyeva Leylan Səlim qızı (1933)
Mirzəyeva Sehran Səlim qızı
Mirzəyeva Ceyran Səlim qızı (1947)

32. Hüseynova Səmər Abdulla qızı (1905)
***övladları:*** Məmmədova Qənirə Hüseyn qızı (1933)
Məmmədova Adilə Hüseyn qızı (1936)
Məmmədov Rafiq Hüseyn oğlu (1942)
Məmmədov Tofiq Hüseyn oğlu (1946)

33. Muxtarov Hüseyn Hacı oğlu
***yoldaşı:*** Muxtarova Minə Abdulla oğlu (1903)
***övladları:*** Muxtarova Suqra Hüseyn qızı (1938)
Muxtarova Kübra Hüseyn qızı (1944)
Muxtarov Ramazan Hüseyn oğlu (1946)

34. Möjdünov Behbud Məmmədalı oğlu (1878)
***yoldaşı:*** Möjdünova Gülbayaz Cəlil qızı (1886)
***övladları:*** Məmmədova Məhluqə Behbud qızı (1940)
Məmmədova Hürnisə Behbud qızı (1945)
***oğlu:*** Məmmədov Muxtar Behbud oğlu (1934)
***onun yoldaşı:*** Məmmədova Qumru Xanış qızı (1935)

35. Qəmbəralıyeva Cuna Behbud qızı (1922)
***övladları:*** Qəmbəralıyev Lütvin Şuxu oğlu (1940)
Qəmbəralıyeva Şəfiqə Şuxu qızı (1943)

36. Məmmədov Bəylər Behbud oğlu (1929)
***yoldaşı:*** Məmmədova Nabat Məmməd qızı
***övladları:*** Məmmədov Qərib Bəylər oğlu (1950)

37. Məmmədov Məzahim Behbud oğlu (1925)
***yoldaşı:*** Məmmədova Nübar Fətalı qızı
***övladları:*** Məmmədova Telli Məzahim qızı (1952)

38. Nəsibov Vəzir Abdulhüseyn oğlu (1929)
***bacısı:*** Nəsibova Bulur Abdulhüseyn qızı (1927)

39. Kərimov Hüseyn Rəsul oğlu (1898)
***yoldaşı:*** Kərimova Güldəstə Məhərrəm qızı (1900)
***övladları:*** Kərimov Vərqa Hüseyn oğlu (1932)
Kərimov Şamxay Hüseyn oğlu (1935)
Kərimov Kərəm Hüseyn oğlu (1938)
Kərimov Əmirtarix Hüseyn oğlu (1942)
***oğlu:*** Rəsulov Qəzənfər Hüseyn oğlu (1924)
***onun yoldaşı:*** Kərimova Almaz Umud qızı (1932)
***onun övladları:*** Kərimov Zakir Qəzənfər oğlu (1949)
Kərimov Firdovsi Qəzənfər oğlu (1952)

40. Kərimova Gülgəz Alı qızı (1912)
***övladları:*** Kərimov Sabir Xanlar oğlu (1935)
Kərimov Xalid Xanlar oğlu (1937)
Kərimov Qiyas Xanlar oğlu (1938)
Kərimov Savalan Xanlar oğlu (1941)

41. Balıyev Elləz (İlyas) Mürsəl oğlu (1913)
***yoldaşı:*** Balıyeva Reyvə İsmayıl qızı (1903)
***övladları:*** Balıyev Müşgünaz Elləz qızı (1938)
Balıyev Əkbər Elləz oğlu (1940)
Balıyev Niftalı Elləz oğlu (1943)
Balıyev Vaqif Elləz oğlu (1945)

42. Balıyev Qurban Tahar oğlu (1933)
***bacıları:*** Balıyeva Sücaət Tahar qızı (1929)
Balıyeva Fəridə Tahar qızı (1934)
***qardaşının yoldaşı:*** Balıyeva Süzəndə Oruc qızı (1933)
***qardaşının qızı:*** Balıyeva Gülayə Mehvalı qızı (1948)

43. Kərimov Qəşəm Saleh oğlu (1914)
***yoldaşı:*** Kərimova Rasta Oruc qızı (1931)
***övladları:*** Kərimova Röyzə Qəşəm qızı (1949)
Kərimova Nigar Qəşəm qızı (1952)

44. Əliyev Ənvər Abdulla oğlu (1918)
***yoldaşı:*** Əliyeva Zeynəb Səfər qızı (1926)
***övladları:*** Əliyeva Sərfinaz Ənvər qızı (1946)
Əliyev Musa Ənvər oğlu (1949)
Əliyeva Tükəzban Ənvər qızı (1951)

45. Quliyev Səfər Məhəmməd oğlu (1880)
***yoldaşı:*** Quliyeva Balaxanım Allahyar qızı (1886)
***övladları:*** Məmmədov Əli Səfər oğlu (1932)
Məmmədov Mehralı Səfər oğlu (1933)
Məmmədov Sultanəli Səfər oğlu (1937)
Məmmədova Fatma Səfər qızı (1940)
Quliyev Məhəmməd Səfər oğlu (1948)

46. Məmmədov Yunis Səfər oğlu (1906)
***yoldaşı:*** Məmmədova Sünbül İsmayıl qızı (1928)
***övladları:*** Məmmədova Nigar Yunis qızı (1935)
Məmmədov Mustafa Yunis oğlu (1937)
Məmmədova Nərgiz Yunis qızı (1948)

47. Abbasov Aslan Məmmədsadıq oğlu (1884)
***yoldaşı:*** Abbasova Əsmər Cəlal qızı (1910)
***övladı:*** Abbasova Şövkət Aslan qızı (1949)

48. Rəsulov Bayram Hacı Balı oğlu
***yoldaşı:*** Rəsulova Çəmən Abbas qızı (1900)
***övladları:*** Hacıyeva Nabat Bayram qızı (1943)
Hacıyeva Pürüzə Bayram qızı
***Qeyd:*** *Bu ailə təxminən 1954-cü ildə geriyə, Daşkəndə qayıdıb.*

49. Abdullayev Mirzə Məhərrəm oğlu (1905)
***yoldaşı:*** Abdullayeva Sərəngiz Tanrıverdi qızı (1920)
***övladları:*** Məhərrəmov Yaqub Mirzə oğlu (1938)
Məhərrəmov Əhəd Mirzə oğlu (1940)
***ögey övladı:*** Məmmədova Həlimə (Suqra) Oruc qızı (1941)

50. Zeynalov Xasay İsrafil oğlu (1927)
***yoldaşı:*** Zeynalova Qanuş Həmid qızı (1933)
***Qeyd:*** *Bu ailə 1954-cü ildə geriyə, Daşkəndə qayıdıb.*

51. Hacıyev Xasay Oruc oğlu (1925)
***yoldaşı:*** Hacıyeva Afayat Bayram qızı (1933)
***övladları:*** Hacıyev Nizami Xasay oğlu (1949)
Hacıyev Nazim Xasay oğlu (1952)
***qardaşları:*** Hacıyev Eyvaz Oruc oğlu (1936)
Hacıyev Şahbaz Xasay oğlu (1938)
***Qeyd:*** *Bu ailədən Afayat, Nizami, Nazim 1954-cü ildə geriyə, Daşkəndə qayıdıb.*

52. Kərimov Fəzi Qasım oğlu (1912)
***yoldaşı:*** Kərimova Quşayıl Hasanqulu qızı
***övladları:*** Kərimova Mələksuma Fəzi qızı (1946)
Kərimov Səməndər Fəzi oğlu (1948)
Kərimov Azər Fəzi oğlu (1951)
***ögey övladı:*** Məmmədova Gülşad Hacı qızı (1939)

53. Kərimov Müslüm İsmayıl oğlu (1927)
***yoldaşı:*** Kərimova Bəyim Miryusif qızı (1928)
***övladları:*** Kərimov Əfrasiyab Müslüm oğlu (1947)
Kərimova Əsmətel Müslüm qızı (1949)

54. Kərimov Sayad Qasım oğlu (1905)
***yoldaşı:*** Kərimova Səroy Çərkəz qızı
***övladları:*** Qasımov Talıb Sayad oğlu (1930)
Kərimova Tovuz Sayad qızı (1935)
Kərimova Göyçək Sayad qızı (1940)
Qasımov Novruz Sayad oğlu (1953)

55. Kərimov İslam İsmayıl oğlu (1906)
***yoldaşı:*** Kərimova Büsat Məhərrəm qızı (1917)
***övladları:*** Kərimova Rəfiqə İslam qızı (1935)
Kərimov Arif İslam oğlu (1939)
Kərimov Sərəfruz İslam oğlu (1948)

56. Bayramova Ceyran Bayram qızı (1913)
***övladı:*** Bayramov Əziz Müseyib oğlu (1933)
***bacısı oğlu:*** Canbaxışov Xasay Bəhmən oğlu (1934)
***anası:*** Quliyeva Səhnəbanı Alı qızı (1875)

57. Kərimov Rəsul İsmayıl oğlu (1919)
***yoldaşı:*** Kərimova Fərəh Balış qızı (1924)
***övladı:*** Kərimov Knyaz (Simburus) Rəsul oğlu (1952)
***Qeyd:*** *Bu ailə 1954-cü ildə geriyə, Daşkəndə qayıdıb.*

58. Hacıyev Papır İdris oğlu (1920)
***yoldaşı:*** Hacıyeva Ruqiyə İbrahim qızı (1930)
***övladları:*** Hacıyev Fazil Papır oğlu (1947)
Hacıyev Nazim Papır oğlu (1951)

59. Kərimova Güləvatın Kərəm qızı (1914)
***övladları:*** Əmrahov Haris Məhəmməd oğlu (1935)
Əmrahov Bəxtiyar Məhəmməd oğlu (1938)
Əmrahov İbrahim Məhəmməd oğlu (1940)
***qayınatası:*** Rəsulov Kərbəlayı Əmrah Hacı Kərim oğlu (1828)

60. Kərimova Savat Məhərrəm qızı (1914)
***övladları:*** Kərimova Xuraman Fəzi qızı (1935)
Kərimov Qiyas Fəzi oğlu (1938)
Kərimova Cənnət Fəzi qızı (1941)
Kərimova Məhbubə Fəzi qızı (1947)

61. Kərimov Əli Hüseyn oğlu (1925)
***yoldaşı:*** Kərimova Tovuz Sərkar qızı (1936)
***Qeyd:*** *Bu ailə 1955-ci ildə geriyə, Daşkəndə qayıdıb. 1957-ci ildə yenidən Yeni Daşkənd kəndində məskunlaşıb.*

62. Hacıyev Abbasəli İsmayıl oğlu (1898)
***yoldaşı:*** Hacıyeva Ülkər Məşədi İdris qızı
***övladları:*** Hacıyeva Minayə Abbasəli qızı (1937)
Hacıyev Miskin Abbasəli oğlu (1940)
Hacıyeva Salatın Abbasəli qızı (1946)
Hacıyev Məmməd Abbasəli oğlu (1949)
Hacıyeva Gülnaz Abbasəli qızı (1952)
***anası:*** Hacıyeva Gözəl Tağı qızı (1880)

63. Quliyeva Fatma Əli qızı
***övladı:*** Quliyeva Diləfruz Salman qızı (1919)
***nəvələri:*** Quliyeva Diləzbər Zeynalabdı qızı (1939)
Məmmədov Telman Zeynalabdı oğlu (1936)
Məmmədov Fərman Zeynalabdı oğlu (1944)
Məmmədova Pakizə Zeynalabdı qızı

64. Hacıyev Tanrıverdi Alı oğlu (1917)
***yoldaşı:*** Hacıyeva Lətifə Oruc qızı (1932)
***övladları:*** Hacıyeva Asya Tanrıverdi qızı (1947)
Hacıyeva Rəna Tanrıverdi qızı (1950)
Hacıyeva Solmaz Tanrıverdi qızı (1952)
***qardaşının yoldaşı:*** Hacıyeva Tutu Şükür qızı (1900)
***onun övladları:*** Hacıyeva Qumru Məhəmmədəli qızı (1930)
Hacıyeva Məhluqə Məhəmmədəli qızı (1932)
Hacıyev Misir Məhəmmədəli oğlu (1934)
Hacıyeva Göyərçin Məhəmmədəli qızı (1936)
Hacıyeva Ofeliya Məhəmmədəli qızı (1941)

65. Hacıyev Dünyamalı İsmayıl oğlu (1915)
***yoldaşı:*** Hacıyeva Gövhər Hüseyn qızı (1930)
***övladları:*** Hacıyev Saday Dünyamalı oğlu (1948)
Hacıyeva Atlas Dünyamalı qızı (1952)
***qardaşı:*** Hacıyev Mehdi İsmayıl oğlu (1925)
***onun yoldaşı:*** Hacıyeva Quba Mövsüm qızı (1936)

66. Bədəlova Röyzə Mürsəl qızı (1919)
***övladı:*** Qasımova Firəngiz Qasım qızı (1938)

67. Quliyev Həsən Abdulla oğlu (1930)
***qardaşı:*** Quliyev Vəli Abdulla oğlu (1926)

68. Quliyev Əli Abdulla oğlu (1923)
***yoldaşı:*** Quliyeva Bahar Nəbi qızı (1925)
***övladı:*** Quliyev Elmar Əli oğlu (1949)

69. Bayramov Hüseyn Məhəmməd oğlu (1890)
***yoldaşı:*** Bayramova Həmayıl Əli qızı (1890)
***övladları:*** Bayramov Məhəmməd Hüseyn oğlu (1934)
Bayramov Murad Hüseyn oğlu (1936)
Bayramov Yusif Hüseyn oğlu (1940)

70. Hüseynov Bilal Nəsir oğlu (1888)
***yoldaşı:*** Hüseynova Fitat Qəhrəman qızı (1898)
***övladları:*** Hüseynova Pakizə Bilal qızı
Hüseynova Röyzə Bilal qızı
Hüseynova Ziveydə Bilal qızı
Hüseynova Sehran Bilal qızı (1938)
Hüseynov Xalıqverdi Bilal oğlu (1940)
Hüseynov İmamverdi Bilal oğlu (1942)
Hüseynov Rüstəm Bilal oğlu (1947)
***Qeyd:*** *Bu ailə Qaranlıq rayonunun Alçalı kəndindən 1954-cü ilin may ayında gəliblər.*

71. Əliyev Namaz Nurməmməd oğlu (1927)
***yoldaşı:*** Əliyeva Firəngiz Bayram qızı (1933)
***övladı:*** Əliyev Füzuli Namaz oğlu (1951)
***qardaşı:*** Əliyev Qurban Nurməmməd oğlu (1929)
***bacısı:*** Əliyeva Qəndab Nurməmməd qızı (1930)
***anası:*** Alıyeva Xırdaxanım Məstan qızı (1898)
***Qeyd:*** *Bu ailədən Xırdaxanım 1971-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

72. Zeynalova Bahar Hacı Kərim qızı (1862)
***Qeyd:*** *Bu ailə 1956-cı ildə geriyə, Daşkəndə qayıdıb.*

73. Zeynalov Bayram Əzim oğlu (1888)
***yoldaşı:*** Zeynalova Tutu Kərbəlayı Zeynal qızı (1906)
***övladları:*** Əzimov Kamran Bayram oğlu (1937)
Əzimova Gilas Bayram qızı (1940)
Əzimov Adil Bayram oğlu (1943)
Zeynalov İdris Bayram oğlu (1947)

74. Alıyev İmran Mədət oğlu (1903)
***yoldaşı:*** Alıyeva Cuna Qədir qızı
***övladları:*** Alıyev Zümrüd İmran qızı (1931)
Alıyeva Zinyət İmran qızı (1936)
Alıyev Müstəcəb İmran oğlu (1939)
Alıyev Nəcəf İmran oğlu (1945)

75. Əzimov Yusif Müseyib oğlu (1923)
***yoldaşı:*** Əzimova Gülü

76. Babayev İsa Hüseyn oğlu (1914)
***yoldaşı:*** Babayeva Zinyət Musa qızı (1918)
***övladları:*** Babayeva Qumru İsa qızı (1941)
Babayev Xansuvar İsa oğlu (1947)
Babayev Murad İsa oğlu (1951)

77. Həşimov Abuzər Qasım oğlu (1922)
***yoldaşı:*** Həşimova Narın Hümbət qızı (1932)
***övladı:*** Həşimov Səfxan Abuzər oğlu (1949)
***anası:*** Həşimova Səyalı Hüseyn qızı (1888)

78. Abdullayev Məhəmməd Cahangir oğlu (1926)
***yoldaşı:*** Abdullayeva Zeynəb Əmirzadə qızı (1926)
***övladı:*** Abdullayeva Əntiqə Məhəmməd qızı (1952)
***bacısı:*** Abdullayeva Gülgəz Cahangir qızı (1933)
***qardaşları:*** Abdullayev Hüseyn Cahangir oğlu (1936)
Abdullayev Əli Cahangir oğlu (1939)
***anası:*** Abdullayeva Xəzəl Bayram qızı (1890)

79. Abdullayev Hidayət Musa oğlu (1888)
***yoldaşı:*** Abdullayeva Zavta Canbaxış qızı
***övladları:*** Musayev Nəriman Hidayət oğlu (1930)
Musayeva Qənirə Hidayət qızı
Musayeva Tamam Hidayət qızı
Musayev Gülxanım Hidayət qızı (1937)
Musayeva Səringül Hidayət qızı
***oğlu:*** Musayev Elbəyi Hidayət oğlu (1927)
***onun yoldaşı:*** Musayeva Xanım Habil qızı (1931)
***onun övladı:*** Musayeva Seda Elbəyi qızı (1952)

80. Babayev Qəhrəman Məhəmməd oğlu (1862)
***yoldaşı:*** Babayeva Zərbab Məmi qızı (1887)

81. Babayev Şiraslan Qəhrəman oğlu (1905)
***yoldaşı:*** Babayeva Tovuz Cəfər qızı (1912)
***övladları:*** Qəhrəmanov Zamaxan Şiraslan oğlu (1937)
Qəhrəmanova Meyvə Şiraslan qızı (1938)
Qəhrəmanov Əlixan Şiraslan oğlu (1940)
Qəhrəmanova Hayva Şiraslan qızı (1947)
Qəhrəmanova Nadya Şiraslan qızı (1950)

82. Musayev Novruz Əmirzadə oğlu (1926)
***anası:*** Musayeva Qönçə Bədəl qızı (1880)

83. Atayev Süleyman Məlikməhəmməd oğlu (1884)
***yoldaşı:*** Atayeva Sitarə Məşədi Məmməd qızı
***övladları:*** Məlikov Salman Süleyman oğlu (1933)
Məlikova Şamama Süleyman qızı (1933)
Məlikova Nigar Süleyman qızı (1935)
Məlikova Güllər Süleyman qızı (1939)
Məlikova Yazgül Süleyman qızı (1943)

84. Mirzəyeva Röyzə İsmayıl qızı (1904)
***övladları:*** Mirzəyev Nəriman Qəhrəman oğlu (1928)
Mirzəyeva Güləsər Qəhrəman qızı (1930)
Mirzəyev Salman Qəhrəman oğlu (1932)
Mirzəyev Şahmirzə Qəhrəman oğlu (1935)
***qızı:*** Əzimova Gülgəz Qəhrəman qızı (1921)
***qızının oğlu:*** Əzimov Bəxtiyar Xanbaba oğlu (1941)
***Qeyd:*** *Bu ailə 1952-ci ildə Tərtər rayonunun Xoruzlu kəndinə, 1953-cü ildə isə oradan Yeni Daşkənd kəndinə gəliblər. Əzimov Bəxtiyardan başqa digərləri sonralar Kəlbəcər rayonuna köçüblər.*

85. Alıyev İsmayıl Məhər oğlu (1913)
***yoldaşı:*** Alıyeva Kübra Qoşunalı qızı
***övladları:*** Alıyev Əkbər İsmayıl oğlu (1948)
Alıyev Ənvər İsmayıl oğlu (1949)

86. Teymurov Məhərrəm Canbaxış oğlu (1933)
***bacısı:*** Teymurova Fatma Canbaxış qızı (1935)

87. Namazov Namaz Vəli oğlu (1897)
***yoldaşı:*** Namazova Maral Cahan qızı (1903)
***övladları:*** Vəliyev Rüstəm Namaz oğlu (1926)
Vəliyev İsmayıl Namaz oğlu (1937)
Vəliyev Elbəyi Namaz oğlu (1939)
Vəliyeva Firəngiz Namaz qızı (1947)

88. Babayev Himoy Əli oğlu (1880)
***yoldaşı:*** Babayeva Zeynəb Məşədi Qasım qızı (1900)
***övladları:*** Əliyeva Səriyə Himoy qızı (1932)
Əliyeva Rəxşəndə Himoy qızı (1936)
Əliyev Səməd Himoy oğlu (1939)

89. Babayeva Sehran Həsən qızı (1866)
***övladları:*** Ələkbərov Ələsgər Məsim oğlu (1929)
Ələkbərov Kərim Məsim oğlu (1933)
Ələkbərov Bəylər Məsim oğlu (1937)

90. Babayev Qasım Ələkbər oğlu
***yoldaşı:*** Babayeva Məsmə Məhəmməd qızı (1870)

91. Qasımov Mustafa Allahverdi oğlu
***yoldaşı:*** Qasımova Salatın
***övladları:*** Qasımova Gövhər Mustafa qızı
Qasımova Reyvə Mustafa qızı (1941)
Qasımova Nərgiz Mustafa qızı

92. Namazov İbrahim Əli oğlu (1909)
***yoldaşı:*** Namazova Zinyət Paşa qızı (1927)
***övladları:*** Namazov Qurban İbrahim oğlu (1947)
Namazov Oruc İbrahim oğlu (1951)

***Qeyd:*** *Bu ailə 1954-cü ildə geriyə, Daşkəndə qayıdıb. Sonra 1976-cı ildə yenidən Namazov Möhtəbər İbrahim oğlu (1955) və Namazova Fatma İbrahim qızı (1959) da daxil olmaqla ailə yenidən Yeni Daşkəndə gəlib.*

93. Namazov Qasım Vəli oğlu (1882)
***yoldaşı:*** Namazova Bulur Abdulla qızı (1899)
***qardaşının övladı:*** Vəliyev Qulu Məhər oğlu (1928)

94. Babayev Oruc Əli oğlu
***yoldaşı:*** Əliyeva Mələk Hacı Məhəmməd qızı (1888)
***övladları:*** Əliyev Rəhim Oruc oğlu (1933)
Əliyev Müsü Oruc oğlu (1935)
Əliyeva Xuraman Oruc oğlu (1940)
***oğlu:*** Əliyev Ənvər Oruc oğlu (1916)
***onun yoldaşı:*** Əliyeva Qələm Himoy qızı (1922)
***onun övladı:*** Əliyeva Suyatel Ənvər qızı (1948)

95. Əliyev Tapdıq Xıdır oğlu (1912)
***yoldaşı:*** Abbasova Adilə Rüstəm qızı (1926)
***övladları:*** Əliyeva Elmira Tapdıq qızı (1947)
Əliyev Məhərrəm Tapdıq oğlu (1949)
Əliyeva Zərintac Tapdıq qızı (1951)

96. Namazov Xıdır Əli oğlu (1870)
***yoldaşı:*** Namazova Qızxanım Musa qızı
***övladları:*** Əliyev Cavanşir Xıdır oğlu (1933)
Əliyev Ramazan Xıdır oğlu (1932)
Əliyev Nəbi Xıdır oğlu (1936)
***Qeyd:*** *Bu ailədən Qızxanım və Nəbi 1957-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

97. Əliyev Məhəmməd Xıdır oğlu (1928)
***yoldaşı:*** Əliyeva İpək Hüseyn qızı (1933)
***Qeyd:*** *Yeni Daşkənd kəndində ilk uşaq (Nurəddin) bu ailədə doğulub. Bu ailə 1961-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

98. Babayev Sayad Əli oğlu (1899)
***övladları:*** Babayev Qırış Sayad oğlu (1932)
Babayeva Pakizə Sayad qızı (1933)
Babayev Zülfəli Sayad oğlu (1934)
Babayeva Şəni Sayad qızı (1941)
Babayev Məhəmməd Sayad oğlu (1946)

***Qeyd:*** *Bu ailədən Babayev Sayad Əli oğlu 1962-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

99. Hümbətov Nağı İsmayıl oğlu (1916)
***yoldaşı:*** Hümbətova Bəyaz Həsənəli qızı (1926)
***övladları:*** Hümbətov Ələddin Nağı oğlu (1952)

100. Əliyev Əliş Bəylər oğlu (1929)
***anası:*** Süleymanova Harus Hümbət qızı (1910)
***bacıları:*** Əliyeva Bilqeyis Bəylər qızı (1934)
Əliyeva Zeynəb Bəylər qızı (1937)
Əliyeva Qüdrət Bəylər qızı (1939)

101. Həsənova Güllü İmamqulu qızı

102. Nəzərov Elyaz (İlyas) Hüseyn oğlu (1900)
***yoldaşı:*** Nəzərova Savat Mehdi qızı (1918)
***övladları:*** Nəzərov Dəmir Elyaz oğlu (1932)
Nəzərov Qurban Elyaz oğlu (1948)
Nəzərova Xanım Elyaz qızı (1952)
***ögey övladı:*** Həsənov Əli Alı oğlu (1943)

103. Nəzərov Xıdır Cəlil oğlu (1912)
***yoldaşı:*** Nəzərova Nazlı Yusif qızı (1912)
***övladları:*** Nəzərov İfrat Xıdır oğlu (1948)
Nəzərov Əbülfəz Xıdır oğlu (1951)
***anası:*** Nəzərova Gülgəz Kərbəlayı Məhəmməd qızı (1882)
***Qeyd:*** *Bu ailə 1957-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

104. Nəzərov Yaqub Elbəyi oğlu
***qardaşı:*** Nəzərov Şamxay Elbəyi oğlu
***bacısı:*** Nəzərova Firəngiz Elbəyi qızı
***Qeyd:*** *Bu ailədən Şamxay və Firəngiz 1957-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

105. Əsədov Həbib Abbas oğlu (1913)
***yoldaşı:*** Əsədova Nənəş Mustafa qızı (1915)
***övladları:*** Əsədova Şəfiqə Həbib qızı (1941)
Əsədov Zülal Həbib oğlu (1946)
Əsədov Bilal Həbib oğlu (1949)
Əsədov Hilal Həbib oğlu (1952)
***anası:*** Əsədova Gövhər Kərbəlayı Hümbət qızı
***Qeyd:*** *Bu ailədən Zülal təxminən 1970-ci illərdə geriyə, Daşkəndə qayıdıb.*

106. Quliyev Ələkbər Qasım oğlu (1896)
***yoldaşı:*** Quliyeva Zafta Cəmil (1904)
***övladları:*** Quliyeva Minayə Ələkbər qızı (1933)
Quliyeva Bilqeyis Ələkbər qızı (1934)
Quliyeva Marusa Ələkbər qızı (1939)
Quliyeva Lətifə Ələkbər qızı (1941)
Quliyeva Tabəs Ələkbər qızı (1945)
Quliyev Qənimət Ələkbər oğlu (1950)

107. Məhərrəmov Abuzər Bayram oğlu
***yoldaşı:*** Məhərrəmova Salatın
***övladları:*** Bayramov Əfsəl Abuzər oğlu (1932)
Bayramova Gülsüm Abuzər qızı (1937)
Bayramov Əli Abuzər oğlu (1943)

108. Bayramov Əyyub Abuzər oğlu (1926)
***yoldaşı:*** Bayramova Məleykə Cahangir qızı (1934)
***övladı:*** Bayramova Siyatel Əyyub qızı (1951)
***Qeyd:*** *Bu ailə təxminən 1961-ci ildə geriyə, Daşkəndə qayıdıb.*

109. Hümbətova Kövsər Salah qızı (1909)
***övladları:*** Hümbətov Nemət Tağı oğlu (1937)
Hümbətova Həlimə Tağı qızı (1938)
Hümbətov Səttər Tağı oğlu (1940)

110. Hümbətov Abdulla İsmayıl oğlu (1926)
***yoldaşı:*** Hümbətova Rəqiyə Fərrux qızı (1933)
***övladı:*** Hümbətova Əsmətel Abdulla qızı (1951)

111. Şairov Kərəm Əsəd oğlu (1890)
***yoldaşı:*** Şairova Gülçöhrə Qəmbər qızı
***övladları:*** Əsədov Əlibaba Kərəm oğlu (1925)
Şairov Mikayıl Kərəm oğlu (1934)
Əsədov İbrahim Kərəm oğlu (1940)

112. Əsədov Bahadur İsgəndər oğlu (1911)
***yoldaşı:*** Əsədova Növrəstə İsmayıl qızı (1913)
***övladları:*** Əsədov Aftandil Bahadur oğlu (1941)
Əsədova Nüşabə Bahadur qızı (1952)

113. Elyazov Abbas Mansur oğlu (1891)
***yoldaşı:*** Elyazova Fitat Qasım qızı (1907)
***övladları:*** Mansurov Əfsəl Abbas oğlu (1930)
Mansurov Əsgər Abbas oğlu (1933)
Mansurov Ələs Abbas oğlu (1937)

114. Piriyev Mehdi Bayramqulu oğlu (1870)
***yoldaşı:*** Piriyeva Səfurə Qasım qızı (1889)
***övladları:*** Bayramquliyev Murtuz Mehdi oğlu (1926)
Bayramquliyeva Xuraman Mehdi qızı (1932)
Piriyev Yaqub Mehdi oğlu (1936)
Bayramquliyeva Nərgiz Mehdi qızı (1937)

115. Mustafayev Hüseynqulu Cəmil oğlu (1898)
***yoldaşı:*** Mustafayeva Günəş Kərim qızı (1900)
***övladları:*** Cəmilova Röyzə Hüseynqulu qızı (1927)
Cəmilov İsaq Hüseynqulu oğlu (1934)
Cəmilova Gülşad Hüseynqulu qızı (1939)
Cəmilov Qismət Hüseynqulu oğlu (1945)
Cəmilova Gülgəz Hüseynqulu qızı

116. Alıyev Məjlum Mədət oğlu (1898)
***yoldaşı:*** Alıyeva Bahar
***övladları:*** Mədətov Muxtar Məjlum oğlu (1932)
Alıyeva Salatın Məjlum qızı (1933)
Mədətova Firəngiz Məjlum qızı (1935)

117. Şıxəliyev Məcid Cəfər oğlu (1903)
***yoldaşı:*** Şıxəliyeva Gözəl Əbil qızı (1910)
***övladları:*** Cəfərov Əmirxan Məcid oğlu (1936)
Şıxəliyeva Samaya Məcid qızı (1939)
Şıxəliyev Əlixan Məcid oğlu (1947)

118. Hüseynov Bədəl
***yoldaşı:*** Hüseynova Mehparə Xıdır qızı
***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Kərkibaş kəndindən olub, sonralar Şəmkir rayonuna köçüb.*

119. Bayramov Xıdır Məhərrəm oğlu
***yoldaşı:*** Bayramova Kövsər Əbil qızı
***övladı:*** Bayramov Zülfüqar Xıdır oğlu (1928)
***onun yoldaşı:*** Bayramova Salatın Qurban qızı (1926)
***onun övladı:*** Bayramov Qədim Zülfüqar oğlu (1950)

120. Qurbanov İbrahim Allahverdi oğlu
***bacısı:*** Qurbanova Bəyaz Allahverdi qızı
***yoldaşı:*** Qurbanova Həcər Mirməhəmməd qızı
***övladı:*** Qurbanov İsmayıl İbrahim oğlu (1932)
***onun yoldaşı:*** Qurbanova Şöykət Əbuzər qızı (1928)
***onun övladı:*** Qurbanov Möhübbət İsmayıl oğlu (1950)

121. Qurbanov Abuzər İsmayıl oğlu (1895)
***yoldaşı:*** Qurbanova Narın Hacı Allahverdi qızı (1898)
***övladları:*** İsmayılov Məhəmməd Abuzər oğlu (1934)
İsmayılov Musa Abuzər oğlu

122. İbrahimova Zeynəb Əli qızı (1917)
***övladları:*** İbrahimova Səmayə İsrafil qızı (1935)
Hümbətalıyev Sədi İsrafil oğlu (1937)
İbrahimov Zahid İsrafil oğlu (1941)

123. Həsənov Ağaməli Abbas oğlu (1915)
***yoldaşı:*** Həsənova Gövhər Namaz qızı (1935)
***qardaşı:*** Həsənov İmaməli Abbas oğlu (1910)
***onun övladları:*** Həsənov Eldar İmaməli oğlu (1937)
Həsənova Mais İmaməli qızı (1938)
Həsənova Ülkər İmaməli qızı (1940)

***Qeyd:*** *Bu ailə 1948-ci ildə Bərdə rayonuna köçüblər. 1953-cü ildə Yeni Daşkənd kəndində məskunlaşıblar.*

124. İsmayılov Əmirəhməd Qurban oğlu (1938)

125. Hüseynov Hüseyn Şükür oğlu (1907)
***yoldaşı:*** Hüseynova Midvari Şəmil qızı (1912)
***övladları:*** Hüseynova Səkinə Hüseyn qızı (1932)
Hüseynova Firəngiz Hüseyn qızı (1934)
Hüseynov Əlif Hüseyn oğlu (1936)
Hüseynova Kimya Hüseyn qızı (1938)
Şükürov Şəmil Hüseyn oğlu (1940)
Hüseynov Talıb Hüseyn oğlu (1948)

126. Hüseynov Abbasəli İvathüseyn oğlu (1880)
***yoldaşı:*** Hüseynova Gülgəz Məhərrəm qızı (1920)
***övladları:*** Hüseynov Məhəmməd Abbasəli oğlu (1930)
Hüseynov Yaqub Abbasəli oğlu (1934)
Hüseynova Savat Abbasəli qızı (1936)
Hüseynov Qələndər Abbasəli oğlu (1952)

127. Hüseynov İmaməli Abbasəli oğlu (1925)
***yoldaşı:*** Hüseynova Mədinə Məhəmməd qızı (1933)
***övladı:*** Hüseynov Akif İmaməli oğlu (1948)

128. Şairov Məhəmməd Şamil oğlu (1926)
***yoldaşı:*** Şairova Gülgəz Mirzə qızı (1927)
***övladı:*** Şairov Vaqif Məhəmməd oğlu (1951)
***anası:*** Şairova İnci Allahverdi qızı (1880)
***qardaşı:*** Şairov Mahmud Şamil oğlu (1936)
***əmisi:*** Şairov Heydər Xəlil oğlu

129. Məmmədov Məmməd Qədir oğlu (1897)
***yoldaşı:*** Məmmədova Muxru Oruc qızı (1910)
***övladları:*** Məmmədov İsabalı Məmməd oğlu (1936)
Məmmədova Qənifə Məmməd qızı (1937)
Məmmədova Qəribə Məmməd qızı (1939)
Məmmədova Şöylə Məmməd qızı (1941)
Məmmədov Mahmud Məmməd oğlu (1945)
Məmmədov Fizulla Məmməd oğlu (1949)
Məmmədov Bolu Məmməd oğlu (1953)

130. Məmmədov Behbud Qədir oğlu (1898)
***yoldaşı:*** Məmmədova Tutu Abbas qızı
***övladları:*** Məmmədova Səmayə Behbud qızı (1932)
Məmmədov Rəsil Behbud oğlu (1936)
Məmmədov Telman Behbud oğlu (1941)
Məmmədova Kifayət Behbud qızı
Məmmədov Əsəd Behbud oğlu (1946)

## DEPORTASİYA

### 1988–1989-cu illər[1]

1988-ci ilin fevralından başlanan bu proses həmin ilin noyabr-dekabr aylarında kulminasiya nöqtəsinə çatdı. Dekabrın 7-də baş verən Spitak (Hamamlı) zəlzələsindən sonra bir müddət ermənilərin başları dağıntıların nəticələrini aradan qaldırmağa qarışsa da, proses artıq geriyədönməz xarakter almışdı. Deportasiya aksiyası 1989-cu ilin yayında başa çatdırılmış hesab olundu.

1985-ci ildə Mixail Qorbaçovun SSRİ-nin rəhbərliyinə gəlməsindən sonra "yenidənqurma" və "aşkarlıq" pərdəsi altında Ermənistanda və DQMV-də millətçilik ab-havası gündən-günə qızışırdı. Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə pərdəsi altında Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinin qarşısını ala biləcək şəxs – Heydər Əliyev 1987-ci il oktyabrın 19-da erməni lobbisinin təzyiqi ilə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Bundan az sonra noyabrın 18-də Sov.İKP MK-nın baş katibi M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi.

Həmin ilin noyabrında M. Qorbaçov ABŞ-da səfərdə olarkən onun xanımı Raisa Qorbaçova erməni diasporunun nümayəndələri ilə görüşmüşdü. Görüşün təşkilində SSRİ-nin həmin vaxt ABŞ-dakı səfiri Yuri Dubininin xanımı Liana Zavenovna Dubinina xüsusi fəallıq göstərmişdi. Raisa Qorbaçovanın tamahına bələd olan ermənilər ona qiymətli hədiyyələr bağışlamış, M. Qorbaçovdan Dağlıq Qarabağ ermənilərinin tələblərini yerinə yetirməyi xahiş etmişdilər.

---

[1] Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın "Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988–1989-cu illər deportasiyası" adlı məqaləsindən ixtisarla.

1987-ci ilin avqustunda ermənilər Dağlıq Qarabağdan və Ermənistandan 75 min imza toplayaraq Kremlə göndərmişdilər. Dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin təmsilçiləri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etmişdilər. Dağlıq Qarabağın erməni icmasının daha bir müraciəti və toplanmış imzaları 8 yanvar 1988-ci ildə SSRİ Ali Soveti sədrinin birinci müavini Pyotr Demiçevə təqdim edilmişdi.

DQMV Xalq Deputatlar Sovetinin növbədənkənar sessiyasının çağırılacağı xəbərini alan Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov 1988-ci il fevralın 20-də səhər-səhər təyyarə ilə Xankəndiyə gəlmiş, Vilayət Partiya Komitəsinin büro iclasını keçirmiş, erməni separatizminin qarşısını almağa çalışmışdı. Lakin elə həmin gün axşam Vilayət Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası keçirilmiş, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qərar qəbul edilmiş və qərara anlayışlı yanaşılması üçün Azərbaycan və Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdı.

Elə həmin gün Qafan rayonundan qovulan azərbaycanlı qaçqınların ilk dəstəsinin nümayəndələri Azərbaycan KP MK-da qəbul edilmişdi.

Fevralın 22-də ermənilər Əsgəran rayonunda Bəxtiyar Quliyev və Əli Hacıyev adlı iki gənci qətlə yetirdikdən sonra Xankəndi-Ağdam yolunda Ağdam rayonunun sakinləri ilə Əsgəran sakinləri arasında qarşıdurma olmuş, 19 nəfər yaralanmışdı. Fevralın 25-də Azərbaycanın öz ərazisindən azərbaycanlıların ilk qaçqınlıq dalğası başladı. DQMV-nin ərazisində ermənilərin təzyiq və təhqirlərinə tab gətirməyən 540 ailə (təqribən 2,5 min nəfər) Ağdam rayonuna, 150 ailə isə (təqribən 500–600 nəfər) Ağcabədi rayonuna pənah gətirmişdi.

Ermənistan ərazisindən isə azərbaycanlıların deportasiyası günügündən intensivləşirdi. Fevralın 28-nə olan rəsmi məlumata görə, Qafan rayonundan qonşu Zəngilan rayonuna təqribən 2 min nəfər azərbaycanlı qaçqın kimi gəlmişdi. Həmin günlərdə İmişli və Qubadlı

rayonlarına da Ermənistandan yüzlərlə qaçqın ailəsi pənah gətirmişdi. Abşeron rayonuna Ermənistandan canını qurtarıb gələn 200 nəfər qaçqını Mərkəzi Komitənin birinci katibi K. Bağırov və Moskvadan gələn yüksək vəzifəli şəxslər qəbul etmişdilər.

Ermənistandan azərbaycanlıların deportasiyasının qarşısını almağın mümkünsüzlüyünü görən Azərbaycan KP MK martın 1-də Həsən Həsənovun başçılığı ilə Ermənistandan gələn azərbaycanlılarla iş aparmaq məqsədilə respublika komissiyası yaratmışdı.

Fevralın 27–28-də Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra DTK-nın ssenarisi və erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədildi. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni qaçqınlıq dalğası başladı.

Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 200 mindən artıq azərbaycanlını deportasiya etmək, Dağlıq Qarabağ problemini həll etmək qədər vacib idi. Azərbaycan hökuməti isə Ermənistandan gələn qaçqınları yük maşınlarına dolduraraq geri qaytarmaqla öz işini bitmiş hesab edirdi. 1988-ci il martın 21-nə olan rəsmi məlumata görə, fevralın 28-dən həmin günədək Ermənistandan 16900 nəfər qaçqın gəlmiş, onlardan 8600 nəfəri geri qaytarılmışdı.

Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək, onların problemlərini həll etmək məqsədilə Azərbaycan KP MK-nın katibi Ramiz Mehdiyevin başçılığı ilə İrəvana nümayəndə heyəti göndərilmişdi. 13–15 aprel 1988-ci il tarixində Ermənistanda olmuş nümayəndə heyəti iki dəfə Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyanla görüşmüşdü. Lakin verilən vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqlara və onların deportasiyasına son qoyulmamışdı. Ermənistandan qovulan azərbaycanlılar Azərbaycan KP MK-ya gələrək, onların Dağlıq Qarabağda məskunlaşdırılmalarını xahiş edirdilər. Azərbaycan rəhbərləri isə nəinki onlara bu şəraiti yaradır, əksinə, onları DQMV-nin ərazisinə buraxmamaq haqqında hüquq-mühafizə orqanlarına möhkəm-möhkəm tapşırıqlar verirdilər.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək,

SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı.

İyunun 17–20-də İrəvanda teatr meydanında mitinqə toplaşan qeyzlənmiş erməni dəstələri avtobuslarla azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçilər, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər.

1988-ci il iyulun 9-da Azərbaycan KP MK-nın yeni birinci katibi Əbdürrəhman Vəzirovun tapşırığı ilə Şuşada və DQMV-nin digər məntəqələrində özbaşına və yaxud qohumlarının yanında məskunlaşmış azərbaycanlı qaçqınlar muxtar respublika ərazisindən çıxarılaraq digər rayonlara göndərildilər.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi haqqında qərar qəbul etdikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

1988-ci il iyunun 15-dən etibarən Basarkeçər rayonunun Şişqaya və Nərimanlı, Krasnoselsk rayonunun Gölkənd və Şorca kəndlərində yaşayan azərbaycanlılar "Göyçə mahalına muxtariyyət!", "Torpaqdan pay olmaz!", "Eşq olsun Azərbaycana!" şüarları ilə mitinqlər keçirdilər. Ermənilərin hədə-qorxularına və silahlı basqınlarına məruz qalan Basarkeçər və Krasnoselsk rayonlarının 60 min nəfərdən artıq azərbaycanlı əhalisi 3-4 ay ərzində tamamilə deportasiya edildi. Azərbaycan türklərinin doğma yurd yerlərindən qovulması prosesi zamanı bütün Ermənistan ərazisində olduğu kimi, Göyçə də azərbaycanlılardan təmizləndi

1988-ci il noyabrın ortalarında Ermənistandan Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakıda Azadlıq meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edilmişdi. Ermənistan televiziyası həmin gün Bakıda keçirilən mitinqdən reportajlar göstərərək, həmin qətnamənin tələblərini dəfələrlə efirdə səsləndirmişdi. Noyabrın 22-də Ermənistan SSR Ali Sovetinin azərbaycanlı deputatların iştiraki olmadan növbədənkənar sessiyası çağı-

rılmışdı. Rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını başa çatdırsınlar.

Deportasiya aksiyasını müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün Kalinino, Spitak, Quqark, Noyemberyan, Krasnoselsk, Vardenis, Yeğeqnadzor, Əzizbəyov, Ararat, Masis, Sisyan və Meğri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərmişdilər.

1988-ci il dekabrın 7-də Spitak zəlzələsinin baş verməsinədək Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları bütün rayonlarda erməni silahlı dəstələri kütləvi qırğınlar, qətl və qarətlər törətmişdilər.

Müvafiq sənədlər və şahidlərin verdikləri ifadələr əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988–1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfəri maşın partladılması, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar.

1988–1989-cu illər deportasiyası dövründə təkcə Basarkeçər və Krasnoselsk rayonlarından müxtəlif səbəblərdən 63 nəfərin həyatlarına son qoyulmuşdu.

Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi.

Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci

ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabr tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 nəfər rəhbər işçini partiya sıralarından xaric etmiş, 68 nəfərə partiya tənbehi vermişdi.

Məhz Moskvanın ermənilərə arxa durması nəticəsində 1988–1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Ermənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı.

Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd rayonundan və 6 şəhərindən təqribən 250 min azərbaycanlı tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular.

1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29,8 min $km^2$) 25 faizini, yaxud təqribən 7,5 min $km^2$ təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min $km^2$) təqribən 3 min $km^2$ artıqdır.

XX əsrdə ermənilər havadarlarının köməyi ilə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı 1905–1906-cı illərdə və 1918–1920-ci illərdə etnik təmizləmə, 1930-cu illərdə kütləvi repressiyalar, 1948–1953-cü illərdə deportasiya həyata keçirmiş və nəhayət, 1988–1989-cü illərdə etnik təmizləməni başa çatdırmağa müvəffəq olmuşlar.

**Mənbə:** Nazim Mustafa. “Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988–1989-cu illər deportasiyası” // “Xalq qəzeti”, 8–10 dekabr 2013-cü il, №. 271–272. // http://nazimmustafa.info/?p=307

## Sov. İKP MK və SSRİ Nazirlər Soveti
## 6 dekabr 1988-ci il
## Qərar

### "Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında"

Sov.İKP MK və SSRİ Nazirlər Soveti xüsusi narahatlıqla qeyd edirlər ki, Azərbaycan SSR və Ermənistan SSR-də yerli partiyaların, sovet və təsərrüfat orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin razılığı və çox vaxt bilavasitə iştirakı ilə dözülməz vəziyyət yaranmışdır ki, ekstremist təfəkkürlü qruplar tərəfindən vətəndaşların milli mənsubiyyətə görə daimi yaşayış yerlərindən kütləvi surətdə çıxarılmasına və getməsinə səbəb olan hərəkətlər törədirlər. Nəticədə hər iki respublikadan on minlərlə insan evsiz, işsiz, dolanışıqsız qalıblar. Beləliklə, sovet xalqının konstitusiya hüquqları pozulur, onlara mənəvi və maddi ziyan vurulur. Bütün bunlar respublikaların ağır vəziyyətini daha da gərginləşdirir. Yerli hüquq-mühafizə orqanları bir çox hallarda asayişin bərpası üçün lazımi tədbirlər görmür, ekstremist ünsürlərin hərəkətlərinin qarşısını almır.

Vətəndaşların mənafeyini qorumaq, yerli partiya, sovet və təsərrüfat orqanlarının vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinin qarşısını almaq məqsədilə Sov.İKP MK və SSRİ Nazirlər Soveti qərara alırlar:

1. Azərbaycan SSR və Ermənistan SSR-in yerli partiya, sovet və təsərrüfat orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin insanların milli mənsubiyyətə görə daimi yaşayış yerlərindən köçürülməsinə və ölkədən getməsinə yol verən və onlara göz yuman hərəkətləri SSRİ vətəndaşlarının konstitusiya hüquqlarının kobud şəkildə pozulması kimi pislənsin.

2. Azərbaycan və Ermənistan KP MK-dan, Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərindən, bu respublikaların hüquq-mühafizə orqanlarından bu qanunsuz hərəkətlərin qarşısının alınması

üçün təcili və qəti tədbirlər görmələri tələb edilsin. Hər bir belə fakta ciddi siyasi qiymət verilsin. Özbaşınalığa və qanunsuzluğa yol verən şəxslərin partiyada, dövlət aparatında və hüquq-mühafizə orqanlarında olması bir araya sığmayan hesab edilsin.

3. Azərbaycan SSR və Ermənistan SSR partiya və sovet orqanları daimi yaşayış yerlərini tərk etmiş əhaliyə kömək və yardım göstərmək üçün lazım olan hər şeyi həyata keçirsinlər. İnsanların öz yaşayış yerlərinə, normal iş fəaliyyətlərinə qayıtması üçün siyasi, təşkilati və praktiki işdən geniş şəkildə istifadə edilsin.

Hökumət Komissiyasına bu kəskin və aktual problemin həllində hər cür köməklik göstərilsin.

Sov.İKP MK-nın katibi: M.Qorbaçov
SSRİ Nazirlər Sovetinin sədri: N.Rıjkov

## 1988-ci ilin noyabr-dekabr aylarında Basarkeçər rayonunun Daşkənd kəndindən deportasiya olunmuş və Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmış ailələrin siyahısı

1. Məhərrəmov Əmirxan Həsən oğlu (1936)
***yoldaşı:*** Məhərrəmova Gülavatın Şükür qızı (1940)
***övladları:*** Məhərrəmova Müdafiə Əmirxan qızı (1969)
Məhərrəmov Mehdi Əmirxan oğlu (1973)
Məhərrəmov Əli Əmirxan oğlu (1975)
Məhərrəmov Həsən Əmirxan oğlu (1977)
Məhərrəmova Könül Əmirxan qızı (1981)

2. Camalov Cəmil Balış oğlu (1929)
***yoldaşı:*** Camalova Sərəngiz Mahmud qızı (1936)
***övladları:*** Camalov Şamil Cəmil oğlu (1968)
Camalov Müsəllim Cəmil oğlu (1971)
Camalov Əli Cəmil oğlu (1975)
Camalov Əkbər Cəmil oğlu (1976)
Camalova Sarıtel Cəmil qızı (1973)

3. Camalov Bayram Cəmil oğlu (1966)
***yoldaşı:*** Camalova Müşgülat Əmirxan qızı (1967)
***övladı:*** Camalov Elməddin Bayram oğlu (1987)

4. Piriyev Əsgər Kərim oğlu (1913)
***yoldaşı:*** Piriyeva Narın Qasım qızı (1903)

5. Məhərrəmov Ədalət Əmirxan oğlu (1962)
***yoldaşı:*** Məhərrəmova Nəsibə Rəsul qızı (1963)
***övladı:*** Məhərrəmova Nuranə Ədalət qızı (1986)

6. Hacıyev Həsən İsmayıl oğlu (1913)
***yoldaşı:*** Hacıyeva Qumru Mürsəl qızı (1915)
***övladı:*** Hacıyeva Bəsti Həsən qızı (1966)

7. Həsənov Sultan Əli oğlu (1928)
***yoldaşı:*** Həsənova Sumaya Himoy qızı (1929)
***qızı:*** Həsənova Aqilə Sultan qızı (1966)
***oğlu:*** Həsənov İbrahim Sultan oğlu (17.01.1960)
***onun yoldaşı:*** Həsənova Gülnaz Oruc qızı (1963)
***onun övladı:*** Həsənov Malik İbrahim oğlu (10.05.1985)

***Qeyd:*** *Bu ailədən Sultan 1989-cu ilin may ayında evini dəyişmək üçün Daşkəndə qayıdarkən kənddə ürəyi dayanmışdır. Gülnaz və oğlu Malik 2015-ci ildə Yeni Daşkənddən Sumqayıt şəhərinə köçüblər.*

8. Məmmədov İbrahim Kərim oğlu (1925)
***yoldaşı:*** Məmmədova Quşayıl Həsən qızı (1922)

9. Xudiyev Rəşid Səfi oğlu (1936)
***yoldaşı:*** Xudiyeva Qələnfir İsmayıl qızı (1945)
***övladları:*** Xudiyev Ələsgər Rəşid oğlu (1967)
Xudiyev Elxan Rəşid oğlu (1968)
Xudiyev Sərdar Rəşid oğlu (1971)
Xudiyeva Gülnaz Rəşid qızı (1973)
Xudiyev Oqtay Rəşid oğlu (1976)
Xudiyeva Gülüstan Rəşid qızı (1978)
Xudiyeva Əsli Rəşid qızı (1981)

***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Göysu kəndindən gəlib.*

10. Məmmədov Ərzuman İbrahim oğlu (1958)
***yoldaşı:*** Məmmədova Suqra Medoş qızı (1958)
***övladları:*** Məmmədov Amin Ərzuman oğlu (1980)
Məmmədov Əlizamin Ərzuman oğlu (1981)
Məmmədov Namiq Ərzuman oğlu (1984)
Məmmədova Yeganə Ərzuman qızı (1986)

11. Məsimov Oruc Budaq oğlu (1926)
***yoldaşı:*** Məsimova Urqiyyə Albaba qızı (1932)
***övladı:*** Məsimova Hökümə Oruc qızı (1968)

12. Əhmədov Surxay Ziyad oğlu (1938)
***yoldaşı:*** Əhmədova Lətifə Ələkbər qızı (1941)
***övladları:*** Əhmədov Azər Surxay oğlu (1967)
Əhmədov Elçin Surxay oğlu (1968)
Əhmədov Teyyub Surxay oğlu (1970)

13. Quliyev Zahid Əli oğlu (1944)
***yoldaşı:*** Quliyeva Pəri Avılı qızı (1940)
***övladları:*** Quliyeva Əminə Zahid qızı (1968)
Quliyev Vaqif Zahid oğlu (1970)
Quliyev Elman Zahid oğlu (1979)
Quliyeva Esmira Zahid qızı (1985)

14. Əliyev Məmməd Həsən oğlu (1924)
***yoldaşı:*** Əliyeva Ceyran Süleyman qızı (1933)
***övladları:*** Əliyev İbadət Məmməd oğlu (1971)
Əliyeva Maral Məmməd qızı (1974)

15. Canbaxışov Surxay Bəhmən oğlu (1932)
***yoldaşı:*** Canbaxışova Suraya İslam qızı (1936)
***övladları:*** Canbaxışov Zöhrab Surxay oğlu (1968)
Canbaxışov Elman Surxay oğlu (1970)
Canbaxışova Şahnaz Surxay qızı (1972)
Canbaxışov Mahmud Surxay oğlu (1975)
Canbaxışov Bayram Surxay oğlu (1977)
***oğlu:*** Canbaxışov Bəndər Surxay oğlu (1966)
***onun yoldaşı:*** Canbaxışova Nərminə Xasay qızı (1965)

16.Əliyev Məhəmməd Xıdır oğlu (1928)
***yoldaşı:*** Əliyeva İpək Hüseyn qızı (1933)
***övladları:*** Əliyeva Əsli Məhəmməd qızı (1965)
Əliyev Məhəddin Məhəmməd oğlu (1967)
Əliyev Rəşid Məhəmməd oğlu (1969)
Əliyev Əziz Məhəmməd oğlu (1970)
Əliyev Ələddin Məhəmməd oğlu (1974)
Əliyeva Sara Məhəmməd qızı (1974)

17.Əliyev Nəsrəddin Məhəmməd oğlu (1961)
***yoldaşı:*** Əliyeva Qənifə İslam qızı (1965)
***övladı:*** Əliyev Eldəniz Nəsrəddin oğlu (1987)

18. Qocamanova Qəmzə Məcid qızı (1939)
***övladı:*** Vəliyev Dilqəm Adıgözəl oğlu (1986)
***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Subatan kəndindən gəlib.*

19. Qocamanova Mələk Camal qızı (1916)
***övladı:*** Calalova Məleykə Meydanəli qızı (1940)
***nəvələri:*** Calalova Elyanə Hüseyn qızı (1975)
Calalova Şahnaz Rza qızı (1982)

20. Bayramov İbrahim Albaba oğlu (1942)
***yoldaşı:*** Bayramova Mələksuma Hüseyn qızı (1953)
***övladları:*** Bayramova Təranə İbrahim qızı (1972)
Bayramova Şahnaz İbrahim qızı (1973)
Bayramova Arzu İbrahim qızı (1975)
Bayramova Nigar İbrahim qızı (1977)
Bayramov Mirmehdi İbrahim oğlu (1978)
Bayramova Zülfüyyə İbrahim qızı (1980)
***bacısı:*** Abbasova Zeynəb Albaba qızı (1936)

21. Əliyev Nəbi Xıdır oğlu (1936)
***yoldaşı:*** Əliyeva Sədət Sayad qızı (1940)
***övladları:*** Əliyev Nüsrət Nəbi oğlu (1967)
Əliyev Murad Nəbi oğlu (1970)
Əliyev Dilafət Nəbi oğlu (1976)

22. İsmayılov Rəhim Cəmil oğlu (1941)
***yoldaşı:*** İsmayılova Müşgünaz Hümbət qızı (1950)
***övladları:*** İsmayılova Şəhla Rəhim qızı (1970)
İsmayılov Seymur Rəhim oğlu (1972)
İsmayılova Qətibə Rəhim qızı (1974)
İsmayılov Mərdan Rəhim oğlu (1977)

23. Paşayev Rza İsaq oğlu (1956)
***yoldaşı:*** Paşayeva Havva Oruc qızı (1958)
***övladları:*** Paşayev Tacəddin Rza oğlu (1985)
Paşayeva İlahə Rza qızı (1982)
Paşayeva İlhamə Rza qızı (1980)
***anası:*** Paşayeva Süzəndə Paşa qızı (1935)
***Qeyd:*** *Bu ailə 1988-ci ildə Bərdə rayonunun Qarabağ qəsəbəsində, 2003-cü ildən isə Yeni Daşkənd kəndində məskunlaşıblar.*

24. Kərimov Knyaz Rəsul oğlu (1952)
***yoldaşı:*** Kərimova Fatma Cəmil qızı (1955)
***övladları:*** Kərimova Nəzakət Knyaz qızı (1974)
Kərimova Ləzifə Knyaz qızı (1977)
Kərimov Ramin Knyaz oğlu (1979)
Kərimov Samir Knyaz oğlu (1981)
Kərimova Vəfa Knyaz qızı (1983)
Kərimova İradə Knyaz qızı (1985)
***atası:*** Kərimov Rəsul İsmayıl oğlu (1919)
***anası:*** Kərimova Fərəh Balış qızı (1924)

25. Hüseynov Fərman Möhsüm oğlu (1939)
***yoldaşı:*** Hüseynova Həqiqət Məhərrəm qızı (1947)
***övladları:*** Hüseynov Elnur Fərman oğlu (1974)
Hüseynova Şəhran Fərman qızı (1976)
Hüseynova Dilbər Fərman qızı (1979)
Hüseynov Elməddin Fərman oğlu (1984)
Hüseynov Nofəl Fərman oğlu (1988)

26. Əliyev Sabir Cəbrayıl oğlu (1940)
***yoldaşı:*** Əliyeva İmmi Əsgər qızı (1944)
***övladları:*** Əliyev Əfqan Sabir oğlu (1965)
Əliyev Şəmsi Sabir oğlu (1974)
Əliyev Habil Sabir oğlu (1977)
***anası:*** Süleymanova Leylan Qasım qızı (1923)

***Qeyd:*** *Bu ailə bir müddət Göygöl rayonunun Çaykənd kəndində yaşadıqdan sonra, 1996-cı ildə daimi olaraq Yeni Daşkənd kəndində məskunlaşıblar.*

27. Qocamanov Qocaman Camal oğlu (1923)
***yoldaşı:*** Qocamanova Zəhra Məhərrəm qızı (1924)
***övladları:*** Qocamanov Mətləb Qocaman oğlu (1959)
Qocamanova Əntiqə Qocaman qızı (1967)
***gəlini:*** Qocamanova Şəkurə Gəncəli qızı (1961)
***nəvəsi:*** Qocamanov İlham Mətləb oğlu (1986)

28. Hüseynov Vəli Səftər oğlu (1965)
***yoldaşı:*** Hüseynova Leyla Mürvət qızı (1961)
***övladları:*** Hüseynov Emin Vəli oğlu (1986)
Hüseynova Səbinə Vəli qızı (1988)
***anası:*** Hüseynova Yəmən Sarı qızı (1929)
***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən gəlib.*

29. Nəcəfova Təzəgül Gəray qızı (1938)
***övladı:*** Nəcəfova Xədicə Bəhmən qızı (1970)
***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən gəlib.*

30. Hüseynova Abuzəndə Oruc qızı (1927)
***övladı:*** Hüseynov Nuru Bəhrəm oğlu (1966)
***gəlini:*** Hüseynova Ətrabə Şikar qızı (1965)
***Qeyd:*** *Bu ailə Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən gəlib.*

## BƏRDƏ RAYONUNUN YENİ DAŞKƏND KƏNDİ

Azərbaycan Respublikasının Bərdə rayonunun inzibati ərazi vahidində yerləşən Yeni Daşkənd kəndi 1953-cü ilin may-iyun aylarında salınmışdır. İ.V.Stalinin, A.Mikoyanın və başqa ermənipərəst qüvvələrin "könüllü köçürülmə" siyasəti adı altında Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndindən 130 ailə öz doğma ata-baba yurdundan Bərdə rayonuna deportasiya olunmuşdur.

Köçürüləcək daşkəndlilərin məsləhətilə deportasiyadan bir həftə əvvəl üç ağsaqqal Bərdə rayonuna göndərilmişdir. Bərdə rayonunun ərazisi ilə tanışlıq, yurd yeri seçimi onlara həvalə olunmuşdur. Ağsaqqallardan Süleyman kişi, Xıdır kişi və Bayram kişi indiki kəndin yerini daha yaxşı hesab etmiş, buraya da köçmüşlər. Salınacaq kəndin ərazisi Bərdə rayonunun Şatırlı, İmamqulubəyli, Zümürxaç və Tərtər rayonunun Sarıcalı kəndləri aralığında yerləşmişdir.

Basarkeçər rayonunun Daşkənd kəndində 130 ailəyə köçmə bileti paylanılmış, onlara üç aylıq müvəqqədi vəsiqə verilmişdir. Köçürüləcək daşkəndlilər 1953-cü il may ayının 18-də Basarkeçər rayonunun Daşkənd kəndindən yük maşınları ilə Zəngibasar rayonundakı Uluxanlı stansiyasına gətirilmiş, oradan yük vaqonlarında Yevlax dəmiryol stansiyasına, oradan isə yük maşınları ilə Bərdə rayonunun "Yeddi çinar" deyilən ərazisinə gətiriliblər. Günlərlə yük vaqonlarında yol gələn əhali 1953-cü ilin may ayının 25–27-si aralığında qabaqcadan müəyyən olunmuş yerə çatmışlar.

Bir müddət insanlar çinarların altında yaşamalı olmuşdur. Göyçədən Bərdəyə gəlincə yolda Bolu Məmməd oğlu Məmmədov, çinarların altında isə ilk doğulan uşaq Nurəddin Məhəmməd oğlu Əliyev olmuşdur. İlk toy məclisi isə Əli Əbil oğlu Piriyevindir.

Bərdə rayon rəhbərliyi əvvəlcə 130 ailəni 10–12 kənd arasında bölməklə yerləşdirmək istəmişdir. Ayrı kənd salınması üçün plan olmamışdır. Kənd ağsaqqalları Süleyman kişi, Xıdır kişi və Bayram kişi katibin qəbulunda olmuş, fikilərini, arzularını bildirmiş, ayrıca kəndin olması üçün xahiş etmişlər. Görüşdə Süleyman kişinin hikmətli bir söhbət etməsi katibin könlünü oxşamış, ayrıca kəndin salın-

ması üçün razılıq vermişdir. Bu barədə təhsil bölümündə geniş yazılmışdır.

Həmin vaxt kənd salınacaq yerin bir hissəsində taxıl zəmisi varmış. Taxıl biçildikdən sonra rayondan rus əsilli mühəndis gələrək kəndin küçələrini, həyətyanı sahələri ölçələrək planlı şəkildə bölmüşdür. Hər bir ailə üçün 25 sot həyətyanı sahə ayrılmışdır. Baş plana uyğun olaraq Şatırlı yolu ilə birlikdə 6 küçə salınmışdır. Ev tikmək üçün ayrılan həyətlər püşkatma yolu ilə paylanılmışdır. Ancaq bu bölgüdə qohumların bir-birinə yaxın düşməsinə də şərait yaradılmışdır. Dövlət tərəfindən ayrılan kreditlə insanlar ev tikməyə başlamışdır. Təxminən bir təsərrüfata ev tikmək üçün 20 min, ehtiyacı olan hər ailəyə isə mal-qara almaq üçün 3 min manata qədər məbləğdə uzunmüddətli kredit verilmişdir. Vidadi Süleymanov kənddə ilk evin tikintisi ilə bağlı maraqlı bir əhvalat danışdı:

"Kənd salınanda Süleyman babama deyiblər:

– Birinci daşı sən qoy.

Babam əli yüngül olan Ələkbər kişini çağırıb ilk daşı ona qoydurur.

Deyirlər: – Ay kişi, ilk daşı ona niyə qoydurdun, özün qoymadın?

Babam deyir:

– Hələ may ayıdır. Bir azdan aranın istisi başlayacaq. Onda deyəcəksiz ki, ay bura daş qoyan, səni belə-belə olasan. Göyçənin sərinliyindən sonra bu istidə bu sözü götürmək istəməzdim."

Göyçə mahalının, Daşkənd kəndinin sərin dağ havasına öyrəşmiş kənd camaatı Bərdənin isti havasına çox çətinliklə tab gətirə bilirmişlər. Hətta uyğunlaşana qədər əhalidən bir neçəsi istidən dünyasını dəyişmişdir. Nənə-babalarımız danışardı ki, yağış yağanda altında durardıq ki, bir az sərinləyək. Hətta deyərdilər ki, istidən ilanlar belə mələyərdi. Kənd qəbiristanlığı salınanadək vəfat edənlər qonşu İmamqulubəyli kəndinin köhnə qəbiristanlığında dəfn olunmuşdur. Onlar İsmayıl Qurbanovun atası İbrahim, Əbil Piriyevin arvadı Hürü və başqaları olmuşdur. İndiki kənd qəbiristanlığında ilk dəfə 1954-cü ilin aprel ayında Xəlilov Səttər Oruc oğlu dəfn edilmişdir.

İnsanların yaşayışı ilk aylar çox çətin olmuşdur. İçməli su, yanacaq, qidalanma problemləri bu gün də xatırlanır. Yanacaq üçün əra-

zidəki qaratikan, yulğun kollarını toplayıb gətirib yandırar, qidalanma üçün boyana (razyana) bişirərmişlər. Qonşu kəndlərin əhalisindən ərik, əncir, şaftalı alıb yeyərmişlər.

Kənd yeni salınanda içməli su yox səviyyəsində olmuşdur. Buna baxmayaraq, suvarma üçün istifadə olunacaq su kifayət edəcək qədər varmış. Camaat “qara su”, “ağ su” adlandırdıqları arxlardan gələn suyu “Su daşı”na tökürdülər. Burada su damcı-damcı süzüldükdən sonra ondan istifadə edirdilər. O illərdə istifadə olunan həmin su daşlarından bəzi evlərdə günümüzə qədər qalmaqdadır. Arxlardan gələn su bəzən quruyanda camaat suyu “Çaylaq” dedikləri Tərtər çayının axarından gətirmişdir.

Kəndə əsas iki yerdən su gəlirdi. Qara su Sarıcalı kəndindən, ağ su isə Yeni Daşkənd dəyirmanından keçib gəlirdi və kəndin kənarından keçirdi. Bir arx da Məmmədov Əsədin evinin yanından gələrək kəndin içi ilə axıb gedirdi. O arx düz kəndin sonun qədər gedib çıxır, sonda hər iki arx birləşərək Dilənçilər (Çəmənli) gölünə qədər axırdı.

Kənddə ağsaqqalların məsləhəti ilə taxıl üyütmək üçün su dəyirmanın tikilməsi lazım bilinmişdir. Təxminən 1956-cı ildə kəndin yuxarı tərəfində dəyirman tikilmişdir. Düzəngah bir ərazidə su dəyirmanın nə qədər çətinliklə tikilib başa gəlməsini düşünmək heç də çətin deyildir. İnsanlar günlərlə torba ilə torpaq daşıyaraq axar suyun qarşısında süni hündürlük, təpə yaratmış, püşdə düzəltmişlər. Kanal ilə gələn su düzəldilmiş püştə ilə axaraq dəyirmanın pərlərinə tökülərmiş. Bu qurğunun tikintisində əsas ustalar Behbud, Səfər, Tapdıq kişi olsalar da, bütün 130 ailənin hamısı az və ya çox dərəcədə bu işdə yaxından iştirak etmişlər. Dəyirmanı ilk dəfə Səfər kişi işlədib. Sonra Usta Behbud, Pirnazarlının Elyazı, sonda isə İsgəndər Nəzərov işlədib. Su dəyirmanı təxminən 1972-ci ildən sonra işləməyib. Bu da artıq ətraf kəndlərdə çoxalan elektrik dəyirmanları ilə bağlı olmuşdur.

Sonralar, təxminən 1968-ci ildə Fəzi Kərimovun həyətyanı sahəsinin baş tərəfində artezian quyusu qazılmışdır. Lakin həmin quyudan neft, mazutlu su çıxdığından, o quyu istifadə edilməmişdir. Sonra ondan bir az aralıda Əsəd kişinin evinin yanında artezian qazılmışdır. Həmin artezian hazırda bütün kəndi içməli su ilə təmin edir. Bu artezian kənddə ilk olduğundan evlərə çəkiləcək su kranları quraş-

dırılana qədər kəndin hər yerindən gəlib ordan su aparırdılar. Buna görə də bu artezianın ətrafı bulaq başını xatırladardı. Gəlinlər, qızlar əllərində səhəng, vedrə buradan su götürərdilər.

1970-ci illərdə kolxoz sistemi vaxtlarında kəndin hər tərəfində artezian quyuları qazılmağa başlamışdır.

1980-ci illərdə Yeni Daşkənd kəndinin hər bir evinə Əsəd kişinin evinin yanındakı arteziandan su xətti çəkilmişdir. Artezianın yanında hündür su çəni qurğusu quraşdırılmış, bu qurğudan kəndin hər bir evinə içməli su verilməyə başlamışdır. Həmin illərdə “Yeni həyat” kolxozunun sədri işləyən Qiyas Kərimovun bu işdə böyük fədakarlığı olmuşdur.

2010-cu illərdə su kəmərləri bir çox küçələrdə, demək olar ki, xarab olmuşdur. 2014-cü ildə su xətləri yenilənmiş, əvvəlki vəziyyətinə qaytarılmışdır.

2015-ci ildə Fəzair Piriyevin təşəbbüsü və ABŞ səfirliyinin dəstəyi ilə kəndin bir hissəsinin su problemi həll edilmiş, 40 evə su xətti çəkilmişdir. Həmin vaxt Fəzair Piriyevin dəvəti ilə iki dəfə ABŞ səfiri Robert Sekuta kənddə olmuş, içməli su sisteminin açılışında iştirak etmişdir.

Dəniz səviyyəsindən 120 m yüksəklikdə yerləşən Yeni Daşkənd kəndinin dünyanın siyasi xəritəsində coğrafi mövqeyi (koordinatı) belədir: uzunluq dairəsi – $40^0$23'9"N, en dairəsi – $47^0$2'10"E.

Kənd ölkənin paytaxtı Bakıdan hava yolu ilə 240 km qərbdə yerləşir. Yeni Daşkəndin ətrafı düzənlikdir. Demək olar ki, tarlalarla örtülmüşdür. İqlimi qışda soyuq, yayda isti və qurudur. Orta temperatur 16 °C-dir. Ən isti ay avqustdur – 30 °C, ən soyuq ay isə yanvardır – 2 °C. Orta hesabla ildə 452 millimetr yağıntı düşür. Ən yağışlı ay 75 millimetr yağışla may, ən quraq ay isə 7 millimetr ilə avqustdur.

Kəndin ərazisi əvvəllər Aran iqtisadi rayonuna daxil olsa da, Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanına əsasən, Qarabağ iqtisadi rayonuna aid edilmişdir. Tərtər çayı kənddən 2,5 km məsafədən keçir və kəndin cənub sərhədini təşkil edir. Yeni Daşkənd kəndi Tərtər rayonunun Sarıcalı və Kürdlər, Bərdə rayonunun isə

Şatırlı, Çəmənli, İmamqulubəyli və Zümürxan kəndləri ilə həmsərhəddir. Kənd Bərdənin Tərtər yolu üstündəki sonuncu kəndidir.

Yeni Daşkənd kəndi haqqında Azərbaycan Sovet Ensiklopediyasında qısaca belə məlumat verilir: "Yeni Daşkənd – Azərbaycan SSR Bərdə rayonunda kənd. Yeni Daşkənd sovetliyinin mərkəzi. Rayon mərkəzindən 10 km qərbdə, Bərdə-Mirbəşir avtomobil yolundan 2 km aralı, Qarabağ düzündədir. Əhalisi 1280 nəfərdir (1980-ci il), pambıqçılıq, taxılçılıq, heyvandarlıq, baramaçılıq və bağçılıqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi var".[1]

Yeni Daşkənd kəndi haqqında "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə də məlumat verilmişdir: "Yeni Daşkənd – Bərdə rayonunun eyniadlı inzibati ərazi vahidində kənd. Qarabağ düzündədir. Yaşayış məntəqəsini XX əsrin 50-ci illərində qanunsuz olaraq Ermənistanın Basarkeçər (indiki Vardenis) rayonunun Daşkənd kəndindən sürgün edilmiş ailələr saldığına görə belə adlandırılmışdır. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin ikinci dəfə, yenidən salındığını, ikinci komponent isə köhnə kəndin adını bildirir."[2]

1993-cü ilə kimi Yeni Daşkənd kənd Sovetliyi olmuşdur. Kənd sovetliyinin tərkibinə Yeni Daşkənd, Zümürxaç, İmamqulubəyli və Dilənçilər kəndləri daxil idi. Azərbaycan Respublikası Milli Məclisinin 19 may 1993-cü il tarixli, 611 №-li qərarı ilə Zümürxaç kəndi Yeni Daşkənd kənd sovetliyindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Zümürxaç kənd sovetliyi yaradılmış, Yeni Daşkənd kənd sovetliyinin İmamqulubəyli və Dilənçilər kəndləri Zümürxaç kənd sovetliyinin tərkibinə verilmişdir.

Təxminən 1954-cü ildən Yeni Daşkənd kəndində poçt xidməti fəaliyyətə başlamışdır. Əliyev Məhəmməd poçt şöbəsinin ilk müdiri olmuşdur. 1961-ci ildən sonra isə Sabir (Səlimin yeznəsi), Zülfüqar (çayçı Sürayənin əri), Nəzərov Qurban, Kərimov Qəşəm, Qasımov Bayram, Məmmədov Rövşən (1979–1982), Əliyev Əlövsət (1982–1983), Məmmədov Rövşən (1983), Abdullayev Naim (1983),

---

[1] Azərbaycan Sovet Ensiklopediyası. V cild. Bakı, 1981. səh.110

[2] "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti". İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007. səh. 275

Namazova Fatma, Mustafayev Rafayıl poçt şöbəsinin müdiri olmuşlar. Hal-hazırda poçtun müdiri Qismətli Qismətdir.

1978-ci ildə montyor işləyən Bayramov Rəhim kənddə 120 evə radio, 1980-ci ildə isə 50 evə telefon xətləri çəkmişdir. Həmin illərdə Şairov Səyyad kəndin rabitə şöbəsinin rəisi vəzifəsində işləmişdir.

2004–2008-ci illərdə 384 nömrəlik elektron ATS quraşdırılmışdır.

Kənddə 1984-cü ildə əmanət bankı açılmış, Əliyev Əlövsət əmanət bankının ilk müdiri olmuşdur.

Yeni Daşkənd kəndində mağaza ilk dəfə Kərimov Arifin evi ilə üzbəüz həyətdə olmuşdur. Deyilənlərə görə, kərpicdən olan o mağazada Hacıyeva Suqra, ondan sonra isə Həsənov Ağaməli köhnə anbarın yanındakı mağazada işləmişdir. Bu mağaza da kərpicdən olmuş, sonralar daş materialından tikilmişdir. Kəndin yaşlı və orta nəsli həmin mağazanın yanında ağ neft satıldığını, orada Qasımov Bayramın çayxanası və Alıyev İsmayılın dəmirçi sexinin də olduğunu yaxşı xatırlayırlar.

Kərimov Qəşəm təxminən 1968-ci ilədək mağazada müdir olmuşdur. Ondan sonra, 1968–1978-ci illərdə Məhərrəmov Nəbi, 1978–1981-ci illərdə isə Nəbinin həyat yoldaşı Aydın və qızı Suyatel mağazada işləmişdir. 1981–1986-cı illərdə Məmmədov Dağbəyi, 1986–1988-ci illərdə Abdullayev Sahib, 1988–1989-cu illərdə Həsənov Baloğlan, yenə Məmmədov Dağbəyi və sonda isə, 1998–2001-ci illərdə Qasımova Reyvə mağaza müdiri kimi çalışmışdır. İctimai iaşə müəsissələri bağlandıqdan sonra kənddəki mağaza da fəaliyyətini dayandırmışdır. Hazırda Yeni Daşkənd kəndində bir neçə müstəqil fəaliyyət göstərən mağaza vardır.

Yeni Daşkənd kəndinin iqtisadiyyatında sovetlər dönəmindən taxılçılıq, pambıqçılıq, baramaçılıq, bostançılıq və heyvandarlıq aparıcı rol oynamışdır. Bununla yanaşı, kəndin ayrı-ayrı təsərrüfatlarında müxtəlif meyvələr də istehsal edilmişdir. Əsas kənd təsərrüfatı bitkiləri pambıq, taxıl, kartof, soğan, günəbaxan, qarğıdalı, çuğundur, kələm və başqalarıdır.

2021-ci ildə kəndin ərazisində 50 hektar sahədə pambıq əkilmiş, orta hesabla hər hektardan 30 sentner olmaqla 150 ton pambıq, 360 kq barama istehsal edilmiş, ərazidə 200 ədəd çəkil tingi əkilmişdir.

Kənd 1989-cu ildə təbii qazla təmin olunmağa başlamışdır. 1992-ci ildə Azərbaycandakı iqtisadi vəziyyətlə bağlı qazın verilişi dayandırılmışdır. Bundan sonra qaz xəttinin İmamqulubəylidən Yeni Daşkənd kəndinə qədər olan hissəsi dağılmışdır. 93 saylı Bərdə şəhər seçki dairəsindən Milli Məclisə deputat seçilən Zahid Orucun fəaliyyəti nəticəsində 2008-ci ildə kəndə təbii qazın verilişi Bərdə-Tərtər xəttindən, Soyuq bulağın yanından ayrılmaqla verilmiş, kənd yenidən təbii qazla təmin olunmuşdur.

Kəndə ilk dəfə elektrik təxminən 1957-ci ildə çəkilmişdir. Daş yoldan kəndə qədər çəkiləcək elektrik xəttinin dirəklərini yerə basdırmaq üçün kənd sakinlərindən hər bir ev bir dirək yeri qazmalı olmuşdur. Xətlər tez bir zamanda hazır olmuş, kəndə elektrik enerjisi verilməyə başlamışdır. Kəndin ilk elektrik montyoru Mahmudov Əyyub olmuşdur.

Əvvəllər ağacdan olan dirəklər sonralar daha yeni və keyfiyyətli olan beton dirəklərlə əvəz edilmişdir.

2000-ci illərdə Yeni Daşkənd yarımstansiyasında 4,0 MVA-lıq transformator 6,3 MVA-lıq transformatorla əvəz olunmuşdur.

Kənddə 2004-cü ildə kənd sakini Quliyev Rövşən Vəli oğlunun şəxsi vəsaiti ilə məscid tikilmiş, sakinlərin istifadəsinə verilmişdir.

Kənddə həkim məntəqəsi, 41 saylı Yeni Daşkənd kənd kitabxanası və uşaq bağçası-körpələr evi fəaliyyət göstərir.

Kənd düzənlikdə yerləşdiyindən və ərazisinin az olduğundan, eləcə də tarixinin çox da qədim olmamasından Yeni Daşkənddə toponimlərə çox da rast gəlinmir. Yeni Daşkənd kəndinin ərazisində coğrafi yer adlarından Köbər (Kövər), Xam, Şatırlı yolu, İmamqulubəyli yolu, Sovetliyin yeri, Kürdlərin altı, Otuz hektar, Ağ ev, Ağ evin aşağısı, Daş yol, Daş yolun o üzü, Stadionun yeri, Köhnə qəbiristanlığın altı, Qəbiristanlığın altı və başqa oronimlərə, Qara su, Ağ su, Şəlalə kompleksi, Xalidin şəlaləsi, Püşdə, Çaylaq kimi hidronimlərə və Cala, Cillik, Biçənək, Yeddi çinar, Çinarın altı, Çəkillik kimi fitonimlərə rast gəlinir.

1953-cü ildə kənddə yerləşdirilən 130 ailə 600 nəfərdən bir az çox olmuşdur. 1980-ci ildə 1280 nəfər, 1999-cu ildə 1964 nəfər (1000 kişi, 964 qadın), 2009-cu ildə 2498 nəfər (1246 kişi, 1252 qadın), 2012-ci ildə 2586 nəfər kənd əhalisi siyahıya alınmışdır. Hal-hazırda kənddə 630 təsərrüfat var. Kənddə 750 ailədən ibarət olmaqla 2768 nəfər əhali yaşayır. Seçicilərin sayı 1497 nəfərdir.

1953-cü ildən sonra 17 ailə geri, doğma Daşkənd kəndinə qayıtmışdır. Bəzi ailələr isə ayrı-ayrı illərdə Daşkənd kəndindən Yeni Daşkənd kəndinə köç edərək daimi məskunlaşmışdır.

1988-ci ilin noyabr-dekabr aylarında Basarkeçər rayonunun Daşkənd kəndindən təxminən 450 təsərrüfat (2500 nəfər) deportasiya olunmuşdur. Qaçqınlardan 56 ailə Yeni Daşkənd kəndinə gələrək müvəqqəti məskunlaşmışdır. Onlardan 38 ailə (172 nəfər) Yeni Daşkənd kəndində daimi yaşayış üçün yerləşdirilmiş, 18 ailə isə öz istəkləri ilə Azərbaycanın müxtəlif yerlərinə köç etmişdir.

1988-ci ilin dekabr ayında Əliyev Nəsrəddin, Abbasəliyev Mübariz, Xəlilov Mahir, Tağıyev Mirağa, Bayramov Fərhad və başqaları Daşkənd kəndini son tərk edənlər olmuşdur.

1989-cu ilin may ayında evlərini dəyişmək, sənədləşdirmə üçün daşkəndlilərdən Oruc, Fərhad, Müslüm, Sultan və başqaları Kəlbəcər yolu ilə 25 km piyada Daşkəndə getmiş, evinə çatanda Həsənov Sultanın ürəyi dayanmışdır. Həmin gün Məsimin maşını ilə kəndə digər yolla gedən Əli, Sənhan və Nəsrəddin kənddə eşidirlər ki, kimsə vəfat etmişdir. Məlum olur ki, vəfat edən Sultan Həsənovdur. Öldürülmə ehtimalı olması səbəbindən Basarkeçərdən rus hərbçilərin, milislərin müşayiəti ilə erməni həkimlər gələrək ekspertiza aparmış, müəyyən olunmuşdur ki, Həsənov Sultanın üzərində heç bir zorakılıq əlaməti yoxdur və o, ürək dayanmasından vəfat etmişdir. Həmin ekspertizada Məsim həkim də şəxsən yaxından iştirak etmişdir. Həsənov Sultanın meyiti Məsimin maşını ilə həmin gün Yeni Daşkənd kəndinə gətirilərək səhəri gün dəfn edilmişdir.

Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşan Zeynalabdin Əliyev isə vətən həsrətinə dözməyərək özünə qəsd etmişdir.

1988-ci ilin noyabr-dekabr aylarında Daşkənd kəndindən əhalinin deportasiyasından söz düşmüşkən, 20 sentyabr 2022-ci ildə Əliyev

Əliyarın danışdığı maraqlı bir xatirəni olduğu kimi, təqdim etmək yerinə düşərdi:

“1988-ci il noyabrın 27-si idi. Azərbaycan Kommunist Partiyası Bərdə Rayon Komitəsinin birinci katibi Əhəd Kərimovla Qoşabulaqlı Əli Ələkbərov “Yeni həyat” kolxozunun sədri Qiyas Fətəliyevlə məni rayon mərkəzinə çağırtdırdı. Mən onda kolxozda təftiş komissiyasının sədri işləyirdim. Onlar mənə köçürülən əhaliyə kömək məqsədi ilə Kəlbəcərə benzin və boş yük maşınları aparılmasını tapşırdılar.

Kolxozun beş ton benzinini sənədləşdirib Hasoyun oğlu Abbasəlinin yanacaq daşıyan maşını ilə götürüb getdik Kəlbəcərə, Göyçədən köçən camaatın qabağına. Əli müəllim Qoşabulaqdakı qohumları üçün Bərdə avtobazasından 1–2 maşın, bizdən də kolxozun 8–9 maşını Daşkənddəki qohumların köçünü gətirmək üçün yola düşdük.

Yeni Daşkənddən çıxanda Kərimov Qiyas mənə dedi ki, bacıoğlu əvvəllər Ağdərədən kolxozun sobalarına odun gətirdirdik. Tanıdıqlarım var orda. Birdən çətinliyiniz olsa, ya Edik, ya da Pavlik hansı olsa, denən ki, Kərimov Qiyasın bacısı oğluyam, kömək edəcəklər.

Getdik Ağdərəyə çatanda, bizi postda yoxlamağa başladılar. Spidometrə baxdılar, dövlət qeydiyyat nişanı solğundu dedilər və s. səbəblərə görə maşınları buraxmadılar. Bizim maşınların, demək olar ki, əsassız yerə hər yerinə baxdılar. Kolona da rəhbərliyi rayondan mənə tapşırmışdılar. Əliyev Sayadın oğlu İbrahimin QAZ-69 “Vilis”ində kənddən 3–4 adam varıydı. Orda bir mübahisə yarandı, ermənilər İbrahimi vurdular. Hündürdə şüşəli post var idi. Sənədləri götürüb qalxdım ora. Səfəralının Qəşəmi də mənim arxamca gəldi ki, Əliyar, birdən səni də vurarlar tək getmə. Erməni Pavlik ilə orda qarşılaşdıq. Ona dedim ki, Pavlik məni tanımadın? Mən Kərimov Qiyasın bacısı oğluyam. Kərimovun salamını sənə gətirmişəm. Sən burda niyə münaqişə, millətçilik davası yaradırsan. Sənədləri əlindən alıb aşağı düşə-düşə dedim ki, bizə milis işçisi ver bizim təhlükəsizliyimizi təmin eləsin biz gedək. Tavarişin oğlu Vaqif də maşında bizimləydi. Bu ərəfədə mən postda olanda Vaqif ermənilərin söhbətini eşidir. Bu da, sən demə, erməницə yaxşı bilirmiş. Bayramov Vaqif məni kənara çəkib dedi ki, Əliyar, maşınlarımızın yanında

ermənilər danışdılar ki, bunlar benzin aparır. Gedək Qasapetdə lopa qayıraq, bunlara atıb maşınlarını partladaq. Ermənilər dörd ədəd VAZ-2106 avtomobilinə doluşub getdilər. Gəldik maşınlara oturduq. Ağsaqqallardan Quliyev Vəli, Hacıyev Mehdi də bizimləydi. Yığılıb məsləhət etdik ki, bu vəziyyətlə bizi öldürəcəklər. Biz də sənəddə Kəlbəcərə çoban köçü gətirmək adı ilə gedirdik. Nəsə, Ağdərənin başında Qlobusdan Ağdama çöl yol gedirdi. Biz maşınları orda cərgəyə yığdıq. Maşının biri ilə Ağdama getdim. O vaxt Ağdamda komendatura vardı. Mən getdim rusun komendatı ilə normal danışıb vəziyyəti başa saldım. Komendant bir radiostansiyalı əsgər, mayor rütbəli bir rus zabiti, iki də sıravi əsgərlə bizi yola saldı. Gəldik Ağdərədə maşınlarımızın yanına. Ruslar bizi Çərəkdar kəndinə qədər sağ-salamat gətirib, ordan Kəlbəcərə tərəf yola saldılar.

O vaxt Kəlbəcər cəbhəçilərinin sədri İlham müəllim idi. Orda komsomol komitəsində otururdu. Etibarnaməni ona möhürlədib başladıq Göyçədən köçən camaata benzin paylamağa. Mənə də rayonda tapşırmışdılar ki, camaatdan çox da sənəd-zad tələb eləmə. Sənədi olana bax, olmayana da qeyd götür ver. Biz də tanıdıqlarımıza benzini birbaşa verirdik, tanımadığımızın da maşınının dövlət qeydiyyat nişan nömrəsini yazıb verirdik. Beləliklə, demək olar ki, beş ton benzini payladıq. Norma da hər maşına 50 litr idi.

Həmin ərəfədə əmim Əliyev Musa həbs olunmuşdu. Zəylikdən keçib getdim Daşkəndə. Özümnən də 20 litr benzin götürdüm ki, Ədili, Tamaranı, Yəməni Daşkənddən götürüb gəlməyə lazım olar. Mən Kəlbəcərdə ləngidim deyə dekabrın ya 1-i idi, ya da 3-ü idi ki, Daşkəndə çatdım. Zakir Kərimov da Gədəbəydən həmin gün vertolyot göndərmişdi. O, Gədəbəy rayon milis şöbəsinin rəisi işləyirdi. Vertolyot İmanov Şiruyənin evinin dalında Ağ torpaqlıq deyilən yerə endi. Yaşlıların, xəstələrin, uşaqların aparılması üçün göndərilmişdi. Hələ mənə də dedilər ki, qohumlarından yaşlı adam varsa, gətir endirək Kəlbəcərə ordan apar Bərdəyə.

Hə, bir də, biz Kəlbəcərdə olanda Hasoyun oğlu Abbasəli dedi ki, ay Əliyar, gedək Bəzirxanada Hüseyn əmimi yoxlayaq, gələk. Bəzirxanada ona "Beliəyri Hüseyn" deyirdilər. Qoçaq kişi idi. Kəlbəcərdən qaçqın düşəndən sonra burda, "Çaylaq"da olurdu. Getdik ki, Zey-

nalov Xasay müəllim də onlardadı. Köçlərini ora gətirib boşaltmışdılar. Bəzirxanada Hüseyn kişinin evində bir stəkan çay içmişdik ki, atlı xəbər gətirdi ki, bəs, Şorcadan bəri keçib gələndə Müslümün oğlu Ələsgər müəllimin, bir də Əliyev Şəmilin maşınlarının benzini qurtarıb, yolda qalıblar. Hüseyn kişi dördqapılı QAZ-69 "Vilis" çağırdı. "Vilis" də Allahverdinin idi. Allahverdi Babakişilərin Kərimi ilə kirvə idi, həmişə onlara gələrdi. Allahverdi ilə hərəsinə 20 litr benzin göndərdim. "Vilis"in də benzinini mən verdim ki, aparıb çatdırsın.

Xülasə, Daşkəndlilərin 1988-ci il köçürülməsi gözlərimin önündən heç getmir. O anları heç vaxt unuda bilmirəm."

Son illərdə Yeni Daşkənd kəndinin giriş qapısı yenilənmiş, ətrafda yanacaqdoldurma məntəqəsi, market inşa edilmiş, bankomat quraşdırılmış, avtobus dayanacağı qurulmuş, aptek istifadəyə verilmişdir.

Qarabağ müharibəsinin 9 şəhid və əlil ailəsinə fərdi yaşayış evi tikilmişdir.

Yeni Daşkəndin hazırkı icra nümayəndəsi Sabir Cahangirov, bələdiyyə sədri isə Fəzair Piriyevdir.

Yeni Daşkənd hal-hazırda ən müasir kəndlərdəndir.

## YENİ DAŞKƏND KƏND SOVETLİYİ
## (Yeni Daşkənd kənd icra nümayəndəliyi)

1953-cü ildə Yeni Daşkənd kəndi salınarkən kənddə sovetlik olmamış, deportasiya olunan kənd əhalisi qonşu Şatırlı kənd sovetliyinə tabe olmuşdur. 130 ailənin hamısı Şatırlı kənd sovetində qeydiyyata alınmışdır. Təxminən 1955-ci ildə Yeni Daşkənd kəndi Şatırlı sovetliyindən ayrılaraq Yeni Daşkənd kənd sovetliyi yaradılmış, qonşu Zümürxaç, İmamqulubəyli və Dilənçilər kəndləri də yeni yaradılan sovetliyə tabe edilmişdir.

1993-cü ilə kimi Yeni Daşkənd kənd sovetliyi olmuşdur. Kənd sovetliyinin tərkibinə Yeni Daşkənd, Zümürxaç, İmamqulubəyli və Dilənçilər kəndləri daxil idi. Azərbaycan Respublikası Milli Məclisinin 19 may 1993-cü il tarixli, 611 №-li qərarı ilə Zümürxaç kəndi Yeni Daşkənd kənd sovetliyindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Zümürxaç kənd sovetliyi yaradılmış, Yeni Daşkənd kənd sovetliyinin İmamqulubəyli və Dilənçilər kəndləri Zümürxaç kənd sovetliyinin tərkibinə verilmişdir. Bununla da Yeni Daşkəndin ayrı kənd sovetliyi olmuşdur.

Əsasən sovet sədrləri hansı kənddən seçilmişirsə, sovetliyin katibi mütləq digər kənddən təyin edilmişdir.

Ayrı-ayrı illərdə Kərimov Fəzi, İsayev Əli, Abbasov Allahverdi, Yusifov Bayram, Məmmədov Səyyaf, Abbasov Müslüm, Məmmədhəsənova Xanım, Məmmədov Rövşən, Kərimov Qiyas Yeni Daşkənd kənd sovetinin sədrləri olmuşdur. Hal-hazırda isə Cahangirov Sabir Yeni Daşkənd kənd icra nümayəndəsidir.

Müxtəlif zamanlarda Musayev Novruz, İsmayılov Məhəmməd, Musayev Novruz (təkrar), Cəfərov Əmirxan, Ulduza, Nazənim, Məmmədhəsənova Xanım, Yusifov Nurəddin, Cahangirov Sabir Yeni Daşkənd kənd sovetliyinin katibi vəzifəsində çalışmışlar. Hal-hazırda Kərimov Təyyar Yeni Daşkənd kənd icra nümayəndəsinin müavinidir.

Yeni Daşkənd kənd sovetindən hər seçkidə təxminən 25 nəfər deputat seçilmişdir. Əsasən kənd sovetliyinin sədri və kolxoz sədri

hər seçkidə həm rayon sovetliyinə, həm də kənd sovetliyinə deputat seçilmişdir. Qalan deputatlar isə məktəbin və kolxozun qabaqcıl əmək adamları olmuşdur.

Rayon və Kənd Xalq Deputatları Soveti 1977-ci ilədək Rayon və Kənd Zəhmətkeş Deputatları Soveti adlanmışdır.

Yeni daşkəndlilərdən Bərdə Rayon Xalq Deputatları Sovetinə Qiyas Kərimov, Xalid Rəsulov, Ələddin Balıyev, Sərdar Kərimov, Məhərrəm Əliyev və başqaları, Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə isə Tanrıverdi Hacıyev, Haris Əmrahov, Şamxay Kərimov, Qiyas Kərimov, Xalid Rəsulov, Bulur Şairova, Məzahim Piriyev, Səmayə Əsədova, Məhərrəm Əliyev, Abutac Əliyeva, Səyyaf Məmmədov, Həqiqət Bayramova, Rövşən Məmmədov, Ələddin Balıyev, Sabir Cahangirov və başqaları deputat seçilmişdir.

Yeni Daşkənddən olan Əli Hacıyev Ağdaşda şəhər və rayon soveti deputatı, Vaqif Hacıyev isə 1991–1995-ci illərdə Moskva vilayətinin Lyubertsı Şəhər Sovetinin Deputatı olmuşdur.

| № | Kənd soveti sədrləri | Başlama | Bitmə |
|---|---|---|---|
| 1 | Kərimov Fəzi Qasım oğlu | 1955 | 1957 |
| 2 | İsayev Əli | 1957 | |
| 3 | Abbasov Allahverdi | | |
| 4 | Yusifov Bayram | | 1981 |
| 5 | Məmmədov Səyyaf Muxtar oğlu | 1981 | 1987 |
| 6 | Abbasov Müslüm | 1987 | 22.04.1992 |
| 7 | Məmmədhəsənova Xanım Adil qızı | 22.04.1992 | 30.07.1992 |
| 8 | Məmmədov Rövşən Əjdər oğlu | 30.07.1992 | 04.1997 |
| 9 | Kərimov Qiyas Xanlar oğlu | 04.1997 | 01.03.1998 |
| 10 | Cahangirov Sabir Məhəmməd oğlu | 01.03.1998 | indi |

**Məmmədov Səyyaf Muxtar oğlu** 10 dekabr 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1964–1974-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1975-ci ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1980-ci ildə institutu bitirmişdir.

1980–1981-ci və 1987–1988-ci illərdə "Yeni həyat" kolxozunda kənd təsərrüfatı texnikaları parkında saxlama mexaniki (qaraj müdiri) vəzifəsini icra etmişdir.

1981–1987-ci illərdə Yeni Daşkənd kənd sovetinin sədri vəzifəsində çalışmış, iki dəfə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

1987–1989-cu illərdə "Yeni həyat" kolxozunda su texniki (su cuvarı), 1990–1998-ci illərdə isə pambıqtəmizləmə zavodunda kolxozun nümayəndəsi olaraq təhvildar işləmişdir.

2005-ci ildən hal-hazıra qədər "Azərişıq" ASC-nin Bərdə Elektrik Şəbəkəsində aparıcı mühəndis işləyir.

Ailəlidir, iki qız övladı var.

**Məmmədhəsənova Xanım Adil qızı** 1 dekabr 1956-cı ildə Daşkəsən rayonunun Daşkəsən qəsəbəsində doğulmuşdur. 1960-cı ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. 1964–1974-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Bərdə rayonunun "Yeni həyat" kolxozunda işləmiş, kolxozdan ali təhsil almaq üçün hazırlığa göndərilmişdir. 1976-cı ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə daxil olmuş, 1981-ci ildə həmin institutu bitirmişdir.

1981-ci ildə təyinatla Bərdə rayon Kürdborakı kənd orta məktəbinə müəllim işləməyə göndərilmişdir. 1984-cü ildə Yeni Daşkənd kəndində yeni açılan "Yeni Daşkənd körpələr evi-uşaq baxçası"na müdir təyin olunmuş, 6 iyul 1987-ci ilədək həmin vəzifədə çalışmışdır.

29 iyul 1987-ci ildə seçki yolu ilə Yeni Daşkənd kənd sovetinə katib seçilmiş, 22 aprel 1992-ci ildə isə Yeni Daşkənd kənd sovetinin

icra nümayəndəsi vəzifəsinə təyin olunmuş, 30 iyul 1992-ciilədək həmin vəzifədə işləmişdir.

1 sentyabr 1992-ci ildən Yeni Daşkənd kənd orta məktəbində riyaziyyat müəllimi işləməyə başlamış, 2021-ci ilin dekabr ayınadək müəllim kimi fəaliyyət göstərmişdir. Hal-hazırda təqaüddədir.

1987–1990-cı illərdə Sovet İttifaqı Komunist Partiyasının üzvü olmuşdur. 1989-cu ildə kənd soveti əhalisinin siyahıyaalınmasındakı xidmətlərinə görə Fəxri fərmanla təltif olunmuşdur.

1993-cü ildə ailə həyatı qurmuşdur. Bir oğlu, bir qızı, iki nəvəsi var.

**Məmmədov Rövşən Əjdər oğlu** 1 iyul 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur.

1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1976-cı ildə Bərdə RHK-nın göndərişi ilə 105 saylı Bərdə Texniki Peşə məktəbinin altı aylıq sürücülük kursunu bitirmişdir.

1977-ci ilin noyabrından 1979-cu ilin noyabr ayınadək Arxangelsk vilayətinin Severodvinsk şəhərində hərbi xidmət keçmişdir.

1983-cü ildə Özbəkistandakı Daşkənd Kənd Təsərrüfatı İnstitutunun Kənd təsərrüfatını mexanikləşdirmə fakültəsinin qiyabi şöbəsinə qəbul olmuş, 1989-cu ildə həmin institutu bitirmişdir.

1980-ci ilin yanvarından 1984-cü ilin dekabr ayınadək Bərdə rayonu Yeni Daşkənd kənd rabitə şöbəsinin və əmanət kassasının müdiri vəzifəsində işləmişdir.

1984-cü ilin dekabr ayından 1992-ci ilin iyul ayınadək Bərdə rayonunun "Yeni həyat" kolxozunda pambıqçılıq üzrə təsərrüfat briqadiri işləmişdir.

30 iyul 1992-ci ildən 1997-ci ilin aprel ayına qədər Yeni Daşkənd kənd icra nümayəndəsi vəzifəsində çalışmışdır. 1 aprel 1997-ci ildən isə "Yeni həyat" kolxozunun sədr müavini işləmişdir.

1 mart 1998-ci ildən 2000-ci ilədək Bərdə rayonunun Yeni Daşkənd kəndində "Göyçə" kolxoz Aqrar İslahat komissiyasının sədri işləmişdir.

İki dəfə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir. 1999–2004-cü illərdə Yeni Daşkənd bələdiyyəsinin üzvü olmuşdur.

Rövşən Məmmədov 1980-ci ilin iyun ayında ailə həyatı qurub, bir oğlu, bir qızı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Cahangirov Sabir Məhəmməd oğlu** 2 iyun 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1969-cu ildə Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1977-ci ildə 8-ci sinfi bitirmişdir. 1977-ci ildən təhsilini Bakı şəhərindəki 1 saylı fizika-riyaziyyat təmayüllü internat məktəbində davam etdirərək, 1979-cu ildə həmin məktəbi bitirmişdir. 1980-ci ildə S.Ağamalıoğlu adına "Şərəf nişanı" ordenli Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1985-ci ildə institutu bitirmişdir.

1985-ci ildə təyinatla Yevlax rayonundakı Traktor Mühərriklərinin Təmiri Zavodunda iki il mühəndis işləmişdir. 1987-ci ildən 1993-cü ilin avqust ayına qədər Bərdə rayonunun "Yeni həyat" kolxozunda təsərrüfat briqadiri işləmişdir. 1987-ci ildə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

1 avqust 1993-cü ildən 1 mart 1998-ci ilə kimi Yeni Daşkənd kənd icra nümayəndəsinin müavini vəzifəsində çalışmışdır. 1 mart 1998-ci ildən indiyə qədər Yeni Daşkənd kənd icra nümayəndəsi vəzifəsində işləyir.

Sabir Cahangirov dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2013-cü il tarixli 2978 nömrəli sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Ailəlidir, iki övladı var.

**Kərimov Təyyar Qəşəm oğlu** 1 fevral 1956-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1964–1974-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1974-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1979-cu ildə institutu bitirmişdir. 1979–1981-ci illərdə Almaniyada həqiqi hərbi xidmət

keçmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra Bərdə rayonundakı 1 №li Tikinti Quraşdırma İdarəsində iş icraçısı və başqa vəzifələrdə çalışmışdır.

1990-cı ildə baş leytenant kimi Yeni Daşkənd kənd orta məktəbinə hərbi müəllim təyin olmuşdur. 1998-ci ilin mart ayından indiyə qədər Yeni Daşkənd kənd icra nümayəndəsinin müavini vəzifəsində işləyir.

2019-cu ildə Məşhəd ziyarətində olmuşdur.

Ailəlidir. 3 övladı, 5 nəvəsi var.

## "YENİ HƏYAT" KOLXOZU

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində ən çox istehsal ilə məşğul olan təşkilat kolxoz olmuşdur. Respublikada təxminən 2000-dən çox kolxoz və sovxoz təsərrüfatları fəaliyyət göstərmişdir. Azərbaycan ərazisinin təxminən yarısı kənd təsərrüfatına yararlı idi.

Bərdə rayonunda fəaliyyət göstərən kolxozlardan biri də "Yeni həyat" kolxozu olmuşdur. Bu kolxoz təxminən 1955-ci ildə yaradılmışdır. Kənd əhalisi 1953-cü ildə deportasiya olunarkən qonşu kəndlərlə birlikdə kolxoz olublar. Həmin kolxoz Teymur Quliyev adına olmuşdur. Təxminən 10–11 kənd həmin kolxozda birlikdə fəaliyyət göstərmişdir.

1955-ci ildə "Yeni həyat" kolxozu yaradılarkən Yeni Daşkəndlə bərabər qonşu Zümürxaç, İmamqulubəyli və Dilənçilər kəndləri də yeni yaradılan kolxoza aid edilmişdir. Dörd kəndi birləşdirən kolxoz 1998-ci ildə ləğv edilmişdir. Kolxozun idarə heyəti binası, Maşın-traktor parkı Yeni Daşkənd kəndində, mal-qara ferması İmamqulubəyli kəndində yerləşmişdir.

"Yeni həyat" kolxozunun idarə binası tikilməmişdən əvvəl kolxoz idarəsi Xasay Hacıyevin evində olmuşdur. Sonralar birmərtəbəli kolxoz binası tikilmişdir. Bu bina kənd klubunun yanında yerləşirdi. 1981-ci ildə yeni və ikimərtəbəli idarə binası tikilməyə başlamış, 1983-cü ildə tikinti işləri tamamlanmışdır.

Köhnə idarə binasında 1990-cı ildə güclü yanğın baş vermişdir. Həmin yanğın zamanı orada fəaliyyət göstərən poçt, uşaq baxçası, kənd klubu tamamilə yanmışdır. Bu hadisədən bir neçə il qabaq isə yaxınlıqda yerləşən pambıq qurutma meydançasının yanındakı üstüörtülü tikililərin ("naves") dam örtüyü tamamilə yanmışdır.

"Yeni həyat" kolxozunun təsərrüfat sahələrinin yanında Bərdə Kolxoztikinti İdarəsi tərəfindən tikilmiş bir və iki mərtəbəli tikililər ("naves") vardı. Bu tikililər əsasən pambıq taralalarının yanında olurdu. Burada kolxozçular qısamüddətli istirahət edər, dincələr, günorta yeməyi yeyərdilər. Eyni zamanda kolxozçuların körpə uşaqlarını da baxıcılar orada saxlayırdılar. "Xam" deyilən sahənin küncündə kən-

din ilk ikimərtəbəli hamamı olmuşdur. Bu bir növ yay hamamını xatırladırdı. Bu hamam da kolxozçuların istifadəsi üçün yaradılmışdı.

"Yeni həyat" kolxozunda Dünyamalıyev İsmayıl, Əhmədov Mamed (Xırda oğlu Mamed), Hacıyev Tanrıverdi, Həsənov Vəli, Nuriyev Niftalı, Mamedov Mamed (Qara Mamed), Kərimov Qiyas, Fətəliyev Qiyas, Musayev Suliddin və Əliyev Məhərrəm idarə heyətinin sədri vəzifəsində çalışmışdır.

Ayrı-ayrı illərdə Musayev Elbəyi, Əbilov Qardaşxan, Musayev Suliddin (1986–1990) baş mühasib, Məmmədov Əli kassir, Musayev Suliddin (1984–1986) mühasib vəzifəsində çalışmışdır.

Kolxozda Dünyamalıyev İsmayıl, Kərimov Sabir, Kərimov Şamxay, Əliyev Məhərrəm baş aqronom, Yusif Bayramov, Qasımov Akif aqronom, Ülfət Qənbəralıyev aqronom köməkçisi işləmişdir.

Məmmədov Əli, Kərimov Şamxay, Əliyeva Abutac (1982–1988), Şairova Aygün (1988–1991) "Yeni həyat" kolxozunda azad partiya komitəsinin katibi işləmişlər.

1960-cı illərdən kolxozda "İnşaat briqadası" fəaliyyət göstərmişdir. Həmin briqadaya ayrı-ayrı illərdə Xasay Hacıyev (1963–1964), Muxtar Məmmədov (1964–1993), Tahir Teymurov (1993–1997) rəhbərlik etmişdir.

Hüseynov Əli kolxozda rəssam işləmiş, şüarlar, elanlar yazmış, plakatlar çəkib hazırlamışdır.

Kolxozun anbarında Kərimov Fəzi, Məmmədov Əli, İsmayılov Məhəmməd və başqaları anbardar kimi fəaliyyət göstərmişdir.

Məmmədov Səyyaf 1980–1981-ci və 1987–1988-ci illərdə "Yeni həyat" kolxozunda kənd təsərrüfatı texnikaları parkında saxlama mexaniki (qaraj müdiri) vəzifəsini icra etmişdir. Kolxozun kənd təsərrüfatı texnikaları parkında 1975-ci ilin sonlarına qədər Qəhrəmanov Zamaxan, həmin tarixdən sonra isə Əmrahov Haris mexanik vəzifəsində çalışmışdır. Şairov Səyyad 1990-cı ildən kolxozda Qərargah mühəndisi, Maşın-traktor parkında təhlükəsizlik mexaniki və yanğından mühafizə dəstəsinin rəhbəri vəzifələrində çalışmışdır.

Dünyamalıyev İsmayıl, Məmmədov Səyyaf (1987–1989) və başqaları "Yeni həyat" kolxozunda su texniki (su cuvarı) işləmişdir.

Kolxozda ayrı-ayrı illərdə təftiş komissiyasının sədrləri Əsədov Bahadur, Şairova Zöhrə, Hüseynov İmamverdi, Əliyev Əliyar və başqaları olmuşdur.

## Kolxoz sədrləri

| № | Kolxoz sədrləri | Başlama | Bitmə |
|---|---|---|---|
| 1 | Dünyamalıyev İsmayıl Abbasəli oğlu | 1955 | 1956 |
| 2 | Hacıyev Tanrıverdi Alı oğlu | 1956 | 1958 |
| 3 | Əhmədov Mamed (Xırda oğlu) | 1958 | |
| 4 | Həsənov Vəli | | |
| 5 | Nuriyev Niftalı | | 1971 |
| 6 | Mamedov Mamed (Qara Mamed) | 1971 | 1981 |
| 7 | Kərimov Qiyas Xanlar oğlu | 1981 | 1986 |
| 8 | Fətəliyev Qiyas Həsən oğlu | 1986 | 1990 |
| 9 | Musayev Suliddin Novruz oğlu | 1990 | 1992 |
| 10 | Əliyev Məhərrəm Tapdıq oğlu | 1992 | 1998 |

**Dünyamalıyev İsmayıl Abbasəli oğlu** 1915-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd orta məktəbini bitirmişdir.

1951–1953-cü illərdə Basarkeçər rayonunun Daşkənd kəndindəki "Qırmızı Rəncbər" kolxozunda sədr işləmişdir. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1955–1956-cı illərdə "Yeni həyat" kolxozunun sədri vəzifəsində çalışmışdır. Daha sonra 1978-ci ilədək baş aqronom işləmişdir. 1978-ci ildən isə kolxozda müxtəlif vəzifələrdə çalışmışdır.

1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Mamedov Mamed Əli oğlu** 1930-cu ildə Vedi rayonunun Bayburd kəndində doğulmuşdur. Doğulduğu kənddə 7-ci sinfi bitirdikdən sonra kolxoz sədrinin köməkçisi işləmişdir.

1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. Texnikum bitirmiş, sonralar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda da oxumuşdur.

Kətəlparaq kəndində aqronom, "Lənbəran", "Bakı", "Kalinin" kolxozlarında isə kolxoz sədri vəzifələrində çalışmışdır. "Qara Mamed" adı ilə tanınmış Mamed Mamedov təxminən 1971-ci ildə "Yeni həyat" kolxozuna sədr təyin olunmuş, 1981-ci ilə qədər bu vəzifədə işləmişdir.

1985-ci ildə Bərdə rayonunun Kətəlparaq kəndində vəfat etmiş, Kətəlparaq kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Kərimov Qiyas Xanlar oğlu** 17 noyabr 1938-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. Deportasiyaya qədər Daşkənd kənd orta məktəbində, 1953-cü ildən sonra isə Bərdə rayonunun Yeni Daşkənd kənd orta mətkəbində oxuyaraq 1956-cı ildə orta məktəbi, 1959-cu ildə isə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunun aqronomluq ixtisasını bitirmişdir.

1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, 1967-ci ildə həmin institutu aqronomluq ixtisası üzrə bitirmişdir. 1968–1970-ci illərdə Bakı Ali Partiya Məktəbində oxumuş, həmin məktəbi qırmızı diplomla bitirmişdir.

1961-ci ildən Sovet İttifaqı Komunist Partiyasının üzvü olmuşdur. Kəlbəcər rayon Komsomol Komitəsinin katibi, Bərdə rayon Partiya Komitəsinin təlimatçısı vəzifələrində işləmişdir.

O, Bərdə rayonundakı "Telman", "Hüsü Hacıyev", "Komsomol" kolxozlarında, 1981–1986-cı illərdə isə yaşadığı kəndin də daxil olduğu "Yeni həyat" kolxozunda kolxoz sədri vəzifəsində çalışmışdır.

Qiyas Kərimov müstəqillikdən sonra kənd təsərrüfatı yönümlü "Göyçə" Kiçik Müəssisəsini təsis etmişdir. 1997-ci ilin aprelindən

1998-ci il martın 1-nə qədər Yeni Daşkənd kənd icra nümayəndəsi vəzifəsində işləmişdir.

Dəfələrlə Bərdə Rayon Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Qiyas Kərimov "Şərəf nişanı" ordeni, "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (1970), "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Qızıl medalı, "Yeni torpaqların inkişafı üçün" (1958), "1975-ci ildə sosializm yarışının qalibi", "1976-cı ildə sosializm yarışının qalibi", "1978-ci ildə sosializm yarışının qalibi", "1979-cu ildə sosializm yarışının qalibi", "X beşillik zərbəçisi", "XI beşillik zərbəçisi" döş nişanları ilə təltif olunmuşdur.

8 yanvar 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Fətəliyev Qiyas Həsən oğlu** 8 oktyabr 1936-cı ildə Göyçə mahalının Qaranlıq rayonunun Mollalı (Alçalı) kəndində doğulmuşdur. Bir müddət Mollalı kənd orta məktəbində təhsil almışdır.

1949-cu ilin dekabrında Göyçə mahalının Mollalı kəndindən ailəsi ilə birlikdə Əli Bayramlı rayonunun Cəngan kəndinə deportasiya olunmuşdur. Əli Bayramlı rayonunda iqlimə və şəraitə uyğunlaşa bilmədiklərindən 30 ailə 1952-ci ildə köç biletlərini dəyişdirərək, Bərdə rayonunun İmirli (indiki Əmirli) kəndinə köçmüşdür. Həmin illərdə İmirli kəndində, həmçinin Dərələyəz mahalından deportasiya olunmuşlar məskunlaşdırılmışdır.

Qiyas Fətəliyev Ağdam rayonunun Xındırıstan kənd orta məktəbini bitirmişdir. Bir müddət Bakıda Neft-Qaz Çıxarma İdarəsində fəhlə işləmişdir. 1966–1971-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Aqronomluq fakültəsində ali təhsil almışdır. Bərdə rayonunun "Telman" adına kolxozunda təsərrüfat briqadiri, aqronom, uzun müddət baş aqronom və sədr müavini işləmişdir.

1986-cı ildə "Yeni həyat" kolxozuna sədr təyin olunmuş, 1990-cı ilədək həmin vəzifədə çalışmışdır. 1991-ci ildən İmirli kəndindəki "Gəray Əsədov" adına kolxozda aqronom kimi fəaliyyət göstərmişdir. 1993–1996-cı illərdə Əmirli kənd icra nümayəndəsi vəzifəsində işləmişdir.

Bərdə Rayon və Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Qiyas Fətəliyev 11 iyul 2020-ci ildə Bərdə rayonunun Əmirli kəndində vəfat etmiş, Əmirli kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Musayev Suliddin Novruz oğlu** 28 iyun 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1975-ci ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsinə qəbul olmuş, 1980-ci ildə həmin institutun "İqtisadi məlumatların texniki üsulla işlənilməsinin təşkili" ixtisasını bitirmişdir. 1980-ci ildə təyinatla Yevlax Statistika İdarəsinə göndərilmişdir.

1980–1981-ci illərdə sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra, 1981–1983-cü illərdə yenə də Yevlax Statistika İdarəsində işləmişdir.

1984–1986-cı illərdə "Yeni həyat" kolxozunda əvvəlcə mühasib, 1986–1990-cı illərdə isə baş mühasib vəzifəsində çalışmışdır.

Suliddin Musayev 1990–1992-ci illərdə "Yeni həyat" kolxozunun idarə heyətinin sədri, 1995–1997-ci illərdə isə həmin kolxozun mühasibi işləmişdir. Sonrakı illərdə Bərdə rayon kolxoz bazarında baş mühasib vəzifəsində çalışmışdır. 2007-ci ildən isə Yeni Daşkənd Kredit İttifaqında mühasib kimi fəaliyyət göstərmişdir.

Bir neçə dəfə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

19 yanvar 2021-ci ildə ürək tutmasından 63 yaşında vəfat etmiş, 20 yanvar 2021-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Ailəli idi. Üç övladı var.

**Əliyev Məhərrəm Tapdıq oğlu** 25 oktyabr 1949-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1953-cü ilin may ayında ailəsi ilə birlikdə Azərbaycana deportasiya olunmuşdur. 1957–1967-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta mətkəbində oxumuşdur.

1968-ci ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, 1974-cü ildə həmin institutu aqronom ixtisası üzrə bitirmişdir.

1974–1975-ci illərdə hərbi xidmətdə olmuşdur.

Məhərrəm Əliyev 1976-cı ildən "Yeni həyat" kolxozunda sahə aqronomu, 1979-cu ildən isə baş aqronom işləmişdir. 1992-ci ildə "Yeni həyat" kolxozunun sədri vəzifəsinə təyin olunmuş, 1998-ci ilə qədər həmin vəzifədə çalışmışdır.

2001-ci ildən Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnnovasiya Mərkəzinin baş aqronomu, 2011-ci ildən 2021-ci ilədək isə Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru işləmişdir.

Birinci Qarabağ müharibəsi zamanı Ağdərə döyüşlərində iştirak edən əsgərlərə birbaşa cəbhə xəttində mənəvi dayaq olmuş, habelə öz maddi vəsaiti hesabına onları ərzaq və geyimlə təmin etmişdir. Hərbi hissələrə ayrılan mərmilərin kolxoz anbarına yığılması və Ağdərə cəbhəsinə göndərilməsində fəallıq göstərmişdir. Yeni Daşkənd kəndindəki ilk "Şəhidlər abidəsi" də onun təşəbbüsü ilə tikilmişdir.

Bir neçə dəfə Bərdə Rayon və Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

1976-cı ildə Cəvahir Mursaqulova ilə ailə həyatı qurmuş, dörd övladı olmuşdur.

## Kolxoz qabaqcılları

**Kərimov Şamxay Hüseyn oğlu** 1935-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Atası Hüseyn kişi "Qurani-Kərim"i kamil bilən bir Allah bəndəsi kimi Şamxaya və ondan böyük qardaşı Vərqaya ərəb əlifbasını öyrətmişdir. Hər iki qardaş əlifbanı mükəmməl öyrənərək "Çərəkə"ni oxuyub başa çıxmışdılar.

Şamxay Kərimov 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. Doğulduğu Daşkənd kənd orta məktəbində oxusa da, 1955-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1956-cı ildə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumuna qəbul olmuş, həmin texnikumu "Aqronomluq" ixtisası üzrə bitirmişdir. 1964-cü ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, həmin institutda da aqronomluq ixtisasını almışdır.

O uzun müddət "Yeni həyat" kolxozunda aqronom, təsərrüfat briqadiri və baş aqronom vəzifələrində işləmişdir. Kolxozda briqadir işlədiyi dövrlərdə artezian quyularının qazılmasında təşəbbüs göstərmiş, rəhbərlik qarşısında məsələ qaldırmışdır.

"Yeni həyat" kolxozunda partiya komitəsinin sədri işləmiş, bir neçə dəfə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Şamxay Kərimov 27 may 2019-cu ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

1963-cü ildə ailə həyatı qurmuş, altı övladı olmuşdur.

**Əmrahov Haris Məhəmməd oğlu** 1935-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 6 yaşı olanda atası Məhəmməd Böyük Vətən müharibəsinə getmiş, müharibədən qayıtmadığından balaca Haris babası Kərbəlayı Əmrahın himayəsində böyümüşdür. Elə zəhmətkeşliyi də ondan öyrənmişdir. Zəhmətkeşdir, dini ibadətlərə bağlı adamdır, namaz qılıb, oruc tutandır. Yaxşı əməlləri, təsibkeşliyi ilə həmişə eldə hörməti vardır.

Haris Əmrahov 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

Orta təhsilə doğulduğu Daşkənd kənd orta məktəbində başlamış, Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1963-cü ildə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunun qiyabi şöbəsinə daxil olmuş, 1968-ci ildə həmin texnikumu "Kənd təsərrüfatını mexanikləşdirmə" ixtisası üzrə bitirmişdir.

Uzun müddət "Yeni həyat" kolxozunda pabmıq təsərrüfatının briqadiri işləmiş, yüksək nəticələr əldə etmişdir. 1975-ci ilin sonlarından başlayaraq "Yeni həyat" kolxozunda 20 ilə yaxın kənd təsərrüfatı texnikaları parkında mexanik vəzifəsini icra etmişdir.

1978-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində, 14 fevral 1981-ci ildə isə Bərdə rayonuna keçici "Qırmızı bayraq" verilməsi yığıncağında iştirak etmişdir.

"1975-ci ildə sosializm yarışının qalibi" (1976), "1976-cı ildə sosializm yarışının qalibi" (1977) döş nişanları, "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Qızıl medalı və "Əməkdə fərqlənməyə görə" medalı (07.07.1986) ilə təltif olunmuşdur.

Haris Əmrahov üç dəfə (1977, 1980, 1983) Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır, 88 yaşı var.

**Cəfərov Əmirxan Məcid oğlu** 1936-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində el sənətkarı Məcid kişinin ailəsində anadan olmuşdur. Atası Məcid kişi 1941–1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, yaralandıqdan sonra doğma kəndə qayıtmış orden və medallarla təltif olunmuşdur.

Əmirxan Cəfərov 1944-cü ildə doğulduğu Daşkənd kənd orta məktəbinin ibtidai sinfinə getmişdir. 1953-cü ildə Göyçə mahalından ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1954-cü ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. 1955-ci ildə Gəncə Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, texnikumu "Mühasibat uçotu" ixtisası üzrə bitirmişdir.

1963–1966-cı illərdə Yeni Daşkənd kənd axşam kəndli-gənclər məktəbini bitirmişdir.

Yeni Daşkənd kənd sovetində sədr müavini (katib), "Yeni həyat" kolxozunda baş mühasib və başqa vəzifələrdə işləmişdir.

Böyük saz-söz ustadı Aşıq Ələsgərin qızı Bəstinin nəvəsi Sürayə xanımla ailə həyatı qurmuş, dörd oğlu, səkkiz qızı olmuşdur.

Əmirxan Cəfərov 30 yanvar 1999-cu ildə ürək çatışmazlığından 63 yaşında vəfat etmiş, kənd qəbirstanlığında dəfn edilmişdir.

Əmirxan Məcidoğlu sənətkar ailəsində anadan olduğuna görə hələ uşaqlıqdan sözə, şeirə böyük maraq göstərmişdir. Atası Məcid, dayısı Tapdıq zəmanələrinin ən görkəmli zurna, saz, balaban, dəf ifaçıları olmuşdur. Əmirxan da körpəlikdən bu alətlərdə ifa etmiş, mahir bir sənətkar kimi yetişmişdir. Uzun illər sənətkarlıqla məşğul olmuşdur.

İlk dəfə şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 157–164).

**Rəsulov Xalid Xanlar oğlu** 1937-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1963–1966-cı illərdə Yeni Daşkənd kənd axşam kəndli-gənclər məktəbini bitirmişdir.

S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, həmin institutda ali təhsil almışdır.

Xalid Rəsulov respublikada pambıqçılığın inkişaf etdiyi dövrlərdə qabaqcıl mexanizator kimi şöhrətlənmişdir. Bunun müqabilində ona respublikanın "Əməkdar mexanizator"u adı verilmişdir. Sonralar uzun müddət "Yeni həyat" kolxozunda pambıq təsərrüfatının briqadiri işləmişdir. Kolxozda onun briqadası həmişə planı artıqlaması ilə yerinə yetirmişdir. Özbəkistanın bir pambıqçısı ilə aralarında gedən yarışda qalib olmuşdur.

Xalid Rəsulov "Şərəf nişanı" ordeni, "Oktyabr inqilabı" ordeni, "Qırmızı əmək bayrağı" ordeni, "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (03.04.1970), "1973-cü ildə sosia-

lizm yarışının qalibi" (25.01.1974), "1975-ci ildə sosializm yarışının qalibi" (1976), "1976-cı ildə sosializm yarışının qalibi" (10.03.1977), "1978-ci ildə sosializm yarışının qalibi" (17.04.1979), "1979-cu ildə sosializm yarışının qalibi" (27.12.1979), "IX beşillik zərbəçisi" (19.11.1975), "X beşillik zərbəçisi" (06.01.1981), "XI beşillik zərbəçisi" (22.12.1983) döş nişanları, "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Bürünc medalı (23.07.1973), "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Gümüş medalı (09.07.1975), "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Bürünc medalı (01.08.1977), "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Qızıl medalı (17.07.1979), "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Gümüş medalı (06.08.1984) və "Azərbaycan Respublikasının Əmək veteranı" medalı (29.09.2000) ilə təltif olunmuşdur.

1980-ci ildə şair Sərraf Şiruyə qabaqcıl pambıq ustası, əməkdar mexanizator Xalid Xanlar oğlu Rəsulovun tükənməz və şərəfli zəhmətinə "Xalid əkə" adlı poema ithaf etmişdir.

Xalid Rəsulov 29 mart 2004-cü ildə Bərdə rayonu Yeni Daşkənd kəndində vəfat etmişdir. Məzarı kənd qəbiristanlığındadır.

**Bayramov Yusif Hüseyn oğlu** 10 noyabr 1940-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur.

1953-cü ildə 13 yaşında olarkən ailəsi ilə birlikdə doğma ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya edilmişdir.

1960-cı ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. Ağdaş Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, həmin texnikumu bitirdikdən sonra ömrünün axırınadək "Yeni həyat" kolxozunda aqronom işləmişdir.

Uşaqlıqdan saza-sözə bağlı olan Yusif Bayramov özü də hikmətli şeirlər yazmışdır. Şeirlərinin bəziləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 196–203).

Yusif Bayramov 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 53 yaşında vəfat etmiş, kənd qəbirstanlığında dəfn olunmuşdur.

**Hüseynov İmamverdi Bilal oğlu** 1942-ci ildə Göyçə mahalının Qaranlıq rayonunun Alçalı kəndində doğulmuşdur. 1954-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndinə deportasiya olunmuşdur. 1962-ci ildə Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbini, 1976-cı ildə isə Kirovabad Kənd Təsərrüfatı Texnikumunun aqronomluq ixtisasını bitirmişdir.

1976-cı ildən "Yeni həyat" kolxozunda 5 №-li təsərrüfat briqadiri işləmişdir. Həmin briqada maşınla yığım üzrə planı vaxtından tez doldururaq Bərdə rayonunda ikinci yeri tutmuşdur. Buna görə də Azərbaycan Kommunist Partiyası Bərdə Rayon Komitəsinin birinci katibi Rüstəm Səfərəliyev tərəfindən İmamverdi Hüseynova dəyəri 1640 manat olan motosiklet bağışlanılmışdır.

İmamverdi Hüseynov "Yeni həyat" kolxozunda təftiş komissiyasının sədri olmuş, Bərdə rayon nəzarət komitəsinin üzvü seçilmişdir. İki çağırış Bərdə rayonunda məhkəmə üzvü olmuşdur.

15 mart 2023-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

# YENİ DAŞKƏND BƏLƏDİYYƏSİ

Yeni Daşkənd bələdiyyəsi 7 dekabr 1999-cu il tarixli, 771-IQ nömrəli "Bələdiyyələrin əraziləri və torpaqları haqqında Azərbaycan Respublikasının Qanunu" ilə yaradılmışdır.

Bələdiyyə Yeni Daşkənd kəndini əhatə edir. 12 dekabr 1999-cu ildə ilk bələdiyyə seçkiləri zamanı Fəzair Piriyev səs çoxluğu ilə bələdiyyə sədri seçilmişdir. Keçirilən hər beş seçkidə bələdiyyəyə 9 nəfər üzv seçilmişdir.

Yeni Daşkənd bələdiyyəsi 768 hektar (ha) əraziyə malikdir. Yaşayış torpaqlarının ümumi ərazisi 130 hektardır. Bələdiyyə torpaqları 98 ha, bələdiyyə ehtiyat fondu isə 11,85 ha təşkil edir. Örüş sahəsi 44 hektardır. Torpaq sahəsinin 544 hektarı əkin üçün istifadə olunur.

2022-ci ilin sonuna olan məlumata görə, bələdiyyə ərazisində ümumilikdə 630 təsərrüfat, 750 ailə və 2768 nəfər əhali yaşayır. Seçicilərin sayı 1497 nəfərdir.

| № | Bələdiyyə sədrləri | Başlama | Bitmə |
|---|---|---|---|
| 1 | Piriyev Fəzair Məzahim oğlu | 12.12.1999 | 17.12.2004 |
| 2 | Quliyev Fərman Vəli oğlu | 17.12.2004 | 23.12.2009 |
| 3 | Quliyev Fərman Vəli oğlu | 23.12.2009 | 23.12.2014 |
| 4 | Mahmudov Niqab Əyyub oğlu | 23.12.2014 | 23.12.2019 |
| 5 | Piriyev Fəzair Məzahim oğlu | 23.12.2019 | indi |

**Piriyev Fəzair Məzahim oğlu** 1 may 1963-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Daşkənd kənd orta məktəbində oxumuşdur. 1981–1983-cü illərdə SSRİ-nin Almaniyadakı hərbi birləşmələrində həqiqi hərbi xidmət keçmişdir.

1984-cü ildə bir müddət "Yeni həyat" kolxozunda briqadir köməkçisi işləmişdir. 1984-cü ildə Krasnodar Politexnik İnstitutuna

qəbul olmuş, 1989-cu ildə institutu bitirmişdir. 1989-cu ildən 1999-cu ilə qədər "Azərittifaq"ın Bərdə Tədarük İdarəsində çalışmışdır.

1999-cu ilin dekabrında keçirilən ilk bələdiyyə seçkilərində Yeni Daşkənd bələdiyyəsinin sədri seçilmiş, 2004-cü ilin dekabrına qədər həmin vəzifədə işləmişdir.

Fəzair Piriyev Yeni Daşkənd Kredit İttifaqı İdarə Heyətinin sədri-dir.

2003-cü ildə "Sərbal MMC" adlı şirə, turşu emal firması yaratmış, kənd sakinlərini işlə təmin etmişdir. Fəzair Piriyev kənddə sovet hakimiyyəti illərində yanmış ATS-in yenidən qurulması, CHF təşkilatının dəstəyi ilə elektrik transfarmatorlarının dəyişdirilməsinə nail olmuşdur. OKSFAM və "Uşaqları qoruyun" xarici təşkilatları ilə danışıqlar nəticəsində kənddəki həkim məntəqəsini təmir etdirmişdir.

2008-ci ildə layihə əsasında Yeni Daşkənd kənd yollarının 15 km-ni qum-çınqıl materialı ilə təmir etdirmiş, 2015-ci ildə isə ABŞ səfirliyinin dəstəyi ilə kəndin bir hissəsinin su xətlərini yenilətmişdir. Onun uğurlu fəaliyyəti nəticəsində 2015–2018-ci illərdə ABŞ-ın Azərbaycanda səfiri olmuş Robert Sekuta iki dəfə Yeni Daşkənd kəndində olmuşdur.

Fəzair Piriyev 2019-cu ilin dekabrında keçirilən beşinci bələdiyyə seçkilərində bir daha Yeni Daşkənd bələdiyyəsinin sədri seçilmişdir. Hal-hazırda həmin vəzifədə işləyir.

1991-ci ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı, üç nəvəsi var.

**Quliyev Fərman Vəli oğlu** 24 may 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1981-ci ildə Bərdə RHK-dan həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti başa vurduqdan sonra 1984-cü ildə İnşaat Texnikumuna qəbul olmuşdur. Təhsilini bitirdikdən sonra 1996-cı ilə qədər Yeni Daşkənd kəndində işləmişdir.

1999-cu ildə keçirilən ilk bələdiyyə seçkilərində kənd sakinləri Fərman Quliyevin də namizədliyini irəli sürmüşlər. Seçkilərdə Yeni Daşkənd bələdiyyəsinin sədr müavini seçilmişdir. 17 dekabr 2004-cü

ildə keçirilən ikinci bələdiyyə seçkilərində seçicilərin 80% səsini toplayaraq bələdiyyə sədri seçilmişdir. 23 dekabr 2009-cu ildə respublikada üçüncü dəfə keçirilən bələdiyyə seçkilərində də bir daha iştirak etmiş, yenidən Yeni Daşkənd bələdiyyəsinin sədri seçilmişdir. Fərman Quliyev növbəti seçkiyə qədər – 2014-cü ilin dekabrına qədər bələdiyə sədri vəzifəsində çalışmışdır.

Fərman Quliyev 2007-ci ildə müqəddəs Həcc ziyarətində, 2009-cu ildə Kərbəla ziyarətində olmuşdur. 2013-cü ildə Ümrə ziyarətində də olmuşdur.

Hacı Fərman 2013-cü ildə mərhum qardaşı Bayram Quliyevin əvəzindən niyyət edib təkrar Həcc ziyarətinə getmişdir.

1987-ci ildə ailə qurmuşdur. Üç oğlu, dörd nəvəsi var.

**Mahmudov Niqab Əyyub oğlu** 26 iyul 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1977–1987-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1987-ci ildə Leninqrad Texniki İnstitutuna qəbul olmuş, 1992-ci ildə həmin institutun Maşınqayırma fakültəsini bitirmişdir.

1988–1989-cu illərdə Riqa şəhərində bir il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ildə könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılmışdır. Goranboy, Ağdərə, Cəbrayıl, Füzuli (Qacar, Govşatlı, Qaraxanbəyli, Mollavəli) istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin sonlarında milli ordudan tərxis olunmuşdur.

2014-cü ilin dekabrında keçirilən dördüncü bələdiyyə seçkilərində Yeni Daşkənd bələdiyyəsinin sədri seçilmişdir.

Hal-hazırda Sankt-Peterburq şəhərində biznes fəaliyyəti ilə məşğul olur.

Ailəlidir, iki övladı var.

# YENİ DAŞKƏNDİN GÖRMƏLİ YERLƏRİ

## “Şəlalə kompleksi”

Yeni Daşkənd kəndinin ən görməli yerlərindən biri Bərdə-Tərtər yolu üzərindəki “Şəlalə kompleksi”dir. Bu tikili hətta kəndin atributuna çevrilmişdir.

“Şəlalə kompleksi” 1982-ci ildə Yeni Daşkənd kəndinin girişində tikilmişdir. Tikili “Yeni həyat” kolxozunun sədri Qiyas Kərimovun təşəbbüsü və tanınmış mühəndis Yaqub Hacıyevin layihəsi əsasında ərsəyə gəlmişdir. Tikintini Muxtar Məmmədovun briqadir olduğu “Yeni həyat” kolxozunun inşaat briqadası tikmişdir. “Şəlalə kompleksi”ndə istifadə olunan çınqıl daşları Göyçə mahalındakı çınqıl daşları ilə eynilik təşkil edir. Tikilidəki daşların bir hissəsi Kəlbəcər rayonunun Mollabayramlı kəndində olan Pişikli daş karxanasından, çox hissəsi isə Ağdərə rayonunun Umudlu kəndindən gətirilmişdir. Görünən hissələrdə çınqıl daşı, görünməyən hissələrdə isə çay daşından istifadə olunmuşdur.

Tikili konus formasındadır. Hündürlüyü 8,00 m, oturacağının diametri isə 9,40 metrdir. Yuxarıdan su hər birinin hündürlüyü 50 sm olan 15 ədəd pilləkən üzərindən tökülə-tökülə aşağıya axır. Pilləkənlərin eni yuxarıdan başlayaraq (80 sm) aşağıya doğru enlənir (165 sm). Tikilinin aşağı çevrəsi 29 metrdir. Kompleksin çevrəsi boyunca su müəyyən qədər toplandıqdan sonra axıb gedir.

1985-ci ildə “Şəlalə kompleksi”nin yanında “Daşkəndli Şair Məmməhüseynə xatirə bulağı” da inşa olunmuşdur.

2011-ci ilin may ayında kənd sakini Şakir Babayev tərəfindən şəlalənin başına dağ keçisi heykəli quraşdırılmış, işıqlanma ilə təchiz olunmuşdur. “Şəlalə kompleksi”nin ətrafında yaşıllıq salınmış, müxtəlif güllər əkilmişdir.

Şəlalə Bərdə-Tərtər yolu üzərində yerləşdiyindən, həm də yoldan ötən yolçuların dayanacaq, su içmək, əl-üz yumaq üçün qısamüddətli istirahət yeridir. Bəzən kənd sakinlərindən olan bəy-gəlin toy günü “Şəlalə kompleksi”nin qarşısında xatirə şəkilləri çəkdirərdilər. Eyni zamanda şəlalənin yanından ötən yolçular da burada şəkil çəkdirirlər.

1985-ci ildə Azərbaycan Dövlət Televiziyasının "Ozan" verilişinin bir nömrəsi "Şəlalə kompleksi"nin ətrafında çəkilmişdir.

## Çinarlar (Yeddi çinar)

Kənddə görməli yerlərdən biri də qədim çinarlardır. Kənd 1953-cü ildə yaradılarkən əhali həmin çinarların kölgəsində yerləşdirilmişdir. Burada olan 7 ədəd çinarın tarixi dəqiq məlum olmasa da onların 100 ildən çox yaşının olduğu ehtimal edilir.

Yay aylarında günortanın isitisində kənd camaatının mal-qarası hər zaman bu çinarların kölgəsində sərinləmişdir. Çinar ağacları kəndin örüş yerinin yaxınlığında, kəndin aşağı tərəfində, İmamqulubəyli yolunun sol tərəfindədir. Hal-hazırda o küçə rəsmi olaraq Asəf Zeynallı küçəsi adlanır.

Miraslan Bəkirlinin müəllifi olduğu "Durnalar qayıdanda" verilişini 2003-cü və 2005-ci illərdə Azərbaycan televiziyası bu çinarların altında çəkmişdir.

## "Cənnət bağı" istirahət mərkəzi

"Cənnət bağı" istirahət mərkəzi Bərdə-Tərtər yolu üzərindəki "Şəlalə kompleksi"ndən solda, Tərtər çayının sahilində yerləşir. Ərazi 1990-cı ildə Yeni Daşkənd kəndində doğulmuş Rəşid Süleymanov tərəfindən alınmış və sənədləşdirilmişdir. İstirahət mərkəzi ərazisində əsaslı abadlaşdırma, tikinti işləri 1997-ci ildən aparılmağa başlamışdır.

"Cənnət bağı" istirahət mərkəzi hal-hazırda bölgədə tanınmış bir məkandır. Ərazidə olan hündür çinar, qovaq və başqa ağaclar, eləcə də sərin su mənbələri yayın istisində istirahət mərkəzini daha sərin edir. Daim sərin meh əsən bu məkanda yerdən çıxan billur kimi saf, 9° C temperaturda suyun dadından doymaq olmur. İstirahət mərkəzində təklif olunan yeməklərin hamısı təbii və orqanik məhsullardan hazırlanır.

"Cənnət bağı" istirahət mərkəzindəki xüsusi şəraitin yaradılmasında bu işlərin təşkilatçısı və istirahət mərkəzinin rəhbəri Rəşid Süleymanovun zəhməti böyükdür. Minbir əziyyətlə ərsəyə gələn belə bir məkan üçün nəinki Yeni Daşkənd sakinləri, bütün orada qonaq olan, istirahət edən hamı ona duaçıdır.

## Yeni Daşkənd qəbiristanlığı

Yeni Daşkənd qəbiristanlığı 1954-cü ildə kənd ağsaqqallarının məsləhəti ilə Bərdə-Tərtər yolundan (Daş yol) 500 metr, kənddən isə 1100 metr məsafədə yerləşən maili ərazidə salınmışdır. Qəbiristanlıqda ilk dəfə 1954-cü ilin aprel ayında Xəlilov Səttər Oruc oğlu dəfn edilmişdir. 1953-cü ilin may-iyun aylarında köçürülən kənd camaatından həmin tarixə qədər vəfat edən bir neçə kənd sakini qonşu İmamqulubəyli kəndinin köhnə qəbiristanlığında dəfn olunmuşdur. Onlar İsmayıl Qurbanovun atası İbrahim, Əbil Piriyevin arvadı Hürü və başqaları olub.

Təxminən 1966-cı ildə qəbiristanlıqda kəndin mollası olmuş Abuzər Bayramovun məzarı üzərində türbə tikilmişdir. Yeni Daşkənd qəbiristanlığında əvvəllər hər qəbrin və ya bir neçə yaxın qəbrin birlikdə kənarı armaturdan hazırlanmış çəpərlə əhatələnirdi. Bu mal-qaranın qəbir daşlarına ziyan vurmaması üçün edilirdi.

1982-ci ildə "Yeni həyat" kolxozunun sədri Qiyas Kərimov kolxoz idarə heyəti və kənd sakinləri adından Azərbaycan KP Bərdə Rayon Komitəsinin birinci katibi Rüstəm Səfərəliyevə kənd qəbiristanlığının abadlaşdırılması üçün müraciət etmişdir. Rayon rəhbərliyi müraciətin təmin olunması üçün Bərdə 11 saylı Dəmir-Beton Məmulatları Zavoduna tapşırıq vermişdir. Zavod lazım olan hazır dəmir-beton hasarları Yeni Daşkənd kəndinə göndərmişdir. Həmin zavodda işləyən, Yeni Daşkənddən olan mühəndis Yaqub Hacıyevin və "Yeni həyat" kolxozunun "İnşaat briqadası"nın briqadiri Müxtər Məmmədovun rəhbərliyi ilə qəbiristanlığının kənarı beton panellərlə çəpərlənmişdir. Girişinə ümumi ölçüsü 6,0x3,0 metr olmaqla ikitaylı dar-

vaza və 0,80x1,80 metr ölçüdə əl qapısı quraşdırılmışdır. Hasar boyu 20-yə qədər çinar ağacı əkilmişdır.

Qəbiristanlığın abadlaşdırılmasında mərhum Əmirəhməd (Ömür) İsmayılovun da zəhməti danılmazdır. 2018-ci ildə onun vəfatından sonra oğlu İlqar İsmayılov bu ənənəni davam etdirir. Qəbiristanlıqda xan çinarı ağacları, eləcə də həmişəyaşıl kol bitkiləri əkilmişdir.

Qəbiristanlıq abadlaşdırılarkən çəkilmiş su xətləri köhnəldiyindən 2016-cı ilin may ayında Şaban Məmmədov bərpa işləri aparmış, su xətlərini yeniləmişdir. Dağıstan Teymurov isə qəbiristanlığın köhnə su çənini yenisi ilə əvəz etmişdir.

26 fevral 1992-ci ildə baş verən Xocalı soyqırımında həlak olan bir ailənin üç üzvü – Hüseynov Hüseyn Fərəc oğlu, Hüseynova Zinət Yunis qızı və Hüseynov Rəşid Hüseyn oğlu (ata, ana və oğul) Yeni Daşkənd kəndinin qəbiristanlığında dəfn olunublar.

Birinci Qarabağ müharibəsi zamanı doğma yurdlarını tərk edib, Yeni Daşkənd kəndində məskunlaşan insanlardan da vəfat edənlər Yeni Daşkənd qəbiristanlığında dəfn olunmuşlar.

## Molla Abuzərin türbəsi

Türbə kəndin tanınmış din xadimi, Molla Abuzərin məzarı üzərində ucaldılmışdır. Molla Abuzər 1966-cı ilin yanvar ayında vəfat etmişdir. Onu dəfn edən molla Süleyman Şairov olmuş, hətta həmin dəfndən sonra Süleyman kişi bir müddət xəstə yatmışdır.

Molla Abuzərin övladları Əyyub və Əfsəl Bayramovlar həmin ilin "Ölü təki"ndən sonra türbənin tikintisinə başlamışlar. Tikili həmin il tamamlanmışdır.

Türbə Yeni Daşkənd qəbiristanlığında, girişdən sağ tərəfdə yerləşir. Ön tərəfində 0,70x1,45 metr ölçüdə bir girişi, arxa tərəfində isə 40x20 sm ölçüdə bir pəncərəsi var. Tikilinin eni 3,20 m, uzunu da 3,20 metrdir. Ümumi hündürlüyü isə 4,50 metrdir. Divarının qalınlığı 40 sm-dir. Türbənin aşağı əsas hissəsinin hündürlüyü 1,80 metrdir. Günbəzin çevrəsinin uzunluğu 9,80 metr, hündürlüyü isə 2,70 metrdir.

Türbə kvadrat formalıdır, aşağı hissəsi mişar daşından, qülləvari günbəz hissəsi isə tökmə betondur. Türbədə istifadə olunan daş Göyçədən gətirilmişdir. Yerli çay daşından da istifadə olunmuşdur. Tikilinin künclərində qırmızı daşdan istifadə olunduğu aydın görünür. Deyilənlərə görə, türbədə Xanlar rayonundakı Murut (indiki Üçbulaq) daşlarından da istifadə olunmuşdur.

## Yeni Daşkənd məscidi

Məscid Yeni Daşkənd kəndində doğulmuş Quliyev Rövşən Vəli oğlunun şəxsi vəsaiti ilə 2004-cü ildə tikilmişdir. Məscidin layihələndirilməsində Fərman Quliyev və Yaqub Hacıyev yaxından iştirak etmişdir. Məscid tikintisi bitdikdən sonra xeyriyyəçi Rövşən Quliyev müqəddəs Həcc ziyarətinə getmişdir. Məscid kəndin girişində, kənd icra nümayəndəliyinin yanında yerləşir.

Məscid düzbucaqlı şəklindədir, uzunluğu 12,40 m, eni isə 6,40 m-dir. Kürsü hissəsinin hündürlüyü 60 sm-dir. Divarlar mişar daşından tikilmişdir, qalınlığı 40 sm-dir. Daşların ölçüsü 20x20x40 sm-ə bərabərdir. Binanın iç hündürlüyü 3,20 metrdir. Məscidin giriş hissəsi 1,40x3,00 m ölçüsündədir. Giriş hissənin sağ və sol tərəfində iki otaq var (2,50x3,00 m). Namaz otağı 6,40x9,40 m ölçüdə olmaqla 60 $m^2$-dir.

Məscid qoşa minarəlidir. Yerdən minarənin hündürlüyü 7,60 metrdir. Minarə binadan sonra 4,00 m hündürlükdədir. Minarənin 2,00 metri mişar daşından, qalan 2,00 metri isə metal konstruksiyadandır. Günbəz paslanmayan dəmirdən hazırlanmışdır, hündürlüyü 1,80 m, diametri isə 3,00 metrdir.

Məscidin ön və yan tərəflərinin hər birində iki pəncərə var. Pəncərələr şəbəkə ilə işlənilmişdir. Qapı və pəncərə yerləri yarımdairə tağ ilə konstruksiya edilmişdir. Məscid ənənəvi xalq memarlığı üslubunda tikilmişdir. Üzərində kitabə vardır. Kitabədə ərəbcə "Allahu Əkbər – 2004-cü il" sözləri yazılmışdır.

Kənd sakinləri məsciddən mütəmadi istifadə edirlər. Xüsusən Cümə namazını camaat məsciddə birlikdə qılırlar. Gündə üç dəfə azan səsləndirilir.

## Şəhidlər abidəsi

1996–1997-ci illərdə Yeni Daşkənd kəndində "Şəhidlər abidəsi" adlı memorial kompleks tikilmişdir. Abidə həmin dövrdə "Yeni həyat" kolxozunun sədri olmuş Məhərrəm Əliyevin təşəbbüsü ilə ərsəyə gəlmişdir. Kənd ağsaqqallarının məsləhəti ilə ərazi olaraq kolxoz idarə heyəti binasının qarşısındakı bağın içi seçilmişdir. Bu bağda hovuzlar və cərgə ilə əkilmiş qızılgüllər vardı. Abidənin üzü kənd icra nümayəndəliyi tərəfə idi.

Abidənin üzlüyündə Daşkəsən mərmərindən istifadə olunmuşdur. Görünüşü trapesiya şəkilli idi. Orta hissə hündür, yan tərəflər alçaq idi. Orta hissənin qarşısında yerdən 70 sm hündürlükdə gül və əkillər qoymaq üçün yer düzəldilmişdi. Tikilinin əsas ustası Mikayıl Şairov olmuşdur. Həmçinin tikintidə "Yeni həyat" kolxozunun inşaat briqadası da yaxından iştirak etmişdir. Həmin dövrdə briqadaya rəhbərliyi Tahir Teymurov edirdi. Tikinti bir neçə aya yekunlaşmışdır.

"Şəhidlər abidəsi" üzərinə 16 şəhid lövhəsi bərkidilmişdi. Onlardan 12-si Yeni Daşkənd şəhidi, 4-ü isə kənddə məskunlaşan Qarabağ köçkünlərinə məxsus idi.

2021-ci ildə yeni və daha müasir "Vətən şəhidləri abidəsi"nin tikintisi ilə əlaqədar "Şəhidlər abidəsi" sökülmüşdür.

## Vətən şəhidləri abidəsi

2019-cu ilin dekabrında Yeni Daşkənd bələdiyyəsinin sədri seçilən Fəzair Piriyev 5 fevral 2020-ci ildə kənd sakinləri və şəhid ailələri ilə görüşmüş, köhnə "Şəhidlər abidəsi"nin yenilənməsi haqqında fikrini onlarla bölüşmüşdür. Layihələndirmə işləri bitdikdən sonra 2021-ci ilin fevralında yeni "Vətən şəhidləri abidəsi" köhnə abidənin

yerində tikilməyə başlanılmışdır. Abidənin özülü 7 mart 2021-ci ildə tökülmüşdür. Abidə Yeni Daşkənd bələdiyyəsinin, kəndin imkanlı şəxslərinin və sakinlərin birgə maddi və mənəvi dəstəyi nəticəsində ərsəyə gəlmişdir.

Abidənin görünüşü trapesiya şəkillidir. Kürsü hissəsi 60 sm, divarın qalınlığı isə 40 sm-dir. Orta hissənin hündürlüyü 3,80 m, eni isə 5,40 metrdir. Simmetirik olan yan tərəflərin hər birinin eni 3,20 m, hündürlüyü isə 3,10 metrdir. Orta hissənin qarşısında eni 3,25 m, yerdən isə 87 sm hündürlükdə ziyarətçilərin gül və əkillər qoymağı üçün yer düzəldilmişdir. Abidənin fasadı qırmızı və qara qranit mərmərlərdən konbinə edilərək üzlənmişdir. Bu da tikilini xüsusən gözəl göstərir.

Abidənin mərkəzi hissəsində VƏTƏN ŞƏHİDLƏRİ sözü yazılmış, həmçinin Azərbaycan Respublikasının Gerbi və Bayrağı quraşdırılmışdır. Abidənin sol yan tərəfində BƏRDƏ RAYONU sözü yazılmış, 11 şəhidin lövhəsi bərkidilmişdir. Sağ yan tərəfində isə YENİ DAŞKƏND KƏNDİ sözü yazılmış, 12 şəhidin lövhəsi bərkidilmişdir. "Vətən şəhidləri abidəsi" üzərində ümumilikdə 23 şəhid lövhəsi bərkidilmişdir. Onlardan 13-ü Yeni Daşkənd kəndinin sakinləri olmuş şəhidlər, 6-sı 1988-ci ildə Göyçə mahalından köçkün düşüb, müxtəlif bölgələrdə yaşamış Daşkənd kəndinin şəhidləri, 4-ü isə Birinci Qarabağ müharibəsi dövründə kənddə məskunlaşan Qarabağ köçkünlərinə məxsus şəhidlərdir.

"Vətən şəhidləri abidəsi"nin yerləşdiyi bağın ətrafında olan köhnə 200 metr uzunluğunda olan hasar da sökülərək yenilənmişdir. Hasarlar ağlayla və qırmızı-boz qranit-mərmərlə işlənilmişdir. Girişdən abidəyə qədər olan 25,00 metr məsafə eni 5,60 metr olmaqla, tametlə döşənmişdir. Abidədən kəndə gedən əsas yola da eni 3,30 metr olmaqla 25,00 metr uzunluğunda səki-yol salınmışdır. Ümumi olaraq abidə ətrafında 300 $m^2$ tamet işi görülmüş, geniş yaşıllıq salınmış, yeni ağaclar və güllər əkilmişdir. Əraziyiyə işıq çəkilmiş, oturacaqlar qoyulmuşdur.

Abidə demək olar ki, ilk 27 sentyabr 2021-ci ildə Anım Gününə hazır idi. Anım Günündə Milli Məclisin deputatı Fatma Yıldırım abidəni ziyarət etmişdir.

Abinənin açılışı 8 noyabr 2021-ci ildə, Zəfər Gününün birinci ildönümündə olmuşdur. Açılış mərasimində Bərdə RİH-nin başçısı Vidadi İsayev, Milli Məclisin deputatları Zahid Oruc, Fatma Yıldırım və geniş ictimaiyyət nümayəndələri iştirak etmişlər.

"Vətən şəhidləri abidəsi"nin açılışı ilə əlaqədar televiziya, internet resursları və qəzetlərdə geniş məlumat verilmişdir.

## Daşkəndli Şair Məmməhüseynə xatirə bulağı

Xatirə bulağı 1985-ci ildə Bərdə-Tərtər yolu üzərində, yolun sağ tərəfində, "Şəlalə kompleksi"nin yanında tikilmişdir. Tikili XIX əsrin tanınmış söz ustadı Şair Məmmədhüseynin xatirəsinə ucadılmışdır. Bulağın ustası Mikayıl Şairov olmuşdur. O, Şair Məmmədhüseynin nəticəsidir.

Tikilinin ümumi eni 138 sm, qalınlığı 95 sm, yerdən hündürlüyü isə 200 sm-dir. Ortada baş tərəfi üçbucaq formasında olan mərmərdən enli lövhə, bu lövhənin sağında və solunda eyniformalı və eyniölçülü iki ədəd ağ mərmərdən sütun ucaldılmışdır. Xatirə bulağı sonralar bir dəfə restavrasiya olunmuşdur.

Bulağın üzərində "Göyçə mahalında yazıb yaratmış Daşkəndli Şair Məmmədhüseynə xatirə bulağı" sözləri və şairin bir bənd qoşması yazılmışdır.

*Gecə-gündüz çağırdığım ərənlər,*
*Eşqin badəsini dolu verənlər,*
*Qohum-qardaş, dost müsaib olanlar,*
*Bir gün "Məmmədsöyün hanı" deyəllər.*

Bulaqdan daim sərin su axır. Yoldan ötənlərin su içməyi, əl-üz yumağı üçün əlverişli bir yerdir.

## Şəhid Səfayətə xatirə bulağı

Bulaq-abidə 2021-ci ildə Soyuq bulağın müdiri Babayev Coşqun Şakir oğlu tərəfindən Yeni Daşkənddən olan Vətən müharibəsi şəhidi Səfayət Hümbətovun şərəfinə inşa etdirilmidir. Xatirə bulağı Bərdə-Tərtər yolu üzərində, yolun sağ tərəfində, "Şəlalə kompleksi"nin yaxınlığında tikilmişdir.

Tikilinin ümumi eni 3,00 metr, hündürlüyü isə 2,00 metrdir. Bulaq-abidə ikitərəflidir. Yanlarında işıqlanma üçün iki ədəd fasad lampası yerləşir. Hər iki tərəfində iki ədəd su kranları var. Bulağın yuxarısında Azərbaycan və Türkiyə bayrağı, mərkəzi hissəsində isə şəhidin şəkili olan lövhə quraşdırılmışdır. Lövhə üzərində "Vətən müharibəsinin şəhid qəhrəmanı Səfayət Ələddin oğlu Hümbətov (17.02.1987–28.09.2020). Soyuq bulaqdan xatirə" sözləri yazılmışdır.

Bulaq-abidədən daim sərin su axır. Yoldan ötənlər su içmək, əl-üz yumaq üçün istifadə edirlər.

# YENİ DAŞKƏNDİN YOLLARI

1953-cü ildə Yeni Daşkənd kəndi mühəndislər tərəfindən planlı salındığından yollar bir-birinə perpendikulyardır. Dörd əsas küçə, iki küçə isə onlarla kəsişən olmuşdur. 1958-ci ildə Hacıyev Bəndər ilk dəfə kəndə “Moskviç” avtomobili gətirmişdir. Camalov Camal xatırlayır ki, o illərdə kənddə belə bir söz də yayılmışdı: “Ay Bəndər, maşını bizə göndər.”

Kəndiçi yollar ilk dəfə Qiyas Kərimov “Yeni həyat” kolxozunun sədri olan vaxt asfaltlanmışdır. Həmin asfaltlanma çox keyfiyyətli olduğundan son illərə qədər yaxşı vəziyyətdə qalmaqda idi.

2009–2010-cu illərdə Azərbaycan Kənd İnvestisiya Layihəsinin “Şimal-Qərb” icma layihələri çərçivəsində və Fəzair Piriyevin dəstəyi ilə kənd yollarının 13 km-i bərpa edilmişdir. Kəndin 7 km pay torpaqlarına gedən yolu da qum-çınqılla örtülmüşdür.

Sonralar Yeni Daşkəndin iş adamlarından olan Knyaz Hacıyev kəndin girişindən, yəni Rizvan Qasımovun evinin yanından 700 metr olmaqla kəndin mərkəzinə, yəni Hacıyev Sabitin evinin yanına qədər yola asfalt tökdürmüşdür.

Daha sonra 2013-cü ilin dekabr ayında Yeni Daşkənddən olan iş adamı Vaqif Süleymanov həmin yerdən davam edərək Azadlıq küçəsinin Yasif Kərimov adına Yeni Daşkənd kənd tam məktəbinin girişinə qədər 300 metr hissəni də şəxsi vəsaiti hesabına asfaltlatmışdır. Həmin yoldan sola dönən Təbriz küçəsini isə digər iş adamı Nüsrət Bayramov öz evinə qədər asfaltlatmışdır.

Hacıyev Sabitin evinin yanından sağa dönən Babək küçəsini isə həmin küçədə evi olan Rəşid Piriyev asfaltlatmışdır.

13 mart 2015-ci ildə on beş min nəfər əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirən Yeni Daşkənd-Umudalılar kəndlərarası avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Görülən tikinti işlərinin başa çatdırılması üçün Prezident 26 iyul 2017-ci ildə “Bərdə rayonunun Yeni Daşkənd-Umudalılar avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında” daha bir Sərəncam imzalamışdır. Bununla

da Bərdə-Tərtər yolundan başlamış Yeni Daşkənd kəndindən keçməklə Yevlax-Bərdə yoluna qədər keyfiyyətli yol çəkilib istifadəyə verilmişdir.

Yuxarıdakı layihə çərçivəsində "Şəlalə kompleksi"ndən, yəni, Bərdə-Tərtər yolundan başlamış Yeni Daşkəndin içindən keçməklə Şatırlıya qədər olan, kəndin ərazisinə aid 2,8 km hissəyə daha müasir texnologiya ilə yol çəkilmişdir. IV texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr olmaqla iki hərəkət zolaqlıdır. 25 mart 2018-ci ildə Prezident İlham Əliyev həmin yolun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

## Kəndin küçələri

**Azadlıq küçəsi** – 1953-cü ildə salınıb. Kəndə daxil olarkən əsas küçədir. Kəndin girişindən başlamış Əliyev Rəhimin evinə qədər davam edir. Məktəb, bir neçə mağaza, poçt, ATS, kənd icra nümayəndəliyi və s. bu küçədə yerləşir. Paşayev Balabəyin, Qəhrəmanov Şiraslanın, Əzimov Bəxtiyarın və başqalarının evləri bu küçədədir.

**Səməd Vurğun küçəsi** – 1953-cü ildə salınıb. Kəndin yuxarı tərəfində yerləşir. Azadlıq küçəsinə paraleldir. Balıyev Niftalının evindən başlamış Balıyev Əkbərin evinə qədər davam edir. Küçənin son hissəsi 1960-cı illərdə salınmışdır. Xasay Hacıyevin, Fəzi Kərimovun, Tanrıverdi Hacıyevin və başqalarının evləri bu küçədədir.

**Mirzə İbrahimov küçəsi** – 1953-cü ildə salınıb. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsinə paralel və ondan aşağıdakı küçədir. Qədirov Əjdərin, Quliyev Ələkbərin, Əliyev Əlişin və başqalarının evləri bu küçədədir.

**Aşıq Ələsgər küçəsi** – 1953-cü ildə salınıb. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsinə paralel və Mirzə İbrahimov küçəsindən aşağıdakı küçədir. Məmmədov Telmanın, Şairov Məhəmmədin, Hüseynov İmaməlinin və başqalarının evləri bu küçədədir. Bu küçəyə kənd sakinləri daha çox "Şatırlı yolu" deyirlər. Şatırlı, Kürdborakı və başqa kəndlərə getmək üçün bu küçədən istifadə olunur.

**Babək küçəsi** – 1953-cü ildə salınıb. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsi və Mirzə İbrahimov küçəsi ilə kəsişən küçədir. Rəsulov Qəzənfərin evindən başlamış Hüseynov Yaqubun evinə qədər davam edir. Kərimov Sabirin, Məmmədov Məzahimin, Piriyev Əlinin, Dünyamalıyev İsmayılın və başqalarının evləri bu küçədədir.

**Təbriz küçəsi** – 1953-cü ildə salınıb. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsi, Səməd Vurğun küçəsi və Mirzə İbrahimov küçəsi ilə kəsişən küçədir. Hacıyev Zərdanın evindən başlamış Qurbanov İsmayılın evinə qədər davam edir. Qəhrəmanov Zamaxanın, Əliyev Tapdığın, Şıxəliyev Məcidin və başqalarının evləri bu küçədədir.

**Məhəmməd Füzuli küçəsi** – təxminən 1963-cü ildə salınıb. Təbriz küçəsinə paraleldir. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsindən başlayaraq Səməd Vurğun küçəsinə qədər davam edir. Əsədov Aftandilin, Bayramov Məhəmmədin, Quliyev Mədətin və başqalarının evləri bu küçədədir.

**Üzeyir Hacıbəyli küçəsi** – təxminən 1967-ci ildə salınıb. Babək küçəsinə paraleldir. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsindən, yəni "Vətən şəhidləri" abidəsindən başlayaraq Şairov Novruzun evinə qədər davam edir. Aşıq Ələsgər küçəsi ilə kəsişir. Hüseynov Akifin, Əbilov Qardaşxanın, Hacıyev Yaqubun, Piriyev Məzahimin, Xəlilov Abbasəlinin və başqalarının evləri bu küçədədir.

**Mirəli Qaşqay küçəsi** – təxminən 1970-ci ildə salınıb. Səməd Vurğun küçəsinin sonundan başlayaraq Şatırlı yoluna, yəni Aşıq Ələsgər küçəsinə qədər davam edir. Məhəmməd Füzuli və Əliş Ləmbəranski küçələrinə paraleldir. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsi Mirəli Qaşqay küçəsi ilə kəsişmədə bitir. Quliyev Vəlinin, Bayramov Yusifin, Vəliyev İsmayılın və başqalarının evləri bu küçədədir.

**Əliş Ləmbəranski küçəsi** – təxminən 1975-ci ildə salınıb. Təbriz küçəsinə paraleldir. Şatırlı yolundan, yəni Aşıq Ələsgər küçəsindən başlayaraq Qurbanov Möhübbətin evinə qədər davam edir. Məmmədov Kamranın, Şairov Mikayılın, Mənsimov Müstəcəbin və başqalarının evləri bu küçədədir.

**Asəf Zeynallı küçəsi** – 1988-ci ildə Yeni Daşkənd kəndinin alt tərəfində, biçənəyin baş tərəfi həyətyanı torpaq sahəsi kimi verildikdən sonra salınıb. Şatırlı yolundan, yəni Aşıq Ələsgər küçəsindən, Bayramov Rəhimin evindən başlayaraq örüş yerinə qədər davam edir. Qədim çinar ağacları bu küçənin solunda yerləşir. Əliyev Əliyarın və b. evləri bu küçədədir.

**Salatın Əsgərova küçəsi** – 1988-ci ildə salınıb. Göyçə küçəsinə paralel küçədir. Səməd Vurğun küçəsindən başlayaraq Şah İsmayıl Xətai küçəsinə qədər davam edir. Kərimov Maksimin, Paşayev Rzanın və başqalarının evləri bu küçədədir.

**Göyçə küçəsi** – 1990-cı ildə salınıb. Babək və Yusif Məmmədəliyev küçələrinə paraleldir. Bu küçədə əsasən 1988-ci ildə Göyçə mahalından deportasiya olunan daşkəndlilər yerləşdirilib. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsindən, yəni kənd icra nümayəndəliyindən, Əliyev Nəsrəddinin evindən başlayaraq, torpaq sahələrinə qədər davam edir. Bayramov İbrahimin, İsmayılov Rəhimin, İsmayılov Bəhruzun və başqalarının evləri bu küçədədir.

**Yusif Məmmədəliyev küçəsi** – 1990-cı ildə salınıb. Göyçə küçəsinə paralel küçədir. Bu küçədə 1988-ci ildə Göyçə mahalından deportasiya olunan daşkəndlilər yerləşdirilib. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsindən başlayaraq, Molla Əmirxanın evinə qədər davam edir. Camalov Cəmilin, Musayev Firudinin, Hacı Ədalətin, Canbaxışov Bəndərin və başqalarının evləri bu küçədədir.

**Həzi Aslanov küçəsi** – təxminən 1994-cü ildə salınıb. Yusif Məmmədəliyev küçəsinə paralel küçədir. Kəndin mərkəzi küçəsi olan Azadlıq küçəsindən başlayaraq Şıxəliyev Elmirin evinə qədər davam edir. Məhərrəmov Əlinin, Kərimov Azərin, Canbaxışov Camalın və başqalarının evləri bu küçədədir.

**Bakı küçəsi** – təxminən 1994-cü ildə salınıb. Şatırlı yolundan, yəni Aşıq Ələsgər küçəsi ilə kəndin mərkəzi Azadlıq küçəsinin kəsişməsindən başlayaraq çöl torpaqlarına qədər davam edir. Bu küçə Salınana qədər ərazi "Xam" adlanırdı. Həzi Aslanov və Cəlil Məmmədquluzadə küçələrinə paraleldir. Piriyev Şahsuvarın, Zöhrab Qocamanovun, Süleymanov Rəşidin və başqalarının evləri bu küçədədir.

**Cəlil Məmmədquluzadə küçəsi** – təxminən 1994-cü ildə salınıb. Şatırlı yolundan, yəni Aşıq Ələsgər küçəsindən başlayaraq çöl torpaqlarına qədər davam edir. Bu küçə salınana qədər ərazi "Xam" adlanırdı. Bakı və Müslüm Maqomayev küçələrinə paraleldir. Qəhrəmanov Xəqaninin və başqalarının evləri bu küçədədir.

**Müslüm Maqomayev küçəsi** – təxminən 1994-cü ildə salınıb. Şatırlı yolundan, yəni Aşıq Ələsgər küçəsindən başlayaraq çöl torpaqlarına qədər davam edir. Kəndə daxil olarkən ilk küçədir. Bu küçə salınana qədər ərazi "Xam" adlanırdı. Küçənin bir tərəfi su arxıdır. Bakı və Cəlil Məmmədquluzadə küçələrinə paraleldir. Şairov Vilayətin və başqalarının evləri bu küçədədir.

## YENİ DAŞKƏNDDƏ DİN

Yeni Daşkənd kəndində İslam dini həmişə uca tutulmuş, dini ayinlər yerinə yetirilmişdir. Göyçə mahalının Daşkənd kəndində olduğu kimi həmin ənənələr Yeni Daşkənddə də icra olunmuş və olunmaqdadır. El-obanın yas məclislərində, məhərrəmlik təziyələrində Molla Abuzər, Süleyman Şairov, Aslan Abbasov, Bəyiş İsmayılov, Molla Həsən, Molla Kərəm, Tat Süleyman, Bayram Zeynalov, Hüseyn Kərimov, Fəzi Kərimov, Qəşəm Kərimov, Nəbi Məhərrəmov, Molla Əmirxan, Molla Səməd kənd sakinlərinin xidmətində dayanmışlar. Hal-hazırda Hacı Ədalət, Hacı Səxavət, Kərbəlayı Yalçın və başqaları da öz xidmətlərini el-obadan əsirgəmirlər.

Göyçə mahalının Daşkənd kəndində yaşamış ağır nəfəsli Seyid Bayramın nəslindən olan Mələk Bayramova (Seyid Bayramın qızı Hacı Seyid Səkinənin qızı) və Adilə İsmayılova (Seyid Bayramın qızı Seyid Maralın qızı) Yeni Daşkənd kəndində yaşayırlar. Onlar da kənddəki məclislərdə yaxından iştirak edir, xalqa xidmət göstərir, el-oba məclislərini idarə edirlər.

Kənddə 2004-cü ildə Quliyev Rövşən Vəli oğlunun şəxsi vəsaiti ilə məscid tikilmiş, sakinlərin istifadəsinə verilmişdir.

### Zəvvarların siyahısı

### Hacılar

Alıyev Rasim Zeynalabdin oğlu – 1999
Əzimov Səxavət Bəxtiyar oğlu – 2004
Quliyev Rövşən Vəli oğlu – 2005, 2006
Məhərrəmov Ədalət Molla Əmirxan oğlu – 2006
Quliyev Fərman Vəli oğlu – 2007, 2013
Məmmədov Əli Abdulla oğlu – 2009
Qocamanov Yaqub Böyükkişi oğlu – 2010
İmanova Güləndam Əsgər qızı – 2014

Qasımov Novruz Səyyad oğlu – 2014
Qasımova Məleykə Mürsəl qızı – 2014
Məmmədova Sevil Əsəd qızı –

## Kərbəlayılar

Rəsulov Əmrah Hacı Kərim oğlu – 1922
Quliyev Rövşən Vəli oğlu – 2005
Şairova Aynurə Sayad qızı – 2008
Kərimov Sabir Xanlar oğlu – 2009
Kərimov Zakir Qəzənfər oğlu – 2009
Quliyev Fərman Vəli oğlu – 2009
Əzimov Səxavət Bəxtiyar oğlu – 2013
Hüseynov Rahil Talıb oğlu – 2013
Alıyev Zöhrab Oruc oğlu – 2014, 2016
Qasımov Novruz Səyyad oğlu – 2016
Qasımova Məleykə Mürsəl qızı – 2016
İsmayılov Qalib Şükür oğlu – 2017
Şairov Şirxan İsrafil oğlu – 2017
Kərimov İlqar Arif oğlu – 2018, 2019
Kərimova Mahirə Rüstəm qızı – 2018, 2019
Kərimova Həqiqət Qəşəm qızı – 2018
Orucov Murad Müsü oğlu – 2018, 2019
Şairov Səyyad Süleyman oğlu – 2018
Balıyev Rauf Kifayət oğlu – 2019
Hüseynov Yalçın Əlif oğlu – 2019
Məhərrəmov Ədalət Əmirxan oğlu – 2019
Məmmədov Sənan İbrahim oğlu – 2019
Kərimov Eldəniz Arif oğlu – 2019
Orucov Fuad Müsü oğlu – 2019

## Məşədilər

Rəsulov Əmrah Hacı Kərim oğlu – XX əsr
Əzimov Səxavət Bəxtiyar oğlu – 2000, 2002, 2013
Quliyev Rövşən Vəli oğlu – 2001
Məmmədova Rəfiqə İslam qızı –
Mədətli İlkin Əmrah oğlu – 2004
Şairova Aynurə Sayad qızı – 2008
Kərimov Sabir Xanlar oğlu – 2009
Kərimov Zakir Qəzənfər oğlu – 2009
Kərimova Sərvinaz Ənvər qızı – 2010
Piriyeva Şölə Oruc qızı – 2010
İmanova Güləndam Əsgər qızı – 2012
Orucov Fuad Müsü oğlu – 2012, 2019
Orucova Gülnar Xalid qızı – 2012
Balıyev Rauf Kifayət oğlu – 2013
Hüseynov Rahil Talıb oğlu – 2013
Kərimov Eldəniz Arif oğlu – 2013
Məhərrəmov Ədalət Əmirxan oğlu – 2013, 2014
İsmayılov Ələmdar Bəyiş oğlu – 2013
İsmayılov Etimad Ələmdar oğlu – 2013
İsmayılov Cəmaləddin Ələmdar oğlu – 2013
İsmayılov İlqar Əmirəhməd oğlu – 2013
Hacıyeva Əsmətel Abdulla qızı – 2014
Kərimova Fatma (Fema) Cəmil qızı – 2014
Məhərrəmova İlhamə Ədalət qızı – 2014
İsmayılova Nuranə Ədalət qızı – 2014
İsmayılov İsmayıl Şamil oğlu – 2014
Alıyev Zöhrab Oruc oğlu – 2015, 2016
Şairov Səyyad Süleyman oğlu – 2016, 2018
İsmayılov Qalib Şükür oğlu – 2017
Kərimov İlqar Arif oğlu – 2018, 2019
Kərimova Mahirə Rüstəm qızı – 2018, 2019
Məmmədov Sənan İbrahim oğlu – 2019

Orucov Murad Müsü oğlu – 2019
Kərimov Təyyar Qəşəm oğlu – 2019
Kərimova Solmaz Qəşəm qızı – 2019
Kərimova Əzizə Ramazan qızı – 2019
Kərimova Zülfiyyə Arif qızı – 2019
Kərimova Həqiqət Qəşəm qızı – 2022

## Ümrə ziyarətində olanlar

Quliyev Fərman Vəli oğlu – 2013
Kərimov Zakir Qəzənfər oğlu – 2019
Kərimova Rəna Tanrıverdi qızı – 2019
Qasımov Novruz Səyyad oğlu – 2019, 2020
Qasımova Məleykə Mürsəl qızı – 2019, 2020
Əliyev Ələddin Məhəmməd oğlu – 2023

## Din xadimləri

**Rəsulov Əmrah Kərim oğlu** təxminən 1828-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur.

Əmrah Hacı Kərim oğlu əvvəlcə Məşhəd ziyarətində, təxminən 1922-ci ildə isə Kərbəla ziyarətində olmuşdur. Onun Kərbəladan gətirdiyi təsbeh bu günə qədər nəvəsi Haris Əmrahov tərəfindən qorunub saxlanılmışdır. Haris Əmrahovun arxivində Kərbəlayı Əmraha məxsus pulqabı, içərisində isə 19 ədəd (3 ədəd 100-lük, 2 ədəd 50-lik, 3 ədəd 25-lik, 11 ədəd 10-luq) olmaqla 585 rubl məbləğində istiqraz var. Pulqabı çox qədim, SSRİ-yə məxsus istiqrazlar isə 1954-cü ilə aiddir.

Kərbəlayı Əmrah Göyçədə süfrəsi açıq, çörəkli, zəhmətkeş bir rəncbər kimi məşhur olmuşdur. Daim yolçuları saxlayar, yedizdirər, yeməyənin isə xurcununa çörək, azuqə qoydurarmış. Çox səxalı və

halal kişilərdən biriymiş. Çoxlu mal-heyvanı, geniş torpaq sahələri varmış.

Kərbəlayı Əmrah haqqında bir neçə əhvalat bu kitabın "Əhvalatlar" bölməsində verilmişdir.

Kərbəlayı Əmrah iki dəfə evlənib. İlk evliliyi Pirilər nəslindən Bayramalının qızı olub. Onların üç oğlu, iki qızı (Əliş, Qurban, Bayaz, Sona, Məhəmməd) doğulub. İkinci evliliyi Qaraiman kəndindən Sinəxanım ilə olub. Onların bir qızı (Salatın) olub. Sinəxanım yanında Yəmən adlı bir qız da gətirib, Kərbəlayı Əmrah o qızı da öz övladı kimi böyüdərək, ərə verib. Sinəxanıma "Qara arvad" deyirmişlər, 120 yaşında vəfat edib.

Oğlanlarından Əliş və Qurban baş götürüb kənddən getmiş və itkin düşmüşlər. Deyilənlərə görə, qardaşlar 1918-ci ildə türk qoşunları Azərbaycana köməyə gələrkən onlara qoşulmuş və erməni daşnaklarına qarşı vuruşmalarda iştirak etmişlər. Digər oğlu Məhəmməd isə Böyük Vətən müharibəsinə getmiş, lakin geri qayıtmamışdır.

Kərbəlayı Əmrah 1953-cü ildə ailəsi ilə birlikdə doğulduğu Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur. Onun ömrünün son illərində gözləri tutulmuşdur. Nəvələri ona layiqincə qulluq etmiş, qayğı göstərmişlər.

1955-ci ildə Kərbəlayı Əmrah təxminən 127 yaşında Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur. O, Göyçə mahalından gətirdiyi məzar daşını özü öz əlləri ilə yonub hazırlamışdı. Həmin daş bu gün də Yeni Daşkənd qəbiristanlığında onun qəbri üzərindədir.

**Atayev Süleyman Məlikməhəmməd oğlu** 1884-cü ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. Ailədə iki qardaş, bir bacı olublar. Qardaşı Rüstəm 1920-ci ildə Gəncə üsyanı zamanı rus ordusu tərəfindən Şəmkirdə öldürülüb. Bacısı Gülsüm isə Şərur rayonunun Yengicə kəndində Hüseyn ilə ailə həyatı qurmuşdur.

Süleyman Atayev əslən Cənubi Azərbaycanın Sulduz mahalındandır. Sinəsi hikmətli sözlərlə, müxtəlif tərbiyəvi əhvalatlarla, nağıllarla, tarixi dastanlarla dolu olmuşdur. Bu gün də onu görənlər onun

necə bir sinədəftər olmasından, iti yaddaşından danışırlar. Dini mükəmməl bilmiş, lakin heç vaxt mollalıq etməmişdir.

1953-cü ildə bir çox daşkəndlilər kimi o da ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir. Köçürülmədən öncə Süleyman kişinin, Bayram Zeynalovun və Xıdır Namazovun bugünkü Yeni Daşkənd kəndinin yerinin seçilməsində, məktəbin yaradılmasında böyük xidmətləri olmuşdur.

Süleyman Atayev 1964-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 80 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Zeynalov Bayram Əzim oğlu** 1888-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. İrandan gəlib Daşkənd kəndində uşaqlara dini təhsil verən axunddan dərs almış, kəndin ən hörmətli din adamlarından biri kimi hörmət, izzət sahibi olmuşdur. Hər il məhərrəmlik ayında rozəxan kimi mərsiyə deyər, məlahətli səsi, yaxşı avazı ilə kənd sakinlərinin xidmətində dayanarmış. Ömrünün sonuna qədər hər gün namaz qılmış, hər il oruc tutmuşdur. Onun şəxsi Quran kitabı qədimidir və günümüzə qədər qalmaqdadır.

Bayram Zeynalov Tutu Kərbəlayı Zeynal qızı ilə ailə həyatı qurmuşdur. Beş oğlu, iki qızı olmuşdur.

1953-cü ildə bir çox daşkəndlilər kimi o da ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir. Köçürülmədən öncə Tat Süleymanın, Bayram Zeynalovun, Xıdır Namazovun bugünkü Yeni Daşkənd kəndinin yerinin seçilməsində, məktəbin yaradılmasında xidmətləri olmuşdur.

Bayram Zeynalov 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 75 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Yeni Daşkənd kəndinin hazırkı mollası Hacı Səxavət Bayram Zeynalovun nəvəsidir.

**Şairov Kərəm Əsəd oğlu** 1890-cı ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Şair Məmmədhüseynin nəvəsidir. 1953-cü ildə bir çox Daşkəndlilər kimi o da Bərdə rayonuna deportasiya edilmişdir.

Kərəm kişi Göyçədə dini təhsil almışdır. Yaxşı usta olub, kənddə bir çox evləri o, sonralar isə oğlu Mikayıl tikmişdir. Təxminən 1975-ci ildən sonra Yeni Daşkənd kəndində mollalıq etmişdir.

1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 99 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hacıyev Abbasəli İsmayıl oğlu** 1898-ci ildə Göyçə mahalının Daşkənd kəndində Hacı Məhəmmədlilər nəslində doğulmuşdur. 1941-ci ildə müharibəyə səfərbər edilmiş, arxa cəbhədə xidmət etmişdir. 1953-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur.

Güclü hafizəyə malik olduğundan bəzən 30–40 il öncə gördüyü yad insanı tanıyarmış. Hikmətlə dolu ifadələrlə söhbət edərmiş. Çox təəssübkeş bir insan, dini ayinlərə əməl edən, kənddə hörməti olan el ağsaqqalı olmuşdur.

Abbasəli Hacıyev 1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 91 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Kərimov Hüseyn Rəsul oğlu** 1898-ci ildə Göyçə mahalının Daşkənd kəndində Rəsullular nəslində anadan olmuşdur. 5 yaşı olanda atası Rəsul dünyasını dəyişmişdir. Dindar bir nəsildə doğulan Hüseyn çox nurani bir şəxs, din adamı olmuşdur. Quranı gözəl bilirmiş, namaz qılıb, oruc tutarmış. Şəxsi təsərrüfatında əkinçilik və heyvandarlıqla məşğul olmuşdur.

1922-ci ildə əslən Alçalı kəndindən olan Dəstəgül Məhərrəm qızı ilə ailə həyatı qurmuşdur. Onların altı oğlu, bir qızı olmuşdur.

1953-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur.

Hüseyn Kərimov 12 il Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşadıqdan sonra 23 noyabr 1965-ci ildə 67 yaşında vəfat etmişdir. Məzarı Bərdə rayonunun Yeni Daşkənd kəndindədir.

**Məhərrəmov Əmirxan Həsən oğlu** 15 dekabr 1936-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində şair-molla ailəsində anadan olmuşdur. Atası Həsən Xəyallıdan güclü dini və ədəbi təhsil almış, həm molla, həm şair kimi xalq arasında tanınmışdır.

Göyçə şairlərinin, o cümlədən Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman və başqa söz ustadlarının şeirlərini sinəsində cəmləmişdir. Hətta Aşıq Ələsgər və Növrəs İmanın çap olunmayan şeirlərini də əzbərdən bilirdi. Molla Əmirxan atasından öyrəndiyi "Abbas və Gülgəz" dastanını şeirləri ilə birlikdə mükəmməl bilərək, daim məclislərdə onun müxtəlif hissələrini söyləmişdir.

O, 1988-ci ildə doğma yurd-yuvasından məcburi qaçqın düşüb, Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdı. Molla Əmirxan Göyçə mahalında olduğu kimi, Qarabağda da tanınmış din xadimi idi. Eldə-obada xeyirxah işlərdən öz köməyini əsirgəməmişdir.

1993-cü ildə Qarabağ müharibəsində oğlu Mehdi Ağdərə uğrunda gedən döyüşlərdə bacarıqlı rabitəçi kimi iştirak etmiş, naməlum şəraitdə itkin düşmüşdür.

Molla Əmirxan 27 noyabr 1988-ci ildən ömrünün axırına qədər Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşamış, Yeni Daşkənddə və eləcə də bir çox qonşu kəndlərdə mərhumları dəfn etmiş, yas məclislərini idarə etmişdır. Oğlu Hacı Ədaləti də yaxşı bir dindar kimi yetişdirmişdir.

Molla Əmirxan 18 aprel 2012-ci ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Axşam-səhər kövrək sətirlərlə, həsrətli deyimlərlə Göyçə haraylayan, üzünü Göyçəyə tutan Molla Əmirxanın 2012-ci ildə "Göyçə dərdi" adlı şeirlər kitabı çap olunmuşdur.

**Əliyev Səməd Himoy oğlu** 18 may 1939-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Orta məktəbi 5-ci sinfə kimi doğma Daşkənd kəndində oxuduqdan sonra, 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndinə deportasiya edilmişdir. Məktəbin qalan hissəsini Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Orta məktəbi bitirdikdən sonra 1959-cu ildə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumuna daxil olmuşdur. 1963-cü ildə texnikumu bitirdikdən sonra Yeni Daşkənd kənd orta məktəbində əmək təlimi müəllimi işləmişdir.

1964-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, Bərdə rayonunun Yeni Əyricə kəndində müəllim işləmişdir. Uzun illər Bərdə rayon "Texnika Birliyi"ndə traktor briqadiri və başqa məsul işlərdə çalışmışdır.

Uşaq çağlarından ərəb və fars dilini, şəriəti dayısı, el şairi Qəmgin Fəzi Məşədi Qasım oğlundan mükəmməl öyrənmiş Səməd Əliyev elin-obanın hörmətini qazanmış müdrik el ağsaqqalı olmuşdur. Kəndin yas məclislərində, məhərrəmlik təziyələrində, dini ayinlərin yerinə yetirilməsində yaxından iştirak etmişdir.

3 mart 2018-ci ildə 79 yaşında vəfat etmiş, Yeni Daşkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

Səməd Əliyevin 2007-ci ildə "Ürəyimdən əsən yellər" adlı şeirlər kitabı çap olunmuşdur. Kitabda, həmçinin Səməd Əliyevin də mənsub olduğu "Babakişilər" nəslinin şəcərəsi də verilmişdir. Şeirlərini əsasən "Dərdli Səməd" təxəllüsü ilə yazmışdır.

**Əzimov Səxavət Bəxtiyar oğlu** 15 oktyabr 1961-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1969-cu ildə Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1979-cu ildə həmin orta məktəbi bitirmişdir. 1980–1982-ci illərdə sovet ordusunda həqiqi hərbi xidmətdə olmuşdur.

1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İstilik və qaz təchizatı fakültəsinə qəbul olmuş, oxuduğu beş il müddətində qrup nümayəndəsi kimi ictimai fəal olmuşdur. 1989-cu ildə ali təhsilini başa vurduqdan sonra təyinatla Bərdə rayonundakı 6 saylı Səyyar

Mexanikləşdirilmiş Dəstədə dörd il iş ustası, bir il mühəndis vəzifəsində çalışmışdır.

1996-cı ildən dinə çox marağı olduğundan dindar kimi xidmətə başlamışdır. 1998-ci ildən el-oba üçün yas məclislərini idarə etmişdir. 2000, 2002 və 2013-cü illərdə Məşhəd ziyarətində, 2004-cü ilin yanvarında Həcc ziyarətində, 2013-cü ildə Kərbəla ziyarətində, 2022-ci ildə isə Naxcıvandakı Əshabi-Kəhf ziyarətində olmuşdur.

Bərdə rayonunda tanınmış molladır. Hal-hazırda da həmişəki kimi el-obaya, camaata xidmət edir, əza məclislərini yola salır.

**Məhərrəmov Ədalət Əmirxan oğlu** 1962-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1979-cu ildə Daşkənd kənd orta məktəbini bitirmiş, İrəvan Kənd Təsərrüfatı Texnikumuna qəbul olmuşdur. 1985-ci ildən 1988-ci ilə kimi doğulduğu kənddə baytar işləmişdir.

1988-ci ildə məcburi qaçqın kimi Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

Dini bilgiləri atası, tanınmış din xadimi Molla Əmirxandan öyrənmiş, yaxşı bir dindar kimi yetişmişdir. 1997-ci ildən yas məclisləri aparır. Bərdə rayonunda tanınmış molladır.

2006-cı ildə Həcc ziyarətində, 2013-cü və 2014-cü ildə Məşhəd ziyarətində, 2019-cu ildə isə Kərbəla ziyarətində olmuşdur.

Hal-hazırda el-obaya, camaata xidmət edir, əza məclislərini yola salır.

## YENİ DAŞKƏNDDƏ SƏHİYYƏ

Yeni Daşkənd salındıqdan sonra kənddə tibb məntəqəsi də yaradılmışdır. Əvvəlcə Abdullayev Hüseynin evinin qabağındakı Paşayev Səttərin evi olan yer tibb məntəqəsi olmuşdur. Həmin məntəqədə Şatırlı kəndindən əslən rus olan İvan həkim işləmişdir. 1956-cı ildən sonra Bərdədən Əli adlı şəxs həkim işləmiş, onun tibb bacısı isə Cəmilə xanım olmuşdur. Əlidən sonra həkim Qəmbər, onun tibb bacısı isə Cəmilov İsağın həyat yoldaşı Ceyran olmuşdur. Ceyran xanım Bakıdan təynatla göndərilibmiş. Sonralar Hüseynov Əlifin evi ilə üzbəüzdə yeni ambulatoriya tikilmişdir.

İsmayılov Miskin (1959-1961), Piriyev Məzahim (1967-ci ildən), Hüseynov Akif (1970-ci ildən), Qəhrəmanov Əlixan (1972–1974), Məmmədov Kamran (1980-ci ildən) ambulatoriyada həkim kimi fəaliyyət göstərmişlər. Tibb bacılarından Hüseynova Güllü, Şairova Gülşən və başqaları ambulatoriyada çalışmışdır.

1986-cı ildən Kərimova Kəmalə də bir müddət baş həkim işləmişdir.

1989-cu ildə kolxoz idarə binasına yaxın yerdə daha böyük həkim ambulatoriyası tikilib istifadəyə verilmişdir. Burada Aslanov Vaqif, 2009-cu ilə kimi Bərdədən gələn Rəna baş həkim işləmişdir. Hal-hazırda Məmmədova Sona baş həkim vəzifəsində çalışır.

Hazırda Mürsəlova Durna (Sevda), Məmmədov Fəqan, Əsədova Göhərtac, Piriyeva Natəvan, Mustafayeva Gülşən və başqaları kənd ambulatoriyasında işləyir, kənd əhalisinə tibbi xidmət göstərirlər.

Tibb təhsili almış həkimlərlə yanaşı, Yeni Daşkənddə türkəçarə ilə də əhalinin xidmətində olanlar vardı. Ən yaxşı loğman Quliyev Səfər olmuşdur. Səfər kişi yaraların, daxili xəstəliklərin müalicəsində, sınıqçı kimi yaxşı bacarıqlı loğman olmuşdur. Hətta qonşu kəndlərdən də onun yanına müalicəyə gəlirmişlər. Quliyev Səfər həm də dərziliyi də yaxşı bacarır, yaxşı kostyum tikirmiş.

Türkəçarə ilə Əsmər, Gülsüm, Savad, Hüseynov Hüseyn, Mikayılov Mirzə, Namazova Maral, Hacıyeva Ruqiyə, Məmmədova Yəmən və başqaları da məşğul olmuşdur.

Yeni Daşkənd kəndindən olan həkimlərdən Hacıyeva İradə, Qurbanova Afət, Anya, Rübabə, Əliyeva İradə, Cahangirova Raya, Abdullayeva Rəfiqə və başqalarının da adlarını qeyd etmək olar. Hacıyeva Zəminə, Canbaxışov Bəndər, Şairov Şirxan, Şairov Xəlil, Canbaxışov Ruslan isə stomotoloq kimi fəaliyyət göstərirlər.

**İsmayılov Miskin Abbasəli oğlu** 15 aprel 1940-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1946-cı ildə Daşkənd kənd orta məktəbinin I sinfinə getmişdir. 1953-cü ildə ailəsi ilə birlikdə doğulduğu ata-baba yurdundan Bərdə rayonuna deportasiya edilmişdir. 1956-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1957-ci ildə Nuxa Tibb məktəbinə daxil olmuş, 1959-cu ildə həmin məktəbi feldşer ixtisası üzrə bitirmişdir.

1959–1961-ci illərdə Bərdə rayonunun Yeni Daşkənd kəndində feldşer işləmişdir.

1961-ci ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna qəbul olmuşdur. 1967-ci ildə həmin institutu “Radio rabitəsi və radio verilişləri” ixtisası üzrə bitirmişdir. İnstitutda oxuduğu dövrdə Bakı Radio mərkəzində radio verilişləri üzrə texniki nəzarət vəzifəsində çalışmışdır.

1968-ci ildən 2000-ci ilə qədər Bakı 81 saylı Texniki Peşə məktəbində müəllim işləmişdir.

Hal-hazırda Bakı şəhərində yaşayır.

**Qəhrəmanov Əlixan Şiraslan oğlu** 1 iyul 1940-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə doğulduğu ata-baba yurdundan Bərdə rayonuna deportasiya edilmişdir.

1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. 1961-ci ildə hərbi xidmətə getmiş, 1964-cü ildə Yeni Daşkənd kəndinə qayıtmışdır.

1968-ci ildə Bakıdakı 1 nömrəli Baza Tibb məktəbini bitirmişdir. 1972–1974-cü illərdə Bərdə rayonu Yeni Daşkənd tibb məntəqəsində feldşer, 1975–1980-ci illərdə Xızı rayonu Şuraabad kəndində, 1982–

1988-ci illərdə isə Bərdə rayonu Kürdborakı kənd xəstəxanasında həkim işləmişdir. 1990–2000-ci illərdə Bərdə rayonu Artezian Quyuları Qazma İdarəsində səhiyyə-sağlamlıq məntəqəsinin müdiri vəzifəsində çalışmışdır.

Əlixan Qəhrəmanovda şeir yazmaq istedadı hələ orta məktəbdə oxuyan vaxtlardan yaranmışdır. Bakı şəhərində oxuduğu illərdə yazıçı və şairlərlə, xüsusən Süleyman Rüstəm, Mobil Quluzadə, Cabir Novruz ilə sıx təmasda olmuş, daim şeir məclislərində, ədəbi-bədii tədbirlərdə iştirak etmişdir.

1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illiyində Aşıq İmran, Aşıq Əkbər və Aşıq Hüseyn Saraclı ilə görüşmüş, elə oradaca bir Göyçəli balası kimi "Ələsgər" rədifli şeir yazaraq Aşıq İmrana vermişdir.

Şeirlərinin bir neçəsi "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 189–195).

Əlixan Qəhrəmanov 25 dekabr 2015-ci ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Piriyev Məzahim Əsgər oğlu** 2 mart 1942-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Basarkeçər rayonu Daşkənd kənd orta məktəbini bitirmişdir.

1958-ci ildə Nuxa Tibb məktəbinə daxil olmuş, 1960-cı ildə həmin məktəbi feldşer ixtisası üzrə bitirmişdir. Tibb məktəbini bitirdikdən sonra Basarkeçər rayonunun Daşkənd və Sarıyaqub kəndlərində həkim işləmişdir.

1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kənd ambulatoriyasında baş həkim vəzifəsində çalışmış, yaşadığı kəndlə bərabər ətraf kəndlərin camaatına da xidmət göstərmişdir. Məzahim həkim gecə-gündüz, isti-soyuq bilmədən hamının hayına yetmiş, kənd sakinlərinin sağlamlığı üçün çalışmış, xüsusən yaşlı insanlara evlərində tibbi yardım göstərməkdən usanmamışdır.

Məzahim Piriyev 1973–1977-ci illərdə Bərdə rayonunda Xalq drujinaçısı olmuşdur. 1980-ci illərdə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

8 aprel 1998-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 57 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hüseynov Akif İmaməli oğlu** 5 yanvar 1947-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu Daşkənd kəndindən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir.

1954-cü Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1966-cı ildə həmin məktəbi bitirmişdir.

1966-cı ildə N.K.Krupskaya adına Kirovabad Baza Tibb məktəbinə daxil olmuş, 1969-cu ildə həmin məktəbi feldşer ixtisası üzrə bitirmişdir.

1970-ci ildən Bərdə rayonu Yeni Daşkənd kənd tibb məntəqəsində feldşer kimi işləməyə başlamışdır. Sonralar bir müddət Yeni Daşkənd kənd ambulatoriyası baş həkiminin müavini vəzifəsində də işləmişdir.

Akif həkim Yeni Daşkəndlilərin sağlamlığı keşiyində daim çalışmış, bir həkim kimi qulluqlarında dayanmışdır. O, daim mütaliə edər, tibbi yenilikləri izləyər, öz üzərində çalışardı. Bəzən ən adlı-sanlı həkimlərin belə müəyyən edə bilmədiyi diaqnozu Akif həkim dəqiqliyi ilə deyərdi. O, həm də təəssübkeş, qohumcanlı bir şəxs kimi hamının yaxşı xatirindədir.

8 avqust 2014-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Akif Hüseynov 1969-cu ildə ailə həyatı qurmuş, beş qızı, bir oğlu olmuşdur.

**Məmmədov Kamran İmran oğlu** 1947-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1949-cu ildə uşaqkən atası İmran vəfat etmişdir.

Ana və dayılarının himayəsində Kəlbəcər rayonunun Mollabayramlı kəndində böyümüş, uşaqlıqdan çox zəhmətkeş və qayğıkeş olmuşdur.

Kamran Məmmədov dördillik orta məktəbi Kəlbəcər rayonunun Mollabayramlı kəndində, səkkizillik orta məktəbi isə Zar kəndində bi-

tirmişdir. O, onillik orta məktəbi bitirmək üçün qohumlarının çox hissəsinin yaşadığı və doğma kəndi olan Göyçə mahalının Daşkənd kəndinə getmiş, 1964-cü ildə Daşkənd kənd orta məktəbi bitirmişdir.

1964-cü ildə Basarkeçər Tibb Texnikumuna daxil olmuş, texnikumu 1967-ci ildə bitirdikdən sonra əvvəlcə Kəlbəcər rayonunun Zar kəndində, 1980-ci ildən isə Bərdə rayonunun Yeni Daşkənd kəndində həkim kimi fəaliyyət göstərmişdir.

Kamran Məmmədov ixtisasca həkim olsa da, el arasında yazdığı şeirləri ilə də tanınmışdır. Daşkəndli şair Məmmədhüseynin kötücəsidir. Şeirləri müxtəlif qəzetlərdə və almanaxlarda çap olunmuşdur. Onun "Göyçə həsrəti" (Bakı, "Nurlan", 2005) və "Vətən sevgisi" (Bakı, "Elm və təhsil", 2021) adlı şeir kitabları nəşr edilmişdir.

Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

**Abdullayeva Rəfiqə Kamran qızı** 19 aprel 1972-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1988-ci ildə məcburi köçkün kimi ailəsi ilə birlikdə İsmayıllı rayonunda məskunlaşmışdır. 1992-ci ildə İsmayıllı şəhər 6 saylı tam orta məktəbi bitirmişdir. 1996-cı ildə İsmayıllı rayon Mədəniyyət evində birillik tibb kursu keçdikdən sonra tibb bacısı kimi əmək fəaliyyətinə başlamışdır.

2002-ci ildə Rafiq Abdullayevlə ailə qurduqdan sonra Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

Rəfiqə Abdullayeva 2020-ci ildə başlayan COVID-19 pandemiyası zamanı Yeni Daşkənd sakinlərinin sağlamlığı keşiyində dayanmış, koronaviruslu, eləcə də digər xəstələrə tibbi yardım göstərmiş və hal-hazırda da tibb bacısı kimi fəaliyyət göstərməkdədir.

Həyat yoldaşı Rafiq Abdullayev müharibə veteranı, III qrup əlildir. İki qızı, bir oğlu var.

## UZUNÖMÜRLÜLƏR

Orta ömür həddi kişilərdə 81 yaş, qadınlarda isə 87 yaş hesab olunan Yaponiya uzun illərdir ki, dünyanın ən uzunömürlü sakinlərinin yaşadığı ölkələr sırasındadır. Çin, Honkonq, San-Marino, İspaniya, Sinqapur, İsveçrə, Cənubi Koreya da uzunömürlülər diyarı hesab edilir. Ən çox yaşlı insanların olduğu ölkə Yaponiyadır. Bu ölkədə hər dörd nəfərdən biri 65 və daha yuxarı yaşdadır.

Əsasən qadınlar kişilərə nisbətən daha çox ömür sürürlər. Kişilərin orta ömrü qadınlara nisbətən 5–6 il qısadır. Dünya üzrə orta ömür həddi kişilərdə 71 yaş, qadınlarda isə 75 yaş olub.

Azərbaycanda 90 yaşına çatmış insan uzunömürlü hesab edilir. Dünya üzrə bu yaş həddi isə 100 yaşdır. Azərbaycanda orta ömür həddi təxminən 74 ildir. Belə ki, 2021-ci ildə Azərbaycanda doğulan körpələr üçün gözlənilən ömür uzunluğu 73,6 yaş, o cümlədən oğlanlar üçün 71,3 yaş, qızlar üçün isə 75,9 yaş olmuşdur.

Azərbaycanda uzunömürlülər dağlıq rayonlarda – Cənub bölgəsində, İsmayıllı, Tovuz, Gədəbəy, Quba rayonlarında üstünlük təşkil edirlər. Azərbaycanın ən uzunömürlü sakini “Ginnesin rekordlar kitabı”na 168 yaşla daxil edilən Şirəli Müslümov olmuşdur.

Lerik rayonunda “Uzunömürlülər muzeyi” fəaliyyət göstərir. “Hər kim yüz il yaşamasa” adlı kitabda Gədəbəyin 100 yaşlıları haqqında ətraflı məlumat verilmişdir. 1977-ci ildə Azərbaycanda “Uzunömürlülər” adlı qısametrajlı film çəkilmişdir.

Yeni Daşkənd kəndində yaşamış və yaşı 90-ı keçmiş uzunömürlülər haqqında danışarkən unutmaq olmaz ki, Daşkəndlilər Göyçə mahalının, əzəli ata-baba yurdları olan Daşkənd kəndinin təmiz havasından udmuş, şəffaf sulu bulaqlarından su içmiş, təbii nemətlərindən qidalanmış, sazlı-sözlü məclislərində xoş güzəran keçirmiş, istirahət etmişlər. Xatirimizdə qalan Yeni Daşkənddəki uzunömürlülərin siyahısını verməyi vacib bildik. Lakin bu siyahını heç də tam hesab etmək olmaz.

127 yaş – Rəsulov Əmrah Hacı Kərim oğlu (1828–1955)
125 yaş – Qəribov Abdulla Paşa oğlu (1830–1955)
119 yaş – Babayeva Sehran Həsən qızı (1866–1985)
110 yaş – Bayramova Həmayıl Əli qızı (1890–2000)
110 yaş – Hüseynova Cavahir Bayram qızı (1893–2003)
110 yaş – Kərimova Həlimə Allahverdi qızı (1878–1988)
100 yaş – Babayev Qəhrəman Məhəmməd oğlu (1862–1962)
100 yaş – Mirzəyev Səlim Xudu oğlu (1876–1976)
100 yaş – Mirzəyeva Kəklik Abbasəli qızı (1880–1980)
105 yaş – Piriyev Əbil Bayramqulu oğlu (1867–1972)
103 yaş – Zeynalova Bahar Hacı Kərim qızı (1862–1965)
102 yaş – Piriyev Mehdi Bayramqulu oğlu (1870–1972)
101 yaş – Əliyeva Mələk Hacı Məhəmməd qızı (1888–1989)
100 yaş – Babayeva Məsmə Hacı Məhəmməd qızı (1870–1970)
99 yaş – Möjdünova Gülbayaz Cəlil qızı (1886–1985)
99 yaş – Mustafayeva Günəş Kərim qızı (1900–1999)
99 yaş – Şairov Kərəm Əsəd oğlu (1890–1989)
98 yaş – Qasımova Xurma Əziz qızı (1896–1994)
97 yaş – Qəribova Tamam Rüstəm qızı (1876–1973)
97 yaş – Şairova Hamayıl Nağı qızı (1920–2017)
96 yaş – Mahmudova Ruqiyə Əsəd qızı (1914–2010)
96 yaş – Məmmədov Məmməd Qədir oğlu (1897–1993)
96 yaş – Namazov Xıdır Əli oğlu (1870–1966)
95 yaş – Alıyev İsmayıl Məhər oğlu (1913–2008)
95 yaş – Elyazova Fitat Qasım qızı (1907–2002)
95 yaş – Qocamanova Mələk Camal qızı (1916–2011)
95 yaş – Süleymanova Leylan Camal qızı (1876–1971)
95 yaş – Şıxəliyev Məcid Cəfər oğlu (1903–1998)
94 yaş – Xəlilov Abbasəli Süleyman oğlu (1913–2007)
94 yaş – Qocamanova Reyvə Kərbəlayı Camal qızı (1904–1998)
94 yaş – Möjdünov Behbud Məmməd oğlu (1878–1972)
93 yaş – Əsədova Növrəstə İsmayıl qızı (1913–2006)
93 yaş – Həsənov Cəlil Xəlil oğlu (1910–2003)
93 yaş – Xəlilova Abuzəndə Paşa qızı (1930–yaşayır)

93 yaş – Qocamanov Böyükkişi Camal oğlu (1907–2000)
93 yaş – Qocamanov Qocaman Camal oğlu (1923–2016)
93 yaş – Quliyeva Balaxanım Allahyar qızı (1886–1979)
93 yaş – Məmmədova Səmər Abdulla qızı (1905–1998)
93 yaş – Şairova Əfruz Səfər qızı (1889–1982)
92 yaş – Abdullayeva Sərəngiz Tanrıverdi qızı (1924–2016)
92 yaş – Bayramova Şarabanı İsmayıl qızı (1880–1972)
92 yaş – Əzimov Yusif Müseyib oğlu (1923–2015)
92 yaş – Hüseynov Hüseyn Şükür oğlu (1907–1999)
92 yaş – Məsimov Oruc Budaq oğlu (1926–2018)
92 yaş – Namazov Qasım Vəli oğlu (1882–1974)
91 yaş – Əsgərova Bağdagül Nağı qızı (1923–2014)
91 yaş – Əliyeva Tehran Xanlar qızı (1932–yaşayır)
91 yaş – Hacıyev Abbasəli İsmayıl oğlu (1898–1989)
91 yaş – Quliyev Səfər Məhəmməd oğlu (1880–1971)
91 yaş – Rəhimova Yaqut Hacı Rəhim qızı (1898–1989)
90 yaş – Abdullayeva Qaratel Abdulla qızı (1895–1985)
90 yaş – Canbaxışova Dünya Papır qızı (1933–yaşayır)
90 yaş – Əliyeva Ceyran Süleyman qızı (1933–yaşayır)
90 yaş – Hacıyev Hüseyn Hasoy oğlu (1933–yaşayır)
90 yaş – Hüseynova Abuzəndə Oruc qızı (1927–2017)
90 yaş – Kərimov Vərqa Hüseyn oğlu (1932–2022)
90 yaş – Məmmədov Mehralı Səfər oğlu (1933–yaşayır)
90 yaş – Məmmədova Bulqeyis Səfi qızı (1933–yaşayır)

# ÇOXUŞAQLI ANALAR

Vaxtilə Azərbaycan ailələri çoxuşaqlılığı və tərkibinin böyüklüyü ilə SSRİ-nin daxilindəki digər respublikalar arasında əsas yerlərdən birini tuturdu. Sovet hökuməti 10 və daha çox uşaq doğub böyüdən qadınların sosial qayğısını ittifaq dağılan günədək diqqət mərkəzində saxlayıb. Belə qadınlar həm də "Qəhrəman ana" fəxri adı, "Analıq medalı", "Analıq şöhrəti", "Analıq şərəfi" və başqa təltiflər ilə mükafatlandırılıblar. Pensiya təminatı zamanı məhz bu insanlara böyük güzəştlər olunub.

SSRİ-də çoxuşaqlı analara verilən "Qəhrəman ana" fəxri adı və "Analıq medalı" SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 iyul 1944-cü il tarixli qərarı ilə təsis edilib. İlk təltif 27 oktyabr 1944-cü ildə, sonuncu isə 14 noyabr 1991-ci ildə olmuşdur. 1 yanvar 1995-ci ilin məlumatına görə, SSRİ-də bu ada təxminən 431 000 qadın layiq görülmüşdür.

Azərbaycanda "Qəhrəman ana" fəxri adı alanların sayı barədə sonuncu statistik hesablama 2005-ci ildə aparılıb. Həmin il 10 və daha çox uşaq doğub tərbiyə etmiş pensiyaçıların sayı 17 min 640 nəfər olub.

Yeni Daşkənd kəndində də çoxuşaqlı analar olmuşdur. Əldə edə bildiyimiz məlumatlara görə, kənddə bir neçə qəhrəman ana olmuşdur. Gövhər Hacıyeva, İpək Əliyeva, Sürayə Cəfərova "Qəhrəman ana" fəxri adına layiq görülmüşdür. Kənddəki digər çoxuşaqlı analardan Gülavatın Məhərrəmovanın, Gövhər Qəhrəmanovanın, Şölə İbrahimovanın, Bulur Şairovanın, İpək Qocamanovanın, Zəhra Qocamanovanın, Səhnə Nazarovanın, Gülü Kərimovanın, Məhtəvan Mahmudovanın, Dünya Canbaxışovanın, Tükəzban Məmmədovanın və başqalarının adlarını qeyd etmək olar. Müstəqillikdən sonra isə ən çox uşağı olan ana Gülnar Qurbanovadır. Onun 11 uşağı var.

**Hacıyeva Gövhər Hüseyn qızı** 1 iyul 1930-cu ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. 1953-cü ildə Daşkənd kəndindən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1947-ci ildə Hacıyev Dünyamalı İsmayıl oğlu ilə ailə həyatı qurmuş, on uşaqları olmuşdur (4 oğlan, 6 qız).

SSRİ Ali Soveti Rəyasət Heyətinin 31 avqust 1971-ci il tarixli fərmanı ilə on uşaq doğub tərbiyə etdiyi üçün "Qəhrəman Ana" ordeni verilməklə "Qəhrəman ana" fəxri adına layiq görülmüşdür.

Gövhər Hacıyeva 2006-cı ildə 76 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Əliyeva İpək Hüseyn qızı** 1933-cü ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. 1953-cü ildə Daşkənd kəndindən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. Yeni Daşkənd kəndində çinarın altında ilk doğulan uşaq bu ailədən Nürəddin olmuşdur. 1961-ci ildə Əliyevlər ailəsi geriyə Daşkənd kəndinə qayıtmışdır. 1988-ci ildə azərbaycanlıların deportasiyası zamanı yenidən doğma kənddən məcburən köçməli olmuşlar.

İpək Əliyeva 1952-ci ildə Əliyev Məhəmməd Xıdır oğlu ilə ailə həyatı qurmuş, 6 oğlu, 5 qızı olmuşdur.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 23 mart 1978-ci il tarixli fərmanı ilə on uşaq doğub tərbiyə etdiyi üçün "Qəhrəman ana" ordeni (№261747) verilməklə "Qəhrəman ana" fəxri adına layiq görülmüşdür.

17 iyun 2022-ci ildə 89 yaşında Bakı şəhərində vəfat etmiş, Qaraçuxur qəbiristanlığında dəfn olunmuşdur.

**Cəfərova Sürayə Əmirxan qızı** 20 iyun 1935-ci ildə Basarkeçər rayonunun Ağkilsə kəndində doğulmuşdur. Sürayə xanım böyük saz-söz ustadı Aşıq Ələsgərin qızı Bəstinin nəvəsidir.

1956-cı ildə Cəfərov Əmirxan Məcid oğlu ilə ailə həyatı qurmuş, dörd oğlu, səkkiz qızı olmuşdur. "Yeni həyat" kolxozunda işləmişdir.

1970-ci illərin sonlarında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə on uşaq doğub tərbiyə etdiyi üçün "Qəhrəman ana" ordeni verilməklə "Qəhrəman ana" fəxri adına layiq görülmüşdür.

Sürayə Cəfərova 20 iyun 2020-ci ildə 85 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Qəhrəmanova Gövhər Cahangir qızı** 1924-cü ildə Göyçə mahalının Ağyoxuş kəndində doğulmuşdur.

1945-ci ildə Qəhrəmanov Zülfüqar Musa oğlu ilə ailə həyatı qurmuş, doqquz övladı olmuşdur.

1960-cı ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. "Yeni həyat" kolxozunda işləmişdir.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 30 avqust 1965-ci il tarixli Fərmanı ilə səkkiz uşaq doğub və tərbiyə etdiyi üçün 2-ci dərəcəli "Analıq şöhrəti" ordeni (№592058) ilə təltif olunmuşdur (Kiçik oğlu Faxrəddin bu fərmandan sonra doğulmuşdur).

Gövhər Qəhrəmanova 26 iyun 2009-cu ildə 85 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Məhərrəmova Gülavatın Şükür qızı** 1940-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1988-ci ildə azərbaycanlıların deportasiyası zamanı ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1957-ci ildə Məhərrəmov Əmirxan Həsən oğlu ilə ailə həyatı qurmuş, doqquz övladı olmuşdur. Oğlu Mehdi Məhərrəmov 1993-cü ildə Ağdərə döyüşlərində itkin düşmüşdür.

Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 6 oktyabr 1978-ci il tarixli, 342-5632 nömrəli fərmanı ilə səkkiz uşaq doğub və tərbiyə etdiyi üçün 2-ci dərəcəli "Analıq şərəfi" ordeni ilə təltif olunmuşdur (Kiçik qızı Könül bu fərmandan sonra doğulmuşdur).

Gülavatın Məhərrəmova 19 dekabr 2021-ci ildə 81 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Şairova Bulur Gəray qızı** 1932-ci ildə Basarkeçər rayonunun Qaraqoyunlu kəndində doğulmuşdur.

1955-ci ildə Şairov Novruz Süleyman oğlu ilə ailə həyatı qurmuş, dörd oğlu, dörd qızı olmuşdur.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 29 sentyabr 1967-ci il tarixli fərmanı ilə 1-ci dərəcəli "Analıq medalı" və 31 iyul 1970-

ci il tarixli Fərmanı ilə 3-cü dərəcəli “Analıq şöhrəti” ordeni (№1830609) ilə təltif olunmuşdur.

Bulur Şairova “Yeni həyat” kolxozunda işləmiş, qabaqcıl əmək adamı olduğundan “1980-ci ildə sosializm yarışının qalibi” (06.01.1981) döş nişanı və “Əmək veteranı” medalı (31.08.1982) ilə təltif olunmuşdur.

15 sentyabr 2005-ci ildə 73 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**İbrahimova Şölə Məmməd qızı** 1 iyul 1941-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1953-cü ildə Daşkənd kəndindən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

İbrahimov Zahid İsrafil oğlu ilə ailə həyatı qurmuş, səkkiz qızı, bir oğlu olmuşdur.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə çoxuşaqlı ana kimi təltif olunmuşdur.

“Yeni həyat” kolxozunda işləmişdir.

Şölə İbrahimova 17 dekabr 2013-cü ildə 72 yaşında Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Qurbanova Gülnar Mehman qızı** 19 aprel 1986-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1993–2003-cü illərdə Y.Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

24 avqust 2004-cü ildə Vüsal Mayıl oğlu Qurbanovla ailə həyatı qurmuş, altı oğlu, beş qızı dünyaya gəlmişdir.

Ayrı-ayrı illərdə çoxuşaqlı Qurbanovlar ailəsi haqqında Türkiyə, Rusiya və Azərbaycan televiziyalarında ətraflı informasiya verilmişdir.

Qurbanovlar ailəsi hal-hazırda Yeni Daşkənd kəndində yaşayırlar.

# İNCƏSƏNƏT

Göyçə mahalının Daşkənd kəndində saz ilə yanaşı, həmişə el məclislərində zurna da mühüm yer tutmuşdur. Hətta toyların əsas aparıcısı, camaatın ən çox oynayıb, şənlik keçirdiyi zurna olardı. Zurnaçı dəstəsində üç musiqiçi olurdu. Zurnaçı, zuyçu və nağaraçı. Daşkənddə olan bu ənənə Yeni Daşkənd kəndində də eyni ilə saxlanılmışdı. Göyçə mahalının Daşkənd kəndində zurnaçılardan Mehvalı, Dünyamalı, Məcid, Qardaşxan, Zamaxan, Əjdər, Fərman, nağaraçılar Totulu (Həsən), Xıdır, Qəhrəman, Xasay və başqaları olmuşdur. Bu sənətkarlardan Məcid, Tapdıq, Zamaxan, Əjdər, Fərman, Xasay Yeni Daşkənd kəndində fəaliyyət göstərmişlər. Zamaxan Qəhrəmanov regionda tanınmış mahir qara zurna ifaçısı olmuşdur. Belə söyləyirlər ki, o, "Sarı yer" adlanan yaylaqda "Çoban bayatısı"nı o dərəcədə gözəl ifa etmişdir ki, qoyun sürüləri istiqamətini dəyişərək qara zurna çalınan tərəfə yön almış, onun başına toplanmışlar. Bunun özü onun böyük istedadından xəbər verir.

Aşıqlardan Aşıq Abbasəli Xəlilov, Aşıq Abbasəli Nəzərov, Aşıq Novruz, balabançı Əli, son zamanlar Aşıq Mehti və başqaları fəaliyyətləri ilə camaata xidmət etmişlər.

Son illərdə Yeni Daşkənd kəndində saz ifaçılığında Şöhrəddin, İsmayıl, Kənan (hər üçü Viləddin İsgəndərovun tələbələridir), zurna ifaçılığında Məsim, Rəfail, Qismət, Kəlbəcər rayonunun köçkünlərindən olan, kəlbəcərli ustad zurna ifaçısı Bədəlin nəvələri Tacir, İlham, Bəhruz qardaşları, nağarada Şəmsi, İkram, Elşən (qoşanağara), Xəlil, Elməddin və başqaları fəaliyyət göstərirlər. Müğənnilərdən Mütalib İsgəndərli və Xəlil Hüseynov Yeni Daşkənd toylarında hər zaman ifaları ilə çıxış edirlər.

**Şıxəliyev Məcid Cəfər oğlu** 1903-cü ildə Göyçə mahalının Aşağı Şorca kəndində doğulmuşdur. Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur. Bu haqda "Müharibə iştirakçıları" bölməsində geniş yazılmışdır.

Göyçə mahalında və Bərdə rayonunda tanınmış qara zurna sənətkarı olmuşdur. Bir neçə zurnaçıların bu sənəti öyrənməsində ustadları olmuşdur. 1953-cü ildə Bərdə rayonuna deportasiya olunmuşdur.

Oğlu Əlixan (Elxan) faciəli şəkildə vəfat etdikdən sonra heç vaxt zurnada ifa etməmişdir.

Məcid kişi 24 yanvar 1998-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Xəlilov Abbasəli Süleyman oğlu** 31 dekabr 1913-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. 1939-cu ildə Basarkeçər RHK-dan orduya çağırılmış, Sovet-Fin müharibəsində iştirak etmişdir. Müharibədə serjant rütbəsi ilə xidmət etmiş, əsir düşmüş, bir müddət sonra azad olunmuşdur. 15 may 1947-ci ildə müharibədən tərxis olunmuş, uzun müddət Gədəbəy rayonunda yaşamışdır. İkinci Dünya müharibəsində iştirakına görə orden və medallarla təltif olunmuşdur.

1965-ci ildə Gədəbəydən köçərək Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

Abbasəli Xəlilov 30 sentyabr 2007-ci ildə 94 yaşında Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdir.

Aşıq Abbasəli Şair Məmmədhüseynin nəticəsidir. Abbasəlinin ustadı Göyçə mahalının Yarpızlı kəndindən olan Aşıq İslam olmuşdur. Aşıq Abbasəli özü isə qardaşı Aşıq Novruzun ustadı olmuşdur. Aşıq Abbasəli uzun müddət saz çalıb oxumuş həm ifaçı aşıq kimi, həm də yaradıcı aşıq kimi tanınmışdır.

Xasay Zeynalovun 2001-ci ildə yazdığı “Göyçə mahalının tarixindən yarpaqlar” adlı əlyazmasında Aşıq Abbasəli ilə Aşıq Əli Şairovun bir deyişməsi verilmişdir (səh.107–108).

Şeirləri “Daşkənd aşıqları və şairləri” (Bakı, “Nurlan”, 2008) kitabında çap olunmuşdur (səh. 67-71).

**Nəzərov Abbasəli Hüseyn oğlu** 1919-cu ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. 1939-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1941-ci ilin sonlarında Basarkeçər RHK tərəfindən müharibəyə səfərbər olunmuşdur. Döyüşlərdə taqım komandiri kimi xidmət etmişdir. 15 noyabr 1942-ci ildə döyüş zamanı yaralanmış, 1942-

ci ilin dekabrında ordudan tərxis edilmişdir. Müharibədən qayıtdıqdan sonra Daşkənd kənd orta məktəbində hərbi müəllim işləmişdir.

1953-cü ilin may-iyun aylarında həmkəndliləri ilə birlikdə Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur. 1979-cu ilədək Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşadıqdan sonra ailəsi ilə birlikdə Naftalan şəhərinə köçməli olmuşdur. 5 iyun 1992-ci ildə Naftalan şəhərində vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur.

Aşıq Abbasəli Nəzərov Abutel Paşa qızı ilə ailə həyatı qurmuş, Fərzəli (Əhliman), İman, Səmədvurğun (Səməndər), Mehmandar, Kamandar, Ədalət adlı altı oğlu, Sarıtel, Tahirə və Rahilə adlı üç qızı olmuşdur.

Abbasəli uşaqlıqdan saza, musiqiyə, bədii sözə maraq göstərmişdir. Ana tərəfdən Daşkəndli Şair Məmmədhüseynin nəticəsidir. Aşıq Abbasəli sənətə başladığı ilk illərdə balabançılıq etmiş, Aşıq Səfiyarın əvvəlcə balabançısı olmuş, sonralar səsinin də yaxşı olduğundan aşıqlığa üstünlük vermişdir. Aşıq Abbasəli Nəzərovun ustadı Göyçə mahalının Yarpızlı kəndindən olan Aşıq İslam olmuşdur. Aşıq Abbasəli özü isə Aşıq Hacı Göyçəlinin ilk ustadı olmuş, 1945–1946-cı illərdə ona saz havalarını öyrətmişdir.

1955-ci ildə Aşıq Abbasəli Nəzərov Kəlbəcərin İstisu kurortunda Səməd Vurğunla görüşür. Görüşdə Şair Məmmədhüseynin nəticəsi olduğunu Xalq şairinə bildirmiş, şirin söhbətlər etmiş, şeirləşmişlər. Həmin görüşdən təsirlənən aşıq "Xoş gəldin" və "Vurğuna" adlı şeirlər də yazmışdır.

Aşıq Abbasəli Nəzərov 1961-ci il 27 apreldə keçirilən Azərbaycan Aşıqlarının III qurultayının iştirakçısı olmuşdur.

Həyat və yaradıcılığı haqqında Araz Yaquboğlu "Aşıq Abbasəli Nəzərov" adlı elmi-publisistik məqalə yazmış, "Ozan dünyası" jurnalında (№1(34), 2022. səh.43-53) çap etdirmişdir.

**Şairov Novruz Süleyman oğlu** 24 aprel 1929-cu ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Novruz Şairov ailəsi ilə birlikdə 1941-ci ildə Gədəbəy rayonuna köçmüş, bir müddət burada yaşadıqdan sonra Şəmkirin Dağ Tatarı kəndində məskunlaşmışdır.

1953-cü ildə ata-baba yurdu olan Göyçə mahalından həmkəndliləri və qohumları deportasiya olunduqdan sonra o da 1954-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndinə köç etmişdir. 1955-ci ildə ailə həyatı qurmuş, dörd oğlu, dörd qızı olmuşdur.

Aşıq Novruz 1956-cı ildən ömrünün axırına qədər Bərdə rayonunda Mədəniyyət evinin üzvü olmuşdur. 1986-cı ildən 1992-ci ilə qədər Bərdə şəhər 1 saylı musiqi məktəbində dərs keçmişdir.

Novruz Şairov 3 noyabr 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 71 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdır.

Aşıq Novruz Daşkəndli Şair Məmmədhüseynin nəticəsidir. Uşaqlıqdan saza-sözə çox böyük marağı olan Novruzun ustadı böyük qardaşı Aşıq Abbasəli olmuşdur. Aşıq Novruz uzun müddət saz çalıb oxumuş həm ifaçı aşıq kimi, həm yaradıcı aşıq kimi və eyni zamanda sazın düzəldilib-hazırlanmasının mahir sənətkarı – sazbənd kimi də tanınmışdır.

Dəfələrlə radio və teliviziyada çıxışlar etmişdir. Bu gün də onun lent yazılarından Azərbaycan Dövlət Televiziyasının "Qızıl Fond"unda saxlanılır. 1985-ci ildə belə çəkilişlərin birində Aşıq Novruz şair Xəlil Rza ilə görüşmüşdür. Aşıq Novruzun saz çalıb-oxuması Xəlil Rzanın könlünü çox oxşadığına görə elə oradaca "Aşıq Novruz" rədifli qoşmanı yazıb ona ithaf etmişdir.

İlk dəfə şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 125–132).

**Qədirov Əjdər Papır oğlu** 1932-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd orta məktəbinin VII sinfini bitirmişdir. 1953-cü ildə doğulduğu Daşkənd kəndindən Bərdə rayonuna deportasiya edilmişdir.

1954–1957-ci illərdə üç il həqiqi hərbi xidmətdə olmuşdur. 1967-ci ildə Yeni Daşkənd kəndində böyüklər üçün təşkil edilən axşam kurslarından ibarət kəndli-gənclər orta məktəbini bitirmişdir.

Uşaq vaxtlarından dayısı Aşıq Abbasəlidən balaban sənətini öyrənmiş, sonralar isə zurna ifaçılığını həmkəndliləri Məcid və Tapdıqdan mənimsəmişdir.

Əjdər Qədirov el-oba məclislərində öz həmkəndlilərindən, zurnaçılardan Məcid, Zamaxan, Fərman, nağaraçılar Xasay, Xıdır, balabançı Əli, aşıqlardan Abbasəli Nəzərov, Abbasəli Xəlilov, Novruz Şairov, Hacı Bayramov, Nuriddin İsgəndərov ilə tərəf müqabili olmuşdur.

Balaban və qara zurna ifaçısı Əjdər Qədirov 1962-ci ildən fəaliyyətə başlayan Yeni Daşkənd Mədəniyyət evinin direktoru olmuş, 2011-ci ilədək bu vəzifədə çalışmışdır. Bu Mədəniyyət evinin üzvləri rayon və respublika tədbirlərində fəal iştirak etmiş, kənd zəhmətkeşlərinin asudə vaxtlarının, istirahətlərinin səmərəli keçməsi üçün konsertlər vermişlər.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 may 1978-ci il tarixli Fərmanı ilə Bərdə rayon Yeni Daşkənd Mədəniyyət evinin direktoru Qədirov Əjdər Papır oğluna "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir.

Əjdər Qədirov 27 avqust 2017-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 85 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdir.

**Canbaxışov Xasay Bəhmən oğlu** 1 iyul 1934-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə Daşkənd kəndindən Bərdə rayonuna deportasiya edilmişdir.

İlk dəfə Aşıq Abbasəli Nəzərov, balabançı Əli ilə el şənliklərində iştirak etməyə başlamışdır. Sonralar ömrünün sonunadək Zamaxan Qəhrəmanov, Əjdər Qədirov, Fərman Alhəsənov, Səyyaf Alıyev ilə sənət yoldaşlığı etmiş, özünün ədəb-ərkanı, ifaçılıq mədəniyyəti ilə seçilmişdir.

1957-ci ildə Dünya Papır qızı ilə ailə həyatı qurmuş, dörd oğlu, dörd qızı olmuşdur.

"Yeni həyat" kolxozunda uzun müddət briqadir köməkçisi işləmişdir.

Xasay Canbaxışov "1975-ci ildə sosializm yarışının qalibi" (1976), "1976-cı ildə sosializm yarışının qalibi" (1977), "IX beşillik zərbəçisi" (1976), "XI beşillik zərbəçisi" (1986) döş nişanları, "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Qızıl medalı, "SSRİ Xalq

Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Gümüş medalı, "Əmək veteranı" medalı, "Şərəf nişanı" ordeni və başqa mükafatlarla təltif olunmuşdur.

23 aprel 2009-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 75 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Abdullayev Əli Pənah oğlu** 1934-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur. 1957-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

Gənc yaşlarından balaban və zurna ifaçılığını öyrənmişdir. Zurnaçılarla və aşıqlarla sənət yoldaşlığı etmiş, Aşıq Şəmşir, Qəmkeş Allahverdi, Aşıq Qardaşxan, Abbasəli Xəlilov, Abbasəli Nəzərov, Novruz Şairov, Hacı Bayramov, Nuriddin İsgəndərov, zurnaçılardan Salman, Dünyamalı, Zamaxan, Əjdər, Fərman və başqaları ilə tərəf müqabili olmuşdur.

Əli Abdullayev 3 sentyabr 2002-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Qəhrəmanov Zamaxan Şiraslan oğlu** 14 yanvar 1937-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə Bərdə rayonuna deportasiya olunmuşdur. 1957-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunda oxumuşdur.

1975-ci ilin sonlarına qədər "Yeni həyat" kolxozunda kənd təsərrüfatı texnikaları parkında mexanik vəzifəsində çalışmışdır.

9 noyabr 2003-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Haqqında 25 yanvar 2014-cü ildə Azərbaycan radiosunda (105 FM) "El havası" verilişi yayımlanmış, onun həyat və fəaliyyəti haqqında söhbət açılmış, ifaları səsləndirilmişdir. Verilişin aparıcısı Savalan Talıblı, həmsöhbəti isə Araz Yaquboğlu olmuşdur.

**Hüseynov Fərman Möhsüm oğlu** 1939-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd orta məktəbində oxumuşdur.

1988-ci ildə Göyçə mahalını ailəsi ilə birlikdə məcburən tərk edərək Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

Fərman Hüseynov 1988-ci ilə qədər Göyçə mahalının Daşkənd və başqa kəndlərində toy şənliklərində zurna ifaçılığı ilə məşul olmuşdur. 1988-ci ildən sonra isə sənətini Yeni Daşkənd kəndində davam etdirmişdir.

7 oktyabr 2022-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Mənsimov Mehti Müstəcəb oğlu** 14 avqust 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1980-ci ildə Kəlbəcər rayonu Əli Bayramlı kənd orta məktəbinin I sinfinə getmiş, 1987-ci ildə həmin məktəbin VII sinfini bitirmiş, elə 1987-ci ildən də doğulduğu kənddə təhsil almağa davam edərək 1990-cı ildə Yeni Daşkənd kənd orta məktəbinin məzunu olmuşdur.

H.Z.Tağıyev adına Maliyyə İqtisad Kollecinin Xocalı filialına qəbul olmuşdur. 1992-ci ildə hərbi xidmətə çağırılmış və 1997-ci ilədək Qarabağda gedən döyüşlərdə iştirak etmiş, 1997-ci ildə ordudan tərxis olunmuşdur. Sonralar təhsilini davam etdirərək 2009-cu ildə kolleci bitirmişdir. Qarabağ müharibəsi veteranıdır.

1987-ci ildə Respublika pionerlər toplanışında, 1989-cu ildə isə "Xarıbülbül" beynəlxalq musiqi festivalında iştirak etmişdir.

2007-ci ildə "Lider" televiziya kanalında yayımlanan "Ozan Aşıq Müsabiqəsi"ndə iştirak edərək qızıl beşliyə düşənlərdən biri olmuşdur.

Hal-hazırda Ağdam Musiqi Kollecində aşıq sənəti şöbəsinin müdiri vəzifəsində işləyir.

Azərbaycan Aşıqlar Birliyinin, 2000-ci ildən isə Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir. Bir oğlu, bir qızı, üç nəvəsi var.

## YENİ DAŞKƏNDDƏ TƏHSİL
## (Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbi)

Yasif Kərimov adına tam orta məktəb Bərdə rayonunun Yeni Daşkənd kəndində fəaliyyət göstərən ümumi təhsil müəssisəsidir. 1 sentyabr 1953-cü ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbi kimi fəaliyyətə başlamışdır. Məktəbin yaradılması ilə bağlı Vidadi Süleymanov maraqlı bir əhvalat danışdı:

"O dövrdə Azərbaycan Kommunist Partiyası Bərdə Rayon Komitəsinin birinci katibi Xosrov Ağayev olmuşdur. Bu şəxs həmişə kənd sakinləri tərəfindən yaxşı mənada xatırlanmışdır. Ağayev deportasiya olunmuşların vəziyyətini anlamış, onlardan o dövr üçün bacardığı köməyi əsirgəməmişdir.

Yeni salınan Yeni Daşkənd kəndinin ziyalıları Hacıyev Tanrıverdi, Əliyev Tapdıq, Dünyamalıyev İsmayıl, Kərimov Fəzi və Hacıyev Xasay, ağsaqqallar Süleyman kişi, Xıdır kişi və Bayram kişi yığışıb öncə övladların gələcəyini fikirləşərək məktəb haqqında düşünmüşlər. O dövrdə Bərdə rayonunda cəmi dörd orta məktəb olmuşdur. Bunları nəzərə alıb rayon rəhbərliyi ilə görüşə ağsaqqallardan ibarət heyət göndərməyi məsləhət etmişlər.

Bu iş üçün Süleyman kişi, Xıdır kişi və Bayram kişi rayon rəhbərliyi ilə görüşə getmişdir. Rayon partiya komitəsində qəbul zamanı babam Süleyman kişi katibə "Yoldaş katib" yox "Ata" deyə müraciət edir. Ağayev irad tutsa da, yenə də ona "Ata" deyə müraciət edərək deyir:

– Siz bir rayonun atasısız, ata kimi də əhalinin qayğısını çəkməyə məcbursuz. İlk diləyimiz kənddə məktəb açmaq olacaqdır.

Ağayev deyir:

– Rayonda cəmi dörd orta məktəb var. Məktəb üçün bina, təhsilli müəllim, kadrlar olmalıdır. Bunlar isə hələki yoxdur.

Süleyman kişi deyir:

– Atam biz Göyçə mahalından deportasiya olunmuşuq. Məktəb nədir bilirik. Bizlərdə xeyri də, şəri də misallar çəkməklə, deyimlərə əsaslanmaqla edirik.

Belə rəvayət olunur ki, bir şah varmış:

Xosrov Ağayev Süleyman kişini saxlayır. Gözləməyi xahiş edir. Təcili prokuroru, məhkəməni, milis rəisini raykomluğa çağırır. Onlar tez gəlir. Deyir ağsaqqal danışın. Süleyman kişi qaldığı yerdən danışmağa başlayır:

– Rəvayət olunur ki, bir şah varmış. Onun aman-zaman bir qızı varmış. Qız şah qızı olduğundan təhsil görür, elmlərə yiyələnir. Amma bir çobana vurulub ona könül verir. Şah onu kimə ərə vermək istəsə də, çoban deyib durur. Şah acıqlanıb onu saraydan qovur. Qovulmuş qız çobanla ailə qurur. Onların bir oğlu olur. Ona kiçik yaşlarından təhsil verirlər. Uşaq 5 yaşına çatır.

Bir gün şah ova çıxır. Qəflə-qatırı ilə yoldan keçəndə görür ki, yolda toz-torpaq içində 5–6 uşaq oynayır və çəkilib şahı salamlayırlar. Şah da özünün zərb etdiyi qızıl puldan hər uşağa bir 5-lik qızıl verir və ovuna, yoluna davam edir. Axşam ovdan qayıdanda həmən yerdə görür ki, səhərki uşaqlardan biri toz-torpağa batmış halda hələ burada hərlənir.

Şah uşaqdan soruşur ki, sənə əyin-baş almağa səhər 5-lik qızıl verdim ki, evinizə gedəsiz. Sən isə toz-torpağın içində hələ də oynayırsan.

Uşaq deyir:

– Oynamıram, səhərki qızılı itirmişəm onu gəzirəm.

Şah deyir:

– Al təzəsini verim get evinizə.

Uşaq deyir, yox təzəsi lazım deyil, onu tapmalıyam.

Şah deyir:

– Nə məcburdu onu tapasan? Mən sənə təzəsini verirəm, onu axtarma.

Uşaq deyir: – Yox. Onu tapmalıyam çünki onun üzərində şahın – sizin adınız yazılıb. Bura el yoludur. Yoldan adamlar keçir, sürü keçir. İstəmirəm ki, adınız ayaqlar altında qalsın.

Şah uşağın ağlına baxıb atasın soruşur. Uşaq deyir atam çobandır.

Şah deyir denən ki, atam qanmaz, avam, eşşək adamdır.

Uşaq deyir ki, yox! Atamın atası avam, qanmaz olub. Məni atam-anam oxudur, elm öyrədir.

Rəvayət uzundur, bizim istədiyimiz odur ki, balalarımız bizə gələcəkdə söyməsinlər ki, onlara məktəb yaratmamışıq, təhsil verməmişik.

Ağayev deyir, düzdür. Axı sizin hələ eviniz yoxdur. Dövlət ancaq ev tikməyə kömək edə bilir. Məktəb üçün bina, təhsilli müəllimlər lazımdır. Xahişiniz bir az yox, çox çətindir.

Ağsaqqallar deyir ki, bizim müəllim kadrlarımız var. Qaldı binaya biz onu evimizdən qabaq tikəcəyik. Siz dəstək olun, biz bu işləri görəcəyik. Rayon rəhbərliyi inanmasa da, razılaşır.

Ağayev Respublika Təhsil Nazirliyi ilə razılaşır ki, bina olsa, məktəb açılsın.

Məktəb tikintisi evlərdən qabaq başlayır və sentyabra hazır olur. Məktəbin açılışında rayon camaatı və rəhbərlik iştirak edir. O dövr üçün ətraf kəndlərdə orta məktəb olmadığı üçün bu hadisə böyük səs-küyə səbəb olur.

Məktəbin açılışında katib Xosrov Ağayev babamdan soruşur:

– Süleyman kişi necədi, dövlətimizdən razısanmı?

Süleyman kişi deyir: – Yox.

Ağayev deyir ki, niyə axı? Mən səndən razılıq gözləyirdim.

Bu zaman Süleyman babam deyir:

– Ağayev, bilirsən niyə razı deyiləm? Gözəl dövrdü. İndiki uşaqlar, cavanlar yaxşı təhsil alırlar. Bu hökümət tez gələydi. Mən də oxuyub savadlanaydım. İndi mənə gecdi ona görə yox dedim."

Qocamanov Yaqub söyləyir ki, ağsaqqallar qəbuldan çıxdıqdan sonra katib yanındakılara belə deyib: "Mən elə bilirdim ki, bu köçürülmüş insanlar ehtiyaclarını və çətinliklərini tələb edəcəklər. Amma onlar məktəb və təhsil haqqında xahişə gəlmişdilər. Bu camaata hörmətim daha çox artdı."

1953-cü ildə açılan məktəb işində təşəbbüskar və fədakar fəaliyyət göstərənlərdən biri də Əliyev Tapdıq Xıdır oğlu olmuşdur. Elə o özü də məktəbin ilk direktoru olmuşdur. İlk tədris ilinə qədər kənd sakinlərinin əməyi ilə palçıq-saman qarışığından hazırlanan kərpicdən

dörd sinif, bir müəllimlər otağı inşa edilmişdir. Hətta sinif çatışmazlığı olduğundan məktəbə yaxın olan 6–7 evdə də (Sayadın, Müsünün, Ənvərin, Namazın, Mustafanın, İbrahimin, Məhərrəmin, Şiraslanın) dərslər keçirilmişdir.

Məktəb regionda yaxşı məktəb kimi ad-san çıxarmışdır. Məktəbdə Bərdə şəhərindən, Bərdə rayonunun Şatırlı, Kürdborakı, Çəmənli, İmamqulubəyli, Zümürxan, Xanağalı, Şorəlli eləcə də Tərtər çayının sağ sahilində yerləşən Qasımbəyli, Körpüqıran, Muğanlı kəndlərindən Tərtər rayonunun isə Buruc, Sarıcalı, Kürdlər, həmçinin Tovuz və Ağdam rayonunun kəndlərindən də gələn məktəblilər tam orta təhsil almışlar. Hətta məktəbdə digər rayonların məktəbliləri ilə yanaşı, Göyçə mahalının Daşkənd, Nərimanlı, Qoşabulaq, Aşağı Şorca və Yuxarı Şorca kəndlərindən də uşaqlar gələrək təhsil almış, ali məktəblərə qəbula hazırlaşmışlar.

Yeni Daşkənd kənd orta məktəbinin birinci buraxılışı 1955-ci ildə olmuşdur.

Yeni Daşkənd kənd orta məktəbinin tərkibində Ramazan Əliyev 1966-cı ildən 1976-cı ilədək savadsızlığın ləğv edilməsi üzrə böyüklər üçün təşkil edilən axşam kurslarından ibarət məktəb açmış, həmin məktəbin direktoru olmuşdur.

Namaz Əliyev dərs hissə müdiri və direktor olduğu illərdə məktəbdə bir sıra yeniliklər edir. İlk olaraq Bərdə Rayon Maarif Şöbəsindən və rayonun 1-ci katibindən yeni məktəbin tikilməsini xahiş edir. Kənddə məktəb tikintisi üçün köhnə məktəbin yaxınlığında ərazi ayrılır və yeni məktəb inşa olunmağa başlayır. Onun fədakarlığı nəticəsində yeni məktəbə yeni partalar alınır, o vaxtın tələblərinə uyğun məktəb tam yeni tələblərə uyğunlaşdırılır. Yeni Daşkənd kənd orta məktəbinə ətraf kəndlərdən gələn şagirdlərin dərsə gecikməməsi üçün məktəb internat tipli məktəbə çevrilir. Uzaqdan gələn şagirdlər hər gün internatda qalır, yalnız bazar günləri evlərinə gedirlər. “Yeni həyat” kolxozunun sədri Niftalı Nuriyevlə danışıqlar apararaq məktəbə üç ədəd pambıqyığan maşın və bir “Belarus” traktoru alınır. Bununla da məktəbdə şagirdlərə orta ixtisas təhsilindən əlavə olaraq mexanizatorluq ixtisasına uyğun şəhadətnamə də verilməsinə nail

olunur. Ali təhsil ala bilməyən şagirdlər həmin şəhadətnamə ilə kolxozda mexanizator və traktorçu kimi işləyə bilirdilər. Həmin illərdə dövlətin tələblərinə uyğun olaraq kənddə natamam orta təhsilli sakinlərin məktəbdə təhsilini artıraraq hər kəsin orta təhsil almasına vəsilə olan məktəbin qiyabi təhsil şöbəsi də yaradılır. Orta təhsil haqqında şəhadətnaməni aldıqdan sonra, çoxları qiyabi ali təhsil də almaq üçün sənədlərini müxtəlif institutlara vermiş, qiyabi ali təhsil almışlar. Məktəbin kimya, biologiya, fizika, coğrafiya kabinetlərinin ixtisasa uyğun qurulması, laboratoriyaya əlavə avadanlıqların alınması üçün məktəbdə ərik bağı, tərəvəz sahəsi salınır. Məhsulların satışından toplanan gəlir ilə həmin kabinetlər yenilənir, müasir tələblərə cavab verə bilir.

Məktəb xüsusən dəqiq elmlərin – fizika, riyaziyyat fənlərinin tədrisi üzrə respublikada və onun hüdudlarından kənarda da keçirilən müsabiqələrdə yüksək göstəriciyə görə həmişə ilk yerlərdə olmuşdur. Xüsusən məktəb riyaziyyat təmayüllü olması ilə regionda tanınmışdır. Təmayülün yaradılmasında baş müəllim Tanrıverdi Hacıyevin əməyi çox olmuşdur.

Məktəb 1993-cü ildən Qarabağ müharibəsində iştirak etmiş, həmin məktəbin məzunu və Yeni Daşkənd kəndinin ilk şəhidi Yasif Kərimovun adını daşıyır.

2005–2006-cı illərdə Heydər Əliyev Fondunun təşəbbüsü və fondun həyata keçirdiyi “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramına uyğun olaraq Bərdə rayonunun Yeni Daşkənd kəndində 240 yerlik təzə orta məktəb binası tikilmişdir. 2 mart 2006-cı ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Bərdə rayonunun Yeni Daşkənd kəndinə gəlmişdir. Uzun illər ağır şəraitdə kənd uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmuş müəllimlər rahat, yaraşıqlı, bütün dərsliklər və tədris ləvazimatları ilə təchiz olunmuş məktəbin tikilməsini Heydər Əliyev Fondunun, onun prezidentinin kənd camaatına çox böyük hədiyyəsi kimi qiymətləndirmişlər. Mehriban xanım Əliyeva müəllimlərin qayğıları, onları düşündürən məsələlərlə də maraqlanmışdır. Müəllimlər Heydər Əliyev Fondunun müxtəlif sahələrdə həyata keçirdiyi genişmiqyaslı layihələrin Azərbaycanın

tərəqqisində, milli-mənəvi dəyərlərimizin qorunmasında, gənc nəslin təlim-tərbiyəsində, sağlamlığının qorunmasında əhəmiyyətli rolundan razılıqlarını ifadə etmişlər.

2008-ci il dekabrın 11-də 1974–1976-cı illərdə bu məktəbdə təhsil almış, xeyriyyəçi Lətif Frunze oğlu Əsədov Yeni Daşkənd kənd tam orta məktəbində olmuş, öz yardım əlini uzadaraq məktəbin istilik sistemini əsaslı təmir etdirmişdir.

2012-ci il sentyabrın 15-də Beynəlxalq Diaspor Mərkəzinin (BDM) təşkilatçılığı ilə Yeni Daşkənd kəndində şəhid Yasif Kərimovun adını daşıyan orta məktəbdə şəhidin xatirəsinə ucaldılmış büstün açılışı və eyni zamanda şəhid Y.Kərimovun keçdiyi həyat yolu və qəhrəmanlığından bəhs edən "Ömrün şəhidlik zirvəsi" kitabının təqdimat mərasimi keçirilmişdir.

Məktəbdə təsərrüfat işləri üzrə direktor müavini Kərimov Vərqa (1957–1961), Məmmədov Dağbəyi, İsmayılov Məhəmməd, Məhərrəmov Yaqub, Qurbanov Mayıl (1999–2022) və başqaları olmuşdur. Hal-hazırda İsmayılov Əli bu vəzifədə çalışır.

Uzun illər məktəbdə Babayeva Salatın və Qurbanova Fatma bufetçi işləmişdir.

Ayrı-ayrı illərdə Rəhim Əliyev (1963-1967), Gilas Əzimova, Humay Qəhrəmanova, İltimas Hacıyeva (?-2022) məktəbin kitabxanaçısı işləmişdir. Hal-hazırda Səbinə Məhərrəmova məktəbin kitabxanaçısıdır.

Məktəb müəllimlərindən Tanrıverdi Hacıyev, İsgəndər Alhəsənov, Solmaz Qocamanova, Zivər Əliyeva və başqaları "Baş müəllim" fəxri adına layiq görülmüşdür.

Ayrı-ayrı illərdə məktəbdə Nadir (Xoruzlu kəndi), Əli Kərimov, Ramazan Əliyev, Namaz Əliyev, Səmayə Əsədova (1968–1972), Şiruyə Hacıyev (1972–1980), Vidadi Süleymanov (1979–1985), Müslüm Kərimov, Ələddin Balıyev (1988–1992), Qaçay Bayramquliyev (1988–1991), Bilal Əsədov (1996–1999), Gülbəniz Mirzəyeva (1992–2023), Mətanət Rəhimova (2007–indi) və başqaları dərs hissə müdiri və ya təlim-tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

Direktor vəzifəsində çalışan müəllimlər isə aşağıdakı cədvəldə verilmişdir.

| № | Məktəbin direktoru | Başlama | Bitmə |
|---|---|---|---|
| 1 | Əliyev Tapdıq Xıdır oğlu | 1953 | 12.1962 |
| 2 | Həsənov Bostan Yunis oğlu | 12.1962 | 1971 |
| 3 | Əliyev Namaz Nurməmməd oğlu | 1971 | 01.09.1975 |
| 4 | Əsədova Səmayə Yusif qızı | 01.09.1975 | 01.09.1985 |
| 5 | Süleymanov Vidadi Salman oğlu | 01.09.1985 | 1999 |
| 6 | Əsədov Bilal Həbib oğlu | 1999 | 2006 |
| 7 | Hümbətova Səfurə Kamran qızı | 2006 | 2007 |
| 8 | Hümbətova Gülbəniz Kamran qızı | 2007 | 02.11.2017 |
| 9 | Qocamanov Elgün Zöhrab oğlu | 02.11.2017 | indi |

Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbi məzunlarının qəbul nəticələri haqqında mekteb.edu.az saytında məlumatlar verilmişdir.

1995–2021-ci illərdə keçirilmiş qəbul kampaniyalarının nəticələrinə görə "Biologiya" fənni üzrə məktəbin orta göstəriciləri respublika üzrə orta səviyədən yüksək, "Ana dili", "Ədəbiyyat", "Riyaziyyat", "Fizika", "Kimya", "Tarix", "Coğrafiya", "İngilis dili", "Ümumi fənn bloku" fənləri üzrə isə aşağı olmuşdur. İlbəil qəbul kampaniyasına nəzərən fənlər üzrə düzgün cavabların faizinin artması müşahidə olunur.

2020-ci ilin qəbul kampaniyasına nəzərən 2021-ci il qəbul kampaniyasında "Fizika", "Kimya" fənləri üzrə düzgün cavabların faizinin artması, "Riyaziyyat", "Tarix", "Coğrafiya", "İngilis dili", "Ümumi fənn bloku" fənləri üzrə azalması müşahidə olunmuşdur.

Orta hesabla 1995–2012-ci illərdə keçirilmiş qəbul kampaniyalarının nəticələrinə görə, məktəbin oğlan məzunlarının göstəriciləri qız məzunlarının göstəricilərindən "Riyaziyyat", "Tarix", "Coğrafiya" fənləri üzrə, qız məzunlarının göstəriciləri isə "Ana dili", "Ədəbiyyat", "Fizika", "Kimya", "Biologiya", "İngilis dili", "Ümumi fənn

bloku" fənləri üzrə oğlan məzunlarının göstəricilərindən yüksək olmuşdur.

Orta hesabla 1995–2021-ci illər ərzində oğlan məzunlarının göstəriciləri qız məzunlarının göstəricilərindən "Riyaziyyat", "Biologiya", "Tarix", "Coğrafiya" fənləri üzrə, qız məzunlarının göstəriciləri isə "Ana dili", "Ədəbiyyat", "Fizika", "Kimya", "İngilis dili", "Ümumi fənn bloku" fənləri üzrə yüksək olmuşdur.

1995–2021-ci illər üzrə məktəbin məzunlarının ali məktəblərə orta qəbulolma faizi 31.22, qəbulolma göstəriciləri üzrə ümumiləşdirilmiş reytinq isə 0.667 bərabər olmuşdur. 2009, 2012, 2013, 2014, 2020 illərin qəbul kampaniyalarında qəbulolma faizi orta respublika göstəricisindən yüksək, 1995, 1997, 1998, 1999, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2010, 2011, 2015, 2016, 2017, 2018, 2019, 2021 illərin qəbul kampaniyalarında isə aşağıdır. Son 2021-ci ilin qəbul kampaniyasında qəbulolma faizi -7.89% azalıb, məzunların orta balı -59.94 azalıb, ümumiləşdirilmiş reytinq isə -0.243 azalıb.

**Son illərin ən qabaqcıl məzunları**

| **İl** | **Məzun** | **Bal** | **Daxil olduğu təhsil ocağı** |
|---|---|---|---|
| 2006 | Hacıyeva Quba Knyaz qızı | 581.286 | Azərbaycan Tibb Universiteti |
| 2008 | Əmrahov Xeybər Əflatun oğlu | 620.000 | Bakı Dövlət Universiteti |
| 2011 | Müzəffərli Eşqin Şöhrət oğlu | 625.000 | Azərbaycan Dövlət İqtisad Universiteti |
| 2012 | Bayramova Gözəl Zərbəli qızı | 539.000 | Azərbaycan Dillər Universiteti |
| 2016 | Abdullayeva Aytən Abdulla qızı | 547.000 | Azərbaycan Dillər Universiteti |
| 2017 | Hüseynli Nigar Elmar qızı | 562.000 | Azərbaycan Tibb Universiteti |

| | | | |
|---|---|---|---|
| 2018 | Qocamanlı Rəsul Yavər oğlu | 450.000 | Bakı Dövlət Universiteti |
| 2019 | Balıyeva Arzu Ələddin qızı | 486.000 | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| 2020 | Əlizadə Əli Rəşid oğlu | 546.000 | Azərbaycan Polis Akademiyası |
| 2021 | Nağıyeva Ləman Rasim qızı | 524.800 | Bakı Mühəndislik Universiteti |
| 2022 | Sədrəddinbəyli Nigar İlham qızı | 607.000 | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti |

1960-cı illərdə məktəbdə 230 şagird, 1988-ci ildə 600 şagird, 40 müəllim, 1997-ci ildə 52 müəllim olmuşdur.

1988-ci ilin dekabr ayında Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşən 362 şagird məktəbdə təhsil almağa başlamış, 8 əlavə sinif açılmışdır. 1989-cu ildə qaçqınlardan 60 şagird Krım yarımadasında yerləşən, beynəlxalq uşaq mərkəzi olan "Artek"ə istirahətə göndərilmişdir.

2022-ci ilin məlumatına görə, Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbi 425 şagird və 43 nəfərlik müəllim heyətinə malikdir.

## Hazırda məktəbdə işləyən müəllimlərin siyahısı

Aqif Əliyev – ibtidai sinif (1994)
Aliyə Məmmədova – ingilis dili (2011)
Aybəniz Əmraslanova – psixoloq (1998)
Aygün Salmanzadə – ibtidai sinif (2001)
Aynur Babayeva – ibtidai sinif (1994)
Aysel İsmayıllı – fizika (2017)
Azər Vəliyev – GÇHR (1998)
Cahid Həmidov – tarix (2003)
Cəmalə Məmmədova – ibtidai sinif (2006)
Elgün Qocamanov – direktor, tarix (2006)

Elman Kərimov – fiziki tərbiyə (2012)
Elşən Hacıyev – ingilis dili (2006)
Fəridə Əsədova – informatika (2017)
Fərqanə Vəliyeva – riyaziyyat (2011)
Gülnar Nəbiyeva – ingilis dili (2008)
Gülnarə Həmidova – riyaziyyat-informatika (2002)
Günay Abbaszadə – biologiya (2015)
Xatirə İsmayılova – tarix, rus dili (1994)
Xəyalə Cəfərova – tarix (2012)
İlhamə Əsədova – musiqi (2001)
İmamverdi Əliyev – coğrafiya (2019)
İradə Əsədli – Azərbaycan dili və ədəbiyyat (2017)
Qaçay Bayramquliyev – riyaziyyat (1986)
Laləzar İsgəndərova – texnologiya (2004)
Leyla Babayeva – ibtidai sinif (1984)
Lətifə Əsədova – ibtidai sinif (1997)
Mahnur Babayeva – riyaziyyat-informatika (1996)
Mətanət Rəhimova – direktor müavini, riyaziyyat (1993)
Nailə Əliyeva – ibtidai sinif (1981)
Nüşabə Kərimova – Azərbaycan dili və ədəbiyyat (1996)
Sahar Qasımova – riyaziyyat (2007)
Səbuhi Abbasov – fiziki tərbiyə (2021)
Simuzər Hüseynova – ibtidai sinif (1997)
Şəfiqə Alıyeva – rus dili, coğrafiya (1987)
Şəhla Babayeva – UBTR (2008)
Şəlalə Hüseynova – təsviri incəsənət (1998)
Taryel Əsədov – riyaziyyat (1996)
Türkan Əhmədova – kimya (2016)
Ülviyyə Hacızadə – fizika-texnologiya (1994)
Vüsalə Əliyeva – Azərbaycan dili və ədəbiyyat (2003)
Yeganə Yusifova – təsviri incəsənət (1998)
Zivər Əliyeva – ibtidai sinif (1982)
Zülfiyyə Hacızadə – ibtidai sinif (1997)

## Yeni Daşkənddən olan keçmiş müəllimlərin siyahısı

Adilə Abbasova – ibtidai sinif (1953–1986)
Aftel Əsədova – riyaziyyat, cəbr (1986–2003)
Aybəniz İsmayılova – ibtidai sinif
Bəsti Hacıyeva – riyaziyyat, informatika, rəsmxət
Bilal Əsədov – cəbr, həndəsə (1996–2006)
Ceyran Hacıyeva – ibtidai sinif
Cəmilə Əliyeva – fizika, astronomiya (1981–2013)
Cəvahir Mursaqulova – Azərbaycan dili və ədəbiyyat (1978–?)
Dilarə Məmmədova – biologiya, kimya (1985–2005)
Dünyamalı Hacıyev – ibtidai sinif (1953–1990)
Elmira Əliyeva – biologiya, kimya (1972–2019)
Elmira Süleymanova – riyaziyyat (1979–1984)
Əfruz Həsənova – biologiya, kimya, əmək təlimi
Ələddin Balıyev – tarix, coğrafiya (1985–2017)
Əli Hacıyev – riyaziyyat (1980–1983)
Əli Kərimov – riyaziyyat (1953–1955, 1957–1964)
Gülbəniz Mirzəyeva – Azərbaycan dili və ədəbiyyat (1990–2023)
Gülüm Əliyeva – ingilis dili (1979–1993)
Xasay Hacıyev – riyaziyyat, cəbr (1953–1954)
Xanım Məmmədhəsənova – riyaziyyat, cəbr (1992–2021)
Xavər Süleymanova – Azərbaycan dili və ədəbiyyat (1998–2005)
İbrahim Bayramov – rus dili (1988–2010)
İbrahim Əsədov – tarix, coğrafiya, ictimaiyyət (1965–1994)
İbrahim Həsənov – riyaziyyat (1988)
İsgəndər Alhəsənov – ibtidai sinif (1988–1998)
Kəmalə Əzimova – fizika, əmək təlimi (1997–2006)
Qənifə Əliyeva – rus dili (1988–1993)
Mehdi Hacıyev – Azərbaycan dili və ədəbiyyat (1953–2000)
Məleykə Qasımova – ingilis dili (1981–1984)
Mübariz Həsənov – bədən tərbiyəsi (1994–2020)
Müslüm Kərimov – biologiya, təbiətşünaslıq (1953–?)
Müşgünaz İbrahimova – riyaziyyat, əmək təlimi, qrup müəllimi
Mülayim İsmayılova – kimya (1990–1991)
Narınc Kərimova – ibtidai sinif (1957–1964)

Namaz Əliyev – kimya, biologiya (1953–1983, 1992–2003)
Namizər Kərimova – riyaziyyat, fizika, rəsmxət (1975–?)
Nəsrəddin Əliyev – rus dili (1989–1993)
Nigar Mədətova – riyaziyyat, rəsmxət
Nuriyyə Əbdürəhmanova – Azərbaycan dili, ədəbiyyat (1968–2011)
Papır Hacıyev – ibtidai sinif (1953–1968)
Ramazan Əliyev – Azərbaycan dili və ədəbiyyat (1953–1990)
Reyhan Kərimova – riyaziyyat (1990–1997)
Rəhim Əliyev – əmək təlimi (1967–2007)
Rəhim İsmayılov – əmək təlimi (1988–2005)
Rəna Kərimova – fizika (1970–1976)
Sara Kərimova – rus dili (1983–2010)
Sarıtel Hacıyeva – kimya (1979–?)
Sədaqət Məmmədova – Azərbaycan dili və ədəbiyyat (1975–?)
Səfxan Zeynalov – tarix, coğrafiya
Səltənət Cavadova – ibtidai sinif (1970–?)
Səmayə Əsədova – tarix, coğrafiya (1965–1994)
Səməd Əliyev – əmək təlimi (1963–1964)
Sərintac Əliyeva – tarix, coğrafiya (1974–?)
Səyyad Şairov – hərbi hazırlıq (1980–1989)
Siyatel Kərimova – fizika (1971–?)
Solmaz Hacıyeva – riyaziyyat (1977–2021)
Şahnaz Əliyeva – riyaziyyat
Şıxəli Həsənov – bədən tərbiyəsi (1978–1981)
Şiruyə Hacıyev – riyaziyyat (1968–2003)
Tamam Səfərova – ibtidai sinif, nəğmə (1978–?)
Tamilə Şairova – riyaziyyat, qrup müəllimi (1979–2021)
Tanrıverdi Hacıyev – riyaziyyat, cəbr, həndəsə (1953–1987)
Tapdıq Əliyev – Azərbaycan dili və ədəbiyyat (1953–1986)
Təranə Orucova – ibtidai sinif
Təyyar Kərimov – hərbi hazırlıq (1990–1998)
Vərqa Kərimov – əmək təlimi (1973–2011)
Vidadi Süleymanov – riyaziyyat, cəbr, həndəsə (1976–2005)
Yeganə Əzimova – ibtidai sinif
Zöhrə Hacıyeva – riyaziyyat (1975–1980)

## Kənardan gələrək məktəbdə işləyən müəllimlərin siyahısı

Afaq Mustafayeva – ingilis dili
Aleksandr Kornyova – rus dili
Almaz Əhmədova – ingilis dili
Akif – rus dili
Arif Qurbanov –
Bahadur Səfərov – fizika, riyaziyyat
Bakir Rzayev – rus dili (1975–?)
Bostan Həsənov – direktor, kimya-biologiya (1962–1971)
Davud – biologiya
Elbrus Şadlinski – fizika
Elxan Ağayev – bədən tərbiyəsi
Esmira Mehdiyeva – rus dili
Eynulla – rus dili
Əbülfət Məmmədov – bədən tərbiyəsi
Ələsgər Şükürov – riyaziyyat (1993–1994)
Əli – fizika
Əkbər Ələkbərov – fizika (1964–1966)
Həsən Zeynalov – hərbi hazırlıq (1978–?)
İlyas – riyaziyyat
İmamverdi – fizika-riyaziyyat
İra Mamedova – rus dili
İradə Əliyeva – ingilis dili
İsmayıl – bədən tərbiyəsi
Fatma – rus dili
Firuddin – Azərbaycan dili və ədəbiyyat
Fridman Cəfərov – nəğmə
Firuzə – fizika
Gülbəniz Hümbətova – direktor (2007–2017)
Kifayət – tarix
Qərib Hüseynov – ibtidai sinif
Leyla – ingilis dili
Maral Ağayeva – rus dili (1975–?)
Mehriban Kərimova – ingilis dili
Məcid Muradov – rus dili
Mərcan –
Mərzəgül Tağıyeva –
Mərziyyə Tağıyeva –

Məsmə – rus dili
Minirə Qurbanova – xarici dil
Nadir – Azərbaycan dili və ədəbiyyat
Nailə İbrahimova –
Namaz Əmrahov – tarix
Namiq – ingilis dili
Nəcəf – hərbi hazırlıq
Nimtac Bəhmənova –
Nizami – ibtidai sinif
Növrəstə Həsənova – fizika
Nubay Mehdiyev – alman dili
Nuriyə –
Nüşabə Nəsirova – xarici dil
N.Hacıyeva –
Rahilə – tarix
Rahilə Xabarova – ibtidai sinif
Raqub – hərbi hazırlıq
Reyhan Orucova – ibtidai sinif
Sahib – ingilis dili
Sayad Nağıyev – ibtidai sinif (1972–1973)
Sədaqət Cabbarova – ingilis dili (1975–?)
Səfurə Hümbətova – direktor (2006–2007)
Səlim – fizika
Səkinə Pənahova – riyaziyyat (1973–?)
Sərfinaz Musayeva –
Şəmil –
Şura Aleksandr – rus dili
T.Mamedova –
Tamam Mədətova – riyaziyyat (1978–?)
Tofiq Mövlayev – əmək təlimi (1970–?)
Tünzalə Salmanova –
Vaqif Tağıyev – hərbi hazırlıq
Vəkil Qurbanov – bədən tərbiyəsi (1973–?)
Vəsmə – rus dili
Yazgül Süleymanova – ibtidai sinif
Yeganə Qaraşova – ingilis dili
Yeganə Məmmədova – ingilis dili
Zemfira – rus dili
Zərən Əliyeva –

## MƏKTƏBİN DİREKTORLARI

**Əliyev Tapdıq Xıdır oğlu** 1912-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd məktəbini bitirmişdir. 1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna qəbul olmuşdur.

Basarkeçər RHK-dan orduya çağırılmışdır (05.05.1939). SSRİ–Finlandiya müharibəsində və Böyük Vətən müharibəsində iştirak etmişdir. 36-cı ehtiyat atıcı diviziyanın 48-ci ehtiyat atıcı alayından 389-cu ehtiyat atıcı alayına göndərilib (09.01.1943). 1177-ci zenit artilleriya alayının hava hücumundan müdafiə bölüyündə xidmət etmişdir. Leninqradın müdafiəsində qəhrəmanlıq göstərmişdir. 1945-ci ildə yaralandıqdan sonra ordudan tərxis olunmuşdur. 1945-ci ildən Daşkənd və Aşağı Şorca kənd məktəblərində müəllim işləməyə başlamışdır. Həmçinin 1949-cu ildən Aşağı Şorca kənd məktəbində direktor olmuşdur. 1948–1953-cü illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur.

Tapdıq Əliyevin fədakarlığı nəticəsində 1953-cü ildə yeni yaradılan Yeni Daşkənd kəndində onillik orta məktəb yaradılmış, özü də məktəbə direktor təyin edilmişdir. 1962-ci ilin sonuna qədər Yeni Daşkənd kənd orta məktəbinin direktoru olmuşdur. Bundan sonra 1986-cı ilədək müəllimlik fəaliyyətini davam etdirmişdir. Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur.

25 may 1990-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

"Leninqradın müdafiəsinə görə" medalı (23.08.1943), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı (05.10.1945), II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Həsənov Bostan Yunis oğlu** 1927-ci ildə Samux rayonunun Aşağı Qarasaqqal kəndində anadan olmuşdur. 1949-cu ildə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna qəbul olmuş, 1953-cü ildə həmin institutu bitirmişdir.

1954–1962-ci illərdə Bərdə rayon Qırmızı Samux kənd məktəbində tədris işləri üzrə direktor müavini işləmişdir. 1962-ci ilin sonunda Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbinə direktor təyin edilmişdir. Müəllimliklə yanaşı, 1971-ci ilə qədər Yeni Daşkənd kənd orta məktəbində direktor vəzifəsində çalışmışdır.

1971–1979-cu illərdə Bərdə rayon Yeni Əyricə kənd orta məktəbində direktor işləmiş, 1979–1992-ci illərdə isə həmin məktəbdə kimya-biologiya müəllimi kimi fəaliyyətini davam etdirmişdir. 1992-ci ildə təqaüdə çıxmışdır.

1949-cu ildə ailə həyatı qurmuş, beş övladı olmuşdur.

2002-ci ildə Bərdə rayonunun Yeni Əyricə kəndində vəfat etmiş və həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur.

**Əliyev Namaz Nurməmməd oğlu** 1927-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1942-ci ildə Daşkənd kənd orta məktəbinin yeddinci sinfini bitirmiş, həmin il İrəvan Pedaqoji Texnikumuna qəbul olmuşdur. 1944-cü ildə həmin texnikumu bitirdikdən sonra öz doğma kənd məktəbinə müəllim göndərilmişdir. Daşkəndlə bərabər Aşağı Şorca və Yuxarı Şorca kəndlərində də müəllimlik etmişdir. O, Azərbaycan məktəblərində erməni dilindən dərs demişdir.

1953-cü ildə azərbaycanlıların Ermənistandan deportasiyası zamanı özü, ailəsi, atası, anası və kiçik qardaşı Qurbanla birlikdə yük qatarında Goran stansiyasına gətirilmiş, sonra Goranboy rayonunun Alıuşağı (indiki Zazalı) kəndində yerləşdirilmişlər. Atası Nurməmməd Zazalı kəndində iqlim şəraitinə dözməyərək vəfat etmişdir. Bir müddət sonra ailə Zazalı kəndindən təzə salınan Yeni Daşkənd kəndinə köçmüşdür. Erməni dili müəllimi olan Namaz Əliyev Azərbaycanda iş tapa bilmədiyindən sənədlərini 1953-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna vermiş, 1957-ci ildə kimya və biologiya ixtisası üzrə ali təhsilini başa vurmuş, daha sonra Yeni Daşkənd kənd orta məktəbində kimya və biologiya fənlərini tədris etmişdir.

Kənd məktəbində kimya müəllimi işləməklə yanaşı, həm də dərs hissə müdiri kimi fəaliyyət göstərmişdir. 1971-ci ildə Yeni Daşkənd kənd orta məktəbinə direktor təyin edilmiş, 28 avqust 1975-ci ildə öz

xahişi ilə direktor vəzifəsindən azad olunmuşdur. Müəllimlik fəaliyyətini 2003-cü ilin iyun ayına kimi davam etdirmişdir.

17 iyul 2003-cü ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Direktor işlədiyi dövrdə təhsilin inkişafındakı xidmətlərinə görə ona dövlət tərəfindən "Zaporojye" minik maşını və Ərəb xalçası hədiyyə edilmişdir.

1949-cu ildə Firəngiz Bayram qızı ilə ailə həyatı qurmuş, yeddi övladı dünyaya gəlmişdir.

**Əsədova Səmayə Yusif qızı** 27 mart 1940-cı ildə Bakı şəhərində anadan olmuşdur. Bakı şəhər 190 nömrəli orta məktəbində oxumuşdur. 1959-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olmuş, 1964-cü ildə həmin fakültəni bitirmişdir. İxtisasca tarix-ədəbiyyat müəllimi olmuşdur.

1964-cü ildə Yeni Daşkənd kənd orta məktəbinə müəllim təyin edilmişdir. 30 avqust 1968-ci ildən 1 sentyabr 1972-ci ilə qədər Yeni Daşkənd kənd orta məktəbində tədris işləri üzrə direktor müavini işləmişdir. 1 sentyabr 1975-ci ildə həmin məktəbə direktor təyin edilmiş, 1 sentyabr 1985-ci ilədək həmin vəzifədə çalışmışdır. Bakı şəhərinə köçənədək Yeni Daşkənd kənd tam orta məktəbində müəllim işləmişdir.

Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

1994-cü ildən ailəlikcə Bakı şəhərinə köçmüşdür.

Hal-hazırda Bakıda yaşayır.

**Süleymanov Vidadi Salman oğlu** 1955-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1970-ci ildə Yeni Daşkənd kənd orta məktəbinin 8-ci sinfini bitirmiş, Bakı şəhər 1 saylı Fizika-riyaziyyat Təmayüllü internat məktəbinə daxil olmuşdur. 1972-ci ildə məktəbi bitirdikdən sonra sənədlərini S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə vermişdir. Tətbiqi-riyaziyyat ixtisasına cəmi 6 qəbul yeri olduğundan imtahan nəticələri H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə dəyişdirilmişdir. 1976-cı ildə ali təhsilini əla qiymətlərlə başa vurmuşdur.

1976-cı ildə Yeni Daşkənd kənd orta məktəbinə riyaziyyat müəllimi təyin olunmuşdur. Müəllim işləməklə yanaşı, 1979-cu ildən Yeni Daşkənd kənd orta məktəbində tədris işləri üzrə direktor müavini, 1 sentyabr 1985-ci ildən isə həmin məktəbdə direktor işləmişdir. 1999-cu ilə qədər direktor vəzifəsində çalışmış, eyni zamanda müəllimlik fəaliyyətini davam etdirmişdir.

2005-ci ildən Bərdə şəhərində müəllim işləməyə başlamışdır. 2013–2019-cu illərdə Bərdə şəhər akademik Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü məktəb-liseydə direktor işləmişdir.

Pedaqoq kimi çalışdığı illərdə dəfələrlə Təhsil Nazirliyinin fəxri fərmanlarına layiq görülmüş, diplomlarla təltif olunmuşdur. Ali kateqoriyalı riyaziyyat müəllimi olmuşdur.

Hələ uşaq yaşlarından şeir yazmağa dərin marağı olan Vidadi müəllimin şeirə, sözə vurğunluğunu şifahi xalq ədəbiyyatını dərindən bilən babası Süleyman kişi və atası Salman Məlikov yaratmışdır. Vidadi müəllim tələbə olarkən gənc şairlərlə, xüsusən Səyyad Vəlioğlu ilə dostluq etmişdir.

Şeirləri müxtəlif mətbuat orqanlarında və “Daşkənd aşıqları və şairləri” (Bakı, “Nurlan”, 2008) kitabında çap olunmuşdur (səh. 264–270).

Hal-hazırda təqaüdçüdür, Yeni Daşkənd kəndində yaşayır.

**Əsədov Bilal Həbib oğlu** 7 mart 1949-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur.

1966-cı ildə Yeni Daşkənd kənd orta məktəbinin XI sinfini bitirmiş, 1967–1968-ci illərdə isə Bərdə 5 №-li orta ixtisas məktəbində oxumuşdur.

1971-ci ildə S.M.Kirov adına “Qırmızı əmək bayrağı” ordenli Azərbaycan Dövlət Universitetinə qəbul olmuş, 1977-ci ildə həmin universitetin riyaziyyat ixtisasını bitirmişdir. 1987-ci ildə Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunda direktor müavinləri üçün ixtisasartırma kursu keçmişdir.

1973–1977-ci illərdə Bakı şəhərinin Oktyabr rayonunda, 1989–1991-ci illərdə isə Bərdə rayonunda Xalq drujinaçısı olmuşdur.

1982–1996-cı illərdə Bərdə şəhər Nizami Gəncəvi adına 2 saylı Beynəlmiləl tam orta məktəbində tədris işləri üzrə direktor müavini kimi fəaliyyət göstərmişdir.

1996–1999-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində tədris işləri üzrə direktor müavini, 1999–2006-cı illərdə isə həmin məktəbin direktoru vəzifəsində işləmişdir.

1993-cü ildən Azərbaycan Ziyalılarının Demokratik İttifaqının, 2000-ci ilin aprel ayından isə Yeni Azərbaycan Partiyasının üzvü olmuşdur.

9 iyun 2006-cı ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hümbətova Səfurə Kamran qızı** 4 oktyabr 1958-ci ildə Tərtər şəhərində doğulmuşdur. Ailəsi ilə birlikdə Bərdə şəhərinə köçmüşdür. Bərdə şəhər Nəriman Nərimanov adına 3 saylı tam orta məktəbdə oxumuşdur. 1980-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1980-ci ildən Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir.

2006–2007-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin direktoru işləmişdir. Hal-hazırda Bərdə şəhər Nəriman Nərimanov adına 3 saylı tam orta məktəbdə direktor vəzifəsində çalışır.

Səfurə Hümbətova 4 elmi əsərin müəllifidir. “Yubiley döş nişanı”, “Əmək” ordeni və Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunmuşdur. O, həmçinin “Ən yaxşı ümumi təhsil müəssisəsi” müsabiqəsinin qalibi olmuş, Elm və Təhsil Nazirliyinin fərmanı ilə də mükafatlandırılmışdır. Azərbaycan Dövlət Nəşriyyatının keçirdiyi avtobioqrafik hekayənin müəllifi kimi 1-ci dərəcəli diploma layiq görülmüşdür.

Ailəlidir, iki övladı var.

**Hümbətova Gülbəniz Kamran qızı** 1952-ci ildə Tərtər şəhərində doğulmuşdur. 1959-cu ildə Tərtər şəhər 3 saylı orta məktəbin I sinfinə getmişdir. Ailəsi ilə birlikdə Bərdə şəhərinə köçmüşdür. 1969-cu ildə Bərdə şəhər Nəriman Nərimanov adına 3 saylı tam orta

məktəbi bitirmiş, həmin il SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutunun İngilis dili fakültəsinə qəbul olmuş, 1974-cü ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir. Təyinatla Bərdə rayonuna ingilis dili müəllimi göndərilmişdir. Bərdə şəhər F.M.Muradov adına 7 nömrəli tam orta məktəbdə ingilis dili müəllimi işləmişdir.

2007-ci ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinə direktor təyin olunmuş, 2 noyabr 2017-ci ildə yaşa görə vəzifəsindən azad edilmişdir. Gülbəniz müəllimə direktor olduğu müddətdə məktəbin uğurları çox olmusdur. Sagirdlər yüksək göstəricilərlə müxtəlif ali məktəblərə daxil olmuşdur. Bu məzunlar hüquqşünas, həkim, mühəndis, müəllim, jurnalist ixtisası üzrə biliklərə yiyələnmişdir.

Gülbəniz Hümbətova dəfələrlə rayon təhsil şöbəsi tərəfindən diplomlar, fəxri fərmanlarla və 2017-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" medalı ilə təltif olunmusdur.

**Qocamanov Elgün Zöhrab oğlu** 10 mart 1984-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1990-cı ildə Yeni Daşkənd kənd tam orta məktəbində oxumağa başlamış, 2000-ci ildə həmin məktəbi bitirmişdir. 2001–2005-ci illərdə Sumqayıt Dövlət Universitetinin Tarix fakültəsində ali təhsil almışdır.

2005–2006-cı illərdə hərbi xidmətdə olmuş, Daşkəsən rayonundakı "N" saylı hərbi hissənin Murov istiqamətindəki postlarında hərbi xidmət keçmişdir.

2006-cı ildə Bərdə rayonu Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təyinatı və ixtisası üzrə müəllimlik fəaliyyətinə başlamışdır. Müəllimliklə bərabər rayonun ictimai-siyasi işlərində də fəal iştirak etmişdir. Azərbaycan Təhsil Nazirliyinin təşkil etdiyi kurs və seminarlarda yaxından iştirak etmiş, Sertifkatlar və Fəxri fərmanlarla təltif olunmuşdur. Kənd məktəbində işləməklə bərabər 2013-cü ildən 2 noyabr 2017-ci ilədək Bərdə şəhər akademik Zərifə Əliyeva adına Texniki Fənlər Təmayüllü məktəb-liseydə də tarix müəllimi işləmişdir. Müəllimlik fəaliyyətilə bərabər fərdi repetitorluqla da məşğul olmuş, Bərdə hazırlıq kursu ilə birgə sınaq imtahanlarının təşkil edilməsində yaxından iştirak etmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin könüllüsü olmuş, bir neçə dövlət layihələrində yaxından iştirak etmişdir. Bərdə rayonu Heydər Əliyev Mərkəzində məktəb şagirdlərinə müasir Azərbaycanın qurucusu və memarı Heydər Əliyev haqqında mühazirələr oxumuş, seminarlar keçirmişdir.

Elgün Qocamanov 2017-ci ildə Təhsil Nazirliyinin təşkil etdiyi Diaqnostik imtahanda 55 bal toplayaraq normal nəticə göstərmişdir. 2 noyabr 2017-ci ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin direktoru vəzifəsini icra etmişdir. Direktorların işə qəbulu imtahanında uğurlu nəticə göstərərək, 2018-ci ilin aprel ayında Təhsil Nazirliyinin əmri və Rayon Təhsil şöbəsinin təqdimatı əsasında Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin direktoru vəzifəsinə təyin olunmuşdur. Hal-hazırda həmin vəzifədə çalışır.

2008-ci ildə Qasımova Sahar Qasım qızı ilə ailə həyatı qurmuşdur. Bir oğlu, iki qızı var. Həyat yoldaşı Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində riyaziyyat müəllimi işləyir. Övladları orta məktəbdə təhsil alırlar.

## MÜƏLLİMLƏR

**Hacıyev Tanrıverdi Alı oğlu** 5 iyun 1917-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. 1925-ci ildə Daşkənd kənd məktəbinə getmiş, əla qiymətlərlə oxuduğuna görə birbaşa 3, 5 və 7-ci siniflərə keçirilmişdir. Daşkənd kənd məktəbini bitirdikdən sonra həmin təhsil müəssisəsində riyaziyyat müəllimi işləməyə başlamışdır. 1934-cü ildə İrəvan Pedaqoji Texnikumuna qəbul olmuş, 1935-ci ildən müəllim işləmiş, 1938-ci ildə təhsilini başa vurmuşdur.

1938-ci ildən Basarkeçər rayonunun Kəsəmən kənd məktəbində, 1940-cı ildən 1942-ci ilin dekabr ayına qədər isə Daşkənd kənd məktəbində müəllim və dərs hissə müdiri vəzifələrində işləmişdir.

1942-ci ilin dekabr ayında Böyük Vətən müharibəsinə səfərbər olunmuş, 10 fevral 1944-cü ildə döyüşdə yaralandığı üçün ordudan tərxis olunmuşdur.

1944–1949-cu illərdə Basarkeçər rayonunun Qoşabulaq kənd məktəbində, 1950–1952-ci illərdə Nərimanlı kənd məktəbində, 1952–1953-cü illərdə isə Zod kənd orta məktəbində direktor işləmişdir.

1948-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olmuş, 1954-cü ildə həmin institutu bitirmişdir.

1953-cü ilin may ayında Göyçə mahalından deportasiya olunaraq taleyini Bərdə rayonu ilə bağlamışdır.

1953-cü ildən Yeni Daşkənd kənd orta məktəbində fizika-riyaziyyat müəllimi işləməyə başlamışdır.

1956–1958-ci illərdə Bərdə rayonunun "Yeni həyat" kolxozunda sədr vəzifəsində işləmişdir.

1959-cu ildən Yeni Daşkənd kənd orta məktəbində müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. Həmçinin məktəb həmkarlar təşkilatının sədri olmuşdur. Dəfələrlə riyaziyyat müəllimləri üçün olan "Математика в школе" jurnalında çətinliyi artırılmış məsələ və misalların həlli mövzusunda məqalələri çap olunmuşdur.

Tanrıverdi Hacıyev dövlət tərəfindən altı dəfə pul və əşya ilə mükafatlandırılmış, üç dəfə yerli sovetə deputat seçilmişdir. "Əməkdə fərqlənməyə görə" medalı (1969, 1974), "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (1970), "Azərbaycan SSR

qabaqcıl maarif xadimi" döş nişanı (1971), "Əmək veteranı" medalı (1977), "Baş müəllim" adı (1982), "Metodist maarif xadimi" adı (1982), "Sosializm yarışının qalibi" döş nişanı, I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.11.1985) ilə təltif olunmuşdur.

1945-ci ildə həmkəndlisi Lətifə Oruc qızı ilə ailə həyatı qurmuş, dörd oğlu, dörd qızı olmuşdur.

Tanrıverdi Hacıyev 1 mart 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hacıyev Papır İdris oğlu** 10 noyabr 1920-ci ildə Göyçə mahalının Nərimanlı kəndində anadan olmuşdur. Nərimanlı kənd yeddiillik məktəbini bitirdikdən sonra həmin məktəbdə müəllim işləməyə başlamışdır.

1940-cı ilin sentyabr ayında Basarkeçər RHK tərəfindən hərbi xidmətə göndərilmişdir. 1942-ci ildə ordu sıralarından tərxis olunmuşdur. Xidmətini arxa cəbhədə keçmişdir.

Hərbi xidmətdən sonra Nərimanlı kənd yeddiillik məktəbində, təxminən 1945-ci ildən sonra Daşkənd kənd orta məktəbində ibtidai sinif və fizika müəllimi işləmişdir. 1950-ci illərdə Kəlbəcər rayonunun Zülfüqarlı kənd orta məktəbində də pedaqoji fəaliyyət göstərmişdir.

1953-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur.

1953-cü ildən vəfat edənə qədər Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmişdir.

1959-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinə qəbul olmuş, 1965-ci ildə ibtidai təhsil pedaqogikası və metodikası ixtisası üzrə həmin institutu bitirmişdir.

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (07.05.1965) ilə təltif olunmuşdur.

Papır Hacıyev 13 iyun 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 48 yaşında vəfat etmiş, həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur.

1946-cı ildə Ruqiyə İbrahim qızı ilə ailə həyatı qurmuş, səkkiz övladı olmuşdur.

**Hacıyev Mehdi İsmayıl oğlu** 1925-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. 1945-ci ildə Astraxanbazar (indiki Cəlilabad) sərhəd zastavasında hərbi xidmətə başlamış, 1947-ci ildə ordudan tərxis olunmuşdur. 1951-ci ildə Ağdam İkiillik Müəllimlər İnstitutuna qəbul olmuş, 1953-cü ildə həmin institutun dil-ədəbiyyat ixtisasını bitirmişdir. 1953–1955-ci illərdə Basarkeçər rayonu Qoşabulaq kənd məktəbində müəllim və dərs hissə müdiri işləmişdir.

Məcburu deportasiyadan sonra Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərmişdir.

1958-ci idə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olmuş, 1962-ci ildə institutu bitirmişdir.

Uzun müddət Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmişdir. Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuş, 1970-ci illərdə məktəb həmkarlar təşkilatının sədri, ilk partiya təşkilat katibi olmuşdur.

1952-ci ildə Quba Mövsüm qızı ilə ailə həyatı qurmuş, altı övladı olmuşdur.

Mehdi Hacıyev 8 iyun 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, həmin kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hacıyev Xasay Oruc oğlu** 28 aprel 1925-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd məktəbini bitirmişdir. 1948-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1953-cü ildə həmin fakültəni bitirmişdir. Əmək fəaliyyətinə Daşkənd kənd orta məktəbində müəllim kimi başlamışdır. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

Yeni Daşkənd kəndinin salınmasında, kənddəki evlərin tikilməsində, camaata kreditlərin verilməsində böyük fədakarlıq göstərmişdir. 1953–1954-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində hesabdan dərs keçmişdir. 1963-cü ildən sonra "Yeni həyat" kolxozunda inşaat və təsərrüfat briqadiri işləmişdir.

Kiçik yaşlarında yazdığı şeirlərdə şifahi xalq ədəbiyyatının güclü təsiri duyulur. Şeirlərində Göyçə mahalının müsibətli günlərinin poetik salnaməsini yaratmışdır. Xasay Hacıyev müəllimliklə yanaşı, yaradıcılığını da ardıcıl davam etdirmiş və zəngin ədəbi irsi qalmışdır.

Aşıq Şəmşir, Qəmkeş Allahverdi, Aşıq Mikayıl Azaflı, Ənvər Rza kimi şairlərlə yoldaşlıq etmiş və deyişib-dərdləşmişdir.

11 aprel 1977-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 52 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Xasay Hacıyevin şeirlərindən ibarət “Babamın dərdi” (Bakı, “Nurlan” 2007) adlı kitabı çap olunmuşdur.

**Kərimov Əli Hüseyn oğlu** 2 may 1925-ci ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. 1942-ci ildə Daşkənd kənd orta məktəbini bitirərək həmin məktəbdə müəllim işləmiş və kənddə komsomol təşkilatının fəal üzvlərindən olmuşdur.

10 oktyabr 1944-cü ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Altı ay hərbi hazırlıqdan sonra döyüş bölgələrində II diviziyanın tərkibində xidmət etmiş, Berlinə qədər döyüş yolu keçmişdir. 10 oktyabr 1949-cu ildə isə ordudan tərxis olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra Daşkənd, Aşağı Şorca, Ağkilsə kənd məktəblərində müəllim işləmişdir. 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olmuş, 1956-cı ildə həmin universiteti bitirmişdir.

1953-cü ildə ailəsi ilə birlikdə Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur. 1953–1955-ci illərdə Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmişdir. 1955-ci ildə Daşkəndə qayıdaraq Daşkənd kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. 1957-ci ildə Göyçədən bir daha Bərdə rayonunun Yeni Daşkənd kəndinə gələrək burada riyaziyyat və hərbi hazırlıq müəllimi işləmişdir. 1962-ci ildə məktəbdə həm də dərs hissə müdiri olmuşdur.

1964-cü ildən Bərdə şəhərində yaşamışdır. O, Bərdədə 1 saylı və 5 saylı orta məktəblərdə müəllim kimi çalışmış, sadəliyi və ziyalılığı ilə Bərdədə hörmət sahibi olmuşdur.

1951-ci ildə Aşağı Şorca kəndindən olan Tovuz Sərkar qızı ilə ailə həyatı qurmuşdur. Onların övladı olmadığı üçün 1955-ci ildə onlar ayrılmış, həmin il Əli müəllim Bərdə rayonunun Lənbəran kəndindən olan Narınc xanımla ailə qurmuşdur. Lakin bu evlilikdən də övladları olmamışdır.

Əli Kərimov 25 avqust 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Abbasova Adilə Rüstəm qızı** 1926-cı ildə Marneuli rayonunun Candar kəndində anadan olmuşdur. 1943-cü ildə Tbilisi Pedaqoji Texnikumunu bitirmişdir. 1945-ci ildən Basarkeçər rayonunun Daşkənd kəndində müəllim işləməyə başlamışdır. 1946-cı ildə Daşkənd kəndində Tapdıq Əliyev ilə ailə həyatı qurmuşdur.

1953-cü ildə ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. 1953-cü ildən başlayaraq 1986-cı ilə kimi Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbində ibtidai sinif müəllimi işləmişdir.

12 iyul 1990-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Kərimov Vərqa Hüseyn oğlu** 1 iyul 1932-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1940-cı ildə Daşkənd kənd orta məktəbində ibtidai təhsil almağa başlamışdır. 1952-ci ildə 9-cu sinifdə oxuyarkən Basarkeçər RHK-dan həqiqi hərbi xidmətə aparılmışdır. 3 il hərbi xidmət keçdikdən sonra 1955-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndinə gəlmişdir. 1957-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1957–1961-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində təsərrüfat müdiri işləmişdir.

14 aprel 1962-ci ildə işləmək üçün Sumqayıt şəhərinə gedən Vərqa Kərimov 1966-cı ilə qədər burada “Super-fosfat” zavodunda işləmişdir.

1966-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun “Ümumi texniki fənlər və fizika” fakültəsinə qəbul olmuş, 1972-ci ildə həmin institutu bitirmişdir.

Vərqa Kərimov 1972–1973-cü illərdə Sumqayıtın Corat qəsəbəsində, 1973–2011-ci illərdə isə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmişdir.

15 mart 2022-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 90 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Vərqa Kərimov 1957-ci ildə Xuraman Fəzi qızı ilə ailə həyatı qurmuş, iki oğlu, beş qızı olmuşdur.

**Əliyev Ramazan Xıdır oğlu** 1932-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1950-ci ildə Basarkeçər rayonu Daşkənd kənd orta məktəbini bitirmişdir. Həmin vaxtdan da doğma məktəbdə müəllim işləməyə başlamışdır. 1952-ci ildə Qazax Pedaqoji Texnikumuna qəbul olmuş, 1954-cü ildə texnikumu bitirmişdir.

1953-cü ildə doğulduğu kənddən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdır. Bərdə rayonunun Yeni Daşkənd kəndinin təməli qoyulandan böyük qardaşı Tapdıq müəllimlə birlikdə orta məktəb tikintisi üçün çalışmış, kənd ziyalılarının köməkliyi ilə 1955-ci ildə məktəb tikintisini başa çatdırmışlar.

1961-ci ildə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə qəbul olmuş, 1966-cı ildə həmin institutu bitirmişdir.

Yeni Daşkənd kənd orta məktəbində tədris işləri üzrə direktor müavini işləmişdir. 1963-cü ildən 1976-cı ilədək savadsızlığın ləğv edilməsi üzrə böyüklər üçün təşkil edilən axşam kurslarından ibarət məktəb açmış, həmin məktəbin direktoru olmuşdur.

Məktəbdə təlim-tərbiyə işində, təhsilin keyfiyyətinin artırılması, gənclərin vətənpərvərlik ruhunda yetişməsində xüsusi əməyi keçmişdir.

Bərdə Rayon Xalq Məhkəməsində xalq iclasçısı və köməkçi vəzifəsində də çalışmışdır.

1988-ci ildə azərbaycanlıların Ermənistandan köçürülməsi zamanı Göyçə mahalından olan məcburi köçkünlərin yerləşdirilməsində lazımi köməklik göstərmişdir.

Ramazan Əliyev 12 avqust 1990-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir. Məzarı kənd qəbiristanlığındadır.

**Alhəsənov İsgəndər Möhsüm oğlu** 15 iyun 1937-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Basarkeçər rayonu Daşkənd kənd orta məktəbini bitirmişdir. 1955-ci ildə üç illik hərbi xidmətə getmiş, əvvəlcə Nalçikdə, sonra isə Moskvada xidmət etmişdir.

1965-ci ildə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun ibtidai sinif müəllimliyi ixtisasına qəbul olmuşdur. 1967-ci ildən Basarkeçər rayonu Daşkənd kənd orta məktəbində təşkilatçı, 1969-cu ildən isə müəllim kimi fəaliyyətə başlamışdır. Kənddə hamının sevimlisi, demək olar ki, yeni nəslə əlifbanı, qələm tutmağı öyrədən bir müəllim, güclü yumor hissi olan bir şəxs kimi hörmət sahibi olmuşdur.

1988-ci ildə Göyçə mahalını ailəsi ilə birlikdə məcburən tərk edərək Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. 1988-ci ilin dekabrından Yeni Daşkənd kənd orta məktəbində ixtisasına uyğun olaraq müəllim işləməyə başlamışdır. On il Yeni Daşkənd kənd tam orta məktəbində işlədikdən sonra yaşadığı Qarabağ qəsəbəsində yerləşən Ağdam rayon 146 nömrəli tam orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. Müəllimliklə yanaşı, həm də həmin məktəbdə dərs hissə müdiri vəzifəsində çalışmışdır. 2011-ci ildə yaşa görə tədrisdən ayrılmışdır.

İsgəndər Alhəsənov müxtəlif illərdə "Metodist müəllim", "Qabaqcıl maarif xadimi", "Baş müəllim" fəxri adlarına layiq görülmüşdür.

24 may 2017-ci ildə Bərdə şəhərində vəfat etmiş, Bərdə şəhər qəbiristanlığında oğlu Eminin yanında dəfn olunmuşdur.

**Əsədov İbrahim Kərəm oğlu** 28 mart 1940-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Şair Məmmədhüseynin nəticəsidir. 1953-cü ildə bir çox Daşkəndlilər kimi Bərdə rayonuna deportasiya edilmişdir. 1958-ci ildə Yeni Daşkənd kənd orta məktəbini fərqlənmə ilə bitirmişdir.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə daxil olmuş, II kursa qədər oxuduqdan sonra öz istəyi ilə universiteti tərk

etmişdir. 1959-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsinə qəbul olmuş, 1964-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir.

1964-cü ildən başlayaraq əvvəlcə Bərdə rayonunun Kürdborakı kənd tam orta məktəbində, sonra isə Yeni Daşkənd kənd orta məktəbində tarix-coğrafiya müəllimi işləmişdir.

1994-cü ildən ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş və ömrünün sonuna qədər Bakıda yaşamışdır.

2 may 2006-cı ildə Bakı şəhərində vəfat etmiş, Bakıxanov qəbiristanlığında dəfn edilmişdir.

İbrahim Əsədovun "Yaralı yerimdi Göyçə" (Bakı, "Nurlan", 2006) adlı şeirlər kitabı çap olunmuşdur. Şeirlərini əsasən "İbrahim Daşkəndli" təxəllüsü ilə yazmışdır.

**İsmayılov Rəhim Cəmil oğlu** 20 iyun 1941-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1958-ci ildə orta məktəbi bitirmişdir. 1960–1963-cü illərdə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə texnikumunda oxumuşdur.

1963-cü ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olmuş, 1969-cu ildə həmin institutun energetika ixtisasını bitirmişdir.

1970–1973-cü illərdə Basarkeçər rayon elektrik stansiyasında rəis müavini işləmişdir.

Rəhim İsmayılov müəllimliyə böyük marağına görə əlavə kurs bitirdikdən və imtahan verdikdən sonra 1973-cü ildən başlayaraq doğma Daşkənd kənd orta məktəbində fizika-riyaziyyat müəllimi işləmişdir.

1988-ci ildə baş verən məlum hadisələrlə əlaqədar olaraq Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmış, kənd məktəbində ömrünün axırına qədər müəllim işləmişdir.

Sazın, sözün, şeirin vurğunu olan, bir çox ustadların şeirlərini sinədəftər edən Rəhim müəllim qayğıkeş bir insan kimi el arasında böyük hörmət sahibi olmuşdur.

29 yanvar 2005-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Bayramov İbrahim Albaba oğlu** 21 avqust 1942-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Doğma kəndində orta məktəbə getmiş, 1961-ci ildə həmin məktəbi bitirmişdir. 1961-ci ilin noyabrında hərbi xidmətə çağırılmış, 1964-cü il dekabr ayının 3-də sovet ordusu sıralarından tərxis olunmuşdur. Bundan sonra "Qırmızı Rəncbər" kolxozunda əmək fəaliyyətinə başlamışdır.

İbrahim Bayramov 1965-ci ilin iyul ayından Bakıda "Sutikinti" trestinin Çapayev adına Tikinti Quraşdırma İdarəsində dülgər, 1966-cı ildən Azərbaycan Neftçıxarma Sənayesi Nazirliyinin 26 Bakı Komissarı adına Neft Mədənləri İdarəsində qazmaçı, 1969-cu ilin sentyabrından 1971-ci ilin may ayına qədər isə idarədə sürücü işləmişdir.

1967-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutuna qəbul olmuş, istehsalatdan ayrılmamaqla ali təhsilini davam etdirmişdir. 1974-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunu "orta məktəbdə rus dili və ədəbiyyatı müəllimi" ixtisası üzrə bitirmişdir.

1971-ci ilin sentyabrından doğulduğu kəndə qonşu olan Yuxarı Şorca kənd 8 illik məktəbində rus dili və ədəbiyyatı fənnini tədris etməyə başlamışdır. 1973-cü ildən 1988-ci ildəki məlum hadisələrə qədər isə Daşkənd kənd orta məktəbində rus dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərmişdir.

1988-ci ildə Göyçə mahalını ailəsi ilə birlikdə məcburən tərk edərək Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. 1988-ci ilin dekabrından Yeni Daşkənd kənd orta məktəbində ixtisasına uyğun olaraq müəllim işləməyə başlamışdır. 2010-cu ildə Azərbaycan məktəblərində rus dili və ədəbiyyatı tədrisi ləğv olunanadək öz müəllimlik borcunu ləyaqətlə yerinə yetirmişdir.

İbrahim Bayramov 23 fevral 2013-cü ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

1971-ci ildə Mələksuma Hüseyn qızı ilə ailə həyatı qurmuş, bir oğlu, beş qızı dünyaya gəlmişdir.

**Həsənov Şıxəli Cəlil oğlu** 1947-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir. 1954–1964-cü illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1965–1967-ci illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1968-ci ildə Özbəkistan Bədən Tərbiyəsi İnstitutuna qəbul olmuş, 1973-cü ildə həmin institutu bitirmişdir.

1973–1978-ci illərdə Bərdə Peşə məktəbində fəaliyyət göstərmişdir. 1978–1981-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmişdir.

Yakutiyada (indiki Saxa), sonra isə Vladivostokda yaşamışdır. Ukraynanın Krivoy Roq şəhəri və Özbəkistanın Daşkənd şəhərinin hər birində on il müxtəlif işlərdə çalışmışdır. 2005-ci ildə Azərbaycana qayıtmışdır.

Şıxəli Həsənov 28 iyul 2018-ci ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Əliyeva Elmira Tapdıq qızı** 22 iyun 1947-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində ziyalı ailəsində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir. 1953-cü ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1964-cü ildə həmin məktəbin XI sinfini bitirmişdir. 1966-cı ildə H.B.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun Kimya-biologiya fakültəsinə qəbul olmuş, 1972-ci ildə həmin institutu qiyabi bitirmişdir.

1970-ci ildən Yeni Daşkənd kənd orta məktəbində Pioner Dəstə rəhbəri, 1972-ci ildən isə həmin məktəbdə kimya-biologiya müəllimi kimi əmək fəaliyyəti göstərmişdir. Təqaüd yaşı tamam olanda müqavilə ilə 5 il müddətinə yenə həmin məktəbdə müəllim işləmişdir.

2014-cü ildə təqaüdə çıxmışdır. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Kərimova Rəna Tanrıverdi qızı** 1950-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində ziyalı ailəsində doğulmuşdur. 1953-cü ilin may ayında ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur.

1956-cı ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1966-cı ildə həmin məktəbi bitirmiş, elə həmin ildə də V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika fakültəsinə qəbul olmuşdur.

1970-ci ildə institutu bitirərək təyinatla Yeni Daşkənd kənd orta məktəbinə fizika müəllimi təyin olunmuşdur. 1976-cı ildən Kəlbəcər rayon 2 №-li orta məktəbində fizika müəllimi işləməyə başlamışdır. 1980–1987-ci illərdə isə Ağdam rayon 2 №-li orta məktəbində fizika müəllimi işləmişdir.

1988–1990-cı illərdə Gədəbəy rayonunda, 1990–1993-cü illərdə Quba rayonunda fizika müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir. 1993–1998-ci illərdə Bakı şəhər Nərimanov rayon 36 №-li tam orta məktəbində fizika müəllimi, 1999–2022-ci illərdə isə həmin məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

Rəna Kərimova 5 oktyabr 2015-ci ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, 4 oktyabr 2018-ci ildə isə "Əməkdar müəllim" fəxri adı ilə təltif olunmuşdur.

1974-cü ildə ailə həyatı qurmuşdur. Üç övladı var.

**Qocamanova Solmaz Tanrıverdi qızı** 3 aprel 1952-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində ziyalı ailəsində doğulmuşdur. 1953-cü ilin may ayında ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. 1957-ci ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1967-ci ildə həmin məktəbi bitirmiş, elə həmin ildə də V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə qəbul olmuşdur.

1971–1972-ci illərdə Bərdə rayonunun Zümürxaç kənd orta məktəbində müəllim işləmişdir. 1975–1976-cı illərdə Bərdə şəhər 3 nömrəli tam orta məktəbdə, 1977–2021-ci illərdə isə Yeni Daşkənd kənd orta məktəbində riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir.

Solmaz Qocamanova 1990-cı ildə "Baş müəllim", 1993-cü ildə isə "Qabaqcıl müəllim" fəxri adlarına layiq görülmüşdür.

**Həsənov Mübariz Cəlil oğlu** 1 iyul 1954-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1961–1971-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1972-ci ildə Özbəkistanın Daşkənd şəhərinə getmişdir. 1982-ci ildə Özbəkistan Bədən Tərbiyəsi İnstitutuna qəbul olmuş, 1987-ci ildə həmin institutu bitirmişdir.

1987-ci ildən "Yeni həyat" kolxozunda idman metodisti işləmişdir.

1994–2020-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində idman müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir.

Hal-hazırda təqaüdçüdür. Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

**Hacıyeva Zöhrə Xasay qızı** 20 aprel 1955-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində ziyalı ailəsində anadan olmuşdur. 1962-ci ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə daxil olmuş, 1972-ci ildə həmin məktəbin X sinfini qutarmışdır.

1973-cü ildə H.B.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə qəbul olmuş, 1978-ci ildə həmin institutu bitirmişdir.

Zöhrə Hacıyeva 1973-cü ildə ilk əmək fəaliyyətinə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində kitabxanaçı kimi başlamışdır. Sonradan həmin məktəbdə 1980-ci ilə kimi riyaziyyat müəllimi işləmişdir.

1980-ci ildən Kəlbəcər şəhər 2 saylı orta məktəbində riyaziyyat müəllimi işləmiş, 1993-cü ildə məlum Kəlbəcər hadisələrindən sonra Bakı şəhərində məskunlaşmışdır.

1993–2020-ci illərdə Xırdalanda müvəqqəti yerləşən Kəlbəcər rayon 21 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi işləmişdir.

1980-ci ildə ailə həyatı qurmuşdur, bir oğlu, üç qızı var.

Şeirin, poeziyanın sirlərinə hələ uşaqlıqdan bələd olan Zöhrə Hacıyeva bir sıra müxtəlif mövzulu şeirlərin müəllifidir. İlk dəfə şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) adlı kitabda çap olunmuşdur (səh. 259–263).

**Balıyev Ələddin Qurban oğlu** 15 iyul 1959-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1976-cı ildə Yeni Daşkənd kənd orta məktəbinin X sinfini bitirmişdir. 1977–1979-cu illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir. Bir müddət "Yeni həyat" kolxozunun "İnşaat briqadası"nda işləmişdir.

1980-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə qəbul olmuş, 1986-cı ildə həmin universiteti tarixçi, tarix və ictimaiyyət müəllimi ixtisası üzrə bitirmişdir.

1985-ci ildən Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində tarix müəllimi işləmişdir. 1986-cı ildən məktəb həmkarlar komitəsinin sədri, 1988–1992-ci illərdə isə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. Sonrakı illərdə müəllim kimi fəaliyyətini davam etdirmişdir.

1976-cı ildən həmkarlar komitəsinin, 1996-cı ilin iyun ayından isə Yeni Azərbaycan Partiyasının üzvü olmuşdur. YAP Bərdə rayon təşkilatının VI, IX konfranslarına nümayəndə seçilmişdir.

İki dəfə Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə, bir dəfə isə Bərdə Rayon Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Müxtəlif illərdə keçirilən seçkilərdə aktiv iştirak etmiş, seçki komisssiyalarında məşvərətçi, nəzarətçi, müşahidəçi və məntəqə seçki komisssiyasının katibi olmuşdur.

Ələddin Balıyev 25 may 2017-ci ildə Yeni Daşkənd kəndində 58 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdir.

**Mirzəyeva Gülbəniz Kamran qızı** 17 yanvar 1963-cü ildə doğulmuşdur.

1 sentyabr 1990-cı ildən Yeni Daşkənd kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmiş, 1992-ci ildən həmin məktəbdə təşkilati işlər üzrə direktor müavini olmuşdur.

Gülbəniz Mirzəyeva 8 yanvar 2023-cü ildə ürək çatışmazlığından Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdir.

**Məmmədova Milayim Məhəmməd qızı** 10 may 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1973–1983-cü illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta mətkəbində oxumuşdur. Məktəbdə oxuyarkən 1982–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbinin Komsomol təşkilat katibi olmuşdur.

1983–1985-ci illərdə "Yeni həyat" kolxozunda sıravi kolxozçu işləmişdir.

1985-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə qəbul olmuş, 1990-cı ildə həmin universitetin kimya fakültəsini bitirmişdir.

1990-cı ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta mətkəbində pedaqoji fəaliyyətə başlamışdır. Ailə həyatı qurduğu üçün 1991-ci ildən iş yerini dəyişərək Tərtər rayonu Düyərli kənd əsas məktəbinə, sonra isə Sarıcalı kənd tam orta məktəbində kimya müəllimi işləmişdir.

1998-ci ildə hal-hazıra kimi Tərtər şəhər R.Nuriyev adına 6 №-li tam orta məktəbində kimya fənnini tədris edir.

30 sentyabr 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

1991-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu, bir qızı var.

**Vəliyev Azər İsmayıl oğlu** 1 avqust 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1979–1989-cu illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta mətkəbində oxumuşdur. 1989-cu ildə Kirovabad Kənd Təsərrüfatı texnikumuna qəbul olmuş, 1995-ci ildə texnikumu, 2003-cü ildə isə Azərbaycan Müəllimlər İnstitutunu bitirmişdir.

1990-cı ildə sovet ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. Bakı şəhərində daxili qoşunlarda xidmət keçmiş, 1991-ci ilin ortalarında bir qrup əsgər yoldaşları ilə birlikdə Papravənd, Sırxavənd ərazilərinin hərbi texnika sarıdan təmin olunmasında iştirak etmişdir. 1992-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

1998-ci ildən Yasif Kərimov adına Yeni Daşkənd kənd orta mətkəbində hərbi hazırlıq müəllimi işləməyə başlamışdır. Məktəbin şagirdləri hər il "Cəsurluq", "Şahin" hərbi idman oyunlarında iştirak

edirlər. Onlar rayon birinciliyində 7 dəfə I yerə, 3 dəfə II yerə, 1 dəfə III yerə çıxıblar və həmişə Gənclər və İdman Nazirliyinin fəxri diplomlarına layiq görülüblər. Onun əməyinin nəticəsidir ki, məktəbin son illərdə hərbi liseylərə qəbul olan şagirdlərinin sayı artmışdır.

Azər Vəliyev 1989-cu ildə ailə həyatı qurmuşdur, üç övladı var.

**Hacızadə Zülfiyyə Şiruyə qızı** 6 yanvar 1976-cı ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olmuşdur. 1981-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1992-ci ildə həmin məktəbin X sinfini bitirmişdir.

1994-cü ildə San-Marino Beynəlxalq Elmlər Akademiyası Akademik Mərkəzinin Azərbaycan filialında "İbtidai təhsilin pedaqoqika və metodikası" fakültəsinə daxil olmuş, 1999-cu ildə həmin fakültəni bitirmişdir. 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutu Gəncə filialının "Azərbaycan dili və ədəbiyyatı" fakültəsinə daxil olaraq 2005-ci ildə həmin institutu da bitirmişdir.

1997-ci ildən indiyə qədər Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləyir.

Kiçik yaşlarından müntəzəm olaraq şeirləri, hekayələri və məqalələri mətbuatda, almanaxlarda çap olunur.

Zülfiyyə Şiruyəqızının "Mən bir sınmış budağam" (Bakı, "Nurlan", 2007) adlı kitabı çap olunub. "Aşıq Pəri" məclisinin üzvüdür.

Ailəlidir, iki oğlu var.

## MƏZUNLAR

**Bayramov Murad Hüseyn oğlu** 1 may 1936-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə deportasiya olunmuş, Bərdə rayonunda məskunlaşmışdır.

1955-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmiş, hərbi xidmətə getmişdir. Xidmətini Moskva şəhərində keçmişdir. 1958-ci ildə hərbi xidmətdən birbaşa oxumaq üçün Mərdəkandakı Bakı Milis məktəbinə göndərilmişdir. 1961-ci ildə həmin məktəbi bitirdikdən sonra Bərdə rayonuna təyinat almışdır.

1961-ci ildən Bərdə rayonunda sahə inspektoru vəzifəsində çalışmışdır. 1986-cı ildə təqaüdə çıxmışdır.

Milis kapitanı Murad Bayramov müxtəlif illərdə döş nişanları, orden və medallar ilə mükafatlanmışdır.

31 may 2009-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Qocamanov Şahmar Qocaman oğlu** 10 yanvar 1949-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə doğma Göyçə mahalından Bərdə rayonuna deportasiya edilmişdir. 1959-cu ildə yaşadıqları Yeni Daşkənd kəndindən yenidən ailəlikcə ata-baba yurdları olan Göyçə mahalının Daşkənd kəndinə qayıtmışlar.

1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1967-ci ildə Basarkeçər rayonunun Daşkənd kənd orta məktəbini bitirmişdir. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur.

1972-ci ildə institutu bitirib təyinatla Samur-Abşeron kanalının istismarı idarəsində mühəndis vəzifəsində çalışmışdır. Xəstəliyi ilə əlaqədar Şəmkir rayonuna köçmüş, 1975-ci ildə Şəmkir Su Elektirik Stansiyasında evlər idarəsində usta işləmişdir. 1982-ci ildə Abşeron rayonunun Ceyranbatan qəsəbəsində məskunlaşmışdır.

8 avqust 1991-ci ildə uzun sürən xəstəlikdən sonra Ceyranbatanda vəfat etmiş, 9 avqustda Bərdə rayonunun Yeni Daşkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

Şahmar Qocamanov 1971-ci ildə ailə həyatı qurmuş, bir qızı olmuşdur.

**Hacıyev Məmməd Abbasəli oğlu** 1 dekabr 1949-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə doğulduğu Göyçə mahalından Bərdə rayonuna deportasiya edilmişdir.

1956–1966-cı illərdə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1971-ci ildə həmin institutu "İctimai iaşə sahəsinin təşkili və texnologiyası sahəsi" ixtisası üzrə bitirmişdir.

1972–1973-cü illərdə hərbi xidmətdə olmuş, leytenant rübəsi ilə tərxis edilmişdir. Hal-hazırda ehtiyatda olan kapitandır.

Təyinatla 1971–1973-cü illərdə "Azərittifaq"ın Bərdə rayon Kooperativlər İttifaqında texnoloq, Bərdə rayon İctimai İaşə Müəsissələri birliyində texnoloq, istehsalat müdiri vəzifələrində işləmişdir.

1973-cü ilin noyabr ayında köçürmə ilə Bakı şəhəri Əzizbəyov rayon İctimai İaşə Müəsissələri birliyinə direktor müavini təyin olunmuşdur. 1975-ci ildən 2010-cu ilə qədər "Azərittifaq"ın mərkəzi aparıtnda İctimai İaşə İdarəsində işləmişdir. 2010-cu ildə "Azərittifaq"ın Baş Ticarət, Tədarük, İaşə Departamentinə rəis müavini təyin olunmuş, 2014-cü ilədək həmin vəzifədə çalışmışdır.

2008-ci ildən Azərbaycan Hava Yolları QSC-də çalışır. Hazırda "Silk Way" aviaşirkətinin "Sky-Caterinq" filialında texnoloq vəzifəsində işləyir.

"Azərittifaq"ın İdarə Heyəti tərəfindən kooperasiya sahəsinin inkişaf etdirilməsində, kooperativ əmlakının qorunub saxlanılmasında xidmətlərinə görə dəfələrlə Fəxri fərmanla, "Azərbaycan kooperasiyasının əlaçısı" və "Fəxri kooperator" döş nişanları ilə təltif olunmuşdur.

Məmməd Hacıyev ailəlidir, üç övladı var. Bakı şəhərində yaşayır.

**Namazov Oruc İbrahim oğlu** 18 iyun 1951-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1968-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmiş, həmin il Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna qəbul olmuşdur. 1972-ci ildə institutu bitirib təyinatla Şuşa rayon Rabitə Qovşağına işə göndərilmiş, baş texnik, mühəndis, qovşaq rəisinin müavini vəzifələrində işləmişdir.

İşdə qazandığı uğurlarına görə Bakı Radio Zavodunun Şuşada yeni yaradılan filialına direktor təyin olunmuşdur. Buradan Bakı şəhərindəki zavoda baş mühəndisin müavini vəzifəsinə dəyişdirilmişdir.

Zavod "Bakı Radioqurma İstesalat Birliyi"nə çevriləndə Oruc Namazov birləşmiş həmkarlar ittifaqları komitəsinin sədri vəzifəsinə seçilmiş, ömrünün sonunadək həmin vəzifədə çalışmışdır. Azərbaycan Həmkarlar İttifaqlarının XVII qurultayına nümayəndə seçilmişdir.

1978-ci ildə ailə həyatı qurmuş, üç övladı olmuşdur.

Oruc Namazov 12 aprel 1988-ci ildə Moskva şəhərində müalicə olunarkən 37 yaşında vəfat etmiş, Bərdə rayonunun Yeni Daşkənd qəbiristanlığında dəfn olunmuşdur.

**Kərimov Firdovsi Qəzənfər oğlu** 10 yanvar 1952-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1959–1969-cu illərdə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1970-cı ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnistutunun Mexanika fakültəsinin Tikinti və yol maşınları avadanlıqları ixtisasına qəbul olmuşdur. Oxuduğu müddətdə fakültənin komsomol təşkilatının katibi olmuşdur. 1975-ci ildə inistitutu bitirdikdən sonra təyinatla Mingəçevir Təcrübə İxtisaslaşdırılmış Zavoduna göndərilmişdir. 1975–1998-ci illər ərzində zavodda texnoloq, baş texnoloq, sex rəisi və baş mexanik vəzifələrində çalışmışdır.

1998–2002-ci illərdə "Azəravtonəqliyyat" Dövlət Konserninin Lisenziya Baş idarəsinin 8 saylı Yevlax ərazi bölməsi üzrə aparıcı mütəxəssis, Nəzrarət qrup rəhbəri vəzifəsində işləmişdir. 2008-ci

ildən vəfat edənə qədər "Alyans-MV" MMC-də baş direktor vəzifəsində çalışmışdır.

1980-ci ildə ailə həyatı qurmuş, üç övladı olmuşdur.

Firdovsi Kərimov 3 fevral 2022-ci ildə Bakı şəhərində vəfat etmiş, Mingəçevir şəhər qəbiristanlığında dəfn olunmuşdur.

**İsmayılov Hamlet Məhəmməd oğlu** 1953-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1960–1970-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1970–1972-ci illərdə Qorki şəhərində sovet ordusu sıralarında hərbi xidmət keçmişdir.

1973–1978-ci illərdə Bakı şəhəri Nərimanov rayon Daxili İşlər Şöbəsində milis serjantı işləmişdir. Buradan öz istəyi ilə işləmək üçün Mirbəşir (indiki Tərtər) rayonuna göndərilmişdir. O, 1978–1981-ci illərdə Mirbəşir rayonunda milis şöbəsində fəaliyyət göstərmişdir.

1981-ci ildən ömrünün axırınadək Bərdə rayon Daxili İşlər Şöbəsində milis işləmişdir.

Hamlet İsmayılov xəstələndiyi üçün üzərində cərrahı əməliyyat aparılmış, 9 fevral 1986-cı ildə Bərdə rayon mərkəzi xəstəxanasında vəfat etmiş, Yeni Daşkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

İşlədiyi şöbələrin hər birində sadəliyi, yüksək mədəniyyəti və alicənablığı ilə hörmət qazanmışdır. Bu gün də onu tanıyanlar, onunla bir şöbədə iş yoldaşı olanlar onu hörmətlə xatırlayırlar.

**Abdullayev Vaqif Mirzə oğlu** 15 may 1954-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1961–1971-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1971-ci ildə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. 1974–1976-cı illərdə Çitada həqiqi hərbi xidmət keçmişdir. 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin riyaziyyat ixtisasını bitirmişdir.

1977-ci ildə Bərdə rayonu 2 saylı qiyabi orta məktəbində riyaziyyat müəllimi kimi əmək fəaliyyətinə başlamış, 1979-cu ilə kimi həmin məktəbdə işləmişdir. 1979–1982-ci illərdə Bərdə rayonu Kürdborakı kənd tam orta məktəbində müəllim kimi pedaqoji fəaliyyət

göstərmişdir. 1982-ci ildən vəfat edənə qədər isə Bərdə şəhər 2 saylı orta məktəbində riyaziyyat müəllimi işləmişdir.

1982-ci ilin dekabr ayında Gülüm Yolçu qızı ilə ailə həyatı qurmuş, iki qızı, bir oğlu olmuşdur. 1982-ci ildən Bərdə şəhərində yaşamışdır.

Tanınmış riyaziyyatçı kimi 1986-cı ildə Bərdə rayonu üzrə ilk informatika müəllimi olmuş, 1987-ci ildə isə Lomonosov adına Moskva Dövlət Universitetində informatika üzrə ali kurs keçmişdir.

Vaqif Abdullayev 25 iyul 1985-ci ildə Maarif Nazirliyinin əmri ilə "Baş müəllim", 1990-cı ildə "Metodist müəllim", 1994-cü ildə "Ali kateqoriyalı müəllim" adlarına layiq görülmüşdür.

O, 1990-cı ildə Bakı şəhərində keçirilən "Azərbaycanda təhsilin informatlaşdırılması istiqamətləri" mövzusunda elmi-praktiki konfransda iştirak etmiş, 2001-ci ildə isə "Təhsilin humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün təzahürüdür" mövzusuna həsr edilmiş pedaqoji mühazirənin respublika mərhələsinin iştirakçısı kimi qalib gələrək II yeri tutmuş və Təhsil Nazirliyinin diplomu ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Təhsil naziri Misir Mərdanovun 12 dekabr 2003-cü il tarixli qərarı ilə "Gənc nəslin təlim-tərbiyəsində səmərəli pedaqoji fəaliyyətinə görə" fəxri fərmanı ilə təltif edilmişdir.

1984-cü ildən şəkər xəstəliyi ilə mübarizə aparan Vaqif Abdullayev 17 noyabr 2011-ci ildə Bərdə şəhərində 57 yaşında vəfat etmiş, doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

**Alıyev Rasim Zeynalabdin oğlu** 1 iyun 1954-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1961-ci ildə doğma Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1972-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə qəbul olmuş, 1977-ci ildə həmin universiteti bitirmişdir.

1974–1976-cı illərdə sovet ordusunda həqiqi hərbi xidmətdə olmuşdur.

1977-ci ildən 1988-ci ilə qədər Daşkənd kənd orta məktəbində riyaziyyat müəllimi işləmişdir. 1988-ci ildə ailəsi ilə birlikdə doğul-

duğu kənddən deportasiya olunmuş, Gəncə şəhərində məskunlaşmışdır.

Rasim Alıyev 1989–1998-ci illərdə Gəncə şəhər M.Hadi adına 10 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, 1998–2001-ci illərdə isə Gəncə şəhər Ə.Cavad adına 2 nömrəli tam orta məktəbin direktoru işləmişdir.

1999-cu ildə Gəncə şəhərinin Nizami rayon bələdiyyəsinin üzvü seçilmiş, bələdiyyədə sosial-iqtisadi komissiyanın sədri kimi fəaliyyət göstərmişdir. Bələdiyyədə çalışdığı dövürdə ABŞ dövlət departamentinin Beynəlxalq Tədqiqatlar Təcrübə və Mübadilə şurası (İREX), yəni “Ayreks” təşkilatı tərəfindən Azərbaycanda keçirilən açıq müsabiqədə iştirak edərək qalib olmuşdur. Nəticədə 2002-ci ildə ABŞ-a ezamiyə edilərək 2 ay müddətində Filadelfiyada, Nyu-Yorkda və başqa şəhərlərdə yerli özünüidarəetmə və dövlət strukturlarında peşə təcrübə mübadiləsi keçmişdir. Filadelfiyada Azərbaycandan olan məzunlar adından Qarabağ həqiqətləri haqqında israrla məsələ qaldırdığı üçün Azərbaycandan olan məzunlar ABŞ Dövlət Departamentində qəbul edilmişlər. “Ağ Ev”də İcma əlaqələri şöbəsində yüz minlərlə hüquqları pozulmuş qaçqınların nümayəndəsi kimi “Qarabağ həqqətləri” haqqında çıxış etmişdir. Dünyanın gözü qarşısında Erməni vandalizmi nəticəsində öz dədə-baba yurdlarından qaçqın və köçkün düşən bir milyondan çox insanın hüquqlarının pozulmasına diqqəti yönəldərək ədalətin bərpası üçün haqq səsini ucaltmışdır.

Rasim müəllim paralel olaraq 2003-cü ildən 2008-ci ilədək S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının İqtisadiyyat fakültəsinin informatika və riyazi modelləşdirmə kafedrasında baş müəllim kimi fəaliyyət göstərmişdir.

Rasim Alıyev dəfələrlə Respublika əhəmiyyətli konfranslara və Azərbaycan müəllimlərinin qurultaylarına nümayəndə seçilmişdir.

Ailəlidir, dörd övladı var. Gəncə şəhərində yaşayır.

**Kərimov Vilayət Qəzənfər oğlu** 8 aprel 1956-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1973-cü ildə Yeni Daşkənd kənd orta məktəbini, 1979-cu ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu “Tikintinin iqtisadiyyatı və təşkili” ixtisası üzrə bitirmişdir.

1979–1981-ci illərdə hərbi xidmətdə olmuşdur.

1981–1985-ci illərdə Bakı Baş Tikinti İdarəsinin 28 saylı tikinti idarəsində iş içraçısı, 1985–1990-cı illərdə isə Suşa şəhərində Təhsil Nazirliyinin Suşa şəhər təsərrüfat hesablı tikinti idarəsində rəis vəzifəsində çalışmışdır.

1990–1999-cu illərdə Baş Dövlət Vergi Müfəttişliyinin Nərimanov rayon Dövlət Vergi müfəttişliyində şöbə rəisi, 1999–2009-cu illərdə Vergilər Nazirliyinin 2 və 3 saylı filiallarında bölmə rəisi, 2009–2021-ci illərdə isə həmin nazirliyin Bakı şəhər audit departamentində baş dövlət müfəttişi və şöbə rəisi vəzifələrində işləmişdir.

Hal-hazırda təqaüddədir. Bakı şəhərində yaşayır. Ailəlidir, iki övladı var.

**Hacıyev Vaqif Dünyamalı oğlu** 16 iyun 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Bir il "Yeni həyat" kolxozunda işləmişdir. 1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Yol-inşaatı fakültəsinə qəbul olmuş, 1981-ci ildə həmin institutu bitirmişdir. 1981-ci ildə təyinatla Moskva şəhərinə gedərək SSRİ Neft və Qaz Sənaye Tikinti Nazirliyinin tikinti təşkilatında işləməyə başlamışdır.

1981-ci ilin oktyabrında hərbi xidmətə çağırılmış, tank komandiri hərbi peşəsinə yiyələnmiş, 1983-cü ilin mayında leytenant rutbəsi ilə hərbi xidmətini başa vurmuşdur. Hərbi xidmətdən sonra əvvəlki işinə qayıtmışdır.

1985-ci ildə Marksizm və Leninizm Universitetinə qiyabi qəbul olmuş, 1987-ci ildə bitirərək Ali partiya təhsili sistemində ali siyasi təhsil almışdır. 1988-ci ilin yanvar ayında Tikinti Nazirliyinin komsomol təşkilatının katibi seşilmiş, komsomol təşkilatının orden və medalına layiq görülmüşdür.

1991–1995-ci illərdə Moskva vilayətinin Lyubertsı Şəhər Sovetinin Deputatı olmuşdur. Şəhər sovetinin göndərişi ilə ikinci ali təhsil almaq üçün O.E.Kutafin adına Moskva Dövlət Hüquq Akademiyasına qəbul olmuş, hüquqşünaslıq ixtisasını bitirmişdir.

Vaqif Hacıyev 2000-ci ilin oktyabr ayında vəkillər kollegiyasına üzv seçilmiş, 2002-ci ildən indiyə kimi isə Moskva Vəkillər Palatasının üzvüdür.

2018-ci ilin iyun ayında təqaüdə çıxmışdır.

1989-cu ildə Gülnaz Həmid qızı ilə ailə həyatı qurmuşdur, iki oğlu var.

**Hacıyev Zərdan Nəbi oğlu** 1 iyul 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun santexnika fakültəsinə qəbul olmuş, 1981-ci ildə həmin institutun "İstilik, qaz təhcizatı və ventilyasiya" ixtisasını bitirmişdir. 1981-ci ildə təyinatla Yevlax Zona Qaz İstehsalat Birliyinə mühəndis göndərilmişdir.

1981-ci ilin noyabr ayında həqiqi hərbi xidmətə getmiş, Amur vilayətində xidmət etmişdir. 1983-cü ilin may ayında sovet ordusu sıralarından tərxis olunmuşdur.

Hərbi xidmətdən sonra Bərdə Qaz İstismar Kontorunda mühəndis kimi fəaliyyətə başlamışdır. 4 mart 2001-ci ildən Bərdə QİK-da qəza dispetçer xidmətinin rəisi, 5 fevral 2004-cü ildən isə abonent qrup rəhbəri vəzifəsində işləmişdir.

20 oktyabr 2009-cu ildən Bərdə Qaz İstismar İdarəsində kommersiya şöbəsinin rəisi, 30 yanvar 2015-ci ildən isə Tərtər Regional Qaz İstismar İdarəsinin Bərdə rayonu üzrə Təbii qazın qəbulu və satışı xidmətinin rəisi vəzifəsində çalışır.

1985-ci ildə ailə həyatı qurmuşdur. İki oğlu, bir qızı var.

**Kərimov Sərdar Vərqa oğlu** 27 avqust 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Tikinti və yol maşınları və avadanlıqları" ixtisasına qəbul olmuş, 1981-ci ildə institutu bitirərək mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

1981–1984-cü illərdə Moskva vilayətində baş leytenant kimi hərbi xidmət keçmişdir.

1984–1986-cı illərdə təyinatla göndərildiyi Tərtər rayonundakı 18 saylı Yol Tikintisi İdarəsində baş mexanik vəzifəsində işləmişdir.

1986-cı ildən 1994-cü ilə qədər Bərdə rayonunda yerləşən 9 saylı Dəmir-Beton Məmulatları Zavodunda mühəndis, iqtisadçı və şöbə rəisi vəzifələrində çalışmışdır.

Azərbaycanda milli azadlıq hərəkatı başlayandan sonra onun liderlərindən olmuş, Bərdə rayonunda Xalq Cəbhəsinin sədri seçilmişdir. 1990-cı ildə Bərdə Rayon Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

1994–1997-ci illərdə Bakı şəhərində "Sərnişinnəqliyyat" Baş İdarəsində mühəndis vəzifəsində çalışmışdır.

Sərdar Kərimov rus və ingilis dillərində sərbəst şəkildə danışır. 2003–2007-ci illərdə Şotlandiyanın "Oil elektro" kompaniyasında texnikaların icarəsi və təmir şöbəsinin rəisi, 2008–2009-cu illərdə isə "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də yol tikintisi üzrə baş mühəndis vəzifəsində işləmişdir.

Hal-hazırda Bakı şəhərində riyaziyyat fənnindən abituriyent hazırlığı üzrə müəllim kimi çalışır.

1989-cu ildə Reyhan Nəsib qızı ilə ailə həyatı qurmuşdur. İki övladı var. 1994-cü ildən etibarən ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**Hüseynov Əli İmaməli oğlu** 10 dekabr 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1968–1978-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1978-ci ildə Bakı Rəssamlıq Məktəbinin tərtibatçı rəssam fakültəsinə qəbul olmuşdur. 1979-cu ildə Azərbaycan Televiziyasında gənc rəssam kimi Leninə aid əsərlərlə çıxış etmişdir.

1980–1982-ci illərdə Estoniyanın Tapa şəhərində hərbi xidmət keçmişdir. Xidmət zamanı 1981-ci ildə Tallin şəhərində 40 ədəd rəsmlə şəxsi sərgisi açılmışdır. Həmin vaxt "Za Rodina" qəzeti haqqında məqalə yazmış, diplom və təşəkkürnamə ilə təltif olunmuşdur.

1983–1985-ci illərdə Bərdə şəhər Mədəniyyət Evində rəssam, Maarif Evində dərnək müəllimi və "Yeni həyat" kolxozunda rəssam işləmişdir.

1986-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Rəngkarlıq fakültəsinə qəbul olmuşdur. 1987-ci ildə Azərbaycan Televiziyasında “Palitra” incəsənət verilişində əsərləri ilə çıxış etmiş və həmin ildə “Novruz” adlı sərgisi baş tutmuşdur. Sonralar o, Bakı şəhərində və SSRİ-nin bir çox respublikalarında keçirilən sərgilərdə iştirak etmişdir. Bir çox sərgi katoloqlarına onun əsərləri düşmüşdür. Zaman-zaman Rəssamlıq Yaradıcılıq Kombinatında təkliflərlə əsərlər işləmişdir.

1992-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib. Onun diplom işi 20 Yanvar hadisələrinə həsr olunub. Əli Hüseynovun həmin əsərlərindən nümunələr bu gün də Akademiyanın foyesində asılmaqdadır.

Azərbaycan müstəqillik qazanandan sonra müstəqil rəssam kimi fəaliyyət göstərmişdir. Nizami (“Torqovı”) küçəsindəki rəsm əsərlərinin satış yerində daim Əli Hüseynovun əl işlərinə rast gəlmək mümkündür.

2007-ci ildə Qazaxıstana dəvət alan rəssam burada sənət əsərləri ilə bir çox uğurlar qazanmışdır. Qazaxıstanın tarixinə, dünəninə, bu gününə aid rəsm əsərləri ilə iki dəfə şəxsi sərgisi açılmışdır. Petropavlovsk və Kustanay vilayətlərində düzənlənən hər iki sərgi geniş şəkildə televiziya vasitəsilə yayımlanmış, nüfuzlu qəzet və jurnallarda haqqında yazılar dərc olunmuşdur.

Əli Hüseynov 1987-ci ildə ailə qurub, bir oğlu, iki qızı var. Hal-hazırda Qazaxıstanın Petropavlovsk şəhərində yaşayır.

**Mədətov Əmrah Muxtar oğlu** 13 mart 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1969–1979-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1979-cu ildə Bakı Rəssamlıq Məktəbinin tərtibatçı rəssam fakültəsinə qəbul olmuş, 1981-ci ildə həmin məktəbi bitirmişdir.

1981–1983-cü illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1983–1984-cü illərdə Bərdə rayonu məktəblərarası tədris istehsalat kombinatında bədii tərtibatçı-müəllim kimi çalışmışdır.

1984-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bədii qrafika fakültəsinə qəbul olmuş, 1999-cu ildə həmin

institutu bitirmişdir. "Azərittifaq"ın reklam kombinatında rəssam işləmişdir.

1991-ci ildən Bakı şəhər 54 nömrəli tam orta məktəbdə müəlim işləyir, eyni zamanda rəssam kimi yaradıcılığını müntəzəm davam etdirir.

Əmrah Mədətov 1990-cı ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı var. Bakı şəhərində yaşayır.

**Hacıyeva İradə Xasay qızı** 25 yanvar 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində müəllim və şair Xasay Hacıyevin ailəsində anadan olmuşdur.

1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə daxil olmuş, 1980-ci ildə həmin məktəbi bitirmişdir. 1982-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-proflatika fakültəsinə qəbul olmuş, 1989-cu ildə həmin institutda ali təhsilini başa vurmuşdur.

1990–1993-cü illərdə Musa Nağıyev adına Təcilli Tibbi Yardım xəstəxanasında həkim, 1993-cü ildən 2008-ci ilədək Azərbaycan Səhiyyə Nazirliyi 1 nömrəli poliklinikasında həkim-qastroentoloq, 2008–2023-cü illərdə isə Respublika Reabilitasiya Mərkəzində həkim işləmişdir.

2023-cü ildən İzmir klinikasında həkim kimi fəaliyyət göstərir.

İradə Hacıyeva həkimliklə yanaşı, həm də poeziya vurğunudur. Şeirləri "Bir kökün budaqları" (Bakı, "Nurlan", 2006. səh.137–144) və "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008. səh.320–325) kitablarında çap olunmuş, qəzet və jurnallarda işıq üzü görmüşdür.

Ailəlidir. İki oğlu, iki qızı var.

**Əliyev Nuru Namaz oğlu** 6 dekabr 1964-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1972-ci ildə Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1982-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir. Məktəbdə oxuyarkən 1980–1982-ci illərdə Yeni Daşkənd kənd orta məktəbinin komsomol təşkilat katibi olmuşdur.

1982-ci ildə Ukrayna SSR-də yerləşən Jitomir Ali Hərbi məktəbinə daxil olmuş, 1987-ci ildə həmin məktəbi bitirdikdən sonra təyi-

natla leytenant hərbi rütbəsində Tacikistan SSR-də yerləşən, Əfqanıstana yaxın hərbi hissədə xidmətini davam etdirmişdir. 1987-ci ildən həmin hərbi hissədə dəstə komandiri, 1988-ci ildən isə rota komandiri vəzifəsində xidmətini davam etdirmişdir.

1990-cı ildə Tacikistanda Əfqanıstanın iştiraki ilə vətəndaş müharibəsi başlamışdır. Nuru Əliyevin xidmət etdiyi hərbi hissə də o döyüşlərdə iştirak etmiş, 1992-ci il iyun ayına qədər müharibənin ön cəbhəsində, rəhbərlik etdiyi rotanın əsgərləri ilə xidmətdə olmuşdur. 1992-ci ildə hərbi hissənin rəhbərliyi tərəfindən mayor rütbəsi ilə ön cəbhədə batalyon komandiri vəzifəsinə təyin olunmuşdur. Hal-hazırda müharibə veteranı statusu daşıyır.

1993-cü ildə Rusiyanın Tver şəhərindəki Marşal Jukov adına Hərbi Akademiyanın Raket və kosmik müdafiə sistemi fakültəsinə daxil olmuş, 1996-cı idə həmin akademiyanı bitirdikdən sonra təyinatla Rusiya müdafiə nazirinin əmri ilə Azərbaycandakı Qəbələ RLS-də döyüşü idarəetmə üzrə qərargah rəisinin müavini vəzifəsinə təyin olunmuşdur.

1999-cu ildə podpolkovnik (polkovnik-leytenant) rütbəsinə layiq görülmüşdür. 2002-ci ildə Rusiya müdafiə nazirinin əmri ilə yuxarı vəzifəyə – "polkovnik" kateqoriyasına (polk komandiri) layiq görülmüş və bu sistem üzrə ilk və yeganə Azərbaycanlı olmuşdur. Belə ki, Nuru Əliyev "polkovnik" vəzifəsində və rütbəsində iki ali təhsil alan və akademiya bitirən hərbçidir.

2003-cü ildə 38 yaşında Rusiya müdafiə nazirinin əmri ilə polkovnik rütbəsinə layiq görülmüş, 2005-ci ildə isə Moskva vilayətində yerləşən hərbi hissəyə briqada qərargah rəisi vəzifəsinə təyin olunmuşdur.

Nuru Əliyev 2008-ci ildə hərbi xidmətdən təqaüdə cıxmışdır. Hal-hazirda Moskva şəhərində yaşayır.

**Babayeva Firuzə Kərim qızı** 29 sentyabr 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1973–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Tibbi-texnik üzrə təhsil almış, bir müddət ixtisası üzrə işləmişdir.

Əlil Qadınlar Cəmiyyətinin Yaponya səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirilən layihədə iş icraçısı, SOROS Fondunun maliyyə

dəstəyi ilə layihədə koordinator köməkçisi, ABA CİLLİ layihədə iş icraçısı, OXFAM-da koordinator köməkçisi və başqa layihələrdə çalışmışdır.

Əlilliyin dərki, KİV-lə iş, bacarıqlarının artırılması, layihə təkliflərinin hazırlanması, idarəetmə və başqa təlimlərdə iştirak etmişdir.

2002-ci ildə Moskva şəhərində keçirilən "Perespektiva" əlil təşkilatının, 2004-cü ildə İstanbul şəhərində Türkiyə əlil təşkilatlarının konfranslarının iştirakçısı olmuşdur.

2005-ci ilin avqustunda Türkiyə əlil təşkilatlarının təşkil etdiyi təşkilatlararası təcrübə mübadiləsi çərçivəsində İstanbul, Bursa, Çorlu, İğdır şəhərlərində, 2008-ci ilin 28 noyabrında isə Gürcüstan əlil təşkilatlarının şəbəkə proqramında iştirakçı olmuşdur.

2000-ci ildən Əlil Qadınlar Cəmiyyətinin məşğulluq departamentinin sədri vəzifəsində, 2019-cu ildən isə "Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda" İctimai Birliyinin sədri olaraq fəaliyyət göstərir.

2008–2022-ci illərdə Əlil Təşkilatları İttifaqında layihələr üzrə koordinator köməkçisi işləmişdir.

**Həsənov Habil Əli oğlu** 5 fevral 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1978–1988-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində, 1989–1991-ci illərdə isə Xabarovsk diyarındakı Qırmızı bayraqlı Sakit okean dənizçilik məktəbində oxumuşdur. İdmanın ağırlıqqaldırma və boks növləri ilə məşğul olmuş, yarışlarda iştirak etmişdir. 1989-cu ildə Sakit okean dənizçilik məktəbində keçirilən ağırlıqqaldırma üzrə yarışda I yer tutmuşdur.

1991–1997-ci illərdə Kamçatka diyarında Rusiya Hərbi Dəniz Qüvvələri tərkibində Sakit okeanda xidmət etmişdir.

2001-ci ildə Moskva Dövlət Sənaye Universitetinə qəbul olmuş, 2006-cı ildə həmin universitetin hüquqşünaslıq ixtisasını bitirmişdir.

Kapitan Habil Həsənov 1997–2015-ci illərdə Federal Penitensiar Xidmətdə işləmişdir.

1989-cu ildən Xabarovsk diyarında, 1991-ci ildən isə Kamçatka diyarında yaşayır.

Kapitan Habil Həsənov 17 yanvar 2006-cı ildən Əmək veteranıdır. "1-ci dərəcəli hüquqşünas", 2-ci dərəcəli "Penitensiar xidmətdə fərqlənməyə görə", 3-cü dərəcəli "Penitensiar xidmətdə fərqlənməyə

görə", "Penitensiar sistemdə qüsursuz xidmətə görə", "10 il xidmətə görə", "15 il xidmətə görə", "20 il xidmətə görə", "Rusiyanın penitensiar sisteminin veteranı" və "Şöbənin 15 illik yubiley medalı" ilə təltif olunmuşdur.

1993-cü ildə ailə həyatı qurmuşdur. İki oğlu, bir qızı var.

**İsmayılov Seymur Rəhim oğlu** 24 iyun 1972-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Doğma kənd orta məktəbində 10-cu sinfə qədər təhsil almış və 1988-ci ildəki məlum hadisələrlə əlaqədar olaraq ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndinə köçmüşdür. 1989-cu ildə Yeni Daşkənd orta məktəbini bitirmişdir.

Atası Rəhim müəllimdən və dayısı Maksim müəllimdən riyaziyyat elmini dərindən öyrənən Seymur İsmayılov 1989-cu ildə Bərdə rayonu üzrə keçirilən riyaziyyat olimpiadasında I yer tutaraq respublika olimpiadasına vəsiqə qazanmışdır. Elə həmin ilin mart ayında həmkəndlisi Araz Hacıyevin də iştirak etdiyi respublika olimpiadasında Seymur İsmayılov II yer tutaraq (respublikada I yeri tutan olmamışdır) akademik Fərəməz Maqsudov tərəfindən diplomla təltif olunmuş, SSRİ üzrə olimpiadada Azərbaycanı təmsil etmək hüququ qazanmışdır.

1990-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun Avtomatika fakültəsinə qəbul olmuş, 1995-ci ildə Azərbaycan Neft Akademiyasının Tətbiqi-riyaziyyat ixtisasını bitirmişdir. 1995–1997-ci illərdə Taxıl Məhsulları Dövlət Şirkətində proqramlaşdırıcı vəzifəsində işləmişdir.

1997–2003-cü illərdə "Bu gün" və "Üç nöqtə" qəzetlərində dizayner işləyən Seymur İsmayılov 2003–2010-cu illərdər APA informasiya agentliyində işləmişdir. 2010–2014-cü illərdə AzTV və UnitedComputer firmasında çalışmışdır.

2014-cü ildən indiyədək Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "Agentliyin aparatı, İnformasiya resursları və proqramlaşdırma şöbəsi"ndə müdir müavini vəzifəsində çalışır.

2002-ci ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı var. Bakı şəhərində yaşayır.

**Quliyev Rövşən Vəli oğlu** 25 yanvar 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur.

1990-cı ildə Yeni Daşkənd kənd orta məktəbini bitirdikdən sonra 1990–1992-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

8 aprel 1992-ci ildən 1994-cü ilə qədər Mühüm Dövlət Obyektlərinin Mühafizəsi Alayının polis nəfəri işləmişdir.

1994-cü ildə Azərbaycan Respublikası DİN-nin Polis Akademiyasının əyani şöbəsinə qəbul olmuş, 1998-ci ildə həmin akademiyanı bitirmişdir.

11 iyul 1998-ci ildə leytenant rütbəsində təyinatla Sumqayıt şəhər polis idarəsinin cinayət axtarışı şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyin olunmuşdur. 2005-ci ilə qədər idarənin özündə, 4-cü, 2-ci və 3-cü polis bölmələrində əməliyyat müvəkkili vəzifəsində çalışmışdır. 2006-cı ilin fevral ayında 2-ci polis bölməsinin baş əməliyyat müvəkkili, həmin ilin noyabr ayında isə 2-ci bölmənin rəis müavini vəzifəsinə irəli çəkilmiş və 2008-ci ilin may ayına qədər həmin vəzifədə işləmişdir.

2010-cu ildən baş idarədə baş əməliyyat müvəkkili, 2015–2019-cu illərdə isə 1-ci polis bölməsində rəis müavini vəzifəsində çalışmışdır.

Polis polkovnik-leytenantı Rövşən Quliyev 2019–2022-ci illərdə Cəlilabad Rayon Polis Şöbəsinin 1-ci müavini, əməliyyat işi üzrə rəis müavini vəzifələrində işləmişdir.

Rövşən Quliyev 2001-ci ildə Məşhəd, 2005-ci ildə Kərbəla, 2005-ci və 2006-cı ildə isə Həcc ziyarətində olmuşdur. 2004-cü ildə doğulduğu Yeni Daşkənd kəndində öz vəsaiti hesabına məscid binası tikdirmişdir.

Hal-hazırda Sumqayıt şəhərində yaşayır.

**Alıyev Zöhrab Oruc oğlu** 27 iyun 1973-cü ildə Göycə mahalının Basarkecər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1981–1988-ci illərdə doğma Daşkənd kənd orta məktəbində oxumuşdur. 1988-ci ilin dekabr ayında ailəlikcə Azərbaycana deportasiya edilmişdir. 1990-cı ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir.

1991-ci ildə Azərbaycan Sənaye Universitetinin Neft-mexanika fakültəsinə qəbul olmuşdur. Tələbə olarkən əmək fəaliyyətinə 1994-cü ildə "Bakı metropoliteni"ndə Tunel Qurğularına xidmət üzrə 2-ci dərəcəli tunel fəhləsi kimi başlamışdır. 1996-cı ildə Azərbaycan Dövlət Neft Akademiyasının "Qaz və neft mədənlərinin maşın və avadanlığı" ixtisasını bitirmişdir.

10 yanvar 1997-ci ildə təyinatla ARDNŞ-nin "Bayıl Limanı" Dəniz Kəşfiyyatı Qazma İdarəsinə işə göndərilmişdir. İxtisası üzrə işə Günəşli yatağında 5 saylı platformada çilingər kimi başlamış, 1999-cu ildə 8 saylı platformaya mühəndis-mexanik vəzifəsinə irəli çəkilmişdir.

2004-cü ildə BP şirkəti ilə müqavilə bağlamış, şirkət tərəfindən ixtisasını təkmilləşdirmək üçün ABŞ-ın "Petrofac" şirkəti tərəfindən "Caspian Technical Training Centre" mərkəzində təlimlərə qatılmış, 2005-ci ilin aprel ayında uğurla həmin mərkəzin sertifikatını almışdır. Həmin ildən şirkətdə calışmaqla yanaşı, ixtisasını təkmilləşdirmək üçün xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər tərəfindən təşkil olunan müxtəlif kurslarda müntəzəm olaraq iştirak edərək 80-dən cox sertifikat almışdır. O cümlədən beynəlxalq nüfuzlu "British Counsil" və "LSD" tədris mərkəzlərində təhsilini davam etdirərək ingilis dilini "Advanced" səviyyədə bitirmiş və ABŞ-ın "George Washington" Universitetində distant təhsil almışdır.

Zöhrab Alıyev hal-hazırda BP şirkətində işləməklə bərabər, Beynəlxalq akkreditasiyalı "Training Consulting Service" Təlim-Tədris şirkətində təlimlər də keçir.

2014-cü və 2016-cı ildə Kərbəla, 2015-ci və 2016-cı ildə isə Məşhəd ziyarətində olmuşdur.

Ailəlidir. İki övladı var.

**İsmayılov Mərdan Rəhim oğlu** 20 iyun 1977-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Əvvəlcə doğulduğu kənddə orta təhsilə başlamış, 1994-cü ildə isə Bərdə rayonunun Yeni Daşkənd orta məktəbini bitirmişdir. 1995-ci ildə Azərbaycan Politexnik İnstitutunun "Avtomobil nəqliyyatı və istismarı" ixtisasına qəbul olmuş, 1999-cu ildə həmin ixtisası bitirmişdir.

Mərdan İsmayılov 2002–2007-ci illərdə N.Tusi adına Azərbaycan Pedaqoji Universitetinin riyaziyyat fakültəsində oxumuşdur. Oxuduğu müddətdə müxtəlif qəzetlərdə dizayner işləmişdir.

1 sentyabr 2005-ci ildən 2007-ci ilədək Binəqədi rayonu 115 №-li tam orta məktəbində çalışmış, 2007-ci ildən isə indiyə qədər Binəqədi rayonu 313 №-li tam orta məktəbində riyaziyyat müəllimi işləyir.

5–7-ci siniflərdə dərs deyəcək müəllimlər üçün kurrikulum təlimçisi, üç dərs vəsaitinin müəllifidir:

1."Ehtimal nəzəriyyəsi və riyazi statistika" metodik vəsait, 2009;

2."Nəzəri məlumat + 625 test" müəllimlər və abituriyentlər üçün vəsait, 2019;

3."Riyaziyyat və məntiq" olimpiada və fənn müsabiqələri üçün vəsait, 2019;

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Uşaq və gənclərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsi" mövzusunda keçirilən müsabiqə-konfransda qalib olmuş və "Tərifnamə" ilə təltif olunmuşdur.

4 oktyabr 2019-cu ildə "Təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsisahəsində yüksək nailiyyətlər əldə etdiyinə görə" Fəxri fərmanla təltif edilmişdir.

2009/2010-cu və 2014/2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur.

5 oktyabr 2021-ci ildə "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

## ALİMLƏR

**Kərimov Savalan Xanlar oğlu** 13 oktyabr 1941-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1949-cu ildə Daşkənd kənd orta məktəbində təhsil almağa başlamışdır. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1959-cu ildə Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1960-cı ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1965-ci ildə həmin institutun "Mühəndis mexanik" ixtisasını fərqlənmə diplomu ilə bitirərək həmin ildən institutda assistent, baş müəllim, dosent vəzifələrində işləmişdir.

"Bir quyunun iki neft layını istismar edən ştanqlı mancanaq dəzgahının mexanikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Texnika üzrə fəlsəfə doktoru, 110-dan çox çap olunmuş elmi əsərin müəllifidir. Hal-hazırda Azərbaycan Texniki Universitetinin "Maşın və mexanizmlər nəzəriyyəsi" kafedrasında dosent vəzifəsində çalışır.

Savalan Kərimov Azərbaycan Respublikasında təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli 2395 nömrəli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**Kərimov Əmirtarix Hüseyn oğlu** 8 fevral 1942-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1949-cu ildə Daşkənd kənd orta məktəbində təhsil almağa başlamışdır. 1953-cü ilin iyun ayında ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir. 1959-cu ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. Bir il "Yeni həyat" kolxozunda çalışmışdır.

1960-cı ildə Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsinə qəbul olmuş, 1965-ci lidə həmin fakültəni bitirmişdir. Təyinatla Bakıda Azərbaycan Neft-Kimya Cihazları Konstruksiya Bürosunda mühəndis işləmişdir.

1966-cı ilin sentyabrından Bərdə şəhərində 4 saylı Artezian Quyuları Qazma İdarəsində böyük mühəndis və sonra "İstehsalat texniki şöbə"nin rəisi vəzifələrində çalışmışdır. 1968-ci ilin sentyabrın-

dan Azərbaycan Politexnik İnstitutunun "Maşın mexanizmlər nəzəriyyəsi və maşın hissələri" kafedrasında assistent işləmişdir.

Əmirtarix Kərimov 1974-cü ildə Azərbaycan Politexnik İnstitutunun aspiranturasının qiyabi şöbəsinə daxil olmuşdur. 19 may 1989-cu ildə Leninqrad Politexnik İnstitutunun "Qaynaq avadanlıqları və texnologiyası" kafedrasına aid elmi şurada namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1975-ci ilin oktyabrından Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda baş müəllim, 1990-cı ildən 2022-ci ilədək isə "Metalşünaslıq və maşın mexanikası" kafedrasında dosent işləmişdir. 50-dən çox elmi məqalənin, 10 metodik vəsaitin, 2 dərs vəsaitinin, 1 dərsliyin və 2 bədii kitabın müəllifidir.

8 noyabr 1968-ci ildə Kamil İslam qızı ilə ailə həyatı qurmuş, üç övladı olmuşdur.

Hal-hazırda Bakı şəhərində yaşayır.

**Kərimov Azər Fəzi oğlu** 29 dekabr 1951-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur. 1957–1967-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1968-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olmuş, 1973-cü ildə həmin institutun "Tikintinin iqtisadiyyatı" ixtisasını fərqlənmə diplomu ilə bitirmiş, təhsil aldığı institutda müəllim vəzifəsində işləməyə başlamışdır.

1983-cü ildə texnika elmləri doktoru, professor Saleh Hüseynzadənin rəhbərliyi ilə Moskva Texnologiya Elmi Tədqiqat İnstitutunda "Tikinti işlərinin texnologiyası və təşkili məsələlərində riyazi modellərin nəzəri və praktik tətbiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

1985-ci ildə səmərəli müəllimlik fəaliyyətinə görə Ümumittifaq Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi vəzifəsinə və Moskvada elmi işinin nəticələrinin tətbiq olunması üzrə "Elm-texnika" sahəsində Azərbaycan SSR Lenin Komsomolu mükafatına layiq görülmüşdür.

Azər Kərimovun elmi işinin əhəmiyyəti xaricilərin marağını cəlb etmişdir. 1986–1988-ci illərdə SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu nəzdində iki illik fransız dili kursunu keçdikdən sonra Azərbaycan SSR Xalq Təhsili Nazirliyi və Azərbaycan SSR Xarici İşlər Nazirliyinin təqdimatı ilə müsabiqədə 20 nəfər namizəd arasında qalib gələrək pedaqoji fəaliyyətini davam etdirmək üçün Çexoslovakiyaya göndərilmişdir.

Slovakiya Texniki Universitetinin rektoru, tanınmış elm xadimi Anton Blaje onun sənədlərinin qəbul olunmasına xüsusi diqqət ayırmış, ona ayrılan vaxtın başa çatmasına baxmayaraq, Çexoslovakiya Texniki Universitetin rəhbərliyi SSRİ tərəfinə Azər Kərimovun daha bir-neçə il bu ölkədə qalması xahişi ilə müraciət etmişdir.

1995-ci ildə "İqtisadi cəhətdən əsaslandırılmış yeni texnologiyanın və əlverişli təşkilin nəzəri əsaslarının riyazi modellər əsasında hazırlanması" mövzusunu qlobal səviyyədə müdafiə edərək iddiaçısı olduğu elmlər doktoru adına layiq görülmüşdür. Elə həmin ildə də pedaqoji və elmi fəaliyyətinə, nəşr etdirdiyi kitablara, metodiki göstərişlərə görə professor elmi adını almışdır.

1998-ci ildə Azər Kərimovun səyi və rəhbərliyi nəticəsində Maraviya Texniki Universitetinin nəzdində Çex-Azərbaycan Mədəniyyət Mərkəzi yaradılmışdır. Burada çex, macar, rus, polyak, belarus, ukraynalı alimlər tədqiqat işləri aparır, elmi məqalələr yazır və problemləri birgə həll edirlər.

1990-cı ildən Çexiyanın qədim elm ocağı olan Maraviya Texniki Universitetində müəllimlik fəaliyyəti göstərir. O, Beynəlxalq Diaspor Mərkəzinin (BDM) Avropa təmsilçisidir. Maraviya Təhsil Komitəsinin rəyi ilə Çexiya dövlət təhsil müəssisələri ilə MDB dövlətlərinin universitetlərinin işini tənzimləyən koordinator-kuratordur.

Azər Kərimov 1990-cı illərdən başlayaraq Vətənimizin problemlərini, ermənilərin işğalçılıq siyasətini dünya ölkələrinin nəzərinə çatdırmaqla böyük ictimai-siyasi fəallıq göstərmişdir. Geniş elmi və ictimai-siyasi fəaliyyətlə məşğul olaraq ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır. Onun səyi nəticəsində tanınmış şərqşünas alim, çexiyalı professor İvan Meznik və professor Frantişek Çapka dəfələrlə ölkəmizdə olaraq Azərbaycan mədəniyyəti və tarixi

ilə yaxından tanış olmuş, qaçqınlarla görüşlər keçirmişdir. Avropada və dünyada Azərbaycan lobbiçiliyinin möhkəmlənməsi işində də o hərətərəfli fəaliyyət göstərmişdir.

Ailəlidir, üç oğlu var.

**Xəlilov Vidadi Heydər oğlu** 1 iyul 1952-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu yurdundan ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1959-cu ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1969-cu ildə həmin məktəbi əsasən əla qiymətlərlə bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə həmin fakültəni "Lenin" təqaüdü ilə bitirmişdir.

1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutunda əyani aspiranturaya qəbul olmuş, 1984-cü ildə namizədlik dissertasiyası müdafiə edərək Biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Uzun müddət Genetika və Seleksiya İnstitutunda müxtəlif vəzifələrdə işləmişdir.

1990-cı ildə köçürmə yolu ilə Azərbaycan Poloitexnik İnstitutunun Migəçevir filialına dəyişdirilmişdir. 1994-cü ildə yenidən AMEA-nın Genetika və Seleksiya İnstitutuna qayıtmış, burada şöbə müdiri vəzifəsində işləmişdir.

1997-ci ildə Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat mərkəzində baş elmi işçi vəzifəsinə təyin olunmuş, bir qədər sonra isə həmin mərkəzdə şöbə müdiri vəzifəsində işləməyə başlamışdır. Hazırda həmin vəzifədə çalışır.

Ailəlidir, iki övladı, dörd nəvəsi var.

**Hacıyev İlyas Tanrıverdi oğlu** 14 dekabr 1953-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində müəllim ailəsində anadan olmuşdur. 1960–1968-ci illərdə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində, 1968–1969-cu illərdə isə Bakı şəhər 1 nömrəli fizika-riyaziyyat təmayüllü internat məktəbində oxumuşdur. 1969-cu ildə Moskva Dövlət Universitetinin "Mexanika-riyaziyyat" fakültəsinə qəbul olmuşdur. Bir neçə il Moskvada oxuduqdan sonra Azərbaycan

Dövlət Universitetində təhsilini davam etdirmiş, 1977-ci ildə ali təhsilini bitirmişdir.

1977-ci ildən Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda elmi işçi və baş elmi işçi işləmişdir. 1992–1994-cü illərdə Türkiyədəki İstanbul Texniki Universitetində pedaqoji fəaliyyət göstərmişdir.

1988-ci ildə Leninqrad şəhərində namizədlik dissertasiyası müdafiə edərək Riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

İlyas Hacıyev 3 aprel 2020-ci ildə Bakı şəhərində 67 yaşında vəfat etmiş, Biləcəri qəbiristanlığında dəfn olunmuşdur.

**Musayev Telman Elbəyi oğlu** 25 dekabr 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1974-cü ildə Yeni Daşkənd kənd orta məktəbini fərqlənmə attestatı ilə bitirmiş və həmin ildə S.Ağamalıoğlu adına "Şərəf nişanı" ordenli Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, 1979-cu ildə həmin institutun "Kənd təsərrüfatının mexanikləşdirilməsi" ixtisasını "Fərqlənmə diplomu" ilə başa vurmuşdur.

1979-cu ilin oktyabrından təyinatla Stavropol diyarının Kursavka rayonunun "Zaqorski" sovxozunda mühəndis işləməyə başlamışdır. 1980–1981-ci illərdə isə Kursavka rayon Texnika Birliyində nəzarətçi mühəndis işləmişdir.

1981–1982-ci illərdə Bərdə rayonu Kökəltmə və Böyütmə Birliyində baş mexanik vəzifəsində çalışmışdır.

1982–1985-ci illərdə Moskva şəhərində Ümumittifaq Kənd Təsərrüfatının Mexanikləşdirilməsi Elmi-Tədqiqat İnstitutunun əyani aspiranturasında oxumuş, 1987-ci ilin sentyabrına qədər həmin institutda mühəndis və kiçik elmi işçi kimi çalışmışdır.

1988-ci ildə "Operativ idarəetmə sisteminin təkmilləşdirilməsi" mövzusunda işlədiyi namizədlik dissertasiyasını Kiyev şəhərində Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Telman Musayev 1988-ci ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda mühəndis-proqramçı, 1990-cı ildən həmin institutun

"Kənd təsərrüfatı müəssisələrində istehsalın təşkili" kafedrasında assistent, 1997-ci ildən isə dosent vəzifəsində çalışır.

2002-ci ildən Azərbaycan Dövlət Aqrar Universitetinin Aqrar iqtisadiyyat və menecment fakültəsində dekan müavini, 2009-cu ildən 2011-ci ilin dekabr ayına qədər isə Aqrar iqtisadiyyat fakültəsinin dekanı işləmişdir.

50-yə yaxın elmi və tədris-metodiki işin müəllifidir.

1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

2003-cü və 2009-cu illərdə ADAU-nun rəhbərliyi tərəfindən şəxsi işinə yazılmaqla təşəkkür elan edilmiş, 2010-cu ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin və 2022-ci ildə ADAU-nun "Fəxri fərman"ları ilə təltif olunmuşdur.

65 illik yubileyi ilə əlaqədar "Aqrar mütəxəssis" qəzetində Məmməd İmranoğlunun "Ziyalı ömrünün təzadları" adlı məqaləsi dərc olunmuşdur (№ 01 (1223-1224), yanvar, 2023. səh.3).

1985-ci ildə ailə həyatı qurmuşdur, üç övladı var.

**Əliyev Osman Rəhim oğlu** 2 may 1964-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1971–1981-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1982–1984-cü illərdə hərbi xidmət keçmişdir.

1985-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuş, 1990-cı ildə həmin institutu bitirmişdir.

1990–1992-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Qovlar Tədris-təcrübə Təsərrüfatında motorist və avtomobil mexaniki işləmişdir.

1992–2000-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Hərbi kafedrasında müəllim, 2000–2003-cü illərdə Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasında müəllim, 2003–2008-ci illərdə isə Maşınların istismarı, texniki servis və həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasında baş müəllim kimi pedaqoji fəaliyyət göstərmişdir.

2009-cu ildən indiyədək Azərbaycan Dövlət Aqrar Universitetinin Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasında "Mülki Müdafiə" və "Əmək mühafizəsi" fənnlərindən mühazirə və laboratoriya dərslərini aparır.

Osman Əliyev 2011-ci ildə "Tırtıllı traktorların yamaclarda işi zamanı hərəkət sisteminin dartı göstəricilərinin tədqiqi" mövzusunda dissertasiya müdafiə etmişdir.

2019-cu ildə "Kənd təsərrüfatının mexanikləşdirilməsinin texnologiya və vasitələri" ixtisası üzrə dosent elmi adını almışdır. Texnika üzrə fəlsəfə doktorudur. 50-yə yaxın məqalənin, 3 dərs vəsaitinin, 1 proqramın müəllifidir.

"Əmək təhlükəsizliyi vəziyyətinin tədqiq və proqnozlaşdırılması" mövzusunda elmi-tədqiqat işi üzərində çalışır.

Ailəlidir, iki övladı var. Gəncə şəhərində yaşayır.

**Alhəsənov Emin İsgəndər oğlu** 27 noyabr 1977-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1988-ci ildə məlum hadisələrlə əlaqədar doğma yurdundan ailəsilə birlikdə Bərdə rayonuna köçmüşdür. 1995-ci ildə Bərdə rayon Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbini əla qiymətlərlə bitirmiş, elə həmin ildə də H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun "Pedaqogika və psixologiya" ixtisasına qəbul olmuşdur. 1999-cu ildə həmin institutu bitirmişdir.

1999–2000-ci ildə həqiqi hərbi xidmətdə olmuşdur.

2000–2002-ci illərdə Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasının magistrantı olmuş, 2003-cü ildən həmin kafedrada müəllim, 2009-cu ildən isə baş müəllim işləmişdir. 2008-ci ildən Pedaqoji fakültədə tyutor vəzifəsində çalışmış, 2006-cı ildən isə həmin fakültədə fəaliyyət göstərən Elmi şuranın üzvü olmuşdur.

2002-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü olmuşdur.

Emin Alhəsənov 2 sentyabr 2013-cü ildə Gəncə şəhərində vəfat etmiş, çalışdığı Gəncə Dövlət Universitetində onunla vida mərasimi keçirilmişdir. 3 sentyabr 2013-cü ildə Bərdə şəhər qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. 2 qız övladı yadigar qalıb.

## RƏHBƏR İŞÇİLƏR

**Kərimov Sabir Xanlar oğlu** 1935-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1942–1952-ci illərdə Daşkənd kənd orta məktəbində oxumuşdur. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya edilmişdir.

1953-cü ildən sonra Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində pioner baş dəstə rəhbəri kimi ilk əmək fəaliyyətinə başlamışdır.

1954-cü ildə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə texnikumunun aqronomiya şöbəsinə qəbul olmuş, texnikumu 1956-cı ildə bitirdikdən sonra "Yeni həyat" kolxozunda baş aqronom kimi əmək fəaliyyətini davam etdirmişdir.

1960–1965-ci illərdə təhsilini Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda qiyabi yolla davam etdirmiş, 1968-ci ildə isə Mərkəzi Komitənin qərarı ilə kolxoz və sovxozlara kadr hazırlayan məktəbi bitirmişdir.

Sabir Kərimov 1970-ci ildə Bərdə rayon Kənd təsərrüfatı məhsulları üzrə dövlət müfəttişi vəzifəsinə irəli çəkilmiş, 1973-cü ildə isə Bərdə rayon Xalq Məhkəməsinin sədri təyin edilmişdir.

1976–1981-ci illərdə Bərdə Pambıqtəmizləmə zavodunun direktoru, 1978–1981-ci illərdə Bərdə rayon Kənd Kimya Birliyinin direktoru, 1981–1994-cü illərdə Bərdə rayon Baş Barama İdarəsinin müdiri, 1994–1995-ci illərdə isə Lenin ordenli "Azərbaycan" kolxozunun sədri vəzifələrində çalışmışdır.

"V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (1970), "III beşillik zərbəçisi" döş nişanı, SSRİ Tədarük Nazirliyinin Fəxri fərmanı və başqa mükafatlar ilə təltif olunmuşdur.

2009-cu ildə Məşhəd və Kərbəla ziyarətlərində olmuşdur.

10 aprel 2022-ci ildə Bakı şəhərində 87 yaşında vəfat etmiş və Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

**Hümbətov Nemət Tağı oğlu** 15 iyun 1937-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1944-cü ildə Daşkənd kənd orta məktəbinə getmişdir. 1953-cü ildə ailəsi ilə birlikdə doğma

kəndindən Bərdə rayonuna deportasiya edilmişdir. 1955-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1955-ci ildə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə qəbul olmuş, 1960-cı ildə həmin institutu əla qiymətlərlə bitirmişdir. Təyinatla Ağcabədi rayonuna göndərilmiş, 1960–1963-cü illərdə həmin rayonda müəllim işləmişdir.

1963–1970-ci illərdə Kirovabad şəhər 15 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir. 1970-ci ildə Kirovabad şəhər 40 nömrəli tam orta məktəbə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunmuşdur. 1977-ci ildə həmin məktəbin ərazisində yeni məktəb inşası ilə əlaqədar olaraq sentyabr ayından Kirovabad şəhər 3 nömrəli tam orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsini icra etmişdir.

Nemət Hümbətov 1991-ci ilin oktyabr ayında Gəncə şəhər 3 nömrəli tam orta məktəbə direktor təyin olunmuşdur. O, işlədiyi müddətdə müəllimlərin, şagirdlərin və valideynlərin hörmətini qazanmış, səmərəli pedaqoji fəaliyyətinə görə dəfələrlə Təhsil Nazirliyi tərəfindən Fəxri fərmanlarla təltif olunmuşdur.

6 iyun 2001-ci ildə Gəncə şəhərində 64 yaşında vəfat etmiş, İmamzadə qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. Üç övladı, altı nəvəsi var.

**Hacıyev Yaqub Nəsib oğlu** 3 mart 1938-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu kənddən Bərdə rayonuna deportasiya edilmişdir.

1946–1953-cü illərdə Daşkənd kənd orta məktəbində, 1953–1957-ci illərdə isə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində təhsil almışdır. 1958–1960-cı illərdə Gədəbəydə əvvəl fəhlə sonra isə usta işləmişdir.

1960–1963-cü illərdə Rusiyanın Çita şəhərində həqiqi hərbi xidmətdə olmuşdur. 1960–1961-ci illərdə hərbi rütbəsi kursant, 1961–1963-cü illərdə isə təyyarədə fotoqurğular üzrə mexanik kimi xidmət etmişdir. 1970-ci ildən hərbi rütbəsi leytenant və ehtiyatda olan hərbi zabit, 1977-ci ildən isə baş leytenant idi.

1963-cü ildə Sovet İttifaqı Kommunist Partiyasına üzvlüyə namizədliyi verilmişdir. 1963-cü ildən Həmkarlar İttifaqının üzvü, 1954–1966-cı illərdə Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının, 1971-ci ildən Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin, 1966–1990-cı illərdə isə Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur.

Yaqub Hacıyev 1963-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1968-ci ildə "İnşaat mühəndisi" ixtisası üzrə həmin institutu bitirmişdir. 1968-ci ildə təyinatla Zaqatalada 51 saylı Tikinti Quraşdırma İdarəsində iş icraçısı işləmişdir.

1969–1971-ci illərdə Bərdə kolxoz-tikinti idarəsində mühəndis, istehsalat texniki şöbəsinin rəisi, 1971–1972-ci illərdə 4 saylı Azərkənd Tikinti Trestində istehsalat texniki şöbənin rəis müavini, 1972–1974-cü illərdə 54 saylı İstehsalat Mexanikləşdirilmiş Dəstədə baş mühəndis, 1974–1978-ci illərdə Bərdə Kolxoztikinti İdarəsində baş mühəndis, iş icraçısı, 1979–1980-ci illərdə 1 saylı Tikinti İdarəsində mühəndis, 1980–1982-ci illərdə 2 saylı İstehsalat Mexanikləşdirilmiş Dəstədə mühəndis, baş mühəndis, istehsalat plan şöbəsinin rəisi, 1982–1987-ci illərdə Bərdə 11 saylı Dəmir-Beton Məmulatları Zavodunda (DBMZ) Əmək haqqı və kadrlar şöbəsinin rəisi, 1987–1995-ci illərdə isə Bərdə 9 saylı DBMZ-də istehsalat şöbəsinin rəisi, baş mühəndis vəzifələrində çalışmışdır.

1990–1993-cü illərdə Bərdədə İqtisadi Cinayətkarlığa qarşı şöbənin tikinti sahələrinin yoxlanılması üzrə əməkdaşı olmuşdur.

1996–1998-ci illərdə Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin Bərdə rayon şöbəsində aparıcı məsləhətçi, 2000-ci ildən isə "Bərdə-Xidmət" Açıq Səhmdar Cəmiyyətinin sədri işləmişdir.

30 iyun 2005-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 67 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Vəfatından sonra Yaqub Hacıyevin həyat və fəaliyyətindən bəhs edən "Elin yaddaşında yaşayan ömür" (Bakı, "Nurlan", 2006) adlı kitab çap olunmuşdur.

Yaqub Hacıyev 1970-ci ildə "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı ilə mükafatlandırılmışdır.

**Qocamanov Yaqub Böyükkişi oğlu** 20 iyun 1941-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1951-ci ilədək ailəsi ilə birlikdə Bərdə rayonunun Piyadalar kəndində yaşamışdır. Dağa-arana (köçəri) gedib-gəldikləri üçün orta təhsilə 1951-ci ildə Daşkənd kənd orta məktəbində başlamışdır. 1953-cü ilin may ayında Azərbaycana deportasiya olunduqdan sonra Bərdə rayonunun Yeni Daşkənd kənd orta mətkəbində təhsilini davam etdirmişdir. 1961-ci ildə orta məktəbi bitirdikdən sonra sovet ordusu sıralarına çağırılmışdır. 1964-cü ildə ordudan tərxis olunduqdan sonra Sumqayıt boru-prokat zavodunda işləmişdir.

1965-ci ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1970-ci ildə həmin institutu bitirdikdən sonra təyinatla "Azərittifaq"ın Yevlax avtobazasının tərkibində olan Bərdə avtokolonunda (birləşmiş Tərtər, Kəlbəcər) rəis işləmişdir.

1984–1989-cu illərdə Şəmkir SES-də təhcizat üzrə rəis müavini olmuşdur. 1991–1998-ci illərdə Azərbaycan Respublikası Dövlət Sənaye Komitəsinin Bərdə nəqliyyat idarəsində baş mühəndis vəzifəsində çalışmışdır.

1998–2018-ci illərdə Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyində texniki nəzarətçinin köməkçisi və region üzrə mərkəzi ofisin inzibatçısı vəzifəsində çalışmışdır.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Babayev Məhəmməd Sayad oğlu** 22 mart 1946-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Məhəmməd el-oba arasında Əli adı ilə daha çox tanınır. 1953-cü ildə Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1963-cü ildə həmin orta məktəbi bitirmişdir. Həmin il M.Əzizbəyov adına Neft və Kimya İnstitutuna qəbul olmuş, 1971-ci ildə məzun olmuşdur.

1967-ci ildə Bərdə 11 saylı Dəmir-Beton Məmulatları Zavodunda betonçu, iki ildən sonra isə həmin zavodda mexanik işləmişdir.

Məhəmməd Babayev 1967-ci ildə Sovet İttifaqı Komunist Partiyasının sıralarına qəbul edilmişdir. 1971-ci ildə birillik hərbi xidmət keçmişdir.

22 dekabr 1971-ci ildə Bərdə rayon 4 saylı Mexanikləşdirilmiş İdarədə sahə mexaniki vəzifəsinə təyin edilmiş, 20 ildən artıq həmin idarədə müxtəlif vəzifələrdə çalışmış, son 5 ildə isə müdir vəzifəsində işləmişdir.

Azərbaycan Sosial Təminat Nazirliyinin Bərdə məşğulluq idarəsində müdir vəzifəsində çalışmışdır. Qarabağ Sutikinti törəmə müəssisəsinin Bərdə avtonəqliyyat filialının 12 il rəisi olmuşdur.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Məmmədov Əli Abdulla oğlu** 8 iyul 1947-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Basarkeçər rayonu Daşkənd kənd orta məktəbində oxumağa başlamış, 1965-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1965-ci ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsinə qəbul olmuş, 1970-ci ildə həmin institutun “Hidroelektrostansiyalar və çay qurğularının inşaatı” şöbəsini əla qiymətlərlə bitirərək “mühəndis-hidrotexnik” ixtisası almışdır.

1970-ci ildə SSRİ Energetika Nazirliyinin “Azərenerjitikinti” Tresti Sərsəng TQİ-də mühəndis, böyük mühəndis, sahə rəisi, istehsal-texniki şöbənin rəisi, 1977–1983-cü illərdə Şəmkir SES TQİ-də istehsalat şöbəsinin rəisi, idarənin rəis müavini, 1983–1986-cı illərdə isə Yenikənd SES TQİ-nin rəisi vəzifəsində işləmişdir.

1986–1989-cu illərdə “Azərenerjitikinti” Trestində layihə-smeta şöbəsinin rəisi, 1989–1993-cü illərdə isə həmin trestin rəis müavini vəzifəsində çalışmışdır.

1993-cü ildə SSRİ–İran dövlətlərinin müştərək tikdiyi Xudafərin və Qız-Qalası hidrokompleksi layihəsinin SSRİ tərəfindən direktoru, 1997-ci ilə qədər isə “Azərenerjitikintiquraşdırma” Şirkətində vitse-prezident vəzifəsində işləmiş, İran İslam Respublikası ərazisində şirkət tərəfindən tikilən iki su qovşağı layihəsinə rəhbərlik etmişdir.

1997–2021-ci illərdə Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin direktoru vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının hərbi əməliyyatlar nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş ərazilərinin bərpası və yenidən qurulması üzrə Dövlət Komissiyasının üzvü olmuşdur.

Ümumiyyətlə o, Sərsəng SES, Şəmkir SES, Yenikənd SES, Xudafərin SES və Qız qalası SES-lərin qurucularından biri kimi şöhrət qazanmışdır.

2009-cu ildə müqəddəs Həcc ziyarətində olmuş, şərəfli Hacı adını almışdır.

Əli Məmmədov "SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi"nin Qızıl medalı (13.04.1978), "Əməkdə fərqlənməyə görə" medalı (14.10.1980), "SSRİ-nin Energetika və Elektrikləşdirmə Əlaçısı" döş nişanı (12.1980), "Şöhrət" ordeni (13.07.2017), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı (27.05.2019) ilə təltif olunmuş, "Əməkdar Mühəndis" (09.04.2010) fəxri adına layiq görülmüşdür.

Ailəlidir. Üç övladı, altı nəvəsi var.

**Namazov Qurban İbrahim oğlu** 25 oktyabr 1947-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1954-cü ildə Basarkeçər rayon Daşkənd kənd orta məktəbinin I sinfinə daxil olmuş, 1965-ci ildə Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbinin XI sinfini bitirmişdir.

1965-ci ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olmuş, 1970-ci ildə həmin institutun "Sənaye və mülki tikinti" ixtisasını əla qiymətlərlə bitirmişdir. 1970–1972-ci illərdə təyinat üzrə Yoşkar-Ola və Sevastopol şəhərlərində hərbi tikinti sahəsində mühəndis-zabit kimi xidmət etmişdir.

1972–1974-cü illərdə Mingəçevir Politexnik Texnikumunda müəllim, Azərbaycan Avtonəqliyyat Nazirliyinin Mingəçevir Tikinti İdarəsində rəis işləmişdir. 1974–1976-cı illərdə Qazaxıstanın Ağırsənayetikinti Nazirliyinin "Almaatamənziltikinti" tresti sistemində böyük mühəndis, şöbə rəisi, baş mühəndis vəzifələrində işləməklə Alma-Ata şəhərinin mühüm obyektlərinin tikintisində çalışmışdır.

1976-cı ildə valideyinlərinin Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonunun Yeni Daşkənd kəndinə yenidən köçməsi ilə əlaqədar Qurban Namazov Bərdə rayonuna qayıtmışdır.

1977–1978-ci illərdə Azərbaycan Kənd Tikinti Nazirliyinin Bərdə 4 saylı trestində şöbə rəisi, 1978–1986-cı illərdə Azərbaycan Kənd

Tikinti Nazirliyinin Nəzarət-Təftiş İdarəsində təftişçi, böyük təftişçi, 1986–1991-ci illərdə “Aqrarsənayetikinti” və “Kəndtikinti” Birliklərində Nəzarət-Təftiş İdarəsinin böyük təftişçi, rəis müavini və rəisi vəzifələrində çalışmışdır.

1982-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda mühasibat uçotu və təftiş işi üzrə əlavə təhsil almışdır.

1991–1996-cı illərdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Nəzarət-Təftiş İdarəsinin rəisi, 1997–1999-cu illərdə isə “Azəravtonəqliyyat” Dövlət Konserninin Nəzarət-Təftiş şöbəsinin rəis müavini və rəisi vəzifəsində işləmişdir. 1999-cu ildə dövlət daxili nəzarət sistemi ləğv edildikdən sonra Qurban Namazov 1999–2001-ci illərdə Konsernin Mərkəzi aparatında Mühasibat uçotu şöbəsinin rəis müavini vəzifəsində çalışmışdır. 2001–2008-ci illərdə isə “Azəravtonəqliyyat” DK-nın Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzalında Baş mühasib vəzifəsində işləmişdir.

Qurban Namazov 2008–2019-cu illərdə Azərbaycan Respublikası Hesablama Palatasında baş məsləhətçi vəzifəsində çalışmışdır. 2021-ci ildən Bakı Nəqliyyat Agentliyində ekspert işləyir.

Ailəlidir, üç oğlu, bir qızı var.

**Kərimov Sərəfruz İslam oğlu** 1948-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu kənddən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1965-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbini bitirmiş, V.İ.Lenin adına Azərbayan Dövlət Pedaqoji İnstitutuna qəbul olmuşdur. İki il ali təhsil aldıqdan sonra öz istəyi ilə institutu tərk etmişdir.

Həqiqi hərbi xidmətdən sonra Neft Texnikumunda oxumuş, iki il Bakıda Neft İdarəsində işləmişdir.

Zığ qəsəbəsində yerləşən “RAF” qarajının müdiri vəzifəsində çalışmışdır.

Sərəfruz Kərimov 17 may 2018-ci ildə Bakının Hövsan qəsəbəsində vəfat etmiş və Hövsan qəbiristanlığında dəfn edilmişdir.

Ailəli idi. Aqşin, Namiq və Tural adlı üç oğlu var.

Sərəfruz Kərimovun ortancıl oğlu, Azərbaycan Hərbi Hava Qüvvələrinin general-mayoru Namiq İslamzadə 44 günlük Vətən müharibəsində iştirak etmiş, Prezident İlham Əliyevin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

**Kərimov Zakir Qəzənfər oğlu** 23 noyabr 1949-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1953-cü ildə doğulduğu kənddən ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1956–1966-cı illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə qəbul olmuş, oxuduğu müddətdə fakültənin həmkarlar ittifaqının sədri olmuşdur. 1971-ci ildə universiteti bitirdikdən sonra Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda elmi işçi kimi ilk əmək fəaliyyətinə başlamışdır. Buradan Gürcüstanın Batumi şəhərinə əsgəri xidmətə göndərilən Zakir Kərimov kapitan rütbəsi ilə 1973-cü ildə hərbi xidmətini başa vurmuşdur. Nümunəvi xidmətlərinə görə əsgərlikdə Sovet İttifaqı Kommunist Partiyası sıralarına daxil edilmişdir.

1973-cü ildə Bərdə rayonu Zümürxaç kənd məktəbində fizika müəllimi işləmişdir.

1975-ci ildə DİN-nin Kəlbəcər rayon milis şöbəsində inspektor kimi işə başlamış, 1978-ci ildə SSRİ DİN-nin Akademiyasının qiyabi şöbəsinə daxil olmuş, elə həmin ildə də Ağdam rayon milis şöbəsinə siyasi məsələlər üzrə rəis müavini təyin olunmuşdur.

1983-cü ildə Moskva şəhərində polkovnik rütbəsi almışdır.

Zakir Kərimov 1987-ci ildə Gədəbəy rayon milis şöbəsinin rəisi təyin olunmuş, 1989-cu ilə qədər həmin vəzifədə çalışmışdır. Gədəbəydə işlədiyi müddətdə göyçəlilərin itkisiz köçürülməsində böyük fədakarlıq göstərmiş, 1988-ci ilin dekabrında Göyçəyə vertolyot göndərmişdir.

1989-cu ildə Quba rayonu milis şöbəsinə rəis təyin olunmuş, 1992-ci ilə qədər həmin vəzifədə çalışdıqdan sonra ehtiyata çıxmışdır.

2003–2013-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Neft Kəmərləri idarəsinin yanğından mühafizə, əməyin mühafizəsi və təhlükəsizlik texnikası şöbəsinin rəisi işləmişdir.

2009-cu ildə Zakir Kərimovun 60 illik yubileyi ilə əlaqədar "Bu da bir taledir" adlı kitab çap olunmuşdur.

Zakir Kərimov 1974-cü ildə ailə həyatı qurmuşdur. Üç övladı var.

2009-cu ildə Məşhəd və Kərbəla, 2019-cu ildə isə Məkkədə Ümrə ziyarətində olmuşdur.

**Hacıyev Knyaz Mehdi oğlu** 10 oktyabr 1953-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində müəllim ailəsində anadan olmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1970-ci ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olmuş, 1975-ci ildə inşaatçı mühəndis peşəsi üzrə institutu bitirmişdir. 1972–1975-ci illərdə hər il üç ay müddətində Kuybışev adına Moskva Dövlət İnşaat Mühəndisləri İnstitutunda ixtisası üzrə təcrübə kursu keçmişdir.

1976-cı ildə Sərsəng SES-in tikintisi üzrə iş icraçısı kimi əmək fəaliyyətinə başlamış, sonralar Şəmkir SES-də sahə rəisi, Yenikənd SES-də baş mühəndis, "Bakıenerjitikinti" TQİ-də baş mühəndis, Yeni Bakı İstilik Elektrik Mərkəzinin tikintisində baş mühəndis vəzifələrində çalışmışdır.

1982–1985-ci illərdə Yəmən Xalq Respublikasında tikilən "Ədən" İstilik Elektrik Stansiyasının tikintisində mexanikləşdirmə və hidrotexniki qurğuların tikintisinə rəhbərlik etmişdir.

1985–1992-ci illərdə "Bakıenerjitikinti" Tikinti Trestinin baş mühəndisi, 1992–1996-cı illərdə "Azərenerjitikintimexanizasiya" trestinin, sonradan isə "Bakıenerjitikinti" TQİ-nin rəisi işləmişdir.

1997-ci ildən "Azərenerjitikintiquraşdırma" Dövlət Şirkətinin vitse-prezidenti işləmişdir. 17 sentyabr 1998-ci ildə "Azərenerjitikintiquraşdırma" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü təyin edilmiş, 1998–2008-ci illərdə "Azərenerjitikintiquraşdırma" Səhmdar Cəmiyyətinin sədr müavini, l-ci müavin, sədr əvəzi vəzifələrində çalışmışdır. 2003–2007-ci illərdə cəmiyyət sədrinin xəstəliyi ilə əlaqədar fasilələrlə uzun müddət sədr vəzifəsini icra etmişdir.

1 avqust 2008-ci ildən "Bakıenerjitikinti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri seçilmiş, vəfat edənə qədər həmin vəzifədə çalışmışdır.

Knyaz Hacıyev "Tərəqqi" medalı (10.04.2012) ilə təltif edilmiş, "Əməkdar Mühəndis" (10.04.2014) fəxri adı verilmişdir.

Koronavirus səbəbindən 25 aprel 2021-ci ildə Türkiyədə 68 yaşında vəfat etmiş, Bakının Məhəmmədi qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. Üç övladı, altı nəvəsi var.

**Abbasov Əvəz Aslan oğlu** 5 iyul 1954-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1961–1971-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

Əvəz Abbasov 20 ildən çox Şamaxı rayonu Yol Patrul İdarəsinin rəisi işləmişdir.

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsində polis polkovnik-leytenantı rütbəsində çalışmışdır.

9 noyabr 2019-cu ildə Şamaxı rayonunun Çuxuryurd kəndində vəfat etmiş, Mədrəsə kənd qəbiristanlığında dəfn olunmuşdur.

Rübabə Qaçay qızı ilə ailə həyatı qurmuşdu. Beş övladı var.

**Musayev Firudun Novruz oğlu** 4 yanvar 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1963–1973-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1974-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna qəbul olmuş, 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. Təyinatla Bərdə Maşın Meliorasiya Stansiyasına göndərilmiş, mühəndis vəzifəsində işləməyə başlamışdır.

1979–1980-ci illərdə sovet ordusu sıralarında hərbi xidmət keçmişdir.

Hərbi xidmətdən sonra, 1980–1981-ci illərdə yenə də Bərdə Maşın Meliorasiya Stansiyasında, 1981–1982-ci illərdə isə 4 saylı "Azərkənd" Tikinti Trestində mühəndis işləmişdir.

1982–1991-ci illərdə 45 saylı, 1991–1993-cü illərdə isə 101 saylı Səyyar Mexanikləşdirilmiş Dəstədə texniki istehsalat şöbənin rəisi vəzifələrində çalışmışdır.

1993-cü ildən indiyə qədər "Fərid-İnşaat" firmasının baş mühəndisidir.

Ailəlidir, üç övladı var.

**Hacıyev Əli Tanrıverdi oğlu** 10 may 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1964–1974-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1974–1979-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat, 1987–1993-cü illərdə isə həmin universitetin hüquq fakültəsində ali təhsil almışdır.

1979-cu ildə Bərdə şəhər 2 nömrəli rus və 6 nömrəli orta məktəblərində, 1980–1983-cü illərdə isə Yeni Daşkənd kənd orta məktəbində riyaziyyat fənnini tədris etməklə müəllim vəzifəsində çalışmışdır.

1983–1994-cü illərdə Ağdaş rayon Milis şöbəsində yetkinlik yaşına çatmamışlar üzrə baş inspektor, yetkinlik yaşına çatmamışlarla iş aparan müfəttişliyin rəisi, Cinayət Axtarış Bölməsinin rəisi vəzifələrində işləmişdir. Həmin müddətdə Ağdaş rayon hüquq-mühafizə orqanları üzrə ilk partiya təşkilat katibi, rayon və şəhər sovetinin deputatı olmuşdur.

1994-cü ildə Azərbaycan Daxili İşlər Nazirliyi Şəxsi heyət üzrə Xüsusi İdarəsində xüsusilə mühüm işlər üzrə baş inspektor, həmin idarənin əməliyyat rejim şöbəsinin rəisi, 1998–1999-cu illərdə Mingəçevir şəhər Polis İdarəsinin əməliyat işləri üzrə rəis müavini, 2000–2004-cü illərdə Daxili İşlər Nazirliyinin Daxili Tədqiqatlar İdarəsində şöbə rəisi, 2004–2008-ci illərdə Avropa Şurası yanında Daxili İşlər Nazirliyinin insan hüquqları üzrə koordinatoru, 2008–2015-ci illərdə Bakı şəhər Baş Polis İdarəsində Təşkilati İnspeksiya İdarəsinin rəisi vəzifəsində, həmin il Nəqliyyatda Baş Polis İdarəsində şəxsi heyət üzrə baş köməkçi, Daxili İşlər Nazirliyinin Hüquqi təminat şöbəsinin rəisi, Daxili Tədqiqatlar İdarəsi rəisinin vəzifəsini müvəqqəti icra etmiş və 2017-ci ilin iyun ayının 1-dək həmin idarənin rəis müavini vəzifəsində işləmişdir.

1 iyun 2017-ci ildə polis orqanlarında xidmətdə olmanın son yaş həddinə çatması ilə əlaqədar təqaüdə çıxmış və həmin tarixdən indiyə kimi İqtisadiyyat Nazirliyi sistemində işləyir.

Birinci Qarabağ müharibəsi zamanı Şuşada fəaliyyət göstərən əməliyyat-istintaq qrupunun üzvü kimi Daşaltıda, Hadrutda, Ağdə-

rədə və başqa yerlərdə əməliyyatların hazırlanmasında iştirak etmişdir.

Birinci Qarabağ müharibəsi veteranıdır.

2005-ci ildə Azərbaycan Prezidentinin sərancamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Əli Hacıyev 1978-ci ilin oktyabrında ailə həyatı qurmuşdur. Üç oğlu, üç nəvəsi var.

**Əliyeva Abutac Tapdıq qızı** 12 iyun 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində müəllim ailəsində anadan olmuşdur. 1964–1974-cü illərdə Bərdə rayon Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1976-cı ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1982-ci ildə həmin institutun Axşam şöbəsini "Avtomatik elektrik rabitəsi" ixtisası üzrə bitirmişdir.

1974-cü ildən Bərdə rayon "Yeni həyat" kolxozunda kolxozçu, 1976-cı ildən V.İ.Lenin adına Bakı Toxuculuq kombinatında sarıyıcı, 1977-ci ildən Bakı şəhər 92 №-li ATS-də elektrik montyoru, 1979-cu ildən Bakı şəhər XRM-da elektrik montyoru, 1982-ci ildən Bərdə rayon "Yeni həyat" kolxozunda azad partiya komitəsinin katibi, 1988-ci ildən Bərdə Çörək zavodunda mühəndis, 1989-cu ildən Bərdə rayon "Poçtamt"ında iqtisadçı, normallaşdırıcı mühəndis, əməliyyatçı vəzifələrində, 1993-cü ildən Bərdə rayon "Poçtamt"ının 1 saylı poçt şöbəsində rəis olmuşdur.

1998-ci ildən Azərbaycan Rabitə Nazirliyinin Bakı şəhər Yasamal, Qaradağ, Binəqədi "Poçtamt"larının səlahiyyətli nümayəndəsi işləmişdir.

2001-ci ildən Bakı şəhər "Azərpoçt" DM-nin Sabunçu "Poçtamt"ının rəisi, 2002–2012-ci illərdə "Azərpoçt" MMC-nin 1, 2 və 3 saylı poçt filiallarının rəis müavini, 2012–2013-cü illərdə Abşeron poçt filialının poçt əməliyyatları şöbəsinin rəisi, 2014–2017-ci illərdə 6 saylı poçt filialının rəis müavini, 2017-ci ildən indiyə qədər isə Abşeron poçt filialının mühəndisi vəzifəsində çalışır.

1980-ci ildə Bərdə rayonu Yeni Daşkənd Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

2002-ci ildə "XX əsr Azərbaycan qadınları" ensiklopediyasının 72-ci səhifəsində A.Əliyevanın həyat və fəaliyyəti haqqında üç dildə məlumat verilmişdir.

Abutac Əliyeva Azərbaycan Rabitə Nazirliyinin "Rabitə ustası" fəxri adına layiq görülmüş, Fəxri fərmanlar ilə təltif olunmuşdur.

1984-cü ildə ailə həyatı qurmuşdur. İki övladı var.

**Süleymanov Rəşid Salman oğlu** 15 iyun 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1967–1977-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olmuş, 1982-ci ildə həmin institutun sənaye və mülki tikinti ixtisasını bitirmişdir.

İnstitutu bitirdikdən sonra təyinatla Bərdə 4 saylı trestində işləməyə başlamış, 1982–1983-cü illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən işlədiyi trestə qayıtmış, sonralar 44 saylı Bərdə Səyyar Mexanikləşdirilmiş Dəstədə 1990-cı ilədək müxtəlif vəzifələrdə işləmişdir.

1990–2000-ci illərdə Bərdə rayon İcra Hakimiyyətində çalışmışdır. 2000-ci ilin əvvəlində bələdiyyələr yarananda bələdiyyədə işləməyə başlamış, 2006-cı ilədək bu idarəetmə orqanında fəaliyyət göstərmişdir.

2001–2011-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin (Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi) Bərdə rayon şöbəsində məsləhətçi vəzifəsində işləmişdir.

2011-ci ildə Bərdə Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri, baş memarı təyin olunmuş, 2017-ci ilə qədər bu vəzifədə çalışmışdır. Bərdədə aparılan tikinti-quraşdırma işləri onun layihələri əsasında həyata vəsiqə almış, Bərdə şəhərinin abadlaşdırılmasında yaxından iştirak etmişdir.

Rəşid Süleymanov olduqca sakit təbiətli, geniş dünyagörüşlü, dərin savadlı bir insandır. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır və "Cənnət bağı" istirahət mərkəzinin rəhbəridir.

**Hacıyev Emil Tanrıverdi oğlu** 14 oktyabr 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində müəllim ailəsində anadan olmuşdur. 1967–1977-ci illərdə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1978-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olmuş, 1983-cü ildə həmin institutun Hidromeliorasiya fakültəsini bitirmişdir.

Təyinatla 5 avqust 1983-cü il tarixdən Şəmkir SES-in mexanizasiya idarəsində usta kimi fəaliyyətə başlamışdır.

1983–1985-ci illərdə hərbi xidmətdə olmuşdur.

1 oktyabr 1985-ci il tarixdən Yenikənd SES-in tikintisində sahə rəisi, rəis müavini vəzifələrində çalışmışdır.

24 may 1986-cı ildən Bərdə rayonunda yerləşən 9 saylı Dəmir-Beton Məmulatları Zavodunda sex rəisi, 23 oktyabr 1989-cu ildən isə Bərdə Rayon İstehlak Cəmiyyətində tikinti üzrə müavin vəzifəsində işləmişdir.

1 fevral 1995-ci ildən Şəmkir SES-də rəis müavini olmuşdur.

1999–2005-ci illərdə Avropa Birliyi Fövqəladə Yardım Proqramının (Aİ-EKSAP) Azərbaycana Fövqəladə Yardım Proqramında layihə mühəndisi, 2006–2011-ci illərdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Tərtər Suvarma Sistemləri İdarəsində rəis, 2012–2019-cu illərdə isə "Azəraqrartikinti" ASC-də idarə rəisi vəzifələrində çalışmışdır.

Emil Hacıyev 2019-cu ildən indiyədək Tərtərçay Hidroqovşağı İstismar İdarəsində rəis vəzifəsində işləyir.

**Həsənov Yaşar Ağaməli oğlu** 7 noyabr 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində oxumuş, 1979–1980-ci illərdə həmin məktəbin komsomol təşkilat katibi olmuşdur. 1980–1986-cı illərdə M.İ.Kalinin adına Leninqrad Politexnik İnstitutunda ali təhsil almışdır.

1986–1997-ci illərdə "Azneftkimyamaş" EİB-nin Keşlə Maşınqayırma zavodunda sahə rəisi, sex rəisi, direktor müavini vəzifələrində çalışmışdır.

Yaşar Həsənov 1997–2002-ci illərdə 7 saylı Podşipnik zavodunda baş mühəndis, direktor, 2002–2013-cü illərdə "Azenco" ASC-də sex

rəisi, departament rəisinin müavini, 2013–2020-ci illərdə isə STP MM-də sex rəisi, departament rəisinin müavini vəzifələrində fəaliyyət göstərmişdir.

2020-ci ildən indiyədək “Azərsu” ASC-nin “Bakı Sukanal” İdarəsində baş mexanikin müavini vəzifəsində işləyir.

Ailəlidir. İki oğlu, iki qızı var.

**Bayramquliyev İlham Murtuz oğlu** 4 yanvar 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1980-ci ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun “Mexanika” fakültəsinə daxil olmuş, 1985-ci ildə institutu bitirmişdir. 1982-ci ildə ali məktəblər arasında “Materiallar müqaviməti” fənni üzrə keçirilən Respublika Olimpiadasında II yeri tutaraq mükafatlandırılmışdır.

Təyinatla “Soyuzneftemaş” İB (indiki “Azneftkimyamaş” ASC) Y.Qasımov adına (indiki Sabunçu EİB TASC) zavoduna göndərilmiş, orada sex ustası kimi ilk əmək fəaliyyətinə başlamışdır. 1987–1989-cu illərdə həmin müəssisədə Baş konstruktor şöbəsinə hərbi sifarişlər üzrə sektor rəhbəri vəzifəsinə irəli çəkilmişdir. 1989–1991-ci illərdə isə müəssisənin Komplektləşdirmə şöbəsinə rəis təyin olunmuşdur. 1991–2011-ci illərdə Sabunçu EİB-nin nəqliyyat sahəsinin rəisi vəzifəsində işləmişdir.

2011-ci ilin oktyabr ayından hal-hazıra qədər “Təmiz Şəhər” ASC-nin Balaxanı Qarajında Baş mexanik vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var.

**Qocamanov Yavər Qocaman oğlu** 1 avqust 1963-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Daşkənd kənd orta məktəbində oxumuşdur. 1980-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olmuş, 1985-ci ildə institutu bitirmişdir.

1986–1987-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 1985–1986-cı və 1987–1997-ci illərdə Gəncə şəhərində geodeziya mühəndisi işləmişdir.

1988-ci ildə valideynləri Göyçə mahalından məcburi köçkün düşərək Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışlar. 1997-ci ildə Dövlət Torpaq Komitəsinin Bərdə Rayonlararası Yerquruluşu idarəsində işləməyə başlamışdır. 2006–2015-ci illərdə həmin idarədə sahə rəisi və müdir əvəzi işləmişdir.

2015–2018-ci illərdə Əmlak Komitəsinin Bərdə Rayonlararası idarəsində (Bərdə LTİ) idarə rəisi, 2018–2021-ci illərdə isə sahə rəisi vəzifəsində işləmişdir. 2021-ci ildən hal-hazıra qədər isə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 7 saylı Bərdə Ərazi İdarəsinin Yerquruluşunun Təşkili şöbəsinin müdiri vəzifəsində çalışır.

Yavər Qocamanov da digər göyçəlilər kimi poeziya vurğunudur, özünün də yaradıcılığı vardır. 2007-ci ildə atasının şeirlərini redaktə etmiş, "Göyçə mahalında Daşkənd elində" adlı kitabı çap etdirmişdir.

1988-ci ildə Göyçə mahalından köç ediləndən sonra Daşkənd kəndinin tarixi yer-yurd adlarının itməməsi üçün xəritələr tərtib etmiş, bəzi kitablarda kəndin coğrafi relyefi, yerləşdiyi ərazilər barədə məqalələr çap etdirmişdir.

1991-ci ildə ailə həyatı qurmuşdur. Dörd övladı, yeddi nəvəsi var.

**Kərimov Pənah Sabir oğlu** 5 oktyabr 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1974–1984-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1984-cü ildə Sankt-Peterburq Dəmir Yolu Mühəndislik Universitetinin Daşınma proseslərinin idarə olunması fakültəsinə qəbul olmuşdur. 1985–1987-ci illərdə həqiqi hərbi xidmətdə olduqdan sonra təhsilini davam etdirmiş, 1991-ci ildə ali təhsilini mühəndis ixtisası üzrə bitirmişdir.

1991–1993-cü illərdə Azərbaycan Dövlət Dəmir Yolunun Keşlə stansiyasında, 1993–1994-cü illərdə Xırdalan stansiyasında, 1994–1998-ci illərdə Bakı Hissəsinin Daşınma şöbəsində müxtəlif vəzifələrdə çalışmışdır.

1998–2001-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi Daşınma proseslərinin idarəetmə Birliyi Nəzarət təftiş şöbəsinin rəis müavini, 2001–2007-ci illərdə Əməli Sərəncam şöbəsinin rəis müavini, 2007–2010-cu illərdə isə həmin şöbənin rəisi işləmişdir.

Pənah Kərimov 2010–2012-ci illərdə Azərbaycan Dəmir Yolları QSC-nin Yükdaşıma departamentinin hərəkətin təşkili və idarə edilməsi bölməsinin rəisi, 2012–2017-ci illərdə Daşıma şöbəsinin rəisi, 2017–2019-cu illərdə isə hərəkət xidmətinin rəisi vəzifələrində çalışmışdır.

2019-cu ilin iyul ayından hal-hazıradək Azərbaycan Dəmir Yolları QSC-də Hərəkətin Təhlükəsizliyi İdarəsinin rəisidir.

Pənah Kərimov Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafındakı xidmətlərinə görə "Fəxri dəmiryolçu" döş nişanı, "Azərbaycan Dəmir Yollarının 140 illiyi" medalı ilə təltif olunmuşdur. 12 oktyabr 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Kərimov Pənah Sabir oğluna "Əməkdar mühəndis" fəxri adı verilmişdir.

P.Kərimov 1992-ci ildə baş verən Xocalı soyqırımından sonra könüllü olaraq Birinci Qarabağ müharibəsində iştirak etmiş, Şuşa rayonunun Şırlan kəndi uğrunda gedən döyüşdə yaralanmışdır.

Ailəlidir, iki övladı var.

**Kərimov Vüqar Qiyas oğlu** 4 mart 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1974–1984-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuş, 1983–1984-cü illərdə həmin məktəbin komsomol təşkilat katibi olmuşdur. 1984-cü ildə Bakı şəhər 82 saylı orta texniki iqtisad məktəbinə daxil olmuş, həmin məktəbi fərqlənmə diplomu ilə başa vurmuşdur. 1985-ci ildə V.V.Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunun Mühəndis-mexanika fakültəsinə qəbul olaraq, 1992-ci ildə həmin institutu da fərqlənmə diplomu ilə bitirmişdir.

Vüqar Kərimov instituta qəbul olduqdan sonra, 1985–1987-ci illərdə Rostov şəhərində sovet ordusu sıralarında hərbi hava qüvvələri hissəsində xidmət etmişdir.

1992-ci ildən Bərdə rayonunda atası Qiyas Kərimovun müstəqillikdən sonra təsis etdiyi "Göyçə" Kiçik Müəssisəsinin direktoru işləməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur.

Vüqar Kərimov 2000-ci ilin mart ayında Bakı şəhərinə gələrək yeni təsis olunmuş Dövlət Əmlakı Nazirliyində 2007-ci ilə qədər orta

və iri müəssisələrin özəlləşdirilməsi departamentində müxtəlif vəzifələrdə çalışmışdır.

2007-ci ildə "Bakı Çinar Soyuducuları" ASC-nin İdarə heyətinin sədr müavini seçilmiş və 2013–2020-ci illərdə sədr vəzifəsini icra etmişdir.

2020-ci ildən "Bakı Elektriktökmə" ASC-nin İdarə Heyətinin sədri seçilmişdir. Hal-hazıradək həmin vəzifədə işləyir. Eyni zamanda "Bakı Çinar Soyuducuları" ASC, "Yeni BEMZ" ASC, "Azərşin" ASC, "Məişət Maşınları" ASC-də Direktorlar Şurasının üzvüdür.

Ailəlidir. Bir oğlu, bir qızı var.

**Piriyev Rəşid Əli oğlu** 25 yanvar 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1978–1988-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1993–1995-ci illərdə DİN-in Polis Akademiyasının nəzdində Xüsusi Orta Polis məktəbində, 2006–2009-cu illərdə isə DİN-in Polis Akademiyasında hüquqşünas ixtisası üzrə ali təhsil almışdır.

19 may 1989-cu ildən 31 may 1991-ci ilədək İrkutsk vilayətinin Anqarsk şəhərində sovet ordusu sıralarında hava hücumundan müdafiə qoşunlarında həqiqi hərbi xidmət keçmişdir.

Rəşid Piriyev 1991–1992-ci illərdə könüllü olaraq milli ordu sıralarında Qarabağ döyüşlərində iştirak etmişdir. 1992–1993-cü illərdə isə Ağdərə Rayon Polis şöbəsinin baş çavuşu kimi ən qaynar nöqtələrdə döyüşmüşdür. Ağdam, Ağdərə, Ağcakənd, Kəlbəcər cəbhələrində, xüsusilə Ağdərə rayonunun bir çox kəndlərində gedən qanlı döyüşlərin iştirakçısı olmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

Rəşid Piriyev 1995–2001-ci illərdə Ağdam Rayon Polis Şöbəsinin polis sahə inspektoru, 2001–2005-ci illərdə Bərdə RPŞ-nin Cinayət Axtarışı bölməsində axtarış üzrə əməliyyat müvəkkili, 2005–2006-cı illərdə Balakən RPŞ-nin Cinayət Axtarışı bölməsində əməliyyat müvəkkili, 2006–2007-ci illərdə Balakən RPŞ-nin Cinayət Axtarışı bölməsinin rəisi, 2007–2009-cu illərdə Cəlilabad RPŞ-nin Cinayət Axtarışı bölməsinin rəisi, 2009–2011-ci illərdə Astara RPŞ-nin Qeydiyyat və şəxsiyyət vəsiqəsi bölməsinin rəisi, 2011–2012-ci illərdə Salyan RPŞ-nin Təhqiqat qrupunun təhqiqatçısı, 2012–2013-cü

illərdə Sabirabad RPŞ-nin Cinayət Axtarışı bölməsində axtarış üzrə əməliyyat müvəkkili və axtarış üzrə baş əməliyyat müvəkkili, 2013–2016-cı illərdə Gəncə şəhəri Nizami RPİ-nin Cinayət Axtarışı bölməsinin bölmə rəisi, 2016–2018-ci illərdə Şirvan ŞPŞ-nin Cinayət Axtarışı bölməsinin bölmə rəisi və xidmət üzrə rəis müavini, 2018–2019-cu illərdə isə Beyləqan RPŞ-nin rəisi kimi məsul vəzifələrdə çalışmışdır.

18 oktyabr 2019-cu ildən Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin rəis müavini, 7 yanvar 2020-ci ildən rəis vəzifəsini müvəqqəti icra edən, 15 yanvar 2020-ci ildən isə idarə rəisi vəzifəsində işləyir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə polis polkovnik-leytenantı Piriyev Rəşid Əli oğlu “İgidliyə görə” medalı (29.06.2019) ilə təltif olunmuşdur.

EL TV “Əsgər” verilişinin 2017-ci il tarixli “Döyüş yolu” rubrikasında Rəşid Piriyevin həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Rəşid Piriyevin kiçik qardaşı Rəşadət Piriyev Birinci Qarabağ müharibəsində şəhid olmuşdur.

**İslamzadə Namiq Sərəfruz oğlu** 7 may 1974-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1981–1988-ci illərdə Bakı şəhəri Hövsan qəsəbəsindəki 76 nömrəli orta məktəbində, 1988–1991-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi liseydə oxumuşdur. 1991-ci illərdə Minsk Ali Hərbi Siyasi Ümumqoşun məktəbinə qəbul olmuş, 1992-ci ilin aprel ayına qədər həmin məktəbdə təhsil almışdır. SSRİ dağıldıqdan sonra Azərbaycana qayıtmış, 1992-ci ilin sentyabr ayına qədər Bakı Ali Hərbi Birləşmiş Komandanlıq məktəbində təhsil almışdır. 1992-ci ilin sentyabr ayında təhsilini davam etdirmək üçün Türkiyə Respublikasının Ali Hərbi Təyyarəçilik Məktəbinə göndərilmiş və 1996-cı ildə həmin məktəbdən təyyarəçi ixtisası üzrə məzun olmuşdur.

Namiq İslamzadə 1996–2019-cu illərdə təyyarəçi kimi Azərbaycan Ordusunun “N” saylı hərbi hissəsində hərbi hissə komandiri vəzifəsinə qədər müxtəlif vəzifələrdə xidmət etmişdir. 2019–2021-ci

illər ərzində Hərbi Hava Qüvvələri komandanının aviasiya üzrə müavini – Aviasiya rəisi vəzifəsində xidmət etmiş və 2021-ci ilin sentyabr ayında Hərbi Hava Qüvvələri komandanın müavini – Hava Döyüş komandiri vəzifəsinə təyin olunmuşdur.

Namiq İslamzadəyə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2020-ci il tarixli sərəncamına əsasən general-mayor ali hərbi rütbəsi verilmişdir.

General-mayor Namiq İslamzadə 1992-ci ilin may ayında Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə və 44 günlük Vətən müharibəsində iştirak etmişdir. Müharibə veteranıdır. Vətən müharibəsi zamanı Hərbi Hava Qüvvələri komandanının aviasiya üzrə müavini – Aviasiya rəisi vəzifəsində döyüş əməliyyatlarının idarə edilməsində aktiv iştirak etməsinə baxmayaraq, bir təyyarəçi kimi də düşmənin yerüstü hədəflərinin məhv edilməsi məqsədilə Xocavənd, Ağdərə, Füzuli və Ağdam istiqamətində Su-25 hücumçu döyüş təyyarəsi ilə 14 döyüş uçuşu yerinə yetirmişdir.

General-mayor Namiq İslamzadə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)" yubiley medalı, "Hərbi xidmətlərə görə" medalı (24.06.2005), 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan bayrağı" ordeni (25.06.2008), 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" yubiley medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı, 2-ci dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı, 1-ci dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı, "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı, "Vətən uğrunda" medalı (25.06.2020), "Füzulinin azad olunmasına görə" medalı (25.12.2020), "Xocavəndin azad olunmasına görə" medalı (25.12.2020) və "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

General-mayor Namiq İslamzadə keçirilən bütün hərbi paradlarda Azərbaycan Respublikanın atributlarından olan üç rəngli şanlı bayrağımızın müstəqil Azərbaycanın səmasında dalğalanmasında iştirak etmişdir.

İngilis və rus dillərini bilir. Ailəlidir, üç övladı var.

**Quliyev Asəf Vaqif oğlu** 20 avqust 1975-ci ildə Kəlbəcər rayonunun İstisu kəndində anadan olmuşdur. 1982-ci ildə orta təhsil almağa başlamışdır. 1992-ci ildə Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki 181 nömrəli tam orta məktəbini bitirmişdir.

1993-cü ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin Sərhəd Qoşunları fakültəsinə daxil olmuş, 1997-ci ildə həmin məktəbi Komando Taktiki Sərhəd Qoşunları Komandiri ixtisası üzrə başa vurmuşdur.

1997–2007-ci illərdə Naxçıvan Muxtar Respublikasında Sərhəd Qoşunlarının Sərhəd Dəstəsində zabit qismində müxtəlif vəzifələrdə, 2007–2008-ci illərdə isə Naxçıvan Muxtar Respublikasında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi hissə komandiri vəzifəsində xidmət etmişdir.

2008–2015-ci illərdə Naxçıvan Sərhəd Diviziyasının komandiri işləmişdir. Ali Baş Komandan tərəfindən 2011-ci ildə general-mayor ali hərbi rütbəsi verilmişdir.

17 avqust 2015-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini – Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının komandiri vəzifəsinə təyin edilmiş, 18 dekabr 2018-ci ilə qədər həmin vəzifədə xidmət göstərmişdir.

General-mayor Asəf Quliyev "Hərbi xidmətlərə görə" (18.08.2008), "Vətən uğrunda" (14.08.2009), "İgidliyə görə" (14.08.2010) medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" (17.08.2015) ordeni ilə təltif olunmuşdur.

**Hacıyev Eldəniz Yaqub oğlu** 14 yanvar 1976-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1982-ci ildə Yeni Daşkənd kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş, 1993-cü ildə həmin məktəbi bitirmişdir. 1998-ci ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "Tikintinin iqtisadiyyatı və idarə edilməsi" ixtisasını bitirərək iqtisadçı-mühəndis ixtisası almışdır.

Əmək fəaliyyətinə 2 sentyabr 1998-ci ildən Bərdə 4 saylı Sənaye Kombinatında mühasib köməkçisi kimi başlamış, sonradan həmin müəssisədə iqtisadçı vəzifəsində işləmişdir. 1 sentyabr 1999-cu ildən Bərdə 11 saylı Dəmir-Beton Məmulatları Zavodunda iş ustası kimi çalışmışdır.

Eldəniz Hacıyev 10 iyul 2000-ci ildən Dövlət Əmlakı Nazirliyinin Bərdə rayon şöbəsinə mütəxəssis vəzifəsinə qəbul olunmuş, sonradan İqtisadi İnkişaf Nazirliyinin Bərdə rayon şöbəsində mütəxəssis, aparıcı mütəxəssis vəzifələrində işləmişdir. 13 yanvar 2006-cı ildən Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin Bərdə rayon şöbəsində baş məsləhətçi, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin 18 saylı (Bərdə) ərazi şöbəsində aparıcı məsləhətçi, baş məsləhətçi, ərazi şöbəsinin müdiri vəzifəsinin icraçısı vəzifələrində işləmişdir.

8 fevral 2010-cu ildən Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin 18 saylı (Bərdə) ərazi şöbəsinin müdiri, 1 avqust 2011-ci ildən həmin komitənin 10 saylı (Ucar) ərazi şöbəsinin müdiri, 1 avqust 2013-cü ildən Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 15 saylı Tovuz Ərazi İdarəsinin rəisi, 6 aprel 2016-cı ildən 17 saylı Yevlax Ərazi İdarəsinin rəisi, 2 iyul 2017-ci ildən 12 saylı Şəki Ərazi İdarəsinin rəisi və 26 fevral 2019-cu ildən isə 5 saylı Xaçmaz Ərazi İdarəsinin rəisi işləmişdir.

17 iyul 2021-ci ildən indiyədək İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 17 saylı Yevlax Ərazi İdarəsinin rəisi vəzifəsində işləyir. 21 noyabr 2022-ci ildən, həmçinin 7 saylı Bərdə Ərazi İdarəsinin rəisi vəzifəsini də icra edir.

Eldəniz Hacıyev 2008-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu, iki qızı var. Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

## İŞ ADAMLARI

**Xəlilov İlham Əli oğlu** 1 iyul 1957-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kənd orta məktəbində VIII sinfə qədər oxuduqdan sonra təhsilini Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində davam etdirmiş, 1974-cü ildə həmin məktəbi bitirmişdir. 1974-cü ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olmuş, 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. 1977–1979-cu illərdə Gürcüstanın Tbilisi şəhərində hərbi xidmətdə olmuşdur.

İlham Xəlilov institutu bitirdikdən sonra Azərbaycan Dövlət Üzümçülük və Şərabçılıq Komitəsində, daha sonra isə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində işləmişdir. 2000-ci ildə "Rimlis" şirkətini qurmuşdur. Hal-hazırda həmin şirkətin prezidentidir.

İlham Xəlilov Daşkəndin ən böyük nəsillərindən biri olan Rzalıların yetirməsidir. O, da babası Qara Əziz, atası Kərbəlayı Əli kimi soy-kökünü sevən və istiqanlı insandır. Etdiyi xeyirxahlıqlar saya-hesaba gəlməz. Həmişə xoşniyyətli olmuş, sazımız, sözümüz, unudulmaz Göyçəmiz üçün etdikləri onun necə bir insan olduğunun bariz nümunəsidir.

İlham Xəlilov 24 oktyabr 1977-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu, iki qızı, altı nəvəsi var.

**Əsədov Lətif Frunze oğlu** 2 yanvar 1960-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1967-ci ildə Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1974–1976-cı illərdə VIII-IX sinifləri Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuş, 1977-ci ildə Basarkeçər rayonunun Daşkənd kənd orta məktəbini bitirmişdir.

1977–1979-cu illərdə Bərdə rayonundakı Kəndtikinti İdarəsində işləmişdir.

24 iyun 1979-cu ildən 16 oktyabr 1981-ci ilə qədər Murmansk şəhərində hərbi xidmət keçmiş, baş serjant rütbəsi ilə xidmətini başa vurmuşdur. Hərbi xidmətdə Kommunist Partiyasına namizədliyi

verilmiş, 1982–1990-cı illərdə Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur.

Lətif Əsədov 1 dekabr 1981-ci ildə S.Ağamalıoğlu adına "Şərəf nişanı" ordenli Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun hazırlıq şöbəsinə, 1982-ci ildə isə həmin institutun "Kənd təsərrüfatının mexanikləşdirilməsi" ixtisasına rus dili üzrə qəbul olmuşdur. Oxuduğu müddətdə qrup nümayəndəsi olmuşdur. 1987-ci ildə ona mühəndis-mexanik ixtisası və leytenant rütbəsi verilmiş, institutu fərqlənmə diplomu ilə başa vurmuşdur.

1987-ci ildən təyinatla Ağdam 50 saylı Texniki Peşə məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

1988-ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi İnstitutunda aspiranturaya qəbul olmuş, bir müddət müxtəlif ali məktəblərdə müəllim işləmişdir. O, Azərbaycan Elmi Tədqiqat "Aqromexanika" İnstitutunda "Dənəvər olmayan toxumların səpilməsi üçün vibrasion səpici aparatın parametrlərinin əsaslandırılması və iş rejimi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1993-cü ildə Ağdamın ermənilər tərəfindən işğalı zamanı məcburən yaşayış yerini tərk etmiş, bir müddət Bərdədə yaşadıqdan sonra Bakı şəhərinə köçmüşdür.

Lətif Əsədov "Brillant" ("Original"), "Capsella", "Moonlight" pərdə-tül mərkəzləri, "Tom&Jerry" mebel mağazası və "Zəngin süfrə" restoranı kimi tanınmış firmaların rəhbəri olmuşdur. O həm də xeyriyyəçi kimi böyük şöhrət qazanmışdır. Mir Mövsüm Ağa ziyarətgahının, Balaxanı Cümə Məscidinin təmirinə köməklik etmiş, hər il Ramazan bayramında Bilgəhdəki Qocalar evini bayram sovqatı ilə ziyarət etmişdir. Həmçinin aşıq yaradıcılığının təbliğində də yaxından iştirak etmiş, bir çox aşıq və el şairlərinin kitablarını çap etdirmişdir. Xeyriyyəçilik işlərinə görə "H.Z.Tağıyev" mükafatı ilə təltif edilmişdir.

2008-ci il dekabrın 11-də Bərdə rayonu Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində olmuş, öz yardım əlini uzadaraq məktəbin istilik sistemini əsaslı təmir etdirmişdir.

Lətif Əsədov Azərbaycan Poverliftinq Fedarasiyasının I vitse-prezidenti, 2010-cu ildən "Real faktlar" ictimai-siyasi hüquq qəzeti redaksiyasının fəxri üzvü, 15 fevral 2007-ci ildən isə "Azərbaycan torpaq mülkiyyətçilərin hüquqlarının müdafiəsi cəmiyyəti"nin həqiqi üzvü idi.

Lətif Əsədov 15 sentyabr 2012-ci ildə 52 yaşında vəfat etmiş, sentyabrın 16-da Biləcəri qəsəbəsində dəfn edilmişdir.

1988-ci ildə ailə həyatı qurmuşdur. İki övladı, iki nəvəsi var.

Lətif Əsədov haqqında "Göyçədən gələn səslər" (Bakı, "Nurlan", 2008) və "Bitməyən ömür" (Bakı, "Nurlar", 2013) adlı kitablar yazılmış, "Bitməyən ömür" adlı film çəkilmişdir.

**Əliyev Nəsrəddin Məhəmməd oğlu** 28 may 1961-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Atası Məhəmməd Xıdır oğlu Əliyev 1953-cü ildə ailəsi ilə birlikdə Göyçə mahalından Bərdə rayonuna deportasiya edilmiş, 1961-ci ildə geriyə, Daşkənd kəndinə qayıtmışdır.

Nəsrəddin Əliyev 1968–1978-ci illərdə Daşkənd kənd orta məktəbində oxumuşdur. 1979–1981-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

1982-ci ildə Daşkənd Pedaqoji Xarici Dillər İnstitutuna qəbul olmuş, 1987-ci ildə həmin institutun "Rus dili və ədəbiyyatı" ixtisasını bitirmişdir.

1988-ci ildə ailəsi ilə birlikdə Basarkeçər rayonunun Daşkənd kəndindən deportasiya olunmuş, Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1989–1993-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində rus dili və ədəbiyyatı müəllimi işləmişdir. 1993–1996-cı illərdə Bakı şəhərində biznes fəaliyyəti ilə məşğul olmuşdur.

1996-cı ildən Rusiyanının Krasnoyarsk diyarındakı Dudinka şəhərində yaşayan Nəsrəddin müəllim Daşkəndə, Göyçəyə ümumən Vətənə çox bağlı insandır. Dəfələrlə əsirlikdə olan Daşkəndin görüntülərini çəkdirmiş, bunun üçün böyük zəhmətə qatlaşmışdır. Təmənnasız xeyirxahlıqlar etmiş, sazın-sözün vurğunu kimi Göyçə ustadlarının kitablarını çap etdirmiş, saz sənətinin təbliğində yaxından işti-

rak etmişdir. Daşkənd və Yeni Daşkəndlə bağlı bütün ictimai tədbirlərə maddi və mənəvi dəstək olmuşdur.

Krasnoyarsk diyarında Vətənimizin adını ucaltmış, böyük uğurlar qazanmışdır. "Zarya" Kənd Təsərrüfatı Artelinin İdarə Heyətinin sədri olaraq yüzlərlə müsəlmanı işlə təmin etmişdir. Zəhmətkeşliyinə və yüksək peşəkarlığına görə Krasnoyarsk diyarının qubernatoru yüzlərlə təşəkkür məktubu göndərmişdir.

Taymır Muxtar Dairəsi duması tərəfindən Fəxri fərmanla təltif edilmişdir. Taymırın əməkdar şəxslərindəndir.

1999-cu ildə "Yenisey" bələdiyyə ticarət və tədarük müəssisəsinin baş direktoru təyin edilmiş, 2005-ci ilə qədər həmin vəzifədə işləmişdir.

Nəsrəddin Əliyev, həmçinin özünün təsis etdiyi "Yenisey" Balıqçılıq Təsərrüfatı və Su Nəqliyyatı şirkətində də kifayət qədər uğur qazanmışdır. Şirkətində 120 nəfər işçi çalışır. Müsəlman icmasına etdiyi xeyirxahlıqlara görə Rusiya Müsəlman İcmasının rəhbəri ona şəxsən təşəkkür məktubu göndərmişdir.

2016-cı ildə "Yenisey" Balıqçılıq Təsərrüfatı və Su Nəqliyyatı şirkəti "Rusiyanın Aparıcı Nəqliyyat Təşkilatları" Milli Reyestrində 4-cü yeri tutmuşdur. Həmin şirkət 2017-ci ildə Ümumrusiya Biznes Reytinqində "Sənaye lideri" üzrə qalib olmuşdur.

Nəsrəddin Əliyev müxtəlif təşkilatlar tərəfindən dəfələrlə Fəxri fərmanla təltif olunmuşdur.

Həyatı və fəaliyyəti haqqında dəfələrlə Rusiyanın tanınmış televiziyalarında, qəzetlərində verilişlər və oçerklər yayımlanmışdır.

Nəsrəddin Əliyev 2016-cı ildə Yeni Daşkənd kəndində istilikxana təsərrüfatı yaratmış, onlarla kənd sakinini işlə təmin etmişdir.

Nəsrəddin müəllim 1986-cı ildə Qənifə xanımla ailə həyatı qurmuşdur. Üç oğlu var.

**Bayramov Nüsrət Əziz oğlu** 21 sentyabr 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1973-cü ildə Yeni Daşkənd kənd orta məktəbində oxumağa başlamış, VIII sinifdən sonra – 1981-ci ildən təhsilini 105 saylı Bərdə Texniki Peşə məktəbində davam etdirmişdir. 1984-cü ildə həmin peşə məktəbini bitirmişdir.

1984–1986-cı illərdə Almaniyada sovet ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

1987–1990-cı illərdə Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə texnikumunda oxumuşdur.

Nüsrət Bayramov 1987-ci ildən başlayaraq Bərdə şəhərində şəxsi biznes ilə məşğul olmağa başlamış, 1990-cı illərdən isə biznes şəbəkəsini genişləndirmiş, bir çox şəxsləri işlə təmin etmişdir. Hal-hazırda da həmin sahədə fəaliyyətini davam etdirir.

2019-cü ildə kənddə yaşadığı küçəyə şəxsi vəsaiti ilə asfalt çəkdirmişdir. 2020-ci ildə başlayan COVID-19 pandemiyası zamanı Vaqif Süleymanovla bərabər kənd sakinlərinə təmənnasız un paylatmışdır. 2021-ci ildə Yeni Daşkənd kəndində tikilən “Vətən şəhidləri abidəsi”nin inşası zamanı maddi və mənəvi köməkliyini göstərmişdir.

Kənddəki xeyirxahlıqları ilə yanaşı, Bərdə rayonunda bir çox məcburi köçkün, imkansız ailələrə də öz yardımını göstərmiş, şəhid ailələrinə və qazilərə olunan köməkliklərdən kənarda qalmamışdır.

Nüsrət Bayramov hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

1989-cu ildə ailə həyatı qurmuşdur. Üç övladı, dörd nəvəsi var.

**Süleymanov Vaqif Salman oğlu** 2 iyul 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1975–1985-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1985-ci ildə Azərbaycan Politexnik İnstitutuna qəbul olmuşdur. II kursu bitirdikdən sonra Ukraynada iki il hərbi xidmət keçmişdir. 1989-cu ildən təhsilini davam etdirərək 1992-ci ildə həmin institutu bitirmişdir.

1996-cı ildə Gəncə Müəllimlər İnstitutunun qiyabi şöbəsinə daxil olmuş, 1999-cu ildə pedaqoji təhsilini tamamlamışdır. 2000-ci ildən 2009-cu ilədək ixtisası üzrə Bərdə rayonunun N.Nərimanov adına 3 nömrəli tam orta məktəbində müəllim işləmişdir.

Vaqif Süleymanov 1992-ci ildən bir müddət Azərbaycan Milli Qvardiyasında işləmişdir.

1994-cü ildən bizneslə məşğul olmağa başlamışdır. 2009-cu ildə özəl biznes sahəsini daha da böyüdərək inkişaf etdirmiş, indiyə qədər də həmin biznesini idarə etməkdədir.

Vaqif Süleymanov Bərdə rayonunun və Yeni Daşkənd kəndinin bütün tədbirlərində və problemlərinin həllində yaxından iştirak edir. Etdiyi xeyirxahlıqları saymaqla bitməz. 2013-cü ilin dekabr ayında kəndin mərkəzindən Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin girişinə qədər olan 300 metr hissəni şəxsi vəsaiti hesabına asfaltlatmışdır. 2020-ci ildə başlayan COVID-19 pandemiyası zamanı Nüsrət Bayramovla bərabər Yeni Daşkənd sakinlərinə təmənnasız un paylatmışdır. 2021-ci ildə Yeni Daşkənd kəndində tikilən "Vətən şəhidləri abidəsi"nin inşası zamanı maddi və mənəvi köməkliyini göstərmişdir. Belə xeyirxahlıqları zamanı heç vaxt adının çəkilməsini də istəməmişdir.

Eyni zamanda Vaqif Süleymanov Bərdə rayonunun problemlərinin həllində yaxından iştirak edir. Şəhərin abadlaşmasına, şəhid ailələrinə, qazilərə əlindən gələn köməkliyini göstərir. Məhz belə səxavətinə görədir ki, Vaqif Süleymanovun rayonda kifayət qədər yaxşı nüfuzu var. Bərdəlilər, el-oba onun sevir, hörmətini saxlayır.

Vaqif Süleymanov hal-hazırda Bərdə şəhərində yaşayır. 1993-cü ildə ailə həyatı qurmuşdur. İki oğlu, iki nəvəsi var. Hər iki övladı ali təhsillidir. Bir oğlu öz yanında çalışır. Digər oğlu BDU-nun Beynəlxalq münasibətlər fakültəsində bakalavr təhsili almış, magistr təhsilini isə Polşada tamamlamışdır. Hal-hazırda Vroslav şəhərində işləyir və yaşayır.

## İDMANÇILAR

**İsmayılov Naib Nəbi oğlu** 15 yanvar 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1981–1986-cı illərdə Həştərxan Balıq Sənayesi İnstitutunda ali təhsil almışdır.

1977–1979-cu illərdə Polşada sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1991-ci ilin sentyabr ayına qədər Rusiyanın Həştərxan şəhərində yaşamış, Həştərxanda idmanın "Uşu" növü ilə məşğul olmuşdur. Eyni zamanda "Çən – çuan", "Nən – çuan", "Yan zi", "Tay çi çuan" kimi əlbəyaxa döyüş sənətini də dərindən öyrənmişdir.

1991-ci ilin payızında doğulduğu Yeni Daşkənd kəndinə qayıdaraq kənd klubunda gənclərə əlbəyaxa döyüş sənətini öyrətməyə başlamışdır.

1993-cü ildən daimi olaraq Bakıda yaşayır və tikintidə iş icraçısı vəzifəsində işləyir.

Naib İsmayılov 1993-cü ilin oktyabr ayında ailə həyatı qurmuşdur. İki oğlu var.

**Əliyev Ələddin Məhəmməd oğlu** 6 dekabr 1974-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1988-ci ildə ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçürülərək əvvəlcə Bərdə rayonunun Yeni Daşkənd kəndində, sonra isə Bakı şəhərində məskunlaşmışdır.

1982–1988-ci illərdə Daşkənd kənd orta məktəbində, 1988–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində, 1990–1992-ci illərdə isə Bakı şəhəri 31 nörəli Texniki Peşə məktəbində oxumuşdur.

1992-ci ilə qədər Yaşar Bəşirovun rəhbərliyi altında karate ilə məşğul olmuşdur. Hətta, 1994-cü ildə Ankarada keçirilən Avropa çempionatında komanda tərkibində 4-cü yeri tutmuşdur.

1993-cü ildə "Həkəri" ordu idman klubunda xidmət etmiş, xidmət zamanı pauerliftinq idman növü ilə də məşğul olmuşdur.

Ələddin Əliyev idmanın pauerliftinq növü üzrə 1996-cı ildə İtaliyada Avropa çempionu, 1998-ci ildə Böyük Britaniyada və ABŞ-da

Avropa və Dünya çempionu, 8 oktyabr 2018-ci ildə isə Moskvada Dünya çempionu titulunu qazanmışdır.

1995-ci ildə ABŞ-da keçirilən Dünya çempionatında 3-cü, 1996-cı ildə Cənubi Afrikada keçirilən Dünya çempionatında 3-cü, 1997-ci ildə Avstriyada keçirilən Avropa çempionatında isə 2-ci yeri tutmuşdur.

1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşü olmuş, prezident federasiyanın yaradılmasını tövsiyə etmişdir. 1996-cı ildən Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti vəzifəsində çalışır. O, beynəlxalq dərəcəli idman ustası və hakimdir. 5 sentyabr 2009-cu ildə Dünya Pauerliftinq Konqresinin prezidenti Mayk Sviney ilə görüşmüşdür.

2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən idmanın inkişafında göstərdiyi xidmətlərə görə "Fəxri fərman"la təltif olunmuş, 2013-cü ildə isə mənzillə mükafatlandırılmışdır.

2011-ci ilin noyabrında Latviyanın paytaxtı Riqada Beynəlxalq federasiya WPC-nin yaranmasının 30-cu ilində təşkil olunan yarış zamanı Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti Ələddin Əliyevi qurumun işindəki aktiv fəaliyyətinə görə xüsusi qızıl medalla təltif etmişdir.

Ələddin Əliyev 1998–2004-cü illərdə DİN Abşeron Rayon Polis Şöbəsində çalışmışdır. 1999-cu ildə DİN-nin Polis Akademiyasına daxil olmuş, 2004-cü ildə akademiyanı bitirmişdir. 2004–2010-cu illərdə DİN Çevik Polis Alayının böyük inspektoru, 2010–2018-ci illərdə polkovnik-leytenant rütbəsində Xüsusi Dövlət Mühafizə Xidməti ŞMİ-nin Böyük mühafizə zabiti vəzifəsində çalışmışdır.

2023-cü ildə Kəbədə Ümrə ziyarətində olmuşdur.

**İsmayılov Vüsal Qabil oğlu** 5 dekabr 1991-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1998-ci ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş, 2009-cu ildə Bakı şəhəri Şəfiqə Əfəndizadə adına 13 nömrəli tam orta məktəbi bitirmişdir.

Parataekvondo idman növü üzrə beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmişdir.

11 may 2010-cu ildə Sankt-Peterburqda keçirilən yarışda Dünya ikincisi, 22 noyabr 2012-ci ildə Arubada və 8 iyun 2013-cü ildə İsveçrədə keçirilən yarışlarda isə Dünya birincisi olmuşdur.

26 sentyabr 2011-ci ildə Moskvada keçirilən yarışda Avropa ikincisi, 21 avqust 2013-cü ildə Rumıniyada keçirilən yarışda isə Avropa birincisi olmuşdur.

14 may 2012-ci ildə Xasavyurtda keçirilən yoldaşlıq görüşündə birinci yer tutmuşdur.

2013-cü ildə Nalçik şəhərində keçirilən yoldaşlıq görüşündə komanda yarışlarında Elbrus Kuboku qazanmışlar.

# MÜHARİBƏLƏR

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ

1 sentyabr 1939-cu ildə başlayan II Dünya müharibəsinə Sovet İttifaqında yaşayan xalqlardan səfərbər edilən çağırışçılar içərisində azərbaycanlılar da az olmamışdır. Xüsusən, Ermənistanda və Gürcüstanda yaşayan əhalinin azərbaycanlılardan ibarət hissəsi müharibəyə düşünülmüş şəkildə daha çox göndərilmişdir. Bu sətirlərin müəllifi Araz Yaquboğlunun 2005-ci ildən apardığı genişmiqyaslı tədqiqatlar zamanı məlum olmuşdur ki, Göyçə mahalının Daşkənd kəndindən II Dünya müharibəsinə 250 nəfər səfərbər olunmuş və bu çağırışçılardan təxminən yarısı, yəni 126 nəfəri itkin düşmüş, həlak olmuşdur. Qalanlardan 122 nəfər müharibə veteranı kimi doğma kəndlərinə qayıtmış, biri ABŞ-da (Məhərrəm Musayev), biri isə Türkiyədə (Niftalı Xəlilov) qalıb yaşamışdır. Aparılan tədqiqatın nəticəsi tərəfimizdən "Respublika Xatirə Kitabı Redaksiyası"na təqdim olunmuş və "Azərbaycan Respublikası Xatirə Kitabı" adlı ensiklopediyada (8 ədəd əlavə şəkil olmaqla) çap olunmuşdur ("Azərbaycan Respublikası Xatirə Kitabı" , XI cild, "Respublika Xatirə Kitabı Redaksiyası". Bakı, 2011. səh.641–647).

1953-cü və 1988-ci ildə doğma yurd-yuvalarından deportasiya olunan ailələr içərisində daşkəndli müharibə iştirakçıları da olmuşdur. Təxminən Bərdə rayonunun Yeni Daşkənd kəndində 50-dən çox müharibə veteranı yaşamışdır. Onlardan sonuncusu Məsimov Oruc Budaq oğlu 2018-ci ildə 92 yaşında vəfat etmişdir. Veteranlar haqqında qısa məlumatlar verilir:

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN YENİ DAŞKƏND KƏNDİNDƏN OLAN VETERANLARI

**Abdullayev Mirzə Məhərrəm oğlu** 1905-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Daşkənd kəndinə qayıtmışdır (1952). Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (06.09.1988). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Alıyev Alı Oruc oğlu** 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). Xarkovda döyüş zamanı əsir düşmüşdür (05.1942). Əsirlikdən azad olunduqdan sonra 236-cı ehtiyat atıcı alayda xidmət edib (05.06.1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (təxminən 1963–1964). Basarkeçər rayonunun Daşkənd kəndində vəfat etmişdir (1985). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Alıyev İmran Mədət oğlu** 1903-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). 276-cı atıcı alayda xidmət edib. Taqanroq döyüşlərində iştirak etmişdir. Ağır yaralandıqdan sonra 2126 №li təxliyə hospitalında müalicə olunmuş və ordudan tərxis olunmuşdur (02.03.1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1979). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Alıyev İsmayıl Məhər oğlu** 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Böyük Vətən müharibəsində iştirak etmişdir (1941–1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). "Yeni həyat" kolxozunda dəmirçi işləmişdir (1953–1980). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (2008). "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı (09.05.1945), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (07.05.1965), "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (03.04.1970), "Əmək veteranı" medalı (31.01.1980), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı (01.05.1995), "1973-cü ildə sosializm yarışının qalibi" (1974), "1974-cü ildə sosializm yarışının qalibi" (1975) döş nişanları ilə təltif olunmuşdur.

**Alıyev Oruc Məhəmməd oğlu** 28 mart 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (10.10.1944). Müharibədən sonra ordudan tərxis olunmuşdur (1950). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bərdə şəhərində yaşamış, orada vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur (29.01.2004). "Qvardiya" nişanı, "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (07.05.1966), "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı (10.09.1970), "Böyük Vətən müharibəsində Qələbənin 25 illiyi" nişanı (17.03.1970), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (26.07.1976), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (21.03.1979), II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (28.04.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (09.05.1988), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı (01.05.1995) ilə təltif olunmuşdur.

**Babayev İsa Hüseyn oğlu** 17 fevral 1914-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədən sonra ordudan tərxis olunmuşdur (1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (20.04.1987). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Babayev Sayad Əli oğlu** 1899-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Almaniya yaxınlığındakı döyüşlərdə yaralanmışdır. Bir müddət müalicə olunduqdan sonra yenidən döyüşlərə göndərilmişdir. Növbəti dəfə başının bir hissəsi, bir neçə əl və ayaq barmaqları qəlpə yarası almışdır. Stavropol hospitalından tərxis olunmuşdur (1945). Uzun müddət Daşkənd kəndində də müalicə olunmuşdur. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (1962). Basarkeçər rayonunun Daşkənd kəndində vəfat etmişdir (12.1986). I dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Babayev Şiraslan Qəhrəman oğlu** 20 mart 1905-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1939; 1941). SSRİ–Finlandiya müharibəsində və Krımda Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (04.05.1996). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Balıyev Elləz (İlyas) Mürsəl oğlu** 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Müharibədə başından yaralanmış, biləkdən sol əlini itirdikdən sonra ordudan tərxis olunmuşdur (1942). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1977). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Bayramov Əyyub Abuzər oğlu** 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (15.11.1944). Avtomatçı kimi 63-cü briqadada xidmət etmişdir. Döyüş zamanı sol əlindən ağır yaralanmışdır (20.04.1945). 1425 №li təxliyə hospitalında müalicə olunub (04.1945–09.1945). Ordudan tərxis olunmuşdur (05.09.1945). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (1961). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bakı şəhərində yaşamış, burada vəfat etmiş və "Qurd qapısı" qəbiristanlığında dəfn olunmuşdur (30.08.2009). II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Dünyamalıyev Həsən (Hasoy) Abduləli oğlu** 1905-ci (1903) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). 1-ci atıcı alayda xidmət etmişdir. Taqanroq döyüşlərində iştirak etmiş, Mozdok döyüşlərində yaralanmış, hospitalda müalicə olunmuşdur (1942). Sonra Ukrayna ərazisində də döyüşlərdə olmuşdur. Təkrar yaralandığı üçün 4477 №li təxliyə hospitalında müalicə olunmuş, ordudan tərxis olunmuşdur (12.08.1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1986). I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Elyazov Abbas Mansur oğlu** 1891-ci (1897) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1939). SSRİ–Finlandiya müharibəsində və Böyük Vətən müharibəsində iştirak etmişdir. Ayağından yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (18.04.1956).

**Əliyev Ənvər Abdulla oğlu** 1918-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (27.01.1939). SSRİ–Finlandiya müharibəsində iştirak etmişdir. Yefreytor rütbəsində 37-ci alayda xidmət etmişdir. Əsir düşüb azad olunmuşdur. Kotovsk (Bessarabiya) şəhərinə döyüşə göndərilmişdir (28.06.1941). 178-ci atıcı diviziyanın 389-cu atıcı alayının 1-ci batalyonunda xidmət etmişdir. Deyilənə görə iştirak etdiyi döyüşdə 15 alman faşisti əsir götürülmüş, həmin döyüşdə sol əlindən ağır güllə yarası almışdır (01.07.1941). 979 №li təxliyə hospitalından tərxis olunmuşdur (05.12.1941). ÜİK(b)P-nın üzvü (1943). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1995). "Döyüş xidmətlərinə görə" medalı (06.11.1947), I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Əliyev Ənvər Oruc oğlu** 1916-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1940; 06.06.1943). Qvardiya serjantı (çavuş) kimi 28-ci hava-desant (paraşütçü diviziyası) atıcı qvardiyanın Dembitski alayının 3-cü batalyonunun rabitə taqımında xidmət etmişdir. 1-ci və 2-ci Ukrayna cəbhələrində döyüşmüşdür (06.06.1943–1945). Döyüş zamanı yaralanmışdır (08.08.1944). Polşanın Stopnitsa şəhərinin müdafiəsinin yarılmasında (12.01.1945), Buska-Zdruy şəhərinin alınmasında (13.01.1945), Şekotsina şəhərinin azad edilməsində (16.01.1945), Almaniyanın Marksdorf kəndinə hücum zamanı (28.02.1945) qəhrəmanlıqlar etmişdir. Müharibədən sonra

ordudan tərxis olunmuşdur. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (15.09.1968). "Qırmızı Ulduz" ordeni (05.04.1945), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı (09.05.1945) ilə təltif olunmuşdur.

**Əliyev Məmməd Həsən oğlu** 1924-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Aşağı Şorca kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (15.12.1942). 589-cu atıcı alayın tərkibində BVM-də döyüşmüşdür (12.1942–07.1943). Əsasən Mozdok, Sevastopol, Kerç və Brest uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Brest şəhəri uğrunda gedən döyüşdə sağ çiynindən ağır yaralanmış (15.07.1943) və ordudan tərxis olunmuşdur (19.07.1943). Uzun müddət təxliyə hospitalında müalicə olunmuşdur (03.1944). Brest şəhərindəki müharibə iştirakçılarının şərəfinə ucaldılmış monumentdə adı var. 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşamış, Bakı şəhərində vəfat etmiş, Müşfiqabad qəbiristanlığında dəfn olunmuşdur (19.10.2008). "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (18.07.1967), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (21.03.1979), I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (28.04.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (09.05.1988), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı (01.05.1995), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalı (27.04.2005) ilə təltif olunmuşdur.

**Əliyev Tapdıq Xıdır oğlu** 1912-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (05.05.1939). SSRİ–Finlandiya müharibəsində və Böyük Vətən müharibəsində iştirak etmişdir. 36-cı ehtiyat atıcı diviziyanın 48-ci ehtiyat atıcı alayından 389-cu ehtiyat atıcı alayına göndərilmişdir (09.01.1943). 1177-ci zenit artilleriya alayının

hava hücumundan müdafiə bölüyündə xidmət etmişdir. Leninqradın müdafiəsində qəhrəmanlıq göstərmişdir. Yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sov.İKP-nın üzvü. Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (25.05.1990). “Leninqradın müdafiəsinə görə” medalı (23.08.1943), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalı (05.10.1945), II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Əsədov Bahadur İsgəndər oğlu** 1911-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Berlinə qədər döyüş yolu keçmişdir. Ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (26.11.1976). “1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalı (09.05.1945), “Döyüş xidmətlərinə görə” medalı (14.04.1958), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi” yubiley medalı (1965), “SSRİ Silahlı Qüvvələrinin 50 illiyi” yubiley medalı (1968), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi” yubiley medalı (1985) ilə təltif olunmuşdur.

**Əsədov Əlibaba Kərəm oğlu** 1925-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (02.1943). 38-ci ehtiyat atıcı diviziyanın 88-ci ehtiyat atıcı alayında 2-ci taqımın komandiri olmuşdur (02.1943–20.08.1943). 4-cü qvardiya motoatıcı briqadada xidmət etmişdir. Minaatançı kimi Smolensk vilayətinin Kruqlovo kəndində döyüş zamanı sağ əlindən yaralanmışdır (22.09.1943). Ordudan tərxis olunmuş, Daşkənd kəndinə qayıtmışdır. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Moskva şəhərində yaşamış, orada vəfat etmiş və Bərdə rayonunun Yeni Daşkənd kəndinə gətirilərək dəfn olunmuşdur (03.02.1984).

**Əsədov Həbib Abbas oğlu** 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Yaralandıqdan sonra 370 №li təxliyə hospitalında müalicə olunmuşdur. Ordudan tərxis olunmuşdur (13.04.1942). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1974).

**Əzimov Yusif Müseyib oğlu** 1923-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (01.1942). 828-ci atıcı alayın tərkibində müharibədə döyüşlərdə iştirak etmişdir (03.1942–05.1942). Ordudan tərxis olunmuşdur. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (22.04.2015). "Əmək veteranı" medalı, "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (1978), II dərəcəli "Vətən Müharibəsi" ordeni (1985), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (1985), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalı (2005), "Belarus Respublikasının alman-faşist işğalçılarından azad edilməsinin 65 illiyi" yubiley medalı (2009), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" yubiley medalı (2010), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı (2015) ilə təltif olunmuşdur.

**Hacıyev Abbasəli İsmayıl oğlu** 1898-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Arxa cəbhədə xidmət etmişdir. Ordudan tərxis olunmuşdur (1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (19.10.1989). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Hacıyev Dünyamalı İsmayıl oğlu** 20 mart 1915-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). 416-cı atıcı diviziyada xidmət etmişdir (Taqanroq). Ayaqlarını don vurmuş, budun yan tərəfindən yaralanmış, Tbilisidə müalicə olunmuşdur (1942). Ordudan tərxis olunmuşdur (1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (18.11.1998). II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Hacıyev Həsən İsmayıl oğlu** 17 may 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Döyüş zamanı əsir düşmüşdür. Almaniyanın Hamburq şəhərində əsirlikdə olmuşdur. Daşkənd kəndinə qayıtmışdır (1954). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kəndində vəfat etmişdir (14.05.1994).

**Hacıyev Həsən Məhərrəm oğlu** 1902-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (06.1942). Krım cəbhəsində döyüşmüşdür. Müharibədən sonra ordudan tərxis olunmuşdur (10.1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (1954). Basarkeçər rayonunun Daşkənd kəndində vəfat etmişdir (10.04.1966).

**Hacıyev Tanrıverdi Alı oğlu** 5 iyun 1917-ci (1916) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). Sağ əlindən yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (1944). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (01.03.1987). "Əməkdə fərqlənməyə görə" medalı (1969, 1974), "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı

(1970), "Azərbaycan SSR qabaqcıl maarif xadimi" döş nişanı (1971), "Əmək veteranı" medalı (1977), "Baş müəllim" adı (1982), "Metodist maarif xadimi" adı (1982), "Sosializm yarışının qalibi" döş nişanı və I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.11.1985) ilə təltif olunmuşdur.

**Həsənov Ağaməli Abbas oğlu** 1915-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Zaqafqaziya Hərbi Dairəsi 45-ci Ordusunda və 402-ci atıcı diviziyada xidmət etmişdir. Belarusiyada yaralanmış və ordudan tərxis olunmuşdur (1944). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1948). Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (10.04.1980). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Həsənov Cəlil Xəlil oğlu** 1910-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Qoşabulaq kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). BVM-də iştirak etmişdir. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (24.04.2003). II dərəcəli "Vətən Müharibəsi" ordeni (01.08.1986) ilə təltif olunmuşdur.

**Həşimov Abuzər Qasım oğlu** 1922-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (01.04.1987). II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Hümbətov Abdulla İsmayıl oğlu** 30 iyun 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (10.10.1944). Gürcüstanın

Qori şəhərində üç ay hərbi təlim keçdikdən sonra Rumıniyaya döyüşə göndərilmişdir (1945). Avtomatçı olmuşdur. Avstriyada yaralanıb (22.04.1945). Macarıstanda müalicə olunduqdan sonra Sakit okean cəbhəsinə – Saxalinə hərbi xidmətə göndərilmiş, hərbi komendaturada xidmət etmişdir. Ordudan tərxis olunmuşdur (08.08.1950). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (05.1953). Bakı şəhərində vəfat etmiş, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur (30.06.2011). "İgidliyə görə" medalı (15.02.1968), II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (28.01.1988), "Belarus Respublikasının alman-faşist işğalçılarından azad edilməsinin 65 illiyi" yubiley medalı (2009) ilə təltif olunmuşdur.

**Hümbətov Nağı İsmayıl oğlu** 1916-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (27.05.1970).

**Hüseynov (Şairov) Həndəm Əsəd oğlu** 1908-ci (1898) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942 və ya 1943). 22-ci atıcı alayın tərkibində döyüşlərdə iştirak etmişdir. Sağ gözündən yaralandıqdan sonra 2464 №li təxliyə hospitalında müalicə olunmuş və ordudan tərxis olunmuşdur (23.03.1944). Sağ gözü görmürdü, II qrup BVM əlili idi. Müharibədən sonrakı illərdə Daşkəsən rayonunun Mollahəsənli kəndində yaşamış, 1970-ci illərdə Bərdə rayonunun Yeni Daşkənd kəndinə köçmüşdür. Yeni Daşkənd kəndində vəfat etmişdir (1982). "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (08.12.1966), "İgidliyə görə" medalı (12.06.1968), "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı (30.03.1970), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (03.11.1978), "Əmək veteranı" medalı (30.06.1980) ilə təltif olunmuşdur.

**Hüseynov Hüseyn Şükür oğlu** 1907-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (09.1928; 1942). 546-cı atıcı alayın tərkibində BVM-də döyüşmüşdür (08.03.1942–17.05.1942). Almaniyaya qədər döyüş yolu keçmişdir. Ordudan tərxis olunmuşdur (1945 və ya 1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (09.03.1999). “1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalı (09.05.1945), “Əmək veteranı” medalı (31.01.1980), II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi” yubiley medalı (12.04.1985), “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı (28.01.1988), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi” yubiley medalı (01.05.1995) ilə təltif olunmuşdur.

**Xəlilov Abbasəli Süleyman oğlu** 31 dekabr 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1939; 08.09.1941). SSRİ–Finlandiya müharibəsində və Böyük Vətən müharibəsində iştirak etmişdir. Serjant rütbəsi almışdır. Krımda əsir düşmüşdür (1942). Qələbədən sonra azad edilmiş Sovet hərbi əsirlərindən ibarət 95007 №-li eşelonda Odessa keçid məntəqəsində 6-cı rotada 252 nəfərlə siyahıya alınmışdır (11.05.1945). Ordudan tərxis olunmuşdur (15.05.1947). Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır (1965). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (30.09.2007). II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Kərimov Əli Hüseyn oğlu** 2 may 1925-ci (1921) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (10.10.1944). Altı ay hərbi hazırlıqdan sonra 2-ci diviziyanın tərkibində döyüşlərdə iştirak etmiş, Berlinə qədər döyüş yolu keçmişdir. Ordudan tərxis olunmuşdur (10.10.1949). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayo-

nuna deportasiya olunmuşdur (1953). Uzun illər Bərdə şəhərində yaşamışdır. Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (25.08.2000). II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Kərimov Fəzi Qasım oğlu** 1912-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Topçu taqımının komandiri olmuşdur. Ayrı-ayrı vaxtlarda səkkiz dəfə yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (1944). Sov.İKP-nın üzvü (04.1945), II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (25.09.2000). "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar" yubiley medalı (1970), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (25.04.1975), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (28.01.1978), "Əmək veteranı" medalı (31.01.1980), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (12.04.1985), I dərəcəli "Vətən Müharibəsi" ordeni (01.08.1986), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (28.01.1988), "9 May" nişanı, "1941–1945-ci illər müharibəsi Veteranı" nişanı (2000) ilə təltif olunmuşdur.

**Kərimov İslam İsmayıl oğlu** 1906-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1939; 1941). SSRİ–Finlandiya müharibəsində və Böyük Vətən müharibəsində iştirak etmişdir. Döyüş zamanı xidmət etdiyi tabor bütünlüklə əsir götürülsə də, əsirlikdən qaçaraq azad ola bilmişdir (1941). Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1994). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Kərimov Qəşəm Saleh oğlu** 1914-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (1943). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (11.05.1996). I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Kərimov Rəsul İsmayıl oğlu** 1919-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan həqiqi hərbi xidmətə çağırılmışdır (1939). Basarkeçər RHK-dan müharibəyə çağırılmışdır (1941). Böyük Vətən müharibəsində Krımda döyüşlərə başlamışdır. Azov dənizi hövzəsində xidmət etdiyi tabor bütünlüklə əsir götürülmüşdür. Fransa ərazisində əsirlikdən qaça bildikdən sonra Əhmədiyyə Cəbrayılovun partizan dəstəsinə qoşulmuş, faşistlərə qarşı döyüşmüşdür. Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (1954). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bakı şəhərində yaşamış və orada vəfat etmişdir (1992). SSRİ Silahlı Qüvvələrinin və Böyük Vətən müharibəsində Qələbənin müxtəlif yubiley medalları ilə təltif olunmuşdur.

**Kərimov Sayad Qasım oğlu** 1905-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Müharibədən sonra ordudan tərxis olunmuşdur (1949). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonundan Göyçəyə gedərkən Kəlbəcər rayonunda avtomobil qəzasında həlak olmuş və Basarkeçər rayonunun Daşkənd kəndində dəfn olunmuşdur (1955).

**Qocamanov Böyükkişi Camal oğlu** 10 yanvar 1911-ci (1907) ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (08.09.1941). 778-ci atıcı alayın tərkibində BVM-də döyüşmüşdür (09.1941–03.1942). Armavir şəhərində yaralanmışdır (12.05.1942). Yaralandıqdan sonra Xankəndidə müalicə olunmuşdur. Müalicədən sonra ordudan tərxis olunmuşdur (1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (30.01.2000). "Əmək veteranı" medalı (13.02.1975), II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (23.05.1988), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı (01.05.1995) ilə təltif olunmuşdur.

**Quliyev Əli Abdulla oğlu** 1917-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1938; 10.08.1941). SSRİ–Finlandiya müharibəsində iştirak etmişdir. Böyük Vətən müharibəsində 3-cü Belarusiya cəbhəsində "5 A" hərbi hissəsinin 215-ci atıcı diviziyasının 711-ci atıcı alayında döyüşmüşdür. Rostov istiqamətində əlindən güllə yarası (16.12.1941), Kerç şəhəri altında sağ əlindən qəlpə yarası (10.05.1943), Orşa şəhəri altında isə belindən qəlpə yarası (23.10.1943) almışdır. Berlin uğrunda döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunmuşdur (1950). BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (24.05.1974). "İgidliyə görə" medalı (13.06.1944), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı (09.05.1945) ilə təltif olunmuşdur.

**Quliyev Vəli Abdulla oğlu** 5 iyun 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (06.12.1944). BVM-də döyüşmüşdür (04.1945–05.1945). Almaniya uğrunda gedən döyüşlərdə sol çiyninin arxasından yaralanmışdır (19.04.1945). Yüngül yaralılar üçün 5111 №li hospitalda müalicə olunmuşdur (05.06.1945). Hərbi xidmətini

214-cü ehtiyat atıcı alayda atıcı (12.1944–07.1945), ...şəhərində hərbi komendaturada atıcı (07.1945–01.1947), ...şəhərində hərbi komendaturada atıcı (01.1947–05.1947), 58-ci qvardiya mexanikləşdirilmiş alayda atıcı (05.1947–04.1948), 39212 №li hərbi hissədə pulemyotçu (04.1948–06.1950) kimi xidmət etmişdir. Ordudan tərxis olunmuşdur (31.06.1950). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (30.08.2001). “1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalı (03.1946), “Sovet Ordu və Donanmasının 30 illiyi” yubiley medalı (09.01.1949), II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi” yubiley medalı (09.05.1985), “Əmək veteranı” medalı (31.07.1986), “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı (09.05.1988), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi” yubiley medalı (01.05.1995), “1941–1945-ci illər müharibəsi Veteranı” nişanı (2000) ilə təltif olunmuşdur.

**Məmmədov Behbud Qədir oğlu** 1898-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Mozdok döyüşlərində ayağından yaralanmış, hospitalda müalicə olunmuşdur (1942). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1981).

**Məmmədov Məzahim Behbud oğlu** 1925-ci (1926) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1944). Gürcüstanda Zaqafqaziya Hərbi Dairəsi nəzdində zabit kursunda oxumuşdur. Müharibədən sonra ordudan tərxis olunmuşdur. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (28.09.1999). II dərəcəli “Vətən Müharibəsi” ordeni (12.04.1989) ilə təltif olunmuşdur.

**Məmmədov (Mamedov) Yunis Cahangir oğlu** 1916-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (01.1942). Döyüş zamanı yaralanaraq əsir düşmüş, sonralar əsirlikdən azad olunmuşdur (1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonunun Yeni Daşkənd kəndinə köçmüşdür (1976). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1988).

**Məmmədov Yunis Səfər oğlu** 1906-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan həqiqi hərbi xidmətə çağırılmışdır (12.09.1928). 1-ci Ordunun atıcı alayında xidmət etmişdir. Ordudan tərxis olunmuşdur (07.07.1930 və ya 08.1930). Basarkeçər RHK-dan müharibəyə çağırılmışdır (23.06.1941). 819-cu atıcı polkun sıravi avtomatçı və pulemyotçusu kimi BVM-də döyüşmüşdür (02.02.1942–08.05.1942). Almaniyada əsirlikdə olmuşdur (08.05.1942–03.05.1945). Ordudan tərxis edilmişdir (20.11.1946). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (18.05.1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1964).

**Məsimov Oruc Budaq oğlu** 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (10.10.1944). Macarıstanın Vena şəhərində yaralanmışdır (23.04.1945). Altı ay Budapeşt hospitalında müalicə olunmuşdur. Müharibədən sonra ordudan tərxis olunmuşdur (1946). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşamış, orada vəfat etmişdir (02.06.2018). "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı (1968), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (1975), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (05.05.1985), I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.11.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (1988), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin

50 illiyi" yubiley medalı (01.05.1995), "1941–1945-ci illər müharibəsi Veteranı" nişanı (2000), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalı (2005), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" yubiley medalı (2010), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı (2015) ilə təltif olunmuşdur.

**Muxtarov İslam Hacı oğlu** 1901-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır. Böyük Vətən müharibəsində iştirak etmişdir. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1958).

**Musayev Məhərrəm Hidayət oğlu** 9 avqust 1923-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (05.08.1942 və ya 11.1944). İtkin hesab edilmişdir (03.1945). Əsir düşmüş və azad olunmuşdur (05.1945). Sonralar Amerikada yaşadığı məlum olmuşdur (1963). Almaniyadan ABŞ-a köçmüşdür (30.04.1958). Doğmaları ilə görüşmək üçün Bərdə rayonunun Yeni Daşkənd kəndinə gəlmişdir (06.09.1993). ABŞ-ın Nyu-Cersi ştatının Oşen qraflığının Brik qəsəbəsində vəfat etmiş və həmin qraflığın Toms-River qəsəbəsindəki Memorial Parkda dəfn olunmuşdur (09.08.1998).

**Mustafayev Hüseynqulu Cəmil oğlu** 1898-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır. Böyük Vətən müharibəsindəki döyüşlər zamanı itkin düşmüş hesab edilmişdir (04.1942). Ordudan tərxis edilmişdir (1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (1976).

**Namazov İbrahim Əli oğlu** 1909-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Böyük Vətən müharibəsindəki döyüşlərdə iştirak etmişdir (06.1941–03.1942). Ordudan tərxis olunmuşdur (1942). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bir il sonra Daşkəndə qayıtmış (1954), yenidən ailəsi ilə birlikdə Yeni Daşkənd kəndində məskunlaşmışdır (1976). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (06.1979).

**Nəzərov Abbasəli Hüseyn oğlu** 1919-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1939; 1941). Döyüşlərdə taqım komandiri kimi 30-cu İrkutsk atıcı diviziyanın 35-ci atıcı alayının tərkibində Moldaviyada, Rostov-na-Don şəhəri uğrunda döyüşlərdə iştirak etmişdir (15.03.1942–15.11.1942). Yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (12.1942). BVM-dən qayıtdıqdan sonra Daşkənd kənd orta məktəbində hərbi çağırış üzrə müəllim işləmişdir. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndindən Naftalan şəhərinə köçmüşdür (1979). Naftalan şəhərində yaşamış, orada vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur (1992). “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi” yubiley medalı (09.05.1966), “İgidliyə görə” medalı (08.06.1967), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi” yubiley medalı (25.03.1976), “SSRİ Silahlı Qüvvələrinin 60 illiyi” yubiley medalı (29.08.1978), II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985), “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi” yubiley medalı (05.05.1985), “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı (19.05.1988) ilə təltif olunmuşdur.

**Nəzərov Xıdır Cəlil oğlu** 1912-ci (1913) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1942). Krımda, Sevastopolda döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunmuşdur (1945). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Sonralar Daşkənd kəndinə qayıtmışdır (1957). 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Şəmkir rayonunun Çaykənd (Barsum) kəndində yaşamış, orada vəfat etmiş və Çaykənd qəbiristanlığında dəfn olunmuşdur (2000). I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

**Paşayev Balabəy Abdulla oğlu** 1924-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (11.04.1943). BVM-də çox ağır döyüşlərin iştirakçısı olmuş, dəfələrlə hər iki ayağından, başından, qolundan yaralanmışdır. Üst-üstə on səkkiz yarası olmaqla bədənində qəlpələr ömrünün sonuna kimi qalmışdır. Bir müddət hospitalda müalicə olunduqdan sonra ordudan tərxis olunmuşdur. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Yeni Daşkənd kənd axşam kəndli-gənclər məktəbini bitirmişdir (1966). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (13.10.1990). "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı (01.07.1946), "1941–1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı (21.02.1948), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (07.05.1965), "İgidliyə görə" medalı (12.06.1968), "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı (18.04.1969), "Böyük Vətən müharibəsində Qələbənin 25 illiyi" nişanı (17.03.1970), "9 May" nişanı, "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar fədakar əməyə görə" yubiley medalı (28.04.1970), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (25.04.1975), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (25.10.1978), "SSRİ-

nin 60 illiyi (1922–1982)" nişanı (1982), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (09.05.1985), I dərəcəli "Vətən Müharibəsi" ordeni (06.11.1985), "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (22.02.1988) ilə təltif olunmuşdur.

**Piriyev Əsgər Kərim oğlu** 1913-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). BVM-də 844-cü atıcı alayın tərkibində döyüşmüşdür (23.07.1941–25.10.1943). Döyüş zamanı yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (25.10.1943). II qrup BVM əlili idi. 1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən qaçqın düşdükdən sonra Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşamış, orada vəfat etmişdir (22.12.1994). "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (28.04.1985) ilə təltif olunmuşdur.

**Piriyev Tapdıq Əbil oğlu** 1911-ci (1909) ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (08.09.1941). Böyük Vətən müharibəsində iştirak etmişdir. Yaralandıqdan sonra ordudan tərxis olunmuşdur (11.04.1943). II qrup BVM əlili idi. Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (03.12.1973).

**Şairov Məhəmməd Şamil oğlu** 1926-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (10.10.1944). 422-ci Omestsrdə və Port-Artur şəhərində xidmət etmişdir. Müharibədən sonra ordudan tərxis olunmuşdur (1950). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (04.08.1985). "Yaponiya üzərində qələbəyə görə" medalı (03.08.1946), "Böyük Vətən

müharibəsində Qələbənin 25 illiyi" nişanı (1970), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (25.07.1975), "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (24.07.1979), II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985), "1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (09.05.1985) ilə təltif olunmuşdur.

**Şıxəliyev Məcid Cəfər oğlu** 1903-cü (1905, 1910) ildə Göyçə mahalının Basarkeçər rayonunun Aşağı Şorca kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (1941). Krım, Sevastopol, Soçi cəbhələrində döyüşmüşdür. Ayağından, başından və əlindən yaralanmış, bir müddət hospitalda müalicə olunduqdan sonra ordudan tərxis olunmuşdur (1943). Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur (1953). Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir (24.01.1998). II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985) ilə təltif olunmuşdur.

## ƏFQANISTAN MÜHARİBƏSİ

Əfqanıstan müharibəsi 1979–1989-cu illərdə olmuşdur. 1979-cu il dekabrın 24-də ilk sovet hərbi qüvvələri Əfqanıstan sərhədini keçmiş, 1988-ci ilin mayında isə Sovet qoşunlarının mərhələ-mərhələ Əfqanıstandan çıxarılmasına başlanılmışdır.

Müxtəlif statistikalara görə, 10 illik hərbi əməliyyatlar dövründə Əfqanıstanda 2 milyon nəfərə yaxın mülki sakin həlak olub. Amerikalılar isə əfqanların itkisinin 2,5 milyon nəfər olduğunu yazırlar. Sovet ordusu Əfqanıstanda 1979-cu ildə 86, 1980-ci ildə 1484, 1981-ci ildə 1298, 1982-ci ildə 1948, 1983-cü ildə 1446, 1984-cü ildə 2343, 1985-ci ildə 1868, 1986-cı ildə 1333, 1987-ci ildə 1215, 1988-ci ildə 759, 1989-cu ildə 53 nəfər olmaqla ümumilikdə 14.427 hərbçisini itirmişdir. DTK-nın itkisi 576, Daxili İşlər Nazirliyinin itkisi isə 28 nəfər olmuşdur. Hərbi əməliyyatlarda təxminən 54 min nəfər yaralanmış, 416 min nəfər isə müxtəlif dərəcəli kontuziyalar almışdır. Sovet ordusunun Əfqanıstanda texniki itkisi isə belə olmuşdur: 147 tank, 1314 zirehli transportyor, 433 artilleriya sistemi, 118 təyyarə və 333 vertolyot.

On illik müharibə nəticəsində SSRİ Əfqanıstana təxminən 800 milyon ABŞ dolları yardım göstərdi. 40-cı ordunun saxlanılması və əməliyyat xərcləri 3 milyard dollardan çox oldu. Bir sözlə sovet sistemi Əfqanıstanda tamamilə məğlub oldu və bu müharibə SSRİ-nin süqutunu tezləşdirdi. Müharibənin başa çatmasından cəmi iki il sonra SSRİ parçalandı. Müharibənin aparıldığı 1979-cu il dekabrın 24-dən 1989-cu ilin fevralın 15-dək Əfqanıstanda Sovetlər Birliyinin 620 min hərbi qulluqçusu xidmət etmişdir.

On il müddətində Əfqanıstan müharibəsində 7500 azərbaycanlı da iştirak etmişdir. Onların 208-i müharibədə həlak olmuşdur. 7 nəfər isə itkin düşmüşdür. Hazırda Azərbaycanda cəmi 5 minə yaxın Əfqanıstan müharibəsi veteranı sağ qalmışdır. Əfqanıstandan qayıdandan sonra onların bir çoxu Qarabağda gedən döyüşlərdə həlak olmuş və ya sonradan vəfat etmişlər. Əfqanıstan müharibəsi veteranlarından 17 nəfəri sonradan Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Milli Qəhrəman adına layiq görülmüşdür.

Yeni Daşkənd kəndindən üç nəfər Əfqanıstan müharibəsində iştirak etmişlər. Onlardan Babayev Maksim döyüşlər zamanı həlak olmuş, Piriyev Şaban və Piriyev Qabil isə veteran kimi doğulduqları kəndə qayıtmışlar.

**Babayev Maksim Bayram oğlu** 23 (20) aprel 1965-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Əvvəlcə doğulduğu Daşkənd kənd orta məktəbində oxumuş, sonralar isə Yeni Daşkənd kənd orta məktəbində oxumağa davam edərək 1983-cü ildə orta məktəbi bitirmişdir.

6 may 1984-cü ildə Bərdə Rayon Hərbi Komissarlığı tərəfindən SSRİ Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. 1984-cü ilin sentyabr ayından Əfqanıstan Demokratik Respublikasında motoatıcı bölükdə pulemyotçu kimi qulluq etmiş, dəfələrlə döyüşlərdə iştirak etmişdir.

Kiçik gizir Maksim Babayev 9 may 1985-ci ildə Əfqanıstanda həlak olmuşdur. Basarkeçər rayonunun Daşkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

Moskvadakı "Beynəlmiləlçi döyüşçüyə and yeri" xatirə abidəsində Maksim Babayevin adı 73-cü sırada qeyd olunmuşdur.

**Piriyev Şaban Yaqub oğlu** 30 yanvar 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1975–1985-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1986–1988-ci illərdə Əfqanıstan Demokratik Respublikasında SSRİ Silahlı Qüvvələrinin tərkibində hərbi xidmət keçmiş, dəfələrlə döyüşlərdə iştirak etmişdir.

1989-cu ildə Azərbaycan Politexnik İnstitutuna qəbul olmuş, 1994-cü ildə Azərbaycan Texniki Universitetini bitirmişdir.

Şaban Piriyev SSRİ-nin "İgidliyə görə" medalı, "Beynəlmiləlçi döyüşçüyə əfqan xalqı adından minnətdarlıq" medalı və "Beynəlmiləlçi döyüşçüyə" döş nişanı ilə təltif olunmuşdur.

Ailəlidir, iki oğlu, bir qızı var.

**Piriyev Qabil Qardaşxan oğlu** 1 dekabr 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1977–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1986-cı ildə Azərbaycan Politexnik İnstitutuna qəbul olmuşdur.

1987–1989-cu illərdə Əfqanıstan Demokratik Respublikasında SSRİ Silahlı Qüvvələrinin tərkibində hərbi xidmətdə olmuş, dəfələrlə döyüşlərdə iştirak etmişdir.

Hərbi xidmətdən qayıtdıqdan sonra ali təhsilini davam etdirmiş və 1994-cü ildə Azərbaycan Texniki Universitetini bitirmişdir.

Qabil Piriyev SSRİ-nin “İgidliyə görə” medalı, “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı, “Beynəlmiləlçi döyüşçüyə əfqan xalqı adından minnətdarlıq” medalı, “Beynəlmiləlçi döyüşçüyə” döş nişanı və “Beynəlmiləlçi döyüşçüyə” (Nevelsk motoatıcı diviziya) döş nişanı ilə təltif olunmuşdur.

Ailəlidir, bir oğlu, bir qızı var.

# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ

Birinci Qarabağ müharibəsi 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi Azərbaycanın cənub-qərb hissəsində yerləşən Qarabağ bölgəsində Ermənistan Respublikası və onun tərəfindən dəstəklənən Qarabağın etnik ermənilərinin əksəriyyəti ilə Azərbaycan Respublikası arasında baş vermiş etnik və ərazi münaqişəsi idi.

Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ermənistan ilə birləşmək istəyən separatçı hərəkatının tələbi 1988-ci ildə nisbətən dinc şəkildə başlasa da, növbəti aylarda SSRİ dövlətinin süqutunun yaxınlaşması səbəbindən fərqli istiqamətdə vüsət alaraq, etnik azərbaycanlılar ilə ermənilər arasında getdikcə böyüyən şiddətli münaqişəyə çevrilmiş və hətta etnik təmizləmə iddialarına səbəb olan qanlı toqquşmalarla müşayiət olunmuşdur. Baş verənlərin fonunda, keçmiş SSRİ respublikaları olan Azərbaycan və Ermənistan 1988-ci ildən başlamaqla Dağlıq Qarabağın yüksəkliklərində uzun və elan edilməmiş müharibə aparırdı.

Azərbaycanın ilk vaxtlarda əsas məqsədi separatçı hərəkatı məhv etmək, Ermənistanın niyyəti isə Azərbaycanın beynəlxalq çərçivədə tanınan ərazilərinin bir hissəsini ilhaq etmək idi. Bu zaman kəsiyində, DQMV-nin yerli parlamenti vilayətin Ermənistanla birləşdirilməsinin lehinə səs verib, referendum keçirdi. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin referendumu boykotuna rəğmən erməni əsilli seçicilərin əksəriyyəti sözügedən aktın lehinə səs verərək münaqişənin yeni qarşıdurmalar fazasına keçid etməsini sürətləndirdi. Azərbaycandan ayrılmaq haqqında bəyannamə bu torpaq münaqişəsinin son nəticəsi olmuşdur.

Azərbaycan SSR müstəqilliyini elan etdikdən sonra Qarabağ ermənilərinin əksəriyyəti, Azərbaycandan çəkilmək qərarına gəlmiş və qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini elan etmişdilər.

Tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başlamışdır. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) tərəflər arasındakı münaqişənin həllinin sonunu gətirmək istəsə də,

cəhdlər uğursuz olmuşdur. 1993-cü ilin yazında Ermənistan qüvvələrinin anklavın tərkibində olmayan torpaqları işğal etməsi, regiondakı digər ölkələrin müharibəyə qatılması üçün təhdid yaratmışdır. 1994-cü ildə müharibə başa çatana qədər ermənilər Qarabağın əksər hissəsini demək olar ki, tam nəzarətlərinə keçirib, əlavə olaraq anklavın tərkibində olmayan Azərbaycan torpaqlarının 9 faizinə nəzarət edirdilər.

Münaqişə nəticəsində Azərbaycandan 230.000 erməni, Ermənistan və Qarabağdan isə 800.000 azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüşdür.

1991–1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olmuşdur.

Ən çoxsaylı itkilər 1992–1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı verilmişdir. Erməni qüvvələrinin əsas itkiləri Azərbaycan Ordusunun 1992-ci ilin yayında həyata keçirdiyi uğurlu hücum əməliyyatları zamanı qeydə alınmışdır. Azərbaycan ordusunun itkiləri isə əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında baş verilmişdir.

1994-cü ilin mayında Rusiyanın dəstəyi ilə Bişkek protokolu əsasında atəşkəs əldə olunmuşdur. Daha sonra münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar davam etmişdir.

Bərdə rayonunun Yeni Daşkənd kəndindən də Birinci Qarabağ müharibəsində yüzlərlə döyüşçü iştirak etmiş, onlarla döyüşçü şəhidlik zirvəsinə ucalmışdır.

## ŞƏHİDLƏR

**Qasımov Abbas Talıb oğlu** 24 yanvar 1970-ci ildə Samux rayonunun Nəbiağalı qəsəbəsində doğulmuşdur. Atası Talıb Göyçə mahalının Daşkənd kəndindəndir. Talıbın babası Məşədi Qasım 1918–1920-ci illərdə Göyçə mahalında və Qarabağda ermənilərə qarşı döyüşlərdə fəallıq göstərmişdir.

Abbas Qasımov orta məktəbi bitirdikdən sonra Rusiyanın Kamensk şəhərində hərbi xidmətdə olmuşdur.

3 yanvar 1992-ci ildə Xanlar RHK tərəfindən Milli Orduya göndərilmişdir. N saylı hərbi hissənin atıcısı olmuşdur. Yoldaşları arasında "Snayper Abbas" deyə çağırılmışdır. Sərrast atıcı və minaları təhlükəsizləşdirən hərbçi olmuşdur. Gülüstanın alınmasında, Ağdərənin Talış, Suqovuşan kəndlərində gedən döyüşlərdə xüsusən fəallıq göstərmişdir.

5 iyul 1992-ci ildə Ağdərə rayonunda gedən döyüşdə ayağından yaralanmasına baxmayaraq, geri çəkilməmiş, son damla qanına qədər düşmənlə üz-üzə döyüşmüş, qəhrəmancasına şəhid olmuşdur.

Abbas Qasımov Samux rayonunun Nəbiağalı qəsəbəsində dəfn edilmişdir.

**Kərimov Yasif Fəzi oğlu** 3 mart 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Babası Məşədi Qasım 1918–1920-ci illərdə Göyçə mahalında və Qarabağda ermənilərə qarşı döyüşlərdə fəallıq göstərmişdir.

Yasif Kərimov 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

24 mart 1992-ci ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. Sıravi əsgər kimi N saylı hərbi hissənin atıcısı olmuşdur.

22 avqust 1992-ci ildə Ağdərənin Drombon (Heyvalı) kəndi yaxınlığında gedən döyüşdə top qəlpəsindən yaralanaraq şəhid olmuş, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur. Həmin döyüşdə Yasif Kərimov şəhid olmuş, Aqil Əliyev, Adil İsmayılov, Kəmaləddin Kərimov isə yaralanmışdır.

Yasif Kərimovun təhsil aldığı Yeni Daşkənd kənd tam orta məktəbi 1993-cü ildən onun adını daşıyır. 2012-ci ildə məktəbin girişində

şəhidin büstü qoyulmuş, 15 sentyabrda büstün təntənəli açılışı olmuşdur. Haqqında "Ömrün şəhidlik zirvəsi" adlı kitab çap olunmuşdur.

EL TV "Əsgər" verilişinin 2018-ci il tarixli "Şəhidlər" rubrikasında Yasif Kərimovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

2023-cü ildə Yeni Daşkənd kəndində 50 illik yubileyi keçirilmişdir.

Yasif Kərimovun 1991-ci ildə nişanı olmuşdu.

**Balıyev Ziyafət Qurban oğlu** 7 iyul 1965-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1972-ci ildə Yeni Daşkənd kənd orta məktəbində oxumağa başlamışdır. Bərdə Texniki Peşə məktəbinin sürücücülük kursunu bitirmişdir. 1983–1985-ci illərdə sovet ordusu sıralarında serjant rütbəsi ilə hərbi xidmətdə olmuşdur.

Ziyafət Balıyev 1985–1990-cı illərdə Bərdə rayon 4 saylı Ərazi Nəqliyyat İdarəsində sürücü işləmişdir. 1990–1992-ci illərdə Bərdə rayon DİŞ-də polis baş serjantı olmuşdur.

24 mart 1991-ci ildə PPX taqımının tərkibində Ağdərə döyüş bölgəsinə göndərilmişdir. Kəlbəcər rayonunun yaylaqlarındakı polis postlarında xidmət etmişdir. Goranboy rayonunun Şəfəq, Todan, Buzluq, Mənəş kəndlərinin ermənilərdən təmizlənməsində iştirak etmiş, dəfələrlə erməni quldurlarının xeyli sayda canlı qüvvəsini məhv etmişdir. O, eyni zamanda polis şöbəsinə məxsus "PAZ" markalı avtobusu da idarə etmişdir.

13 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşdə şəhid olmuş, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli, 262 №-li fərmanı ilə Balıyev Ziyafət Qurban oğlu (ölümündən sonra) "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Yeni Daşkənd Kənd Folklor Evi şəhid Ziyafət Balıyevin adını daşıyır.

1 may 2014-cü ildə Azərbaycan radiosunun "Vətən yaşasın" proqramında Araz Yaquboğlu şəhid Ziyafət Balıyevin həyatı və döyüş yolu haqqında danışmışdır.

2016-cı ildə EL TV "Əsgər" verilişinin "Qarabağ şəhidləri" rubrikasında Ziyafət Balıyevin həyatı və döyüş yolu haqqında sənədli film yayımlanmışdır.

**Qocamanov Tofiq Əsədxan oğlu** 13 iyul 1971-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1978–1988-ci illərdə Basarkeçər rayonunun Daşkənd kənd orta məktəbində oxumuşdur.

1988-ci ildə azərbaycanlıların Ermənistandan köçürülməsi zamanı ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçməli olmuş, Bakı şəhərində məskunlaşmışdır.

1989–1991-ci illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

17 aprel 1992-ci ildə Bakı şəhəri Nizami RHK tərəfindən Milli Orduya könüllü getmişdir. Kiçik çavuş rütbəsində Tərtər-Ağdərə istiqamətindəki döyüşlərdə iştirak etmişdir.

Tofiq Qocamanov 16 iyul 1992-ci ildə Ağdərə rayonundakı döyüşlər zamanı şəhid olmuş, Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Subay idi.

**Məhərrəmov Mehdi Əmirxan oğlu** 26 iyun 1973-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1980-ci ildə Basarkeçər rayonu Daşkənd kənd orta məktəbinin I sinfinə getmişdir.

1988-ci ildə azərbaycanlıların Ermənistandan köçürülməsi zamanı ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçməli olmuş, Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

Mehdi Məhərrəmov 1990-cı ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. Orta məktəbdə oxuduğu illərdə atası Molla Əmirxandan dini təhsil də almışdır.

11 mart 1992-ci ildə Bərdə RHK tərəfindən hərbi xidmətə çağırılmış, Qarabağ uğrunda gedən döyüşlərin iştirakçısı olmuş, Ağdərə

rayonunda gedən döyüş əməliyyatlarında N saylı hərbi hissənin bacarıqlı rabitəçisi və atıcısı kimi xidmət göstərmişdir.

5 fevral 1993-cü ildə Ağdərə rayonunun Çıldıran kəndində gedən döyüşlər zamanı itkin düşmüşdür. Məzarının yeri məlum deyil. Ona Bərdə rayon Xalq Məhkəməsi tərəfindən şəhid adı verilmişdir.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2018-ci il tarixli "Şəhidlər" rubrikasında Mehdi Məhərrəmovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Qardaşı, baş leytenant Əli Məhərrəmov və qardaşı oğlu Nəbi Əmirxanlı Vətən müharibəsi iştirakçısıdırlar.

**Quliyev Ziya Yelmar oğlu** 29 iyul 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

Bərdə RHK-ya müraciət edərək Milli Orduya könüllü getmişdir. N saylı hərbi hissənin atıcısı olmuşdur. İki aylıq təlimlərdən sonra döyüşlərdə iştirak etməyə başlamışdır. Laçın, Kəlbəcər bölgələrində, Qamışlı-Yanşaq istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Sıravi əsgər Ziya Quliyev 2 aprel 1993-cü ildə Kəlbəcər rayonunda bud nahiyəsindən ağır yaralanmış, döyüş bölgəsindən çıxa bilməmiş və şəhid olmuşdur. Şəhidin meyitini götürmək mümkün olmamışdır. Məzarının yeri məlum deyil.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2018-ci il tarixli "Şəhidlər" rubrikasında Ziya Quliyevin həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Süleymanov Nurəddin Əmirxan oğlu** 17 may 1974-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1981-ci ildə Daşkənd orta məktəbinin I sinfinə getmişdir.

1988-ci ildə azərbaycanlıların Ermənistandan köçürülməsi zamanı ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçməli olmuş, Bakı şəhərində məskunlaşmışdır.

1992-ci ildə Bakı şəhəri Nəriman Nərimanov rayonu 177 nömrəli tam orta məktəbi bitirmişdir.

25 avqust 1992-ci ildə Bakı şəhəri Nərimanov RHK tərəfindən hərbi xidmətə çağırılmış, N saylı hərbi hissənin atıcısı olmuşdur. 1992-ci ilin avqust ayından 1993-cü ilin fevral ayınadək Türkiyədə hərbi təlimlərdə iştirak etmişdir.

Nurəddin Süleymanov 4 aprel 1993-cü ildə Kəlbəcər rayonunun Murovdağ istiqamətində gedən döyüşdə şəhid olmuşdur. Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Subay idi.

**Zeynalov Nəbi Surxay oğlu** 1 fevral 1975-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1982-ci ildə Daşkənd kənd orta məktəbinin I sinfinə getmişdir. 1988-ci ildə ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçməli olmuş, əvvəlcə Bərdə rayonunun Yeni Daşkənd kəndində, daha sonra isə Xanlar (indiki Göygöl) rayonunun Quşçu kəndində məskunlaşmışdır. 1992-ci ildə Quşçu kənd orta məktəbini bitirmişdir.

1993-cü ildə Göygöl RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Tərtər, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 31 iyul 1993-cü ildə elə Ağdərə bölgəsində gedən döyüş əməliyyatı zamanı şəhid olmuşdur. Xanlar rayonunun Quşçu kəndində dəfn edilmişdir.

Subay idi.

1996-cı ildən Göygöl rayonunun Quşçu Kənd Folklor Evi şəhid Nəbi Zeynalovun adını daşıyır.

**Nəzərov Eldəniz Dəmir oğlu** 6 yanvar 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1977–1987-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

10 noyabr 1992-ci ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. N saylı hərbi hissənin atıcısı olmuşdur. Müxtəlif silahlardan istifadə etməyi məharətlə bacarmış, Marağa, Marquşavan döyüşlərində 9 erməni silahlısını əsir götürərək hərbi hissəyə təhvil vermişdir. Ayrı-ayrı vaxtlarda xeyli sayda düşmənin canlı qüvvəsini də məhv etmişdir.

Sıravi əsgər Eldəniz Nəzərov 25 avqust 1993-cü ildə Ağdam rayonundakı döyüşlərdə ağır yaralanmış, Bərdə rayon xəstəxanasına çatdırılsa da, şəhid olmuşdur.

Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Qarabağ şəhidləri" rubrikasında Eldəniz Nəzərovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Qardaşı oğlu Elşad Dəmirzadə Vətən müharibəsi iştirakçısıdır.

**Cəmilov Cəfər İsaq oğlu** 25 may 1958-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1965–1975-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində, 1975–1980-ci illərdə isə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun Elektrotexnika fakültəsində oxumuşdur.

1980-ci ildən Ağdam İslah Əmək Koloniyasında leytenant kimi kolon briqadiri vəzifəsində çalışmışdır.

28 may 1992-ci ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. Baş leytenant Cəfər Cəmilov N saylı hərbi hissənin taqım komandiri olmuşdur. Ağdam rayonunun kəndlərində gedən döyüşlərdə iştirak etmişdir.

18 sentyabr 1993-cü ildə Ağdam rayonunda gedən döyüşlərdə şəhid olmuş, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

1984-cü ildə ailə həyatı qurmuşdur. Övladı olmamışdır.

**Qədirov Qulam Əkbər oğlu** 27 noyabr 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1990–1991-ci illərdə Özbəkistanın Çirkik şəhərində Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

10 may 1991-ci ildə Bərdə RHK tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. 1993-cü ilin oktyabrına qədər N saylı hərbi hissədə xidmət etmişdir. Xüsusən Ağdərə döyüşlərində qumbaraatançı kimi fəallıq göstərmişdir. Bundan sonra isə N saylı hərbi hissənin 5-ci Bərdə taborunun qumbaraatançısı və atıcısı kimi Ağdərə, Laçın, Kəlbəcər

rayonlarındakı qanlı döyüşlərin iştirakçısı olmuşdur. Dəfələrlə düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir.

Kəlbəcər döyüşlərində xidmət etdiyi 5-ci Bərdə taboru Meydançay əməliyyatından sonra uğurlu Qızılqaya əməliyyatını da keçirmişdir. Sonuncu döyüş zamanı qardaşı Rizvan Qasımov yaralanmış, səhəri günü – 19 yanvar 1994-cü ildə isə Qulam Qədirov Kəlbəcər rayonunun Yanşaq kəndində gedən döyüşdə şəhid olmuşdur. 20 yanvar 1994-cü ildə doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

EL TV "Əsgər" verilişinin 28 dekabr 2014-cü il tarixli 15-ci yayımının "Hərbi hissə" rubrikasında Qulam Qədirovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

25 dekabr 2022-ci ildə Yeni Daşkənd kəndində 50 illik yubileyi keçirilmiş, Aqşin Hacızadə onun haqqında "Qulam Qədirov – 50" (Bakı, "İmza", 2022) adlı kitab yazmışdır.

Qulam Qədirovun böyük qardaşı Rizvan Qasımov II qrup Qarabağ müharibəsi əlilidir.

**Həsənov Firudin Əli oğlu** 20 yanvar 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1976–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Qazax Kənd Təsərrüfatı texnikumunun şərabçılıq fakültəsində təhsil almışdır.

1987–1989-cu illərdə Özbəkistanda Sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

10 fevral 1993-cü ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. N saylı hərbi hissənin atıcısı olmuşdur. Ağdam, Laçın, Kəlbəcər rayonları ərazisində gedən döyüşlərdə iştirak etmiş, Kəlbəcərin 12 kəndinin geri qaytarılmasında fəallıq göstərmişdir.

Sıravi əsgər Firuddin Həsənov 3 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Buzluq yüksəkliyində gedən döyüşdə şəhid olmuş, 4 fevralda Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Qarabağ şəhidləri" rubrikasında Firudin Həsənovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Piriyev Rəşadət Əli oğlu** 1 oktyabr 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

11 mart 1992-ci ildə Bərdə RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. N saylı hərbi hissənin atıcısı olmuş, Ağdam, Ağdərə, Laçın və Kəlbəcər rayonlarında gedən döyüş əməliyyatlarında iştirak etmişdir. 1993-cü ildə Ağdam rayonundakı döyüşdə qolundan yaralanmışdır. Bacarıqlı rabitəçi operator və hərbi texnikaların zərərsizləşdirilməsi üzrə əməliyyatçı olmuşdur.

Sıravi əsgər Rəşadət Piriyev 11 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Yanşaq kəndində şəhid olmuşdur. Məzarının yeri dəqiq məlum deyil.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2018-ci il tarixli "Şəhidlər" rubrikasında Rəşadət Piriyevin həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Qardaşı, polis polkovnik-leytenantı Rəşid Piriyev Birinci Qarabağ müharibəsi veteranıdır.

**Canbaxışov Mahmud Surxay oğlu** 24 aprel 1975-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1982-ci ildə Daşkənd kənd orta məktəbinin I sinfinə getmişdir.

1988-ci ildə ailəsi ilə birlikdə doğulduğu kənddən məcburən köçməli olmuş, əvvəlcə Bərdə rayonunun Yeni Daşkənd kəndində, 1990-cı ildən isə Xanlar rayonunun Qarabulaq kəndində məskunlaşmışdır. 1992-ci ildə Quşçu kənd orta məktəbini bitirmişdir.

1993-cü ildə Xanlar RHK-dan Milli Orduya çağırılmışdır.

Sıravi əsgər Mahmud Canbaxışov N saylı hərbi hissənin atıcısı olmuşdur. 1994-cü il aprelin 16-dan 17-nə keçən gecə Beyləqan-Füzuli ərazisində minaya düşərək şəhid olmuşdur. Şəhidin meyitini götürmək mümkün olmamışdır. Məzarının yeri məlum deyil. Xanlar rayon Xalq Məhkəməsi tərəfindən şəhid adı verilmişdir.

Subay idi.

Qardaşı Elman Canbaxışov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Hüseynov Elçin Əlif oğlu** 19 fevral 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1980-ci ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmişdir.

16 aprel 1992-ci ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. N saylı hərbi hissənin kəşfiyyatçısı olmuşdur.

Sıravi əsgər Elçin Hüseynov 24 aprel 1994-cü ildə Ağdərə bölgəsində döyüş zamanı şəhid olmuş, 26 apreldə Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Elçin Hüseynov 30 oktyabr 1993-cü ildə ailə həyatı qurmuşdur. Övladı olmamışdır.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Qarabağ şəhidləri" rubrikasında Elçin Hüseynovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

19 fevral 2023-cü ildə Yeni Daşkənd kəndində 50 illik yubileyi qeyd olunmuşdur.

**Əliyev Məhərrəm Ənvər oğlu** 1965-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1972–1982-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1983–1985-ci illərdə Ukraynada sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

Bərdə 105 saylı Texniki Peşə məktəbini bitimiş, "Yeni həyat" kolxozunda III dərəcəli traktor sürücüsü işləmişdir.

1 mart 1994-cü ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmışdır. N saylı hərbi hissənin atıcısı olmuşdur. Ağdərə, Ağdam bölgəsində gedən döyüşlərdə iştirak etmişdir.

Sıravi əsgər Məhərrəm Əliyev 5 iyun 1995-ci ildə Ağdam rayonunda minaya düşərək şəhid olmuşdur. 6 iyunda Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

1988-ci ildə ailə həyatı qurmuşdur. Abdulla və Xəyal adlı iki oğlu yadigar qalmışdır.

**İlyasov Rəsul Niftalı oğlu** 12 iyul 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1982-ci ildə Yeni Daşkənd kənd orta məktəbində, 1983-cü ildə isə Bərdə şəhər Bülbül adına 1 saylı Uşaq İncəsənət məktəbində, eyni zamanda təhsil almağa başlamışdır. 1992-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. 1993-cü ildə Bakı Ali Menecer Kollecinə daxil olmuşdur.

28 oktyabr 1995-ci ildə Bakı metropolitenində dəhşətli partlayış baş vermişdir. Bakı metropoliteninin "Ulduz" və "Nəriman Nərimanov" metrostansiyaları arasında hərəkət edən 21 saylı qatarın 4-cü vaqonunda yanğın olmuş və bütün qatarı alov bürümüşdür. Rəsul İlyasov da bu qatarda sərnişinlər arasında olmuş, sağ qalmış, özü ilə iki nəfəri də xilas edərək od-alovdan uzaqlaşmışdır. O, köməksiz insanların tuneldə qaldığından Çingiz Babayevlə yenidən tunelə qayıtmış, yaralıların xilas olması üçün kömək etmişdir. Lakin Rəsul İlyasov və Çingiz Babayev qatı tüstüdən boğularaq şəhid olmuşdur.

Rəsul İlyasov Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

## Digər şəhidlər

**Hüseynov Rəşid Hüseyn oğlu** 1962-ci ildə Kəlbəcər rayonunun Əli Bayramlı (indiki Mollabayramlı) kəndində anadan olmuşdur. 1978-ci ildə Zar kənd orta məktəbini bitirmişdir. 1978-ci ildə ailəsi ilə birlikdə Xocalıya köçmüşdür. Orta məktəbi Xocalıda bitirmişdir.

1980–1982-ci illərdə sovet ordusu sıralarında xidmət etmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra Şuşa texniki peşə məktəbində oxumuşdur.

1989-cu ildən Xocalı milis bölməsində ictimai asayişin keşikçisi olaraq işləməyə başlamış, şəhid olana qədər DİN-nin polis sıravisi olmuşdur. Gecə-gündüz Xocalı, Xankəndi dəmiryolu vağzalında növbədə durmuş, erməni təxribatlarının qarşısını almağa səy göstərmişdir.

Xocalı mühasirədə olduğundan həyat yoldaşını və uşaqlarını 19 noyabr 1991-ci ildə Xocalıdan köçürmüş, ata-anası Xocalıda qalmış, özü isə Xocalıda xidmətinə davam etmişdir.

Rəşid Hüseynov 26 fevral 1992-ci ildə baş verən Xocalı soyqırımı zamanı xocalıları müdafiə edə-edə Naxçıvanikə (Naxçıvanlı) qədər gəlmiş, orada şəhid olmuşdur. Rəşidin atası Hüseynov Hüseyn Fərəc oğlu və anası Hüseynova Zinyət Yunis qızı da həmin soyqırımı zamanı şəhid olmuşdur. Hər üçünün (ata, ana və oğul) meyitləri 2 mart 1992-ci ildə Ağdamdan gətirilərək Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Rəşid Hüseynov 1988-ci ildə Tacirə Qaçay qızı ilə ailə həyatı qurmuşdu. Samir və Azadə adlı iki övladı var.

**Şükürov Ələsgər Fərrux oğlu** 26 iyun 1965-ci ildə Kəlbəcər rayonunun Əli Bayramlı (Mollabayramlı) kəndində anadan olmuşdur.

S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir.

1993-cü ilin aprel ayında qaçqın düşdükdən sonra ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

Yeni Daşkənd kəndinin köhnə məktəb binasında yerləşən Kəlbəcər rayon 53 nömrəli orta məktəbin direktoru işləmişdir.

1994-cü ildə Gəncə ŞHK-dan (Kəlbəcər RHK) milli orduya könüllü getmişdir. N saylı hərbi hissənin atıcısı olmuş, Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Ələsgər Şükürov 26 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində döyüş zamanı yaralanaraq şəhid olmuşdur.

Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

**Əliyev Daşqın Bəşir oğlu** 10 may 1975-ci ildə Ağdərə rayonunun Maniklu (Məlikli) kəndində anadan olmuşdur. Maniklu kənd orta məktəbində oxumuşdur.

12 mart 1992-ci ildə doğulduğu kənd işğal olunduqdan sonra ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1994-cü ildə Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Tovuz rayonunun Əlibəyli, Vahidli kəndlərində döyüşmüşdür.

7 iyul 1997-ci ildə Maraldağ yüksəkliyində şəhid olmuşdur.

Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

**Əliyev Elşən Şura oğlu** 1 sentyabr 1974-cü ildə Ağdərə rayonunun Maniklu (Məlikli) kəndində anadan olmuşdur. Maniklu kənd orta məktəbində oxumuşdur.

12 mart 1992-ci ildə doğulduğu kənd işğal olunduqdan sonra ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1994-cü ildə Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Tovuz rayonunun Əlibəyli, Vahidli kəndlərində döyüşmüşdür.

9 oktyabr 1997-ci ildə Maraldağ yüksəkliyində minaya düşərək şəhid olmuşdur.

Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

## DÖYÜŞÇÜLƏR

**Abbasəliyev Amil Müzəffər oğlu** 28 avqust 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

23 mart 1992-ci ildə hərbi xidmətə getmiş, Azərbaycan Silahlı Qüvvələrinin ilk əsgərlərindən olmuşdur. Ağdərə, Ağdam, Əsgəran rayonları, Fərrux dağı, Aranzəmin, Naxçıvanik (Naxçıvanlı), Pircamal, Horadiz və Lələ təpə istiqamətindəki döyüşlərdə iştirak etmişdir. 2 aprel 1998-ci ildə milli ordudan tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

Amil Abbasəliyev 2001-ci ildə ailə həyatı qurmuşdur. Üç övladı var. Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

**Abbasov Səyavuş Eldar oğlu** 15 mart 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1978–1988-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1989–1991-ci illərdə Orenburq şəhərində sovet ordusu sıralarında hərbi hava qüvvələrində starşina (çavuş) rütbəsində həqiqi hərbi xidmət keçmişdir.

1991–1992-ci illərdə Ağdərə, Kəlbəcər cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 1992-ci ildə Ağdərə rayon polis şöbəsində işləmişdir.

1993-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olmuş, 1997-ci ildə həmin akademiyanı fərqlənmə diplomu ilə bitirən 16 nəfərdən biri olmuşdur. Akademiyanı baş leytenant rütbəsi ilə bitirmişdir.

Kapitan Səyavuş Abbasov 1997-ci ildən Bərdə rayon polis şöbəsinin əməliyyat müvəkkili işləyirdi.

Qarabağ müharibəsi veteranı idi.

23 iyul 2001-ci ildə avtomobil qəzasında 29 yaşında həlak olmuş, doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Subay idi.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Döyüş yolu" rubrikasında Səyavuş Abbasovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Abdullayev Rafiq Mirzə oğlu** 4 iyun 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1975–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 14 dekabr 1987-ci ildən 16 dekabr 1989-cu ilədək sovet ordusunda hərbi xidmətdə olmuş, xidmətini Xabarovsk diyarının Komsomolsk-na-Amure şəhərində keçmişdir.

1993-cü ildə Qarabağ müharibəsinə getmiş, N saylı hərbi hissənin tərkibində döyüşmüş, 1996-cı ildə ordudan tərxis olunmuşdur. Əsasən Ağdam rayonunun Sarıcalı, Zəngişalı, Mahrızlı kəndlərində xidmət etmişdir.

Qarabağ müharibəsi veteranı, III qrup əlildir.

2002-ci ildə Rəfiqə Kamran qızı ilə ailə qurmuşdur. İki qızı, bir oğlu var.

**Alıyev Niyazi Müstəcəb oğlu** 14 oktyabr 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1979–1989-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1989–1991-ci illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992–1993-cü illərdə Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş, Murovdağda, Kəlbəcərdə, Laçın ərazisindəki döyüşlərdə iştirak etmişdir.

1995-ci ildə ailə həyatı qurmuşdur. İki oğlu, bir qızı var. Bakı şəhərində yaşayır.

Niyazi Alıyevin oğlu Samir Alıyev Vətən müharibəsi iştirakçısıdır.

**Babayev Xəyyam Kərim oğlu** 1 fevral 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1979–1989-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Bir müddət sovet ordusu sıralarında hərbi xidmət keçmişdir. 1991-ci ilin sentyabrında Azərbaycana qayıtmışdır.

1992-ci ilin ortalarında könüllü kimi "Azadlıq" batalyonu sıralarında döyüşlərə qatılmış, sonra N saylı hərbi hissəyə keçirilmişdir. Ağdam, Ağdərə, Qubadlı cəbhə bölgələrindəki qanlı döyüşlərin

iştirakçısı, eyni zamanda kəşfiyyatçı olmuşdur. Qolundan, ayağından qəlpə, iki dəfə beyin travması və başından güllə yarası almışdır. Sıravi əsgər olmasına baxmayaraq, yaxşı döyüşçü olduğundan taqım, bölük komandiri vəzifələrini də yerinə yetirmişdir.

1994-cü ildə baş çavuş rütbəsi ilə ordudan tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlilidir.

**Babayev Şakir Zülfəli oğlu** 12 avqust 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1969–1979-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1980–1982-ci illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmiş, xidmətinin bir hissəsi Əfqanıstanda olmuşdur. Baş çavuş, 1-ci dərəcəli tank sürücü mexaniki kimi xidmət keçmişdir.

Hərbi xidmətdən sonra sürücü işləmişdir.

1993-cü ilin sentyabrından idarə etdiyi KAMAZ markalı yük avtomobili ilə könüllü olaraq N saylı briqadada xidmətə başlamışdır. 1994-cü ilin may ayına qədər Ağdam, Kəlbəcər cəbhə bölgələrindəki döyüş əməliyyatlarında, 5-ci taborun hərbi sursat və ərzaqla vaxtlı-vaxtında təmin olunmasında yaxından iştirak etmişdir.

Şakir Babayev 6 may 2020-ci ildə Yeni Daşkənd kəndində 58 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. İki qızı, bir oğlu var.

**Bayramov Fidayıl Yusif oğlu** 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1970–1980-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1992–1994-cü illərdə Şuşa rayon polis şöbəsinin tərkibində döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranıdır.

Fidayıl Bayramov 1985-ci ildə ailə həyatı qurmuşdur. Üç övladı var.

**Bayramov Hidayət Qədim oğlu** 27 noyabr 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1978–1988-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1989–1991-ci illərdə Çexoslovakiyada sovet ordusu sıralarında hərbi xidmət keçmişdir.

1992-ci ildən Qarabağ döyüşlərində iştirak etmiş, Füzuli və Qazax cəbhələrində döyüşmüşdür. 1996-cı ilin noyabr ayında milli ordudan tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

1999-cu ildə ailə həyatı qurmuşdur. İki oğlu var.

**Bayramov Raqub Yusif oğlu** 6 may 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1976–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1987–1989-cu illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1991-ci ildən "Yeni həyat" kolxozunda traktorçu işləmişdir.

17 noyabr 1993-cü ildən Ağdam cəbhəsindəki N saylı hərbi briqadanın tərkibində Qarabağda gedən döyüşlərdə iştirak etmişdir. 6 fevral 1996-cı ildə milli ordudan tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

Raqub Bayramov 20 oktyabr 1992-ci ildə ailə həyatı qurmuşdur. İki oğlu var.

Oğlu Nurlan Bayramov Vətən müharibəsi iştirakçısıdır.

**Bayramov Rəfail Yusif oğlu** 13 aprel 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1973–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1984–1986-cı illərdə Moskvada 28604 nömrəli hərbi hissədə xidmət etmişdir.

1 avqust 1993-cü ildə Ağdərə rayon polis şöbəsində post-patrul xidmətinin baş serjantı vəzifəsində işə başlamışdır. Ağdərə rayonunda gedən döyüşlərdə iştirak etmiş, 24 aprel 1994-cü ildə yaralanmışdır. Səhhəti ilə əlaqədar 1998-ci ilin may ayında işdən azad olunmudur.

II qrup Qarabağ müharibəsi əlilidir.

Rəfail Bayramov 1989-cu ildə ailə həyatı qurmuşdur. İki övladı var.

**Camalov Müsəllim Cəmil oğlu** 8 dekabr 1971-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1979-cu ildə Basarkeçər rayonu Daşkənd kənd orta məktəbində oxumağa başlamış, 1989-cu ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. 1988-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1989–1991-ci illərdə sovet ordusu sıralarında hərbi dəniz hava qüvvələrində həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin may ayından Qarabağ müharibəsinə qoşulmuşdur. 1992–1995-ci illərdə N saylı briqadanın tərkibində Ağdərə bölgəsindəki döyüş əməliyyatlarında iştirak etmiş, Akop Kamari (Lüləsaz) kəndində başından yaralanmışdır.

Müsəllim Camalov 1995-ci ildə N saylı hərbi hissəyə keçirilmiş, 1996-cı ildə Türkiyədə komandirlik kursunda bir il beş ay təcrübə keçmişdir. Azərbaycan Silahlı Qüvvələrinə xidmətə qayıdarkən əvvəlcə taqım, az sonra isə bölük komandiri kimi xidməti vəzifəsini yerinə yetirmişdir. Sonralar isə hərbi hissənin əməliyyat kəşfiyyat rəisinin baş köməkçisi vəzifəsində çalışmışdır.

Çavuşluqdan kapitan rütbəsinə qədər hərb yolu keçən Müsəllim Camalov 2003-cü ilin yanvar ayında Azərbaycan Silahlı Qüvvələrindən tərxis olunmuşdur. Qarabağ müharibəsi veteranıdır.

Hal-hazırda Bakı şəhərində yaşayır. Ailəlidir, iki övladı var.

**Canbaxışov Camal Xasay oğlu** 1 aprel 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1978–1988-ci illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur. 1988–1991-ci illərdə Moskva şəhərində sovet ordusu sıralarında hərbi xidmət keçmişdir.

1 mart 1992-ci ildən 18 oktyabr 1992-ci ilə qədər N saylı hərbi hissədə atıcı manqanın komandiri vəzifəsində xidmət etmişdir. Əsgəran, Ağdam, Ağdərə və Ağcakənd cəbhələrində bir neçə yaşayış məntəqələrinin azad olunmasında iştirak etmişdir. 1992-ci ilin oktyabrında N saylı briqadaya keçirilmiş və 5-ci Bərdə taborunun 2-ci bölüyünün taqım komandiri vəzifəsini yerinə yetirmişdir.

1993–1994-cü illərdə 1-ci və 2-ci Kəlbəcər əməliyyatlarının da iştirakçısı olmuşdur. 1993-cü ilin aprel ayında İsmayıllı rayonundan

olan, ağır yaralanmış Əlisahib Əzizovu Keçiliqayadan belinə alaraq və bir neçə gün piyada apararaq döyüş bölgəsindən çıxarmışdır.

Camal Canbaxışov 1996-cı ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sıralarından tərxis olunmuşdur. II qrup Qarabağ müharibəsi əlilidir.

Baş çavuş Camal Canbaxışov xidmət dövründə beş dəfə "Fəxri fərman"la, 2016-cı ildə isə "Fədai" medalı ilə təltif olunmuşdur.

EL TV "Əsgər" verilişinin 21 dekabr 2014-cü il tarixli 14-cü yayımının "Döyüş yolu" rubrikasında Camal Canbaxışovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

2001-ci ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı var.

**Canbaxışov Elman Surxay oğlu** 3 mart 1971-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1978–1988-ci illərdə Daşkənd kənd orta məktəbində oxumuşdur. 1988-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1989-cu ildən 1991-ci ilin iyununa qədər Çita şəhərində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin avqust ayında Milli Ordu sıralarına səfərbər olunmuş, 1994-cü ilin may ayına kimi Kəlbəcər, Tərtər, Ağdam cəbhə bölgələrindəki döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranıdır.

1995-ci ildə ailə həyatı qurmuşdur, üç övladı var.

Elman Canbaxışovun kiçik qardaşı Mahmud Canbaxışov 1994-cü ildə döyüşdə minaya düşərək şəhid olmuşdur.

**Əhmədov Nüsrəddin İbad oğlu** 9 oktyabr 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur.

1981–1983-cü illərdə həqiqi hərbi xidmət keçmişdir. 1984–1993-cü illərdə "Yeni həyat" kolxozunda çilingər işləmişdir.

1993-cü ilin oktyabr ayından könüllü olaraq N saylı hərbi hissənin tərkibində Ağdam rayonunda gedən döyüşlərdə iştirak etmişdir. 1995-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

Hal-hazırda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Bərdə regional təlim mərkəzində sürücü işləyir.

Nüsrəddin Əhmədov 1986-cı ildə ailə həyatı qurmuşdur. İki oğlu var.

Oğlu Saməddin İbadov Vətən müharibəsi iştirakçısıdır.

**Əliyev Aqil Cavanşir oğlu** 1 fevral 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur. Bir il Qazaxıstanda sovet ordusu sıralarında xidmət etdikdən sonra Azərbaycana qayıtmış, yenidən Bərdə RHK-ndan Milli Orduya çağırılmışdır.

1992-ci ilin iyun ayında Ağdərə cəbhə bölgəsində döyüşlərə başlamışdır. Qasapet istiqamətindəki döyüşlərdə sol döş nahiyəsindən yaralanmışdır. 20 gün Bərdə xəstəxanasında müalicə olunduqdan sonra yenidən xidmət etdiyi hərbi hissəyə qayıtmışdır.

22 avqust 1992-ci ildə Ağdərə rayonunun Drombon (Heyvalı) kəndindəki döyüşlərdə kürəyindən ikinci qəlpə yarası almışdır. Birlikdə olduqları həmin döyüşdə Yasif Kərimov şəhid olmuş, Adil İsmayılov, Kəmaləddin Kərimov isə yaralanmışdır.

Bundan sonra üç ay Bərdədə, daha sonra Bakıda uzun müddət müalicə olunmuşdur. Müalicədən sonra arxa cəbhədə xidmətə göndərilmişdir. 1994-cü ilin may ayında ordu sıralarından tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlili idi.

Aqil Əliyev 7 iyun 2020-ci ildə Bərdə rayon xəstəxanasında 47 yaşında vəfat etmiş, Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Ailəli idi. İki oğlu var.

**Əliyev Fəzli Namaz oğlu** 5 may 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1967-ci ildə Yeni Daşkənd kənd orta məktəbinə getmiş, 1975-ci ildə həmin məktəbin VIII sinfini bitirərək müsabiqə yolu ilə Bakı şəhər 1 saylı Fizika-riyaziyyat təmayüllü internat məktəbinə daxil olmuşdur. 1977-ci ildə həmin məktəbi bitirmiş, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Santexnika fakültəsinin "İstilik qaz təzhizatı və ventilyasiya" ixtisasına qəbul olmuşdur.

1982-ci ildə təyinatla Ukraynanın Voroşilovqrad (indiki Luqansk) şəhərində yerləşən V.İ.Lenin adına Dəzgahqayırma zavoduna göndərilmiş, zavodun Baş energetka şöbəsində 3-cü dərəcəli mühəndis konstruktor kimi fəaliyyətə başlamışdır. 12 noyabr 1982-ci ildə sovet ordusu sıralarına çağırılmış, bir aya qədər Ujqorod şəhərində tank polkunda qulluq etmiş, sonra Çernovtsı şəhərində 6 aylıq çavuşluq kursunda oxumuşdur. Kursu bitirdikdən sonra 1983-cü ilin may-iyun aylarında Qərbi Ukraynanın Mukaçevo şəhərinə göndərilmişdir. Orada Çavuş rütbəsi ilə bir il Bölük komandiri vəzifəsini icra etmişdir. 1984-cü ilin əvvəllərində ali təhsilli çavuşları Polşanın sərhədindəki Vladimir-Volınsk şəhərinə göndərmişlər və Fəzli Əliyev burada ümumi toplanışın komandir müavini təyin edilmişdir. 1984-cü ildə xidmətini başa vurub təyinat aldığı zavoda getmiş, evlə təmin olunmuşdur. Zavodda Baş Energetika şöbəsində, Metaləritmə sexində işləmişdir.

1989-cu ilin noyabr ayında evini dəyişərək Bakıda məskunlaşmışdır. Bir müddət Əlvan Metallurgiya Nazirliyinin Layihə şöbəsində 2-ci dərəcəli mühəndis, 1991-ci ildən isə Moskva şəhərində yerləşən Ümumittifaq Elmi Tədqiqat və Energetka Sənayesi İnstitutunun Bakı Kompleks Lahiyələndirmə filialında 1-ci dərəcəli layihəçi-mühəndis vəzifəsində çalışmışdır.

25 may 1992-ci ildə milli ordu sıralarına çağırılmış, 1992-ci ilin iyun-iyul aylarından etibarən Şıx qəsəbəsində yerləşən N saylı hərbi hissəyə göndərilmişdir. Hərbi hissədə yeni orduya çağırılmış, Rusiyada bir il xidmət etmiş, hərbi xidmətini tam başa vurmamış və əsasən inşaat batalyonlarında xidmət etmiş əsgərlərə təlim keçməyə başlamışdır. İlk yığdığı batalyonun tərkibində özü də Kəlbəcər-Laçın bölgəsində döyüşlərdə istirak etmiş, kəllə-beyin zədəsi almışdır. Sonra briqadaya qayıdaraq Qarabağa göndərilmək üçün batalyonların yığılıb döyüşə hazırlanması ilə məşğul olmuşdur.

Sonralar Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin nəzdində yaranan Mərkəzi Zabitlər kursuna köçürülmə yolu ilə qəbul edilmiş, ona Mərkəzi Zabitlər kursunda kapitan hərbi rütbəsi təqdim olunmuşdur.

Fəzli Əliyevə 1994-cü ildə Abşeron rayonu üzrə çağırışçılardan ibarət batalyon yığmaq tapşırılmışdır. Batalyon Zığ qəsəbəsində

yerləşən Hərbi Dənizçilik məktəbinin nəzdində yerləşsə də, onlara Üçtəpə poliqonunda təlim keçmişdir. 1994-cü ilin ortalarında həmin batalyon Beyləqan ərazisinə döyüşə göndərilmişdir.

Sonralar Pirəkəşküldə, Qala qəsəbəsində yerləşən hərbi hissələrdə yeni çağırılmış əsgərlərə təlim keçmişdir. Daha sonra Hacıkənddəki N saylı hərbi hissəyə göndərilmişdir.

1995-ci ildən etibarən arxa cəbhə üzrə batalyon komandiri vəzifəsinə təyin olunmuşdur. Altı ay N saylı briqadanın tərkibində qulluq etdikdən sonra N saylı hərbi hissəyə köçürülmüşdür. 1996-cı ildə Ağdam briqadasında Qarqar çayının sahilində, Hacıməmmədli kəndində qulluqdan sonra yenidən briqada toplamaq üçün Seyfəli təlim mərkəzinə göndərilmişdir. Bir müddət orada qulluq etdikdən sonra yenidən N saylı hərbi hissəyə köçürülmüş, 1998-ci ilin fevral ayında ordudan tərxis olunmuşdur.

Qarabağda zədə aldığı üçün uzun müddət ambulator müalicə almışdır. 2002-ci ildə Hərbi hospitalda stasionar müalicə olunmuş, diaqnoz əsasında baş-beyin travması və ostexindrozun olması ilə II qrup əlillik verilmişdir. 2007–2008-ci illərdə Təbii Amillərlə Bərpa Elmi-Tədqiqat İnstitutunda müalicə olunmuşdur.

2009-cu ildə “Azərenerji” ASC-nin tərkibində Azərbaycan Elmi-Tədqiqat və Layihə Axtarış İnstitutuna işə qəbul olunmuş, bir il ərzində orada baş mütəxəssis, şöbə rəisinin müavini, şöbə rəisi kimi vəzifələrdə işləmişdir. 2013-cü ilun fevral ayından “Evrascon” ASC-də baş mütəxəssis, Santexnika işlərinin layihələndirilməsi üzrə şöbə rəisi olmuşdur. 2015-ci ilin noyabr ayından isə STENTON şirkətində dörd ay işləmiş, şirkət bağlandığı üçün işdən çıxmışdır. 2016-cı ildən böyrəklərində olan xəstəliklə bağlı heç bir yerdə işləmir. 2023-cü ilin fevral ayında böyrəyindən əməliyyat olunmuşdur.

II qrup Qarabağ əlili və ehtiyatda olan mayordur.

Fəzli Əliyev 1988-ci ildə ailə qurub, üç oğlu var. Oğlu, baş leytenant Vüqar Əliyev Vətən müharibəsi iştirakçısıdır. Digər iki oğlanları – baş leytenant Heydər Əliyev Naxçıvan MR-in Şahbuz rayonunda, leytenant Ruslan Əliyev isə Tərtər rayonunda Azərbaycan Ordusunun zabitləri kimi xidmət edirlər.

**Əliyev Mübariz Muxtar oğlu** 5 aprel 1959-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Yeni Daşkənd orta məktəbini bitirmişdir. İki il sovet ordusu sıralarında hərbi xidmət keçmişdir. 1986-cı ildə leytenant rütbəsi almışdır. Birinci Qarabağ müharibəsindən öncə və sonra Bərdə şəhər 2 saylı orta məktəbdə hərbi hazırlıq üzrə müəllim işləmişdir. 1995-ci ildə ona baş leytenant rütbəsi verilmişdir.

Mübariz Əliyev 25 dekabr 1991-ci ildən 14 may 1994-cü ilədək N saylı hərbi hissənin taborlarından birində bölük komandiri vəzifəsində işləmiş və Ağdərə cəbhə bölgəsində gedən döyüş əməliyyatlarında iştirak etmişdir.

Qarabağ müharibəsi veteranı Mübariz Əliyev 1997-ci ildə ürək tutmasından vəfat etmiş, Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

**Əliyev Niyaz Səməd oğlu** 1 iyul 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1982–1992-ci illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur.

1 iyul 1993-cü ildə Bərdə RHK tərəfindən Qarabağ müharibəsinə cəlb olunmuşdur. Qarabağ uğrunda gedən döyüşlərin iştirakçısı olmuş, N saylı hərbi hissədə xidmət göstərmişdir. 1 iyul 1997-ci ildə tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

**Əliyev Şəmsi Sabir oğlu** 17 sentyabr 1974-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1981-ci ildə Daşkənd kənd orta məktəbində oxumağa başlamış, 1991-ci ildə Göygöl rayonunda orta təhsilini tamamlamışdır.

1988-ci ildə ailəsi ilə birlikdə əvvəlcə Bərdə rayonunun Yeni Daşkənd kəndində, sonra Göygöl rayonunun Çaykənd kəndində, daha sonra isə yenidən daimi olaraq Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1992-ci ilin noyabr ayında hərbi xidmətə getmiş, Ağdam, Füzuli, Qubadlı, Laçın, Kəlbəcər və Murovdağda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ilin dekabr ayında tərxis olunmuşdur.

2001-ci ildə ailə həyatı qurmuşdur, iki oğlu var.

Oğlu Kənan Əlizadə Vətən müharibəsi iştirakçısıdır.

**Əmrahov Ərəstun Haris oğlu** 2 aprel 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1970–1980-ci illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur.

1981–1983-cü illərdə Çelyabinsk şəhərində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1993-cü ildə Bərdə RHK tərəfindən Qarabağ müharibəsinə cəlb olunmuşdur. Əvvəlcə Ağdam rayonunda, sonra isə Tovuz rayonunun sərhəd kəndlərində gedən döyüşlərin iştirakçısı olmuşdur. N saylı hərbi hissədə artilleriya diviziyasının baş kəşfiyyatçısı kimi xidmət göstərmişdir. 1995-ci ildə tərxis olunmuşdur.

1996-cı ildən Qarabağ müharibəsi veteranıdır.

1989-cu ildə ailə həyatı qurmuşdur. Dörd övladı var.

**Əsədov İkram Aftandil oğlu** 3 oktyabr 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1975–1985-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1986-cı ildə Bərdə şəhərindəki 105 saylı Bərdə texniki peşə məktəbinin sürücücülük kursunu bitirmişdir.

1987–1989-cu illərdə Gürcüstanda sovet ordusu sıralarında sürücü kimi həqiqi hərbi xidmət keçmişdir.

1993-cü ilin yanvarında Birinci Qarabağ müharibəsinə könüllü olaraq qoşulmuş, Ağdam cəbhəsində N saylı hərbi briqadanın rabitə bölüyündə döyüş yolu keçmişdir. Cəvahirli, Qərvənd, Şelli, Novruzlu, Mərzili kəndləri uğrunda gedən döyüşlərin iştirakçısı olmuşdur. Eyni zamanda N saylı briqadanın Artilleriya rəisinin sürücüsü kimi də xidmət göstərmişdir. 1996-cı ilin fevral ayının 4-də ordudan tərxis olunmuşdur.

Sonralar müxtəlif şirkətlərdə sürücü işləmişdir.

Ailəlidir. İki oğlu var.

Oğlu Təbriz Bahadurlu Vətən müharibəsi iştirakçısıdır.

**Əsgərxanov Etibar Şükür oğlu** 18 fevral 1974-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1991-ci ildə

Azərbaycan Sənaye Universitetinin qiyabi şöbəsinə qəbul olmuş, dördüncü kursdan sonra öz istəyi ilə təhsilinə son vermişdir.

1992-ci ildən Daxili Qoşunların Lənkəran batalyonu tərkibində Ağdərə rayonu istiqamətində, 15 oktyabr 1993-cü ildən 12 may 1994-cü ilədək isə Ağdam və Füzuli rayonlarında gedən döyüşlərdə iştirak etmişdir.

1993-cü ildə Ağdərə rayonunun Mehmana kəndində gedən döyüş zamanı sağ ayağından yaralanmış, 8 fevral 1993-cü ildən 22 mart 1993-cü ilədək Gəncə hospitalında müalicə olunmuşdur. 29 sentyabr 1996-cı ildə tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

1997-ci ildə ailə həyatı qurmuşdur. İki oğlu var.

**Əsgərov Şamxay Möhsüm oğlu** 10 avqust 1965-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1972–1982-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1983-cü ildə sovet ordusu sıralarına getmiş, hərbi xidmətini Türkmənistanda keçmişdir. 1985-ci ildə tərxis olunmuşdur.

8 iyul 1988-ci ildə Tərtər rayon DİŞ-in Mühafizə bölməsində polis nəfəri kimi işə başlamışdır. Ağdərə rayonunun Marquşavan (Şıxarx), Çıldıran, Vaquas (Qozlu) və başqa kəndlərində gedən döyüş əməliyyatlarında iştirak etmişdir. 1992-ci ildə Tərtər-Ağdərə istiqamətində gedən döyüşdə əlindən və ayağından yaralanmışdır. Starşina (çavuş) rütbəsində Ağdərə şəhərinin azad olunmasında fəallıq göstərmişdir. Polisdə "Usta məharət dərəcəsi"nə layiq görülmüşdür. 17 iyul 2006-cı ildə tərxis olunmuşdur.

Birinci Qarabağ müharibəsi veteranıdır.

1989-cu ildə ailə həyatı qurmuşdur. Üç övladı, iki nəvəsi var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Əsgərov Tofiq Möhsüm oğlu** 1963-cü ildə Daşkəsən rayonunun Mollahəsənli kəndində doğulmuşdur. Elə həmin ildə də ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Kənddə hamı ona Bərşad deyirdi. 1970–1978-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 19 oktyabr 1981-ci ildə sovet ordusu sıralarına getmiş, hərbi xidmətini Odessa şəhərindəki daxili qoşun-

ların 7445 №-li hərbi hissəsində çəkmişdir. 1983-cü ilin dekabr ayında tərxis olunmuşdur.

1991-ci ildə könüllü olaraq ilk döyüşə Ağdərə rayonu istiqamətində başlamışdır. Daha sonra N saylı hərbi hissədə bərdəlilərdən təşkil olunmuş taborun tərkibində vuruşmuşdur. 1992-ci ilin payızında “Bərdə taboru”nun tərkibinə keçirilmiş və 2-ci bölük komandirinin müavini vəzifəsinə təyin edilmişdir.

Kiçik leytenant Tofiq Əsgərov Ağdərə, Laçın, Kəlbəcər ərazilərindəki döyüşlərin iştirakçısı olmuşdur.

1995-ci ildə Gəncə şəhərində vəfat etmiş, doğulduğu Daşkəsən rayonunun Mollahəsənli kəndində dəfn olunmuşdur.

**Əzimov Dilafət Yusif oğlu** 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur.

1993-cü ildə Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə göndərilmiş, Ağdam rayonunda gedən döyüşlərdə, Füzuli rayonunun müdafiəsində, 1994-cü ildə Horadiz döyüşlərində iştirak etmişdir. 22 aprel 1994-cü ildə Qubadlı briqadasının tərkibində Lələtəpə uğrunda gedən döyüşdə ağır yaralanmış, Gəncə hospitalında müalicə olunmuşdur. 1994-cü ildə hərbi xidmətdən tərxis edilmişdir.

II qrup Qarabağ müharibəsi əlilidir.

1999-cu ildə ailə həyatı qurmuşdur. İki övladı var. Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

**Hacıyev Adil Xasay oğlu** 13 avqust 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1979–1989-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1990–1991-ci illərdə Qazaxıstan və Rusiyada sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1991-ci ilin əvvəlindən “Azadlıq” özünümüdafiə taborunun, 1992-ci ildən 1995-ci ilin fevralına qədər isə N saylı hərbi hissənin tərkibində Laçın, Ağdam və əsas da Ağdərə istiqamətində gedən döyüşlərdə atıcı vəzifəsində iştirak etmişdir.

Ağdərə rayonundakı döyüşlərdə iki dəfə qəlpə yarası almışdır. Kəşfiyyatçı kimi Kəlbəcər rayonunun Kərəmli kəndində olarkən mühasirəyə düşmüş, Murovdağın ətəyi ilə Tərtər istiqamətində beş gün

şaxtalı havada piyada hərəkət edərək mühasirədən çıxmış, ayaqlarını don vurduğundan hospitalda müalicə olunmuşdur.

10 fevral 1995-ci ildə ordudan tərxis olunmuşdur. II qrup Qarabağ müharibəsi əlilidir.

Ailəlidir, iki övladı var. Hal-hazırda Sankt-Peterburq şəhərində yaşayır, bizneslə məşğuldur.

**Hacıyev Qənbər Eyvaz oğlu** 10 iyun 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1975–1985-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İki il Rusiyanın Çita şəhərində sovet ordusu sıralarında piyadaların döyüş maşınında (PDM) tuşlayıcı-operator kimi həqiqi hərbi xidmət keçmiş, "Döyüş əlaçısı" adına və yefreytor rütbəsinə layiq görülmüşdür.

1992-ci ilin martından 1995-ci ilin martına qədər Xocavənd, Ağdərə, Tərtər, Ağdam, Ağcakənd, Laçın və Kəlbəcər cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 5-ci Bərdə taborunun əsgəri olmuşdur. 12 mart 1992-ci ildə 131 saylı PDM-2 ilə Xocavənd istiqamətindəki 10 saat davam edən qanlı döyüşlər zamanı yaralanmışdır. Bir ay Bakıda, iki ay Bərdə şəhər xəstəxanasında müalicə olunsa da, bədənində hələ də 8 qəlpə gəzdirir. Qarabağ müharibəsi veteranıdır.

Qəmbər Hacıyev 1989-cu ildə ailə həyatı qurmuşdur. İki övladı var.

**Hacıyev Nadir Xasay oğlu** 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. İki il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992–1994-cü illərdə Laçın, Kəlbəcər, Ağdam cəbhə bölgələrində 2-ci bölüyün tərkibində döyüş əməliyyatlarında iştirak etmişdir.

1994-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Ailəlidir. Üç övladı var.

**Hacıyev Oruc Eyvaz oğlu** 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1973–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1984–1986-cı illərdə Arxangelsk vilayətində daxili qoşunlarda xidmət etmişdir.

1987-ci ildən 1990-cı ilə qədər Tolyatti Maşınqayırma zavodunda işləmişdir. 1990-cı ildən Azərbaycan DİN-nin Ağdərə RPŞ-də kiçik çavuş rütbəsində xidmət etməyə başlamışdır. İşlədiyi müddətdə cəbhə bölgələrində gedən döyüş əməliyyatlarında iştirak etmişdir.

Oruc Hacıyev 18 sentyabr 1996-cı ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. İki övladı var.

**Hacıyev Vüqar Eyvaz oğlu** 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1976-cı ildə Yeni Daşkənd kənd orta məktəbinə getmişdir. 1987–1989-cu illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1990-cı ildə Bərdə rayon DİŞ-də polis nəfəri kimi işə başlamışdır. Ağdərə rayonunun Marquşavan (Şıxarx), Drombon (Heyvalı), Goranboy rayonunun Mənəşli, Erkəc, Şəfəq kəndlərində gedən döyüş əməliyyatlarında iştirak etmişdir. Ağdam rayonunun 19-cu postunda, Uzundərə ərazisində və Kəlbəcər rayonunun Sarıyer yaylağında da polis sıralarında fəallıq göstərmişdir.

1994-cü ildə tərxis olunmuşdur. Qarabağ müharibəsi veteranıdır.

Vüqar Hacıyev 1991-ci ildə ailə həyatı qurmuşdur, altı övladı var.

Oğlu, kiçik çavuş Elmir Eyvazlı Vətən müharibəsi qazisidir.

**Hacızadə Üzeyir Şiruyə oğlu** 10 iyul 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1981–1991-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1992-ci ildə Tibb texnikumuna qəbul olmuş, "Diş texniki" ixtisasını bitirmişdir.

1992-ci ildə 17 yaşı tamam olmamış könüllü olaraq Laçın döyüş bölgəsinə yollanaraq N saylı briqadanın 5-ci Bərdə taborunda döyüşmüşdür. Hoçaz yüksəkliyi uğrundakı döyüş əməliyyatlarında iştirak etmişdir. Yaşına görə onu cəbhədən uzaqlaşdırmaq istəsələr də, mümkün olmamışdır. 18 fevral 1993-cü ildə döyüşdən qayıtmışdır.

22 sentyabr 1994-cü ildə həqiqi hərbi xidmətə çağırılmış, kəşfiyyat batalyonunda xidmət etmişdir. Bir neçə əməliyyatda iştirak etmişdir. 1995-ci ilin dekabr ayında Füzuli döyüs bölgəsinə göndərilmiş, N saylı hərbi hissədə baş çavuş rütbəsində kəşfiyyat bölüyünün tibb təlimatçısı olmuşdur. 8 yanvar 1998-ci ildə tərxis olunmuşdur.

2007-ci ildən ANAMA-da ərazilərin minalardan təmizlənməsi üzrə həkim-paramedik vəzifəsində çalışır. Füzuli, Ağstafa, Tovuz, Qazax, Siyəzən, Ağdam, Güzdək və başqa yerlərdə işləmişdir.

1 avqust 2015-ci ildən Tərtər rayonunda Beynəlxalq Avrasiya Mətbuat Fondunun nəzdində fəaliyyət göstərən "İcma Mina Aksiyası" komandasında paramedik işləyir.

Üzeyir Hacızadə 2016-cı il Aprel döyüşlərində və 2020-ci il Vətən müharibəsində öz peşəsi üzrə iştirak etmişdir.

1998-ci ildə ailə həyatı qurmuşdur, iki övladı var.

**Həsənli Nofəl Sabit oğlu** 29 may 1974-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1981–1991-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

13 iyun 1992-ci ildə Bərdə RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Laçın, Kəlbəcər, Ağdərə cəbhələrində gedən döyüşlərdə iştirak etmişdir. 11 fevral 1993-cü ildə Ağdərə rayonunun Qızılqaya (Arutunaqomer) kəndində döyüş zamanı yaralanmışdır. Ağdərədə, Tərtərdə sonda isə Gəncədəki 230 nömrəli hərbi hospitalda altı dəfə əməliyyat olunmuşdur. Uzun müddət müalicə olunduqdan sonra Pirəkəşküldəki və Tovuz rayonundakı hərbi hissələrdə xidmət etmişdir. 23 noyabr 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlilidir.

EL TV "Əsgər" verilişinin 2016-cı il tarixli "Qarabağ qaziləri" rubrikasında Nofəl Həsənlinin həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Nofəl Həsənli 28 noyabr 1998-ci ildə Lumuna Fərhad qızı ilə ailə həyatı qurmuşdur. Dörd övladı, iki nəvəsi var.

**Həsənov Malik Eldar oğlu** 18 sentyabr 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1974–1984-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1985–1987-ci illərdə Novosibirsk vilayətində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1993-cü ildə N saylı hərbi hissənin tərkibində Ağdam rayonunda döyüşlərə başlamışdır. Kəlbəcər cəbhəsində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ilin mart ayından Ağdərə Rayon Polis Şöbəsində işləməyə başlamışdır.

1995–2012-ci illərdə Çevik Polis Alayında xidmət etmişdir. Hal-hazırda təqaüddədir.

Qarabağ müharibəsi veteranıdır.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Döyüş yolu" rubrikasında Malik Həsənovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Hümbətov Azad Ələddin oğlu** 29 oktyabr 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

23 mart 1992-ci ildən 12 avqust 1996-cı ilə qədər Laçın, Kəlbəcər, Ağdərə, Füzuli cəbhə bölgələrində hərbi xidmət keçmişdir. 1992–1994-cü illərdə N saylı briqadanın 5-ci taborunun 2-ci bölüyündə ağır döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranı idi.

Azad Hümbətov 25 may 2021-ci ildə Bərdə şəhərində vəfat etmiş, Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Qardaşı Səfayət Hümbətov 28 sentyabr 2020-ci ildə Vətən müharibəsində şəhid olmuşdur.

**Hüseynov Cahid Ramazan oğlu** 13 fevral 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1981–1991-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

9 mart 1992-ci ildə Bərdə RHK-ğı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətə Bakı şəhərində başlamış, 1992-ci ilin iyun ayında Ağdam cəbhəsinə göndərilmişdir. 16 iyun 1993-cü ildə Ağdam rayonunun Qalayçılar kəndi uğrunda gedən döyüşdə əsir götürülmüşdür. 8 gün əsirlikdə qaldıqdan sonra – 24 iyun 1993-cü ildə əsirlikdən azad olunmuşdur. Əsirlikdə verilən işgəncələrə görə üç ay müddətində müalicə almış, 7 sentyabr 1993-cü ildən Bakıdakı da-

xili qoşunlarda xidmətini davam etdirmişdir. 4 avqust 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlilidir.

2004-cü ildə ailə həyatı qurmuşdur. İki oğlu var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

Haqqında qəzetdə "Ölüm ocağından dönən əsgər" adlı məqalə çap olunmuşdur.

**Hüseynov Cahid Yaqub oğlu** 6 may 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Doğulduğu kənddə hamı onu Maksim adı ilə tanıyır. 1977-ci ildə Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, səkkizillik təhsil almışdır. Bərdə şəhərindəki 105 saylı Bərdə texniki peşə məktəbini bitirmişdir.

1988–1990-cı illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992–1994-cü illərdə N saylı briqadanın 2-ci bölüyünün tərkibində Ağdam, Füzuli, Laçın və Kəlbəcər rayonlarında gedən döyüşlərdə iştirak etmişdir. Bölük komandiri həmkəndlisi leytenant Rizvan Qasımov olmuşdur.

Cahid Hüseynov 1993-cü ildə ailə həyatı qurmuşdur. İki övladı var.

**Hüseynov Elnur Fərman oğlu** 2 yanvar 1974-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1981-ci ildə orta təhsilə doğulduğu kənddə başlamışdır. 1988-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. 1991-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1992-ci ilin yanvar ayında Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. N saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət keçmişdir. Laçın, Kəlbəcər, Xocavənd, Füzuli cəbhə bölgələrində gedən döyüş əməliyyatlarında kəşfiyyatçı vəzifəsində iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.

1997-ci ildə ailə həyatı qurmuşdur, iki övladı var.

Elnur Hüseynovun kiçik oğlu Zabil Hüseynzadə Vətən müharibəsi iştirakçısıdır.

**Hüseynov Fazil İmaməli oğlu** 28 noyabr 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. İki il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin dekabrından 1994-cü ilin may ayına qədər Laçın, Kəlbəcər, Ağdam cəbhə bölgələrində gedən döyüş əməliyyatlarında iştirak etmişdir. N saylı briqadanın 5-ci taborunun 2-ci bölüyünün əsgəri olmuşdur. 1995-ci ildə ordu sıralarından tərxis edilmişdir.

**Hüseynov Nizami İsbi oğlu** 20 may 1957-ci ildə Gədəbəy rayonunun Qumlu kəndində doğulmuşdur. 1967-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

12 noyabr 1975-ci ildə Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 12670 saylı hərbi hissədə xidmət etmiş, 19 dekabr 1977-ci ildə sovet ordusu sıralarından tərxis olunmuşdur.

Bərdə "Kolxoztikinti" İdarəsində (22.03.1978–01.09.1978) və 1 saylı Tikinti İdarəsində (08.01.1979–16.07.1979) bənna işləmişdir.

"Yeni həyat" kolxozunda mexanizator (17.06.1981–20.03.1984), Təmir Tikinti İdarəsində yol-inşaat maşınlarının çilingəri (27.04.1984–15.08.1984), Tikinti Quraşdırma İdarəsində traktorçu (15.08.1984–19.11.1984), Bərdə Avtonəqliyyat Müəssisəsində sürücü (01.11.1985–01.02.1992) kimi peşələrdə çalışmışdır.

2 mart 1992-ci ildə könüllü olaraq Qarabağ müharibəsində iştirak etmək üçün N saylı hərbi hissədə xidmətə başlamışdır. N saylı hərbi hissənin tərkibində Ağdərə rayonunda gedən döyüşlərdə iştirak etmişdir. Eyni zamanda sürücü kimi də N saylı hərbi hissədə xidmət göstərmişdir. 10 mart 1995-ci ildə milli ordu sıralarından tərxis olunmuşdur.

Qarabağ müharibəsi veteranı idi. Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin üzvü olmuşdur.

15 noyabr 2011-ci ildən 28 oktyabr 2016-cı ilədək "Binəqədi Oil Compani" şirkətində sürücü işləmişdir.

22 sentyabr 2019-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 62 yaşında vəfat etmiş, 23 sentyabrda kənd qəbiristanlığında dəfn olunmuşdur.

1980-ci ildə ailə həyatı qurmuşdur. Beş övladı var.

**Hüseynov Rahil Talıb oğlu** 1 avqust 1976-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1982–1993-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1994-cü ildə Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 1994-cü ildə Qusar, 1995-ci ildə Balakəndə baş verən dövlət çevrilişinə cəhdə hazırlıq hadisələrinin qarşısının alınmasında iştirak etmişdir. 1995-ci ildə Qazax rayonunun Kəmərli kəndində iki postun alınaraq kəndin müdafiəsinin qurulmasında fəallıq göstərmişdir. 10 aprel 1997-ci ildən 10 may 1997-ci ilədək tarixlərdə Qazax rayonunun Xanlıqlar kəndinin üst tərəfindəki Vəlixan meşəsində 1212 postunun azad olunmasındakı döyüşlərdə iştirak etmişdir. 1998-ci ilin yanvar ayında Azərbaycan Silahlı Qüvvələri sıralarından tərxis olunmuşdur.

Rahil Hüseynov 2013-cü ildə Kərbəla və Məşhəd ziyarətlərində olmuşdur.

2001-ci ildə ailə həyatı qurmuşdur, iki oğlu var. Hal-hazırda Bakı şəhərində yaşayır.

**Hüseynov Yasin İmaməli oğlu** 27 dekabr 1965-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1974–1984-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1984–1986-cı illərdə Vladimir vilayətində daxili qoşunlarda həqiqi hərbi xidmət keçmişdir.

27 noyabr 1993-cü ildə Ağdam cəbhəsində gedən döyüş əməliyyatlarına qoşulmuşdur. 24 fevral 1994-cü ildə Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində gedən döyüşlərdə güllə yarası almışdır. Bərdə rayon xəstəxanasında müalicə olunmuş, 8 noyabr 1994-cü ildə qulluq etdiyi hərbi hissəyə qayıtmışdır. 31 dekabr 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.

1990-cı ildə ailə həyatı qurmuşdur, üç övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Xəlilov Rəfail Heydər oğlu** 3 mart 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1975–1985-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1986–1988-ci illərdə Naro-Fominsk şəhərində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1994-cü ildə Füzuli rayonunda və Horadizdə gedən döyüş əməliyyatlarında iştirak etmişdir. 1996-cı ildə tərxis olunmuşdur.

1990-cı ildə ailə həyatı qurmuşdur, iki oğlu var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**İslamzadə Elçin Arif oğlu** 10 sentyabr 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1977–1987-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1987-ci ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, 1992-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirmişdir. 1992–1993-cü illərdə Sənaye-Tikinti Nazirliyinin Hesablama Mərkəzində işləmişdir.

Elçin İslamzadə 1994–2000-ci illərdə Tərtər rayonundakı N saylı hərbi hissədə taqım və böluk komandiri, 2000–2002-ci illərdə Beyləqan rayonundakı N saylı hərbi hissədə rabitə rəisinin müavini, 2002–2004-cü illərdə N saylı hərbi hissədə hərbi hissə komandirinin maddi texniki təminat üzrə müavini vəzifələrində xidmət etmişdir. 2004-cü ilin sentyabr ayında mayor hərbi rütbəsi ilə ehtiyata buraxılmışdır.

2005–2015-ci illərdə "Azərenerji" ASC-də müxtəlif vəzifələrdə, 2015-ci ildən isə "Azərişıq" ASC-də işləyir.

Elçin İslamzadə 1993-cü ildə ailə həyatı qurmuşdur, iki övladı, dörd nəvəsi var. Gəncə şəhərində yaşayır.

**İsmayılov Adil Əmirəhməd oğlu** 27 mart 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1974-cü ildə Yeni Daşkənd orta məktəbinin I sinfinə getmiş, 1982-ci ildə VIII sinfi bitirərək Azərbaycan Dövlət Dəmir Yolu liseyində təhsilini davam etdirmiş, 1985-ci ildə həmin liseyi bitirmişdir.

1985–1987-ci illərdə Belarusiyada sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir. 1988–1992-ci illərdə Ufa şəhərindəki yağ zavodunda işləmişdir. Xocalı soyqırımından bir gün öncə Azərbay-

cana gəlmiş, bir daha Ufaya qayıtmayaraq könüllü olaraq Milli Ordu sıralarına yazılmışdır.

İki ay Bakıdakı N saylı daxili qoşun hissələrində xidmət etdikdən sonra Bərdə rayonundakı N saylı hərbi hissənin tərkibində Ağdərə istiqamətində gedən hərbi əməliyyatlara qatılaraq Heyvalı (Drombon), Kasapet və başqa yaşayış məntəqələrinin düşməndən azad olunmasında iştirak etmişdir. 22 avqust 1992-ci ildə Heyvalı (Drombon) kəndindəki döyüşdə sağ ayağından qəlpə yarası almışdır. Həmin döyüşdə Yasif Kərimov şəhid olmuş, Aqil Əliyev, Kəmaləddin Kərimov isə yaralanmışdır.

1992-ci ilin sonunda könüllülərin ordu sıralarından tərxis olunması ilə əlaqədar Bakıya qayıdaraq Hərbi Dəniz Donanmasının kimyadan müdafiə taborunda starşina vəzifəsində xidmətə başlamışır. Bundan sonra yenidən Ağdərə və Beyləqan cəbhələrinə ezam olunmuşdur. Onun xidmət etdiyi tabor süni surətdə sıx tüstü dumanı yaratmaqla mühasirədə qalan bölükləri, manqaları xilas etməklə məşğul olmuşdur.

Baş çavuş Adil İsmayılov beş il Azərbaycan Silahlı Qüvvələri sıralarında müxtəlif cəbhə bölgələrində xidmət etmişdir. 1997-ci ilin may ayında ordudan tərxis olunmuşdur. II qrup Qarabağ müharibəsi əlilidir.

Ailəlidir, bir oğlu, bir qızı var. Bakı şəhərində yaşayır.

**İsmayılov Çingiz Məhəmməd oğlu** 12 fevral 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1967–1977-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1979–1981-ci illərdə Arxangelsk vilayətində hərbi xidmət keçmişdir. Əsgəri xidməti başa vurduqdan sonra 1982-ci ildə Xarkov Radio-Elektronika İnstitutuna qəbul olmuş, 1987-ci ildə həmin institutun "Elektron cihazları" ixtisasını bitirmişdir.

1988–1992-ci illərdə Bərdə rayon Rabitə Qovşağında çalışmışdır.

Çingiz İsmayılov 1992–1998-ci illərdə Ağdam rayonunda yerləşən N saylı hərbi hissənin rabitə rəisinin müavini və rəisi vəzifələrində işləmiş, hərbi əməliyyatlarda iştirak etmişdir.

1998–2004-cü illərdə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində baş mühəndis vəzifəsində çalışmışdır.

2004–2008-ci illərdə Müdafiə Nazirliyinin təlim-tədris mərkəzində çalışmış, 2008-ci ildən 2015-ci ilə qədər isə Müdafiə Nazirliyinin N saylı hərbi nümayəndəliyində xidmət etmişdir. 2015-ci ilin dekabr ayında Müdafiə Nazirliyindən tərxis olunmuşdur. Mütəxəssis kimi 2015-ci ilin dekabr ayından həmin nümayəndəlikdə saxlanılmışdır. Hal-hazırda da həmin nümayəndəlikdə texnoloq vəzifəsində işləyir.

1986-cı ildə leytenant, 1990-cı ildə baş leytenant, 1994-cü ildə kapitan, 1999-cu ildə mayor, 2004-cü ildə isə polkovnik-leytenant rütbələrini almışdır.

Çingiz İsmayılov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 24 iyun 2003-cü il fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

1988-ci ildə ailə həyatı qurmuşdur. İki oğlu var. Hər iki oğlu – Elgiz Qurbanov və Məhəmməd Məhəmmədli Vətən müharibəsi iştirakçılarıdır.

**İsmayılov Elman Səttar oğlu** 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İki il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin noyabrından 1994-cü ilin mart ayına kimi döyüş əməliyyatlarında iştirak etmişdir. 2-ci bölüyün qumbaraatançı əsgəri olmuşdur. Əvvəl Ağdam rayonunda, daha sonra isə Laçın rayonunda, əsasən də Hocazdağda gedən döyüşlərdə, eləcə də 2-ci Kəlbəcər-Murovdağ əməliyyatı kimi tanınan ağır döyüşlərdə də iştirak etmişdir. 1994-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Oğlu, əsgər Samir İsmayılov Vətən müharibəsi iştirakçısıdır.

**İsmayılov Əli Məhəmməd oğlu** 1 yanvar 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1974–1984-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1985–1987-ci illərdə Novosibirsk vilayətində sovet ordusu sıralarında xidmət etmişdir.

1992–1995-ci illərdə Ağdərə Rayon Polis Şöbəsi tərkibində döyüşlərdə iştirak etmişdir. 1995–2006-cı illərdə isə Mingəçevir Şəhər Polis Şöbəsində işləmişdir.

Qarabağ müharibəsi veteranıdır.

5 yanvar 2022-ci ildən hal-hazıradək Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təsərrüfat işləri üzrə direktor müavini vəzifəsində işləyir.

1995-ci ildə ailə həyatı qurmuşdur, iki övladı var.

**İsmayılov Xəqani Məhəmməd oğlu** 21 oktyabr 1964-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1972–1982-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1982–1984-cü illərdə Primorsk diyarının Lesozavodsk şəhərində sovet ordusu sıralarında hərbi xidmət keçmişdir.

1993–1994-cü illərdə Ağdərə və Tərtər rayon polis şöbələri tərkibində döyüşlərdə iştirak etmişdir. Əsasən Ağdərə rayonundakı "Vışka" və "Qlobus" yüksəklikləri, Goranboy (keçmiş Şaumyan) rayonundakı Daş karxanası deyilən ərazilərdə gedən ağır döyüşlərdə iştirak etmişdir.

1994-cü ildə Tərtər Rayon Polis Şöbəsində işləyərkən Qapanlı kəndinin mudafiəsində fəallıq göstərmişdir.

Atəşkəsdən sonra Yevlax Rayon Polis Şöbəsində, 1997-ci ildən isə Bakı Şəhər Nərimanov Rayon Polis İdarəsində işləmişdir.

2014-cü ildə təqaüdə çıxmışdır, xidmətdə olarkən qüsursuz xidmətlərə görə iki medalla təltif olunmuşdur. Qarabağ müharibəsi veteranıdır.

Hal-hazırda Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsində işləyir.

1987-ci ildə ailə həyatı qurmuşdur, iki övladı var.

**İsmayılov Şamil Məhəmməd oğlu** 8 fevral 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd orta məktəbində oxumuşdur.

1991-ci ildə Rusiyada sovet ordusu sıralarında hərbi xidmətə başlamış, 14 ay xidmət etdikdən sonra Azərbaycana qayıtmışdır. 1992-ci ilin iyun ayından Qarabağ müharibəsində gedən döyüşlərə qoşulmuşdur. Əsasən Füzuli cəhbəsində xidmət etmişdir. 1996-cı ilin avqustunda tərxis olunmuşdur.

Hərbi hissə tərəfindən iki dəfə "Fəxri fərman"la təltif olunmuşdur. Qarabağ müharibəsi veteranıdır.

EL TV “Əsgər” verilişinin 2016-cı il tarixli “Qarabağ qaziləri” rubrikasında Şamil İsmayılovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Şamil İsmayılov 2003-cü ildə ailə həyatı qurmuşdur, iki övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**İsmayılov Ziyad Əmirəhməd oğlu** 10 dekabr 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1978–1988-ci illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

10 dekabr 1989-cu ildə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmək üçün Belarusiya hərbi dairəsinə göndərilmiş, 27 dekabr 1991-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

10 yanvar 1992-ci ildən könüllü olaraq “Bərdə özünümüdafiə batalyonu”nun sıralarına yazılmış, Ağdam, Tərtər və Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. Qarabağ müharibəsi veteranıdır.

1993-cü ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil olmuş, 1997-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

Ziyad İsmayılov 3-cü, 2-ci, 4-cü və 1-ci Ordu korpuslarında dövlət sirrinin mühafizə xidmətinin rəisi vəzifəsində çalışmışdır. Aprel döyüşlərində 1-ci Ordu Korpusunun tərkibində Goranboy, Tərtər və Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. 2016-cı ildə xəstəliklə əlaqədar ordudan tərxis olunmuşdur.

1997-ci ildə leytenant, 1999-cu ildə baş leytenant, 2002-ci ildə kapitan, 2006-cı ildə mayor və 2012-ci ildə polkovnik-leytenant rütbələri almışdır.

2006-cı ildə İsraildə, 2007-ci ildə isə Türkiyədə məxfilik rejiminin qorunması və təşkili üzrə xüsusi kurslar keçmişdir.

Polkovnik-leytenant Ziyad İsmayılov 1-ci dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci dərəcəli “Qüsursuz xidmətə görə”, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalları ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycan Hərbi Dəniz Qüvvələrində mülkü işçi kimi işləyir.

Ziyad İsmayılov 19 oktyabr 1999-cu ildə ailə həyatı qurmuşdur. İki oğlu, bir qızı var.

**Kərimov Kəmaləddin Kərəm oğlu** 5 iyun 1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1979–1989-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1991-ci ildə Vladimir vilayətində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ildə Qarabağ müharibəsinə qoşulmuş, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 22 avqust 1992-ci ildə Heyvalı (Drombon) kəndindəki döyüşdə yaralanmışdır. Birlikdə olduqları həmin döyüşdə Yasif Kərimov şəhid olmuş, Aqil Əliyevlə Adil İsmayılov isə yaralanmışdır. 1993-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

2001-ci ildə ailə həyatı qurmuşdur. İki övladı var.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Kərimov Mehman Vərqa oğlu** 31 mart 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1977–1987-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1988–1990-cı illərdə Kamçatka diyarında sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1 mart 1992-ci ildən könüllü olaraq Qarabağda gedən döyüşlərə qoşulmuşdur. Ağdərə rayonunun Marquşavan (Şıxarx), Sırxavənd, Qasapet, Ortakənd, Çıldıran, Vaquas (Qozlu), Arutunaqomer (Qızılqaya) kəndlərində gedən döyüşlərdə fəal iştirak etmişdir. 12 yanvar 1993-cü ildə Çıldıran kəndində düşmən artilleriyasının atdığı mərminin partlaması nəticəsində qəlpə yarası almışdır. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.

Birinci Qarabağ müharibəsi veteranıdır.

1995-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu, iki qızı, iki nəvəsi var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

Oğlu, leytenant Elgiz Hüseynli Vətən müharibəsi iştirakçısıdır.

**Qasımov Rizvan Əkbər oğlu** 10 may 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd orta məktəbində oxumuşdur. 1986–1988-ci illərdə Moskva vilayətində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir. 1988–1989-cu illərdə "Yeni həyat" kolxozunda işləmişdir.

Rizvan Qasımov Qarabağ müharibəsinin başladığı ilk günlərdən döyüşlərə qoşulmuşdur. Döyüşdüyü batalyon dağıldığından N saylı hərbi briqadanın 5-ci taboruna keçirilmişdir. 1992-ci ildə tabor komandiri Tahir Cəfərov tərəfindən kiçik leytenant rütbəsi verilməklə 2-ci bölüyə komandir təyin olunmuşdur. Laçın rayonunun Hoçazdağ, Qırxqız, Dəvəboynu, Sarıbaba, Fərraş, Nürəddinkənd, Çilyaz yüksəkliklərində gedən döyüşlərdə iştirak etmişdir. 2-ci Kəlbəcər əməliyyatında, xüsusən 1994-cü ilin yanvar ayının ilk günləri ərzində çox ağır döyüşlərin iştirakçısı olmuşdur. Komandiri olduğu 5-ci taborun 2-ci bölüyü Yanşaq kəndinin azad olunması uğrunda döyüşmüş və kiçik leytenant Rizvan Qasımov yanvar ayının 18-də yaralanmışdır.

II qrup Qarabağ müharibəsi əlilidir.

Rizvan Qasımov 25 mart 1993-cü ildə ailə həyatı qurmuşdur. Dörd övladı var.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır. Vətənpərvərliklə bağlı bir çox tədbirlərin təşkilatçısıdır.

EL TV "Əsgər" verilişinin 28 dekabr 2014-cü il tarixli 15-ci yayımının "Hərbi hissə" rubrikasında Rizvan Qasımovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Qəhrəmanov Təyyar Zamaxan oğlu** 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1976–1986-cı illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İki il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin dekabrından 1994-cü ilin mayına qədər Laçın, Kəlbəcər cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmiş, 5-ci taborun əsgəri olmuşdur. 1994-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Qənbəralıyev Ülfət Lütviq oğlu** 6 noyabr 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1976–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1987-ci ildə Bərdə Kənd Təsərrüfatı Texnikumuna qəbul olmuşdur. Üç ay sonra hərbi xidmətə çağırılmış, 1989-cu ilədək Moskvada sovet ordusu sıralarında xidmət keçmişdir. Hərbi xidmətdən sonra texnikumda təhsilinə davam etməyə başlamışdır. 1992-ci ildə texnikumu bitirdikdən sonra "Yeni həyat" kolxozunda aqronom köməkçisi işləmişdir.

1991-ci ilin sonunda Qarabağda gedən döyüşlərə könüllü qoşulmuş, Elçin Əliyevin batalyonunun tərkibində Ağdərə istiqamətində döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranıdır.

1993-cü ilin oktyabrında Azərbaycan DİN-nin Bərdə rayon şöbəsində polis işçisi kimi işə başlamış, polis kimi də Qarabağda gedən döyüş əməliyyatlarının iştirakçısı olmuşdur. 2001-ci ilin sonunadək Bərdə Rayon Polis Şöbəsində çalışmış, öz ərizəsi ilə işdən çıxmışdır.

2002-ci ildən hal-hazıra qədər Tümen vilayətinin Xantı-Mansi şəhərində yaşayır və bizneslə məşğul olur. Tümendə Azərbaycan diasporunun üzvüdür.

Ülfət Qənbəralıyev 1990-cı ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı var.

**Qocamanov Hafiz Şikar oğlu** 17 sentyabr 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1976–1986-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1986–1988-ci illərdə Ukraynada sovet ordusu sıralarında aviasiya qoşunlarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin oktyabrında komandir Elçin Əliyevin hazırladığı Bərdə polkuna könüllü yazılmış, Ağdərə cəbhə bölgəsində döyüş əməliyyatlarında iştirak etmişdir. 1994-cü ilin noyabr ayında N saylı briqadanın tərkibinə keçirilərək Ağdamın müdafiə zolağında xidmətini davam etdirmişdir. 1994-cü ilin dekabr ayında milli ordudan tərxis olunmuşdur.

Hafiz Qocamanov 1996-cı ildə ailə həyatı qurmuşdur. İki övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Qocamanov Kamal Şikar oğlu** 16 noyabr 1961-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1969–1979-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1980–1982-ci illərdə Qazaxıstanda sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin aprel ayından iyul ayına kimi könüllü olaraq “Azadlıq” taboru sıralarında Ağdərə istiqamətindəki döyüşlərdə iştirak etmişdir. Xüsusən döyüşçülərin sursatla təmin olunmasında fəallıq göstərmişdir. Marquşavanda (indiki Şıxarx) sol ayağından yaralanmışdır.

2008-ci ildən Bakı Dövlət Universitetinin nəzdində “Gənc istedadlar” liseyində işləyir.

Kamal Qocamanov 1997-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu var. Bakı şəhərində yaşayır.

**Qurbanov Mahir İsmayıl oğlu** 9 avqust 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1973–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1983-cü ildə M.H.Vəzirov adına Şuşa kənd təsərrüfatı texnikumuna qəbul olmuş, 1988-ci ildə texnikumu baytarlıq ixtisası üzrə bitirmişdir. 27 oktyabr 1984-cü ildə Şuşa RHK tərəfindən hərbi xidmətə çağırılmış, 1204 saylı hərbi hissədə xidmət keçmiş, 6 dekabr 1986-cı ildə sovet ordusu sıralarından tərxis edilmişdir.

15 iyul 1993-cü ildə Bərdə RHK tərəfindən Qarabağ müharibəsinə cəlb olunmuş, 24 yanvar 1994-cü ilədək Ağdam rayonundakı N saylı hərbi hissənin tərkibində artilleriya diviziyasının top komandiri kimi döyüşlərdə iştirak etmişdir. 30 yanvar 1994-cü ildən Ağdam rayonunda hərbi xidmətini davam etdirmiş, 1 noyabr 1994-cü ildə milli ordu sıralarından tərxis olunmuşdur.

Çavuş Mahir Qurbanov Qarabağ müharibəsi veteranı idi.

10 yanvar 2019-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 53 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

26 aprel 1987-ci ildə ailə həyatı qurmuşdur. Üç övladı var.

**Mahmudov Şahin Cavad oğlu** 19 oktyabr 1966-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. 1968-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

5 oktyabr 1984-cü ildə Bərdə RHK tərəfindən sovet ordusuna cəlb olunmuş, Amur vilayətinin Beloqorsk şəhərindəki tank diviziyasında hərbi xidmət keçmiş, 31 noyabr 1986-cı ildə ordu sıralarından tərxis edilmişdir.

15 iyun 1993-ci ildə könüllü olaraq milli ordu sıralarına qatılmış, N saylı briqadanın tərkibində Ağdam cəbhəsində döyüş əməliyyatlarında iştirak etmişdir. 16 fevral 1994-cü ildə tərxis olunmuşdur.

Şahin Mahmudov 1989-cu ildə ailə həyatı qurmuşdur. Beş qızı, bir oğlu var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Mansurov Hidayət Əsgər oğlu** 1 sentyabr 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1992–1994-cü illərdə həqiqi hərbi xidmət keçmiş, N saylı hərbi hissənin əsgəri olmuşdur. Laçın, Kəlbəcər və bir sıra cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. Laçın rayonunun Təzəkənd kəndi istiqamətində gedən döyüş zamanı sağ qolundan yaralanmışdır. 1996-cı ildə ordu sıralarından tərxis edilmişdir.

Qarabağ müharibəsi veteranıdır.

Çavuş Hidayət Mansurov Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında xidmət etmişdir.

Hidayət Mansurov ailəlidir. Hal-hazırda Bakı şəhərində yaşayır.

**Məhərrəmov Natiq Yaqub oğlu** 1968-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İki il sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1993-cü ildə Qarabağ müharibəsinə qoşulmuş, Kəlbəcər, Ağdam cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 1994-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Ailəlidir. Üç övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Məmmədov Aslan Əjdər oğlu** 20 oktyabr 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbini bitirdikdən sonra Milli Ordu sıralarına səfərbər edilmişdir.

3 yanvar 1994-cü ildən 3 noyabr 1997-ci ilə kimi müxtəlif hərbi hissələrdə baş atıcı kimi hərbi xidmət keçmişdir. Ağdərə və Ağdam cəbhə bölgələrindəki döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranıdır.

Ailəlidir. Üç övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Məmmədov Etibar Rafiq oğlu** 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

23 noyabr 1992-ci ildən Laçın, Kəlbəcər, Ağdam cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmiş, bölmə komandiri olmuşdur. 25 mart 1994-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Ailəlidir. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Məmmədov Fəzail Telman oğlu** 10 yanvar 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İki il Qazaxıstanda sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1993-cü ilin may ayından Azərbaycan Ordusunda xidmət etmiş, Füzuli və Ağdam cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 1996-cı ilin yanvar ayında ordudan tərxis olunmuşdur.

Ailəlidir. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Məmmədov Müşfiq Kamran oğlu** 1 avqust 1973-cü ildə Kəlbəcər rayonunun Mollabayramlı kəndində anadan olmuşdur. 1980-ci ildən ailəsi ilə birlikdə Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1992-ci ildə Qarabağ müharibəsinə qoşulmuş, 24 avqust 1992-ci ildə Ağdərə rayonunda gedən döyüşlərdə yaralanmışdır.

II qrup Qarabağ müharibəsi əlili idi.

Müşfiq Məmmədov 10 dekabr 2021-ci ildə vəfat etmiş, Yeni Daşkənd kənd qəbristanlığında dəfn olunmuşdur.

**Məmmədov Vidadi İsabala oğlu** 6 fevral 1967-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Bərdə şəhərindəki 105 saylı Bərdə Texniki Peşə məktəbini bitirmişdir.

1985–1987-ci illərdə Almaniyada sovet ordusu sıralarında, piyada qoşun növündə pulemyotçu, hədəfçi olaraq həqiqi hərbi xidmət keçmişdir.

27 oktyabr 1993-cü ildən Azərbaycan Silahlı Qüvvələri sıralarında N saylı hərbi hissənin əsgəri olmuşdur. Ağdam cəbhə bölgəsində gedən döyüş əməliyyatlarında iştirak etmişdir. 5 fevral 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.

Birinci Qarabağ müharibəsi veteranıdır.

Ailəlidir. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Mənsimov İnqilab Müstəcəb oğlu** 14 avqust 1971-ci ildə Kəlbəcər rayonunun Əli Bayramlı (Mollabayramlı) kəndində doğulmuşdur. 1978-ci ildə orta məktəbdə oxumağa başlamış, 1988-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1989–1991-ci illərdə Çexoslovakiyada sovet ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

1992-ci ildə Birinci Qarabağ müharibəsinə qoşulmuş, Laçın, Kəlbəcər, Ağdam, Ağdərə bölgələrindəki döyüşlərdə iştirak etmişdir. 1997-ci ildə tərxis olunmuşdur.

İnqilab Mənsimov 1993-cü ildə ailə həyatı qurmuşdur, iki övladı var. Bakı şəhərində yaşayır.

**Mənsimov Nazim Müstəcəb oğlu** 18 sentyabr 1975-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1982-ci ildə orta məktəbdə oxumağa başlamış, 1992-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1993-cü ildə hərbi xidmətə getmiş, Ağdam rayonunun kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1997-ci ildə tərxis olunmuşdur.

Nazim Mənsimov 1998-ci ildə ailə həyatı qurmuşdur, üç övladı var.

**Mirzəyev Rüstəm Səfər oğlu** 23 yanvar 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1989–1991-ci illərdə Almaniyada sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1991-ci ildə Tərtər RPŞ-da işə qəbul olunmuş, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərə qatılmışdır. Əsasən Ağdam rayonunun Güllücə, Nəmirli, Şotlanlı kəndlərinin müdafiəsində iştirak etmişdir.

1994-cü ilin iyul ayında tərxis olunmuşdur.

Ailəlidir, iki övladı var. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

**Nəzərov Maşallah İsgəndər oğlu** 15 iyun 1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1979–1981-ci illərdə İrkutsk şəhərində sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir. 1981-ci ildən "Yeni həyat" kolxozunda traktorçu işləmişdir.

1992-ci ilin noyabrından könüllü kimi Laçın, Kəlbəcər, Ağdam, Füzuli cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. N saylı briqadanın 5-ci taborunun 2-ci bölüyünün əsgəri olmuş, eyni zamanda aşbaz kimi də əsgərlərə xidmət göstərmişdir. 1994-cü ilin may ayında ordu sıralarından tərxis olunmuşdur.

Maşallah Nəzərov 12 aprel 2020-ci ildə Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

EL TV "Əsgər" verilişinin 2016-cı il tarixli "Vətən uğrunda" rubrikasında Maşallah Nəzərovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

**Orucov Çingiz Ağaməli oğlu** 10 dekabr 1972-ci ildə Kəlbəcər rayonunun Əli Bayramlı (Mollabayramlı) kəndində doğulmuşdur. 1984-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır. Yeni Daşkənd kənd orta məktəbini və 105 saylı Bərdə texniki peşə məktəbini bitirmişdir.

1992-ci ilin mart ayından 1996-cı ilin iyun ayına qədər Azərbaycan Silahlı Qüvvələri sıralarında müxtəlif saylı hərbi hisssələrdə xidmət etmişdir.

1992–1994-cü illərdə Ağdam, Ağdərə, Kəlbəcər, Füzuli cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmiş, Ağdərə rayonunun Drombon (Heyvalı) kəndində ürək nahiyəsindən ağır güllə yarası almışdır. Üç ay müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1993-cü ilin mart ayında mərmi partlayışından bir daha yaralanmışdır. Ağdam rayonunun Sarıcalı kəndində mövqe tutduğu səngərdə yaxınlığına düşən mərmi partlayışından sağ əli və sifəti yanıq xəsarətləri almışdır. Füzuli rayonunun Horadiz qəsəbəsində mərmi partlayışından üç dəfə kontuziya almış, qulaqları tutlduğundan altı ay xəstəxanada müalicə olunmuşdur. 1996-cı ilin iyun ayında ordu sıralarında tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlili idi.

Çingiz Orucov 11 avqust 2021-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 49 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ailəli idi. İki qızı var.

**Orucov Murad Müsü oğlu** 12 sentyabr 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

2 mart 1992-ci ildə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətə başlamışdır. Daxili qoşunların tərkibində xidmət etmiş, Ağdərə və Ağdam cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 2 avqust 1996-cı ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Murad Orucov 2018-ci və 2019-cu ildə Kərbəla, 2019-cu ildə isə Məşhəd ziyarətində olmuşdur.

Hal-hazırda Bakı şəhərində yaşayır.

**Səfərov Surəddin Paşa oğlu** 25 oktyabr 1971-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1989–1991-ci illərdə sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1992-ci ilin fevral ayında Bərdə Ərazi Özünümüdafiə Dəstəsinə qoşularaq Ağdərə cəbhəsində döyüşlərə başlamışdır. "Azadlıq" batolyonunun döyüşçüsü olmuşdur. 10 aprel 1992-ci ildə uğurlu "Marquşavan əməliyyatı"nda iştirak etmiş, əlindən və ayağından güllə yarası almışdır. Müalicədən sonra yenidən döyüşlərə qatılmışdır. 16 iyun 1992-ci ildə Ağdərə rayonunun Yuxarı Çaylı kəndində döyüş zamanı ağır yaralanaraq sol qıçını dizdən aşağı itirmişdir. 1992-ci ilin noyabrından 701 saylı briqadanın 5-ci Bərdə taborunun maliyyə şöbəsində çalışmışdır. 1993-cü ilin noyabrında ordu sıralarından tərxis olunmuşdur.

I qrup Qarabağ müharibəsi əlilidir.

1995–2001-ci illərdə Qarabağ Əlilləri İctimai Birliyinin sədri vəzifəsində çalışmışdır. 2020-ci ildən "Qarabağ qaziləri" İctimai Birliyinin sədridir.

**Şairov Fərman Mikayıl oğlu** 10 noyabr 1963-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1971–1981-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1981–1983-cü illərdə Moskvada həqiqi hərbi xidmətdə olmuşdur. 1991-ci ilə qədər Bakı şəhərində "Azərelektroterm" İB-də kran sürücüsü işləmişdir.

Şıxovda yaranan ilk hərbi hissənin əsgəri olmuş, 1991-ci ildən könüllü olaraq Birinci Qarabağ müharibəsində döyüşmüşdür. Döyüşlərə ilk olaraq Şuşa rayonunda başlamış, 1991-ci ilin dekabrında Kərkicahanda yaralanmışdır. Sağaldıqdan sonra yenidən Azərbaycan ordusunun müxtəlif hərbi hissələrinin tərkibində bir çox uğurlu əməliyyatlarda iştirak etmişdir. 1997-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

II qrup Qarabağ müharibəsi əlilidir.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin (AVMVİB) üzvüdür.

Fərman Şairov ailəlidir, iki oğlu var. Hər iki övladı Vətən müharibəsi iştirakçısıdır.

**Şairov İnqilab Novruz oğlu** 1 sentyabr 1966-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1973–1983-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 3 noyabr 1984-cü ildə sovet ordusuna hərbi xidmətə göndərilmiş, Ukraynanın Odessa şəhərinin Limansk qəsəbəsində hərbi hava qüvvələrində qulluq etmişdir. 25 noyabr 1986-cı ildə sovet ordusundan tərxis olunmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra "Yeni həyat" kolxozunda traktorçu işləmişdir.

6 avqust 1992-ci ildə Qarabağda gedən döyüşlərə qatılmışdır. Döyüş yolu Ağdam rayonunun Çuxurməhlə kəndindən başlamışdır. Ala Yaqub və Qatır Məmməd ləqəbləri ilə tanınan Yaqub Rzayevin alayında tankçı vəzifəsində xidmət etmişdir. 24 avqust 1992-ci ildə gedən döyüş zamanı Şelli sanatoriyasındakı mudafiə postunda öz tankının lüləsinin arasında qalaraq ağır travma almışdır. Əli və qolu hərəkətsiz qalmış, əyilib qalxmasında çətinlik yaranmışdır. Aldığı travmadan sonra Mahrızlıdakı hərbi hospitala yerləşdirilmiş, səhəri günü digər yaralılarla bərabər Bakıdakı hospitala göndərilmişdir. Daha sonra Biləcəri dəmir yolu xəstəxanasında 60 gün müalicə olunmuşdur. 1993-cu ilin mart ayında hərbi komissarlığın göndərişi ilə təkrar müayinəyə getmiş, 15 günlük müalicədən sonra sənədləri 145 saylı hərbi poliklinkaya, oradan da Müdafiə Nazirliyinə göndərilmişdir. Müdafiə nazirliyinin göndərişi ilə 1993-cü ilin avqust ayında Bakıdakı N saylı hərbi hissədə xidmətə davam etməyə başlamışdır. 26 yanvar 1996-cı ildə ordudan tərxis olunmuşdur. Birinci Qarabağ müharibəsi veteranıdır.

İnqilab Şairov 1991-ci ildə ailə qurub, üç övladı var. Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

Oğlu Cəmil Şairov Vətən müharibəsi iştirakçısıdır.

**Şıxəliyev Elmir Əlixan oğlu** 15 avqust 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1980–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

17 iyun 1992-ci ildə N saylı hərbi hissədə əsgər kimi xidmətə başlamışdır. N saylı briqadanın tərkibində Birinci Qarabağ müharibəsində Laçın, Ağdərə cəbhə bölgələrindəki döyüş əməliyyatlarında iştirak etmişdir. 10 fevral 1993-cü ildə Ağdərə rayonunun Qızılqaya (Arutunaqomer) kəndində sol qolundan güllə yarası almış, Mingəçevir şəhər xəstəxanasında müalicə olunmuşdur. 1997-ci ilin avqust ayında ordudan tərxis edilmişdir.

II qrup Qarabağ müharibəsi əlilidir.

Elmir Şıxəliyev 21 avqust 1999-cu ildə ailə həyatı qurmuşdur. İki övladı var. Yeni Daşkənd kəndində yaşayır.

EL TV "Əsgər" verilişinin 2015-ci il tarixli "Qarabağ qaziləri" rubrikasında Elmir Şıxəliyevin həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ (VƏTƏN MÜHARİBƏSİ)

İkinci Qarabağ müharibəsi daha çox Vətən müharibəsi, bəzi hallarda isə "44 günlük müharibə" və ya "Dəmir Yumruq" əməliyyatı adlanır.

Toqquşmalar 27 sentyabr 2020-ci il səhər saat 06:00-da Qarabağ müharibəsindən sonra yaradılmış Dağlıq Qarabağ təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistan hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdi.

Müharibə pilotsuz təyyarələrin, sensorların, ağır artilleriyanın və raket zərbələrinin istifadəsi, habelə dövlət təbliğatının və onlayn informasiya müharibəsində rəsmi sosial media hesablarının istifadəsi ilə yadda qalan oldu.

Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı döyüşləri kəskin şəkildə qınadı və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırdı.

Rusiya, Fransa və ABŞ-ın vasitəçiliyi ilə əldə olunan üç atəşkəs də müharibəni dayandıra bilmədi.

Dağlıq Qarabağdakı ən böyük ikinci şəhər olan Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran üçtərəfli bəyanat imzalandı.

Sənədə əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. Ermənistan isə işğal altındakı keçmiş DQMV-nin ətrafındakı əraziləri Azərbaycana qaytardı.

Təxminən 2000 rus əsgəri Ermənistan və Dağlıq Qarabağ arasındakı Laçın dəhlizi boyunca və keçmiş DQMV-nin Azərbaycanın nəzarətində olmayan hissəsində ən azı 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi.

Bu müharibədə Yeni Daşkənd kəndindən yüzlərlə döyüşçü iştirak etmiş, iki döyüşçü şəhid olmuşdur.

Daşkənd kəndindən və Yeni Daşkənd kəndindən olan iki zabit "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

## ŞƏHİDLƏR

**Hümbətov Səfayət Ələddin oğlu** 17 fevral 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1994-cü ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbində təhsil almağa başlamış, 2005-ci ildə həmin orta məktəbi bitirmişdir.

2005-ci ildə Bərdə RHK tərəfindən Milli Orduya çağırılmış, 2007-ci ildə həqiqi hərbi xidmətini başa vurmuşdur.

5 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrində MAXEHHXHQ, əsgər kimi xidmətə başlamışdır.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsi zamanı Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi tərəfdən Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 29 sentyabr 2020-ci ildə doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Əsgər Səfayət Hümbətov ölümündən sonra "Vətən uğrunda" medalı (15.12.2020), "Laçının azad olunmasına görə" medalı (29.12.2020) və "Suqovuşanın azad olunmasına görə" medalı (05.11.2021) ilə təltif edilmişdir.

Ailəli idi, iki övladı var.

EL TV "Əsgər" verilişinin 2021-ci il tarixli "Zəfər uğrunda" rubrikasında Səfayət Hümbətovun həyatı və döyüş yolu haqqında sənədli film yayımlamışdır.

Şəhid Səfayət Hümbətovun böyük qardaşı Azad Ələddin oğlu Hümbətov Birinci Qarabağ müharibəsi iştirakçısı olmuşdur.

**Hümbətov Azad Arif oğlu** 24 yanvar 1996-cı ildə Bakıda doğulmuşdur. Atası Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndindəndir. Nərimanov rayonundakı Bakı şəhəri 291 №-li ekologiya liseyini bitirmişdir.

2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tank bölüyü ixtisasına daxil olmuş, 2017-ci ildə həmin məktəbi leytenant hərbi rütbəsi ilə bitirmişdir. Təyinatı üzrə elə həmin ildən Füzuli rayonunun Horadiz şəhərindəki N saylı hərbi hissədə xidməti vəzifəsinə başlamışdır.

2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" münasibətilə keçirilən hərbi tədbirdə ön sırada bayraqdar vəzifəsini daşımışdır. Bundan sonra o "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif olunmuşdur.

Azad Hümbətov peşəkarlığını artırmaq üçün Bakıda yerləşən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 45 gün müddətində zabit heyətinin təkmilləşdirmə kursunu keçərək baş leytenant rütbəsi almışdır.

Tank taqımı komandiri Azad Hümbətov Füzuli, Qubadlı, Laçın istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. O, həyatını təhlükəyə ataraq düşmənin 5 tankını öz mövqelərimizə gətirib çıxarmış, dəfələrlə döyüş yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxara bilmişdir.

Müharibənin yeni başladığı dövrdə o, komandirlik etdiyi tankı ilə minaya düşür. Özü ayağından yaralansa da, tankı idarə edən mexanikinin daha ağır xəsarətlər aldığını gördükdə onu yaralı halda 25 km meşə ərazisində belində daşıyaraq, 2 gündən sonra öz döyüş postlarına gətirib çıxara bilmişdir. Bundan sonra Azad Hümbətovu Beyləqanda hospitala müalicə üçün göndərirlər. O, müalicəsini yarımçıq qoyaraq yenidən döyüş meydanına qayıtmışdır.

27 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə həlak olmuşdur.

Bakı şəhərindəki İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə baş leytenant Hümbətov Azad Arif oğluna (ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Baş leytenant Azad Hümbətov ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "Xocavəndin azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

2021-ci ilin dekabrında Bakıdakı mərkəzi küçələrdən birinə Azad Hümbətovun adı verilmişdir.

## DÖYÜŞÇÜLƏR

**Abbasəliyev Sənani Natiq oğlu** 1990-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

2008-ci ilin aprel ayından 2009-cu ilin oktyabr ayına qədər həqiqi hərbi xidmətdə olmuşdur.

2018-ci ildən MAXEHHXHQ kimi Tərtər bölgəsində xidmət edir.

27 sentyabrda başlayan Vətən müharibəsində ilk döyüş yolu Tərtər cəbhəsində başlamışdır. 25 oktyabrda Suqovuşan kəndində düşmənin atdığı mərmi partlayışından başından üç qəlpə yarası almış, müalicə üçün arxa cəbhəyə göndərilmiş, başındakı üç qəlpədən ikisinin çıxarılmasından iki gün sonra öz istəyi ilə döyüş bölgəsinə qayıtmışdır. Daha sonra Ağdərə və Füzuli istiqamətlərindəki döyüşlərdə iştirak etmişdir.

Sənani Abbasəliyev hal-hazırda Ağdam rayonu ərazisində başında bir qəlpə gəzdirməklə xidmətini davam etdirir.

Kiçik çavuş Sənani Abbasəliyev "Cəsur döyüşçü" (18.12.2020), "Suqovuşanın azad olunmasına görə" (29.12.2020) və "Ağdamın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

**Abbasov Natiq Əbülfət oğlu** 23 oktyabr 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2000–2011-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

23 oktyabr 2011-ci ildə həqiqi hərbi xidmətə getmiş, 1 aprel 2013-cü ildə ordu sıralarından tərxis olunmuşdur.

15 yanvar 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrində kursa başlamış, 15 mart 2020-ci ildə kursu bitirərək etiyata buraxılmışdır. 27 aprel 2020-ci ildən Azərbaycan ordusunda MAXEHHXHQ olaraq Baş sürücü vəzifəsində xidmət etməyə başlamışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayarkən Ağdam rayonu, Suqovşan və Talış kəndləri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Hal-hazırda xidmətdədir. 5 noyabr 2022-ci ildə baş əsgər rütbəsi almışdır.

Baş əsgər Natiq Abbasov “Hərbi xidmətlərə görə” (24.06.2021) və “Vətən müharibəsi iştirakçısı” (21.04.2022) medalları ilə təltif olunmuşdur.

**Abbasov Nicat Əbülfət oğlu** 19 iyun 1999-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2005–2016-cı illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

7 iyul 2017-ci ildə həqiqi hərbi xidmətə getmiş, 8 yanvar 2019-cu ildə ordu sıralarından tərxis olunmuşdur.

21 sentyabr 2020-ci ildə qismən səfərbərliklə orduya çağırılmışdır. Vətən müharibəsi başlayanda Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

27 dekabr 2020-ci ildə MAXEHHXHQ olaraq əsgər vəzifəsində xidmətə başlamışdır.

12–14 sentyabr 2022-ci ildə baş verən Azərbaycan-Ermənistan sərhəd toqquşması – Kəlbəcər-Göyçə sərhədindəki düşmən təxribatının qarşısını almaq məqsədi ilə gedən döyüş zamanı qəlpə yarası almış, Gəncə hospitalında müalicə olunmuşdur.

Hal-hazırda N saylı hərbi hissədə kəşfiyyatçı, pulemyotçu köməkçisi kimi xidmətini davam etdirir.

4 yanvar 2023-cü ildən 17 mart 2023-cü ilə qədər “Komando” Dağ Təlim Mərkəzinin “Komando başlanğıc kursu”nu bitirərək sertifikat almış, “Komando başlanğıc döş nişanı” ilə mükafatlandırılmışdır.

Nicat Abbasov “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif olunmuşdur.

**Alıyev Rüfət Zakir oğlu** 24 dekabr 1982-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1989–1999-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır.

2001-ci ilin yanvar ayında Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, 2002-ci ilin iyul ayınadək N saylı hərbi hissədə xidmət keçmişdir.

2003-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb məktəbinə daxil olmuş, 2005-ci ildə həmin universiteti feldşer ixtisası üzrə bitirmişdir.

2005-ci ildən hal-hazıra qədər Azərbaycan Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində ixtisası üzrə işləyir.

Vətən müharibəsi zamanı yaralı əsgərlərin sağlamlığı üçün əlindən gələni əsirgəməmiş, xidməti vəzifəsini yerinə yetirmişdir.

Tibb xidmətinin feldşeri Rüfət Alıyev 1-ci dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" və "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" medalları ilə təltif olunmuşdur.

2006-cı ildə ailə həyatı qurmuşdur, iki övladı var.

**Alıyev Samir Niyazi oğlu** 30 may 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Bakı şəhərində orta təhsil almışdır. 2015–2016-cı illərdə Bərdə rayonu ərazisindəki N saylı hərbi hissədə xidmət keçmişdir.

29 sentyabr 2020-ci il tarixində qismən səfərbərliklə Vətən müharibəsi uğrundakı döyüşlərə qoşulmuşdur. İlk gündən Murovdağ-Kəlbəcər istiqamətində döyüşlərin iştirakçısı olmuş, Vətən müharibəsi günlərində və qələbədən sonrakı günlərdə Murovdağda, Kəlbəcərdə, İstisuda, Yanşaq kəndində xidmət etmişdir.

31 dekabr 2020-ci ildə ordudan tərxis olunmuşdur.

Samir Alıyev "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

Samir Alıyevin atası Niyazi Alıyev Birinci Qarabağ müharibəsinin iştirakçısıdır.

**Alıyev Sərxan Etibar oğlu** 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2002–2012-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2014–2016-cı illərdə Gədəbəy rayonundakı N saylı hərbi hissədə xidmətdə olmuşdur.

21 sentyabr 2020-ci ildə qismən səfərbərliklə orduya çağırılmışdır. İlk döyüş yolu Tərtər-Ağdərə cəbhəsində gedən döyüşlərdən başlamışdır. 15 oktyabrda Suqovuşan kəndi ətrafındakı döyüşlər zamanı yaxınlığında patlayan mərmi nəticəsində həm qəlpə yarası, həm də ağır kəllə-beyin travması ilə Bərdə rayon xəstəxanasına yerləşdirilmişdir. Qısamüddətli müalicədən sonra yenidən Tərtər-Ağdərə cəbhəsinə qaytarılmış, “Tülkü dərəsi” deyilən ərazidə xidmət etmişdir. Bir müddət sonra Ağdam cəbhəsinə göndərilsə də, aldığı zədələri və səhhəti nəzərə alınaraq ordudan tərxis olunmuşdur.

Sərxan Alıyev “Cəsur döyüşçü” medalı ilə təltif olunmuşdur.

**Aslanlı Aslan Mürşüd oğlu** 1997-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2005–2016-cı illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2017–2018-ci illərdə Ağstafadakı N saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olmuşdur. Xidmətdən sonra MAXEHHXHQ kimi Ağdam cəbhəsində kiçik çavuş rütbəsi ilə xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan gündən Ağdam rayonunda ön cəbhədə, o cümlədən Qızıl Kəngərli, Qiyaslı kəndləri istiqamətində batareyanın idarəetmə manqa komandiri olaraq döyüşlərdə iştirak etmişdir.

Kiçik çavuş Aslan Aslanlı “Ağdamın azad olunmasına görə” (24.06.2021) medalı ilə təltif olunmuşdur.

**Babayev Xəyal Telman oğlu** 27 yanvar 1994-cü ildə Bakı şəhərində anadan olmuşdur. Atası Telman Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur.

Xəyal Babayev 2000-ci ildə İ.Hacıyev adına “Tərəqqi” texniki-humanitar liseyinə daxil olmuş, 2011-ci ildə həmin liseyi bitirmişdir. 2011-ci ildə Azərbaycan Texniki Universitetinə qəbul olmuş, 2015-ci

ildə həmin universitetin Kompüter mühəndisliyi fakültəsini bitirmişdir.

8 iyul 2015-ci ildə həqiqi hərbi xidmətə getmiş, 2016-cı ildə hərbi xidmətini bitirmişdir. Xidməti dövründə baş verən Aprel döyüşlərində iştirak etmişdir.

28 sentyabr 2020-ci ildə səfərbərliklə İkinci Qarabağ müharibəsində döyüşmək üçün Azərbaycan ordusunda xidmətə başlamışdır. Goranda qısa müddət təlim keçdikdən sonra Füzuli bölgəsində döyüşlərə başlamış, Qarabağ ərazilərinin işğalçılardan azad olunmasında yaxından iştirak etmişdir. Qələbədən sonra Qubadlı rayonunda hərbi xidmətini davam etdirmiş, 3 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

Xəyal Babayev "Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Babayev Rəşad Şövqi oğlu** 24 iyul 1997-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2003–2014-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

27 iyul 2015-ci ildə həqiqi hərbi xidmətə getmiş, 15 yanvar 2017-ci ildə xidmətini başa vurmuşdur. Xidməti zamanı baş verən Aprel döyüşlərində iştirak etmişdir.

28 sentyabr 2020-ci ildə səfərbərliklə İkinci Qarabağ müharibəsinə göndərilmişdir. İlk döyüşə Murovdağ yüksəkliyinin alınması əməliyyatı ilə başlamış, Azərbaycan Ordusunun uğurlu əməliyyatlarında mərdliklə döyüşmüşdür. Qələbədən sonra Tərtər rayonunda hərbi xidmətdə olmuş, 9 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

Rəşad Babayev "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur.

**Bahadurlu Təbriz İkram oğlu** 12 noyabr 1992-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1998–2009-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2009–2013-cü illərdə Azərbaycan Texnologiya Universitetinin Standartlaşdırma və texnologiya fakültəsində ali təhsil almışdır.

2013–2014-cü illərdə Füzuli bölgəsində artilleriya üzrə N saylı hərbi hissədə xidmət keçmişdir.

2018-ci ildən İmişli Regional "Asan" Xidmət Mərkəzinin "Azəriqaz" İstehsalat Birliyi Müştəri Xidməti Şöbəsinin mühəndisi vəzifəsində işləyir.

2020-ci ildə başlayan Vətən müharibəsinə qoşulmuş, Ağdam cəbhəsində gedən döyüşlərin iştirakçısı olmuşdur. 26 dekabr 2020-ci ildə ordudan ehtiyata buraxılmışdır.

Təbriz Bahadurlu "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Atası İkram Əsədov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Bayramov Nurlan Raqub oğlu** 28 noyabr 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2001–2011-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

24 yanvar 2012-ci ildə həqiqi hərbi xidmətə getmiş, Səngəçaldakı N saylı hərbi hisssədə sürücü kimi xidmət etmişdir. 3 iyul 2013-cu ildə ordudan tərxis olunmuşdur.

29 sentyabr 2020-ci ildə Vətən müharibəsinə çağırılmış, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 28 dekabr 2020-ci ildə ordudan tərxis olunmuşdur.

Nurlan Bayramov "Qubadlının azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" (21.04.2022) medalları ilə təltif olunmuşdur.

Vətən müharibəsi veteranıdır.

2 dekabr 2017-ci ildə ailə həyatı qurmuşdur. İki qızı var.

Atası Raqub Bayramov Birinci Qarabağ müharibəsi veteranıdır.

**Bayramov Ruslan Rasim oğlu** 15 iyul 1983-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1999-cu ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbini bitirmişdir. 2000-ci ildə Mingəçevir Tibb Kollecinin Müalicə işi, feldşerlik fakültəsinə qəbul olmuşdur.

2001-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 2003-cü ildə xidməti bitirdikdən sonra yenidən təhsilini davam etdirmiş, 2005-ci ildə təhsilini başa vurmuşdur.

2007–2008-ci illərdə Bərdə Tikiş evində baş həkim, daha sonra isə Bərdə rayon xəstəxanasının reanimasiya şöbəsində anestezioloq işi üzrə fəaliyyət göstərmişdir.

2009–2011-ci illərdə Ağcabədi rayonunda ANAMA təşkilatında feldşer vəzifəsində çalışmışdır. 2014-cü ildə Ağcabədi rayonu Sarıcalı hərbi hospitalında xidmətə başlamışdır.

2016-cı ildə baş vermiş Aprel döyüşlərində hospitala gətirilmiş onlarla yaralı əsgər və zabitlərimizin sağalması üçün aparılmış bütün cərrahi əməliyyatlarda yaxından iştirak etmişdir.

2020-ci ildə Vətən müharibəsi zamanı Ağdərə istiqamətində aparılan döyüşlər zamanı "Sibir", "Kəpəz", "Ağ uçuq" postlarında, Suqovuşan kəndində və Ağdam istiqamətindəki bir neçə məntəqələrdə səyyari həkim xidməti göstərərək yüzlərlə yaralılara ilk tibbi yardım etmiş, şəhidlərimizin arxa cəbhəyə təxliyəsində fəallıq göstərmişdir.

Baş çavuş, tibb xidmətinin feldşeri Ruslan Bayramov "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı və "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) medalı ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

**Bayramov Taleh Rəfail oğlu** 1990-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1997–2007-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2 oktyabr 2008-ci ildə həqiqi hərbi xidmətə getmiş, Kürdəmir rayonundakı N saylı hərbi hissədə xidmət etmiş, 2 aprel 2010-cu ildə ordu sıralarından tərxis olunmuşdur.

24 sentyabr 2016-cı ildə MAXEHHXHQ olaraq hərbi xidmətə başlamış, müxtəlif hərbi hissələrdə xidmət etmişdir.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda və Ağdərə istiqamətində gedən doyüşlərdə iştirak etmişdir. 24 may 2021-ci ildə müddətdən artıq hərbi xidmətdən tərxis olunmuşdur.

Əsgər Taleh Bayramov "Hərbi xidmətlərə görə" (24.06.2021) medalı ilə təltif olunmuşdur.

Ailəlidir. Bir övladı var.

**Bəylərov Toğrul Nuriddin oğlu** 8 noyabr 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2000–2011-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialına qəbul olmuş, 2015-ci ildə isə ali təhsilini başa vurmuşdur.

2015–2016-cı illərdə Naxçıvan şəhərində hərbi xidmətdə olmuşdur. 2017-ci ildən leytenant rütbəsi ilə taqım komandiri, 2020-ci ildən isə baş leytenant rütbəsinə yüksələrək bölük komandiri olaraq Füzuli bölgəsində yenidən xidmətə göndərilmişdir.

Vətən müharibəsi başlayan ilk gündən Füzulinin işğaldan azad olunması üçün döyüşlərdə iştirak etmiş, daha sonra Xocavənd rayonunun kəndlərinin də azad olunması uğrunda döyüşmüşdür.

Baş leytenant Toğrul Bəylərov "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)", "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "Xocavəndin azad olunnasına görə" (25.12.2020) medalları ilə təltif olunmuşdur.

**Cəlilov Nurəli Mübariz oğlu** 5 sentyabr 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1994–2005-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2005–2007-ci illərdə Ədliyyə Nazirliyinin N saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir. 2018-ci ildən l-ci Ordu Korpusunun N saylı mühəndis istehkam taborunda MAXEHHXHQ kimi xidmətdə olmuş, 2019-cu ilin mart ayında Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 3 aylıq Gizir hazırlığı kursunu keçmişdir. 2019-cu ilin iyun ayından l-ci Ordu Korpusunun N saylı hərbi hissəsinin Rabitəçi taborunda Aparatxana rəisi vəzifəsində xidmət etmişdir.

2020-ci ilin sentyabr ayının 27-dən etibarən öz hərbi hissəsinin tabeliyində Vətən müharibəsində rabitəçi olaraq döyüşlərə qatılmış, 44 günlük savaşda şərəfli döyüş yolu keçmişdir.

Gizir Nurəli Cəlilov "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Ailəlidir. Bir oğlu var.

Gizir Nurəli Cəlilovun qardaşı, gizir Miraləm Həsənov da Vətən müharibəsi iştirakçısıdır.

**Dəmirzadə Elşad Nadir oğlu** 1999-cu ildə Yeni Daşkənd kəndində anadan olmuşdur. 2006–2017-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2017–2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

29 sentyabr 2020-ci ildə qismən səfərbərliklə Vətən müharibəsinə cəlb olunmuşdur. Tərtər cəbhəsində gedən döyüşlərin iştirakçısı olmuş, 16 oktyabrda Talış kəndi istiqamətindəki döyüşdə mərmi partlayışından ağır kəllə-beyin travması ilə Naftalan xəstəxanasına yerləşdirilmişdir. Bir neçə gün sonra Tərtər xəstəxanasına köçürülərək müalicəsi davam etdirilmiş, daha sonra isə ordudan tərxis olunmuşdur.

Elşad Dəmirzadə "Cəsur döyüşçü" (18.12.2020), "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Əmisi Eldəniz Nəzərov Birinci Qarabağ müharibəsində şəhid olmuşdur.

**Eyvazlı Elmir Vüqar oğlu** 19 avqust 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Uşaqlıqdan Bərdə rayonunun Otuzikilər kəndində yaşayır. 2000–2011-ci illərdə Telman Qurbanov adına Xanqaraqoyunlu kənd tam orta məktəbində oxumuşdur.

2011–2013-cü illərdə Haramı düzündə həqiqi hərbi xidmətdə olmuşdur.

13 iyun 2020-ci ildən MAXEHHXHQ kimi Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır. N saylı hərbi hissənin tərkibində Vətən müharibəsində manqa komandiri vəzifəsində iştirak etmişdir. 29 sentyabr 2020-ci ildə Tərtər-Ağdərə istiqamətindəki döyüş zamanı

kontuziya və sağ baldırından qəlpə yarası almış, Tərtər, Bərdə, Neftçala, Göygöl rayon mərkəzi xəstəxanalarında müalicə olunmuşdur. 3 dekabr 2021-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

MAXEHHXHQ olan kiçik çavuş Elmir Eyvazlı "Cəsur döyüşçü" (18.12.2020), "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" (21.04.2022) medalları ilə təltif olunmuşdur. Vətən müharibəsi qazisidir.

2020-ci ildə ailə həyatı qurmuşdur, üç övladı var. Hal-hazırda Bərdə rayonunun Otuzikilər kəndində yaşayır.

Atası Hacıyev Vüqar Eyvaz oğlu Birinci Qarabağ müharibəsi veteranıdır.

**Əhmədov Samir Sədrəddin oğlu** 20 avqust 1985-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Uşaqkən ailəsi ilə birlikdə Mingəçevir şəhərinə köçmüşdür. 1992–2003-cü illərdə Mingəçevir şəhər N.Nərimanov adına 1 saylı tam orta məktəbdə oxumuşdur. 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2007-ci ildə həmin məktəbi bitirərək Kürdəmir rayonundakı Hərbi Hava Qüvvələrinə məxsus N saylı hərbi hissədə xidmətə başlamışdır. Hərbi hissədə 2019-cu ilə qədər xidmət etmiş, daha sonra N saylı hərbi hissədə mayor rütbəsi ilə xüsusi xidmətə başlamışdır.

Mayor Samir Əhmədov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində rəhbərlik etdiyi taboru ilə bərabər Füzulinin, Cəbrayılın, Şuşanın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Hal-hazırda Hərbi Hava Qüvvələrində xidmətini davam etdirir. İngilis və rus dillərini bilir.

Mayor Samir Əhmədov "Azərbaycan bayrağı" ordeni, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalları, 1-ci dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına

görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

**Əlizadə Kənan Şəmsi oğlu** 16 may 2002-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2019-cu ildə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbini bitirdikdən sonra Mingəçevir Turizm Kollecinə qəbul olmuşdur.

27 iyun 2020-ci ildə həqiqi hərbi xidmətə getmişdir. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmişdir. 2022-ci ilin yanvar ayında ordu sıralarından tərxis olunmuşdur.

Əsgər Kənan Əlizadə "Zəngilanın azad olunmasına görə" (18.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020), "Vətən müharibəsi iştirakçısı" medalları və iki "Fəxri fərman"la təltif olunmuşdur.

**Əliyev Vüqar Fəzli oğlu** 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur. Namaz müəllimin nəvəsidir. 2001–2009-cu illərdə Bakı şəhərindəki 35 nömrəli tam orta məktəbdə təhsil almış, 8-ci sinifdən sonra Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur. 2012-ci ildə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbin Artilleriya fakültəsinə qəbul olmuş, 2016-cı ildə hərbi təhsilini başa vurmuşdur. Həmin vaxtdan leytenant rütbəsi ilə Goranboy rayonu ərazisindəki N saylı hərbi hissədə xidmətə başlamışdır.

2019-cu ildə baş leytenant rütbəsi almışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan ilk gündən öz hərbi hissəsi ilə 44 gün ərzində Tərtər cəbhəsindəki döyüşlərdə iştirak etmişdir.

Baş leytenant Vüqar Əliyev "Suqovuşanın azad olunmasına görə" (29.12.2020) və "Hərbi xidmətlərə görə" (30.12.2020) medalları ilə təltif olunmuşdur.

Hal-hazırda Goranboy rayonunda zabit kimi xidmətini davam etdirir.

Atası Fəzli Əliyev Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Əmirxanlı Nəbi Həsən oğlu** 25 sentyabr 1999-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2006–2017-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

23 yanvar 2018-ci ildən 27 iyun 2019-cu ilə qədər həqiqi hərbi xidmətdə olmuşdur.

23 yanvar 2020-ci ildə MAXEHHXHQ olaraq Tərtər bölgəsində xidmətə başlamışdır. Müharibə başlayarkən ilk döyüş yolu Talış kəndində baş tutmuşdur. Oktyabrın ikinci ongünlüyündə komandanlıq tərəfindən xidmət etdiyi hərbi hissə ilə birlikdə Ağdam cəbhəsinə göndərilmişdir. Daha sonra isə Ağdamdan Füzuli cəbhəsinə, oradan isə Cəbrayıl, Zəngilan, Hadrut ərazilərində olmaqla ağır döyüş yolu keçmişdir.

Hal-hazırda Tərtər rayonunda vətənə xidmətini davam etdirir.

MAXEHHXHQ əsgər Nəbi Əmirxanlı "Hərbi xidmətlərə görə" (24.06.2021) və "Cəbrayılın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunmuşdur.

Əmisi, baş leytenant Əli Məhərrəmov da Vətən müharibəsi iştirakçısıdır. Digər əmisi Mehdi Məhərrəmov isə Birinci Qarabağ müharibəsində şəhid olmuşdur.

**Əsədov Elçin Anar oğlu** 25 fevral 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. İbrahim Əsədovun nəvəsidir. 2004–2015-ci illərdə 169 saylı orta məktəbin rus sektorunda təhsil almışdır.

Əlbəyaxa döyüş üzrə "Qara kəmər" sahibidir.

2015-ci ildə Gürcüstan Texniki Universitetinin Biznesin idarə olunması fakültəsinə qəbul olmuş, 2018-ci ildə Kuban İqtisadiyyat Universitetinə keçid etmişdir.

2020-ci ilin aprel ayında ali təhsilini müvəqqəti dayandıraraq könüllü olaraq həqiqi hərbi xidmətə getmişdir. 7 may 2020-ci ildə Ağcabədi rayonunda xidmətə başlamış, Vətən müharibəsi başlamamışdan bir ay öncə Füzuli cəbhəsinə göndərilmişdir.

Vətən müharibəsində ilk döyüş yolu Füzulidən başlamışdır. Füzulinin işğaldan azad olunmasından sonra Xocavənd rayonu ərazisindəki döyüşlərdə xüsusi fəallığı ilə seçilmişdir. Onlarla şəhid və yara-

lıların hətta minalanmış ərazilərdən təxliyə olunmasında xüsusi xidmətləri olmuşdur. Qələbədən sonrakı günlərdə ermənilərin Tuğ kəndində zərərsizləşdirilməsi üçün aparılan əməliyyatlarda da iştirak etmişdir. Sonrakı dövrdə xidmətini Cəbrayıl rayonu ərazisində keçmişdir.

3 oktyabr 2021-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

Elçin Əsədov "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Əsədov Elməddin Əmiralı oğlu** 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1994–2005-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2005–2007-ci illərdə Bakı şəhərində Ədliyyə Nazirliyinin tabeliyində olan hərbi hissədə hərbi xidmətdə olmuşdur.

2020-ci ilin əvvələrindən MAXEHHXHQ kimi sürücü peşəsi ilə Naftalan ərazisindəki N saylı hərbi hissəyə xidmətə göndərilmişdir.

Elməddin Əsədov 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan kimi xidmət etdiyi hərbi hissəsi ilə bərabər Tərtər cəbhəsində gedən şiddətli döyüşlərə qoşulmuşdur. Öncə Talış kəndinin, daha sonra isə Suqovuşan kəndinin düşməndən azad olunması üçün günlərlə davam edən ağır döyüşlərin iştirakçısı olmuşdur. Talış və Suqovuşanın azad olunmasından sonra xidmət üçün Laçın rayonuna göndərilmişdir.

Hal-hazırda Talış kəndində xidmət etməkdədir.

MAXEHHXHQ Elməddin Əsədov "Suqovuşanın azad olunmasına görə" (29.12.2020) medalı ilə təltif olunmuşdur.

**Əsgərov Yasin Niyaz oğlu** 22 aprel 1999-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2005–2016-cı illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır.

2017–2018-ci illərdə Füzuli rayonunda həqiqi hərbi xidmətdə olmuşdur.

29 sentyabr 2020-ci ildə qismən səfərbərliklə Vətən müharibəsinə cəlb olunmuşdur. Əsasən Talış, Suqovuşan, Barambart meşəsi istiqa-

mətində gedən döyüşlərdə iştirak etmişdir. Qələbədən sonra Qubadlı və Laçın rayonlarında xidmət keçmişdir. 9 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

Yasin Əsgərov "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Vətən müharibəsi veteranıdır.

Hal-hazırda Bərdə rayonunda KAMAZ markalı yük avtomobillərinin ustası kimi fəaliyyət göstərir və Yeni Daşkənd kəndində yaşayır.

Subaydır.

**Həsənov Miraləm Mübariz oğlu** 19 iyun 1985-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1992–2003-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2003-cü ildə Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə getmiş, 2005-ci ildə tərxis olunmuşdur.

2012-ci ilin oktyabr ayında yenidən Azərbaycan Ordusunda hərbi xidmətə başlamışdır. 27 sentyabr 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsində iştirak etmişdir.

Hal-hazırda N saylı hərbi hissədə rota starşinası vəzifəsində xidmətini davam edirir.

Gizir Miraləm Həsənov "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur. Vətən müharibəsi veteranıdır.

Qardaşı, gizir Nurəli Cəlilov da Vətən müharibəsi iştirakçısıdır.

**Həsənov Sərxan Səfxan oğlu** 2 fevral 1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 4 aprel 2007-ci ildə həqiqi hərbi xidmətə getmiş, 15 noyabr 2008-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

2014-cü ildə MAXEHHXHQ kimi Tərtər bölgəsində çavuş rütbəsi ilə xidmətə başlamışdır.

2016-cı ildə baş verən Aprel döyüşlərində N saylı hərbi hissənin rabitə taqımının komandir müavini olaraq döyüşlərin iştirakçısı

olmuşdur. 2017-ci ildə döyüş batareyasında taqım komandirinin müavini vəzifəsində xidmət etmişdir.

Vətən müharibəsi başlayandan bir gün qabaq, 26 sentyabrda Murovdağa, üç gün buradakı döyüşlərdən sonra – 30 sentyabrda komandanlığın əmri ilə Beyləqana göndərilmiş, daha sonra Cəbrayıl, Hadrut, Füzuli rayonlarının azad olunması üçün aparılan döyüşlərdə iştirak etmişdir. 11 oktyabrda yenidən Tərtər rayonunun Suqovuşan və Talış kəndləri ətrafında gedən döyüşlərə göndərilmişdir. Döyüşlərdə xüsusi təyinatlıların tərkibində iştirak etmişdir.

Çavuş Sərxan Həsənov "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)", "Döyüşdə fərqlənməyə görə" (24.06.2021), "Cəbrayılın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Hal-hazırda Tərtər rayonunda xidmətini davam etdirir.

Ailəlidir, iki övladı var.

**Hüseynli Elgiz Mehman oğlu** 29 may 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2014-cü ildə Yasif Kərimov adına tam orta məktəbi bitirərək Gəncə Dövlət Universitetinin Bələdiyyə və idarəetmə ixtisasına qəbul olmuşdur. 2018-ci ildə ali təhsilini bitirdikdən sonra hərbi xidmətə getmişdir. Həqiqi hərbi xidmətini Beyləqan rayonunda keçmiş, 2019-cu ildə ordudan tərxis olunmuşdur.

2020-ci ilin mart ayında üç aylıq hərbi kurs keçərək leytenant rütbəsi ilə Azərbaycan Ordusunda taqım komandiri olaraq xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin ilk günündən 44 gün ərzində N saylı hərbi hissəsi ilə bərabər daim Tərtər cəbhəsindəki döyüşlərdə iştirak etmişdir. Əsas döyüşləri Suqovuşan, Çaylı, Tülkü dərəsi, Tonaşen istiqamətlərində olmuşdur.

Vətən müharibəsindəki qələbədən sonra yenə də Tərtər rayonunda xidmətini davam etdirir.

Türkiyə Respublikası Quru Qoşunları tərəfindən 21 iyun–13 avqust 2021-ci il tarixində Dağ Komando Məktəbi və Tədris Mərkəzində keçirilmiş "Azərbaycan hərbçilərinin 3-cü mərhələ təməl

komando kursu"nu müvəffəqiyyətlə başa vurmuş, təməl komando kursu sertifikatı almışdır.

Leytenant Elgiz Hüseynli "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur.

2022-ci ildə ailə həyatı qurmuşdur.

Atası Mehman Kərimov Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş, döyüşlərdə yaralanmışdır. Qarabağ Müharibəsi veteranıdır.

**Hüseynov Süleyfan Qələndər oğlu** 1 yanvar 1978-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1984–1994-cü illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1994–1998-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Tətbiqi riyaziyyat ixtisası üzrə, 2012–2013-cü illərdə isə Azərbaycan Dövlət Aqrar Universitetində Yerquruluşu və şəhər kadastrı ixtisası üzrə ali təhsil almışdır.

2011–2015-ci illərdə Bədrə Rayonlararası Yerquruluşu İdarəsində, 2015-ci ildən isə Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin tabeliyində "Kadastr və Yerqurluşu Layihə-Tədqiqat Mərkəzi" MMC-nin Mingəçevir Layihə Tədqiqat İdarəsində mühəndis vəzifəsində işləmişdir.

5 fevral 2022-ci ildən hal-hazıradək İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 7 saylı Bərdə Ərazi İdarəsində mühəndis vəzifəsində işləyir.

Süleyfan Hüseynov 2002–2004-cü və 2007–2009-cu illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət etmişdir.

21 sentyabr 2020-ci ildə Səfərbərliklə ordu sıralarına çağırılmış, 27 sentyabr 2020-ci ildən 10 noyabr 2020-ci illədək Vətən müharibəsində iştirak etmişdir. 27 dekabr 2020-ci ildə ordudan tərxis olunmuşdur.

Baş leytenant Süleyfan Hüseynov "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur. Vətən muharibəsi veteranıdır.

27 noyabr 2005-ci ildə ailə həyatı qurmuşdur. Bir oğlu, iki qızı var.

**Hüseynov Valeh Vəli oğlu** 15 may 1994-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2001–2010-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində doqquz illik təhsil almışdır.

2012-ci ildə Bərdə RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Qusar rayonundakı N saylı hərbi hissədə motoatıcı taborun manqa komandiri kimi hərbi xidmət keçmişdir. 2020-ci ilin iyul ayında N saylı hərbi hissədə iki aylıq MAXEHHXHQ kursu keçmişdir. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində döyüşmək üçün Tərtər cəbhəsinə göndərilmişdir. Tərtər rayonunun Suqovuşan, Əskipara kəndlərindəki döyüşlərdə iştirak etmişdir.

12–14 sentyabr 2022-ci ildə baş verən “Azərbaycan-Ermənistan sərhəd toqquşması” əməliyyatlarında da iştirak etmişdir.

MAXEHHXHQ Valeh Hüseynov “Suqovuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunmuşdur.

**Hüseynzadə Zabil Elnur oğlu** 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2006–2017-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır. 2018–2019-cu illərdə Bakı şəhərində həqiqi hərbi xidmətdə olmuşdur.

28 sentyabr 2020-ci ildə qismən səfərbərliklə Vətən müharibəsinə çağırılmışdır. Öncə Ballıqayadakı hərbi toplanış məntəqəsinə, oradan isə Sarov kəndinə göndərilmişdir. İlk dəfə Talış kəndi uğrunda gedən döyüşlərə qatılmış, Suqovuşan kəndi uğrundakı döyüşlərdə də iştirak etmişdir. Qələbədən sonra hərbi hissəsi ilə bərabər Qubadlı rayonuna, daha sonra Laçın rayonuna göndərilmiş, orada xidmətinə davam etmişdir.

9 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

“Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif olunmuşdur.

Zabil Hüseynzadənin atası Elnur Hüseynov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**İbadov Röyal Yadullah oğlu** 1999-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2005–2016-cı illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır. 2017–2018-ci illərdə Naxçıvanda həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra “Azəravtoyol” ASC-nin “Protein Konstruktor” şirkətində operator vəzifəsində çalışmışdır.

21 sentyabr 2020-ci ildə səfərbərliyə cəlb olunmuşdur. Bir həftə Ağcakənd və Goranboydakı hərbi hissələrdə hərbi təlimlər keçmişdir. Vətən müharibəsi başlayan kimi Murovdağa göndərilmişdir. Bir həftə Murovdağ döyüşlərində iştirak etdikdən sonra Talış və Suqovuşan kəndləri istiqamətində aparılan əməliyyatların iştirakçısı olmuşdur. Talış və Suqovuşanın azad olunmasından sonra isə Füzuli cəbhəsinə göndərilsə də, tezliklə yenidən Tərtər cəbhəsinə qaytarılmışdır.

Röyal İbadov “Vətən müharibəsində fəal iştirakına görə” fəxri fərmanı ilə təltif olunmuşdur.

**İbadov Saməddin Nüsrəddin oğlu** 28 fevral 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1993–2004-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2004–2005-ci illərdə Tovuz rayonundakı N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir.

2007-ci ilin mart ayından Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində altı aylıq Gizir kursu oxumuşdur. 2007-ci ilin avqust ayından Qaradağ rayonundakı N saylı hərbi hissədə gizir rütbəsi ilə xidmətə başlamışdır. 2012-ci ildə Beyləqan rayonundakı N saylı hərbi hissəyə xidmətə göndərilmişdir.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsinə Ağdam cəbhəsində qoşulmuş, 44 gün davam edən döyüşlərdə iştirak etmişdir. Hal-hazırda Ağdam rayonundakı N saylı hərbi hissədə xidmətini davam etdirir.

Gizir Saməddin İbadov Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)”, 2-ci dərəcəli “Qüsursuz xidmətə görə”, “Ağdamın azad olunmasına görə” (29.12.2020), “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunmuşdur.

Ailəlidir. İki övladı var.

Saməddin İbadovun atası Nüsrəddin Əhmədov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**İlyaslı Eltun Elmir oğlu** 7 mart 2001-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2008–2019-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2 oktyabr 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmış, xidmətini Xaçmaz rayonunun Xanoba kəndindəki 2-ci sərhəd zastavasında çəkmişdir. Sitalçay və Ağstafada təlimlərdə olduqdan sonra Vətən müharibəsinə göndərilmişdir. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 20 iyun 2021-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

Əsgər Eltun İlyaslı "Zəngilanın azad olunmasına görə" (25.12.2020) medalı və "Xidmətdə fərqlənmiş sərhədçi" döş nişanı ilə təltif olunmuşdur.

**İsgəndərov Tural Kamal oğlu** 3 iyul 1998-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2005–2014-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində doqquzillik təhsil almışdır. 2014-cü ildə Bərdə peşə liseyinə qəbul olmuş, 2016-cı ildə həmin liseyin "Avtomobillərin təmiri çilingəri və avtomobil sürücüsü" ixtisasını bitirmişdir.

2016-cı ildə Naxçıvan şəhərindəki N saylı hərbi hissədə hərbi xidmətə başlamış, 2018-ci ildə tərxis olunmuşdur.

29 sentyabr 2020-ci ildə Vətən müharibəsinə səfərbər olunmuşdur. Əsas döyüş cəbhəsi Ağcakənd, Barambart meşəsi və döyüş gedən başqa yerlərdə olmuşdur. 9 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

Tural İsgəndərov "Vətən müharibəsi iştirakçısı" medalı (21.04.2022) və Bərdə rayon Qarabağ Qaziləri İctimai Birliyinin Fəxri fərmanı (19.02.2023) ilə təltif olunmuşdur.

**İsmayılov Anar Əmirəhməd oğlu** 3 mart 1983-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1989–1999-cu illərdə Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 1999–2001-ci illərdə Pirəkəşkül qəsəbəsində, 2001–2002-ci illərdə isə Biləcəri qəsəbəsində N saylı hərbi hissədə xidmət etmişdir.

2003-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin Hərbi tibb məktəbinə daxil olmuş, 2005-ci ildə tibb məktəbini bitirmişdir. 2005-ci ildən 2015-ci ilə qədər Pirəkəşküldə feldşer-həkim olaraq xidmət etmişdir.

2015–2022-ci illədə Tərtər rayonundakı N saylı hərbi hissənin Tibb məntəqəsinin aptek rəisi vəzifəsini icra etmişdir. 2020-ci ildə gizir rütbəsindən baş gizir rütbəsinə yüksəlmişdir.

2016-cı ildə baş verən Aprel döyüşlərində iştirak etmişdir.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gün Tərtər cəbhəsindəki Mübariz İbrahimovun adını daşıyan məşhur posta ezam olunmuş, mərmi partlayışları altında davamlı olaraq 15 gün ərzində şəhid və yaralıların təxliyəsində, yüzlərlə yaralı əsgərlərimizə ilkin tibbi yardım göstərilməsində xüsusi xidmət göstərmişdir. Müharibə günlərində, həmçinin Talış və Suqovuşan kəndlərində də yaralılara ilkin tibbi yardım etmişdir. Vətən müharibəsində sağ qolundan yaralanmışdır.

2022-ci ildə Murovdağ zirvəsində, Kəpəz dağı və Camışdağ yüksəkliyində xidmət etmiş və həmin ildə də hərbi geyim forması daşımaqla ehtiyata buraxılmışdır.

Baş gizir, Tibb Xidmətinin feldşeri Anar İsmayılov “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)”, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci dərəcəli “Qüsursuz xidmətə görə”, 1-ci dərəcəli “Qüsursuz xidmətə görə”, “Vətən uğrunda” (24.06.2021) və “Vətən müharibəsi iştirakçısı” (05.11.2022) medalları ilə təltif olunmuşdur.

2010-cu ildə Türkiyə Respublikasının Samsun şəhərində NATO-nun səhra təlim kursunda üç ay müddətində hərbi təlimlərdə iştirak etmiş, “Atatürk” medalı ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

**İsmayılov Samir Elman oğlu** 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2002–2013-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2014–2016-cı illərdə Sumqayıtda həqiqi hərbi xidmət keçmişdir.

2016-cı ilin iyun ayında müqavilə əsasında minaatan atıcısı olaraq MAXEHHXHQ kimi xidmətə başlamışdır. Xidmətini Ağcakənd-Tərtər ərazilərində, xüsusən də "Mübariz postu"nda etmişdir.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsində döyüş yolu Tərtər cəbhəsindən başlamış, Suqovuşan və Talış kəndlərinin işğaldan azad olunması döyüşlərində iştirak etmişdir. Daha sonra Laçın cəbhəsinə göndərilmiş, buradakı döyüşlərdə də fəallıq göstərmişdir. Qələbədən sonra da Laçın rayonunda xidmətini davam etdirir.

MAXEHHXHQ Samir İsmayılov "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Atası Elman İsmayılov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Kərimov Pərviz Təyyar oğlu** 28 mart 1988-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1994–2005-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2009-cu ildə hərbi məktəbi bitirərək leytenant rütbəsi ilə Bakıdakı Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə xidmətə göndərilmişdir.

2004–2010-cu illərdə Lənkəran şəhərindəki N saylı hərbi hissədə xidmətini davam etdirmişdir. 2010–2015-ci illərdə isə Ağdam və Xocavənd rayonlarında baş leytenant rütbəsində düşmən səngəri ilə üzbəüz ön xətdə xidmətdə olmuşdur.

2015-ci ildən 2020-ci ilə qədər kapitan rütbəsində C.Naxçıvanski adına Hərbi liseyində kursantların bölük komandiri olmuşdur.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsinə qoşulan mayor Pərviz Kərimov Zəngilan, Xocavənd, Qubadlı, Şuşa və Laçın rayonları uğrunda gedən döyüşlərin iştirakçısı olmuş, Xocavənd rayonu ərazisində döyüş zamanı sağ budundan qəlpə yarası almış, müalicə olunmadan Qələbə gününə qədər döyüş yolunu davam etdirmişdir.

Hal-hazırda C.Naxçıvanski adına Hərbi liseydə komandir olaraq xidmətini davam etdirir.

Mayor Pərviz Kərimov "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)", 3-cü dərəcəli "Qüsursüz xidmətə görə", "Xocavəndin azad olunmasına görə" (24.06.2021), "Qubadlının azad olunmasına görə" (24.06.2021), "Döyüşdə fərqlənməyə görə" (24.06.2021) və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

**Quliyev Ağa Ramin oğlu** 15 aprel 1993-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2000–2011-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2011-ci ildə Bərdə RHK tərəfindən hərbi xidmətə çağırılmış, N saylı hərbi hissədə quluq etmişdir.

28 sentyabr 2020-ci ildə qismən səfərbərliklə Vətən müharibəsinə cəlb olunmuşdur. Ağdam, Tərtər, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 14 oktyabrda yaralanmışdır. Uzunmüddətli müalicədən sonra qismən sağalmışdır.

Ağa Quliyev "Ağdamın azad olunmasına görə" (24.06.2021) medalı ilə təltif olunmuşdur.

Subaydır. Hal-hazırda Yeni Daşkənd kəndində yaşayır.

Atası Ramin Quliyev Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Quliyev Nitkin Nəsib oğlu** 1987-ci ildə Yeni Daşkənd kəndində anadan olmuşdur. 1993–2004-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2004–2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə-kredit fakültəsində ali təhsil almışdır. 2008–2009-cu illərdə Naxçıvanda sərhəd diviziyasında rabitəçi olaraq hərbi xidmətdə olmuşdur.

Nitkin Quliyev 2014-cü ilin sonlarında Gəncə şəhərində iki aylıq hərbi kursdan sonra MAXEHHXHQ olaraq xidmətə başlamışdır. 2015-ci ilin əvvəllərində çavuş rütbəsi ilə Tərtər cəbhəsinə göndərilmişdir. Həmin ilin dekabrından 2016-cı ilin aprelinə qədər Qaraheybətdə Təlim Tədris Mərkəzində növbəti kursda olmuşdur. Kurs-

dan sonra hal-hazıra qədər Tərtər rayonundakı N saylı hərbi hissədə xidmət etməkdədir.

2020-ci ildə Vətən müharibəsi zamanı Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Çavuş Nitkin Quliyev "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" və "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunmuşdur.

2010-cu ildə ailə həyatı qurmuşdur, bir oğlu, bir qızı var.

**Qurbanov Elgiz Çingiz oğlu** 1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Orta məktəbi Bakı şəhərində oxumuşdur.

2007-ci ildə Penza Artilleriya Mühəndisliyi İnstitutuna qəbul olmuş, 2011-ci ildə leytenant rütbəsi ilə hərbi təhsilini başa vurmuşdur.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Beyləqan rayonundakı "N" saylı hərbi hissəyə göndərilmiş, 2011–2017-ci illərdə həmin hərbi hissədə Raket və Artilleriya Silahları (RAS) Xidməti rəisinin köməkçisi vəzifəsində xidmət etmişdir.

2016-cı ildə baş verən Aprel döyüşlərində iştirak etmişdir. 2017-ci ildən RAS xidməti rəisinin köməkçisi vəzifəsini Şəmkir korpusunda davam etdirmişdir. 2019-cu ildən kapitan rütbəsi ilə RAS xidməti rəisi təyin olunmuşdur.

Kapitan Elgiz Qurbanov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində ilk döyüşə hərbi hissəsi ilə bərabər Murovdağ silsiləsindən başlamış, bir çox yüksəklikləri işğaldan azad etdikdən sonra, Şuşa şəhərinin işğaldan azad olunması üçün cənub cəbhəsinə göndərilmişdir. Şuşanın azad olunmasından sonra yenidən hərbi hissəsi ilə birlikdə Murovdağa xidmətə göndərilmişdir.

Kapitan Elgiz Qurbanov "Kəlbəcərin azad olunmasına görə" (29.12.2020), "Qubadlının azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

Atası Çingiz İsmayılov Birinci Qarabağ müharibəsi, qardaşı Məhəmməd Məhəmmədli isə Vətən müharibəsi iştirakçısıdır.

**Qurbanov Əlibaba Mayıl oğlu** 10 yanvar 1979-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1985–1995-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

14 yanvar 1997-ci ildən 8 may 1999-cu ilədək Azərbaycan ordusunda həqiqi hərbi xidmət keçmişdir.

9 oktyabr 2001-ci ildən MAXEHHXHQ kimi çavuş rütbəsində xidmətə başlamışdır. 2004-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin gizir hazırlıq kursunu bitirmiş, gizir rütbəsində xidmətinə davam etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin baş giziridir.

2016-cı ildə baş verən Aprel döyüşlərində iştirak etmişdir. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak etmiş, 5 oktyabr 2020-ci ildə Cəbrayıl cəbhəsində yaralanmışdır. 12–13 sentyabr 2022-ci ildə Kəlbəcər və Laçında baş verən sərhəd döyüşlərinin də iştirakçısıdır.

Baş gizir Əlibaba Qurbanov "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" (26.06.2010), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" (02.07.2014), "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)", 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" (28.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (24.06.2021), "Xocavəndin azad olunmasına görə" (24.06.2021), "Şuşanın azad olunmasına görə" (24.06.2021), 1-ci dərəcəli "Qüsursuz xidmətə görə" (2022) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Ailəlidir, üç qızı, bir oğlu var.

**Mehdiyev İzzət İnqilab oğlu** 15 mart 2002-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Bakı şəhər Nərimanov rayonu Dilqəm Nəbiyev adına 178 nömrəli tam orta məktəbi bitirmişdir.

2020-ci ilin aprel ayında hərbi xidmətə getmişdir. Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Şuşa, Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 2021-ci ilin oktyabr ayında ordudan tərxis olunmuşdur.

"Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur.

**Mehdizadə Zəlimxan Vəliyyəddin oğlu** 4 fevral 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2003–2014-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2014–2015-ci illərdə Murovdağda (Toğana) həqiqi hərbi xidmətdə olmuşdur.

29 sentyabr 2020-ci ildə qismən səfərbərliklə Vətən müharibəsinə çağırılmışdır. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan döyüşlərinin iştirakçı olmuş, bu ərazilərin işğaldan azad olunması üçün aparılan döyüşlərdə iştirak etmişdir. Qələbədən sonra Zəngilan rayonunda xidmətdə olmuşdur.

Əsgər Zəlimxan Mehdizadə "Qubadlının azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Məhəmmədli Kənan Faiq oğlu** 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2014–2016-cı illərdə Naxçıvan MR-dakı Buzqov dağı yüksəkliyində həqiqi hərbi xidmət keçmişdir.

2019-cu ilin dekabr ayından MAXEHHXHQ olaraq Murovdağda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdır. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayandan Murovdağdan üzü Kəlbəcər istiqamətində gedən döyüş əməlliyyatlarının iştirakçısı olmuşdur.

2023-cü ilin yanvar ayında ordu sıralarından tərxis olunmuşdur. Vətən müharibəsi veteranıdır.

Kənan Məhəmmədli "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

**Məhəmmədli Məhəmməd Çingiz oğlu** 3 aprel 1991-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1997–2003-cü illərdə Bakı şəhəri Yasamal rayonu 153 nömrəli tam orta məktəbdə, 2003–2008-ci illərdə isə Xətai rayonu 221 nömrəli tam orta məktəbdə oxumuşdur.

2010–2017-ci illərdə Xarkov şəhərindəki Ukrayna Beynəlxalq Milli Mülki Müdafiə Universitetini yanğın təhlükəsizliyi üzrə baka-

lavr, tikintiyə nəzarət mülki müdafiə ixtisası üzrə isə magistr dərəcəsini bitirmişdir.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin tərkibində leytenant rütbəsi ilə taqım komandiri olaraq xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Kəlbəcər istiqamətində, əsasən də Murovdağ silsiləsində gedən döyüşlərin iştirakçısı olmuşdur. Müharibə bitdikdən sonra Kəlbəcər rayonundakı Böyuk Alagöllər ərazisində xidmətini davam etdirmişdir.

Hal-hazırda Yevlax rayonunun Aran qəsəbəsində yerləşən N saylı hərbi hissənin əşya xidməti rəisi vəzifəsində qulluq edir.

Baş leytenant Məhəmməd Məhəmmədli "Kəlbəcərin azad olunmasına görə" (29.12.2020) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Vətən müharibəsi veteranıdır.

Atası Çingiz İsmayılov Birinci Qarabağ müharibəsi, qardaşı Elgiz Qurbanov isə Vətən müharibəsi iştirakçısıdır.

**Məhərrəmov Əli Əmirxan oğlu** 30 oktyabr 1975-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1983-cü ildə Daşkənd kənd orta məktəbində oxumağa başlamış, 1988-ci il ildə ailəsi ilə birlikdə Yeni Daşkənd kəndində məskunlaşmışdır. 1993-cü ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1993–1995-ci illərdə Bakı Rabitə Kollecinin "Mühasibat uçotu" ixtisasında oxumuşdur. 1995-ci ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının İqtisadiyyat fakültəsinə qəbul olmuş, 1999-cu ildə həmin akademiyanın "Aqrar istehsalatın iqtisadiyyatı və idarə edilməsi" ixtisasını bitirmişdir.

Əli Məhərrəmov 2000–2002-ci illərdə "Uşaqları Qoruyun" (*Save Childrens*) təşkilatında provayder, 2002–2003-cü illərdə KOSİA-SMEDA təşkilatında məsləhətçi vəzifələrində işləmişdir.

2003–2005-ci illərdə Qazax rayonundakı N saylı hərbi hissədə baş leytenant rütbəsi ilə artilleriya üzrə taqım komandiri olaraq xidmət etmişdir. Hərbi xidmətdən sonra özəl sahədə 15 ildən çox fəaliyyət göstərmişdir.

2005-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

2020-ci ildə Vətən müharibəsi başlayarkən ehtiyatda olan artileriya zabiti kimi səfərbərliyə cəlb olunmuş, 30 sentyabr 2020-ci ildən başlayaraq öncə Füzuli, daha sonra isə Cəbrayıl və Xocavənd ərazilərinin düşməndən azad olunması üçün aparılan döyüşlərin iştirakçısı olmuşdur.

11 iyun 2022-ci ildən İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 7 saylı Bərdə Ərazi İdarəsinin Tərtər şöbəsində məsləhətçi vəzifəsində çalışır.

Əli Məhərrəmov uşaqlıqdan babası Həsən Xəyallının əlyazmalarından, atası Molla Əmirxanın şeirlərindən təsirlənərək şeirlər yazmağa başlamışdır. Hazırda şeirləri oxucularının könlünü oxşamaqdadır. Poeziya nümunələri qəzet və jurnallarda çap olunur.

Baş leytenant Əli Məhərrəmov "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Qardaşı Mehdi Məhərrəmov 1993-cü ildə Ağdərə döyüşlərində itkin düşmüşdür. Qardaşı oğlu Nəbi Əmirxanlı isə Vətən müharibəsi iştirakçısıdır.

Əli Məhərrəmov 2003-cü ildə ailə həyatı qurmuşdur. Üç oğlu var.

**Məmmədli Hüseyn Zakir oğlu** 13 iyul 1997-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 2003–2014-cü illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

14 iyul 2015-ci ildə həqiqi hərbi xidmətə çağırılmış, əvvəlcə Şəmkir korpusunun N saylı hərbi hissəsində, sonra isə Ağstafa rayonunun Soyuqbulaq kəndindəki hərbi hissədə xidmətini davam etdirmişdir. 7 yanvar 2017-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

27 sentyabr 2020-ci ildə səfərbəliklə Vətən müharibəsinə çağırılmış, 28 sentyabrda Goranboy rayonundakı N saylı hərbi hissəyə aparılmışdır. 7 oktyabrda xidmət etdiyi hərbi hissənin əsgərləri ilə bərabər Füzuli rayonunun Əhmədbəyli kəndinə göndərilmiş, 10 gün sonra isə Cəbrayıl rayonuna, 5 gün sonra isə Qubadlı rayonunun Xanlıq kəndində mövqe tutmuşlar. Cəbrayıl, Qubadlı və Zəngilan rayon-

larının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 18 yanvar 2021-ci ildə ordu sıralarından tərxis edilmişdir.

Əsgər Hüseyn Məmmədli "Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Məmmədov İbrahim Tacəddin oğlu** 7 iyul 1999-cu ildə Suraxanı rayonunun Hövsan qəsəbəsində doğulmuşdur. Rafiq Məmmədovun nəvəsidir. 2016-cı ildə Hövsandakı 281 nömrəli tam orta məktəbi bitirmişdir. 2017-ci ildə Naxçıvanda həqiqi hərbi xidmətə başlamışdır.

28 sentyabr 2020-ci ildə səfərbərlik çağırışına qoşulmuş, Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Şuşa və Laçın rayonlarının azad olunması uğrundakı döyüşlərdə iştirak etmişdir. 11 yanvar 2021-ci ildə ordu sıralarından tərxis edilmişdir.

Əsgər İbrahim Məmmədov "Laçının azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Məmmədov Orxan Əli oğlu** 4 dekabr 1986-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1994–2005-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin aviasiya ixtisasına qəbul olmuş, 2009-cu ildə həmin ixtisası baş leytenant rütbəsi ilə bitirmişdir.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində hava hücumunda "Bayraktar"ların və digər PUA-ların düşmən mövqeyinə qarşı uçuşlarının, eyni zamanda mərmi atışlarının dəqiq idarə olunmasında xüsusi xidmətləri olmuşdur.

Mayor Orxan Məmmədov xidməti dövründə Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən müxtəlif Fəxri fərman, dərəcə və medallarla təltif olunmuş, Selcuk Bayraktar tərəfindən mükafatlandırılmışdır.

Hal-hazırda xidmətini davam etdirir.

Ailəlidir, iki övladı var.

**Məmmədzadə Şamxal Faiq oğlu** 13 fevral 1995-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 2001–2012-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

3 aprel 2013-cü ildən 1 oktyabr 2014-cü ilədək Daxili qoşunlarda həqiqi hərbi xidmət keçmişdir.

19 avqust 2020-ci ildə Gorandakı hərbi hissədə kurs keçməyə başlamış, 10 sentyabr 2020-ci ildən MAXEHHXHQ kimi xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayandan Barambart meşəsi, Talış, Suqovuşan, 482 və 831 yüksəkliyi istiqamətindəki döyüşlərdə iştirak etmişdir. Qələbədən sonra, 2 dekabr 2020-ci ildə Laçın rayonunun Əhmədli kəndində xidmətə başlamışdır. 16 noyabr 2021-ci ildə və 12 sentyabr 2022-ci ildə baş verən sərhəd toqquşmaları zamanı Laçın rayonunda gedən döyüşlərdə iştirak etmişdir.

MAXEHHXHQ Şamxal Məmmədzadə "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Hal-hazırda Laçın rayonunda xidmət edir.

**Mirzəyev Salah Əsəd oğlu** 1998-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. Naxçıvanda həqiqi hərbi xidmət keçmiş, 2020-ci ilin yanvar ayında ordu sıralarından tərxis olunmuşdur.

Hərbi xidmətdən sonra MAXEHHXHQ kimi Azərbaycan ordusunda xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda ilk döyüşə Tərtər rayonunun Çaylı kəndindən başlamışdır. 29 sentyabrda Talış kəndinin üst hissəsində top mərmisi partlayışı nəticəsində sol ayaq və sol qolundan qəlpə yarası almış, müalicə üçün Ucar rayon xəstəxanasına göndərilmişdir. Müalicədən sonra yenidən döyüşlərə qatılmış, Talış kəndi istiqamətində gedən döyüşlərdə bir daha mərmi partlayışından kontuziya alaraq Bərdə rayon xəstəxanasına müalicəyə göndərilmişdir.

Qələbədən sonra Naftalan yaxınlığındakı N saylı hərbi hissədə MAXEHHXHQ kimi xidmətinə davam edir.

Əsgər Salah Mirzəyev “Cəsur döyüşçü” (18.12.2020), “Suqovuşanın azad olunmasına görə” (24.06.2021) medalları ilə təltif olunmuşdur.

Ailəlidir, bir övladı var.

**Səfərov Elgün Elmar oğlu** 18 oktyabr 1985-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1992–2001-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş, 2004-cü ildə həmin liseyi bitirərək, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2008-ci ildə hərbi məktəbi bitirdikdən sonra üç dəfə Türkiyə Respublikasında xüsusi hazırlıq kurslarını yüksək dərəcədə və çox uğurla başa vurmuşdur. 2011–2020-ci illərdə xüsusi tapşırıqlarda mütəmadi iştirak etmişdir.

2020-ci il sentyabr ayının 27-dən etibarən torpaqların işğaldan azad olunması uğrunda başlayan Vətən müharibəsində Murovdağ, Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa döyüşlərində fədakarlıq göstərmişdir. Xüsusi Təyinatlıların Tabor komandiri kimi Şuşa şəhərinin azad olunması üçün aparılan ağır döyüşlərdə iştirak etmiş, Şuşa ətrafında ayağından yaralanaraq hərbi hospitala göndərilmişdir.

Mayor Elgün Səfərov “Qarabağ” ordeni (09.12.2020), “Cəbrayılın azad olunmasına görə” (24.12.2020), “Füzulinin azad olunmasına görə” (25.12.2020), “Kəlbəcərin azad olunmasına görə” (24.06.2021), “Xocavəndin azad olunmasına görə” (24.06.2021), “Vətən uğrunda” (24.06.2021), “Şücaətə görə”, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci dərəcəli “Qüsursuz xidmətə görə”, 3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunmuşdur.

Mayor Elgün Səfərovun qardaşları – tibb baş giziri Eşqin Səfərov və MAXEHHXHQ Sirus Səfərov da Vətən müharibəsinin iştirakçılarıdır.

**Səfərov Eşqin Elmar oğlu** 27 may 1983-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1990–2000-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2001–2003-cü illərdə Şəmkir korpusunda həqiqi hərbi xidmət keçmişdir. 2004-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb məktəbinə qəbul olmuş, 2006-cı ildə təhsilini başa vuraraq Pirəkəşkül qəsəbəsindəki N saylı hərbi hissənin tibb məntəqəsinə həkim-feldşer olaraq xidmətə göndərilmişdir. 2013-cü ilə qədər burada xidməti vəzifəsini yerinə yetirmişdir.

Gizir Eşqin Səfərov 2013-cü ildə yeni təyinatla Ağcabədi rayonunda yerləşən hərbi briqadanın tibb məntəqəsinə göndərilmiş və Vətən müharibəsi başlayana qədər burada xidmət etmişdir.

27 sentyabr 2020-ci il Vətən müharibəsi başalayan gündən Füzuli, Xocavənd və Ağdam cəbhəsində gedən döyüşlər zamanı mərmi atəşləri altında qalan onlarla şəhidimizin arxa cəbhəyə göndərilməsində şəxsən iştirak etmiş, döyüşlərdə yaralanmış yüzlərlə əsgər və zabitlərimizə ilk səyyari həkim yardımını etmişdir.

2021-ci ildə baş gizir rütbəsi almışdır. 2023-cü ildən HHQ hərbi hissəsində helikopterdə feldşer-xilasedici vəzifəsində xidmət edir.

Eşqin Səfərov “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)” yubiley medalları, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci dərəcəli “Qüsursuz xidmətə görə”, 1-ci dərəcəli “Qüsursuz xidmətə görə”, “Ağdamın azad olunmasına görə” (24.06.2021), “Xocavəndin azad olunmasına görə” (24.06.2021) və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunmuşdur.

Ailəlidir, üç övladı var.

Baş gizir Eşqin Səfərovun qardaşları – mayor Elgün Səfərov və MAXEHHXHQ Sirus Səfərov da Vətən müharibəsinin iştirakçılarıdır.

**Səfərov Samir Eldar oğlu** 2 yanvar 1979-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. 1985–1995-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

1996-cı ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbinə daxil olmuşdur. 24 iyun 2000-ci ildə həmin ali məktəbi "sosial siyasi işçi-psixoloq" ixtisası üsrə bitirmişdir. Elə həmin ildə də Müdafiə nazirinin əmrinə əsasən leytenant rütbəsi ilə xidməti davam etdirmək üçün Gədəbəydəki N saylı hərbi hissəyə göndərilmişdir. 2001-ci ildə Lənkərandakı N saylı hərbi hissədə motoatıcı taqımın komandiri, 2002-ci ildən 2003-cü ilədək isə N saylı hərbi hissədə təlimatçı vəzifəsində xidmət etmişdir.

2003-cü ildən 2006-cı ilədək Füzuli rayonundakı N saylı hərbi hissədə motoatıcı tabor komandirinin tərbiyəvi işlər üzrə müavini olmuşdur. 2006-cı ildən Gəncə şəhərində xidmət etməyə başlamış, 2007-ci ilədək N saylı hərbi hissədə motoatıcı tabor komandirinin müavini, 2011-ci ilədək isə şəxsi heyətlə iş üzrə bölmə rəisinin müavini vəzifəsində xidmət etmişdir.

2011-ci ildən Goranboy rayonundakı N saylı hərbi hissədə şəxsi heyətlə iş üzrə bölmə rəisinin müavini, 2014-cü ildən isə hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini kimi xidmətinə davam etmişdir.

2015–2017-ci illərdə Tərtərdəki N saylı hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, 2017–2018-ci illərdə isə Ağcabədidəki N saylı hərbi hissədə həmin vəzifəni icra etmişdir.

Samir Səfərov 2016-cı il Aprel döyüşləri zamanı mayor rütbəsində Tərtərdəki N saylı hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini idi. "Ohanyan müdafiə xətti"nin yarılmasında və strateji yüksəkliklərin alınmasında iştirak etmişdir.

Polkovnik-leytenant Samir Səfərov Azərbaycan Respublikası Müdafiə nazirinin 2018-ci il tarixli müvafiq əmri ilə (hərbi geyim forması daşımaq hüququ verilməklə) həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır.

Üst-üstə 22 illik hərbi xidmətinin 11 ilini cəbhə bölgələrindəki hərbi hissələrdə xidmət edən polkovnik-leytenant Samir Səfərov 2018-ci ildə tərxis olunmasına baxmayaraq 27 sentyabr 2020-ci ildə

başlayan Azərbaycanın əks-hücum əməliyyatları günü könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bərdə Rayon Şöbəsinə müraciət edərək yenidən xidmətini davam etdirmək istədiyini bildirmişdir. 2020-ci il oktyabrın 1-dən Azərbaycan Silahlı Qüvvələrində zabit kimi xidmətinə davam etməyə başlamış, Cəbrayıl, Qubadlı və Laçın rayonlarının azad olunması istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etmişdir.

Polkovnik-leytenant Samir Səfərov 1-ci dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)", "Cəbrayılın azad olunmasına görə" (24.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020), "Laçının azad olunmasına görə" (29.12.2020), 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

22 aprel 2021-ci ildə Bərdə Rayon İcra Hakimiyyəti Aparatında Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri təyin edilmişdir.

Ailəlidir. Dörd övladı var.

**Səfərov Sirus Elmar oğlu** 19 iyun 1993-cü ildə Yeni Daşkənd kəndində anadan olmuşdur. 1999–2010-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində təhsil almışdır. 2011–2013-cü illərdə Güzdək qəsəbəsində həqiqi hərbi xidmət keçmişdir. 2014-cü ildə MAXEHHXHQ olaraq Samux rayonunda rabitə sistemində xidmətə başlamışdır. Daha sonra isə Tərtər cəbhəsinə yaxın ərazidə yerləşən Hava Hücumundan Müdafiə Qüvvələrində baş operator olaraq xidmətdə olmuşdur.

Çavuş Sirus Səfərov 2016-cı ildə baş verən Aprel döyüşləri zamanı, həm ondan sonrakı bütün zamanlarda qarşı tərəfin PUA-larının, o cümlədən raket və digər uçuş obyektlərinin izlənilməsi, yerinin təyin olunması, o cümlədən dərhal zərərsizləşdirilməsi üçün daim ayıq-sayıq olmuş, öz xidmətini layiqincə yerinə yetirmişdir.

2020-ci ildə Vətən müharibəsi zamanında düşmənin yüzlərlə raket və PUA-ları havada məhv edilmişdir ki, məhz bu xidmətlər də birbaşa Hava Hücumundan Müdafiə Qüvvələrində xidmət edən döyüşçülərin, o cümlədən çavuş Sirus Səfərovun operativ döyüş əməliyyatlarının uğurudur.

Çavuş Sirus Səfərov 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Ağdamın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Sirus Səfərovun qardaşları – Xüsusi Təyinatlıların Tabor komandiri mayor Elgün Səfərov və baş gizir, həkim-feldşer Eşqin Səfərov da Vətən müharibəsi iştirakçılarıdırlar.

**Şairov Cəmil İnqilab oğlu** 18 dekabr 1996-cı ildə Yeni Daşkənd kəndində anadan olmuşdur. 2003–2012-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2012–2016-cı illərdə təhsilini Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdindəki İnşaat kollecində davam etdirmişdir. 2016–2017-ci illərdə Qazax rayonunun Kəmərli kəndində həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra müxtəlif sahələrdə işləmişdir.

Cəmil Şairov Vətən müharibəsindən bir həftə əvvəl – 21 sentyabr 2020-ci ildə təlimlərə cəlb edilmiş, müharibə başlayan gündən isə döyüşlərə qatılmışdır. Murovdağ cəbhəsində gedən döyüşlərdə iştirak etmişdir. Vətən müharibəsindəki qələbədən sonra 1 yanvar 2021-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

2021-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat fakültəsinə qəbul olmuşdur.

Cəmil Şairov "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Atası İnqilab Şairov Birinci Qarabağ müharibəsi iştirakçısıdır.

**Şairov Niyaz Yusif oğlu** 1981-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1988–1999-cu illərdə Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 1999-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2003-cü ildə həmin məktəbi bitirmişdir. Azərbaycan Müdafiə nazirinin əmri

əsasında leytenant rütbəsi ilə Lənkəran şəhərindəki N saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə göndərilmişdir.

2005-ci ilin mart ayında Füzuli bölgəsinə xidmətə göndərilmiş, 2006-cı ilin dekabr ayında isə baş leytenant rütbəsi alaraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində taqım komandiri kimi xidmətə başlamışdır.

2007-ci ilin sonlarında Gədəbəy rayonundakı N saylı hərbi hissədə taqım komandiri, daha sonra isə bölük komandiri olmuşdur. 2011–2016-cı illərdə xidmətini Tovuz rayonunda bölük komandiri, daha sonra tabor komandirinin müavini vəzifəsi ilə davam etdirmiş, eyni zamanda növbəti hərbi rütbəyə – kapitan rütbəsinə yüksəlmişdir.

2017–2019-cu illərdə Beyləqan rayonunda divizion komandirinin müavini olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində mayor rütbəsi ilə xidmətdə olmuşdur.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan ilk gündən Cəbrayıl, Zəngilan, Mincivan, Xocavənd, Hadrut, Qubadlı cəbhələrində gedən döyüşlərin iştirakçısı olmuşdur.

Mayor Niyaz Şairov "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Hərbi xidmətlərə görə" (30.12.2020), "Xocavəndin azad olunmasına görə" (24.06.2021), "Zəngilanın azad olunmasına görə" (24.06.2021) və "Qubadlının azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunmuşdur.

**Şairov Pərvin Lətif oğlu** 26 dekabr 1992-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1999–2019-cu illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur. 2010–2011-ci illərdə Bakı şəhərindəki N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir.

2012-ci ilin mart ayından MAXEHHXHQ kimi Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır. 2016-cı ilin sonunadək xidmətini Hacıqabuldakı Daxili Qoşunların N saylı hərbi hissəsində qrup komandiri vəzifəsində davam etdirmişdir. Bir müddət xidmətdən ayrılsa da, 2019-cu ildə yenidən MAXEHHXHQ kimi xidmətini

davam etdirmək üçün orduya yazılmış və Tərtər bölgəsindəki N saylı hərbi hissədə manqa komandiri kimi xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə xidmət etdiyi hərbi hissəsinin tərkibində Vətən müharibəsinə qoşulmuş, Suqovuşan, Talış, Kəlbəcər istiqamətindəki döyüşlərdə iştirak etmişdir.

2022-ci ilin sentyabr ayında baş verən Azərbaycan-Ermənistan sərhəd toqquşmasında da iştirak etmişdir.

Hal-hazırda Silahlı Qüvvələrdə xidmət edir.

Kiçik çavuş Pərvin Şairov "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Şairov Sübhan Vaqif oğlu** 28 iyun 1979-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1986–1996-cı illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində oxumuşdur.

1997-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil olmuş, 2001-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirmişdir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Zabit kursunu (01.10.2001–28.07.2002) və Motoatıcı bölük komandiri kursunu (15.09.2007–27.10.2007) qurtarmışdır.

Sübhan Şairov milli orduda leytenant hərbi rütbəsindən polkovnik-leytenant hərbi rütbəsinə qədər yüksələrək müxtəlif hərbi hissələrdə motoatıcı taqım komandiri (08.2002-05.2003), Sülhməramlı qüvvələr taborunda taqım komandiri (05.2003–11.2007), bölük komandiri (11.2007–12.2015), əməliyyat bölmə rəisinin döyüş hazırlığı və planlaşdırma üzrə müavini (12.2015–10.2016), Sülhməramlı qüvvələr taborunun qərargah rəisi tabor komandirinin müavini (10.2016–06.2018), tabor komandiri (06.2018–12.2018), əməliyyat bölməsinin rəisi (12.2018-09.2020), Sülhməramlı qüvvələr taborunun komandiri (09.2020–02.2021) vəzifələrində xidmət etmişdir. 2021-ci ilin fevral ayından isə N saylı hərbi hissədə motoatıcı tabor komandiri vəzifəsində xidmət edir.

Xidmət müddəti ərzində İraq Respublikasında Koalisiya Qüvvələrinin tərkibində 1 il 4 ay müddətində (08.2003–12.2004) Azərbaycan Sülhməramlı bölüyünün taqım komandiri kimi və Əfqanıstan İslam

Respublikasında NATO-nun Beynəlxalq Təhlükəsizlik Qüvvələrinin eləcədə Qətiyyətli Dəstək qüvvələrinin tərkibində 3 il 8 ay müddətində (01.2006–07.2006, 02.2009–10.2009, 04.2012–01.2013, 01.2017–07.2017, 07.2019–02.2020) Azərbaycan Sülhməramlı kontingentinin komandiri kimi sülhməramlı əməliyyatlarda iştirak etmişdir.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Sülhməramlı Qüvvələr taborunun komandiri olaraq taborla birlikdə Cəbrayıl və Qubadlı rayonlarının işğaldan azad olunması əməliyyatlarında iştirak etmişdir.

1–3 avqust və 12–14 sentyabr 2022-ci il tarixlərdə baş verən Azərbaycan-Ermənistan sərhəd toqquşması zamanı döyüş mövqelərinin düşməndən azad olunması əməliyyatlarında taborun şəxsi heyətini məharətlə idarə etmiş, qarşıya qoyulmuş döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirərək 9 yüksəkliyi taboru ilə birlikdə azad etmişdir.

Polkovnik-leytenant Sübhan Şairov 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" (26.06.2008), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" (30.06.2008), 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" (24.06.2011), 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" (24.06.2013), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" (24.06.2013), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)" (10.05.2016), 1-ci dərəcəli "Qüsursuz xidmətə görə" (26.06.2018), "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" (26.06.2018) medalları ilə təltif olunmuşdur.

Polkovnik-leytenant Sübhan Şairov 01.2006–10.2006, 02.2009–10.2009 və 04.2012–01.2013-cü il tarixlərində keçirilmiş Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) əməliyyatı ilə əlaqədar NATO-da xidmətinə görə 3 dəfə, 01.2017–07.2017 və 07.2019–02.2020-ci il tarixlərində keçirilmiş Əfqanıstanda Qətiyyətli Dəstək Missiyası ilə əlaqədar NATO-da xidmətinə görə 2 dəfə olmaqla üst-üstə 5 dəfə qeyri-beşinci maddə NATO medalı ilə təltif olunmuşdur.

2010–2020-ci illərdə Madrid, Ankara, Kabil və Bakıda 20-dən çox təlimlərdə iştirak etmiş, sertifikat almışdır.

2005-ci ilin fevral ayında ailə həyatı qurmuşdur. Bir oğlu, bir qızı var.

**Vəliyev Dilqəm Adıgözəl oğlu** 9 aprel 1986-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Subatan kəndində anadan olmuşdur. 1988-ci ildə məlum hadisələrlə əlaqədar ailəsi ilə birlikdə doğulduğu kəndi tərk etmiş, Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışlar.

1993–2002-ci illərdə Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində doqquz illik təhsil almışdır. 2004–2005-ci illərdə Tovuz rayonundakı N saylı hərbi hissənin kəşfiyyat bölüyündə həqiqi hərbi xidmət keçmişdir.

2016-cı ildə sürücülük üzrə kurs bitirmişdir. 2017-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonundakı N saylı hərbi hissəsində MAXEHHXHQ kimi sürücü vəzifəsində xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı xidmət etdiyi hərbi hissəsinin tərkibində əvvəlcə Murovdağ istiqamətində, sonra isə Talış, Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Müharibənin ikinci ongünlüyündə Ağdam cəbhəsinə göndərilmiş, bir müddət sonra yenidən Suqovuşan cəbhəsinə qaytarılmışdır.

2022-ci ilin sentyabr ayında baş verən Azərbaycan-Ermənistan sərhəd toqquşması əməliyyatlarında da iştirak etmişdir.

Dilqəm Vəliyev “Suqovuşanın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunmuşdur.

Ailəlidir, iki oğlu var.

## YENİ DAŞKƏNDDƏ ƏDƏBİ MÜHİT

**Abbasov Aslan Məmmədsadiq oğlu** 1884-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Məmmədsadiq kişinin oğlu Aslandan başqa Nübar adlı bir qızı da olmuşdur.

Aslan ilk təhsilini molla məktəbində Daşkəndin baş mollası, dövrünün mütərəqqi ziyalısı Hacı Rəhimdən almışdır. Aslan islam dinini dərindən və mükəmməl öyrənmişdir. O vaxtkı adətlərə görə mollalar yaxşı oxuyan uşaqların əllərinin hər iki baş barmaqlarını bir-birinə bağlayaraq Qurani-Kərimi iki qolu birləşdirən biləklərin üstünə qoyub uşağın atasının hüzuruna gətirərmişlər. Aslan da yaxşı oxuduğuna görə atası Məmmədsadiq kişinin hüzuruna gətirildikdə, Məmmədsadiq kişi qəlbən çox şadlanmış və Hacı Rəhimə bir inək hədiyyə etmişdir.

Sovet dövləti yeni qurulanda Abbasov Aslan Daşkənd kənd sovetinin katibi işləmişdir. Daha sonra Basarkeçər Rayon Milis Şöbəsinə işə qəbul edilmişdir. Sonradan o Daşkənd kəndinə qayıtmış, "Qırmızı Rəncbər" kolxozunda qabaqcıl işçilərdən olmuş, dəfələrlə orden və medallarla təltif olunmuşdur.

Aslanın beş oğlu, beş qızı olmuşdur. 1918-ci ildə ermənilər Göyçədən azərbaycanlıları sıxışdırıb çıxaranda, Əhməd adlı bir oğlu Şəmkirdə köçkünlükdə vəfat etmişdir. 1941–1945-ci illərdə Böyük Vətən müharibəsində isə iki oğlu (Rüstəm və ?) həlak olmuşdur.

Aslan Abbasov 1953-cü ilin may ayında ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Aslan Məmmədsadiqoğlu xoş bir avazla şeir söyləmək və həmçinin özüdə şeir yazmaq qabiliyyətinə malik olmuşdur. Onun şirin, mənalı gəraylı və qoşmaları həmkəndlilərinin yaddaşında qalmış, daim şeir həvəskarları tərəfindən el məclislərində söylənilmişdir.

El şairinin həyatı və yaradıcılığı haqqında "İdrak" və "Qafqazın səsi" qəzetlərində, "Göyçə mahalının Daşkənd kəndinin Bakı şəhərində məskunlaşmış sakinlərinin ünvanları və telefon nömrələri" (Bakı, 2000, səh.9–10) və "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008, səh.27–30) kitablarında çap olunmuşdur.

**Qocamanova Gülgəz Maqsud qızı** 1885-ci ildə Bərdə rayonunun Bəcirəvan kəndində Təhlə Maqsud kişinin ailəsində anadan olmuşdur.

1902-ci ildə Göyçə mahalının Daşkənd kəndində Qocaman ağanın oğlu Camalla ailə həyatı qurmuşdur. 1923-cü ildə Camal Kərbəla ziyarətinə getmiş, Kərbəlada vəfat etmiş, orada da dəfn olunmuşdur. Gülgəz bütün çətinliklərə dözərək övladlarını böyütmüş, təsəllisini özündən dediyi bayatılarında tapmışdır. "Qarabağlı qızı" kimi tanınan Gülgəz Maqsudqızı çox gözüaçıq, hazırcavab, rəvan təbə malik bayatıçı qadınlarımızdan olmuşdur.

Gülgəz Maqsudqızının yaxın qohumları Bərdə rayonunun Bəcirəvan, Piyadalar və Hacallı kəndlərində hal-hazırda da yaşayırlar.

1953-cü ildə Göyçədən azərbaycanlılar deportasiya edilərkən Gülgəz Maqsudqızı da bir çox daşkəndlilər kimi Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

1960-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Gülgəz Maqsudqızının həyat və yaradıcılığı haqqında "Azərbaycanın aşıq və şair qadınları" ("Gənclik", 1991. səh.123–124), "Azərbaycan qadın şairləri antologiyası" ("Avrasiya press", 2005. səh. 129–130), "Göyçə mahalında, Daşkənd elində" ("Nurlan", 2007. səh.99–101), "Daşkənd aşıqları və şairləri" ("Nurlan", 2008. səh.33–34), "Aşıq qadınların antologiyası" ("MBM", 2010. səh. 49–50) kitablarında məlumatlar verilmişdir.

**Hacıyev Həsən Məhərrəm oğlu** 1902-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Kiçik yaşlarından dayısı Hacı Rəhimdən, anası Başxanım Şəfi qızından dini təhsil almış, eyni zamanda saza-sözə çox böyük maraq göstərmişdir. Xalq arasında şair Həsən Xəyallı kimi tanınmışdır. Göyçə ədəbi mühitində yetişən Həsən Xəyallı hazırcavablığı ilə erkən yaşlarından hamının diqqətini cəlb etmişdir.

Şifahi xalq ədəbiyyatına dərindən bələd olan Həsən Xəyallı həm də xalq dastanlarının toplayıcısı, bilicisi kimi nüfuz qazanmışdır. O, öz zəngin yaradıcılığı ilə Göyçə ədəbi mühitinə yeni nəfəs, yeni çalar

gətirən sənətkarlardan olmuş, müxtəlif sənət adamları ilə dostluq etmiş (Bəhmən Göyçəli, Növrəs İman, Aşıq Nəcəf, Aşıq Musa) deyişib dərdləşmişdir. Bədii yaradıcılıqla məşğul olmaqla bərabər, dinin mükəmməl bilicisi kimi də el arasında böyük şöhrət qazanmışdır.

1930-cu illərdə Daşkənd kənd sovetliyinin katibi seçilmişdir.

1942-ci ilin iyun ayında Böyük Vətən müharibəsinə getmiş, Krım cəbhəsində döyüşmüşdür. Müharibədən 1945-ci ilin oktyabr ayında qayıtmışdır.

1953-cü ildə doğulduğu ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. 1954-cü ildə Daşkənd kəndinə qayıtmışdır.

10 aprel 1966-cı ildə qüdrətli söz sənətkarı, ustad şair ömrünün 64-cü baharında, əbədiyyətə qovuşmuşdur, məzarı doğulduğu Daşkənd kəndindədir.

Həsən Xəyallının vəfatından sonra şeirləri mərkəzi qəzet və jurnallarda çap olunmuş, haqqında radio və televiziyada verilişlər hazırlanmışdır. “Axtar məni” (Bakı, “Nurlan”, 2006) adlı şeirlər kitabı çap olunmuşdur.

**Kərimov Fəzi Məşədi Qasım oğlu** 1912-ci ildə Göyçə mahalınının Daşkənd kəndində anadan olmuşdur. Atası Məşədi Qasım Göyçə mahalında çox hörmətli, adlı-sanlı şəxsiyyətlərdən və igidlərdən olmuşdur.

Fəzi Kərimov uşaqkən ata və anasını itirmişdir. O, dini çox dərin mənimsəmiş, şeirlərində də bunları çox aydın şəkildə ifadə etmişdir. Qəmgin Fəzi Aşıq Ələsgər ocağı ilə dostluq etmiş, qohumluğu da olmuşdur.

1941–1945-ci illərdə Böyük Vətən müharibəsində topçu komandiri olmuş, orden və medallarla təltif olunmuşdur.

1953-cü ildə doğulduğu ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur.

Üç oğlunun vaxtsız vəfatı, oğlu Yasifin Qarabağda şəhid olması ilə əlaqədar “Qəmgin” təxəllüsünü adına əlavə etmişdir.

Fəzi Kərimov uzun müddət Daşkənd, Qaraqoyunlu və Yeni Daşkənd kəndində kolxoz sədri, sovet sədri, ferma müdiri və başqa rəhbər vəzifələrdə işləmişdir. El arasında böyük hörmət sahibi olan

ağsaqqal həm də Yeni Daşkənd kənd orta məktəbində valideyn komitəsinin sədri olmuşdur.

El şairi Qəmgin Fəzi 25 sentyabr 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Onun "Ağrı dağı" (Bakı, "Qızıl Şərq", 1996) və "Nəsihət deyirəm, saxla yadında" (Bakı, "Elm və təhsil", 2016) adlı şeir kitabları çap olunmuşdur.

**Kərimov Qəşəm Saleh oğlu** 1914-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. İki yaşında ata və anadan yetim qalan Qəşəmin tərbiyəsi və himayəsi ilə əmiləri Hüseyn və Xanlar məşğul olmuşdur. Qəşəm ilkin dini təhsilini mollaxanada əmisi oğlu Həsən Xəyallıdan, orta təhsilini isə Daşkənd kənd orta məktəbində almışdır.

Qəşəm Kərimov 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş, 1943-cü ildə döyüşdə yaralanaraq cəbhədən birinci qrup əlil kimi qayıtmışdır.

1953-cü ildə ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. Yeni Daşkənd kəndində ticarət və rabitə təşkilatlarında işləmişdir.

Qəşəm Kərimov 11 may 1996-cı ildə Yeni Daşkənd kəndində 82 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Şeirə, sənətə böyük marağı olan Qəşəm xüsusən aşıq sənətinə böyük maraq göstərmişdir. O, heç vaxt saz çalmasa da Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Aşıq Nəcəf, Həsən Xəyallı kimi ustadların şeirlərini əzbərdən bilmişdir. Eyni zamanda dinə də böyük maraq göstərmişdir. Şairət elmlərinə dərindən bələd olan, dinə bağlı, Əhli-beyt (ə) aşiqi bir insan olmuşdur. Məhərrəmlik mərasimlərində iştirak etmiş, Nohələr oxumuşdur. Günlərinin boş vaxtında dini kitablar oxuyar, hər il Kərbəla şəhidi İmam Hüseynə təziyə saxlamışdır. Buna görə də ona el arasında Nohəxan Qəşəm deyərdilər.

Yaradıcılığa uşaq yaşlarından başlayan Qəşəmin bütün şeirləri təbiətlə və dinlə bağlıdır. Yaradıcılığında aşıq deyişmələrində olan bağlamaları açmağa çox maraq göstərmişdir. Eyni zamanda özü də bağlama-qıfılbənd səpkili şeirlər yazmışdır.

Nohəxan Qəşəmin şeirləri "Bir kökün budaqları" (Bakı, "Nurlan", 2006), "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitablarında çap olunmuşdur.

**Qocamanov Qocaman Camal oğlu** 1923-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Atası Camal Qocamanın iki yaşı olarkən, Kərbəla ziyarətinə getmiş, orada vəfat etmiş, öz vəsiyyətinə görə Kərbəlada dəfn olunmuşdur.

Qocaman 1941–1945-ci illərdə Böyük Vətən müharibəsinə səfərbərlikdən yayınmış, qaçaqlıq edərək anası Gülgəz Maqsudqızının qohumlarının yaşadığı Bərdə rayonuna getmişdir.

1953-cü ildə doğma ata-baba yurdundan Bərdə rayonuna deportasiya olunmuşdur. Doğma yurddan ayrı yaşaya bilmədiyindən 1959-cu ildə yenidən ailəlikcə Göyçə mahalının Daşkənd kəndinə qayıtmışlar.

1988-ci ildə ikinci dəfə Göyçə mahalının Daşkənd kəndindən deportasiya olunduqdan sonra məcburən Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmışdır.

31 avqust 2016-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 93 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Qocaman Qocamanov uşaqkən aşıqların və din xadimlərinin yanından əl çəkməmiş, orta təhsil almasa da, eşitdiklərinin hamısını sinədəftər edərək yaddaşında saxlamışdır. Şair Məmmədhüseynin, Aşıq Alının, Aşıq Ələsgərin, Aslan Məmmədsadıqoğlunun, Həsən Xəyallının, Daşkəndli Aşıq Ziyadın şeirlərini əzbərdən bilirdi. Özü də bir sıra şeirlər qoşmuşdur.

Qocaman Qocamanovun "Göyçə mahalında, Daşkənd elində" (Bakı, "Nurlan", 2007) adlı kitabı çap olunmuşdur. Həmçinin şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında da nəşr edilmişdir.

**Məhərrəmov Nəbi Həsən oğlu** 1934-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndində məşhur el şairi Həsən Xəyallının ocağında doğulmuşdur. 1941-ci ildə Daşkənd kənd orta məktəbində təhsil almağa başlamış, 1951-ci ildə Daşkənd kənd orta məktəbini bitirmişdir. 1941–1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı atası Həsənin

müharibəyə getməsi ilə əlaqədar ailənin çətinliyi böyük oğul kimi onun üzərinə düşmüşdür.

1953-cü ildə doğma Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuşdur. 1953-cü ildən 1968-ci ilə kimi bənnalıq etmiş, zəhməti ilə böyük hörmət qazanmışdır.

Nəbi Məhərrəmov 1968-ci ildən 1979-cu ilə qədər Bərdə rayonunda ticarətçi kimi fəaliyyət göstərmiş, Yeni Daşkənd kəndində mağaza müdiri olmuşdur.

13 avqust 1979-cu ildə böyrək çatışmazlığından 45 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn edilmişdir.

Uşaqkən atasından dərin ruhani təhsili almış, ərəb və fars dillərində nəinki yazıb oxumaq, hətta danışıq dillərini də öyrənmişdir. Sözün həqiqi mənasında Qareyi-Quran olmuşdur.

Nəbi mükəmməl ruhani təhsili alsa da, heç vaxt ruhanilik-mollalıq etməmişdir. O, əsasən dastanlar danışan şəxs kimi tanınmışdır. Xalq dastanlarını şirin və xoş bir avazla söyləyərmiş.

Nəbi Həsənoğlunun “Mənim ömrüm” (Bakı, “Nurlan”, 2008) adlı kitabı çap olunmuşdur.

**Hacıyev Şiruyə Həsən oğlu** 11 sentyabr 1942-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində şair Həsən Xəyallının ailəsində anadan olmuşdur. Kiçik yaşlarından atasından ərəb və fars dillərində yazıb-oxumağı öyrənmiş, məktəb illərindən şeirə böyük maraq göstərmiş, erkən yaradıcılığa başlamışdır.

1953-cü ildə Göyçə mahalından ailəsi ilə birlikdə Bərdə rayonuna deportasiya olunmuşdur.

1950–1953, 1956–1958-ci illərdə doğma Daşkənd kənd orta məktəbində təhsil almış, 1960-cı ildə isə Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir.

1962-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə daxil olmuş, 1968-ci ildə institutu bitirmişdir.

1963–1964-cü illərdə Baltik dənizində yerləşən Saarema adasının Kingisep şəhərində hərbi xidmət keçmişdir.

1968-ci ildən Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində müəllim, 1972-ci ildən 1980-ci ilə kimi Yeni Daşkənd kənd or-

ta məktəbində direktor müavini və Bərdə rayonu "Bilik" cəmiyyətində mühazirəçi işləmişdir.

1993–1997-ci illərdə Yevlax dini mədrəsəsini bitirmişdir.

1992-ci ildən 1996-cı ilə kimi döyüş bölgələrində hərbi jurnalist kimi fəaliyyət göstərmişdir. İgid döyüşçülərimizin qəhrəmanlığından bəhs edən, vətənpərvərlik mövzusunda 15-ə yaxın poemanın müəllifidir.

Erkən yaşlarından yaradıcılığa başlayan Sərraf Şiruyənin 1962-ci ildə "Qəzet nəyimə gərək" ilk mətbu şeiri "Gənc müəllim" qəzetində dərc olunmuş, yazdığı ictimai-siyasi, lirik şeirlər poeziyasevərlərin dillər əzbəri olmuşdur.

Uzun illər şeirləri sovet qlavnitinin "dəmir məngənə"sindən keçib nəşr olunmasa da, şifahi şəkildə Azərbaycan sərhəddini aşaraq aşıqlar, xanəndələr tərəfindən ifa olunaraq İranda, Türkiyədə saz-söz məclislərinin yaraşığına çevrilmişdir.

Azərbaycan Yazıçılar Birliyinin (23.06.2005) və Azərbaycan Jurnalistlər Birliyinin (20.10.2005) üzvü, "Qızıl qələm" (11.09.2006), "Məmməd Araz" (07.04.2005) və "H.B.Zərdabi" (20.10.2005) mükafatları laureatı idi.

Vətənpərvərlik mövzusunda yazılmış şeirlərinə və poemalarına görə 15 noyabr 2007-ci ildə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Alovlu vətənpərvər, şirin dilli publisist, görkəmli el şairi Sərraf Şiruyə uzun müddət böyrək çatışmazlığından əziyyət çəkmişdir. 8 dekabr 2015-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində 73 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Vəfatından sonra haqqında "Elin Şiruyəsi, sözün sərrafı" (Bakı, "SkyG", 2016) adlı 400 səhifəlik kitab çap olunmuşdur.

### *Kitabları:*

1. "Ağlama, bülbül, ağlama", Gəncə, 1994, 372 səh., 10000 nüsxə.
2. "Ölümdən sonrakı ömür", Gəncə, 1997, 172 səh., 1000 nüsxə.
3. "Bu ocağın odu sönməz", Gəncə, 1998, 76 səh., 200 nüsxə.
4. "Cəsurlar", Bakı, "Gənclik", 2000, 100 səh., 500 nüsxə.
5. "İgid ölər, adı qalar", Gəncə, 2002, 304 səh., 500 nüsxə.

6. “Ayrılığın sonu varmış”, Bakı, “Nurlan”, 2006, 192 səh., 200 nüsxə.
7. “Könlüm Göyçəni istər”, Bakı, “Nurlan”, 2006, 192 səh., 1000 nüsxə.
8. “Tərtərin yaralı cəngavərləri”, Bakı, “Hüquq ədəbiyyatı”, 2006, 288 səh., 400 nüsxə.
9. “Mən haqqa sığınmışam”, Bakı, “Nurlan”, 2007, 200 səh., 500 nüsxə.
10. “Hər görüş bir xatirədir”, Bakı, “Nurlan”, 2007, 248 səh., 500 nüsxə.
11. “Göyçədən gələn səslər”, Bakı, “Nurlan”, 2008, 184 səh., 200 nüsxə.
12. Seçilmiş əsərləri, I cild (Təcnislər), Bakı, “Nurlan”, 2008, 180 səh., 500 nüsxə.
13. Seçilmiş əsərləri, II cild (Poemalar), Bakı, “Nurlan”, 2008, 384 səh., 500 nüsxə.
14. Seçilmiş əsərləri, III cild (Poemalar), Bakı, “Nurlan”, 2008, 320 səh., 500 nüsxə.
15. Seçilmiş əsərləri, IV cild (Qoşmalar), Bakı, “Nurlan”, 2009, 304 səh., 500 nüsxə.
16. Seçilmiş əsərləri, V cild (Qoşmalar), Bakı, “Nurlan”, 2009, 230 səh., 500 nüsxə.
17. Seçilmiş əsərləri, VI cild (Gəraylılar), Bakı, “Nurlan”, 2010, 200 səh., 500 nüsxə.
18. “Ayrılıq belə düşdü”, Bakı, “Qismət”, 2014, (224+48) səh., 300 tiraj.
19. “Susma ürək” Bakı, “SkyG”, 2015, 272 səh., 500 tiraj.

**Şairov Səyyad Süleyman oğlu** 1 iyul 1945-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1962-ci ildə Yeni Daşkənd kənd orta məktəbini bitirmişdir. 1962–1963-cü illərdə 1 saylı peşə məktəbində oxumuşdur.

Bakı şəhəri Səbail Neft-Qaz Çıxarma İdarəsində neft quyularının təmiri briqadasında və Rayonlararası Avtomatlaşdırma və Elektirikləşdirmə İdarəsində elektrik işləmişdir.

1964-cü ildə Sovet ordusu sıralarına çağırılmış, Belarusiyanın Novo-Borisov şəhərində tank komandiri hazırlayan hərbi məktəbə daxil olmuşdur. Hərbi təhsili bitirdikdən sonra Qrodno şəhərində motoatıcı batalyonun tank komandiri, bölmə komandirinin müavini və bölmə komandiri vəzifələrində xidmət etmişdir.

1971–1973-cü illərdə Gəncə Politexnik Texnikumunun "Avtomobil nəqliyyatının istismarı" ixtisasında, 1973–1976-cı illərdə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Kənd təsərrüfatının iqtisadiyyatı fakültəsində təhsil almışdır.

Bərdə rayonu Yeni Daşkənd kəndinin "Rabitə şöbəsi"nin rəisi işləmiş, rayon təbliğat-təşviqat şöbəsinin üzvü olmuşdur.

1980-ci ildən 1989-cu ilin sonuna qədər Yeni Daşkənd kənd orta məktəbində "Gənclərin çağırışaqədərki hazırlığı" üzrə təlimatçı müəllim işləmişdir.

1990-cı ildən Yeni Daşkənd kənd ərazi vahidində Qərargah mühəndisi və "Maşın-Traktor Parkı"nda təhlükəsizlik mexaniki və yanğından mühafizə dəstəsinin rəhbəri vəzifələrində çalışmışdır.

3 noyabr 1998-ci ildən 2009-cu ilə qədər "Abşeronneft" Neft-Qaz Çıxarma İdarəsində neft hasilatı üzrə operator işləmişdir.

Səyyad Şairov 31 oktyabr 2016-cı ildə Məşhəd ziyarətində, 2018-ci ilin aprel ayında isə Məşhəd və Kərbəla ziyarətlərində olmuşdur.

3 yanvar 2023-cü ildə Sabunçu rayonunun Ramana qəsəbəsində 78 yaşında vəfat etmiş, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Səyyad Şairov haqq aşiqi şair Məmmədhüseynin nəticəsidir. Onun şeirləri və məqalələri "Qədim Oğuz", "İslahat", "Haqqın Səsi", "Azərbaycan Müəllimi", "Həqiqət və Zaman", "Hüquqşünas", "Açıq Səma", "Həqiqətin Sorağında", "Etiraf" adlı qəzetlərdə dərc edilmişdir.

"Yaralı Göyçə" (Bakı, "Nurlan", 2006) və "Taleyini görən şair" (Bakı, "Nurlan", 2009) adlı kitabları çap olunmuşdur.

"Araz" ali ədəbi media mükafatı laureatının fəxri diplomu ilə təltif edilmişdir.

**Camalov Camal Qocaman oğlu** 7 iyun 1951-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur.

1953-cü ildə ailəsi ilə birlikdə doğma Göyçə mahalından Bərdə rayonuna deportasiya edilmişdir. 1959-cu ildə yaşadıqları Yeni Daşkənd kəndindən yenidən ailəlikcə ata-baba yurdları olan Göyçə mahalının Daşkənd kəndinə qayıtmışlar.

Camal Camalov 1969-cu ildə Daşkənd kəndində onuncu sinfi bitirmişdir. 1970–1972-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

1972-ci ildə Azərbaycan Neft-Kimya İnstitutuna qəbul olmuş, mühəndis elektirik ixtisasına yiyələnmişdir.

1980-ci ildən Şəmkir SES-in tikintisində müxtəlif sahələrdə çalışmış, Şəmkir SES-in Silsiləsində baş növbətçi mühəndis vəzifəsində işləmişdir.

Ailəlidir, üç övladı, altı nəvəsi var.

Camal Qocamanoğlunun "Deyəsən qocalıram mən", "Dərd özü dilləndirir", "Göyçə səsləyir məni" və "Nakam susan qəlblər" adlı kitabları nəşr olunub. "Ədalətin izi" qəzetində isə "Bir ailənin faciəsi" adlı yazısı dərc edilmişdir.

**İmanov Əli Şəmistan oğlu** 18 mart 1955-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur.

1971-ci ildə Daşkənd kənd orta məktəbini bitirmişdir. 1972-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunun Baytarlıq fakültəsinə qəbul olmuşdur. 1973-cü ildən 1975-ci ilə qədər hərbi xidmətdə olmuş, 1976-cı ildə texnikumu bitirmişdir.

1976-cı ildən 1981-ci ilə kimi "Bolşevik" adına SSRİ Dövlət Damazlıq Təsərrüfatının baş baytar həkimi, 1981–1985-ci illərdə isə Ermənistan Əlvan Metallar Nazirliyinin yardımçı təsərrüfatının baş baytar həkimi işləmişdir.

1985-ci ildən 1988-ci ilə kimi doğma Daşkənd kəndində "Qırmızı Rəncbər" kolxozunda baş baytar həkim kimi fəaliyyət göstərmişdir. 1988-ci ildə ata-baba yurdundan didərgin düşmüş, əvvəlcə Bərdə rayonunun Yeni Daşkənd kəndində, sonra Şamaxı rayonunun Mədrəsə kəndində, daha sonra isə Bakı şəhərində məskunlaşmışdır.

1990-cı ildən 1996-cı ilə kimi Bakı şəhərindəki 1 nömrəli "Təzə bazar"da alqı-satqı şöbəsinin müdiri, 1997-ci ildən 2000-ci ilədək isə

"Azərittifaq"ın baş tədarükçüsü işləmişdir. 2000-ci ildən 2005-ci ilədək Xətai Rayon Mülki Müdafiə Şöbəsinin müdiri olmuşdur.

2005-ci ildən Göygöl rayonunda fəaliyyət göstərən təsərrüfatda baş baytar həkim işləmiş, 2021-ci ildə təqaüdə çıxmışdır.

Əli İmanov eyni zamanda bədii yaradıcılıqla da məşğul olur. Şeirləri bir sıra mətbuat orqanlarında, həmçinin "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur.

"Göyçəli, Göyçəsiz keçən günlərim..." (Bakı, "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2006) adlı şeir kitabı nəşr edilmişdir.

Ailəlidir, beş övladı var.

**Şairov İsrail Mikayıl oğlu** 7 iyun 1957-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1964–1974-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1975-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Riyaziyyat fakültəsinə qəbul olmuş, 1980-ci ildə həmin universiteti bitirmişdir.

1980–2020-ci illərdə Bərdə rayonunun Kürdborakı kənd tam orta məktəbində riyaziyyat müəllimi işləmişdir.

İsrail müəllimin babası Kərəm, atası Mikayıl islam dininin və sazın-sözün layiqli təbliğatçısı olmuşlar. İsrail Şairov həm də Göyçə mahalının Daşkənd kəndində yaşayıb-yaratmış şair Məmmədhüseynin kötücəsidir. İrsən keçən istedad onda lap uşaqlıqdan üzə çıxmışdır. Demək olar ki, İsrail Şairov şair Məmmədhüseyn irsinin və sənətinin ən layiqli davamçısı olmuşdur.

İsrail Şairov şeirin müxtəlif növlərindən istifadə edərək nəsihətamiz əsərlər yazıb-yaratmışdır. Şeirlərində düşündürücü fəlsəfi fikirlər, ustadnamələr yetərincədir. Çap olunmalı zəngin külliyyatı vardır. Şeirləri müxtəlif ədəbi almanaxlarda dərc olunmuşdur.

İsrail Şairov 2 aprel 2020-ci ildə Yeni Daşkənd kəndində 63 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Hacıyev İman Həsən oğlu (Aqil İman)** 1 dekabr 1958-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndində qüdrətli söz sənətkarı Həsən Xəyallının ailəsində anadan olmuşdur. VIII sinifə kimi Daşkənd kənd orta məktəbində oxumuşdur. 1974–1976-cı illərdə Bərdə

rayonu Yeni Daşkənd kənd orta məktəbində təhsilini davam etdirmişdir.

1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuş, 1981-ci ildə həmin institutu bitirmişdir. 1981–1983-cü illərdə Tambov şəhərində həqiqi hərbi xidmət keçmişdir.

1983-cü ildən Yevlax Qaz İdarəsində, 1986-cı ildən 1993-cü ilə kimi isə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Bərdə Dəmir-Beton Məmulatları Zavodunda mühəndis işləmişdir.

İman Hacıyev 1988-ci ildə başlayan azadlıq hərakatının Bərdə rayonunda öncüllərindən olmuşdur. O, 1993-cü ildə Kəlbəcər-Ağdərə döyüşlərində könüllü iştirak etmiş, döyüş zamanı yaralanmışdır.

29 avqust 1996-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində ürək dayanmasından 38 yaşında vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur.

Aqil İman zəngin yaddaşa, rəvan təbə, səlis nitqə, şirin natiqliyə malik şair kimi onu sevənlər tərəfindən daim ehtiramla xatırlanır. El məclislərində masabəyi kimi ağır məclislər yola salmış nakam ömürlü Aqil İmanın onlarla şeiri poeziya xiridarlarının yaddaşında yaşayır, aşıqların, xanəndələrin, qiraətçilərin reperturanın bəzəyinə çevrilmişdir.

Orta məktəb illərindən yaradıcılığa başlayan Aqil İmanın şeirləri "Sovet Ermənistanı", "İnşaatçı", "Sovet kəndi" qəzetlərində işıq üzü görmüşdür.

"Bu dünya görüş yeridi" (Bakı, "OL", 2015) adlı şeirlər kitabı nəşr olunmuşdur.

**Abbasova (Hacıyeva) Nazilə Nəbi qızı** 6 mart 1961-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1968–1978-ci illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. İlk əmək fəaliyyətinə Bərdə rayonunun "Yeni həyat" kolxozunda başlamışdır.

1984-cü ildə Gəncə Yüngül Sənaye Texnikumuna daxil olmuş, 1987-ci ildə həmin texnikumu bitirmişdir.

2002-ci ildən Bakı şəhərində yaşayır.

Nazilə Nəbiqızı hələ orta məktəbdə oxuyarkən kiçik şeirlər yazmağa başlamış, atasından şifahi xalq ədəbiyyatı nümunələri olan

dastan və rəvayətlər öyrənmişdir. Bununla da Nazilədə şeirə, poeziyaya böyük maraq yaranmışdır.

İlk dəfə şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 309-312).

Nazilə Nəbiqızının "Azərbaycanım" (Bakı, "BDU", 2009) və "Düşüncələrim" (Bakı, "R.N.Novruz-94", 2009) adlı şeir kitabları çap olunmuşdur.

**Məmmədova (Kərimova) Sənubər Fəzi qızı** 26 yanvar 1962-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1969–1979-cu illərdə Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur.

1981–1986-cı illərdə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində ali təhsil almışdır.

1994-cü ildən 1998-ci ilə kimi Bakı şəhər "İdman-İstehsalat Birliyi"ndə texnoloq, 1998-ci ildən 2001-ci ilə kimi isə "Şəfa" MMC-də kadr üzrə müfəttiş vəzifəsində işləmişdir.

Sənubər Fəzili 2001-ci ildən 2006-cı ilə kimi "Olaylar" infomasiya agentliyi və "Olaylar" qəzetində əvvəlcə jurnalist sonra isə baş redaktorun müavini vəzifəsində çalışmışdır.

2006-cı ildən 2008-ci ilə kimi "Dövlətin yaşadılması" qəzetinin redaktoru, 2008-ci ildən 2010-cu ilə qədər isə "Respublika gəncləri" qəzetində baş redaktorun I müavini vəzifəsində fəaliyyət göstərmişdir.

2011-ci ildə "Göyçənin səsi" qəzetini təsis etmişdir. Qəzetin baş redaktoru olaraq jurnalistlik fəaliyyətini davam etdirir.

Lirik şeirlər müəllifi olan Sənubər Fəzili eyni zamanda "Aydınlar ocağı" İctimai Birliyinin sədr müavini vəzifəsində çalışır. Dünya Azərbaycanlıları Konqresinin Rusiya Federasiyası üzrə Fəxri nümayəndəsi, "Qızıl qələm" media mükafatı laureatıdır.

Sənubər Fəzili 7 kitabın, 100-lərlə şeirin müəllifidir.

Hal-hazırda Bakı şəhərində yaşayır. Ailəlidir, iki oğlu, iki qızı, beş nəvəsi var.

**Abbasəliyev Şöhrət Müzəffər oğlu** 23 avqust 1964-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. 1971-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1981-ci ildə həmin orta məktəbi bitirmişdir.

1982–1984-cü illərdə Vladivostokda sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

1986-cı ildə Şəki Kənd Təsərrüfatı Texnikumuna qəbul olmuş, 1989-cu ildə həmin texnikumun Aqronomluq fakültəsini bitirmişdir.

Şöhrət Abbasəliyev 1990-cı ildə ailə həyatı qurmuşdur. İki övladı var. Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

Şeirləri "Daşkənd aşıqları və şairləri" (Bakı, "Nurlan", 2008) kitabında çap olunmuşdur (səh. 342–347).

**Hacızadə Aqşin Şiruyə oğlu** 17 oktyabr 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində şair Sərraf Şiruyənin ailəsində doğulmuşdur. 1976–1986-cı illərdə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. 1987–1989-cu illərdə Murmansk vilayətində Sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçmişdir.

Aqşin Hacızadə 1990-cı ildən Bərdə Rayon Mədəniyyət evində bədii rəhbər vəzifəsində çalışır.

Qarabağ hadisələri başlayandan sonra, 1993–1996-cı illərdə könüllü olaraq Milli Ordu sıralarına daxil olmuş və Ağdam cəbhəsində gedən ağır döyüşlərin iştirakçısı olmuşdur. Qarabağ Müharibəsi veteranıdır.

Ailəlidir, bir oğlu, bir qızı var. Hal-hazırda Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşayır.

Aqşin Hacızadə anası, ədəbiyyat müəllimi Nuriyədən, atası şair Şiruyədən bəhrələnərək yaradıcılığa çox erkən başlamışdır. Şeirləri müxtəlif qəzetlərdə, jurnallarda və bədii almanaxlarda çap olunmuşdur. O, Sərraf Şiruyənin yolunu layiqincə davam etdirən şairdir. Şeirləri şeirsevərlərin dillər əzbəridir. El məclislərinin mahir aparıcısıdır. Vətənpərvərlik və məhəbbət mövzularında şeirləri daha çox üstünlük təşkil edir.

Aqşin Hacızadənin "Tanrı bizi bağışlamaz" (2010), "Sənsizliyi duyacağam" (2011), "Tikdim ki, izim qala" (2021) və "Qulam Qədirov – 50" (2022) adlı kitabları çap olunmuşdur.

**Hacıyev Araz Yaqub oğlu** 1 avqust 1973-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində doğulmuşdur. Atası Yaqub Hacıyev Bərdədə tanınmış mühəndislərdən olmuşdur.

Araz Hacıyev 1980-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbinin I sinfinə getmiş, 1990-cı ildə həmin məktəbin XI sinfini bitirmişdir. 1989-cu ildə Bərdə rayonu üzrə keçirilən riyaziyyatdan fənn olimpiadasında I yeri tutmuş, respublika olimpiadasında iştirak etmək hüququ qazanmışdır. 1989–1990-cı illərdə oxuduğu orta məktəbin komsomol təşkilat katibi olmuşdur.

2 avqust 1990-cı ildə ilk əmək fəaliyyətinə Azərbaycan SSR Sənaye Müəssisələri İstehsalat Birliyinin Bərdə “Nüşabə” Kooperativində fəhlə kimi başlamışdır. 1 fevral 1991-ci ildə iş yerini dəyişərək 9 saylı Dəmir-Beton Məmulatları Zavodunda çilingər işləmişdir.

1991-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinə qəbul olmuş, 1996-cı ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin “Sənaye və mülki tikinti” ixtisasını əla qiymətlərlə bitirmişdir. 1995-ci ildə həmçinin, bir illik Bakı Ali Menecer Kollecini bitirmişdir.

1994-cü ildə institut üzrə keçirilən “Materiallar müqaviməti” fənni üzrə olimpiadada I yeri tutmuş, haqqında “İnşaatçı kadrlar uğrunda” qəzetdə (№6 (245), 26 oktyabr 1994) Dilarə Mikayılovanın “Nümunəvi tələbə” başlıqlı məqaləsi dərc olunmuşdur. İnstitututda oxuduğu müddətdə təhsildən ayrılmamaqla Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnə quraşdırıcısı vəzifəsində çalışmışdır (30.09.1994–31.12.1994).

Araz Hacıyev 1994–1996-cı illərdə Azərbaycan Milli İstiqlal Partiyasının üzvü olmuşdur.

1992-ci ildən şeirləri və məqalələri mütəmadi olaraq mərkəzi qəzetlərdə, jurnallarda və almanaxlarda çap olunur. 100-dən çox kitabın redaktoru, korrektoru və tərtibçisidir. Aşıqlar və aşıq yaradıcılığı ilə bağlı onlarla elmi və publisistik məqalələrin, kitabların müəllifidir. Həmin müəllifi olduğu məqalələr və kitablar onun püxtələşmiş tədqiqatçılıq qabiliyyətinə malik olduğunu sübut edir. Daim televiziya və radio verilişlərinin qonağı olur, araşdırmalarını tamaşaçılar və dinləyicilər ilə bölüşür.

Araz Yaquboğlu 30 aprel 2010-cu ildən "Araz Yaquboglu" istifadəçi adı ilə Azərbaycanca Vikipediyanın aktiv istifadəçisi, 23 sentyabr 2013-cü ildən isə Azərbaycanca Vikipediyada idarəçidir. Həmçinin Azərbaycan dilində olan Vikipediya ilə yanaşı, Vikikitabın və Vikimənbənin də idarəçisidir. 9 aprel 2023-cü ilə olan məlumata görə, Azərbaycanca vikipediyada 7000-dən çox səhifənin yaradıcısı, ümumi Vikimedia layihələrində isə 440 000-dən çox redaktəyə sahibdir. Hal-hazırda Azərbaycanca vikipediyada 270 000 redaktə ilə birinci sıradadır.

1 yanvar 2012-ci ildən "Laçın yurdu" jurnalında baş redaktorun müavini, 1 yanvar 2022-ci ildən isə Dədə Ələsgər Ədəbi Məclisinin üzvüdür.

Araz Yaquboğlunun "Elin yaddaşında yaşayan ömür" (2006), "Bir kökün budaqları" (2006), "Daşkənd aşıqları və şairləri" (2008), "Tələbə dünyası" (2011), "Ömrün şəhidlik zirvəsi" (2012), "Bitməyən ömür" (2013) və "Elin Şiruyəsi, sözün sərrafı" (2016) adlı kitabları çap olunmuşdur.

10 mart 2011-ci ildə "Qızıl qələm" media mükafatı, 2021-ci ildə "Laçın" döş nişanı (№ 073), 2021-ci ildə "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin Fəxri fərmanı, 1 avqust 2022-ci ildə isə "Aşıq Ələsgər – 200" yubiley medalı (№ 00077) ilə təltif olunmuşdur.

1994-cü ildə ailə həyatı qurmuşdur. Bir oğlu, bir qızı var. Hal-hazırda Bakı şəhərində yaşayır.

**Nəzərov Cahad Hidayət oğlu** 1 oktyabr 1979-cu ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. 1988-ci ildə məlum hadisələrlə bağlı ailəsi ilə birlikdə öz yurd-yuvasını tərk etməli olmuş, əvvəlcə Yeni Daşkənd kəndində, sonralar Bərdə şəhərində, Yevlax rayonunda məskunlaşmışlar. Hal-hazırda Bərdə şəhərində yaşayır.

Cahad Nəzərov 1985-ci ildə orta təhsilə doğma Daşkənd kənd orta məktəbində başlamışdır. 1988–1990-cı illərdə Yeni Daşkənd kənd orta məktəbində, 1990–1993-cü illərdə Bərdə rayon Muğanlı kənd orta məktəbində, 1993–1997-ci illərdə isə Yevlax rayon Hürüuşağı kənd tam orta məktəbində oxumuşdur.

1997–2001-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ali təhsil almışdır. 2001–2002-ci illərdə sərhəd

qoşunlarında hərbi xidmət keçmiş, hərbi xidmət dövründə "Sərhədçi" və "Azərbaycan Ordusu" qəzetləri ilə əməkdaşlıq etmişdir.

2002–2015-ci illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bərdə Şöbəsində bədii rəhbər və klub müdiri vəzifələrində işləmişdir.

Cahad Nəzərov tələbəlik illərində ədəbi mühitlə maraqlanmağa başlamış və ən çox ədəbi təcrübəni Ramiz Qusarçaylının rəhbərlik etdiyi "Ay işığı" ədəbi məclisində qazanmışdır. Şeirləri dəfələrlə "Ay işığı" ədəbi məclisinin bir neçə almanaxlarında və mətbuat orqanlarında çap olunmuşdur.

2001-ci ildə Gənclər və İdman Nazirliyinin xətti ilə "Adım tələbədir" adlı ilk şeirlər kitabı çap olunmuşdur.

Azərbaycan Yazıçılar Birliyi ilə Turizm Nazirliyinin birgə layihəsi olan "Gənc Ədiblər Məktəbi"nin və Bərdə şəhərində fəaliyyət göstərən "Söz" ədəbi birliyinin üzvüdür. 2005–2007-ci illərdə "Gənc Ədiblər Məktəbi" layihəsinin diplomunu qazanmışdır.

2008-ci ildə "Daşkənd aşıqları və şairləri" kitabında, 2009-cu ildə isə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Yazıçılar Birliyinin birgə layihəsi olan, çağdaş Azərbaycan şairlərinin əsərləri cəm olunmuş "Poeziya günü" adlı şeirlər toplusunda yaradıcılıq nümunələri çap olunmuşdur.

Cahad Nəzərov hal-hazırda xırda bizneslə məşğul olur, el məclislərində, toylarda aparıcılıq edir.

**Həsənli Qılman İman oğlu** 15 fevral 1986-cı ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində el şairi Aqil İmanın ailəsində doğulmuşdur.

1992-ci ildə Bərdə rayonu Yeni Daşkənd kənd tam orta məktəbinin I sinfinə getmiş, 2003-cü ildə Bərdə rayonu Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbinin XI sinfini bitirmişdir.

2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Jurnalistika fakültəsinə qəbul olmuş, 2007-ci ildə həmin universiteti jurnalist ixtisası üzrə bitirmişdir.

2004-cü ildən "İslahat" qəzetində poeziya şöbəsinin müdiri, 2005-ci ildən isə "Etiraf" qəzetində baş redaktorun müavini vəzifəsində çalışmışdır.

2006-cı ildən 2008-ci ilə qədər Azərbaycan Televiziyasında işləmişdir. Azərbaycan radiosunda redaktor vəzifəsində çalışmış, "Söz-sözü çəkər" adlı ədəbi-bədii verilişin aparıcısı və müəllifi olmuşdur.

23 dekabr 2017-ci ildən "goyce.az" saytının təsisçisi və baş redaktorudur.

2000-ci ildən mətbuat səhifələrində şeir və publisistik yazıları ilə çıxış edir. Əsərləri bir çox dillərə tərcümə olunaraq İran, Türkiyə, Ukrayna, Fransa, Almaniya, Rusiya mətbuatında nəşr edilmişdir. Bir sıra beynəlxalq poeziya festivallarının laureatı olan Qılman İmanın yaradıcılığı haqqında görkəmli şair və yazıçıların rəy və resenziyaları çap olunmuşdur.

2008–2010-cu illərdə "Gənc ədiblər" məktəbinin müdavimi, 2010-cu ildən Azərbaycan Yazıçılar Birliyinin və "Ulduz" jurnalının redaksiya heyətinin üzvüdür.

Qılman İmanın "Səni axtarırdım, özümü tapdım" (2004) və "Hardan düşdün yadıma sən..." (2008) adlı kitabları çap olunmuşdur.

Müasir Azərbaycan poeziyasında fərqli üslubu olan şair kimi xarakterizə olunan Qılman İman çoxsaylı oxucuların rəğbətini qazanmış sevimli qələm sahiblərindəndir.

16 fevral 2019-cu ildə ailə həyatı qurmuşdur, iki övladı var. Bakı şəhərində yaşayır.

# FOLKLOR

## AŞIQ HAVALARI

1. Baş divani
2. Osmanlı divanisi
3. Təcnis
4. Təxmis
5. Qaraçı
6. Kərəm köçdü
7. Yanıq Kərəmi
8. Sallama Kərəmi
9. Kərəm gözəlləməsi
10. Zarıncı (Hicran Kərəmi)
11. Quba Kərəmi
12. Baş sarıtel
13. Orta sarıtel
14. Mixəyi
15. Dübeyti
16. İran dübeytisi
17. Azaflı dübeyti
18. Urfani (Ruhani)
19. Qaytarma
20. Naxçıvani
21. Köhnə Naxçıvani
22. Dilqəmi
23. Sallama gəraylı
24. Şəqayı gəraylı
25. Şahsevəni
26. Cəlili
27. Süsənbəri
28. Ayaq Cəlili (Nəcəfi)
29. Hüseyni (Dastanı)
30. Qəmərcanı
31. Mirzəcanı
32. Misri
33. Sürütmə Koroğlu
34. Bozğu Koroğlu
35. Cəngi Koroğlu
36. Qəhrəmanı
37. Ağır şərili
38. Məmmədbağırı
39. Mansırı
40. İbrahimi
41. Bayramı
42. Bəhməni
43. Ovşarı
44. Oğuzoğlu
45. Dol hicranı
46. Paşa köçdü
47. Sultanı
48. Laçını
49. Sarı torpaq
50. Çoban bayatısı
51. Məmmədhüseyni
52. Göyçə gülü
53. İncəgülü
54. Göyçə gözəlləməsi
55. Güllü qafiyə (Qoşa yarpaq)
56. Şərəbanu
57. Gilənar
58. Dərbəndi (Qaçaq Nəbi)
59. Yurd yeri
60. Təbrizi

61. Vaqifi
62. Duraxanı
63. Göyçə qaragözü
64. Aran gözəlləməsi
65. Qaytağı
66. İrəvan çuxuru
67. Vanağzı
68. Qurbani
69. Fəxri
70. Baş müxəmməs
71. Orta müxəmməs
72. Koroğlu müxəmməsi

## ATALAR SÖZLƏRİ[1]

Bugünkü övkə sabahkı quyruxdan yaxşıdı.
Cavanlıqda çək zəhmət, qocalıqda ol rahat.
Cərgədən qalan keçəl olar.
Çox bilirsən, az danış.
Dama-dama göl olar, dada-dada heç olar.
Daş düşdüyü yerdə qalar.
Dəli dostun olunca, ağıllı düşmənin olsun.
Dərdli adam danışan olar.
Dərzi öz söküyünü tikə bilməz.
Doğru danışanın papağı yırtıq olar.
Dost məni bir qoz ilə, o da puç.
Dostuna sirrini demə, dostunun da dostu var.
El gözü tərəzidi.
El üçün ağlayan kor olar.
Ellərə gülən canım, indi olmuşam el gülüncü.
Eşşək işlər, at yeyər.
Eyibsiz gözəl axtaran yarsız qalar.
Ət ilə dırnağı ayırmaq olmaz.
Ət yeyən quşun dimdiyi əyri olar.
Ətnən dırnağın arasına girmə.
Gödək adam gündə üç dəfə taxta çıxar.
Halal tükənməz, haram artmaz.

---

[1] Burada verilən 35 ədəd atalar sözü Muxayıl Göyçəlinin (1918–1944) əlyazma dəftərindən götürülmüşdür.

Haram mal bərəkət tutmaz.
Hər ziyanlıq adama bir ağıl öyrədər.
Heç kəsin çırağı başacan yanmaz.
Kərki olub öz tərəfini yonma.
Qazan qarası gedər, üz qarası getməz.
Qurd tükünü dəyişər, xasiyyətini dəyişməz.
Minnət ilə behiştə gedincə, minnətsiz cəhənnəmə getmək yaxşıdı.
Mollanın (malanın) qarını beşdir, hər zaman biri boşdur.
Oğru elə bilər hamı oğrudur.
Saxsıya verə-verə misin bahası çıxdı.
Suçıxmaz arxa cuvar qoydular, adımı da yarıtmaz qoydular.
Varlılığa tələsiyən yoxsulluğa tez düşər.
Yalvarmaqla donuz darıdan cıxmaz.

# BAYATILAR

## Başxanım Şəfiqızı

Eləmi, gəlin gedib,
Qız gedib, gəlin gedib.
Bu evdən oğul, uşaq,
Ocaqdan gəlin gedib.

Hələ bəd zamanım var,
Hələ ağlar anım var.
Sizə qurban deməyə,
Bircə quru canım var.

Əziziyəm, tək gəlib,
Bazar ötüb tək gəlib.
Gəlin öz ocağına,
Allah, qonaq tək gəlib.

Dərd çəkən canım oldu,
Çürüyən yanım oldu.
Taleyim ayaq xanım,
Adım Başxanım oldu.

Ömrümün zamanında,
Ox gördüm kamanında.
Qazdırın məzarımı,
Qardaş qəbri yanında.

Şura gəl, ay Şura gəl,
Bəyi qıra-qıra gəl.
Zalımlar azğınlaşıb,
Əvvəl-əvvəl bura gəl.

Dərələr çiçəkləndi,
Mal-qara yedəkləndi.
Allah, sənə mən qurban,
Zalımlar kötəkləndi.

Allah, eylə sən kərəm,
Ağlayıram yüz kərəm,
Oğul-oğul deməkdən –
Gözdən oldu Məhərrəm.

Göylər bulutdu haray,
Eli qəm tutdu haray.
Yuxulu körpələri,
Güllə oyatdı, haray!

El-oba cəfadadı,
Top-tüfəng havadadı.
Analar alqış deyin,
Oğullar davadadı.

Dağ batıb gül ətrinə,
Tellər düşüb çətrinə.
Qızlar hünər göstərin,
El-vətənin xətrinə.

Doğ günəşim, doğ ayım,
Pozulubdu halayım.
Sənin şəfəqlərinlə,
Bəlkə, gedə ax-vayım.

## Gülgəz Maqsudqızı

Ağacdan nar düşdü gəl,
Dağlara qar düşdü gəl.
Canım zalım əlində,
Yadıma yar düşdü gəl.

Təhlədi elim, haray,
Cənnətdi çölüm, haray.
Qürbətdə yurd salmışam,
Vətəndə ölüm, haray!

Əzizim, yar aşıqdan,
Xəbər al yar, aşıqdan.
İl tamam olmayıbdı,
Düşmüşəm yaraşıqdan.

Əziziyəm, gül gəzə,
Bülbül gərək gül gəzə.
Həsrətinlə yanıram,
Xəbər göndər Gülgəzə.

Mətləbi sözümdən al,
Pərdəni üzümdən al.
Yarım, gəl gir qapıdan,
Bəxşişi özümdən al.

Canım dərd qucağında,
Öləm mərd qucağında.
Zaman qismət eyləyib,
Quzu qurd qucağında.

Elim gəlib dağdadı,
Piltə yanır yağdadı.
Ömür keçir, gün keçir,
Könlüm elə “ax”dadı.

Yarı gözüm görəydi,
Odum, közüm görəydi.
Görmədiyim xoş günü,
Oğlum, qızım görəydi.

Necə xara əyilim,
Çəkmir ata meyilim.
Yaxam yetim əlində,
Kalvayı azreyilim.

## Reyvə Kərbəlayı Camal qızı

Əzizim Göyçəy ana,
Göyçəyi göyçəy ana,
Gavırlara qalıbdı,
Od tuta Göyçə yana.

Əzizim Göyçəyə get,
Yaz gəlib Göyçəyə get,
Könül vermə çirkinə,
Gedəndə göyçəyə get.

Aşıq göyçəyə ölüm,
Qıyma göyçəyə ölüm,
Xudam qismət eyləsin,
Üzü Göyçəyə ölüm.

Əzizim ocaq təki,
Çağ hana çağ təki,
Mən Göyçəni sevirdim,
Bir doğma qucaq təki.

Aşıq qara bağlıdı,
Yollar qara bağlıdı,
Yurdum yuvam Göyçədi,
Anam Qarabağlıdı.

Əzizim Qocamanı,
Çağırın Qocamanı,
Anam tək yaxın idi,
Gəlməyir qağam hanı.

Aşıq nağıldı Göyçə,
Niyə yox oldu Göyçə?
Təzə bina qurmuşduq,
Yenə dağıldı Göyçə.

Əzizim balam gedib,
Dayağım qalam gedib,
Vaxtsız köçüb dünyadan,
Nəbi tək balam gedib.

Əzizim günü gəlib,
Ömrü bəd günü gəlib,
Gör nə günə qalmışam,
Üstümə günü gəlib.

## Sərraf Şiruyə

Sərraf, Göyçədə ağlar,
Gedər Göyçədə ağlar.
Bu həsrətli dərdimə
Baxar, Göyçə də ağlar.

Sərrafam Göyçə yolu,
Daşlıdı Göyçə yolu.
Bilsə oğlu can verir,
Saçını Göyçə yolu.

Sərraf, Göyçə də gülər,
Gülsən Göyçə də gülər.
Ağlağan göyçəlilər,
Ancaq Göyçədə gülər.

Sərraf deyər, göy çəndi,
Bulud gəlib, göy çəndi,
O od tutub, odlanan,
Sərraf sənin Göyçəndi.

Eləmi, qara bağlı,
Bu dağlar qara bağlı.
Əvvəllər göyçəliydim,
İndi də Qarabağlı.

Sərrafam, Göyçə, daşı,
Yükünü Göyçə, daşı.
Öləndə qəbrim üstə,
Qoysunlar Göyçə daşı.

Sərraf, Göyçəm gözəldi,
Göyüm, Göyçəm gözəldi.
Hər kəsə öz obası,
Mənə Göyçəm gözəldi.

Bu Sərraf Göyçədəndi,
Bir barlı Göyçə dəndi.
Məmmədhüseyn, Ələsgər,
Alı da Göyçədəndi.

Sərraf deyər yağ yandı,
Piltə çəkdi, yağ yandı.
Göyçə deyin ah çəkdim –
Ürəyimdə yağ yandı.

Sərrafam, Göyçə bağı,
Barlıdı Göyçə bağı.
Gəzərəm bu dünyanı,
Boynumda Göyçə bağı.

Sərrafam, Göyçə suyu,
Göy suyu, Göyçə suyu.
Dərdlərin dərmanıdı,
Bir ancaq Göyçə suyu.

Sərrafam, göyçəm qala,
Göyçəm bürc, Göyçəm qala.
Qoymaram yad-yağıya,
Yurd ola, Göyçəm qala.

Sərrafam, Göyçə bağla,
Yaramı Göyçə, bağla.
Mahalın, elin köçür,
Yükünü Göyçə, bağla.

Ay Sərraf, Göyçəlisən,
Xoş sözlü Göyçəlisən.
Gəl otur, məclis quraq,
Qaxlı mən, Göyçəli sən.

**Kamran Məmmədov**

Eləmi, Göyçə haray,
Kəlbəcər, Göyçə haray.
Çıxmaz heç vaxt yadımdan
Səslərəm, Göyçə, haray!

Eləmi, uzaqdadı,
Gendədi, uzaqdadı.
Əl çatmaz, ünüm yetməz
O dağlar uzaqdadı.

De, beləmi, dərd olar,
Dərd üstündən dərd olar?
Dindirməyin qaçqını,
"Can" demək də dərd olar.

Eləmi ana torpaq,
Bağlıyam sana torpaq.
Minlərlə qaçqın, köçkün
Həsrətdir sana torpaq.

Görünməyir Keçəl dağ,
Gəlin qaya, Keçəl dağ,
Qəhrəmanlar yurduydu
Əzəlindən Keçəl dağ.

Eləmi, möcüz ola,
Allahdan möcüz ola.
El qayıda yerinə
Belə bir möcüz ola.

Çaxmaq daşı, Zar yurdu,
Bulaq başı Zar yurdu.
Elə viran qalıbdı
Zar obası, Zar yurdu.

Mollabayram obası,
Bu toy-bayram obası.
Dərdi-qəm içindədi
İndi Bayram obası.

İstisuya bax, ağla,
Gözdə şimşək çax, ağla.
Dərd gələcək dərd üstə
Ha "of" de, ha "ax", ağla.

Eləmi, göy çəmənə,
Şeh düşər göy çəmənə.
Dərdim, qəmim yox olar
Qayıtsa Göyçə mənə.

Mən aşiqəm Göyçəyə,
Xoş simaya, göyçəyə.
Könlüm istər quş olub
Uçub gedə Göyçəyə.

Eləmi Daşkənddə,
Göyçə yurdu Daşkənddə.
Müsəlman səcdəgahı
Allah, qaldı Daşkənddə.

## Araz Yaquboğlu

Mən Arazam, ağlaram,
Hey coşaram, çağlaram.
"Ata" deyin köksümü,
Çalın-çarpaz dağlaram.

Əzizim, anam, ağlama,
Vəfalı sonam, ağlama.
Qorxuram ah çəkəsən,
Od tutub yanam, ağlama.

Əzizinəm, qan ağlar,
Səhər doğan dan ağlar,
Bu gün bir igid ölüb,
Ürək yanıb, can ağlar.

Əzizim, ağla, nənə,
Sinəni dağla, nənə,
Bir oğul var əmanət,
Get onu yoxla, nənə.

Mən aşiq, əmi qızlar,
Batıbdı gəmi, qızlar,
Mən ölsəm ağlayarsız,
Deyin: kim, kimi qızlar?

Aşıq, ağıllı anam,
Dili nağıllı anam,
Ay boxçası şirinli,
Şəkər, noğullu anam.

Əzizim, ellər ağlar,
Çiçəklər, güllər ağlar,
Nakam bir ömür üçün,
Ağaran tellər ağlar.

Əzizim atam, haray,
Bir sevgi butam haray.
Alasan qollarına,
Qucağında yatam, haray.

Əzizinəm, göyçəmən,
Yer biçənək, göy çəmən.
Erməni ayrı saldı
Sənziz qaldım, Göyçə, mən.

Arazam nəsilləri,
Axtar kök-nəsilləri.
Başım üstdən ötürdüm,
Gör, neçə nəs illəri.

**Sərraf Şiruyə**

## BƏS HANI?

***Ulu Göyçə mahalının Daşkənd kəndinin və Bərdə rayonunun Yeni Daşkənd kəndinin dünyasını dəyişən sayılıb-seçilən kişilərinə, sənətkarlarına, ismət, ləyaqət, cəsarət sahibi qadınlarına həsr olunur.***

Nə müddətdi axtarıram, tapmıram,
Hatəm ocağının közü bəs hanı?
Aqil ataların, mərd babaların
Çörəyinin dadı, duzu bəs hanı?

Hanı igidləri ulu Daşkəndin,
Ağılda, kamalda dolu Daşkəndin?
Bağlıdır hər yandan yolu Daşkəndin,
Enişi, yoğuşu, düzü bəs hanı?

Nağı bəy verməzmiş elin təsivin,
Ağır çəkilərmiş adı Nəsibin.
Seyid Bayram oğlu Seyid Yusifin
Ötkün sözü, nurlu üzü bəs hanı?

Qoy Şahnazar oğlu Hasandan deyim,
El-oba gərəyi insandan deyim,
Ocağına gələn gümandan deyim,
Səcdəgah o daşın, izi bəs hanı?

Dağlar, daşlar yas saxlayır İdrisə,
Min rəhmət yaxşıya, min lənət pisə.
Qoç Alı dağıdıb çox səngər, kilsə
Qannılı Qurbanın izi bəs hanı?

Dindirin Həsəni, Tat Süleymanı,
Şirin söhbətdədi insanın canı.
Meydanda xar edən çox pəhləvanı
Abbasəlinin polad dizi bəs hanı?

Tağı oğlu Məhərrəm, tar çalan Səfiyar,
Ələmdar, Cəbrayıl çox olub huşyar.
Çox qurub günbəzlər, çox çəkib divar,
Paşaoğlu adına yazı bəs hanı?

Kalvay Əsəd biləkliymiş, eləmi?
Əsədullah ürəkliymiş, eləmi?
Kalvay Əmrah çörəkliymiş, eləmi?
Aşıb-daşan o dənizi bəs hanı?

Mehralı oğlu Məmməd "qan-qan" deyibdi,
Ziyada çox ellər qurban deyibdi.
Həvil Qasım "getdim zindan" deyibdi,
Kəvərdən Qanlıya izi bəs hanı?

Rzaoğlu Məsim yaddadı, yadda,
Yaxşıda çəkilir adı həyatda.
Bədəl təhsil alıb Leninqradda,
Zər paqonu, zər ulduzu bəs hanı?

Kötük Söyün – qalıb "Kötük dərə"si,
Yanıq Söyün – "Yanıq göl"ü, bərəsi.
Pedi Söyün çəkiləndə nərəsi,
Tutularmış ayın üzü, bəs hanı?

Mədət, Camal qal yatırıb həmişə,
Hacı Kərim əncam çəkib hər işə,
Hüsən bənzəyibdi doğan günəşə,
Qələm qaşı, xumar gözü bəs hanı?

Ocaqverdi eldə olub qlava,
Qocaman xərc üstdə çox salıb dava.
Hacı Söyün düzgünüymüş hesaba,
Görünmür əyrisi, düzü bəs hanı?

Hümbətalı tək götürüb qalağı,
İtib, batıb Mahmud, Hətəm sorağı.
Əkbərov Qasımın örüş qırağı,
Çəmənliyi, gül-nərgizi bəs hanı?

Hacı Rəhim, Rüstəmi-Zal, Cahangir
Tədbirdə pir Qorqud, döyüşdə bir şir.
Hünəri elm ilə olubdu əlbir,
Gavırlara soyuq üzü bəs hanı?

Məşədi Qasım igid olub hər yanda,
Hünərlər göstərib o Əsgəranda.
Məşədi Məmməd təmiz dində, imanda,
Bayramın o şux avazı bəs hanı?

Məmməd oğlu Xıdır, Hacı Allahverdi,
Səxavətdə birdi, hörmətdə birdi.
Gözlərim həmişə şadlıqda (karvanda) gördü,
Namazdının o Namazı bəs hanı?

Əmirzada sayılarmış nəsildə,
Baba oğlu Abdulla əzbərdi dildə.
Əzizlənib Abduləli hər eldə,
Qaravaşı, qul-kənizi bəs hanı?

Dərzi Səfər loğman, alim olubdu,
Çılpaq Bayram kövrək, həlim olubdu.
Şair təbli Aslan, Əli olubdu,
Görünməyir sərvinazı bəs hanı?

Koyxa olub Abbasəli bir zaman,
İslam, Möhsüm gözə dəymir, ay aman!
Qara köynəyində pas atıb qalan,
Muxayılın, İslamın sazı bəs hanı?

Qərib Abbas çəksin həzin bayatı,
Duyub düşünmüşəm fani həyatı.
Kalvay Məhəmmədin, Abbasın atı,
Çapardan qayıdır, tozu bəs hanı?

Eldə olub çox hörməti Mürsəlin,
Dosta olub məhəbbəti Mürsəlin.
Bir kök olan Temir, Yavıx, Rəsilin,
Bol nəziri, bol niyazı bəs hanı?

Ovçuluq gözəldi – Pirimdən qalıb,
Məşədi Qasım, Ziyad göydən ov salıb.
Əli, Pənah, Bəhman çox nişan alıb,
Avılın durnası, qazı bəs hanı?

Baxmayaraq, soyu yaxşı soy olub,
Kalvay Abbas, Kalvay Hacı göy olub.
Kalvay Qurban qənaətlə öy olub,
Çoxu qalmayıbsa, azı bəs hanı?

Sənətdə mahirmiş Behbut, İsmeyil,
Abbasəli, Tapdıq çox salıb meyil.
Kərənti çəkməkdə tək olub Cəmil,
Dizinin tumaşı, bezi bəs hanı?

Səxavətdə Hatəm olub, Başxanım,
Göyərçin deyəndə titrəyir canım.
Diləfruzla gedib dinim, imanım,
Gülüstantək dan ulduzu bəs hanı?

Arif olub Hacı oğlu Süleyman,
Həmid, Şəmil nakam getdi, ay aman!
Sarı Söyün ürəklərdə bir güman,
Balışın utancaq sözü bəs hanı?

Qəfəs Abbas od qalayıb Tərtərə,
Nərəsindən lərzələnib dağ-dərə.
Axırında bənzər olub sərsərə,
Adı çox anılır, özü bəs hanı?

Məhəmməd, Cavanşir, Rəşid, Müslüm,
Aşıq Firuddin tək şeyda bülbülüm.
Siz Qara Orucdan söz açın, bilim,
Ağayarın huşyar gözü bəs hanı?

Kalvayı Süleyman və oğlu Hacı,
Xəlilin cəldlikdə olubdu tacı.
Məcidə taleyi baxıb qıyqacı,
Buz bağlayan dil-ağızı bəs hanı?

Salatın kişi tək oturub, durub,
Cəvahir çatmaynan igidlər vurub,
Şəhri yaylaqlarda nişangah qurub,
Dərəsi məlumdu, düzü bəs hanı?

Leylan, Ayna Ay doğulub anadan,
Bibixanım seçilməyib sonadan.
Yasəmənin saçı çıxıb cunadan,
Qədəminin pəyəndazı bəs hanı?

Harda qaldı loğman Zeynəb, Xeyransa,
Mürəsdə pir olub, ariflər qansa.
Fatimə bir yandı, hamı bir yansa,
Ədası, işvəsi, nazı bəs hanı?

Belə qərar qoyub qadir yaradan,
Gec-tez bəşər əhli çıxır sıradan.
On verstdən ayıran ağı qaradan,
Abbasəlinin iti gözü bəs hanı?

Qonaq-qaralıydı Məhərrəm kişi,
Əsəd, Fərrux asta tutarmış işi,
Sayadın, Hüseynin o şax yerişi,
Koroğlunun soyuq üzü bəs hanı?

Qoruqçu Babışın gələndə səsi,
Təngiyərdi çobanların nəfəsi,
O Bığlı Əsgərin hər bəhsə-bəhsi,
Almanlarla söhbət, sözü bəs hanı?

Qara Söyün, Məsim, Cəmşid, Qara Əziz,
Dövlətdən bol olub, ürəkdən təmiz.
Cənnət olub Göyçə kimi yerimiz,
Qantəpəri, ələyəzi bəs hanı?

Qoçaq olub Qara Məmməd deyirlər,
Ağır yaralanıb Hümbət deyirlər,
Kalvayı Məsimə rəhmət deyirlər,
Susdurarmış çox dinsizi bəs hanı?

İsfəndiyar, Şaban, Yunis, Hidayət,
"Qızılhacıllı"da baş imiş əlbət.
Nənəş oğlu Məhərrəmə min rəhmət,
Hasanqulunun xırman tozu bəs hanı?

Aşıq Nəcəf olub sənətdə qəvvas,
Ziyaddan, Surxaydan qalıb xoş avaz.
Zurnada heç kimsə Zamaxan olmaz,
Hidayətin telli sazı bəs hanı?

"Babalar"da bir Hətəmxan olubdu,
Uca boylu, gözəl insan olubdu.
Ağakişi yaxşı çoban olubdu,
Bəslədiyi qoyun, quzu bəs hanı?

Görünməyir başı qarlı o dağlar,
Qəlbim yanıb, gözüm qanlı od ağlar.
Məhərrəmi bada verdi o dağlar,
Qiyasın qəlbinin buzu bəs hanı?

Zeynalabdı, Papır müəllim tez getdi,
Tale Göyüş, İsgəndərdən üz getdi.
Şükür kişi niyə belə üz getdi?
Heç yoxlamır qəlbimizi bəs hanı?

Məsəli var dil-dodaqda Hasanın,
Gülməmmədin o baməzə insanın.
Pas atıbdı kərəntisi Qurbanın,
Çəkic, zindan, bülöv, bizi bəs hanı?

Alı nə apardı dünya barından,
Səttar da ayrıldı öz dildarından.
Kalvayı Rüstəmin ümman varından,
Bol nəziri, bol niyazı bəs hanı?

Rəsil, Hacı Kərəm, İsmeyil, Xanış,
Dünyanın sirrindən olginən tanış.
Keçmişə əl atdım mən qarış-qarış,
Əllisin sanadım, yüzü bəs hanı?

Tat Kərimin dəyirmanı, xizəyi,
Şirinin, Gülgəzin farmaş-gözəyi.
Mansır oğlu Abbas toylar bəzəyi,
Məclislərin oyunbazı bəs hanı?

Qoy ağlasın Fatma, Şahlıq, Allahman,
Həcər desin – “Getdi təzə Süleyman”.
Hurimələk dil deyərmiş nə yaman,
Nənəş gözləməyib bizi, bəs hanı?

Tağı oğlu Məhəmməd, Nəbi, Abdullah,
Aqibət günündən sən saxla, Allah!
Hacı Kərəm, İsmeyil dildə bismillah,
Söhbətinin çoxu, azı bəs hanı?

Kalvay Qasım, Kalvay Zeynal, Kalvəli,
Xıdır, Qasım söz-söhbəti məzəli.
Əliyev Söyünün bəydi əzəli,
Nübarının baş naznazı bəs hanı?

Yaddan salma İbrahimi, yad elə,
Namaz düşdü yad torpağa, yad elə.
Sayad saldı yaxşı hörmət, ad elə,
Hüseynin o gül bənizi bəs hanı?

Tutdu qəza Həsənxanı, Şəmşadı,
Zülfüqarı, kimsə bilmir hardadı.
Cəmildən bir soraq verən olmadı,
Tat Bəhmanın duzlu sözü bəs hanı?

Dad çəkərmiş Hacı Balı gəlmədən,
Ər kişilər tanınarmış kəlmədən.
Xanlar, Həsən çox doluymuş elmidən,
Şirin ləhcələri, sözü bəs hanı?

Ovu gedir nə bəd yolla Mehdinin,
İşi yoxmuş qalmaqalla Mehdinin.
Molla Avdısöyünün, molla Mehdinin,
Şabanın gül ceynamazı bəs hanı?

Pəhlivan cüssəli Müzəffər olub,
Həmid, Şəmil, Nadir pirhünər olub.
Yetim Həsən boyda şiri-nər olub,
Bəyişin, Əlinin üzü bəs hanı?

Dəllək Cabbar, Cabbarlının Cəlili,
Halal tutub mayasını hər ili.
Tağı İsmayıl oğlu, həm Çıraqəli,
Canbaxışın əkin düzü bəs hanı?

Tat oğlu Abdulla, İbrahim, Lətif,
Vaxtsız köç etdilər, heyif, min heyif!
Muradın həsrəti çox qəddi əyif,
El-obanın o, Əzizi bəs hanı?

Tahar, Bayram, Medoş, Himoy, Abdulla,
Oruc, Cəmşid, Calal getdi bu yolla.
Çox meydan alıbdı Elləz tək qolla,
Yaylaqdakı qoyun küzü bəs hanı?

Adın çək Əmralı, Qəmbəralının,
Bayramxan, Əsgərxan, Tanrıqulunun.
Bir qazan xəngəli yeyən Culunun
Dolayı saldığı cızı bəs hanı?

Seyid İsmayılı gözümlə gördüm,
Çox ziyarət etdim, çox nəzir verdim.
Keçən keçmişləri gözə gətirdim,
Adların sanadım, özü bəs hanı?

Usta Mahmud, oğlu Abbas, Kor Vəli,
Rəncbərmiş Sadıq, Əvzər, Əmrəli.
Cahangirlər olub kotan məjgəli,
Hodağı, əkini, düzü bəs hanı?

Allahverdi uca boylu olubdu,
Əli, Mədət nakam toylu olubdu.
Məhəmmədlər yaxşı soylu olubdu,
Axtarıram beymurazı bəs hanı?

Talıbın, Mirzənin şirin dilləri,
Rüstəmin, Kərimin solğun gülləri.
Şamoylunun, Koralların Əsgəri,
Yanaqları hicran bozu bəs hanı?

Cəmşidov Yusifin ömrü qaranlıq,
Hamlet həsrətinə necə dayannıq?
Çobanların çörəyinə yavanlıq,
Bulaqların buz yarpızı bəs hanı?

Tomu oğlu Yunus, Bəhman, həm Abbas,
Gedəndə aləmi çulğadı qəm, yas.
Musayev Elbəyi, Novruz qulaq as,
İslamın o, üç şahbazı bəs hanı?

Mövzu yazılanda sağıydı Xasay,
Elə arxa idi, dağıydı Xasay.
Dost yanında üzü ağıydı Xasay,
O, təsifkeş el əvəzi bəs hanı?

Gör neçə qapılar qalıbdı bağlı,
Tağı bəy, Mürsəl bəy, yarlı-yarağlı.
Məşədi Abdulla, Oruc Balı oğlu,
Yanaqları al-qırmızı bəs hanı?

Topal Salman, Sarı Məhəmmədəli,
Xanbaba, Müseyib igidlik əli.
Pənah, Qədimalı, Mursaqul, Alı,
Elin qoşun, o sərbazı bəs hanı?

Məktəbdən yarımçıq getdi İsmixan,
Qara Nəsib, Avdıləzim, Xanoğlan.
Albaba, Ələkbər, Ellərdən qalan,
Qələm, dəftər, o kağızı bəs hanı?

Ağlamışam Mehvalıya, Səhraba,
Yas saxladı Daşdəmirə bir oba.
Cəlil sağlığında batıb səvaba,
Bahadurun duzlu sözü bəs hanı?

Qurbanlar, Əlilər, Əvzərlər gedib,
Salahlar, Pənahlar çox ərlər gedib.
Məhəmmədlər gedib, Əsfəndlər gedib,
İnsanlığın dadı, duzu bəs hanı?

Var-dövlətli olub deyirlər Alı,
Möhsüm, Abbasəli sakit havalı.
Həsən, Xıdır qəfil tapdı zavalı,
Elin Ənvər, o Elyazı bəs hanı?

Xanbuta, Şahsuvar, Əli Zağalı,
Səfxan müəllim vaxtsız tapdı zavalı.
Asdan, Şəmistanın cahı-cəlalı,
Cabbarlının de Şahbazı bəs hanı?

Deputat Müslümlə, "Masnaget" Nəsib,
Zərbəli, həm Məsim, Məzahim təbib.
Məmmədrəhim ilə Əsədov Həbib,
Söz-söhbəti o baməzə bəs hanı?

Orta boylu Şəmistanlar görünmür,
Zülal, Bilal, şux cavanlar görünmür.
Xasay, Surxay, Əmirxanlar görünmür,
Zal oğlu Bayram, Eyvazı bəs hanı?

Həlim təbiətli Dastan, Abdulla,
İşləri olmazdı sorğu, sualla.
Yaqub Ballı oğlu getdi bu halla,
Hacının döşündə sazı bəs hanı?

Babış oğlanları Bayram, həm Oruc,
Dünyanın tamından daddı bir ovuc.
Əcəl çatdı, dedi: – Gəl torpağı quc,
Qənəhət tək beymurazı bəs hanı?

Bol süfrəli, səxa əlli Tavariş,
Özün gördün nələr etdi bu gərdiş.
Növbə Avdılxana, Mehmana yetmiş,
Hümbətin, Binnətin izi bəs hanı?

Saray idi Məhəmmədin zağası,
Xəyal oldu qarazurna havası.
Uşaqların "Papaq getdi" davası,
Cavanların qumarbazı bəs hanı?

Sultanın evində qanı dayandı,
Sabirin, Qoşqarın canı dayandı.
İsmixanın dəyirmanı dayandı,
Eldən gələn çörək, ruzu bəs hanı?

Bir kökdən yox oldu – Dilqəm, Müzəffər,
Şuxu, Abıd, Zabıd gör neçə nəfər.
Qaçqınlıq hamını etdi dərbədər,
Heç görünmür oğlu, qızı bəs hanı?

Bayramov Abdulla, Papır, Məhəmməd,
İkram, Köçəriyə, Əliyə rəhmət!
Əyyub, Əfsəl, Möhsüm, Sənhan, Əbülfət,
Rəhim kimi şeirbazı bəs hanı?

Qoca – Musa oğlu Mikayıl hanı?
Gəzirəm Ədili, həm Ramazanı.
Rəsilin, Əsgərin tamam dördyanı
Biçənəkdi, göy toppuzu bəs hanı?

Tamam, Gülsüm, Maral, Səkinə, Sədət,
Seyid Bayram ağa bizlərə həsrət.
Duyub düşündükcə dəhşətdi, dəhşət,
Seyidlərin göy günbəzi bəs hanı?

Dillər laldı Azadxandan ötəri,
Bakir kimi şux cavandan ötəri.
Nəbi kimi gövhərkandan ötəri,
Soldurmuşam ay bənizi bəs hanı?

Balış oğlu Cəmil, Xasay, həm Qara,
Xəyallar gətirdi gör məni hara?
Xıdır, Kərəm, Əsəd o qardaşlara,
Gəncəli həm o Şahbazı bəs hanı?

Xıdır oğlu Mamed, İsmeyil, Qurban,
İsmayıl, Təvəkkül, İslamdı bir can.
Seyid Əli qərib köçdü dünyadan,
Oda atıb könlümüzü bəs hanı?

İmansız dünyamı bürüyübdü hiss,
Hər sözü-söhbəti əzizdən əziz.
Yaqub Hacıyevtək – alim mühəndis,
Əmirxan tək molla, qazı bəs hanı?

Mehvalı, Qardaşxan, Əmirxan, Məcid,
Tapdıqla sənətə vurdular kilid.
Meydanda ustad var, dizini bərkit,
Cəmi ozanların sazı bəs hanı?

Fikri dayaz mətləbimi az anlar,
Eh, nə çoxdu sözü tərsə yozanlar.
Uzun, Gödək Abbasəli – ozanlar,
Şairlinin o, Novruzu bəs hanı?

Uçmuş könül evim yapa bilmirəm,
Həsrətim sal qaya, çapa bilmirəm.
Ürəyim istəyir tapa bilmirəm,
Şoşan, qımı, ya qoşquzu bəs hanı?

Bəlkə yaddaşımdan çıxanlar oldu,
Könüllər yandırıb, yaxanlar oldu.
Mənə tərsə-tərsə baxanlar oldu,
Giley-güzar, söhbət-sözü bəs hanı?

Hasoy əmim yaxşı batdı savaba,
O dedi, mən yazdım, budur kitaba.
Bir gün də deyəcək bu el, bu oba:
Şiruyədən qalan yazı bəs hanı?

***

İndi söz sizindir, əziz cavanlar,
Bizdən sonra bu dünyada qalanlar.
Qoymayın ortaya düşə yamanlar,
        Övladısız bir torpağın, bir suyun,
        Yadlar girə ortalığa qoymuyun.

Əl-qol atın, darda, gendə bir olun,
Hər əməldə, hər amalda pir olun.
Özgələrə açılmayan sirr olun,
        Birləşin ki, yadlar sizi əyməsin,
        Qəlbinizə bir kmsənə dəyməsin.

Unutmayın babaları, siz Allah,
Ataları, anaları, siz Allah,
Eyləməyin xataları siz Allah,
        Bir bəd kəlmə adınıza gəlməsin,
        Dərdinizi bir özgəsi bilməsin.

Bacarsanız dost eyləyin düşməni,
Siyasətlə süst eyləyin düşməni,
Süfrə açın, məst eyləyin düşməni,
        Əl atmayın yersiz-yerə silaha,
        Hər bir işdə siz sığının Allaha.

Axirətə gedənləri yad edin,
Hər cümədə ruhlarını şad edin.
Məzarını ziyarətlə yad edin,
        Dörd yanına əkin lalə, qərənfil,
        Unutmayın, bunu edin hər fəsil.

Göyçəm viran qalıb, köçkünəm özüm,
Dizimdə taqət yox, canımda dözüm.
Ay nəvə-nəticəm, ay görən gözüm,
        Oxuyun, tarix tək əsərlərimi,
        Görün, bu sənətdə hünərlərimi.

Düşsə güzarınız Göyçəyə əgər,
Deyin inləmişəm onsuz nə qədər.
Ay Şiruyə, vəsiyyətin ta yetər,
        Sözlərini ümid ilə tamamla,
        Vidalaş, get, axirətə inamla.

## ƏHVALATLAR

### Öz qədrini bilməyən adam özgəyə can yandırmaz[1]

Rəsullular nəslindən olan Kərbəlayı Əmrah fəhlə, nökər tutanda əvvəlcə onu süfrə başına apararmış. Hansı yaxşı, çox yesə onu götürər, onu işlədərmiş. Hansı az, könülsüz yesə qovar, geri qaytararmış ki, sən öz canının qədrini nə bilirsən ki, mənə də nə can yandırasan.

### Kərbəlayı Əmrahın toxum paylaması[2]

Kərbəlayı Əmrahın Daşkənddə çoxlu əkin torpağı varmış: Qarabulağın başında, Yal arxında, Eşşək təpəsində, Çanaxda və başqa ərazilərdə. O qədər taxılı, arpası olarmış ki, quyuları aşıb-daşarmış. Kərbəlayı Əmrah biçilmiş zəmidə düşən tək-tük sünbülü (başaq) belə yerdə qoymazmış qala. Onun zəmisi tər-təmiz yığılarmış.

Kərbəlayı Əmrah yaz əkini vaxtı arxalığını geyinər, çıxarmış kəndin içinə. Elan edərmiş ki, kimin toxumluq buğdası, kotanı, cütü, öküzü yoxdusa, gəlin götürün, quyuların ağzını açmışam aparıb əkin-biçin edin, yerinizi qara qoymayın. “Peşxurd” vaxtı kim neçə girvənkə toxum götürübsə, həmin çəkidə də qaytarar.

### Bunu da aparın Kərbəlayı Əmrahın Çanağına tökün[3]

Kərbəlayı Əmrah çox zəhmətkeş, işlək adam imiş. Torpağa çox yaxşı qulluq edərmiş. Camaat torpaqdan bir götürəndə, bu beş qat götürərmiş. Bir il taxıl yığımı vaxtı Kərbəlayı Əmrahın “Çanax” deyilən sahəsindən çoxlu taxıl əldə edilir. Qızılhacılı nəslindən olan Nağı bəyin də yeri Kərbəlayı Əmrahın yeri ilə yanaşıymış, amma Nağı bəyin sahəsindən cəmi iki çuval taxıl çıxır. Nağı bəy çıxan az məhsula baxıb, adamlarına hirslənərək deyir:

– Aparın, aparın bunu da Kərbəlayı Əmrahın Çanağına tökün.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Əmrahov Haris Məhəmməd oğlu (1935)
[3] Söyləyəni: Məhərrəmova Gülavatın Şükür qızı (1940)

## Kərbəlayı Əmrahın cəza çəkməsi[1]

Rəsullular nəslindən olan igid el qəhramanı Məşədi Qasım Kərbəlayı Əmrahın özündən kiçik qardaşıdı. Məşədi Qasım dəqiq güllə atan, ermənilərə qarşı döyüşən bir igid, Kərbəlayı Əmrah isə zəhmətkeş, torpaq əkib-becərən yaxşı bir rəncbər olub.

Sovetləşmədən qabaq Məşədi Qasım adam vurubmuş. O dövrün qanunlarına görə bir il həbs cəzası çəkməliymiş. Qaydalara uyğun istənilən adam başqasının əvəzinə cəza çəkə bilərmiş (Bəlkə də Kərbəlayı Əmrah cinayəti öz üzərinə götürüb – A.Yaquboğlu). Kərbəlayı Əmrah özündən kiçik qardaşı Məşədi Qasımın əvəzinə səkkiz ay Kəvər türməsində cəza çəkib. Deyib ki, sən igidsən, qoçaqsan, arxadayaqsan, qeyrətimizi çəkirsən mən rəncbər adamam sənin əvəzinə tutularam, amma səni qoymaram tutalar.

## Qırxbulaq kolxozu[2]

Kərbəlayı Əmrahın torpaq sahələrinin çox olması ilə yanaşı, mal-qarası, qoyunu, öküzləri də çoxuymuş. Çöl nökəri ayrı, qapı nökəri ayrı, çobanları ayrıcaymış. Sovet hökuməti kolxoz quruluşunu yaradanda, gəlib Daşkənddə Kərbəlayı Əmrahın mal-heyvanını yarı bölüb aparıb Qırxbulaq kəndində kolxoz yaradıblar. Yerdə qalan yarısını da sayıb tapşırıblar ki, heyvanı saymışıq, it-bata salma gəlib onu da aparacağıq.

## İmam Hüseyn xələti[3]

Kərbəlayı Əmrah əvvəlcə Məşhədə, sonra isə Kərbəlaya gedibmiş. Üç aya gedib, üç aya da qayıdıbmış. Kərbəladan iki ədəd İmam Hüseyn xələti gətiribmiş, birini özünə, birini də arvadına. Kəfənin tapılmadığı bir zamanda İmam Hüseyn xələti çox qiymətli, tapılmayan bir parçaymış. Özü də bu xələtin üstündə ərəbcə 12 imamın adı zəfəran ilə yazılıbmış.

---

[1] Söyləyəni: Əmrahov Haris Məhəmməd oğlu (1935)
[2] Söyləyəni: Əmrahov Haris Məhəmməd oğlu (1935)
[3] Söyləyəni: Əmrahov Haris Məhəmməd oğlu (1935)

Bir gün Kərbəlayı Əmrahın nökərlərindən biri ölür. Nökərin ona sadiqliyini, vəfasını qiymətləndirərək yuyatdan sonra Kərbəlayı Əmrah deyir ki, xələtin birini gətirin nökəri onla kəfənləyin. Camaat deyir ki, Kərbəlayı İmam Hüseyn xələti nökərə çoxdu axı, adi kəfən bəs edər. Kərbəlayı Əmrah deyir: “Yox, nə olsun ki, nökərdi? Mən nə deyirəm, onu da edin”. Hamı Kərbəlayı Əmrahın sözündən dönməzliyini yaxşı bildiyindən nökəri həmin xələtlə kəfənləyib dəfn edirlər.

Kərbəlayı Əmrah belə səxalı adammış.

## Təndirə tökülən pullar[1]

Rəsullular nəslindən Hacı Kərimin Göyçədə yaxşı kökəltmə mal-heyvanı olurmuş. İldə bir-iki dəfə bordaxları aparıb Gəncə bazarında pula, ərzağa dəyişib qayıdarmış Daşkəndə. Bir dəfə də 50 dənə yaxşı bordanmış qoçu aparıb Gəncədə satır, Nikolayın kağız pullarını da qoyub cibinə gəlir kəndə. Qapıya çatanda nəsə arvad-uşağa, qız-gəlinə hirslənir, 50 qoçdan aldığı pulu tökür yanan təndirə.

Hacı Kərim bax belə çox hirsdi, höcət adam olub. Onun bir dediyi iki olammazmış. Belə şeylərə görə Rəsullular nəslinə bəzən Daşkənddə “Höcət Rəsilli” də deyirmişlər.

## İt aparan olsun[2]

Bir payız ermənilərin quldur dəstəsi Daşkənd kəndinə hücum edir. Məşədi Qasımın atası Hacı Kərim çox varlı-hallı adam olub. Göstəriş verir ki, mal-heyvanı, ilxını Kəlbəcər tərəfə keçirin. Evdəki qızıl-gümüşü “ev damı”ndakı təndirə töküb, üstünü torpaqlayın. Arvad-uşaq nə qədər yalvarırlar ki, qoy qızılı aparaq, razılıq vermir.

Qarət zamanı ermənilər qızılı tapıb aparırlar. Sonradan kəndə qayıdanda arvad-uşaq baxır ki, qızıllar yoxdu. Onda Hacı Kərim deyib ki, it aparan olsun, əsas kəndi qaytarmaqdı.

Nikolay vaxtı erməni-müsəlman davasında Məşədi Qasım çox igidliklər göstərib. Onun adı gələndə ermənilər tir-tir əsirmiş.

---

[1] Söyləyəni: Kərimov Vərqa Hüseyn oğlu (1932)

[2] Söyləyəni: Kərimova Güldəstə Məhərrəm qızı (1900)

## Mənim də arxam olsa[1]

1988-ci ildə Alçalı Mirzə kişinin yas yerinə Çamırlıdan, Alçalıdan qohumları gəlibmiş. Burda Rəsullular nəslindən olan Məşədi Qasımdan söz düşür. Onun Çamırlıdakı qəhrəmanlıqlarından, ermənilərlə döyüşlərindən danışırlar. Ona kimi məclisə Məşədi Qasımın oğlu Fəzi kişi gəlir. Yeni Daşkəndlilərdən qonaqlara deyirlər ki, bəs bu kişi Məşədi Qasımın kişik oğludu. Qonaqlar Fəzi kişiyə sual edirlər:

– Sən də Məşədi Qasım ola bilərsənmi?

Fəzi kişi belə cavab verir:

– Bəli, mənim də arxamda Hacı Balı kimi əmim, Kərbəlayı Əmrah kimi qardaşım olsa, mən də Məşədi Qasım olardım. Neyləyim ki, mənim arxamda Hacı Balı kimi əmim, Kərbəlayı Əmrah kimi qardaşım yoxdu. Məşədi Qasımı Məşədi Qasım edən onun doğmaları olub. Hər çətinlikdə onun arxasında dağ kimi durubdular.

## Gəlmə adam kəndi korlayacaq[2]

Rəsul oğlu Hacı Balı mal-heyvan sürülərindəki heyvanının sayını bilməzmiş. Hətta deyirlər ki, səhər-səhər onun naxırının əvvəli örüşə çatanda, ardı hələ kənddən təzəcə üzülərmiş.

Bu Hacı Balının bir xasiyyəti varıymış: Kəndə qəti gəlmə, yad adam qoymazmış. Gələn olsa da, onu sıxışdırar, alaçığını dağıdar, taxılını, arpasını yerlə bir edər, heyvanını kəndin örüşünə buraxmazmış. Bunları etməkdə məqsədi o imiş ki, kənddə gəlmə adam olanda oğurluq, quldurluq baş alıb gedəcək. Gəlmə adam kəndi korlayacaq, eli, camaatı bir-birinə salacaq.

Bir dəfə də Daşkənddən Göyçə gölünə axan çayın qırağında başqa kənddən gələn bir-iki ailə alaçıq qurubmuş. Palazın üstünə də buğda töküb sovurub, təmizləyirmişlər. Hacı Balı atla gəlib bu ailələrdən kənddən çıxıb getmələrini tələb edir. Amma görür ki, heç tərpənən adama oxşamırlar. Əlindəki çomağı palaza ilişdirib taxılı düzdünyaynan bir edir. Alaçıqlarını da dağıdıb gedir.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

[2] Söyləyəni: Məhərrəmov Əmirxan Həsən oğlu (1936)

Bu hadisədən bir neçə illər sonra Hacı Balının nəvə-nəticələri bu ailədən olanlarla bir arabada yol yoldaşı olurlar. Söhbət əsnasında arabadakılar deyir:

– Daşkənddə bir Hacı Balı vardı, tanımırsız?

Elləzin qızı Müşgünaz sevincək deyir:

– Hə, bənə, mənim babamdı.

Başqa kəndçilər deyir ki, bıy, ona nə deyim... O vaxt bizimkiləri Daşkəndə qoymadı. Alaçığımızı, taxılımızı dağıtdı. Bizi kənddən qovdu.

## Elləz kişi və vəhşi məxluq[1]

Elləz kişi Rəsullular nəslindən Hacı Balının nəvəsi idi. Müharibə veteranı idi. Sol əli biləkdən kəsilmişdi. Ancaq Elləz kişinin tək qolunu heç kim əyə bilməyib. Elləz kişi heyvandarlıqla, əkinçiliklə məşğul olub.

Daşkənd ərazisində "Yataq" deyilən yerə yaxın ən qorxunc, ən vahiməli bir yer vardı. Burda, hətta bir dəstə adam belə vahiməyə düşürdü. Dörd tərəfi böyük-böyük daş karxanaları, vahiməli qayalıqlar buranı daha da qorxunc edirdi. Burda hər daş, hər qaya qorxulu görünürdü.

Elləz kişi həmin yerdə kolxozun qoyun sürüsünü otararkən əsl insana bənzər, tükləri yerlə sürünən bir vəhşi məxluq Elləz kişiyə hücum edir. Elləz kişi buna bir-iki çomaq vursa da, ona kar eləmir. Bir neçə dəqiqə belə döyüş gedir. Elləz kişi görür ki, uzun dırnaqları ilə bunu üz-gözündə tutar qoymadı. Elləz kişi ucadan qışqırır ki, ay Pələş, qoyma. Pələş Elləz kişinin itinin adıymış. İt arxadan vəhşi məxluqun ayaqlarını dişləyib dağıdır. Vəhşi insan Elləz kişini buraxır, itin dalınca düşür. Əllərinə yekə-yekə daş alıb iti qovur. Elləz kişi bu an yekə daşların arasına uzanıb gizlənir. Vəhşi canlı sonra nə qədər gəzsə də, Elləz kişini tapa bilmir. Uzaqlaşıb qayalıqlarda gözdən itir. Elləz kişi də üzü-gözü didilmiş halda kəndə gəlir.

Sonradan ora getmək lap qorxulu olur. Ancaq bu canlı əsl insan cildində imiş.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

## Bəhrəmin qonaqlığı[1]

Daşkəndli Orucun qızı Abuzəndə Göyçənin Qaraqoyunlu kəndində Bəhrəmin yoldaşıydı. Bəhrəm də səxalı, əli açıq, çörəkli adam olub. Abuzəndənin qardaşı Xasay Hacıyev həbsdə olan vaxtlar bacısı çox ağlayır, çox sızlayır. Qaraqoyunlular onun nə qədər könlünü alsalar da, heç rahatlıq tapmırmış. Qaraqoyunlular Abuzəndənin xətrini çox istəyirmişlər. Qoçaq bir qadın idi. Xeyirdə, şərdə yemək bişirər, kənddə dərzilik edər, camaata xidmət göstərərmiş. 1963-cü ildə Xasay Hacıyev həbsdən qayıdanda Bəhrəm Abuzəndəylə, bir neçə də qohumuyla qurban gətirib Yeni Daşkənddə kəsir. Xasayı da Qaraqoyunluya qonaq dəvət edib gedirlər.

Bir müddətdən sonra gəlib-gedənlə Bəhrəm xəbər göndərir ki, Xasay səni gözləyirik gəl. Bu xəbər göndərmələr bir neçə dəfə də təkrar olur. Xasay Hacıyevin işi-gücü çox olduğundan vaxt eləyib gedə bilmir. Bəhrəm fikirləşir ki, yaxşısı budu qaynım Xasaya xəbər göndərim ki, bacın Abuzəndə ağır xəstədi, yerdə yatır. Onda tez gələcək. Belə də edir.

Xasay Hacıyev kənddən 3–4 qohum-əqraba da götürüb bacısının yanına gedir. Qaraqoyunluya çatanda görür ki, bacısı qapıda yır-yığış, biş-düş eləyir. O dəqiqə başa düşür ki, yeznəsi Bəhrəm onu aldadıb qonaqlığa çağırıb. Təzədən yemək-içmək başlayır. Qaraqoyunlular da yığılıb adı həmişə uca tutulan Abuzəndənin qardaşı Xasayın görüşünə gəlirlər. Sazlı-sözlü bir məclisdən sonra Bəhrəmin kəndçiləri nə qədər eləsələr də Xasay iki gündən artıq qala bilmir. Qayıdır Yeni Daşkəndə.

## Katib də eşşəyə qoşularmı?[2]

Mehdi kişi Daşkənddə Pirilər nəslindən olub. Ucaboylu, enlikürək, dolusifət bir kişi imiş. İşi maldarlıq olub. Bir dəfə 1960-cı illərin ortalarında çöldə heyvan otararkən heyvanın içində olan eşşək arxı tullanıb pambıq sahəsinə girir. Bu anda rayonun birinci katibi Xəlfə İbrahimov "Yeni həyat" kolxozunun aqronomu ilə sahələri gəzib,

[1] Söyləyəni: Hacıyev Araz Yaqub oğlu (1973)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

pambığın yığım hazırlığına baxırmışlar. Katib eşşəyi pambıq sahəsində görəndə maşını dayandırır. Mehdi kişiyə qışqırır ki, niyə eşşəyi pambığa buraxırsan? Mehdi kişi aqronomdan soruşur:

– Ə, bu kimdir?

Aqronom deyir:

– A kişi, rayonun katibi.

Mehdi kişi gülüb deyir:

– Ayə, katib də eşşəyə qoşularmı?

## Yəqin sinifdə qalmısan[1]

Molla Əhməd (hündürboylu Molla Əhməd) Yeni Daşkənd kəndində yas məclisində dini söhbətlər edirmiş. Söhbət elə gətirir ki, öz təhsilindən danışmalı olur. Molla Əhməd deyir ki, mən on iki il Samərrada, Qum şəhərində təhsil almışam. Yas yerində olan Mehdi kişi qəfil dillənir:

– Ay molla, on iki il oxumaq olmaz. Yəqin sən sinifdə qalıb hər kursu iki-üç ilə oxumusan.

## Gəl, sənə aşıq saxlamışam[2]

Radioda yaxşı aşıqlar oxuyurmuş. Bu vaxtı Şairlilərdən Mikayıl kişinin arvadı olan, Mehdi kişinin qızı Xuraman içəri girib uşaqlara deyir:

– A ciyarınız yansın, bağlayın qoyun Mikayıl da gəlsin qulaq assın dana. Axı dədəniz aşıq oxumağını çox istəyir.

Uşaqlar ananın bu sözünə gülürlər və deyirlər: – Ay ana, biz bağlasaq da, aşıqlar küsüb gedib, o biri qonşuda oxuyacaqlar. Onlar tələsiyirlər, Mikayılı gözləməyəcəklər.

Bu anda Mikayıl kişi gəlir. Xuraman deyir:

– A Mikayıl, gəl sənə aşıq saxlamışam.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

## Toyla yas cüt yaranıb[1]

Bir dəfə Daşkənd kəndində Araz-Musalar nəslində toy məclisi varmış. Culunun toyu imiş. Həmin gün Qocaman oğlu Mədətin yeganə oğlu Həvullah cavan yaşında qəflətən vəfat edir. Hadisəni eşidən kənd camaatı toyu dayandıraraq Mədətin həyətinə yığışırlar. Rəhmətlik Həvullahı el adətinə uyğun dəfn edirlər. Dəfn qurtaran kimi Mədətin özü, qardaşı uşaqları, qohum-əqrəbası oradan toy edilən qapıya gəlirlər. Qocaman oğlu Mədət toyda zurnaçıların çalmasını tələb edir. Özü qol qaldırıb oynayır və toy sahibinə xeyir-dua verib, deyir:

– Toyunuza davam edin. Toyla yas cüt yaranıb.

Qocaman oğlu Mədətin bir sıra belə üstün hərəkətləri Daşkəndlilər tərəfindən indi də nümünə olaraq misal göstərilir.

## Ayrı ləzzəti var çopur almağın[2]

Qocamanın arvadı Zəhranın üzü çopur imiş, uşaqlıqdan çiçək xəstəliyindən çopur qalıbmış. Tay-tuşları Qocamana sataşmaq mənasında deyirlər ki, o çopurun nəyini almısan?

Şair təbli Qocaman da bədahətən cavab verir:

*Ayrı ləzzəti var çopur almağın,*
*Öpəndə üzündə qalır dodağın.*

## Ona da diş lazımdır?[3]

Mələk arvad Basarkeçərin erməni kəndi olan Qırxbulağın dəyirmanına buğda üyütməyə gedibmiş. Balaca qızı Sürayəni də özü ilə aparıbmış. Qız dəyirmanda yatır, Mələk də qızın yanında dayanıbmış. Bu anda bir erməni qocası içəri girir. Yatan uşağı görüb soruşur:

– Ara, elə bu kimin uşağıdır? Mələk arvad deyir ki, mənim. Erməni Mələk arvada baxıb deyir:

– Ara, həla sanin dişin var? (yəni qocasan dişin yoxdur)

---

[1] Söyləyəni: Qocamanov Qocaman Kərbəlayi Camal oğlu (1923)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[3] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

Mələk arvad deyir:

– Kül sənin başına, ona da diş lazımdır?

Eməni qocası arvadın cavabından pərt olub uzaqlaşır.

## Mən daha sizə lazım olmayacam?[1]

Babakişilər nəslindən Səməd bir gün günorta yeməyinə işdən gec gəlir. Evdə günorta yeməyini yeyib süfrəni də yığışdırıblarmış. Səməd əlini yuyub gəlib əyləşir. Ha gözləyir ki, buna yemək verəcəklər. Baxır ki, heç kim tərpənmir, heç bu fikirə də gəlmirlər. Səməd üzünü arvadı Mələksumaya, uşaqlara tutub deyir: – Mən daha sizə lazım olmayacam?

## Partiyaya keçmək istəyən namizəd[2]

“Yeni həyat” kolxozunun traktorçusu Zülfəlini hazırlayırlar ki, Azərbaycan Kommunist Partiyası sıralarına keçirsinlər. Kolxoz partiya komitəsinin sədri Şamxay Kərimov Zülfəliyə partiyanın nizamnaməsini nə qədər öyrətsə də, onun yadında qalmır. Komissiya Zülfəliyə bir neçə suallar versə də, Zülfəli heç birinə cavab verə bilmir. Axırda katib Zülfəliyə belə sual verir:

– Partiya sıralarına kimlər keçə bilər? Zülfəli deyir ki, mənim kimi zəhmətkeş, əli qabarlılar. Katib narazı qalanda Zülfəli deyir:

– Hə, onda sənin kimi qarnı yekələr.

Katib pərt olub daha heç nə demir.

## Bəs bu namaz deyil, nədir?[3]

Babakişilər nəslindən Zülfəli yolda Qarahüseynlidən olan Abdulla kişiylə söhbət edirmiş. Abdullanın yoldaşı Rəqiyə yerdən olan xiyar parniklərinin başını açıb gəlib Zülfəliyə salam verərək, deyir:

– Ay Zülfəli qardaş, sabah-axşam bu parniklərin başını açıb-bağlamaqdan bezdik, əyilib-qalxmaqdan adamın beli də ağrıyır.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[3] Söyləyəni: Hacıyev Araz Yaqub oğlu (1973)

Zülfəli deyir:

– Hə, vallah düzcənə deyirsən, a Rəqiyə. Özü də İranlılar bizə deyir, namaz qılmırsınız. Bəs bu namaz deyil, nədir?

## Nəyi qalıbsa, gedim evdən gətirim[1]

Babakişilər nəslindən Kərim Bərdənin mal bazarına bir neçə toğlu aparıbmış. Bir nəfər alıcı gəlib toğlunun birini almaq istəyir. Kərimdən toğlunun qiymətini soruşur. Kərim deyir ki, 80 manat. Alıcı toğlunun ora-burasını barmaqlayıb deyir:

– Bunun nəyi var ki, 80 manata deyirsən? Kərim deyir:

– A kişi, baxdın nəyi əskikdirsə, nəyi qalıbsa, de gedim evdən gətirim.

Alıcı gülüb uzaqlaşır.

## Onun növbəsinə gərək iki-üç ay qabaq yazılasınız[2]

“Yeni həyat” kolxozunda suçu işləyən, bir-neçə şeir bilən Qərib ucqar bir kənddə özünü ən mahir masabəyi kimi qələmə verib, bir neçə adama ünvan da verir. Ünvan verdiyi adamlardan biri oğluna toy etməli olur. Fikirləşir ki, o mahir tamada Qərib müəllimi oğlumun toyuna masabəyi kimi gətirməliyəm. Qoy camaatda görsün ki, necə məclis keçirir, necə toy aparır. Toy sahibi bu məqsədlə həmən ünvana, yəni Yeni Daşkənd kəndinə gəlir. Bunlar kəndin girişində Kərimlə qabaqlaşırlar. Kərimdən soruşurlar ki, bu kənddə bir müəllim var, yaxşı şeir bilən, yaxşı bir tamadadır, onu axtarırıq. Kərim bir-bir kənddəki məşhur tamadaların adlarını çəkir. Onların hamısına yox deyirlər. Axırda özlərinin yadına düşür ki, onun adı Qərib idi. Deyirlər ki, a kişi, biz Qərib müəllimi axtarırıq, Qərib müəllimi deyirik. Kərim gülüb deyir:

– Pahooo, siz gecikibsiniz. Onun növbəsinə düşmək üçün gərək iki-üç ay qabaq yazılasınız. Siz çox gecikibsiniz. Qərib müəllim indi iki-üç ay əvvəldən “zakaz” olunub, “zanit”di. Gələnlər kor-peşman geri qayıdırlar.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

## Kündəni yap, sonra təndiri qala[1]

Kərimin əmisi gəlini Elmira müəllimə çox özələnir ki, bu təndirdə çörək bişirmək çox zülümlü işdi, adamın əli-qolu yanır.

Kərim deyir:

– Ay gəlin, əlini-qolunu niyə yandırırsan ki? Kündəni yap, sonra təndiri qala.

## Göy eşşəyi niyə satdın[2]

Bilal kişinin bir göy eşşəyi varmış. Uzun illər o eşşəklə yük daşıyar, kasıbçılığını edərmiş. Bazara yük aparar, yük gətirərmiş.

Bir gün Bilal kişi eşşəyi satmalı olur. Eşşəyi satıb gəlib Yeni Daşkəndin mağazasına girir ki, evə qənd-çay alsın. Onsuz da səsi xırıldayan olan Bilal kişi bir az da kövrəlib, deyir:

– Göy eşşəyi satdım, ancaq ucuz verdim. Bu vaxt Babakişilərin Kərimi də dükanda alış-veriş edirmiş. Kərim deyir: – A kişi, utanmadın belə nankorluq etdin? Göy eşşəyi niyə satdın? O eşşək sənlə on il yoldaşlıq eləmişdi.

Bilal kişi bir az da hirslənib Kərimin dalısınca söylənə-söylənə mağazadan uzaqlaşır.

## Aparmıram vəssalam[3]

Yeni Daşkənd məktəbinə təzə müəllim təyin ediblərmiş, Səlim müəllim – riyaziyyat müəllimi.

Səlim müəllim yoldan gəlib keçən boş arabanı dayandırıb deyir:

– Mənim bu “veş”imi də kəndə apar.

Arabaçı Muxtar soruşur ki, yükün nədir?

– Müəllim deyir, bir çarpayıdı, vəssalam, bir dəst yorğan-döşəkdi, vəssalam, bir çamadandı, vəssalam.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[3] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

Arabaçı Muxtar görür ki, bu müəllim bir ucdan sanayır, özü də deyir ki, vəssalam. Ancaq vəssalamlar qurtarmır. Muxtar müəllimə deyir:

– A qardaş, aparmıram, vəssalam.

## Tut ağzına töküləcək[1]

Paşa oğlu Abdullanın yaşı yüzü çoxdan keçibmiş. Göyçədən də köçmək istəmirmiş. Oğlu Səttər deyir, ay dədə, aranda ağacın altına uzanacan, ağzını açacan ağzına tut töküləcək. Kişi gözünün tor görən vaxtı köçüb Qarabağa gəlir. Çinar ağacının altına uzanıb ağzını açır. Bu an ağacın başından quş peyinini düz kişinin ağzına tökür. Kişi tamsınır, görür ki, quş peyinidir. Qışqırıb Səttəri çağırıb deyir:

– Ay sənin üzünə lənət, bə deyirdin ağzına tut töküləcək. İndi ağzıma quş peyini tökülür.

## Oxuyun, ay bülbüllər[2]

Paşa oğlu Abdulla ailəsi ilə birlikdə köçüb Göyçədən arana gəliblərmiş. Kişi çox yaşlı olduğundan gözləri də tutulubmuş. Göyçədə topa qurbağa qurultusunu heç vaxt görməyən kişi Bərdə rayonunda qurbağaların topa halda quruldamağını eşidəndə elə bilir bülbüllərdi. Öz-özünə deyir:

– Oxuyun, ay bülbüllər, qadanız alım oxuyun.

## Papağını verin, başına qoyum[3]

Paşa oğlu Abdulla Göyçədə yaxşı ev tikən usta, tanınmış sənətkar imiş. Oğlu Balabəyin də gözəl əl qabiliyyəti varmış.

Bir gün Abdulla kişini Kəvər rayonuna aparırlar ki, məşhur və hörmətli bir adamın məzarı üstündə günbəz tiksin. Zəhmət haqqını da bir öküzə razılaşırlar. Usta Abdulla bir aya günbəzi tikir, bircə günbəzin başının lül yeri qalıbmış. Yorulub əldən düşən Abdulla kişi

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[3] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

fəhlələrə deyir ki, ayə lənətullahın papağını verin başına qoyum. Günbəzi tikdirən bəy bu sözü eşidib Abdulla kişini o ki var çırpır. Öküzü də verməyib əliboş yola salır.

## İki sözü düz demirsən[1]

Heydərin arvadı Abuzəndə bir gün toy məclislərində masabəyilik edən Şiruyə müəllimə deyir ki, ay müəllim sağ ol toylarda yaxşı danışırsan. Ancaq iki sözü düz demirsən. Şiruyə müəllim deyir:

– Ay Abuzəndə, nəyi düz demirəm? Abuzəndə deyir:

Birində deyirsən "Evimizə gəlin gəlir". Onu elə demə, denən ki, "Evimizə ilan gəlir". Birində də deyirsən ki, "Gəlir oğlan anası, dingildiyə-dingildiyə". Onu da bax belə de yerinə düşsün: "Gəlir oğlan anası, donqulduya-donqulduya".

Şair Şiruyə qadını başa düşür. Deyir yaxşı ay Abuzəndə, müğənniyə deyərəm sən deyən kimi oxuyar.

## Dədəmin, anamın ehsanı olsun[2]

"Yeni həyat" kolxozunda pambıq yığımı vaxtı məktəbi də pambıq yığımına bağlayırdılar. Vidadi müəllimlə Əli müəllim sahədən gəlirlərmiş ki, evdə yemək yeyələr. Onlar həm bərk yorğun, həm də ac olurlar. Birdən Əli müəllim dayanıb deyir ki, Vidadi deyəsən Gövhər mama fəsəli bişirir, qoxusu gəlir. Dünyamalı müəllimgilin qapısını açıb içəri girirlər ki, Gövhər kərə yağı ilə fəsəli bişirir, lay-lay boşqaba yığır. Müəllimləri görən Gövhər deyir:

– Gəlin qadanız alım, Dünyamalıya fəsəli bişirirəm, siz də gəlin yeyin.

Yorğun və ac olan müəllimlər fəsəlidən götürüb acgözlüklə yeyirlər. Ona kimi Dünyamalı müəllim də gəlir.

– Xoş gəlibsiniz ay Əli, ay Vidadi. Həmişə siz gələsiniz.

Dünyamalı müəllim də başlayır fəsəlidən yeməyə. Əli ilə Vidadinin çox cəld, tez-tez yediklərini görən Dünyamalı müəllim deyir:

– Yeyin, yeyin dədəmin, anamın ehsanı olsun.

---

[1] Söyləyəni: Hacızadə Aqşin Şiruyə oğlu (1969)

[2] Söyləyəni: Süleymanov Vidadi Salman oğlu (1955)

Gövhər qayıdır ki, a Dünyamalı, mənim dədəmin ehsanı olmasın? Dünyamalı müəllim deyir:

Yox, sən gələn dördüncü gün də bişir, onda da olsun sənin dədənin ehsanı.

## Kəndə getmək istəyən rus qızı[1]

Dünyamalı müəllimin yaxşı meyvə bağı, bostanı olardı. Yığılan məhsulu da özü aparıb bazarda satardı. Hələ kənddə qonum-qonşunun da həyətinin məhsulunu alıb satmaqla, alver də edərdi.

Birilisi gilanar o qədər gətiribmiş ki, yığıb-yığışdırmaq olmurmuş. Uşaqları yığıb yekə taxta yeşiklərə doldurublarmış. Dünyamalı müəllim meyvəni maşına yükləyib aparır Bakıya satmağa. Məhsulu satıb qurtarır. Hazırlaşır ki, qayıdıb getsin kəndə.

Bazarda da bir rus qızının Dünyamalı müəllimdən xoşu gəlir, onunla kəndə getmək könlündən keçir. Dünyamalı müəllim də bu qızı başından eləmək üçün qorxudur ki, kənddə inək sağa biləcən?

Qız deyir, öyrənəcəm.

– Meyvə yığa biləcən?

Qız deyir, öyrənəcəm.

– Bostan əkə biləcən?

Qız deyir, öyrənəcəm.

Dünyamalı müəllim görür ki, bu qız əl çəkən deyil. Fikri ciddidi. Deyir, yaxşı, onda sən bu boş yeşiklərin yanında dur, oğurlamasınlar. Mən də gedim bazarın o başında başqa əşyalarım var, onları da gətirim gedək.

Qız boş yeşiklərin yanında dayanır. Dünyamalı müəllim də bazarın o biri başından maşına minib kəndə qayıdır.

## Ay bura daş qoyan...[2]

1953-cü ildə Yeni Daşkənd kəndində ilk evin tikintisinə başlananda camaat kəndin müdrik ağsaqqalı Süleyman kişiyə deyiblər:

– Birinci daşı sən qoy.

---

[1] Söyləyəni: Hacıyev Araz Yaqub oğlu (1973)

[2] Söyləyəni: Süleymanov Vidadi Salman oğlu (1955)

Süleyman kişi əli yüngül olan Ələkbər kişini çağırıb ilk daşı ona qoydurur.

Deyirlər: – Ay kişi, ilk daşı ona niyə qoydurdun, özün qoymadın?

Süleyman kişi deyir:

– Hələ may ayıdır. Bir azdan aranın istisi başlayacaq. Onda deyəcəksiz ki, ay bura daş qoyan, səni belə-belə olasan.

## Ermənilərə məntiqli cavab[1]

Dərələyəz mahalının Əzizbəyov rayonunun Herher kəndində ermənilərlə azərbaycanlılar birgə yaşadıqlarından bir-birlərinin xeyir-şərlərində iştirak edirmişlər. Bir gün kənddə yas mərasimində belə bir məsələ ortaya atılır. Ermənilər azərbaycanlılara deyir ki, siz murdarsız, azərbaycanlılar da ermənilərə deyir, yox, siz murdarsız.

Axır iş o yerə çatır ki, keşişin məsləhəti ilə bir erməni və bir azərbaycanlı ayrı-ayrılıqda sabunsuz su ilə çimirlər. Hər ikisinin çimdikləri suyu susuz atın qabağına qoyurlar. At suları qoxlayıb, erməni çimən suyu içir. Bu işə ermənilər bərk sevinib, gülürlər. Biz təmizik, siz murdarsız, – deyirlər.

O vaxt Əzizbəyov rayonunda işləyən Əziz Cəfərov (şair Vahid Əzizin atası) İbrahim Qurbanovu (Sosialist Əməyi Qəhrəmanı, Neftçala və Cəlilabad rayonlarının birinci katibi) yanına çağırıb deyir:

– Bu dini məsələdir. Təcili Daşkəndli Süleyman kişini tap gətir. Yoxsa millətimiz pərt olur.

Həmin vaxt Süleyman kişi qızıgildə qonaq imiş. İbrahim Qurbanov Süleyman kişini tapır, hadisəni danışır. Süleyman kişi gülüb, deyir:

– Yox pərt olmayın, at təmiz heyvandır. Gedib aydınlaşdırarıq.

Süleyman kişi məclisə gəlir və çimənləri yanına çağırır. Onlara sual verir ki, çimib qurtaranda qüsl verdinizmi? Erməni deyir ki, qüsl nədir, a kişi?

Azərbaycanlı deyir:

– Bəli, ağsaqqal.

Süleyman kişi keşişdən soruşur:

– Keşiş, kimdir murdar?

---

[1] Söyləyəni: Süleymanov Vidadi Salman oğlu (1955)

Keşiş suala cavab verməyib, məclisi tərk edir.

Süleyman kişi deyir:

– Camaat, eşidin: At təmiz heyvandır. Təmiz suyu qoyub, murdar suyu içməz. Burda da müsəlman qüsl verib təmizlənib, erməni isə yox. Qüsldə azərbaycanlıların bədəni təmiz, çimdiyi su isə murdarlanmış olur. Erməni qüsl verməyib, suyu başından töküb, elə bilin daşa su tökübsən. Erməni murdar qalıb. Ona görə də at erməni çimən suyu içib.

Bu sözlərdən sonra Azərbaycanlılar sevinir. Süleyman kişiyə afərin deyirlər.

## Daşkəndlilər qıvlamı yanqıldıb[1]

Göyçənin Göysu kəndində yaşayan Səfi kişi qızı Bulqeyisi Daşkənd kəndinin sakini Əjdərə ərə veribmiş. Bir dəfə oğlu Rəşid bacısıgilə, Yeni Daşkəndə gələndə qonşu İsmayılın qızına vurulur və onu götürüb qaçır. İsmayıl kişi də el-obada nüfuzlu və çox höcət adam imiş. Aradan bir il keçəndən sonra Səfi kişi araya ağsaqqal salıb, barışıq üçün danışığa gəlir.

Göyçədə qayda beləydi ki, əvvəlcə danışıq gedərdi. Oğlan evi nə verəcək, o razılığa gələrdi. Sonra barışıq olardı.

Səfi kişiyi çox qorxudurlar ki, İsmayıl kişi sənin ağzını dağa dirəyəcək. Bu köhnə pulnan, təzə pulun eyni vaxtda işləyən zamanı olub. Səfi kişi İsmayıldan soruşub ki, de görüm mənim yüküm, xərcim nə olacaq. İsmayıl kişi deyib iki min (2 000) manat. Səfi kişi razı halda deyib: – Baş üstə.

Səfi kişi gəlib qızıgilə. Deyiblər ki, ay dədə, nə oldu. Deyib, a bala, nə olacaq. Siz də bu İsmayılı höcət, çətin adam deyirdiniz. Çox mərhəmətli adam imiş. Məndən iki min manat pul istədi. Mən də dedim, baş üstə. Qızı, yeznəsi deyirlər ki, ay dədə təzə pulnan, ya köhnə pulnan? Səfi kişi deyir ki, ay qız, nə təzə pul, mən köhnə adamam, köhnə puldan danışıram. Qız deyir, ay dədə, təzdən öyrən, o təzə pul deyib. Adam göndərib öyrənirlər ki, İsmayıl kişi təzə pul nəzərdə tutub. Səfi kişi də köhnə pul.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

Bu anda Səfi kişi axşam namazını qılmalıymış. Ceynamazı açır, ancaq qıvlanın tərsinə. Yenə qızı Bulqeyis gəlir. Ay dədə, nə iş görürsən? Deyir a bala, namazımı qılım, dana. Qız deyir, ay dədə sən həmişə namaz qılanda üzünü bu tərəfə tutardın. İndi niyə tərsinə tutmusan?

Kişi yazıq baxır qızı düz deyir. Ceynamazı əks-tərəfə açıb. Deyir a bala, daşkəndlilər qıvlamı yanqıldıb.

## Nəyə aparıb, nəşə aparıb[1]

Ələkbər kişinin qızı Bilqeyisi Namaz kişinin oğlu İsmayıl götürüb qaçıbmış. Ələkbər kişi haya gedəndə Məhəmmədin atası Qurban kişi qabağına çıxır. Deyir ayə, ay Ələkbər, hara gedirsən?

Ələkbər deyir:

– A Qurban, deyirlər o Namazın oğlu bizim o qızı aparıb. Gedirəm görüm nəyə aparıb, nəşə aparıb.

Qurban kişi gülüb deyir:

Ayə, yekə kişisən, bilmirsən nəyə aparıb? Belə özünə arvad eləməyə aparıb.

Qurban kişi Ələkbər kişini dilə tutub geri qaytarır.

## Mən kimə oxşayıram?[2]

Babalar nəslindən olan Xankişi ömrünün ahıl çağlarında dərzi Səfərə özünə bir dəst paltar – kostyum tikdirir. Evdə təzə paltarı geyinib fırlanır və arvadı Aynənsəyə deyir:

– Arvad, bir bax gör, mən kimə oxşayıram. Arvad gülüb deyir:

– A kişi, kimə oxşayacan? Xankişisən, dana. Xankişi bir də deyir ki, ağız bir yaxşı bax, gör kimə oxşayıram? Arvad yenə deyir:

– A kişi, baxıram ey, Xankişisən.

Xankişi deyir, a tünbətünün qızı denən Məşədi İsaya oxşayırsan, dana.

**Qeyd:** Məşədi İsa Göyçənin Qaraiman kəndindən sayılıb-seçilən hünər sahibi kişilərdən olub.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

## İndi gör, halın necə olacaq?[1]

Yeni Daşkənd kəndində yaşayan Tat İsmayılı arvadı Qüdrət vannada çimizdirirmiş. Özü də qışın oğlan çağı, soyuq əldamında. Birdən Qüdrət karıxıb bir yekə qab soyuq sudan İsmayılın başına tökür. İsmayıl bərk qışqırır. Hayına uşaqlar, gəlinlər gəlir. İrmayıl deyir, yaxşı, ay Qüdrət. Sən sən ol, mən də mən.

İsmayıl geyinib onsuz da ağaca bənzəyən arıq arvadı Qüdrəti qucağına alıb aparır yaxınlıqdakı böyük çay arxına salıb çıxarır və deyir:

– Qüdrət, indi gör halın necə olacaq?

## Mən daha “Şamxay” deyə bilirəm[2]

Səfərov Paşanın dilində az da olsa pəltəklik varmış. “Yeni həyat” kolxozunda suçu işləyirmiş. Heç cürə briqadir Şamxayın adını deyə bilmirmiş.

Avqust ayının isti günlərindən birində Orucun oğlu Nurəddin ilə birgə pambıq sulayırmışlar. Nurəddin pambıq sahəsinin baş tərəfində, Paşa isə ayaq tərəfində imiş. Qəfildən Paşa qışqırır:

– Ay Nurəddin, ay Nurəddin tez bura gəl.

Nurəddin elə bilir Paşanı ilan vurub. Tez-tələsik gəlir ki, ay Paşa nə olub? Paşa deyir:

– Ay Nurəddin, mən daha “Şamxay” deyə bilirəm.

Nurəddin Paşanı danlayır ki, məni dəli elədin. Dedim yəqin Paşanı ilan vurub.

---

[1] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)
[2] Söyləyəni: Hacıyev Şiruyə Həsən oğlu (1942)

# ƏHALİNİN MƏŞĞULİYYƏTİ

## Əkinçilik

Yeni Daşkənd kəndində, demək olar ki, əkinə yararsız torpaq yoxdur. Şəxsi təsərrüfatlardakı mal-qaranın otarılması üçün ayrılan biçənək yerindən başqa, bütün torpaqlar əkilir. Kənddə əsasən taxıl, pambıq, qarğıdalı, yonca, çuğundur sahələri üstünlük təşkil edir.

Buğda və pambıq bitkiləri sovetlər dönəmində daha çox əkilib becərilsə də, hazırda taxıl, qarğıdalı, yonca, çuğundur, soğan daha çox əkilir. Son illərdə bağçılığa da geniş yer verilir. Eyni zamanda istilik-xanalarda pomidor və xiyarın da yetişdirilməsi geniş vüsət almışdır.

## Heyvandarlıq

Kolxoz vaxtlarında mal-qara ferması İmamqulubəyli kəndində yerləşirdi. Yeni Daşkənd kəndində yalnız şəxsi təsərrüfatlarda inək, camış, az sayda qoyun saxlanılırdı. Kəndin aşağısı adalandırılan, şərq tərəfində yerləşən böyük örüş sahəsində heyvanlar otarılardı. Sıra ilə kənd sakinləri nobata gedərdi. Kənd sakinlərinin ət və süd məhsullarına olan tələbatının ödənilməsində şəxsi təsərrüfatlarda bəslənən heyvanlar kifayət edirdi. Kənddə qoyunçuluq yaxşı inkişaf etməmişdi. Bu da otlaq-örüş sahələrinin azlığı və yay aylarında havanın çox isti keçməsi ilə əlaqədar idi.

Yeni Daşkənd kəndində kolxoz dönəmində quşçuluq ferması olsa da, son illərdə bu ləğv olunmuşdu. Hazırda toyuq, hindtoyuğu, qaz, ördək yalnız şəxsi təsərrüfatlarda yetişdirilir. Demək olar ki, kənddə hər təsərrüfatda ev quşları vardır. Kənd sakinləri yumurtaya, quş ətinə olan tələbatını özləri ödəyirlər.

Kənd sakinlərindən uzun illər arıçılıqla da məşğul olanlar var. Bal arılarının yetişdirilməsi, çoxaldılması, saxlanması ilə əsasən Kərimov İslam, Kərimov Fəzi, Abbasəliyev Müzəffər, Əliyev Ramazan, Əmrahov Haris, Əliyev Bayram, Əliyev Ədalət, Abbasəliyev Aqif məşğul olmuşlar.

## Xalçaçılıq

Xalçaçılıq sənəti kənddə, demək olar ki, inkişaf etməmişdir. Qadınların fərdi təsərrüfat və kolxozda işləri çox olduğundan xalça toxuculuğu işlə məşğul olmurdular. Hacıyeva Suqra evində az da olsa xalça toxuyardı. Buna baxmayaraq, kənddə isti geyimlər, corablar, əlcəklər daim toxunurdu. Bununla da əsasən yaşlı qadınlar və gənc xanımlar məşğul olurdular.

## Keçəçilik

Keçə döyülüb basmaqla, ayaqlamaqla, sıxmaqla hazırlanan sıx yun materialdır. Əsasən heyvandarlıqla məşğul olan ailələr arasında geniş yayılmışdır. Yeni Daşkənd kəndində bu işlə əsasən, Qocaman, Abdulla, Ələkbər, Xasay və başqaları məşğul olmuşlar. Hal-hazırda Yeni Daşkənd kəndində heç kim bu sənətlə məşğul olmur. Keçə hazırlamaqla məşğul olan sənətkar "atıcı" adlanır.

Keçənin hazırlanması üçün, qoyunların xüsusi gölməçələrdə bir neçə gün yuyulması və qırxılması prosesindən sonra başlayır. Qırxılmış yun didilir. Didilmiş yun bir neçə nəfər tərəfindən döyülür. Yunun üzərinə ilıq su əlavə edib, üzərində addımlayırlar. Sonra yun tapdalanır, buna yunun təpilməsi deyilir. Qəliblər üzərində də davam edən təpmə, yun hazır olub, keçə əmələ gələnə qədər davam etdirilir. Keçə hazırlanarkən yerinin hamarlığı, genişliyi və rahatlığı da, eyni zamanda nəzərə alınmalıdır.

Keçədən arandan-dağa, dağdan-arana köçən elatlar yağmur və toz-torpaqdan qorumaq məqsədilə yük məişət ləvazimatlanın üstünü örtmək üçün istifadə edirdilər. Eyni zamanda yəhər kimi, alaçıq və dəyələrin qapılarının örtülməsində də istifadə edilirdi. Keçədən əla yapıncı da hazırlanırdı.

## Ustalar

Yeni Daşkənd kəndində sənətkarlar əsasən öz şəxsi təşəbbüsləri ilə emalatxana açıb işləyirdilər. Kənddə ağac emalı sahəsində dülgərlik əsas yer tuturdu. Təsərrüfat və məişətin müxtəlif sahələrində, eləcə də yeni tikilən evlərdə geniş tətbiq olunurdu. Möjdünov Behbud, Alıyev İsmayıl, Piriyev Tapdıq, Qurbanov Möhübbət, Hüseynov İsbi, Piriyev Yaqub, Nəzərov Polad və başqaları ağac ustası – dülgər kimi tanınırdı.

Kənddə sənətkarlığı ilə tanınmış yaxşı daş ustaları da vardı. Şairov Kərəm mollalıqdan əvvəl bənna olmuşdur. Onun oğlu Şairov Mikayıl, Teymurov Məhərrəm, Məhərrəmov Nəbi, Şairov Həndəm, Qasımov Talıb, Paşayev Balabəy, Məlikov Arif, Şairov İsrafil, Hacıyev Sabit, Əsədov Əbülfət, Əliyev Xəqani və başqaları bu sahədə uğur qazanmışdılar. Hal-hazırda Əmrahov Ərəstun, Əsgərov Şamxay, Məmmədov Ərzuman, Məmmədov Amin ən yaxşı bənnalar hesab edilir.

Yeni Daşkənd kəndində məhdud çərçivədə də dəmirçilik sənəti də yayılmışdı. Əliyev Məhəmməd 1961-ci ilədək, Alıyev İsmayıl isə 1953-cü ildən başlayaraq 1980-ci ilədək kənddə dəmirçi işləmiş, "Yeni həyat" kolxozunda kolxozçuların, eləcə də ayrı-ayrı şəxslərin fərdi təsərrüfatlarda istifadə etdiyi kətmən, bel, dəhrə, balta və başqa alətlərin bir çoxunu düzəltmişdir. Bundan sonra bir neçə il kənddə dəmirçi sexi olmamışdır. 1986-cı ildə "Yeni həyat" kolxozunun tərkibində Əhmədov Sahib yeni bir dəmirçi sexi açmış, camaata xidmət göstərmişdir. 1995-ci ildə həmin sex Əhmədov Sahib tərəfindən özəlləşdirilmiş və təxminən 2008-ci ilə qədər fəaliyyət göstərmişdir.

"Yeni həyat" kolxozunun kənd təsərrüfatı texnikaları parkında yerləşən tokar dəzgahında işləyən Hüseynov Bayram da bir sənətkar kimi Yeni Daşkənd sakinlərinə xidmət göstərmişdir.

Kəndlilərin ən çox sevdiyi musiqi aləti olan sazın düzəldilməsi üzrə isə Aşıq Novruz məşğul olar, aşıqlıqla yanaşı, sazbəndlik də edərdi. Eləcə də tarın düzəldilməsi ilə hal-hazırda Quliyev Nəsib məşğul olur. O, bu sənəti daha da inkişaf etdirmiş, bu sahədə uğur əldə etmişdir. Nəsib, eyni zamanda saz da təmir edir. Hər iki sənətkar haqqında məlumat verməyi lazım bilirik.

**Şairov Novruz Süleyman oğlu** uzun müddət saz çalıb oxumuş, həm ifaçı aşıq kimi, həm yaradıcı aşıq kimi tanınmışdır. Aşıq Novruz haqqında bu kitabın "İncəsənət" bölməsində geniş məlumat verilmişdir. Burada onun həm də sazın düzəldilib-hazırlanmasının mahir bir sənətkarı – sazbənd olduğu haqqında informasiya verməyi vacib hesab edirik.

Sazın hazırlanmasını Aşıq Novruz əla bacarırdı. O bu sənəti fitri istedadı sayəsində öyrənmişdir. Onun düzəltdiyi sazlar bu gün də Bərdə, Tərtər, Yevlax, Ağcabədi, Gəncədə istifadə olunmaqdadır. Düzəltdiyi sazlara müştərinin istəyinə əsasən xüsusi zövqlə naxışlar da vurardı. O saz və taziyanə (mizrab) üçün materialı özü axtarar, yaxşı material tapardı. Sazı hazırlayarkən, çanağı üçün tut ağacından, qolu üçün qoz ağacından, taziyanə üçün isə köhnə gilas ağacının qabığından istifadə edərdi. Novruz kişi sazı kiçik oğlu İnqilabla birlikdə düzəldərdi. Bunda həm də məqsəd onun da bu sənəti öyrənməsi olmuşdur. İnqilab bu sənəti yaxşı mənimsəsə də, Novruz kişinin vəfatından sonra, demək olar ki, sazbəndlik sənətini davam etdirmir.

**Quliyev Nəsib Yusif oğlu** 1 iyul 1961-ci ildə Puşkin rayonunun (indiki Biləsuvar rayonu) Səmədabad kəndində doğulmuşdur. Atasının işi ilə əlaqədar olaraq 9-cu sinfə qədər Səmədabad kənd orta məktəbində oxumuş, 1979-cu ildə 10-cu sinfi Şuşa şəhərində bitirmişdir. 1979-cu ildə Kirovabad Baza İnşaat Texnikumuna qəbul olmuş, 1982–1984-cü illərdə təhsilinə ara vermiş, 1986-cı ildə isə həmin texnikumu bitirmişdir.

1980–1982-ci illərdə Perm vilayətindəki daxili qoşunların 6605 nömrəli hərbi hissəsində xidmət etmişdir.

Bir müddət minik avtomobilləri mühərrikinin ustası kimi fəaliyyət göstərmişdir.

Nəsib Quliyev heç bir musiqi alətində ifa etməyi bacarmasa da, atası tək qalanda darıxmaması üçün ona tar almışdır. Tarda çalmağı ancaq radio və televizorda tarzənlərin ifalarını dinləməklə öyrənmişdir.

"Necə oldu ki, tar ustası oldunuz", – sualını Nəsib Quliyev belə cavablandırdı:

"Şuşa şəhərində orta təhsil alarkən hansı qapını açsam musiqi alətləri görürdüm. Hər evdə ən azı tar, kamança, piano (royal) vardı. Uşaqlıqdan tar çalmağı bacarsam da, bu sənətin incəlikərinə Şuşada yiyələndim. Bir gün mənim tarım sındı. Şuşada da başqa tarlar görürdüm ki, hamsı boğaz hissədən, küpündən sınır. Tarı sökdüm ki, görüm niyə ordan sınır. Baxdım ki, birləşmə hissəsidi, həm də şam ağacından düzəldilən idi. Maraq məni götürdü. Dedim, özüm bir tar düzəldim. Əl üsuli ilə üç günə ağacdan bütöv bir tar yondum. Sonra yavaş-yavaş bu işə alışdım. İlk tarı 1984-cü ildə düzəltdim. Arada 15 il Rusiyada yaşadım. Orda da bu sənəti buraxmadım, hərdən düzəldirdim. 2015-ci ildən isə mütəmadi olaraq yaşadığım Yeni Daşkənd kəndində bu işlə məşğulam".

Nəsib Quliyev tarın materialları və tarın yığılması haqqında da danışdı:

"Tar düzəltmək digər çalğı alətlərinə nisbətən çətindir. Gövdənin hazırlanması üçün istifadə edilən ağac əl ilə yonularaq çanaq halına gətirilir. Yaxşı tarın çanağı tutdan, qol və kəllə hissəsi isə qoz ağacından hazırlanmalıdır. Əsas məsələ uyğun ağacı tapmaqdır. Hazırlanma prossesi bir il çəkir. Çanaq 1 il, gün işığı düşməyən yerdə quruduqdan sonra, qol və kəllə hissə xüsusi yapışqanla bərkidilir. Bundan sonra alət üzlənir, pərdələr və simlər yerləşdirilir. Alətin üzlənməsi inəyin ürəyindən hazırlanır. Ən axırda səslənmənin keyfiyyəti yoxlanılır. Tarın son yığılıb, tamamlanma müddəti 1 ay çəkir".

Tar ustası kimi Nəsib Quliyev haqqında dəfələrlə televiziyaların çəkilişləri olmuşdur. Onun düzəltdiyi tarların sayı hal-hazırda 700-ə çatmışdır. ABŞ, Fransa, Böyük Britaniya, İran, Rusiya kimi ölkələrdə onun tarları ən yaxşı musiqi aləti kimi səslənməkdədir.

Nəsib Quliyev 1985-ci ildə ailə həyatı qurmuşdur, iki oğlu, bir qızı, altı nəvəsi var.

## OYUNLAR

**Dirədöymə** – Uşaqlar iki dəstəyə ayrılıb, bir dairəvi cizgi çəkir və qürrə atırlar. Qürrə hansı dəstəyə düşsə, o dəstə dairəyə girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də çöldəki yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud əksinə, içəridəkilər çöldəkilərdən birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olurlar. Dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə, qələbə qazanır. Dairədəkilər ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə çöldəkilərdən birini digər ayağı ilə vurana qədər çöldəkilər içəridəkiləri toqqa ilə döyürlər.

**Eşşək beli** – Oyunu keçirmək üçün iki dəstəyə ayrılmaq gərəkdir. Dəstələr halay getmək yolu ilə ayrılır. Püşk ilə uduzan dəstə bir-birinin arxasından yapışaraq əyilir, o biri dəstə isə onların belinə tullanıb otururlar. Əgər bu arada dəstədən biri yıxılırsa, dəstələr yerlərini dəyişdirir.

**Ənzəli** – Oyunda püşkü tapmaq yolu ilə kim uduzarsa, o, belini əyir və qalan oyunçular üç-dörd metr aralıda sıraya düzülürlər: hər biri əyilənin belindən atlanır, oyunçular hər dəfə aşağıdakı sözləri dönə-dönə deyir və dediklərinə əməl edirlər.

Birdə – Ənzəli, hay ənzəli
İkidə – Xan əkbəri
Üçdə – Xoruz banladı: qu-qulu-qu
Dörddə – Yanbız əzərlər

Beşdə – Taxta çıxarlar. Bu zaman oyunçu “yatan” oyunçunun belində oturur və soruşur: – Minim, ya düşüm? Əyilən: – Min və ya düş! – deyir. Oyun yenə davam edir.

Altıda – Əl, üst, baş dəyməsin

Yeddidə – Tayəl keçərlər

Səkkizdə – Papaq qoyarlar.

Doqquzda isə hamı əyilənin belinə minir, kim yıxılarsa, onun qulaqlarını dartırlar. Oyun keçirilərkən kim bu deyilənlərə əməl edə bilməsə, “yatan”ı əvəz etməli olur.

**Çiləmə** – Əvvəlcə dəstəbaşılar seçilir. Dəstəbaşı iki cür təyin olunur: ya onları oyunçular özləri seçirlər, ya da ümuminin razılığı ilə (oyunda və uşaqlar arasında müəyyən keyfiyyətləri fərqlənənləri), çox hallarda isə (əgər oyunçular bir-birini tanımırlarsa) püşk və ya sanama üsulu ilə seçirlər. Dəstələrə bölünərək oynanılan bu oyunu başlamaq üçün halay yolu ilə uşaqlar dəstələrə bölünürlər.

Oyuna başlamazdan əvvəl dəstələr bir-birindən 3–4 metr aralı dayanır. Sanama yolu ilə dəstələrdən biri oyuna başlayır. Oyuna başlayacaq dəstənin bir üzvü dəstələr arasında, tam ortada dayanır. Sağ əlində tutduğu topu azca yuxarı ataraq növbə ilə sağ və sol ayaqlarında top yerə düşənə qədər çiləyir. Əgər top yerə düşərsə, həmin dəstə estafeti digər dəstəyə verir. Oyun beləcə davam edir. Hansı dəstənin oyunçusu daha çox top çiləyərsə, o dəstə hesabda irəlidə olar.

**Çilingağac** – Oyunda iki-üç nəfər oğlan uşağı iştirak edir. Hər oyunçunun bir dəyənəyi və bir “pəli” olmalıdır. Pəl bir qarış uzunluğunda hər iki ucu düzünə kəsilmiş çubuqdan düzəldilir. Böyük dairəvi cızıq çəkilir. Pəli cızığın ortasında qoyurlar. Püşk yolu ilə oyunu başlayırlar. Oyunçular bir-bir dəyənəklə əvvəlcə pələ vurur, onu yerdən bir qədər aralayıb ikinci dəfə dəyənəklə vurub cızıqdan çıxarmağa çalışırlar. Göstərilən qaydada oyunçular bir-biri ilə yarışırlar.

**Gizlənpaç** – Bir dəstə uşaq yığışıb oyuna başlayırlar. Oyuna başlamazdan onlar dairə şəkili alır, yavaşca hamıdan yaşca böyük olan oyunçu uşaqları bir-bir sağdan-sola və ya soldan-sağa barmaqla göstərərək aşağıdakı sözləri deyir:

Əkdim noxud,
Çıxdı şüyüd.
Yarpağıdır
Şa-ba-lıd.

Burada "lıd" hecası hansı oyunçuya düşərsə, o, püşkün şərtlərinə görə müəyyən olunmuş yerdə gözlərini yumur, qalan oyunçular isə ətrafa səpələnib müxtəlif yerlərdə gizlənirlər. Hamı gizlənəndən sonra, gözünü yuman oyunçu gözlərini açıb gizlənən oyunçuları axtarmağa başlayar. Əgər gizlənən oyunçulardan hansı biri axtaranın nəzərini yayındırıb cəld müəyyən olunan yerə əlini vurarsa, o, göz yummaq işindən azad olur. Sonra o, qalan oyunçulara köməklik məqsədi ilə şərti işarə ilə yoldaşlarına aşağıdakı üsulla kömək edə bilər:

– "Alma" desəm gəl, "Armud" desəm qal.

Bununla da o, axtaran oyunçu durduğu yerdən uzaqlaşanda, "Alma!", – deyib yoldaşlarını pusqudan çıxmağa tələsdirir.

Bu qayda ilə onlar bir-bir gəlib həmin müəyyən olunmuş yerə əllərini toxundururlar. Əgər hamı buna nail olarsa, axtaran oyunçu yenidən gözünü yumur. Əgər belə olmazsa, onda gizlənənlərdən kimsə ən axırda tapılarsa, o gözlərini yummalı olur. Oyun beləcə davam edir.

**Qappadaş** – Bu oyunu iki və ya dörd uşaq oynayır. Hər uşaq beş balaca daş hazırlayır. Qurrə (çöp) atıb oyuna başlayırlar. Oyuna başlayan daşın birini əlində saxlamalıdır ki, buna "saqqa" deyərlər. Saqqanı göyə tullayıb ovucunun içində olan daşları yerə tökməli, saqqanı göydə tutmalıdır. Əvvəl saqqanı yuxarı tullamaqla daşları bir-bir ovucuna yığmalıdır. Əsas şərt ondan ibarətdir ki, daş götürülərkən nə başqa daşa dəyməli, nə də saqqa yerə düşməlidir. İki əllə götürmək və saqqanı tutmaq olmaz.

Daşları bir-bir götürüb qurtarandan sonra yerə tökməli, yuxarıdakı şərtlərə əməl etmədən daşları yerdən iki-iki, sonra üçünü birdən, birini tək, sonra dördünü də birdən götürməlidir.

Bunlar qurtarandan sonra daşları bir-bir iki barmağın arasından keçirməli və barmaq arasından keçirilmiş daşların hamısını bir yerdə götürməlidir.

Sonra daşlar barmaqların hamısının arasından bir-bir keçirilməlidir. Bu şərti də bitirib daşları bir qarış məsafədə bir-birindən aralı qoyurlar. Saqqanı yuxarı ataraq yerdəki daşları sürüşdürüb birdən götürməlidir.

Saqqadan başqa bir daş ovucda saxlanılır. Saqqanı yuxarı atıb tutmaqla daşın birini ovucdan yerə salıb, cəld birini yerdən göturməlidir ki, buna yumurtlamaq deyərlər. İki-iki və üç-üç daşı yerə salıb birini götürmək lazımdır. Bundan sonra şaqqıldama gəlir. Yəni daşları yerdən bir-bir ovuca yığırlar. Axırda yoldaşı bir daşı itdaş təyin edir. O daş əl dəyilməmiş qalır. Bu itdaşı birdəfəliyə barmaqların arasından keçirmək lazımdır. Bunların hamısını səhvsiz, birdəfəyə oynaya bilən qalibiyyət qazanır. Daşı yerdən götürə, barmaq arasından keçirə bilməyən, saqqanı yerə salan və daşı götürərkən əlini başqa daşa vuran uduzmuş olur.

**Yeddi ağac** – Yeddi ağac qırığı düzəldib qoyurlar bir daşın üstünə. Sanama və ya püşklə ayrılan oyunçu dayanır ağacın yanında və gözlərini yumur. Qalan oyunçular qaçıb gizlənirlər. Sonra pusquda duran oyunçu qaçıb gizlənənləri axtarır. Əgər axtarılan oyunçulardan biri gəlib ağacları qarışdırıb yerə tökərsə, oyun yenidən başlanır. Pusquda duran oyunçu ağacları qorumaq şərtilə bütün gizlənən yoldaşlarını tapmayınca bu oyundakı axtarıcı vəzifəsindən xilas ola bilmir. Elə ki, bütün gizlənən yoldaşlarını tapdı, o zaman ilk dəfə tapdığı yoldaşı onu əvəz edir. Oyun göstərilən qaydada yenidən davam edir.

## MƏTBƏX

**Cılfır** – göyərtidən bişirilən xörək

**Dovğa** – qatıq, yumurta və düyüdən hazırlanan yemək

**Düymənc** – yağla isti çörəyin qarışdırılmasından hazırlanan yemək

**Əvəlik istisi** – umacla və ya əriştə ilə əvəliyin qarışıq bişirilməsindən alınan yemək

**Əydək** – südlə yoğrulmuş xəmirdən bişirilən şirin çörək

**Fəsəli** – yağlı çörək

**Hörrə** – südlə undan hazırlanan duru yemək

**Xaş** – malın, qoyunun ayağından və başından hazırlanan xörək

**Xaşıl** – undan hazırlanan yemək

**Xəngəl** – xəmir xörəyi

**İşgənə** – yağ, soğan, su və kartofla hazırlanan duru yemək

**Kələcoş** – qurut, yağ, soğan və kartofdan hazırlanan xörək

**Kərə yağı** – süd yağının qatılaşmasından alınan yeyinti məhsulu.

**Kətə** – qutab

**Qaşıxəngəli** – sulu xörək

**Qatdama** – yağda bişirilən və üzərinə şəkər tozu tökülən şirniyyat

**Qayğanaq** – yumurtadan hazırlanan yemək

**Qaysafa** – ərik qurusundan hazırlanan yemək

**Qazmax** – çörək küt gedəndən sonra təndirin divarında qalan nazik təbəqə

**Qoyut** – qovrulmuş buğda unu

**Qurut** – süzmə qatıqdan hazırlanmış yumru şəkildə ağartı məhsulu

**Ovdux** – suya qarışdırılmış qatığa xiyar, göyərti doğranaraq hazırlanan yemək

**Umac** – ovulmuş xırda xəmir dənəcikləri

**Urva** – çörək bişirmək üçün hazırlanan kündənin üstünə səpilən un

## DİALEKTOLOJİ LÜĞƏT

**Alazdamax** – yandırmaq, ütmək

**Anrı** – o tərəf, o yan

**Anşırtmaq** – oxşatmaq, tanımaq

**Arxaç** – yay vaxtında sürünün, naxırın gündüz və ya gecə açıq havada yatdığı yer

**Armax** – həvəskar, hər şeyə maraq göstərən, diqqət verən

**Aroy** – paltar yuyulduqdan sonra qalan çirkli su, sabunlu su

**Badya** – süd doldurmaq üçün istifadə olunan qab

**Başax** – biçilmiş zəmidən düşən tək-tük sünbül

**Bordamax** – bəsləmək, kökəltmək

**Cağ** – yeni, təzə

**Cəhrə** – yundan, pambıqdan ip əyirmək üçün alət

**Cileyin** – yaxşı, əla

**Cirə** – qənaət

**Çalğı** – itburnu kollarından düzəldilən böyük süpürgə

**Çarğat** – başa bağlanan iri kalağayı

**Çarpanaq** – ağacın və ya daşın xırda, iti hissəcikləri

**Çeşni** – naxış

**Çətən** – xeyli çox

**Çıtrax** – bol, çox

**Çuxa** – beli büzməli uzun kişi geyimi

**Dabax** – inək və ya qoyunların ağzında, dırnaqlarında olan xəstəlik

**Dəyə** – yaylaqda müvəqqəti yaşayış üçün çadırdan alaçıx, ev

**Eyzən** – eyni, olduğu kimi, tamamilə

**Əl damı** – artıq şeyləri yığmaq üçün evin yanında tikilən kiçik dam, otaq

**Ələngə** – arıq

**Əlləmayax** – nadinc

**Əvədəyə düşmək** – ilişib yıxılmaq

**Fal** – toyuğun altına qoyulan tək yumurta

**Fırıx** – pis

**Gənəşmək** – məsləhətləşmək

**Girvənkə** – çəkini ölçmək üçün istifadə edilən çəki ölçü vahidi

**Hancarı** – necə?, nə cür
**Hoya çatmax** – kömək etmək
**Xam** – kotan dəyməyən, əkilməyən torpaq
**Xama çəkmək** – işi çətinləşdirmək, qəlizləşdirmək, əngəlləmək
**Xəfə** – havası yaxşı olmayan qapalı yer
**İcaraçı** – xidmətçi, kuryer
**İmsiləmək** – iyləmək, qoxulamaq
**İncəvara** – yaxşı ki, xoşbəxtlikdən
**İrgənmək** – xoşu gəlməmək
**İsvattı** – layiqli
**İvnə** – xain
**Karsala** – gic, səfeh
**Keçə** – döyüb basmaqla hazırlanan sıx yun material
**Kəf (1)** – ət xörəyi bişirilən zaman əmələ gələn köpük
**Kəf (2)** – ərinmiş yağın dibində qalan çöküntü
**Kələ** – iribuynuzlu erkək heyvan, buğa.
**Kəndi** – çoxlu taxıl, arpa, un saxlamaq üçün taxtadan düzəldilmiş düzbucaqlı böyük yeşik
**Kərdi** – lək
**Kösöv** – yanmış ağac parçası
**Külfə** – təndirə kənardan qoyulan nəfəslik
**Qadı-qadı** – yekə-yekə
**Qağa** – ata
**Qaxı** – əsası olmayan şər sözlər
**Qır-qırcın** – mal-qara ot yeyəndən sonra axırda qalan ot qırıntıları
**Qıjanmaq** – hədələmək, vurmaq istəmək
**Qırım** – insanın duruşu, görünüşü
**Qırt** – cücə çıxarmaq üçün yumurta üstündə yatan toyuq
**Lağ** – rişxənd
**Laqqırtı** – boş, mənasız danışıq
**Ləçər** – həyasız, abırsız
**Licim** – əyin-baş, paltar
**Lopbaz** – yekəxana, lovğa
**Madar** – bircə, tək olan övlad
**Mağıl** – münasib, yaxşı ki

**Mama** – bibi
**Məhmiz** – ata dürtmə vurmaq
**Mərəkə** – yığıncaq, məclis
**Naxoşlamaq** – xəstələnmək
**Neyvənd** – çirkin, yaraşıqsız
**Oyazımax** – rəngi qaçmaq
**Öfgə** – ağ ciyər
**Öyəc** – üçillik erkək qoyun
**Özələnmək** – təəssüflənmək, canıyananlıq etmək
**Pampax** – fərsiz, bacarıqsız
**Pencər** – yeyilən göyərti
**Perikdirmək** – yerindən qovmaq
**Peşxurd** – təcili üyüdülən azacıq taxıl
**Pərxaşdıx** – qarışıqlıq salmaq
**Pəsinmək -** çəkinmək, ehtiyat etmək
**Pıxmax** – bezmək
**Rəfətə** – təndirə çörək yapmaq üçün işlədilən alət
**Sapılca** – qulplu tava
**Sappa-suppa** – əyri-üyrü
**Sıpa** – bir yaşlı qoduq
**Sırtıq** – heç nədən utanmayan, üzlü
**Sifdə** – başlanğıc
**Silə** – ağzına qədər dolu
**Sosur** – adama yovuşmayan, özünü çəkən
**Şadara** – iri gözlü ələk
**Şax (1)** – gəlin üçün üzəri şirniyyat və meyvə ilə bəzədilmiş nazik taxtadan əşya
**Şax (2)** – qurumuş qarğıdalı bitkisinin gövdəsi
**Şilxor** – şikəst, döyülüb sındırılmış
**Tağalax** – sap dolanan dairəvi uzunsov taxta
**Taxt** – üstündə yatmaq üçün ağacdan düzəldilmiş yataq
**Təmannaşmaq** – hal-əhval tutmaq
**Tıncıxmax** – ürəyi darıxmaq, sıxılmaq
**Tosmərək** – qısaboy adam
**Tovlamax** – aldatmaq, yoldan çıxarmaq

**Umsux** – umduğunu ala bilməmək, yemək istədiyi bir şeydə gözü qalmaq

**Ura** – Bostan, dirrikdən qalma son məhsul

**Uyuşmax** – keyləşmək

**Üstəlik** – əlavə olaraq

**Vağya** – yuxu

**Yağır** – dəridə üstü açılmış yara

**Yaxdan** – sandıq

**Yükaltı** – üstünə yorğan, döşək yığmaq üçün taxt

**Zay** – xarab

**Zəvzəmək** – boş-boş danışmaq

**Zırrama** – qanmaz, sarsaq

**Züryət** – övlad

## ALƏTLƏR

**Boyunduruq** – arabaya və ya kotana qoşulan iki öküzün boynuna keçirilən qalın ağac

**Samı** – hər bir öküzü boyunduruğa bağlayan ağac

**Xış** – yer şumlamaq üçün alət

**Qaşov** – heyvanları təmizləmək üçün dəmir daraq

**Çomaq** – başı toppuzlu əl ağacı

**Peşxon** – kündəni oxlovla yaymaq üçün avadanlıq

**Cələ** – Quş tutmaq üçün at qılından hazırlanan əşya

## ŞƏCƏRƏLƏR

### ALÇALILAR



## ARAZMUSALAR



## BABAKİŞİLƏR



## BABALAR


Duman
İsmayıl
Baba
Kərim
Abdulla
Rza
Məhəmməd
Hüseyn
İsə
Cahangir
Məhəmməd
Gülgəz
Hüseyn
Əli
Qəhrəman
Saray
Abbasəli
Babış
Sadiq
Cəfər
Əsgər
Çərkəz
Ağaməli
Şiraslan
Ələmdar
Hətəmxan
Firəngiz
Ataxan
Fitat
Kərəm
Oruc
Bayram
Suyatel
Sayad
Əfəndi
Minarə
Zöhrə

## BAYRAMOVLAR



## BAYRIŞDILAR



## CABBARLILAR



## DƏRZİLƏR


Rzaqulu
Məhəmməd
Alı
Səməd
Məsim
Abbas
Qasım
Budaq
Xanbuta
Muxayıl
Firəngiz
Oruc
Məleykə
Həmid
Yaqut
Səmər
Səfiyə
Tümən
Həsənbala
Yusif
Qaratel
Səfurə
Məcid
Qanuş
Kifayə
Ələddin
Nəzakət
Sünü

## HACI ALLAHVERDİLƏR



## HACI DÜNYAMALILAR



# HACI HÜSEYNLİLƏR



## HACI MƏHƏMMƏDLİLƏR



## HACI ZEYNALLILAR



## HƏSƏNALILAR



## HƏZRƏTQULULAR



# İMAMQULULAR



## İMANOVLAR


Oruc
K.Haxverdi
Bayram
Məşədi İman
Tanrıverdi
Oruc
Allahverdi
Məhərrəm
Ocaqverdi
Bala
İsmayıl
Xəlil
Xalıqverdi
Haxverdi
Abbas
Məhəmməd
Qurban
Hümbət
Abbas
Anaxanım
Balaxanım
Bayraməli
Oruc
Bəhrəm
Qonça
Əli
İsmixan
Əmirxan
Mehdixan
Səfxan
Xasay
Surxay
Həsən
Hüseyn

## KƏRBƏLAYİ ABBASLILAR
## (QAZAX BAYRAMLILAR)



## KƏRBƏLAYI MƏMMMƏDLİLƏR



## KORALILAR


Allahverdi
Alı
Həşim
Əli
Nəbi
Məhəmməd
Vəli
Xıdır
Ziyad
Şərəbanu
Bəhmən
Mehman
Zeynəb
Bahar
Tuyğun
Züleyxa
Zeynalabdin
Oruc
Pürzə
Bayram
Əli
Röyzə
Səməndər
Ramiz
Salatın
Güləvatın
Əkbər
Səmayə
Nigar
Səyyaf
Müşkünaz
Şirazi
Mahir
Arif
Nizami
Müslət
Gülnaz
Mahirə
Tamam
Zöhrab
Ziyəddin
Zəminə
Rauf
Telman
Fərman
Pakizə
Diləzbər
Əbülfəz
Solmaz
Rasim
Asya

## KÜR HƏSƏNLİLƏR



## LOĞMAN SƏFƏRGİLLƏR



## MANSURLAR


Kürd
Elyaz
Abo
Mansur
Abbas
Cabbar
Bayram
Əli
Əfsəl
Əsgər
Ələs
Həqiqət
Əli
Vəli
İlham
Abbas
Dilarə
Tahir
Əbülfət
Hidayət
Nabat
Səxavət

## MƏLİKMƏHƏMMƏDLİLƏR



## MƏMMƏDSADIQLILAR



## MƏŞƏDİ ABDULLALAR



## MƏŞƏDİ XƏLİLLƏR



## MÖJDÜNLÜLƏR



## NAMAZLILAR


Namaz
Vəli
Əli
Alı
Namaz
Məhər
Qasım
Salatın
Daşdəmir
Rüstəm
İsmayıl
Elbəyi
Firəngiz
Azad
Sultan
Qulu
Xıdır
Abdulla
Qız
Əfruz
Bulur
Əziz
İbrahim
Tamaşa
Tapdıq
Ramazan
Cavanşir
Məhəmməd
Nəbi

## NƏSİBLİLƏR


Oruc
Nəsib
Mustafa
Eynal
Əsgər
İsgəndər
Əfruz
Cəlil
Nəsib
Sehran
Reyhan
Əbdülhüseyn
Qəmbərəli
Fatma
Əmrəli
Murad
Vəzir
Maral
Bulur
Dilqəm
Şuxu
Müzəffər
Ağababa
Yaqub
Abid
Zabid
Xanımzər
Məhtəban

## PAŞAOĞLULAR



## PİRİLƏR


Mustafa
Piri
Bayramqulu
Bayraməli
Kərbəlayi Mustafa
Xəlil
Əbil
Mehdi
Xanım
Qızyetər
Gülgəz
Kərim
Qoca
İsmayıl
Qız
Cəmil
Əli
Məhəmməd
Bəsti

## PİRNAZARLILAR



## QANLILI QURBANLILAR



## QARA HÜSEYNLİLƏR



## QAZAX ORUCLULAR



## QƏDİRLİLƏR


Allahverdi
Şahnazar
Məhəmməd
Hasan
Allahverdi
Bayram
Həsən
Xıdır
Qədir
Nadir
Çıraqəli
Qənifə
İsabalı
Qəribə
Mahmud
Feyzulla
Şölə
Bolu
Məmməd
Behbud
Papır
Hümbət
Mahmud
Qurban
Ziyad
Pərvun
Zərnişan
Qəhrəman
Rəsil
Telman
Əsəd
Səmayə
Kifayə
Məhəmməd
İbrahim
Məhəmməd
İbrahim
İsmayıl
İsgəndər
Kərəm
Müşgünaz
Elmira
Əntiqə
Əjdər
Əkbər
Dünya
Məhluqə

## QIZIL HACILILAR



## QOCAMANLILAR



## QOQANLAR


Məşədi Əli
Süleyman
Ağaəli
Əli
Fatma
Xanlar
İsmayıl
Bəylər
Musa
Hamayıl
Cəbrayıl
Yəhya
Minayə
Gülarə
Muxayıl
Əliş
Bulqeyis
Zeynəb
Qüdrət
Əliyar
Əlövsət
Sahilə
Mahirə
Səidə
Ədil
Mikayıl
Minarə
Əmirxan
Siyatel
Aftel
Sabir
Sumaya
Taqubə
Əfqan
Yasəmən
Nadilə
Adilə
Yaxşı
Şəmsi
Habil

## RƏSULLULAR


Temir
Yavıx
Rəsul
Hacı Kərim
Xatun
Hacı Balı
Rəsul
K. Əmrah
Bahar
M. Qasım
Sayalı
İsmayıl
Afayat
Nabat
Yaşar
Rövşən
Məhərrəm
Oruc
Bayram
Züleyxa
Tahar
Mürsəl
Həsən
Nəsib
Zülfüqar
Gülgəz
Muxuru
İpək
Məhəmməd
Xasay
Abuzəndə
Süzəndə
Eyvaz
Şahbaz
Saleh
Pənah
Hüseyn
Əsbənd
Şəkər
Xanlar
Hüsən
Zeynəb
Məleykə
Sayad
Narın
Fəzi
Sona
Məhəmməd
Bayaz
Qurban
Əliş
Salatın
Elləz
Tovuz
Usuf
Röyzə
Balaxanım
Qumru
Reyvə
İslam
Ruqiyə
Rəsul
Müzəffər
Müslüm
Qoşun
Mehvalı
Sücayət
Səhraf
Qurban
Fəridə

## RZALILAR


Rzalı
Süleyman
Hacı Kərim
Məşədi Oruc
İsmayıl
Süleyman
Əli
Rəhim
Abbasəli
Muxtar
Qurban
Xırda
Məhxanım
Gülxanım
Xəlil
Abdulkərim
Zeynəb
Şirin
Əziz
Simuzər
Oruc
Qaraş
Məhəmməd
Gövhər
Bahar
Bayram
Fikrət
Mədət
Əmir
Niftalı
Mahı
Sübə
Əli
Sənəm
Köçəri
Məsim
Məhluqə
Səttər
Lətifə

## ŞAH NAZARLILAR



## ŞAİRLİLƏR


Əli
Həsən
Əli
Məmmədhüseyn
Novruz
Qurban
Məhəmməd
K. Əsəd
Əbülfət
Əli
Xəlil
Göyçək
Simuzər
Hümbət
Binnət
Şamil
Süleyman
Heydər
Camal
Məhəmmədəli
İsgəndər
Abbas
Kərəm
Həndəm
Dilbər
Şamama
Əşrəf
Çoydar
K. Qasım
Cəlal
Şeyran
Gülgəz
Zinyət
Şəkər

## ŞAMOYLULAR


Qərib
Əli
Paşa
İbrahim
İsmayıl
Əliş
Şamo
Abdulla
İsmayıl
Balaxanım
Abuzəndə
Novruz
Cəbrayıl
Talıb
Həsən
Qumru
Balı
Əbdülxan
Gülü
Qoşunəli
Alı
İbrahim
Bayram
Səfxan

## ŞƏFİLƏR


Nəsib
Axund Şəfi
Molla Əli
Molla Avdı
Hacı Rəhim
Molla Şaban
Molla Həsən
Molla Mehdi
Nəcoy
Başxanım
Məhəmməd
Leylan
Aşıq Savad
Əmiraslan
Yusif
Rüstəm
Leylan
Kəklik
Pürüzə
Tutu
Zümrüd
Büsat
Yaqut
Məcid
Xətayı
Həlimə
Həbibə

## SARI ƏLİLƏR


Əli
Həsən
Nurməmməd
Çoban
Hüseyn
Namaz
Qurban
Qəndab
Gülgəz
Xıdır
Şahlar
Cəmilə
Tariyel
Vilayət
Qələm
Əhəd
Ələddin
Əziz
Yusif
Mübariz
Fəxrəddin
Afsaya
Şamil
Yadigar
Mürsəl
Mələk
Rafilə
Akif
Əfsəl
Füzuli
Firdovsi
Fəzli
Nuru
Röyzə
Firuzə
Bəsti
Ramiz
Məryəm
Rəhman
Sumaya
Maya
Raziya
Arzuman
Elçin
Məhluqə
Aqşin

## SEYİDLƏR


Seyid Nazaralı
Seyid Süleyman
Seyid Əhməd
Seyid Hüseyn
Tağı
Seyid Mirismayıl
Seyid Ağa
Gülsənəm
Mirağa
Miryaqub
Seyid Bayram
Mirsəyyaf
Seyid Musa
Seyid Gülsüm
Seyid Miri
Seyid Yusif
Mirağa
Seyid Əhməd
Seyid Maral
Seyid Sura
Seyid Xanım
Seyid Səkinə
Mirkazım
Seyid Sinəxanım
Seyid Sədət
Seyid Zərnigar
Seyid Tamam
Seyid Oruc
Seyid Fatma
Seyid Qələm
Seyid Ağa
Bənövşə
Mirağa
Mayaxanım
Seyid Əzim
Mirağa
Ziba
Mirəziz
Yasəmən
Xədicə
Nərgiz
Mirbala
Mirhəsən
Yasəmən
Nazilə
Mirəli
Seyid Əziz
Mirəziz
Zeynəb
Lalə

## TAĞI OĞLU MƏHƏRRƏMLİLƏR



## TAT KƏRİMLƏR



## TATARLILAR


Tatar
Hüseynəli
Əkbər
Hüseyn
Əli
Ələkbər
Məhəmməd
Hüseynəli
Əlimirzə
Əlimurad
Mirmurad
Qasım
Əlihəsən
Bavış
Kəklik
Əsgər
Əbdüləzim
Abbasəli
Piri
Kübrə
Şəmil
Möhsüm
İslam
Qədəmçə
Əli
Xədicə
İsgəndər
Fərman
Aqilə
Əziz
Gülçöhrə

## ZEYNALLILAR



# ƏDƏBİYYAT

1. Aqşin Hacızadə. Tikdim ki, izim qala. Bakı, "Elm və təhsil", 2021
2. Araz Yaquboğlu, "Daşkənd aşıqları və şairləri", Bakı, "Nurlan", 2008.
3. Aydın İsmayılov, Allahverdi Sultanov. "Biz tarix yazdıq ona ad verdik, onu yaşatdıq", "Ulu zirvə" qəzeti, № 19 (83), 2010, 09–15 dekabr, səh.2–3
4. Azərbaycan Sovet Ensiklopediyası: (10 cilddə) V cild: İtaliya–Kuba. Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası. Baş redaktor: C.B.Quliyev. 1981
5. "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti". İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007
6. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 1999-cu il. I hissə. Bakı: "Səda", 2000, səh. 68
7. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 2009-cu il. I cild. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2010, səh. 77
8. Azərbaycan Respublikası Xatirə Kitabı, III cild, Q hərfi, Respublika Xatirə Kitabı Redaksiyası, Bakı, 2001.
9. Azərbaycan Respublikası Xatirə Kitabı, VII cild, K, Q (Q... –Qaz.) hərfləri, Respublika Xatirə Kitabı Redaksiyası, Bakı, 2007.
10. Azərbaycan Respublikası Xatirə Kitabı, IX cild, M (M... – Məmmədov L.), Respublika Xatirə Kitabı Redaksiyası, Bakı, 2009. səh.256.
11. Azərbaycan Respublikası Xatirə Kitabı, XI cild, M (Mu... –N), "Respublika Xatirə Kitabı Redaksiyası". Bakı, 2011. səh.641–647.
12. "Daşkənd və daşkəndlilər". Bakı, "Hərbi Nəşriyyat", 2012
13. Əkbər Mirzəzadə. Adlarını tarixdə yazdıran kişilər. ("Bərdə taborları"). Bakı, "MTR Group Polygraphics", 2014
14. Əkbər Mirzəzadə. Beşinci Bərdə taboru. (I kitab). Bakı, "MTR Group", 2012
15. "Xocalı soyqırımının qurbanları" (I kitab). Bakı, "Şərq-Qərb", 1999
16. İbrahim Bayramov. "Qərbi Azərbaycan şivələrinin leksikası", Bakı, "Elm və təhsil", 2011

17. Nazir Əhmədli. Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər. Bakı, "Elm və təhsil", 2017. 292 səh.
18. Nazir Əhmədli. İrəvan əyalətinin kameral təsviri. IV cild. Göyçə və Dərəçiçək mahalları. Bakı, "Elm və təhsil", 2020. 432 səh.
19. Ömrün şəhidlik zirvəsi. Bakı, "Elm və təhsil", 2012.
20. Səyyad Şairov. "Yaralı Göyçə", Bakı, "Nurlan", 2006
21. Ziyədin Məhərrəmov. Unudulmaz sazlı-sözlü yurdumuz. Bakı, "Çaşıoğlu", 2001. 430 səh.

**Qərarlar, sərəncamlar, əmrlər**

22. Azərbaycan Respublikası Biləsuvar, Bərdə, Qusar, Yardımlı, Yevlax, Gədəbəy, Göyçay, Lənkəran, Masallı, Neftçala, Saatlı, Samux, Siyəzən və Xızı rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 may 1993-cü il tarixli 611 saylı Qərarı
23. Bərdə şəhərinin mənzil fondunun əsaslı təmiri işlərinin sürətləndirilməsinə və Yeni Daşkənd-Umudalılar kəndlərarası avtomobil yolunun yenidən qurulmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 13 mart 2015-ci il, № 1103.
24. Bərdə rayonunun Yeni Daşkənd-Umudalılar avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 26 iyul 2017-ci il, № 3129
25. Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 27 iyun 2013-cü il tarixli 2978 nömrəli Sərəncamı // https://e-qanun.az/framework/26074
26. Azərbaycan Texniki Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli 2395 nömrəli Sərəncamı // https://e-qanun.az/framework/46636
27. Azərbaycan Respublikasında təhsilin inkişafında və təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsində xüsusi xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azər-

baycan Respublikası Prezidentinin 30 sentyabr 2009-cu il tarixli 504 nömrəli Sərəncamı // https://e-qanun.az/framework/18397

28. Təltif barədə Azərbaycan Respublikası təhsil nazirinin 5 oktyabr 2015-ci il tarixli Əmri // http://www.anl.az/down/meqale/az_muellimi/2015/oktyabr/459853.htm
29. Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2018-ci il tarixli 520 №-li Sərəncamı // https://president.az/az/articles/view/30203

## İnternet resursları

30. ОБД «Мемориал» // https://obd-memorial.ru
31. «Память Народа» // https://pamyat-naroda.ru
32. «Подвиг народа» // http://podvignaroda.ru
33. Младший сержант Бабаев Максим Байрам-оглы // https://afgan-memorial.org/biography/babaev_maksim_bayram_ogly/
34. Nazim Mustafanın saytı // http://nazimmustafa.info
35. "www.az.wikipedia.org" internet saytı (Azad ensiklopediya)

## Söyləyicilər

1. Kərimova Güldəstə Məhərrəm qızı (1900)
2. Qocamanov Qocaman Camal oğlu (1923)
3. Hümbətov Abdulla İsmayıl oğlu (1926)
4. Kərimov Vərqa Hüseyn oğlu (1932)
5. Hümbətova Rəqiyə Fərrux qızı (1933)
6. Kərimova Xuraman Fəzi qızı (1935)
7. Əmrahov Haris Məhəmməd oğlu (1935)
8. Məhərrəmov Əmirxan Həsən oğlu (1936)
9. Məhərrəmova Güləvatın Şükür qızı (1940)
10. Qocamanov Yaqub Böyükkişi oğlu (1941)

11. Hacıyev Şiruyə Həsən oğlu (1942)
12. Kərimov Əmirtarix Hüseyn oğlu (1942)
13. Camalov Camal Qocaman oğlu (1951)
14. Süleymanov Vidadi Salman oğlu (1955)
15. Kərimov Təyyar Qəşəm oğlu (1956)
16. Əliyev Əliyar Əliş oğlu (1957)
17. Əliyev Əlövsət Əliş oğlu (1959)
18. Əliyev Fəzli Namaz oğlu (1960)
19. Qocamanov Ziyafət Böyükkişi oğlu (1961)
20. Cahangirov Sabir Məhəmməd oğlu (1962)
21. Piriyev Fəzair Məzahim oğlu (1963)
22. Babayev Rəbbin Kərim oğlu (1963)
23. Əsədov Vüqar İbrahim oğlu (1965)
24. Qasımov Rizvan Əkbər oğlu (1968)
25. Bayramov Firuz Əyyub oğlu (1969)
26. Hacızadə Aqşin Şiruyə oğlu (1969)
27. Əsədov Taryel Aftandil oğlu (1970)
28. Əliyev İbadət Məmməd oğlu (1971)
29. Alıyev Zöhrab Oruc oğlu (1973)
30. Hacıyev Araz Yaqub oğlu (1973)
31. Şıxəliyev Elmir Elxan oğlu (1973)
32. Hüseynov Yalçın Əlif oğlu (1975)
33. Məhərrəmov Həsən Əmirxan oğlu (1977)
34. Qocamanov Elgün Zöhrab oğlu (1984)
35. Həsənli Qılman İman oğlu (1986)

# KİTABIN İÇİNDƏKİLƏR


Ön söz (Lütfiyar Nəsibov) .......... 3
Deportasiya: 1948–1953-cü illər .......... 7
SSRİ Nazirlər Sovetinin Qərarı №4083 .......... 17
SSRİ Nazirlər Sovetinin Qərarı №754 .......... 20
1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı .......... 24
1953-cü ilin may-iyun aylarında Basarkeçər rayonunun Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuş ailələrin siyahısı .......... 27
Deportasiya: 1988–1989-cu illər .......... 50
Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Qərarı .......... 56
1988-ci ilin noyabr-dekabr aylarında Basarkeçər rayonunun Daşkənd kəndindən deportasiya olunmuş və Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmış ailələrin siyahısı .......... 58
Bərdə rayonunun Yeni Daşkənd kəndi .......... 64
Yeni Daşkənd kənd sovetliyi .......... 75
"Yeni həyat" kolxozu .......... 81
Yeni Daşkənd bələdiyyəsi .......... 93
Yeni Daşkəndin görməli yerləri .......... 96
Yeni Daşkəndin yolları .......... 105
Yeni Daşkənddə din .......... 110
Yeni Daşkənddə səhiyyə .......... 120
Uzunömürlülər .......... 125
Çoxuşaqlı analar .......... 128
İncəsənət .......... 132
Yeni Daşkənddə təhsil .......... 139
Məktəbin direktorları .......... 153
Müəllimlər .......... 160
Məzunlar .......... 175
Alimlər .......... 192
Rəhbər işçilər .......... 199
İş adamları .......... 221

İdmançılar........................................................................227
Müharibələr.......................................................................230
İkinci Dünya müharibəsi.......................................................230
İkinci Dünya müharibəsinin
Yeni Daşkənd kəndindən olan veteranları.................................231
Əfqanıstan müharibəsi.........................................................253
Birinci Qarabağ müharibəsi..................................................256
Şəhidlər..........................................................................258
Döyüşçülər......................................................................270
İkinci Qarabağ müharibəsi....................................................307
Şəhidlər..........................................................................308
Döyüşçülər......................................................................310
Yeni Daşkənddə ədəbi mühit..................................................348
Folklor............................................................................366
Aşıq havaları.....................................................................366
Atalar sözləri.....................................................................367
Bayatılar..........................................................................369
Bəs hanı?.........................................................................375
Əhvalatlar........................................................................390
Əhalinin məşğuliyyəti..........................................................408
Əkinçilik..........................................................................408
Heyvandarlıq.....................................................................408
Xalçaçılıq.........................................................................409
Keçəçilik..........................................................................409
Ustalar............................................................................410
Oyunlar...........................................................................413
Mətbəx............................................................................417
Dialektoloji lüğət...............................................................418
Alətlər.............................................................................421
Şəcərələr..........................................................................422
Ədəbiyyat.........................................................................474
Söyləyicilər.......................................................................476

**Araz Yaquboğlu**
**DAŞKƏNDDƏN YENİ DAŞKƏNDƏ**
**Bakı, “Elm və təhsil”, 2023**

“Elm və təhsil” nəşriyyatının direktoru:
*dosent* **Nəzakət Məmmədli**
Kompüter və dizayn: **Araz Yaquboğlu**
Texniki redaktor: **Arif Məmmədli**
Korrektor: **Qılman İman**

Yığılmağa verilmişdir: 07.03.2023
Çapa imzalanmışdır: 16.05.2023
Şərti çap vərəqi: 30 ç.v., Sifariş №130
Kağız formatı: 70x100, 1/16. Sayı: 200

Kitab **“Elm və təhsil”** nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
**Tel:** (+99412) 497-16-32, (+99450) 311-41-89
**Ünvan:** Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4